AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

## ORTA ƏSRLƏR

**ALTI CİLDDƏ**

# VI
## CİLD

**ŞƏRQ-QƏRB**
**BAKI 2008**

Baş redaktor: **Maisə Rəhimova**

Redaksiya heyəti: **İlyas Babayev**
**Əsədulla Cəfərov**
**Hidayət Cəfərov**
**Tarix Dostiyev**
**Vəli Əliyev**
**Arif Məmmədov**
**Nəcəf Müseyibli**

Məsul redaktor: **Tarix Dostiyev**

**ISBN 978-9952-448-28-3**
**947.54-dc22**
Arxeologiya- Azərbaycan

**Azərbaycan Arxeologiyası.** Altı cilddə, VI cild.
Bakı,"Şərq-Qərb", 2008, 632 səh.

Altıcilddlik "Azərbaycan arxeologiyası" kitabının VI cildi Azərbaycanın orta əsrlər arxeologiyası üzrə ilk ümumiləşdirici, kollektiv tədqiqat əsəridir. Təxminən bir əsr ərzində Azərbaycan ərazisində aparılan arxeoloji qazıntıların nəticələri, o cümlədən əldə edilmiş çoxsaylı və müxtəlif kateqoriyalı materiallar əsasında IX-XVIII əsrlərin yaşayış məskənlərinin tipləri, urbanizasiya prosesinin səviyyəsi, ona təsir edən amilləri müəyyənləşdirir. Eyni zamanda əsərdə istehkam tikililəri, ictimai, dini və yaşayış binaları, şəhər abadlığı səciyyələndirirlir, əhalinin təsərrüfat məşğuliyyəti, sənət istehsalı və ticarət əlaqələri təsdiq edilir, hər sənəti və dövrün silahları, məişət həyatı və mənəvi mədəniyyətlə bağlı məsələlər işıqlandırılır.

"Şərq-Qərb", 2008

## GİRİŞ

"Azərbaycan Arxeologiyası" çoxcildlik nəşrin hazırkı cildi IX-XVII əsrləri əhatə etməklə, Azərbaycan feodal cəmiyyətinin doqquz əsrlik tarixinin maddi məxəzlər əsasında tədqiqinə həsr olunmuşdur. Bu zaman kəsiyində feodal cəmiyyəti özünün yüksəliş, durğunluq, tənəzzül çağlarını keçirmişdir.

IX-XII əsrlər feodal münasibətlərin dərinləşməsi, təsərrüfat həyatında, sənətkarlığın inkişafında, ticarət əlaqələrinin genişlənməsində böyük tərəqqi dövrü kimi qiymətləndirilir. Tarixin bu dönəmi, urbanizasiya prosesinin sürətlənməsi, islamın hakim dinə çevrilməsi və mənəviyyata dərin təsiri ilə səciyyələnir. İslamın yayılması ölkənin şimal və cənub bölgələrində maddi və mənəvi mədəniyyətindəki fərqləri aradan qaldırmağa, vahid, ümumazərbaycan mədəniyyətinin formalaşmasına imkan verirdi.

XIII-XVII əsrlərdə isə feodal münasibətlər əvvəlcə durğunluq, sonra tənəzzül keçirir. İqtisadiyyatın, şəhərlərin dirçəlişinə səylər göstərilsə də, feodal cəmiyyətini durğunluqdan çıxarmaq, onun yüksəlişini təmin etmək mümkün olmur. Tədqiq olunan dövrün sonunda şəhərlərin aqrarlaşması başlanılır, maddi və mənəvi mədəniyyətdə çökmə müşahidə olunur.

Qeyd olunan bu iki mərhələni ayıran hadisə monqol yürüşləri və Azərbaycanda monqol ağalığının bərqarar olmasıdır.

Babək xürrəminin rəhbərliyi ilə ərəb ağalığına qarşı azadlıq mübarizəsi xilafətin əsaslarına zərbə endirərək, ərəb imperiyasının parçalanması prosesini sürətləndirdi. IX-X əsrin əvvələrində Xilafətin ucqarlarında müstəqilləşmək meylləri gücləndi. Mərkəzi hakimiyyətdən yarımasılı və ya müstəqil feodal dövlətləri yaranmağa başladı. Bu dövlətlərin başçıları tədricən Xilafətin xəzinəsinə göndərilən vergilərin məbləğini azaldır, onu ödəməkdən imtina edir və beləliklə də müstəqillik əldə edərək, xilafətin yalnız dini rəhbərliyini qəbul edirlər (Azərbaycan tarixi, 1998, səh 8).

Belə yerli feodal dövlətlərindən ölkənin şimal rayonlarını əhatə edən Şirvanşahları (861-1538), Cənubi Azərbaycanda Saciləri, Salariləri, Rəvvadiləri göstərmək olar. Arran və bəzi Cənubi Azərbaycan torpaqlarını əhatə edən Şəddadilər dövləti də bu qəbildəndir. Bu dövlətlər xalqımızın orta çağ tarixində mühüm rol

oynamışdır. Bunlardan əlavə, bir neçə kiçik feodal dövlət qurumları da yaranmışdır. Lakin onlar çox uzunömürlü olmayıb, siyasi vəziyyətindən asılı olaraq tarix səhnəsindən çıxmış və yaxud qonşu güclü dövlətlərin tərkibinə qatılmışdır. Sacilər dövlətinin, qısa müddət də olsa, bütün Azərbaycan topaqlarının öz sərhədləri daxilində birləşməsi mütərəqqi hal idi.

XI əsrin II yarısında Cənubi Azərbaycan və Arran Böyük Səlcuqlar dövlətinə daxil edilir. Şirvanşahlar səlcuqlu sultanlarından vassal asılılığını qəbul etməklə öz dövlətini qoruyub saxlayır. Bu dövrdə Azərbaycan ərzisində cərəyan edən etno-mədəni proseslərin nəticəsində türkdilli Azərbaycan xalqının formalaşması prosesi sona çatır (Azərbaycan tarixi, 1998, səh.9).

Böyük Səlcuqlar imperiyasında feodallar arasında çəkişmələrin gücləndiyi, sabitliyin pozulduğu şəraitdə, XII əsrin birinci yarasında Arranda Azərbaycan Atabəyləri dövləti yüksəlir. Tədricən, Marağa istisna olmaqla, Cənubi Azərbaycan torpaqlarını da öz tərkibinə birləşdirir. Həmin dövrdə Şirvanşahlar müstəqilləşir və dövlətin nüfuzu artır. Azərbaycan torpaqlarını birləşdirmək uğrunda Şirvanşahların və Azərbaycan Atabəylərinin apardıqları mübarizə də faydalı idi. Azərbaycan Atabəylərinə hətta İraq Səlcuq sultanlığının idarəçiliyini nəzarət altına almaq müyəssər olmuşdu. Azərbaycan Atabəylərinin paytaxtı Gəncə, Naxçıvan, Təbriz şəhərləri, Şirvanşahların paytaxtı isə Şamaxı və Bakı şəhərləri idi.

IX-X əsrlərdən başlayaraq Azərbaycan dövlətlərinin qonşu ölkələrlə əlaqələri daha da genişlənir. Ölkədə mənəvi mədəniyyət yüksəlir və XII əsrdə özünün zirvə səviyyəsinə çatır. Ölkədə islam dini getdikcə kök salmağa başlayır, bəzi dağlıq rayonlarında –Şəki-Zaqatala və Dağlıq Qarabağ bölgələrində xristianlıq hələ qalmaqda idi.

Bütün bu sosial-iqtisadi, siyasi, mədəni və dini amillər Azərbaycan təsərrüfat həyatının ümumi yüksəlişini təmin edirdi. Məhsuldar qüvvələrin inkişafı sürətlənir, əkin sahələri genişlənir, oturaq maldarlıq təsərrüfat həyatında özünə möhkəm yer tuturdu. Kənd təsərrüfatı ilə yanaşı sənət istehsalı, xüsusilə şəhər sənətkarlığı durmadan artır və XII yüzildə özünün yüksək inkişaf səviyyəsinə çatır. Ölkədə yaşayış məskənlərinin sayı çoxalır, şəhərlərin daxili və xarici quruluşunda dəyişikliklər yaranır, ticarətin inkişafı ölkədə yeni yol salınması, karvansara və körpü tikintisi işini gücləndirirdi. İslamın möhkəmlənməsi ilə Azərbaycan mədəniyyətində ümummüsəlman ənənələri özünü qabarıq büruzə verir, xüsusilə maddi mədəniyyətdə köklü dəyişikliklər yaranırdı. Müsəlman mədəniyyəti üçün səciyyəvi olan memarlıq tipləri, geyimlər intişar edir, əhalinin məişətində müəyyən dəyişikliklər baş verirdi. Ərəb əlifbası və ərəb dili geniş yayılır, artıq bu dövrdə yerli

əhali ərəb dilini yadellilərin dili kimi deyil, müqəddəs kitab, elm və mədəniyyət, ünsiyyət dili kimi qəbul edirdi.

Azərbaycanda islamın yayılması ilə müsəlman qaydasında yeni dəfnetmə adəti yarandı. Müsəlman dəfnetmə adəti ilə birlikdə yeni tip qəbirüstü xatirə abidələri – sarkofak, baş və sinə daşları yayıldı. Onların özlərində ərəb dilində epitafiya, oyma və ya qabartma üsulu ilə nəbati, həndəsi naxışlar həkk olunurdu. Səlcuqlar dövründə qəbirüstü abidələrinin daha mürəkkəb və mükəmməl növü olan qülləvari türbələr meydana çıxdı və sonralar geniş yayıldı.

Azərbaycanın yüksələn xətt üzrə sosial-iqtisadi, siyasi və mədəni inkişafı monqol işğalı ilə dayandırılmış oldu. Monqol istilası nəticəsində XIII əsrin birinci yarısında Yaxın və Orta Şərq siyasi xəritəsi əsaslı şəkildə dəyişdi. Qonşu ölkələr kimi Azərbaycan da monqol əsarəti altına düşdü və Dərbəndən Fars körfəzinə qədər geniş əraziyə malik beşinci monqol ulusuna – Hülakülər (Elxanilər) dövlətinin tərkibinə qatıldı. Azərbaycan bu nəhəng dövlətin mərkəzi vilayəti, Təbriz isə onun paytaxt şəhəri idi. Azərbaycan torpaqlarına digər monqol dövlətlərinin – Qızıl Ordanın iddia etməsi bir əsrədək davam etmiş qarşıdurma və müharibələrə səbəb oldu. Qızıl Orda öz məqsədlərini gerçəkləşdirmək üçün dəfələrlə Azərbaycana hərbi yürüşlər təşkil edir, ölkəni xüsusilə Şirvan torpaqlarını soyub talayır, iqtisadiyyata ağır zərbə vururdular (Azərbaycan tarixi, 1999, səh. 26-29).

Müharibələr və köçəri hərbi əyanların yerli əhalini sıxışdırması ölkədə, xüsusilə də Arranda təsərrüfat həyatının və şəhər mədəniyyətinin inkişafına mənfi təsir göstərən amillərdən biri idi. Ağır vergi yükü və süni suvarma rayonlarda irriqasiya qurğularının dağılması kənd təsərrüfatına ağır zərbə endirmişdi. Şəhər sənətkarlığı və ticarət tənəzzül həyatı keçirirdi. Bunun nəticəsi idi ki, monqol istilasından sonra Azərbaycanda monqol yürüşlərinədək becərilən torpaqların yalnız onda biri təyinatı üzrə istifadə olunurdu. Bir çox zəngin vilayətlər boşalmış, çiçəklənən şəhərlər xarabalığa çevrilmişdi.

Qazan xan köçəri monqol əyanlarının müqavimətini qıraraq ölkə iqtisadiyyatının dirçəlməsinə təkan verən zəruri islahatlar keçirirdi və mərkəzi hakimiyyəti gücləndirdi, İslamı dövlət dini elan etdi, sosial-iqtisadi və mədəni inkişafın sürətlənməsi üçün hüquqi zəmin yaratdı. Dövrün mühüm əlamətlərindən biri iqtisadiyyatın dirçəlişində, xüsusilə şəhərsalmada qul əməyindən geniş istifadə olunması idi.

Qazan xanın islahatları nəticəsində ölkədə şəhər həyatı, sənət istehsalı, daxili ticarət canlanmış, beynəlxalq ticarət əlaqələri genişlənmişdi. Təbriz şəhəri Şərqin ən böyük ticarət mərkəzlərindən birinə çevrilmişdi. Yeni şəhər salınmışdı. Kənd nahiyələri canlanmış, xüsusilə dağətəyi və dağlıq ərazilərdə çoxlu yeni kəndlər

salınmışdı. Karvan yollarının təhlükəsizliyinə diqqət artırılmış, çaylar üzərində yeni körpülər, ticarət magistrallarında karvansaralar inşa olunmuşdu.

Qazan xanın islahatı Hülakilər dövlətinin süqutunu uzatdı, lakin onun qarşısını ala bilmədi. Cəlairilər sülaləsinin hakimiyyəti dövründə də sabitliyi bərpa etmək mümkün olmadı. XIV əsrin sonu və XV əsrin əvvəllərində Azərbaycanın əsas ərazisi Cəlairilərin idarəçiliyindən çıxaraq Teymurilərin, bir sıra yerli feodalların və Qaraqoyunluların hakimiyyəti altına düşdü. Belə bir keşməkeşli, ziddiyyətli dövrdə Azərbaycanda meydana çıxan hürufilik təriqəti qonşu ölkələrə də yayıldı.

XV əsrin 30-80-ci illərdə sabitliyin bərqərar olması nəticəsində Azərbaycan mədəniyyətində nəzərə çarpacaq irəliləyişlər baş verirdi, şəhərlərdə, ilk növbədə, paytaxt şəhərlərdə quruculuq işləri genişlənirdi. Şirvanşahların iqamətgahının Bakıya köçürülməsi burada şəhərsalma fəaliyyətinin intensivləşməsi, bir sıra monumental binaların, ilk növbədə saray kompleksinin inşası, sənət istehsalı və ticarətin inkişafı, mədəni həyatın canlanması ilə əlamətdar oldu.

XV əsrin mənəvi həyatında mistik-panteist səciyyəli ideoloji cərəyanların geniş yayılması Ərdəbil şeyxlərinin nüfuzunun əhali arasında güclənməsi və yüzilliyin ikinci yarısından şeyxlərin hərbi-siyasi fəallığının artması, onların hakimiyyət uğrunda mübarizəsi Səfəvilər dövlətinin yaranması ilə sonuclandı. Ölkə ərazisinin vahid dövlət tərkibində birləşməsi mütərəqqi bir hadisə idi.

1514-cü ildən başlanan, fasilələrlə bir əsrdən artıq davam edən Səfəvi-Osmanlı müharibələri ölkənin sosial-iqtisadi və mədəni inkişafına ciddi zərbə vurdu, şəhər və kəndlərin xarabazara çevrilməsinə, əhalinin qırılmasına, bir çox mədəniyyət abidələrinin məhvinə səbəb oldu. Sənət istehsalında durğunluq, sonra isə tənəzzül baş verdi. Daxili ticarətin həcmi azaldı. Xarici ticarət əlaqələri məhdudlaşsa da, XVI-XVII əsrlərdə Azərbaycan Rusiya, Avropa və Asiya ölkələri ilə ticarət əlaqələri saxlamaqda idi.

XVI-XVII əsrlərdə hərbi-siyasi durum, sənət istehsalının və daxili ticarətin həcminin məhdudlaşması şəhər mədəniyyətinin tənəzzülünü, şəhərlərin aqrarlaşması prosesini sürətləndirdi.

Bütün bu mühüm hadisələrin təsiri çoxsaylı abidələrdə yaşayış yerlərində - kənd və şəhər xarabalıqlarında, qalalarda, müdafiə istehkamlarında, yaşayış binaları qalıqlarında, saraylarda, ictimai, təsərrüfat və dini tikililərdə, karvansara, körpü, sərdabə və türbələrdə, qəbiristanlıqlarda və s. aydın izlənilir. Bu abidələrin qalıqlarına Azərbaycanın bütün ərazisində – dağ, dağətəyi rayonlarında hər addımbaşı rast gəlmək mümkündür.

Bu dövrdə yazılı qaynaqların kəmiyyət və keyfiyyət etibarı ilə artmasına, yüksəlməsinə baxmayaraq Azərbaycan feodal cəmiyyətinin problemlərinin həllində orta əsr arxeoloji abidələrinin tədqiqinin müstəsna əhəmiyyəti vardır. Xüsusilə Azərbaycan orta əsr şəhərlərinin, şəhər mədəniyyətinin araşdırılmasında arxeologiyanın rolu böyükdür.

Keçən əsrdə ondan artıq orta əsr şəhəri arxeoloji qazıntılarla öyrənilmiş, şəhərtipli iri yaşayış yerlərinin arxeoloji tədqiqinə başlanmışdır. Məhz, arxeoloji tədqiqatların nəticəsi olaraq yazılı qaynaqlarda adı çəkilən bir çox şəhərlərin yerləşdiyi məkan müəyyənləşdirilmiş, adları yazılı mənbələrdə çəkilməyən bəzi şəhərlərin xarabalıqları aşkarlanmışdır. Arxeoloji tədqiqatlar Azərbaycanın orta əsr şəhərlərinin Şərqin digər müsəlman şəhərlərinə oxşarlığını təsdiqləməklə onların topoqrafiyası, görünüşü haqqında təsəvvürlərimizi genişləndirmişdir. Arxeoloji axtarış və qazıntılar şəhərlərin müdafiə sisteminə dair zəngin faktik materiallar verməklə, həm də istehkam tikililərinin etibarlı olduğunu, dövrün hərb sənətinin tələblərinə cavab verdiyini göstərmişdir. Arxeoloji qazıntılar şəhərlərin istehsal, mədəni və intellektual potensialın cəmləşdiyi, cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərdiyi mühüm mərkəzlər olduğunu faktik materiallarla təsdiqləmişdir. Kənd tipli yaşayış yerləri nisbətən zəif öyrənilmişdir. Lakin son onillikdə aparılan arxeoloji tədqiqatlar bu sahədəki boşluğu aradan qaldırmağa imkan vermiş, Azərbaycan orta əsr kəndinin səciyyəvi əlamətlərini müəyyənləşdirmək üçün maddi dəlillər əldə olunmuşdur.

Azərbaycanın orta əsrlər dövrü iqtisadiyyatının öyrənilməsi sahəsində də arxeologiyanın əhəmiyyəti böyükdür. Maddi məxəzlərin hərtərəfli təhlili əsasında kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafının başlıca aspektlərini aydınlaşdırmaq mümkün olmuşdur. Çoxsaylı faktik materiallar kənd təsərrüfatında əkinçilik və heyvandarlığın aparıcı sahələr olduğunu təsdiqləmişdir.

Sənətkarlığın inkişaf səviyyəsini, sənətdaxili ixtisaslaşmanı, ayrı-ayrı sənət sahələrinin durumunu səciyyələndirmək nöqteyi-nəzərindən arxeologiyanın nailiyyətləri böyükdür. Orta əsr abidələrində aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış emalatxana qalıqları, istehsal tullantıları, zəngin sənətkarlıq məmulatı sənət istehsalını bütövlükdə, eləcə də onun ayrı-ayrı sahələrini, o cümlədən metallişləmə, dulusçuluq, şüşə istehsalı və s. səciyyələndirməyə, inkişaf dinamikasını izləməyə imkan vermişdir. Maddi məxəzlərin təhlili Azərbaycan sənətkarlığının geri qalmadığını, bəzi sahələrdə hətta qabaqcıl ölkələri geri qoyduğunu göstərir.

Arxeoloji tədqiqatlar şəhərlər ətrafında kənd nahiyyələrinin mövcudluğu və onların qarşılıqlı əlaqələri haqqında tutarlı fikirlər söyləməyə imkan vermişdir.

Arxeoloji materiallar və numizmatik dəlillərlə orta əsrlərin ticarət əlaqələrinin müxtəlif mərhələlərində istiqamətləri, xarakteri, başlıca və idxal malları müəyyənləşdirilmişdir.

Arxeoloji qazıntılar nəticəsində şəhər və kənd məişətinin öyrənilməsi üçün xeyli faktik materiallar əldə olunmuşdur.

Arxeoloji qazıntılar həm də Azərbaycanın orta əsr mənəvi mədəniyyətinin bir çox aspektlərini işıqlandıran dəlillər vermişdir. Müsəlman dünyasının şimalında, xristian və

bütpərəst sivilizasiyalarla təmas məkanında yerləşən Azərbaycan islam dininin, müsəlman mədəniyyətinin Qafqazda yayılmasında və inkişafında önəmli rol oynamışdır. Arxeoloji materiallar Azərbaycan incəsənətinin, xüsusilə dekorativ tətbiqi sənətlərin ümummüsəlman incəsənəti üçün səciyyəvi əlamətləri daşımaqla yanaşı, həm də sırf yerli, məhəlli xüsusiyyətlərə malik olduğunu göstərmişdir.

Aparılan arxeoloji qazıntılar əsasında Azərbaycanın IX-XVII əsrlər maddi mədəniyyət abidələrinin kompleks şəklində öyrənərək, yazılı qaynaqlarda əksini tapmış bir çox tarixi faktlar üzə çıxarmaq, ümumiləşdirmələr aparmaq, orta əsr arxeologiyasının inkişaf yollarını göstərmək, arxeologiya elminin tutduğu mövqeyi aydınlaşdırmaq və mümkün perspektivləri şərh etmək bu kitabda qarşıya məqsəd qoyulmuşdur. Qısa şəkildə həmin dövr abidələrinin arxeoloji tədqiqindən, qazıntı aparılmış şəhər, kənd, qala və digər yaşayış yerlərindən, qəbir abidələrindən bəhs olunur, onların arxeoloji səciyyəsi verilir. Müdafiə istehkamları, şəhər və kənd tikintiləri, inşiaat texnikası və memarlığı əhatə olunur. Kitabda sənətkarlıq və ticarətə, əmək alətlərinə, silah və döyüş ləvazimatlarına, saxsı məmulatına, məişət əşyalarına, bəzəklərə, qəbir abidələrinə, dini tikintilərə, incəsənət əşyalarına, sikkələrə, epiqrafik abidələrə, bir sözlə, arxeoloji qazıntılarda aşkara çıxarılan zəngin maddi mədəniyyətin bütün növlərinə diqqət yetirilir.

Müasir sərhədlər Azərbaycanın tarixi ərazisinin bir neçə dövlətin tərkibinə qatılmasını şərtləndirdiyindən Azərbaycanın orta əsr arxeoloji abidələri həm də qonşu dövlətlərin ərazisində yerləşir. Azərbaycanın Dərbənd şəhəri Rusiya Federasiyasının, bir sıra abidələr Ermənistan və Gürcüstan Respublikasının, Cənubi Azərbaycan abidələri isə İran İslam Respublikasının sərhədləri daxilindədir. Azərbaycanın orta əsr tarix və arxeologiyasının dolğun mənzərəsini yaratmaq üçün Azərbaycan Respublikası ərazisində arxeoloji komplekslərlə yanaşı, müəyyən dərəcədə qonşu dövlətlərin sərhədləri daxilində qalan Azərbaycanın orta əsr abidələri də tədqiqata cəlb edilmişdir.

Kitabın iki hissəyə bölünməsi və I hissə üçün IX-XIII əsrin əvvəlləri, II hissə üçün XIII əsrin ikinci yarısının – XVII əsrin xronoloji çərçivəsinin müəyyənləşdirilməsi feodal cəmiyyətində baş vermiş keyfiyyət dəyişiklikləri ilə bağlı olub, sosial-iqtisadi və mədəni həyatda cərəyan edən proseslərin arxeoloji abidələrdə öz əksini qabarıq şəkildə tapması ilə müəyyənləşdirilmişdir. Bu prinsip yalnız “Azərbaycanın orta əsr abidələrinin arxeoloji öyrənilməsi tarixi” adlanan birinci fəsildə pozulmuşdur. I hissədə yerləşdirilmiş həmin fəsildə IX-XIII əsrin əvvəllərində aid arxeoloji abidələrlə yanaşı, həm də XII əsrin ikinci yarısı - XVII əsr abidələrinin öyrənilməsi tarixindən də bəhs olunmuşdur. Belə ki, arxeoloji qazıntılar aparılmış orta əsr abidələrinin böyük əksəriyyətində həm IX-XIII əsrin əvvəlləri, həm də XIII əsrin ikinci yarısı – XVII əsr təbəqələri tədqiq edilmişdir. Sırf son orta əsr arxeoloji abidələrində isə hələlik geniş arxeoloji qazıntılar aparılmamışdır.

Bunu da xatırladaq ki, ölkəmizin ayrı-ayrı bölgələrinin, eləcə də orta əsr abidələrinin müxtəlif növlərinin arxeoloji baxımından eyni dərəcədə tədqiqata cəlb olunmaması Ümumazərbaycan miqyasında vahid kompozasiya sxemi yaratmaqda çətinlik törətmişdir.

Oxucuların mühakiməsinə təqdim olunan bu cilddə orta arxeologiyanın nailiyyət və çatışmazlıqları özünü büruzə verir. Problemin mükəmməl tədqiq olunmuş məsələləri həm mətndə, həm də illüstrasiyalarda öz layiqli əksini tapdığı halda, zəif araşdırılmış məsələlər yetərincə işıqlandırılmamışdır. Bütövlükdə, hazırki cild orta əsrlər arxeologiyasının XXI əsrin əvvəllərinə olan vəziyyətini əks etdirir, görülmüş işlərə yekun vurur və həllini gözləyən aktual problemləri üzə çıxarır.

Hazırki kitab uzun illərin gərgin əməyinin nəticəsi olaraq yazılıb tamamlanmışdır. Təəssüf hissi ilə qeyd etməliyik ki, keçən müddət ərzində müəlliflər kollektivinin üzvlərindən Azərbaycan MEA müxbir üzvü, proffesor Qara Əhmədov, tarix elmləri namizədləri Fərhad ibrahimov və Rafael Əhmədov dünyasını dəyişmişlər. Onların ruhu şad olsun. Redaktə prosesində adları çəkilən müəlliflərin yazdıqları mətnin əsas müddəalarına toxunmadan yeni arxeoloji materialların cəlb olunması ilə əlaqədar bəzi dəyişikliklər və əlavələr edilmişdir. Xatırladaq ki, arxeoloji tədqiqatların mühüm xüsusiyyətlərindən biri qazıntıların miqyasına uyğun olaraq materialların daim artması, əvvəllər məlum olmayan faktik materialların meydana çıxması və bu onları vaxtaşırı təhlil edərək sistemləşdirmək, tarixi mənbəyə çevirmək zərurətidir.

Cildin mətni aşağdakı müəlliflər tərəfindən yazılmışdır:

Giriş – *Azərbaycan MEA müxbir üzvü, professor Qara Əhmədov, tarix elmləri doktoru Tarix Dostiyev*

I hissə (IX-XII əsrin birinci yarısı)

I fəsil. Azərbaycan orta əsr abidələrinin arxeoloji öyrənilməsinin tarixi – tarix elmləri doktoru *Tarix Dostiyev*

II fəsil. Yaşayış yerləri. *Qara Əhmədov, Tarix Dostiyev*

III fəsil. Təsərrüfat, sənətkarlıq və ticarət – *Qara Əhmədov*

IV fəsil. Mədəni-məişət abidələri

Məişət avadanlığı - *Qara Əhmədov*

İncəsənət – *tarix elmləri namizədi Fərhad İbrahimov*

Bəzəklər – *tarix elmləri namizədi Badisəba Rəcəbova*

Epiqrafika – *Fərhad İbrahimov*

V fəsil. Dini, xatirə və qəbir abidələri – *Fərhad İbrahimov*

II hissə (XIII ikinci yarısı - XVII əsr)

VI fəsil. Yaşayış yerləri

Şəhər yerləri – *Tarix Dostiyev*

Qalalar və qəsrlər – *Tarix Dostiyev, Sevda Hüseynova*
Kənd tipli yaşayış yerləri – *Sevda Hüseynova*
VII fəsil. *Təsərrüfat, sənətkarlıq və ticarət*
Təsərrüfat – *Tarix Dostiyev*
Sənətkarlıq:
Metalişləmə – *Tarix Dostiyev*
Dulusçuluq – *Tarix Dostiyev, tarix elmlər namizədi Qafar Cəbiyev*
Şüşə istehsalı – *Tarix Dostiyev*
Daşişləmə və digər sənət sahələri – *Tarix Dostiyev*
Ticarət – *Tarix Dostiyev*
VIII fəsil. Mədəni – məişət abidələri
Məişət qurğuları və avadanlığı – *Tarix Dostiyev*
İncəsənət – *tarix elmlər namizədi Rəfail Əhmədov*
Bəzəklər– *tarix elmlər namizədi Badisəba Rəcəbova*
Epiqrafika – *Tarix Dostiyev*
IX fəsil. Dini, xatirə və qəbir abidələri – *Tarix Dostiyev*
Nəticə - *Qara Əhmədov, Tarix Dostiyev*

# BİRİNCİ HİSSƏ

### *(IX-XIII əsrin əvvəlləri)*

## I FƏSİL

## AZƏRBAYCANIN ORTA ƏSR ABİDƏLƏRİNİN ARXEOLOJİ ÖYRƏNİLMƏSİNİN TARİXİ

Azərbaycanın orta əsr abidələrinin arxeoloji öyrənilməsi tarixini xarakter və əhatə dairəsinə görə dörd mərhələyə bölmək olar:

1. XX əsrin əvvəllərinə qədərki dövr.
2. 1918-1945-ci illər.
3. 1946-1991-ci illər.
4. XX əsrin sonu - XXI əsrin ilk illəri.

Azərbaycanın orta əsr abidələri haqqında, az da olsa, məlumata XVIII-XIX əsrlərin müəlliflərinin əsərlərində rast gəlirik. XVIII əsrin 20-ci illərində Xəzəryanı bölgəyə rus qoşunlarının qəsbkar yürüşü zamanı Dərbənd şəhərində olan I Pyotr şəhərin tarixi abidələri ilə maraqlanmış, onu müşayiət edən alimlərə - Kantemir, Herber və Soymonova Dərbəndin qədim abidələrinin tədqiq və təsvir edilməsi haqqında göstəriş vermişdir. Kantemirin topladığı materialları və Dərbənd şəhərinin istehkamlarının planını 1728-ci ildə F.Z.Bayer çap etdirmişdir. Orta əsr Bayıl qəsrinin qeydə alınması da XVIII əsrin 20-ci illərinə təsadüf edir. 1723-cü ildə, rus hərbi donanması Bakı buxtasında olarkən, F.İ.Soymanov su altında qalmış tikinti qalıqlarını müşahidə etmiş, onlar haqqında məlumat verərək bu abidənin karvansara xarabalıqları olması ehtimalını irəli sürmüşdür (Г.Ф.Мюллер,1753). 1807-ci ildə Bakı buxtasının xəritəsini tərtib edən coğrafiyaçı Mixaylov ilk dəfə olaraq su altında qalmış tikinti qalıqlarının istehkam qalıqları olmasını bildirmişdir (А.И.Михалевский, 1930). 1770-1774-cü illərdə akademik S.Q.Qmelin Xəzər dənizinin qərb sahillərindəki əraziləri tədqiq etmiş, yazdığı əsərində Azərbaycanın da bir sıra orta əsr arxeoloji və memarlıq abidələrinin təsvirini vermişdir (С.Г.Гмелин, 1785).

Orta əsr şəhərgahları, istehkamları, yaşayış yerləri haqqında məlumat toplayan, onları şərh etməyə cəhd göstərən ilk tədqiqatçılardan biri A.A.Bakıxanovdur. O, Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq "Gülüstani-İrəm" əsərində orta əsr problemlərini araşdırarkən yazılı qaynaqlarla yanaşı, zəngin informasiya potensialına malik maddi mədəniyyət abidələrindən dəyərli mənbə kimi istifadə etmişdir

(A.A.Bakıxanov, 1951). Bərdə, Gəncə, Şəmkir, Beyləqan, Şabran, Qəbələ şəhər xarabalıqları, Bayıl qəsri onu daha çox maraqlandırmışdır. O, Bakı ilə Salyan arasında, sahildən 50 verst aralıda Xəzərin suları altında şəhər xarabalıqlarının olduğunu xəbər vermiş, hətta iki yelkənli qayıq icarəyə götürərək həmin abidəni tədqiq etməyə cəhd göstərmişdir (Q.İsmayılzadə, 1999; В.А.Квачидзе, 2001).

XIX əsrin ortalarında və ikinci yarısında N.V.Xanıkov, B.A.Dorn, X.D.Fren kimi görkəmli şərqşünaslar Azərbaycanın orta əsr abidələri ilə maraqlanmışlar. B.A.Dornun Şirvanın, N.V.Xanıkovun Naxçıvan abidələri üzrə tədqiqatları xüsusilə diqqətəlayiqdir. 1852-ci ildə N.V.Xanıkov Xaraba-Gilanda olmuş, şəhər xarabalıqlarını nəzərdən keçirmiş, üzərində hicri 712-ci il tarixi göstərilmiş daş kitabə tapmış, ilkin tədqiqatlar əsasında belə qənaətə gəlmişdir ki, artıq hicri 712-ci ildə əhali şəhəri tərk etmiş, o xarabalığa çevrilmişdi (A.Quliyeva, 1997, səh. 84). N.E.Engelqart, İ.Şopen, S.P.Zelinski, K.A.Nikitinin əsərlərində də Naxçıvan diyarının orta əsr abidələrinin təsvirinə rast gəlirik (Н.Э.Энгелгарт, 1851; С.П.Зелинкий, 1880; К.А.НИКИТИН, 1882). Pir Hüseyn xanəgahının ilkin tədqiqi də bu dövrə təsadüf edir. 1858-ci ildə şərqşünas alim, numizmat İ.Bartolemey xanəgaha səfər etmiş, abidə, xüsusilə də onun kaşı bəzəyi tədqiqatçıda böyük maraq doğurmuşdur (В.А.Крачковская, 1946).

1871-ci ildə Tiflisdə yaradılan Qafqaz Arxeoloji Komitəsi regionun arxeoloji tədqiqini qarşıya məqsəd qoysa da, bu sahədə dönüş yarada bilməmişdir. 1873-cü ildə təşkil edilmiş, Qafqazın məşhur abidələrini dağılmaq və qarətdən qorumaq, qədim abidələri tədqiq etməklə arxeoloji materiallar toplamaq kimi bir missiyanı qarşısına məqsəd qoyan Qafqaz Arxeologiyasının Həvəskarları Cəmiyyətinin də Azərbaycanın arxeoloji irsinə münasibəti təəssüf hissi doğurur. Cəmiyyətin açılışında çıxış edən sədrin köməkçisi Berje bildirir ki, "Lənkəran, Gəncə və Nuxa qəzaları arxeoloji baxımdan maraq doğurmur" (Ад.Берже, 1875, стр.10). 1881-ci ildə Tiflisdə keçirilmiş V arxeoloji qurultaya hazırlıqla əlaqədar bu işdə müəyyən canlanma olmuşdur. 1879-cu ildə İ.S.Polyakov Naxçıvanda, N.O.Selosani isə Bərdə şəhəri xarabalıqları və onun ətraf ərazilərində arxeoloji tədqiqat işləri aparmışdır (T.Ə.Bünyadov, 1960, səh. 9).

XIX əsrin sonunda, 1896-cı ildə arxeoloq Dümberq Xaraba-Gilan şəhər xarabalıqlarında olmuş və üzərində ərəb əlifbası ilə kitabə həkk edilmiş iki daş lövhəni Tiflisə apararaq Qafqaz muzeyinə təhvil vermişdir (Б.И.Ибрагимов, 2000, стр. 17).

Cənubi Azərbaycanın orta əsr abidələrinin kəşfiyyat səciyyəli ilk arxeoloji tədqiqi də XIX əsrə təsadüf edir. 1819-cu ildə ser Robert Ker Porter Təxti Süleyman şəhərgahında olmuş və ilk dəfə onun təsvirini elmi dövriyyəyə daxil etmişdir. XIX

əsrin ilk qərinəsində Muğan düzünü və Xəzər dənizinin cənub sahillərini tədqiq edən U.Monteiz Ultan qalasına səfər etmiş, bu abidəni qeydə almışdır (W.Monteith, 1833).

XX əsrin ilk onilliklərində Azərbaycanın bəzi orta əsr abidələrində kəşfiyyat xarakterli tədqiqatlar aparılmış, orta əsr şəhərləri və yaşayış yerləri haqqında bir neçə əsər işıq üzü görmüşdür. Keçən əsrin ilk illərində Xaraba-Gilan şəhər yerinə səfər edən Y.Lalayan burada kəşfiyyat xarakterli tədqiqat aparıb şəhər xarabalıqlarının təsvirlərindən ibarət albom tərtib etmişdir (Б.И.Ибрагимов, 2000,. стр.17). 1913-cü ilin dekabrında Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü S.V.Ter-Avetisyan Xaraba-Gilan şəhər xarabalıqlarında ilk arxeoloji qazıntıları aparmışdır. Abidənin topoqrafiyasını müşahidə edən S.V.Ter Avetisyan onun təxmini planını tərtib etmiş, şəhər yerinin səkkiz sahəsində kiçik qazıntılar aparmış, əldə etdiyi materialları, eləcə də üzərində ərəb əlifbası ilə kitabə həkk edilmiş, çəkisi 80 pud (1280 kq) olan ağ mərmərdən iki məzar daşını Qafqaz muzeyinə təhvil vermişdir (С.В.Тер Аветисян, 1927, стр. 169). Bir neçə gün ərzində tələsik aparılan qazıntıların metodik və elmi səviyyəsi tənqidə dözmür. Belə ki, qazıntı sahələrinin heç birində mədəni təbəqə xam torpağa qədər qazılmamış, təbəqə yatımının stratiqrafiyası müəyyənləşdirilməmiş, qazıntının nəticələri elmi baxımdan yetərincə şərh edilməmişdi (Б.И.Ибрагимов, 2000, стр. 18). 1914-cü ilin mayında Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz bölməsində S.V.Ter-Avetisyan Xaraba-Gilan şəhər xarabalıqlarında aparılmış qazıntıların nəticələri haqqında məruzə etmişdir (Изв. КОМАО, 1915).

S.V.Ter-Avetisyan 1907-ci ildə Pir Hüseyn xanəgahında da tədqiqat aparmış, onun fəaliyyətinin nəticəsi olaraq abidənin kaşı bəzəklərinin bir çoxu yoxa çıxmışdır.

1902-ci ildə Mil düzünün şəhərgah və kurqanları haqqında İ.A.Mayevskinin məqaləsi çap olunmuş və həmin məqalədə bir sıra orta əsr abidəsinin də təsviri verilmişdir (И.А.Маевский, 1902, стр. 57-68). 1903-cü ildə A.V.Vilyam Cekson, 1907-ci ildə isə Ştaal Təxti-Süleyman şəhərgahı ilə maraqlanaraq buraya elmi səfər edirlər.

1904-cü ildə Bakıda aşkarlanmış arxeoloji obyekti tədqiq etmək üçün akademik V.V.Bartold Bakıya ezam olunmuş, abidəyə baxış keçirən, əldə edilmiş maddi mədəniyyət nümunələrini təhlil edən şərqşünas alim İmperiya Arxeoloji Komissiyasının Xəbərlərində elmi səfərin nəticələri haqqında hesabatını dərc etdirmişdir (В.В.Бартолд, 1905). 1906-cı ildə çar məmuru Y.İ.Kozubskinin "Dərbənd şəhərinin tarixi" adlı kitabı nəşr olunur. Lakin müəllif həmin əsərdə

üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələ bilməmiş, şəhərin tarixi ilə bağlı bir çox məsələləri düzgün işıqlandırmamışdır (Е.И.КОЗУБСКИЙ, 1906).

1915-ci ildə Y.Lalayan Qəbələ şəhər xarabalıqlarında kəşfiyyat xarakterli ilkin tədqiqatlar aparmış, Səlbirin Sirxab şəhərinin xarabalıqları olması fikrini irəli sürmüşdür.

Beləliklə, 1918-ci ilə, Azərbaycan Cümhuriyyətinin qurulmasına qədər Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ardıcıl xarakter daşımamış, arxeoloji mənbələr Azərbaycan tarixinin ümdə problemlərinin həlli üçün mühüm mənbəyə çevrilməmiş, A.A.Bakıxanov istisna olmaqla, bu heç vəzifə kimi qarşıya qoyulmamışdır. Bəzi müəlliflər hətta Azərbaycanın səciyyəvi orta əsr arxeoloji abidələrinin özgəninkiləşdirməsinə cəhdlər etmişlər (Y.Lalayan, S.V.Ter-Avetisyan). Çöl arxeoloji tədqiqatları nəticəsində əldə olunan maddi mədəniyyət nümunələri isə Azərbaycandan kənara daşınırdı, bir sözlə, xalqın mədəni irsi qarət olunurdu.

Azərbaycan Cümhuriyyətinin mədəni quruculuğunda vətən tarixinin, onun mədəni irsinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edirdi. 1918-ci ildə Azərbaycanın müxtəlif tipli arxeoloji abidələrini öyrənmək, xalqın mədəni sərvətinin talan edilib xaricə aparılmasının qarşısını almaq məqsədi ilə Bakıda Arxeologiya Cəmiyyəti təşkil olundu. 1919-cu ildə Azərbaycanın tarixi irsini toplamaq və qorumaq üçün yerli diyarşünaslar və şərqşünaslar Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyini təşkil etdilər. Həmin ilin dekabrında isə dərnəyin üzvləri Bakı Universiteti nəzdində Müsəlman Şərqini öyrənən Cəmiyyəti yaratdılar (Т.Керимова, 2005, стр. 46). Müsəlman Şərqini öyrənən Cəmiyyət Cənubi Qafqazın arxeoloji öyrənilməsini, Şabran şəhərinin xarabalıqlarının axtarılmasını, Nizami Gəncəvinin qəbirüstü abidəsinin tədqiqini, Bakı ətrafındakı tarixi abidələrin öyrənilməsini ön plana çəkmişdi. Cəmiyyət orta əsr şəhərlərinin tədqiqinə xüsusi əhəmiyyət verirdi (Т.Керимова, 2005, стр. 119). Azərbaycan xalqının maddi mədəniyyət tarixinin öyrənilməsi nöqteyi-nəzərindən mühüm hadisələrdən biri 1919-cu il dekabrın 7-də Azərbaycan Parlamentinin ildönümü günü İstiqlal muzeyinin təsis edilməsi idi. Azərbaycan Parlamentinin binasında açılan bu muzeyin eksponatlarının mühüm bir hissəsini arxeoloji materiallar təşkil edirdi.

1920-ci ilin aprelindəki məlum siyasi hadisələr Azərbaycan Cümhuriyyətinə qarşıya qoyduğu vəzifələri gerçəkləşdirməyə imkan vermədi.

Sovet hakimiyyətinin ilk illərindən arxeoloji abidələrin tədqiqi, qeydə alınması və qorunmasını həyata keçirən elmi qurumlar təşkil olunur. 1920-ci ildə "İstiqlal" muzeyi bazasında Azərbaycan Dövlət Muzeyi yaradıldı. 1922-ci ildə isə Şərqşünaslıq və Sosial Elmlər İnstitutu nəzdində Azərbaycan Arxeoloji Cəmiyyəti

təsis edildi. Azərbaycan Dövlət Muzeyində isə qədim abidələrin mühafizəsi komissiyası fəaliyyət göstərirdi. 1923-cü ildə bu təşkilatların birləşməsi əsasında Xalq Komissarları nəzdində Azərbaycan Arxeoloji Komitəsi yaradıldı. Komitə abidələri qeydə almalı, mühafizə etməli və elmi baxımdan öyrənməli idi. Həmin ildə yaradılan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti 20-ci illərdə respublikada arxeoloji və etnoqrafik tədqiqatların başlıca mərkəzinə çevrilir (Р.М.Ваидов, И.Г.Нариманов 1967, стр. 48). Diqqətəlayiq haldır ki, həmin illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycan Dövlət Muzeyi sıx əməkdaşlıq edir, fəaliyyətlərini əlaqələndirirdilər. Cəmiyyət başlıca elmi-tədqiqat müəssisəsi olmaqla arxeoloji qazıntılar və axtarışlar aparır, aşkar edilən maddi mədəniyyət nümunələri Arxeoloji Komitə tərəfindən qeydə alınaraq Dövlət Muzeyinə təhvil verilirdi (Т.Керимова, 2005, стр. 85).

Bu dövrdə arxeoloji abidələrin qeydə alınması, öyrənilməsi və mühafizəsinin hüquqi əsaslarının yaradılmasına başlanıldı. Arxeoloji abidələrin qeydiyyatı, tədqiqi və qorunmasında Azərbaycan SSR Xalq Komissarları Şurasının 4 mart 1924-cü il tarixli, 20 saylı Dekretinin əhəmiyyəti böyük oldu. Həmin Dekretlə respublika ərazisindəki arxeoloji abidələrin qeydiyyatı və tədqiqinə nəzarət Azərbaycan Arxeoloji Komitəsinə tapşırıldı (К истории, 1925, стр. 94). 1927-ci ildə həmin komitə Azərbaycan Asari-ətiqə, İncəsənət və Təbiəti Mühafizə Komitəsinə çevrildi və bu adla 1930-cu ilədək fəaliyyət göstərdi.

Azərbaycan Arxeoloji Komitəsinin çar Rusiyası tərəfindən Azərbaycan xanlıqları işğal olunarkən talan edilərək Gürcüstan, Moskva və Leninqrad muzeylərinə aparılmış maddi mədəniyyət nümunələrinin geri qaytarılması sahəsindəki səyləri də təqdirəlayiqdir. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Böyük Rəyasət Heyətinin 7 iyun 1924-cü il tarixli iclasında Arxeoloji Komitənin sədri Tağı Şahbazinin təşəbbüsü ilə "Keçmişin abidələri haqqında" məsələ müzakirə olunmuşdu. Bu müzakirədə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi SSRİ-nin muzeylərində mühafizə olunan, Bakı, Şamaxı, Gəncə və digər xanlıqların işğalı zamanı talanaraq aparılmış maddi mədəniyyət nümunələrinin geri qaytarılması barədə sərəncam verilməsi üçün Zaqafqaziya və SSRİ Mərkəzi İcraiyyə Komitələri qarşısında məsələ qaldırmağı qərara almışdı. O cümlədən, Arxeoloji Komitəyə və Azərbaycan Dövlət Tarix Muzeyinə müttəfiq respublikaların muzeylərində yerləşən və Azərbaycana məxsus qədim abidələrin siyahısının hazırlanması işi tapşırılmışdır (E.Məhərrəmov, 1999, səh. 77-78).

Azərbaycanın orta əsr arxeoloji abidələrinin tədqiqata cəlb olunması baxımından 1924-cü ildə Bakıda keçirilən Ümumazərbaycan diyarşünaslıq qurultayının əhəmiyyəti böyük oldu. Qurultay arxeoloji tədqiqatların əhəmiyyətini diqqətə çəkərək bu sahədə işlərin

bütün respublika miqyasında genişləndirilməsi, tarixi keçmişin yeni abidələrini aşkarlamaq, qeydə almaq, öyrənmək üçün ekspedisiyaların təşkili haqqında qərar qəbul etdi.

20-ci illərin ortalarında və ikinci yarısında orta əsr şəhər və qalalarının arxeoloji öyrənilməsi geniş vüsət aldı. Bakı, Şamaxı, Qəbələ, Bərdə, Beyləqan, Xaraba-Gilan şəhər xarabalıqlarının, Gülüstan, Buğurt, Bəllabur, Əlincə, Abşeron qalalarının, Pirsaatçay yaxınlığında və Əlincəçay üzərindəki xanəgah xarabalıqlarının arxeoloji tədqiqinə səy göstərildi. Diqqətəlayiq haldır ki, Xaraba-Gilanda 1926-1928-ci illərdə arxeoloji qazıntılar Azərbaycanın Arxeoloji Komitəsinin icazəsi ilə iki mərkəz - Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti və Qafqaz Tarix-Arxeologiya İnstitutu tərəfindən aparılmış və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi qazıntılar zamanı aşkarlanmış artefaktların elmi tədqiqindən sonra Naxçıvan muzeyinə təhvil verilməsi haqqında məsələ qaldırmışdı (A.Quluzadə, R.Quliyev, 2006). 1920-ci ildə Bakıda Şirvanşahlar saray kompleksində aparılan təmizlənmə və təmir işləri arxeoloji qazıntılarla müşayiət olunurdu (Е.А.Пахомов, 1924, стр. 105-110; В.Н.Левиатов, 1944). Arxeoloji tədqiqat işləri 1924-1925-ci illərdə də davam etdirilmiş, çöl tədqiqatlarının yekunu haqqında Y.A.Paxomov məlumat vermişdir (С.Гусейнова, 1992). Qız qalasının da arxeoloji tədqiqinə keçən əsrin 20-ci illərinin əvvəllərində başlanılmışdır. Professor Zummerin rəhbərliyi altında bir qrup tələbə Qız qalasında arxeoloji qazıntılar aparmışdır (С.Гусейнова 1992, стр. 119). Orta əsr Bakı şəhərinin ilk tədqiqatçıları arasında S.B.Aşurbəyli də vardı. Onun Bakı üzrə ilk elmi araşdırmaları bu dövrə təsadüf edir. O, Bakının memarlıq abidələrinin araşdırıldığı ilk məqaləsini yazmışdır (S.B.Aşurbeyli, 1930, səh. 49-52). Qəbələ şəhərinin xarabalıqlarının tədqiqinə dair D.Şərifovun (Д.Шарифов, 1927), Şamaxı şəhəri və onun ətrafındakı qalaların ilkin tədqiqi haqqında C.Aleksandroviç-Nasıfinin (Дж.Александрович-Насыфи, 1926), Bərdə şəhərinin tarixi ilə bağlı V.M.Sısoyevin (В.М.Сысоев, 1926), Xaraba-Gilan şəhər xarabalıqlarının tədqiqi üzrə V.M.Sısoyevin (В.М, Сысоев, 1928, 1929), S.V.Ter-Avetisyanın (С.В.Тер-Аветисян, 1927; 1928), T.Əzimbəyovun (И.АЗИМБЕКОВ, 1929), Əlincə qalasının tədqiqinə dair Mir Heydərzadənin (Mir Heydərzadə, 1930), Lənkəran diyarında Bəllabur qalası haqqında İ.Əzimbəyovun (И.АЗИМБЕКОВ, 1926), qədim Gəncə şəhəri və Nizami Gəncəvinin qəbrinə dair C.Aleksandroviç-Nasıfinin (Дж.Александрович-Насыфи, 1926а), Pir Hüseyn xanəgahı haqqında V.M.Sısoyevin (В.М.Сысоев, 1925) məqalələri çap olunur. Akademik İ.İ.Meşşaninov xüsusi bir məqaləsində keçən əsrin 20-ci illərində aparılmış arxeoloji tədqiqatların yekunlarını təhlil edərək ümumiləşdirmiş, orta əsr abidələrinin, xüsusilə şəhərgahların öyrənilməsindəki nailiyyətləri də qeyd etmişdir (И.И.Мещанинов, 1929).

Diqqəti çəkən cəhətlərdən biri abidələrin qeydə alınması, tədqiqi və mühafizəsi işində yerli diyarşünasların yaxından iştirak etməsidir. Bu baxımdan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi daha fəal görünür. Şöbə arxeoloji abidələrin qeydə alınması, tədqiqində fəallıq göstərməklə bərabər, abidələrin bərpası və qorunmasını da diqqət mərkəzində saxlayırdı. Naxçıvan şöbəsinin 20-ci illərdə ardıcıl olaraq Mömünə xatın türbəsinin təmirinə dair məsələ qaldırması qeyd olunanları təsdiqləyir (A.Quluzadə, R.Quliyev, 2006).

1929-cu ilin oktyabrında Azərbaycan SSR MİK qərarı ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən qurularaq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna çevrildi. Cəmiyyətin bütün vəsaiti, kitabxanası, nəşriyyat və elmi kadrları İnstituta verildi (Т.Керимова, 2005, стр. 136).

1930-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun nəzdindəki Azərbaycanı Öyrənən Cəmiyyətin məsul təlimatçısı A.Klimov Salyan-Muğan dairəsinə elmi səfəri zamanı bir neçə orta əsr abidəsini qeydə alır. Onun İlanlıdağdakı orta əsr yaşayış yeri, Qırxçıraq, Bəndovan şəhər yerləri, Salyan rayonunun Xələc kəndindəki Qızıl məscid adlanan yaşayış yeri haqqında məlumatı diqqətəlayiqdir. A.Klimov Qırxçıraq şəhərgahında 2 saat ərzində istehsal tullantıları arasından 50-dən artıq sikkə toplamışdı. O, burada həm də Govurarxın qalıqlarını qeydə alır, Qara Çala deyilən sahədə zərbxananın yerləşdiyini bildirir (А.КЛИМОВ, 1930).

XX əsrin 30-cu illərində orta əsr şəhərlərinin arxeoloji tədqiqinə diqqət daha da artırılır. 1932-1934-cü illərdə Azərbaycanın qədim abidələrinin mühafizəsi mərkəzi Bakıda Şirvanşahlar sarayının təmir və bərpa işləri ilə əlaqədar saray kompleksinin həyətində arxeoloji qazıntı işləri aparır. Qazıntılar nəticəsində bəlli olur ki, sarayın mərkəzi və ona cənubi-şərqdən birləşən otaqları daha erkən dövrə aid tikili qalıqları üzərində ucaldılmışdır. Aparılan tədqiqatlar əsasında Şirvanşahlar sarayının plan və kompozisiya quruluşuna dair maraqlı muşahidələr edilir (В.Н.Левиатов, 1944). Təmir və bərpa işlərindən sonra Şirvanşahlar saray komp-leksi SSRİ EA Azərbaycan filialının Azərbaycan Tarixi Muzeyinə verilir.

1933-cü ildə akademik İ.İ.Meşşaninovun rəhbərliyi altında Mil düzündə orta əsr Beyləqan şəhərinin xarabalıqları olan Örənqala şəhərgahında arxeoloji qazıntılar aparılır. Qazıntı işləri üç sahədə - kiçik şəhərin mərkəzində, onun şimal-şərq divarında və kiçik şəhərdən böyük şəhərə keçiddə görülür. Qazıntıların nəticələrini təhlil edən, əldə olunmuş faktiki materialları şərh edən İ.İ.Meşşaninov bəzi səhvlərə yol versə də, abidənin xronoloji çərçivəsi, şəhərin meydana gəlib inkişaf etməsində Govurarxın mühüm rol oynaması haqqında diqqətəlayiq fikirlər söyləmişdir (И.И.Мещанинов, 1936). 1936-cı ildə isə Örənqalada Ə.K.Ələkbərovun başçılığı ilə kəşfiyyat xarakterli qazıntı işləri aparılır

(А.К.Алекперов, 1960). Qazıntı zamanı bişmiş kərpicdən inşa edilmiş tikili qalıqları üzə çıxarılır, xeyli maddi mədəniyyət qalıqları əldə olunur. Ekspedisiya şəhər yerindən 200 *m* aralıdakı təpələrdən birində arxeoloji qazıntı apararaq, burada XII-XIII əsrlərdə yaşayışın olduğunu təsdiqləyən mədəni təbəqə yatımının mövcudluğunu müəyyənləşdirir. Ə.K.Ələkbərov üzə çıxarılan tikili qalıqlarını sənətkarlara məxsus yaşayış evinin qalıqları kimi şərh edir, əldə olunmuş saxsı məmulatının təsnifatını verir, Örənqalanın orta əsr Beyləqan şəhərinin xarabalıqları olması, şəhərin XII əsrdə çiçəklənmə çağı keçirməsi haqqında fikirlər irəli sürür (А.К. Алекперов„ 1960).

30-cu illərin ortalarında Şabran şəhərinin öyrənilməsinə ilk təşəbbüs göstərilir. 1935-ci ildə Y.A.Paxomov və S.B.Aşurbəyli Şabran şəhərinin xarabalıqlarında kəşfiyyat xarakterli tədqiqat aparıblar. Y.A.Paxomov bu barədə yazdığı hesabatda abidənin geniş təsvirini, oradan toplanmış yerüstü materiallar haqqında məlumat verir (Е.А.Пахомов, 1935; 1937). İki il sonra Y.A.Paxomov yenidən Şabran şəhər yerinə ezam olunur. Bakı su kəmərinin inşaatı zamanı üzə çıxmış dulus kürəsinin qalıqlarını qeydə alır, buradan xeyli istehsal çıxarları, şirli və şirsiz saxsı məmulat toplayır (Е.А. Пахомов,1938). Həmin materiallar əsasında sonradan V.N.Leviatov Şabran şəhərinin saxsı istehsalına həsr olunmuş xüsusi məqaləsini yazır, şəhərdə dulusçuluğun yüksək inkişaf səviyyəsinə çatması fikrini irəli sürür (В.Н.Левиатов, 1946).

1935-1937-ci illərdə Gəncə diyarşünaslıq muzeyinin fondlarını arxeoloji materiallarla zənginləşdirmək məqsədi ilə muzeyin direktoru Y.P.Xadarin Gəncə şəhər xarabalıqlarının sağ sahil hissəsində, memarlıq abidələrinin salamat qaldığı ərazidə məhdud, həm də sistemsiz qazıntılar apararaq oradan əldə olunan arxeoloji materialları muzeyin fondlarında yerləşdirmişdir (Р.Дж.Ахмедов, 1988, стр. 5-6).

Keçən əsrin 30-cu illərində Cənubi Azərbaycanda əcnəbi alimlər bəzi tədqiqatlar aparmışlar. Onları daha çox Təxti-Süleyman şəhər yeri maraqlandırmışdır. 1937-ci ildə E.F.Şmit Təxti-Süleyman şəhər yerinin aerofotoçəkilişini etmişdir. Həmin ilin oktyabrında A.İ.Poupun rəhbərliyi ilə ABŞ-ın İran incəsənəti və arxeologiyası İnstitutunun ekspedisiyası şəhər yerində çöl tədqiqatları aparmışdır (Naumann, 1976). Ananın Dəbil şəhərinin də sistemli, ardıcıl arxeoloji tədqiqinə 1937-ci ildən başlanılmışdır (K.Q.Kafadaryan, 1952).

XX əsrin 30-cu illərinin ortalarında həm də Azərbaycanın arxeoloji abidələrinin tədqiqinə dair ilk ümumiləşdirilmiş əsərlər yazılmışdır. İ.İ.Meşşaninov və Ə.K.Ələkbərovun birgə yazdıqları məqalədə (И.И.Мещанинов, А.К.Алекперов, 1936) sovet hakimiyyətinin 15 ili ərzində respublikada aparılmış arxeoloji tədqiqatların yekunları barədə məlumat verilmiş, əldə edilmiş başlıca nailiyyətlər qeyd olunmuşdur. Həmin əsərdə orta əsr şəhər xarabalıqlarının arxeoloji tədqiqinin mühüm nəticələri də öz əksini tapmışdır.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə hazırlıqla əlaqədar orta əsr şəhərlərinin arxeoloji tədqiqinə diqqət artırıldı. Gəncə, Şamaxı və Bakıda arxeoloji qazıntılar aparıldı. Şamaxıda İ.M.Cəfərzadə, Y.A.Paxomov və Ə.A.Ələsgərzadə tədqiqatlar aparmış, İ.M.Cəfərzadə şəhərin məhəllələrinin köhnə adlarını, pir və məscidlərin xarabalıqlarını tədqiq etmişdir (И.М.Джафарзаде,1937). 1938-ci ildə Gülüstan qalasında arxeoloji tədqiqat aparan Y.A.Paxomov qalanın gizli yolları və su təchizatı ilə bağlı maraqlı mülahizələr irəli sürmüşdür (E.A.Е.А.Пахомов, 1939).

1937-1939-cu illərdə Bakının İçərişəhər sahəsində, Şirvanşahlar sarayının həyətində, 1941-ci ilin yayında isə divanxananın qərb hissəsində arxeoloji qazıntılar aparılmış, V.N.Leviatov qazıntıların nəticələri, əldə olunmuş materiallar haqqında məqalə və kitabça çap etdirmişdir (В.И.Левиатов., 1940a; 1944). 1939-1940-cı illərdə isə Y.A.Paxomov Bayıl qəsrində ilk qazıntılar apararaq, qalanın sirlərini açmağa cəhd göstərmişdir. Qazıntılar zamanı üzə çıxarılan, üzərində kitabələr olan daş lövhələrdən beşi daha böyük marağa səbəb olmuşdur. Ardıcıl düzülmüş həmin daş lövhələr üzərində qəsrin hicri 632 (1234/1235)-ci ildə inşa olunduğu qeyd edilmişdir (Е.А.Пахомов, 1940a; 1941).

Y.A.Paxomov 1938-ci ildə Tovuz rayonunda, Kür çayının sahilində Torpaqqala şəhər yerini qeydə alıb burada apardığı ilkin tədqiqatlar əsasında abidənin XI-XIII əsrlərə aid şəhərtipli yaşayış yeri olduğu ehtimalını irəli sürmüşdür (Е.А. Пахомов, 1939, стр. 22).

1938-1940-cı illərdə Gəncə şəhər xarabalıqlarında İ.M.Cəfərzadənin rəhbərliyi ilə arxeoloji qazıntılar aparılmışdır. Qazıntılarda o zamanın bütün aparıcı mütə-xəssisləri - S.M.Qazıyev, V.N.Leviatov, V.Qraçev, O.İone, Y.Hummel, İ.Şeblıkin yaxından iştirak etmişlər. Qazıntıların gedişatı və nəticələri haqqında ekspedisiya rəisi İ.M.Cəfərzadənin məqalələri (И.М.Джафарзаде, 1939, 1941,1947a) və monoqrafiyası (И.М.Джафарзаде, 1949) çap olunmuşdur. V.N.Leviatov Gəncə şəhər xarabalıqlarında aparılmış qazıntıların nəticələrinə əsaslanmaqla "Gəncə böyük Nizaminin vətənidir" adlı məqalə (В.Н.Левиатов, 1941), orta əsr Gəncə şəhərinin saxsı məmulatından bəhs edən kitab yazmışdır (В.Н. Левиатов, 1940). Eyni zamanda M.M.Altmanın yazılı qaynaqlara və arxeoloji qazıntıların nəticələrinə əsaslanmaqla orta əsr Gəncə şəhəri haqqında yazdığı monoqrafiya (М.М.Альтман 1949), İ.P.Şeblıkinin Gəncənin orta əsr memarlığı üzrə məqalələri (И.П.Щеблыкин, 1941; 1942) çap edilmişdir.

Böyük Vətən müharibəsinin başlanması orta əsr şəhərlərinin çöl arxeoloji tədqiqini müvəqqəti dayandırsa da, müharibə illərinin bütün çətinliklərinə baxmayaraq, artıq 1944-cü ildən arxeoloji qazıntılar aparılmasına başlanmışdır. Qəbələ şəhərinin xarabalıqlarında 1944-1945-ci illərdə S.M.Qazıyev (S.M.Qazıyev,1945; 1965a, səh. 146), Bakıdakı Şirvanşahlar sarayı kompleksində

isə 1944-1946-cı illərdə V.N.Leviatov (В.И.Левиатов, 1945, 1946a, 1948, 1948a) arxeoloji qazıntılar aparırlar. Y.A.Paxomov Xızı rayonunun Yuxarı Fındıqan kəndində 1943-cü ildə torpaq sürüşməsi nəticəsində üzə çıxmış orta əsr yaşayış yerində kəşfiyyat xarakterli tədqiqat işləri aparmış, son orta əsrlərdə burada monumental dini tikiliyə malik iri yaşayış məskəninin mövcud olması fikrini irəli sürmüşdür (Е.А.Пахомов 1946, стр. 20-27).

Beləliklə, orta əsr abidələrinin arxeoloji tədqiqinin ikinci mərhələsi yerli elmi təşkilat və müəssisələrin təşkil edilməsi, ilk azərbaycanlı elmi kadrların - arxeoloqların fəaliyyətə başlaması, orta əsr şəhər və qala xarabalıqlarında məqsədyonlü çöl tədqiqatlarının aparılması, araşdırmaların nəticələrinin hesabat və elmi nəşrlərdə öz əksini tapması ilə səciyyələnir.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşkili digər elm sahələrində olduğu kimi, arxeoloji tədqiqatlarda da müsbət dönüşə səbəb oldu, orta əsr abidələrinin arxeoloji tədqiqində yeni mərhələni açdı. 1946-cı ildə Mingəçevir SES-in inşaatı ilə əlaqədar su altında qalmaq təhlükəsi olan abidələrin arxeoloji tədqiqi üçün stasionar ekspedisiya təşkil olundu, erkən tunc dövründən başlamış son orta əsrlərədək müxtəlif dövrlərə aid yaşayış yerləri, qəbir abidələri, dini tikililər aşkarlanıb tədqiq edildi, küllü miqdarda maddi mədəniyyət nümunələri əldə olundu. Tədqiq edilən abidələr arasında 2 və 3 saylı yaşayış yerləri orta əsrlərə aid olub, orta çağ yaşayış məskənlərinin öyrənilməsi baxımından maraqlı faktik materiallar verdi.

1946-cı ildə İ.M.Cəfərzadənin rəhbərliyi və Ö.Ş.İsmizadənin iştirakı ilə Bayıl qəsrində aparılan arxeoloji tədqiqatlar diqqətəlayiq faktik materiallarla əlamətdar oldu. Qazıntılar nəticəsində üzə çıxarılmış daş lövhələr üzərindəki kitabələrdən birində qəsri tikən sənətkarın - Ziyəddin bin Əbu Rəşid Şirvaninin adı müəyyənləşdirildi (И.М.Джафарзаде, 1947, стр.10).

XX əsrin 50-80-ci illərində Azərbaycanın orta əsr şəhər xarabalıqlarının, qala və kənd tipli yaşayış yerlərinin arxeoloji öyrənilməsi genişlənir, aparılan tədqiqatlar bu sahədə kəmiyyət və keyfiyyət etibarilə əsaslı dönüşü əks etdirir. Bu dövr çöl tədqiqatlarının miqyasının genişlənməsi, ardıcıl və məqsədyönlü xarakter daşıması, əldə edilən faktik materialların tarixi mənbəyə çevrilməsi, orta əsr maddi mədəniyyətinin ayrı-ayrı məsələlərinə dair çoxsaylı elmi məqalələrin, bir sıra ümumiləşdirici sanballı monoqrafik tədqiqat əsərlərinin yazılıb çap olunması ilə əlamətdar olmuşdur.

50-ci illərdə aparılmış çöl tədqiqatlarının səciyyəsinə Beyləqan qazıntıları ilə başlamaq məqsədəuyğundur. 1951-ci ildə İ.M.Cəfərzadənin rəhbərliyi ilə Beyləqan şəhər xarabalıqlarında - Örənqalada aparılan arxeoloji qazıntı uğurlu olmuş, qazıntı

nəticəsində Kiçik şəhərin Böyük şəhərdən sonra inşa edilməsi faktı təsdiqlənmişdir (И.М.Джафарзаде, 1954).

1953-cü ildə SSRİ EA Arxeologiya İnstitutunun Leninqrad bölməsi ilə Azərbaycan SSR EA Tarix İnstitutunun birgə təşkil etdikləri Azərbaycan (Örənqala) ekspedisiyası görkəmli qafqazşünas arxeoloq A.A.İessenin rəhbərliyi altında Beyləqan şəhərinin xarabalıqlarında çöl tədqiqatlarına başlanmış, 1953-1958-ci illərdə Örənqalada dörd sahədə - Kiçik şəhərin ərazisində (I sahə), Böyük şəhərin şimal-şərq qala divarında (II sahə), şəhərin sənətkarlar məhəlləsində (III və IV sahələr) genişmiqyaslı qazıntılar aparılmışdır. 1953-1956-cı illərdə aparılmış çöl tədqiqatları öz əksini nəşr olunmuş hеыabatlarda (МИА, 1959) və A.A.İessenin məlumatında (А.А.Иессен, 1957) tapmışdır. 1956-1958-ci illərdə aparılmış arxeoloji qazıntıların nəticələri haqqında A.A.İessenin məlumatları (А.А.Иессен, 1959; 1960) və hesabatları çap olunmuşdur (МИА, 1965).

Birgə Azərbaycan (Örənqala) ekspedisiyasının işlərini 1959-1968-ci illərdə Azərbaycan SSR EA Tarix İnstitutunun Örənqala ekspedisiyası Q.M.Əhmədovun rəhbərliyi ilə davam etdirmişdir. Ekspedisiya I və IV sahələrdə qazıntını genişləndirməklə yanaşı, həm də Böyük şəhərin daxilində (V sahə) və onun şimal-qərb qala darvaza yerində (VI sahə) yeni sahələrdə qazıntılar aparmışdır. Qazıntılar haqqında Q.M.Əhmədov, F.Ə.İbrahimov və N.V.Minkeviç-Mustafayeva, V.P.Fomenko geniş hesabatlar yazmışlar, lakin həmin hesabatlar çap olunmamışdır (Q.M.Əhmədov, 1979, səh. 13).

Bütövlükdə, Örənqala ekspedisiyasının qazıntıları Azərbaycan arxeologiyasında orta əsrlər arxeologiyasının ayrıca bir sahə kimi formalaşmasına imkan verdi. Həmin sahə üzrə ixtisaslaşmış aparıcı mütəxəssislər Q.M.Əhmədov, N.V.Minkeviç-Mustafayeva, Ö.Ş.İsmizadə və F.Ə.İbrahimov formalaşdı. Arxeoloji qazıntılar zamanı üzə çıxarılmış maddi mədəniyyət qalıqları, çoxsaylı faktik materiallar Azərbaycanın orta əsr şəhəri haqqında təsəvvürləri genişləndirdi və feodal şəhərinin öyrənilməsində arxeologiyanın perspektivliyini əyani nümayiş etdirdi.

60-80-ci illərdə orta əsr şəhərlərinin arxeoloji tədqiqinə diqqət daha da artırıldı, şəhər yerlərində arxeoloji qazıntılar intensivləşdi, qazıntılar sistemli və ardıcıl xarakter aldı. Bakıda Ö.Ş.İsmizadə və F.Ə.İbrahimovun, Şamaxıda H.Ə.Ciddinin, Dərbənddə A.A.Kudryavtsevin, Şabranda R.B.Göyüşovun, Qəbələdə S.M.Qazıyev, Q.M.Əhmədov, F.V.Qədirov və Q.C.Cəbiyevin, Xaraba-Gilanda Q.M.Aslanov və B.İ.İbrahimovun, Gəncədə C.Ə.Xəlilov və R.C.Əhmədovun, Bərdədə A.B.Nuriyevin rəhbərliyi altında arxeoloji qazıntılar aparıldı. 1969-cu ildən V.A.Kvaçidzenin rəhbərliyi ilə fəaliyyətə başlayan Sualtı arxeoloji ekspedisiya Xəzərsahili ərazidə I Bəndovan, II Bəndovan kimi şəhər yerlərini aşkarlayıb bu abidələri tədqiq etdi. Stasionar arxeoloji qazıntılar

kəşfiyyat xarakterli axtarışlarla uzlaşdırılırdı. Nəticədə yazılı mənbələrdən adı bizə bəlli olmayan orta əsr şəhərlərinin xarabalıqları aşkarlanır, onların lokallaşdırılmasına dair mülahizələr irəli sürülürdü. Belə abidələrdən Kürdəmir rayonunda qeydə alınmış Şəhərgah yaşayış yeri (Г.А.Джидди, 1980; Ф.Л.Османов и др., 1984, стр. 65-67) və Dəvəçi rayonunda Dibrar şəhər yeri (Г.Д.Агаев, 1974, стр. 20-21) daha çox maraq doğurur.

Qəbələ, Şabran, Gəncə, Şəmkir, Xaraba-Gilan şəhər xarabalıqlarından fərqli olaraq Şamaxı, Bakı, Dərbənd şəhərlərində həyat fasiləsiz bu günədək davam etdiyindən bu abidələrdə aparılan arxeoloji qazıntıları müasir şəhərsalma ilə əlaqələndirmək lazım gəlirdi. Belə bir şəraitdə tamamilə düzgün olaraq şəhərin müxtəlif hissələrində qazıntılar aparmaqla ümumi mənzərəni və inkişaf dinamikasını müəyyənləşdirmək qərara alınmışdır. Şamaxı şəhərində səkkiz sahədə, Bakıda iyirmi beş, Dərbənddə isə ondan artıq sahədə arxeoloji qazıntılar aparılmışdır. İçərişəhərin bərpası və abadlaşdırılması haqqında hökumət qərarı (29.04.1969, № 178) ilə əlaqədar Bakıda arxeoloji qazıntılar gücləndirilmiş, keçən əsrin son rübündə və XXI əsrin əvvəllərində qazıntı sahələrinin sayı 2-dən 31-ə çatdırılmışdır. I Bəndovan və II Bəndovan şəhər xarabalıqlarının arxeoloji tədqiqinin özəlliyi ondadır ki, bu abidələrdə sahilkənarı ərazidəki qazıntılar sualtı axtarışlarla əlaqəli şəkildə aparılırdı. Şabran şəhər xarabalıqlarında isə qazıntı sahələrinin seçiminə Mozdok-Qazıməmməd qaz boru kəmərinin inşası öz təsirini göstərmiş, kəmərin inşaatı ilə bağlı olaraq qazıntılar Şahnəzərli kəndi ilə Bakı-Xaçmaz şosesi arasında beş sahədə aparılmışdır.

Araz çayı üzərində SES-in inşası ilə bağlı 60-cı illərin sonu - 70-ci illərdə birtəbəqəli son orta əsr şəhərgahlarında, o cümlədən Xarabaşəhər, Astabad, Şərifan abidələrində aparılmış arxeoloji qazmtılar XIII-XVII əsrlər Azərbaycan şəhərlərinin və şəhər mədəniyyətinin səciyyəsi baxımından əhəmiyyətli olmuşdur. Arxeoloji qazıntılara Astabad şəhər yerində O.H.Həbibullayev, Xarabaşəhərdə A.B.Nuriyev, Şərifan şəhər yerində əvvəlcə R.B.Göyüşov, sonra isə Q.M.Əhmədov rəhbərlik etmişlər. Bu çöl tədqiqatları, eyni zamanda Azərbaycanın son orta əsr arxeologiyasının ayrıca bir sahə kimi formalaşmasına təkan vermişdir.

Şəmkir rayonunda, Kürün sağ sahilində arxeoloji qazıntılarla öyrənilmiş Muncuqlutəpə yerli əhəmiyyətə malik kiçik şəhərləri səciyyələndirmək baxımından böyük maraq doğurur. Yenikənd HES inşası ilə əlaqədar 1985-1988-cı illərdə abidənin Narınqala hissəsində arxeoloji qazıntılar aparılmış, zəngin maddi mədəniyyət qalıqları üzə çıxarılmışdır (А.А.Алиев, 1987; 1988; 1988a).

Azərbaycanın orta əsr şəhərlərinin xarabalıqlarında və şəhərtipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntıların nəticələri haqqında ekspedisiya rəhbərləri, üzvləri mütəmadi olaraq respublika və ittifaq elmi, elmi-kütləvi orqanlarında, xüsusilə də

"Arxeoloji kəşflər", "Azərbaycanda arxeoloji və etnoqrafik axtarışlar", "Azərbaycanın maddi mədəniyyəti" məcmuələrində məlumat vermişlər. Azərbaycanın maddi mədəniyyət məcmuəsinin bir cildi 1959-1960-ci illərdə Qəbələdə aparılmış qazıntıların nəticələrinə həsr olunmuşdur (AMM, 1964).

Toplanmış faktiki materiallar tədqiqatçılara yazılı mənbə məlumatını cəlb etməklə ümumiləşdirmələr aparmağa, şəhərlərin sosial-iqtisadi və mədəni inkişafının müxtəlif istiqamətlərini səciyyələndirən sanballı monoqrafik tədqiqat əsərlərini yazmasına imkan verdi. 1964-cü ildə Sara Aşurbəylinin Bakı şəhərinin orta əsrlər tarixinə həsr olunmuş kitabının nəşr olunması Şirvanın orta əsr şəhərlərinin öyrənilməsində mühüm bir hadisə oldu. Bu əsərdə yazılı mənbələrlə yanaşı, İçərişəhərdə aparılmış arxeoloji qazıntıların materiallarından geniş istifadə olunmuşdur (С.Б.Ашурбейли, 1964). 1979-cu ildə Qara Əhmədovun yazılı qaynaqların məlumatı cəlb olunmaqla, arxeoloji qazıntılardan əldə edilmiş faktik materialların təhlili əsasında yazdığı "Orta əsr Beyləqan şəhəri" adlı monoqrafiyası işıq üzü gördü və bu sanballı tədqiqat əsəri orta əsr Azərbaycan şəhərinin öyrənilməsində arxeologiyanın əhəmiyyətini əyani nümayiş etdirdi.

80-ci illərin əvvəlləri Şirvanın orta əsr şəhərlərinə həsr olunmuş bir neçə monoqrafiyanın çap olunması ilə əlamətdar oldu. Şirvanın paytaxt şəhəri Şamaxıda 1979-cu ilədək aparılan arxeoloji qazıntıların nəticələri H.Ə.Ciddinin 1981-ci ildə nəşr olunmuş monoqrafiyasında ümumiləşdirilərək yazılı qaynaqları cəlb etməklə təhlil olunmuşdur. Bu əsərdə şəhərin, bütövlükdə isə Şirvanşahlar dövlətinin sosial-iqtisadi, siyasi və mədəni inkişafına dair mühüm nəticələr irəli sürülmüşdür (Г.А.Джидди, 1981). Elə həmin ildə İ.A.Babayev və Q.M.Əhmədovun Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqinə həsr etdikləri kitab işıq üzü gördü (İ.A.Babayev, Q.M.Əhmədov, 1981). Dərbənddə aparılmış arxeoloji qazıntıların yekunu olaraq A.A.Kudryavtsevin 1982-ci ildə iki monoqrafiyası nəşr olundu. Moskvada çap olunan monoqrafiyada Dərbəndin qədim dövrdən başlamış ta X əsrə qədərki tarix və mədəniyyətinin məsələləri araşdırılmışdır (А.А.Кудрявцев, 1982) Mahaçqalada çap olunmuş monoqrafiyada isə şəhərin əsasən islam dövrü, monqol işğalına qədərki dövrü öz əksini tapmışdır (А.А. Кудрявцев, 1982a).

A.A.Kudryavtsevin Dərbənd limanı, Dərbəndin ticarət əlaqələri üzrə apardığı tədqiqatlar da uğurlu olmuşdur. O, sualtı arxeoloji tədqiqatlarla bu limanın X əsrdə Xəzər dənizinin ən böyük limanı olduğunu, həmin vaxtda şəhərin beynəlxalq ticarətdə vasitəçi rol oynadığını sübuta yetirmişdir (А.А. Кудрявцев 1980; 1987б; 1988в).

Yuxarıda qeyd olunan bu və digər tədqiqatlar Azərbaycanın orta əsr şəhərləri haqqında təsəvvürləri xeyli genişləndirdi. Şəhərlərin topoqrafiyası, plan quruluşuna aydınlıq gətirildi, şəhər tikililərinin xarakteri müəyyənləşdirildi, onların kifayət qədər

abad olduğu, küçə və meydanların, həyətlərin döşəndiyi, mükəmməl su təchizatı sisteminin, sanitariya-gigiyena qurğularının mövcudluğu təsdiqləndi. Bəlli oldu ki, şəhərlərin iqtisadi əsasını sənətkarlıq və ticarət təşkil etmişdir. Sənətdaxili ixtisaslaşma kifayət qədər dərinləşmişdir. Şəhərlər ölkənin başlıca mədəni-dini mərkəzləri olmuşdur.

Nəzərdən keçirilən illərdə Azərbaycanın orta əsr qəsr və qalalarının öyrənilməsində də əməli işlər görülmüşdür. Gülüstan qalasında, Bayıl qəsrində qazıntılar aparılmış, Qəbələ bölgəsinin istehkam tikililəri tədqiqata cəlb olunmuş, Əlincəqalada, Cənubi Azərbaycanın bir sıra qəsr və qalalarında kəşfiyyat xarakterli ilkin tədqiqat işləri görülmüşdür. Xınıslı arxeoloji ekspedisiyasının C.Ə.Xəlilovun rəhbərliyi, H.Ə.Ciddinin fəal iştirakı ilə 1958-ci ildən Gülüstan qalasında başladığı arxeoloji qazıntılar 1961-ci ilə qədər ardıcıl davam etdirilmişdir. Şirvanşahlar dövlətinin müdafiə sistemində mühüm rol oynamış bu qalanın memarlığı və tarixilə bağlı bir çox məsələlərə aydınlıq gətirən xeyli faktik materiallar əldə olunmuşdur. Qazıntıların gedişatı və nəticələri haqqında H.Ə.Ciddi məqalələr yazmış (H.Ə.Ciddi, 1960, 1961, 1961 a), qalanın tarixi-arxeoloji tədqiqinə həsr olunmuş dissertasiyanı uğurla müdafiə etmiş, bir qədər sonra onu monoqrafiya şəklində çap etdirmişdir (H.Ə.Ciddi, 1967).

Şirvanın maraqlı abidələrindən hesab olunan Bayıl qəsrində 1962 və 1969-cu illərdə Ö.Ş.İsmizadə arxeoloji tədqiqatlar aparmış, qazıntıların nəticələri haqqında ittifaq və respublika elmi orqanlarında məqalələr çap etdirmiş, onun Qız qalası ilə əlaqəli olduğunu qeyd etməklə, Bakı şəhərini dənizdən müdafiə etmək üçün tikildiyini bildirmişdir. Müəllif eyni zamanda bu arxeoloji kompleksin vaxtilə gömrükxana kimi istifadə olunması ehtimalını da istisna etməmişdir (О.Ш.Исмизаде, 1966; 1971). Təəssüf ki, Azərbaycanın digər orta əsr qəsr və qalalarında belə əsaslı arxeoloji qazıntılar aparılmamış, əksər hallarda onların arxeoloji tədqiqi yoxlama qazıntılarla məhdudlaşmışdır.

Misal olaraq Qəbələ bölgəsini göstərmək olar. 60-70-ci illərdə Qəbələ bölgəsinin istehkam tikililərinin - qüllə, qəsr və qalalarının tədqiqi sahəsində xeyli işlər görülmüş, arxeoloji tədqiqatların nəticələri F.V.Qədirovun monoqrafiyasında ümumiləşdirilmişdir (F.V.Qədirov, 1984).

Keçən əsrin 80-ci illərində Azərbaycan arxeologiyasının mühüm nailiyyətlərindən biri orta əsr məskənlərinin əksəriyyətini təşkil edən kənd tipli yaşayış yerlərinin genişsahəli arxeoloji qazıntılarla öyrənilməsinə başlanılmasıdır. 80-ci illərə qədər bu qəbildən olan abidələrdə, Dərəzarat və Qaratəpə yaşayış yerləri istisna olmaqla, əsasən kəşfiyyat xarakterli ilkin çöl tədqiqatları aparılmışdı. 1983-1989-cu illərdə Quba-Xaçmaz arxeoloji ekspedisiyası Xaçmaz rayonunda, Ağçayın sahilində Sərkərtəpə və Quba şəhərinin kənarında Sandıqtəpə yaşayış yerlərində

geniş arxeoloji qazıntılar aparmışdır. İlk dəfə olaraq Azərbaycanın orta əsr kəndinin həyat mənzərəsini təsəvvür etməyə imkan verən faktiki materiallar üzə çıxarılmışdır.

Azərbaycanın orta əsr abidələrinin öyrənilməsində və onların xəritələşdirilməsində "Azərbaycanın arxeoloji abidələrinin külliyyatı" ekspedisiyasının fəaliyyəti məhsuldar olmuşdur. C.Ə.Xəlilovun rəhbərlik etdiyi ekspedisiya 1976-1980-ci illərdə Şimal-Şərqi Azərbaycanda digər dövrlərlə yanaşı, orta əsrlərə aid 30-dan artıq abidə - şəhərgah, qala qalıqları, kənd tipli yaşayış yerləri qeydə almışdır. Ekspedisiya, həmçinin, onların ölçülərini müəyyənləşdirmiş, topoplanını və fotosunu çəkmiş, stratiqrafik xarakterli yoxlama qazıntı işləri görmüş, abidələrin təsvirini vermiş, xronoloji çərçivəsini təyin etmiş və xəritəsini tərtib etmişdir. Aparılan tədqiqatlar barədə mütəmadi olaraq respublika və İttifaq elmi orqanlarında məlumatlar çap olunmuşdur. Bir qədər sonra, 1991-ci ildə isə ekspedisiyanın tədqiq etdiyi abidələrin külliyyatı nəşr edilmişdir (Дж.А.Халилов, К.О.Кошкарлы, Р.Б.Аразова,1991).

Q.O.Qoşqarlının rəhbərlik etdiyi "Talış-Muğan arxeoloji ekspedisiyası" isə 1985-1990-cı illərdə Azərbaycan Respublikasının cənub-şərq bölgəsində eyni tədqiqat işlərini apararaq müxtəlif dövrlərə, o cümlədən orta əsrlərə aid onlarla abidəni qeydə alaraq onlarda ilkin çöl tədqiqatlarını aparmış, bölgənin arxeoloji xəritəsini tərtib etmişdir.

Cənubi Azərbaycanın orta əsr abidələrinin aşkarlanıb xəritələşdirilməsində 1968-1978-ci illərdə İranda fəaliyyət göstərmiş alman arxeoloji ekspedisiyasının axtarış və tədqiqatları məhsuldar olmuşdur. V.Klaysın Şərqi və Qərbi Azərbaycan əyalətlərində apardığı çöl tədqiqatlarının hesabatları ardıcıl olaraq çap edilmişdir (W.Kleiss, 1969, 1971, 1973). 1975-ci ildə Ə.Kargərsərfərazın rəhbərliyi altında Ərdəbil şəhərində aparılmış tədqiqatlar da əhəmiyyətli olmuş, Came məscidin tarixi ilə bağlı faktik materiallar üzə çıxarılmışdır.

Azərbaycanın orta əsr abidələrinin təbliği nöqteyi-nəzərindən 1985-1986-cı illərdə Azərbaycanın maddi mədəniyyəti seriyası ilə ayrı-ayrı arxeoloji abidələrə dair kitabçaların nəşr edilməsini də əhəmiyyətli hadisə kimi qiymətləndirmək olar.

50-80-ci illərdə Azərbaycanın orta əsr arxeologiyasının mühüm uğurlarından biri sənətkarlığın müxtəlif sahələrinə dair zəngin faktiki materialların toplanması və ayrı-ayrı sənət sahələrinin tədqiqinə başlanması, bu problem üzrə ilk ümumiləşdirici əsərlərin yazılmasıdır. Bu mənada N.V.Minkeviç-Mustafayevanın orta əsr Beyləqan şəhərinin sənətkarlığına həsr olunmuş çoxsaylı məqalələri (Н.В.Минкевич-Мустафаева, 1958; 1958a, 1959, 1959a, 1965, 1965a, 1968, 1969) əhəmiyyətli olmuşdur. Onun tərəfindən arxeoloji qazıntıların işığında sənətkar məhəllələrinin səciyyəsi, buradakı emalatxanaların xüsusiyyətləri, ayrı-ayrı sənət sahələrinin durumu və inkişaf

dinamikası, sənət istehsalının orta əsr şəhərinin iqtisadiyyatında tutduğu yer və s. məsələlər araşdırılmışdır. Q.M.Əhmədov Beyləqan materialları əsasında Azərbaycanın orta əsr dulusçuluq sənətinin bir sahəsini, şirsiz saxsı məmulat istehsalını tədqiqat obyekti seçmişdir. O bu sahədə mövcud olmuş istehsal prosesini təsvir etmiş, ilk dəfə olaraq IX-XIII əsrlərin şirsiz saxsı məmulatının geniş tipoloji təsnifatını vermişdir (Q.M.Əhmədov, 1959). Qeyd edək ki, saxsı məmulatı arxeoloji qazıntılar zamanı aşkarlanan kütləvi material olduğundan, çeşidli saxsı məmulatının əhalinin məişətində mühüm yer tutduğundan dulusçuluğun ayrı-ayrı məsələlərinin araşdırılmasına daha çox diqqət yetirilmiş, çoxsaylı məqalə və ümumiləşdirici monoqrafiyalar yazılmışdır (Н.Н.Наджафова, 1964; О.Ш.Исмизаде, Ф.А.Ибрагимов, 1983). Metalişləmə sənəti ilə bağlı ayrı-ayrı məqalələr və ilk ümumiləşdirici monoqrafiya işıq üzü görmüşdür (F.Ə.İbrahimov, 1988). Metalişləmə sənətində tətbiq edilən istehsal texnologiyasının öyrənilməsində təbiət və dəqiq elmlərin imkanlarından istifadə olunması maraqlı nəticələr vermişdir. Əlvan metalların spektral və qara metalın metalloqrafik analizləri istehsal texnologiyasının bir çox tərəflərinə aydınlıq gətirmişdir. Bu sahədə İ.R.Səlimxanov və onun ardıcılları M.N.Rəhimova, Ə.M.Həsənovanın tədqiqatları əhəmiyyətli olmuşdur.

Bu illərdə şüşə istehsalının öyrənilməsində mühüm irəliləyişlər qeydə alınmışdır. Orta əsr Beyləqan, Qəbələ, Dərbənd şəhərlərinin şüşə məmulatının araşdırıldığı ümumiləşdirici məqalələr yazılmışdır (Г.М.Ахмедов,В.П.Фоменко, 1987; В.П.Фоменко, 1962; 1965a; 1976; А.А.Кудрявцев, 1988; 1988a). Kimyəvi və miqdarı spektral analizlərin tətbiqi ilə Beyləqan, Qəbələ, Şabran kimi şəhərlərdə istehsal olunmuş şüşələrin tərkibi, onların səciyyəvi xüsusiyyətləri üzə çıxarılmışdır. Ayrıca bir şəhərin, Şabran şəhərinin şüşə istehsalı tədqiqat obyekti seçilərək həmin monoqrafik tədqiqat işi elmlər namizədi dissertasiyası kimi müdafiə olunmuşdur (Г.А.Гаджиев, 1990).

50-80-ci illərdə respublika ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan tikili qalıqları orta əsr Azərbaycan memarlığının öyrənilməsi üçün mühüm mənbə olmuş, arxeoloji materiallar əsasında yazılmış, qədim və orta əsr memarlığına həsr olunmuş tədqiqat əsərləri işıq üzü görmüşdür. Bu qəbildən olan əsərlər arasında K.M.Məmmədzadənin uzun illər ərzində apardığı tədqiqatları ümumiləşdirən sanballı monoqrafiyası diqqətəlayiqdir (К.М.Мамедзаде, 1983).

Orta əsrlər arxeologiyasının tədqiq etdiyi məsələlər arasında ticarət yolları və ticarət əlaqələrinin öyrənilməsi də özünəməxsus yer tutur. Bu məsələyə ayrı-ayrı məqalələr həsr olunmuş, monoqrafiyalarda ayrıca paraqraf və ya bənd ayrılmışdır.

50-80-ci illərdə Azərbaycanın orta əsr abidələrinin arxeoloji qazıntılarından xeyli sikkə tapıntıları və dəfinələr əldə edilmişdir. Onlar Y.A.Paxomov, A.V.Rəhimov, Ə.M.Rəcəbli, M.Ə.Seyfəddini, L.Əzimova tərəfindən öyrənilmiş, sikkə zərbi və pul dövriyyəsi üzrə aparılan tədqiqatlar intensivləşmiş, bu istiqamətdə çoxsaylı məqalələr, bir neçə monoqrafiya nəşr olunmuşdur. Müəyyən edilmişdir ki, IX-XIII əsrin əvvəllərində Azərbaycanda yerli şəhərlərdə və Xilafətin başqa şəhərlərində zərb olunmuş Abbasi sikkələri, Azərbaycan feodal hökmdarlarının - Sacilər, Şəddadilər, Şirvanşahlar, Eldənizlər və Dərbənd məliklərinin sikkələri dövriyyədə olmuşdur. Böyük Səlcuq sultanlarının, Kiçik Asiya Səlcuq hökmdarlarının, Bizans imperatorlarının, gürcü çarlarının zərb etdirdikləri pullara da rast gəlinir. XIII-XV əsrlərdə Azərbaycanda Hülakülərin, Cəlairilərin, Teymurilərin, Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının dirhəm və təngələri, XVI-XVII əsrlərdə isə Səfəvilərin zərb etdikləri pullarla yanaşı, şahı, əşrəfi, məhəmmədi, abbasilər dövriyyədə hakim olmuşdur.

Orta əsrlərə aid epiqrafik abidələrə əsasən, ictimai və dini binalarda, məzar daşlarında, mədəni-məişət əşyaları üzərində rast gəlinir. Arxeoloji qazıntılar aparılan şəhər xarabalıqlarının əksəriyyətində epiqrafik abidələr üzə çıxarılmışdır. Azərbaycanın arxeoloji epiqrafikası M.S.Nemətova, A.M.Rəhimov, S.Kərimzadə və L.T.Gözəlyan tərəfindən tədqiq edilmişdir.

Keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəllərində məlum siyasi, hərbi, iqtisadi və ictimai hadisələr Azərbaycan Respublikasında bütün elm sahələrində olduğu kimi, arxeologiya elminin də inkişafına öz təsirini göstərdi, maliyyə çətinliklərindən çöl arxeoloji tədqiqatlarının miqyası məhdudlaşdı. Bununla belə, 1990-1991-ci illərdə bəzi orta əsr şəhər xarabalıqlarında və kənd tipli yaşayış yerlərində məhdud qazıntılar aparıldı. Bakıda İçərişəhərdə aparılan qazıntıların nəticələri daha maraqlı olmuşdur. Bakı xanlarının evinin cənubunda aparılan qazıntıda üst mədəni təbəqədə intensiv şəhər həyatını əks etdirən sıx tikili qalıqları, o cümlədən 9,5 *m* uzunluqda kürəbənd, hamam otağı qalıqları, ovdan qalığı, dulus kürəsinin qalıqları diqqəti cəlb edir. (F.Ə.İbrahimov və b., 1991, səh. 26-27). Qız qalası ətrafında aparılan qazıntılar zamanı üzə çıxarılmış monumental binanın zirzəmisinin tədqiqi də maraqlı tapıntılardan olub, şəhər memarlığının bəzi mübahisəli məsələlərinə aydınlıq gətirmək üçün mühüm elmi əhəmiyyət kəsb edir (K.Fərhadoğlu, 2006, səh. 60). Xaçmaz rayonunun Seyidli və Salmanbulağı yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar son orta əsr yaşayış məskənlərinin tədqiqi baxımından əhəmiyyətli olmuş, ilk dəfə olaraq son orta əsr kəndinə dair maraqlı faktiki materiallar üzə çıxarılmışdır.

Ümumiyyətlə, nəzərdən keçirdiyimiz üçüncü mərhələ orta əsrlər arxeologiyasının inkişafında böyük uğurlarla əlamətdar olmuş, orta əsr şəhərlərinin

topoqrafiyası, istehkamları, tikililəri, abadlığı, sakinlərin istehsal və ev məişəti, mədəni səviyyəsini səciyyələndirməyə imkan verən çox qiymətli faktik materiallar əldə olunmuş, ciddi araşdırmalar, təhlil və ümumiləşdirmələr əsasında sanballı tədqiqat əsərləri yazılmışdır.

Müstəqil Azərbaycan Respublikası xalqımızın arxeoloji irsinin qorunması və tədqiqini diqqət mərkəzində saxlayaraq arxeologiya elminin inkişafı üçün zəruri tədbirləri həyata keçirir. 1993-cü ildə Azərbaycan EA Tarix İnstitutu nəzdindəki Arxeologiya və Etnoqrafiya Sektoru əsasında müstəqil institut yaradıldı. Keçid döv-rünün çətinliklərinə baxmayaraq, məhdud miqyasda olsa da, çöl tədqiqatları davam etdirilir.

Keçən əsrin son onilliyində təsərrüfat və inşaat işləri ilə əlaqədar bəzi orta əsr abidələrində arxeoloji qazıntılar aparmaq mümkün oldu. Belə tədqiqatlara 1995-1996-cı illərdə Bilgəhdə, birləşmiş xəstəxananın həyətində aparılmış arxeoloji qazıntıları, eləcə də 1997-1998-ci illərdə İçərişəhərdə aparılmış qazıntıları misal göstərmək olar. İçərişəhərdə Qız qalasının ətrafında aparılan qazıntı zamanı Bakının qədim memarlıq abidələrindən biri, X əsrə aid edilən məscidin qalıqları üzə çıxarılmışdır (F.Ə.İbrahimov, 1999a).

XXI əsrin ilk illəri sistemli çöl arxeoloji tədqiqatlarının bərpası, Azərbaycanın ayrı-ayrı rayonlarında orta əsr şəhər və kənd tipli yaşayış yerlərində arxeoloji qazıntı işlərinin aparılmasına başlanılması ilə əlamətdar oldu. 2001-2007-ci illərdə Qırxçıraq, Bakı, Şabran, Dərbənd, Şəmkir orta əsr şəhər xarabalıqlarında, Rolutəpə, Nəhəcir kimi yaşayış yerlərində qazıntılar aparılmışdır. Kəşfiyyat xarakterli çöl tədqiqatları nəticəsində Astara rayonunda bir neçə orta əsr yaşayış yeri aşkarlanıb qeydə alınmışdır. Şəmkir şəhər yerində Regionların İnkişafı İctimai Birliyinin maliyyə yardımı ilə 2007-ci ildə geniş sahəli arxeoloji qazıntıların aparılması və çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi-praktik konfransın keçirilməsi təqdirəlayiq hal olub, arxeoloji irsə qayğı və diqqətin artdığının təzahürüdür.

Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz boru kəmərlərinin tikintisi ilə bağlı kəmər dəhlizində Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası 2003-2005-ci illərdə geniş qazıntılar aparmış, müxtəlif dövrlərə, o cümlədən orta əsrlərə aid yaşayış yerlərini tədqiq etmişdir. Kəmər dəhlizində Goranboy rayonunda Faxralı, Samux rayonu ərazisində III Hacıalılı, Şəmkir rayonunda Daşbulaq, Ağstafa rayonunda Qıraq Kəsəmən orta əsr yaşayış yerlərində arxeoloji qazıntılar aparılmışdır. Sonuncu abidədə bir neçə şurf (yoxlama) qazıntısı və dörd sahədə geniş qazıntı aparılmışdır. Göstərilən orta əsr abidələrində aparılmış arxeoloji qazıntıların nəticəsində əldə olunmuş zəngin faktiki materiallar ilk dəfə olaraq Gəncə-Qazax bölgəsinin orta əsr kənd tipli yaşayış məskənlərinin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa imkan vermiş və bu sahədəki boşluğu aradan qaldırmışdır.

Samur-Abşeron kanalının yardımçı xəttinin inşası ilə əlaqədar Xanarx ekspedisiyası təşkil olunmuş və ekspedisiya 2003-2004-cü illərdə Şabran şəhər yerində yoxlama qazıntılar aparmış, tikili qalıqları, təndir və ocaqlar üzə çıxarılmış, müxtəlif təyinatlı metal, saxsı, şüşə məmulatı nümunələri tapılmışdır. Yoxlama qazıntılar həm də Şabran şəhər yerinin ucqarlarında mədəni təbəqənin qalınlığının mərkəz sahələrə nisbətən az olduğunu göstərmişdir (Ə.Ə.Əliyev, F.X.Xəlilli, 2005).

Son illərdə Dərbəndin arxeoloji tədqiqinin maraqlı nəticələrindən biri Azərbaycan epiqrafikasını ən erkən ərəb qrafikalı kitabə ilə zənginləşdirməsidir (М.С.Гаджиев и др., 2002). Yeni əsrin ilk onilliyində Cənubi Azərbaycanda da orta əsr arxeoloji abidələrində çöl tədqiqatları aparılmışdır. 2004-cü ilin fevral-mart və oktyabr-noyabr aylarında Ultan qalasının ərazisində altı yoxlama qazıntısı qoyulmuş, aparılan arxeoloji qazıntıların nəticələri uğurlu olmuş, əldə edilən faktiki materiallar bu abidəni yazılı qaynaqlarda adı çəkilən Varsan şəhəri ilə eyniləşdirməyə imkan vermişdir (K.Alizadeh, 2007). Ərdəbil şəhərinin tarixini, şəhərin ayrı-ayrı inkişaf mərhələlərini müəyyənləşdirmək, onun maddi mədəniyyətini səciyyələndirmək baxımından Came məscidinin və Şeyx Səfi dini-xatirə kompleksinin ərazisində 2005-2006-cı illərdə aparılan arxeoloji tədqiqatlar da əhəmiyyətli olmuşdur (H.Ş.Şiran, 1385). 2004-cü ildə Lalə Ruhəngizin rəhbərliyi ilə Təbriz şəhərində Rəbi Rəşidinin xarabalıqlarında ardıcıl, sistemli arxeoloji qazıntılara başlanılmışdır (L.Rouhangiz, 1384).

XX əsrin son onilliyində və XXI əsrin ilk illərində mütəxəssislər əvvəllər aparılmış çöl tədqiqatlarının nəticəsində toplanmış arxeoloji materialların təhlili və ümumiləşdirilməsinə diqqəti artırdılar. Bunun yekunu olaraq bir neçə monoqrafik tədqiqat əsəri işıq üzü gördü. İlk növbədə Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarının arxeoloji abidələrinin külliyyatının tərtib olunub çap edilməsi təqdirəlayiqdir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1992; 1993; 1993a; A.Q.Seyidov və başqaları, 1995). Azərbaycan Respublikasının ayrı-ayrı bölgələrinin orta əsr arxeoloji abidələrinə həsr olunmuş monoqrafik əsərlər yazıldı (Т.Достиев, 1999; T.M.Dostiyev, 2001; A.Məmmədov, 2000). XX yüzillikdə ayrı-ayrı şəhərlərin arxeoloji qazıntılarından toplanmış materialların sistemləşdirilməsi, yazılı mənbə cəlb edilməklə, çoxplanlı tədqiqinin nəticəsi olaraq bir neçə tarixi-arxeoloji monoqrafik tədqiqat əsəri işıq üzü gördü. B.İ.İbrahimovun Kiran şəhərinə (Б.И.Ибрагимов, 2000), A.B.Nuriyev və Ə.H.Babayevin, Q.Ə.Hacıyevin Bərdə şəhərinə (A.Nuriyev, Ə.Babayev, 2001; Q.Ə.Hacıyev, 2000), F.Ə.Abbasovanın Şabran şəhərinə (F.Abbasova, 2002), K.F.İbrahimovun Bakı şəhərinə (K.Fərhadoğlu; 2006), Kudryavtsevin Dərbənd şəhərinə (А.А.Кудрявцев, 1994) həsr olunmuş monoqrafiyaları nəşr edildi. Ərdəbil şəhərində aparılmış qazıntıların nəticələrini H.Ş.Şiran (H.Ş.Şiran, 1385), Ultan qalasında aparılan tədqiqatların hesabatını K.Əlizadə kitab şəklində (K.Alizadeh, 2007) çap etdirdi. Arxeoloji materiallar əsasında

orta əsr sənətkarlığının ayrı-ayrı sahələrinin, o cümlədən metalişləmə, dulusçuluq sənətlərinin araşdırılmasına həsr edilmiş monoqrafiyalar (F.Ə.İbrahimov, 1995; Р.Дж.Ахмедов 1992; A.İ.Novruzlu 1993; Q.C.Cəbiyev, 2004) işıq üzü gördü. Əziz Novruzlu arxeoloji materiallar əsasında son orta əsr Azərbaycan sənətkarlığının araşdırıldığı monoqrafiyasını çap etdirdi (Ə.İ.Novruzlu, 1997). Arxeoloji materiallar əsasında orta əsr şəhərlərinin su təchizatı məsələləri Etibar Qasımovun monoqrafiyasında hərtərəfli araşdırıldı, yerli hidromühəndislərin yüksək peşəkarlığı çoxsaylı dəlillərlə təsdiqləndi (E.Qasımov, 2002). Orta əsr silahlarına dair S.Əhmədov və E.Cəfərovanın birgə tədqiqatları son illərin uğurlu tədqiqatı hesab oluna bilər. Müəlliflər arxeoloji qazıntılardan tapılmış silah nümunələrini toplayaraq sistemləşdirmiş, onların tipoloji təsnifatını vermişdir (S.Əhmədov, E.Cəfərova, 2005). B.Ə.Rəcəbovanın monoqrafiyasında isə arxeoloji qazıntılardan əldə olunmuş orta əsr bəzəkləri sistemləşdirilərək tipoloji təsnifatı verilmiş, onların hazırlanma texnologiyasından bəhs edilmişdir (B.Ə.Rəcəbova, 2000). Təbiət elmlərində tətbiq olunan metodlardan istifadə metallurgiya və şüşə istehsalı texnologiyasının öyrənilməsində əhəmiyyətli olmuşdur. Orta əsr abidələrindən aşkarlanmış metal məmulatın spektral-kimyəvi analiz metodlarla tədqiqi yerli metallurgiyanın bir çox səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa imkan vermişdir (М.Рагимова, Л.Алиева, 2003). Şabran, Qəbələ şəhərlərinin, Sandıqtəpə yaşayış yerinin şüşə məmulatının miqdarı spektral analizi şüşə istehsalı texnologiyasının başlıca cəhətlərinə aydınlıq gətirmiş, yerli sənətkarların tətbiq etdiyi resept müəyyənləşdirilmişdir (Т.М.Достиев, 1994; T.M.Dostiyev, Q.Ə.Hacıyev, 2000).

Müstəqillik illərində numizmatik materialların sistemləşdirilməsi və ümumiləşdirilməsi üzrə aparılan araşdırmalar uğurla nəticələnmiş, bir neçə ümumiləşdirici əsər çap olunmuşdur (А.М.Раджабли, 1997; Г.А.Пиркулиева, 2001; М.А.Сейфеддини, А.Гулиев, 2002). Ayrıca orta əsr şəhərindən tapılmış sikkələrin araşdırıldığı monoqrafiya işıq üzü görmüşdür (М.А.Сейфеддини. 2000).

Şübhəsiz ki, yığcam bir icmalda orta əsrlər arxeologiyası üzrə tədqiqatları hərtərəfli və xırdalıqları ilə təhlil etmək imkan xaricindədir. Bununla belə, bu icmalda aparılmış tədqiqatların başlıca istiqamət və nəticələrini göstərməyə, XXI əsrin başlanğıcında Azərbaycanın orta əsrlər arxeologiyasında həllini tapmış və həllini gözləyən problemləri müəyyənləşdirməyə cəhd etmişik.

# II FƏSİL

## YAŞAYIŞ YERLƏRİ

Arxeoloji abidələr arasında yaşayış məskənlərinin xarabalıqları özlərində daha zəngin və tarixi əhəmiyyətli informasiyanı cəmləşdirməsi ilə digər kateqoriyalara nisbətən öndə durur (Древняя Русь, 1985, стр. 30). Bu səbəbdən Azərbaycanın feodal cəmiyyətinin öyrənilməsində orta əsr yaşayış yerlərinin arxeoloji tədqiqinin əhəmiyyəti əvəzsizdir. Bəllidir ki, hər bir yaşayış məskəni özündə bir sıra iqtisadi, sosial-mədəni və siyasi qanunauyğunluqları təcəssüm etdirir. Şəhər və kənd yaşayış məskənlərinə diqqət yetirdikdə dörd aspekt xüsusilə qabarıq nəzərə çarpır. Birincisi, bu yaşayış məskənləri əməyin müxtəlif növlərini özlərində təmsil edir. İkincisi, topoqrafik baxımdan şəhər və kənd yaşayış məskənləri ciddi fərqlənir. Üçüncüsü, şəhər və kənd yaşayış məskənlərinin hər biri üçün özünəməxsus sosial qrupların məskunlaşması səciyyəvidir (М.И.Межевич, 1979, стр. 48). Dördüncüsü, üç əvvəlki əlamət bu fərqli yaşayış məskənlərində mədəni həyat səviyyəsinin müxtəlifliyini şərtləndirmişdir.

Yaşayış məskənlərinin daşıdıqları funksiyalar arxeoloji baxımdan abidələrin ölçüsündə, daxili strukturunda və tapıntıların tərkibində özünü əks etdirir. Buna müvafiq olaraq, yaşayış yerinin bu və ya digər tipə aid edilməsi abidədə bir sıra arxeoloji əlamətlərin varlığına əsaslanır. Yaşayış yerinin sahəsi, istehkamın olub-olmaması, tikililərin xarakteri, saray və ictimai-dini tipli monumental binaların varlığı, istehsal komplekslərinin, ticarətlə əlaqəli tikili və ləvazimatın, abadlıqla bağlı qurğuların mövcudluğu, ev avadanlığı və zinət əşyalarının xarakteri və s. belə əlamətlərdəndir (T.M.Dostiyev, 2001, səh. 34).

Yazılı mənbələrin məlumatı və arxeoloji tədqiqatların nəticələri Azərbaycanda IX-X əsrlərdə şəhər həyatının canlanması, XI-XII əsrlərdə isə şəhərlərin sürətli inkişafını sənədləşdirir. Məlumdur ki, urbanizasiya və onunla bağlı proseslər müsəlman sivilizasiyasının mühüm fenomeni idi. Müsəlman Şərqində urbanizasiya prosesinin sürətlənməsi öz təcəssümünü şəhərsalma fəaliyyətinin genişlənməsində, şəhər həyat tərzinin möhkəmlənməsində, sosial-psixoloji kontekstin dəyişməsində, yeni tip şəhərin formalaşmasında tapdı. Müsəlman dünyasının tərkibində olan Azərbaycan bu proseslərdən kənarda qala bilməzdi.

Yaşayış məskənlərinin mürəkkəb sistemində şəhərlər istehsal, mədəni və intellektual potensialı cəmləşdirməsi, hərbi-inzibati, sənətkarlıq, ticarət, dini-mədəni mərkəz olması, kənd nahiyəsinə münasibətdə idarəedici funksiya daşıması ilə aparıcı mövqeyə malik idi (В.М.Массон, 1999, стр. 4). Yazılı mənbələrin təhlili və arxeoloji

qazıntıların nəticələri feodal şəhərlərinin üç tipini ayırmağa imkan verir. İstehkamlı sahəsi 100 hektara yaxın və daha artıq olan iri şəhərlər ayrı-ayrı dövrlərdə Azərbaycan feodal dövlətlərinin paytaxtı və ya mühüm mərkəzi olmuşdur. Onların iqtisadiyyatı sənətkarlıq və ticarətə əsaslanırdı. Bu şəhərlər ölkənin intellektual potensialının cəmləşdiyi başlıca mərkəzlər idi. Bərdə, Gəncə, Dəbil, Naxçıvan, Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Dərbənd belə şəhərlərdən idi. Həmin şəhərlərin əhalisinin sayı 100 minə yaxın və ya daha çox idi.

İstehkamlı sahəsi 20-60 hektara qədər ərazini əhatə edən, əsasən vilayət mərkəzləri olmuş orta dərəcəli şəhərlər sırasına Beyləqan, Əhər, Zəncan, Bakı, Qəbələ, Şabran, Şəmkir və başqalarını aid etmək olar.

Ümumi sahəsi 20 hektardan çox olmayan, yerli əhəmiyyətə malik mahal mərkəzlərindən ibarət kiçik şəhərlər sırasında Cəlilabad rayonunda qeydə alınmış Bəcrəvan şəhərinin xarabalıqlarını, Xunan şəhəri ilə eyniləşdirilən Torpaqqala şəhər yerini, Gilgilçay sahilində yerləşən Şəhərgahı və başqalarını göstərmək olar. Buraya həm də şəhərtipli iri yaşayış yerlərini aid etmək olar. Şəhərlərin belə arxeoloji tipoloji bölgüsü yazılı qaynaqlardakı müsəlman şəhərlərinin təsnifatına uyğun gəlir. Belə ki, yazılı qaynaqlarda paytaxt şəhərlər "misr", vilayət mərkəzləri "qəsəbə", mahal mərkəzləri "mədinə" adlandırılır (Əl-Müqəddəsi, 1967). Lakin bunu da xatırladaq ki, orta çağ müəlliflərinin şəhərin statusuna dair təsəvvürləri konkret deyildi. Ərəb coğrafiyaşünası əl-Müqəddəsi üçün başlıca meyar yaşayış məntəqəsində Came məscidinin olması vacib şərt idi. Və yaxud, XIII əsrin əvvəllərində Azərbaycanda olmuş Yaqut Həməvi Ərdəbil, Dərbənd kimi böyük və əhəmiyyətli şəhərləri mədinə adlandırır (N.Əliyeva, 1999, səh. 68).

Yazılı qaynaqların məlumatı və arxeoloji tədqiqatların nəticələrini müqayisəli təhlil edən tədqiqatçılar inkişaf etmiş orta əsrlərdə Azərbaycanda 70-ə yaxın şəhərin fəaliyyətdə olduğunu müəyyənləşdirmişlər.

Ümumiyyətlə, Azərbaycanın IX-XII əsr yaşayış məskənləri arxeoloji baxımdan şəhər xarabalıqları, qala və qəsr qalıqları, kənd tipli yaşayış yerləri ilə təmsil olunmuşdur.

## Şəhərlər

Bir halda ki, arxeoloji qazıntılar əsasən orta əsr şəhərlərinin xarabalıqlarında aparılmışdır, əvvəlcə qısa da olsa onların üzərində dayanaq. IX-XIII əsrin şəhərlərindən Şimali Azərbaycan ərazisində ən məşhur olanları Gəncə, Beyləqan, Naxçıvan, Şabran, Şamaxı, Şəmkir, Dərbənd, Bakı, Dəbil, Qəbələ, Bərdə, Şəki idi. Bunlardan bəziləri - Bakı, Şamaxı, Naxçıvan, Dərbənd öz köhnə adlarını saxlamış və indi də bu şəhərlərdə həyat davam etməkdədir. Tarix səhnəsindən silindikdən sonra öz adını yaxın yaşayış

məskəninə vermiş şəhərlərin də tarixi yerlərini aydınlaşdırmaq asandır. Beləlirinə aiddir: Bərdə (indiki Bərdə rayon mərkəzi), Gəncə (indiki yeni Gəncə), Şəmkir (indiki Şəmkir şəhəri), Qəbələ (indiki Çuxur Qəbələ kəndi). Beyləqan şəhərinin yeri məsələsində böyük mübahisə ortaya çıxmışdır. Hazırda bu şəhərin xarabalıqlarının Örənqala olduğu sübut edilmişdir (Q.M.Əhmədov, 1979). Şəki şəhərinin yeri haqqında da müxtəlif fikirlər söylənmişdir.




Xəritə 1. Azərbaycan Respublikası. Orta əsr arxeoloji abidələri.

1. Yaqub oba; 2. Günəşli; 3. Seyidli; 4. Xuray; 5. Qalaxur; 6. Çilagir; 7. Dəyirmantəpə; 8. Qaflatəpə; 9. Məscidtəpə; 10. Aqbilbaba; 11. I Güllütəpə; 12. III Güllütəpə; 13. Yurdyerləri; 14. Sandıqtəpə; 15. Sərkartəpə; 16. Canaxır; 17. Enıx; 18. Curuxev; 19. Qalaqantəpə; 20. Aşağı Zeid; 21. Talabı; 22. Daşlıtəpə; 23. Köhnəpir; 24. Güneyməhlə; 25. Qalagilər; 26. Rutar; 27. Köhnə Xudat; 28. Nohurdüzü; 29. Dağbilici; 30. Darazarat; 31. Fındıqan; 32. Qalayeri; 33. Utuq; 34. Taxtalar; 35. Torpaqqala (Qax rayonu); 36. Eşikqala; 37. Maluq; 38. Müxas qülləsi; 39. Aydınbulaq qülləsi; 40. Xırmantəpə; 41. Şihitəpə; 42. Daxaltəpə; 43. Ağcaburun; 44. Çaxcadı; 45. Qalacıq; 46. Sulut; 47. Xan yurdu; 48. Kəndyeri; 49. Ağzəmi; 50. Quşçona; 51. Qalacıq; 52. Tova; 53. Məlikçoban; 54. Xocalı yalı; 55. Gümüşlü; 56. Bilgəh; 57. Mərdəkan; 58. Binəqədi; 59. Balaxanı; 60. Ramana; 61. Bakıxanov; 62. Hökməli; 63. Novxanı; 64. Qaramanlı; 65. Qaraqaşlı; 66. Xıllı; 67. Bayat; 68. Keçili; 69. Muncuqlutəpə; 70. Çobanabdallı; 71. III Hacıalılı; 72. Fahralı; 73. Mingəçevirdə yaşayış yeri; 74. Şahərburnu; 75. Qoşatəpə; 76. Qalakənd; 77. Kilsəkənd; 78. I Güllütəpə; 79. Govurqala; 80. Əmirahmədtəpəsi; 81. Qurdtəpəsi; 82. Qalatəpə; 83. Qaratəpə; 84. Çardaxlı; 85. Kültəpə; 86. Qalaça; 87. Dəyirmanyeri; 88. Qızıltəpə; 89. Mızırtəpə; 90. Əlilənbəyli; 91. Hacıtahmaztəpə; 92. Marışlı; 93. Xol Qaraqaşlı; 94. Şilavəngə; 95. Pohutəpə; 96. Kolatlar; 97. Kürələr; 98. Qızılağac; 99. Alaşar; 100. Babək; 101. Babək qalası; 102. Şəhriyar; 103. Güllük; 104. Mahmudavar; 105. Türkoba; 106. Sarək; 107. Qalacıq; 108. Vargədüz; 109. II Şilavəngə; 110. Bozayran; 111. Ovçutəpə; 112. Pani; 113. İlantəpə; 114. Noda; 115. Büzeyrqala; 116. Lilidiqo; 117. Cəlalmiyon; 118. Qızqalası; 119. Qızyurdu; 120. Kosalar; 121. Kotevan; 122. Şakaşəhər; 123. Şıxnadul; 124. Sindan; 125. Alaşa; 126. Ərçivan; 127. Təngərud; 128. Qırxtürbə şəhər yeri; 129. Bəlləbur; 130. Sədərək; 131. Şərur; 132. Billəva; 133. Hadiqaib; 134. Tamaşalı; 135. Almalı; 136. Yurdçu; 137. Şaxtaxtı; 138. Tazəkənd; 139. Parçı; 140. Qarabağlar; 141. Vayxır; 142. Sahbuz; 143. İşıqlar; 144. Qoçüstü; 145. Yeycə; 146. Camaldın; 147. Cuğa; 148. Xanağa; 149. Qıtqın; 150. Əlincəqala; 151. Qazançı; 152. Saltaq.

Bu günə qədər Şirvan, Abxaz və bir sıra başqa şəhərlərin tarixi yeri tam aydınlaşdırılmamışdır. Adı təkcə ilk mənbələrdən bizə məlum olan, məsələn, Balasacan, Bərcic, Bərzənd, Zeym (Zayam), Kalkatus, Kərkərə, Yunan və s. kimi şəhərlərin yerləri arxeoloji cəhətdən müəyyən olunmamış və ya dəqiqləşdirilməmişdir. Bir sıra şəhər və qala yerlərinin (Bəndovan, Qızılburun, Qalaca və başqaları) tarixi adları indi də məlum deyildir.

Tarixi mənbələrin araşdırılması və arxeoloji axtarışların nəticəsi göstərir ki, Azərbaycanın IX-XIII əsrlərə aid şəhərlərinin əksəriyyəti ölkənin iqtisadi cəhətdən daha inkişaf etmiş və əhali ilə sıx məskunlaşmış, həmçinin, magistral ticarət yolları keçən strateji cəhətdən əhəmiyyətli olan ərazilərində yerləşmişdir. Başqa Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da şəhərlər sənətkarlıq və ticarət mərkəzləri kimi əsasən IX-X əsrlərdə formalaşmış, sonrakı iki əsrdə, XI-XII əsrlərdə çiçəklənmə çağını keçirmişdir. Azərbaycan tarixinə bu dövr inkişaf etmiş orta əsrlər dövrü kimi daxil olmuşdur. Söz yox ki, bu şəhərlərin formalaşması və inkişafında ilk orta əsrlərdə və ondan qabaqkı dövrlərdə yaranmış bazanın mühüm rolu olmuşdur. Hər halda arxeoloji qazıntılar zamanı müəyyən olunmuşdur ki, inkişaf etmiş orta əsrlərdə şəhərlərin - Qəbələ, Gəncə, Beyləqan, Dərbənd, Şabran, Bakı və s. ərazisi ilk orta əsrlərə nisbətən daha sıx məskunlaşmış və daha geniş sahəni əhatə etmişdir. Gəncənin yalnız qala divarlarının içərisindəki sahəsi 250 hektara bərabər idi. Yazılı mənbələrin verdiyi məlumata əsasən, Bərdənin təkcə Həftəbazar meydanı 50 hektar ərazini əhatə edirdi. Beyləqanın qala divarlarından içəridəki sahə 40 hektara yaxın, Şəmkirdə isə 28 hektar idi.

Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanın da orta əsr şəhərləri əsasən üç sosial-iqtisadi topoqrafik hissədən - narınqala (iç qala), şəhristan (içərişəhər) və rabaddan (bayır şəhər) ibarət idi. Şəhərlərin belə quruluşu feodal cəmiyyətində baş verən sosial-iqtisadi proseslərlə bağlı idi. Bu üç səciyyəvi topoqrafik hissənin hər birinin formalaşması öz növbəsində bir sıra sosial-iqtisadi və hərbi-siyasi amillərlə bağlı idi. Şəhərin siyasi və inzibati mərkəz funksiyasını yerinə yetirməsi onun ərazisində ən əlverişli yerdə narınqalanın və hökmdar sarayının meydana gəlməsini şərtləndirmişdi. Ölkənin, vilayətin, mahalın idarəsi buradan həyata keçirilir, burada qanunlar və fərmanlar hazırlanır, ölkədə və ya vilayətdə baş verən hadisələr müzakirə olunur, toplanan vergilər buradakı xəzinəyə daxil olurdu.

Şəhərin hərbi-inzibati və mədəni-ideoloji mərkəz rolunu oynaması dövlət idarəçiliyində və mədəni-dini sahədə fəal iştirak edən feodal sinfinin şəhristanda yerləşməsini, şəhərin bu hissəsində monumental ictimai-dini binaların, ticarət obyektlərinin, imarətlərin və çoxotaqlı, yaraşıqlı evlərin inşa olunmasını, abadlıq tədbirlərinin daha ciddi həyata keçirilməsini şərtləndirmişdi. Sənətkarlıq və ticarətin

inkişafı nəticəsində yeni topoqrafik hissə - sənətkar məhəllələrinin cəmləşdiyi rabad formalaşmışdır. Dövrün mühüm fərqləndirici cəhətlərindən biri qaynar iqtisadi həyatın rabada keçməsində və bu hissənin genişlənməsi hesabına şəhərlərin sürətlə inkişaf etməsindədir (T.M.Dostiyev, 1999, səh. 30). Bununla belə üçpilləli plan quruluşu heç də daim ciddi gözlənilməmiş, bəzən bu və ya digər topoqrafik hissə müəyyən səbəblərdən mövcud olmamışdır.

Şəhərlərin salınmasında orta əsr memarları təbii landşaft və iqlim amillərini nəzərə almış, şəhərlər ərazinin topoqrafik xüsusiyyətlərinə uyğunlaşdırılmışdır. Sərbəst fəaliyyətə imkan verən düzən ərazilərdə şəhərlərin plan quruluşunun əsasında bir qayda olaraq kvadrat və ya düzbucaq durduğu halda, dağətəyi və dağlıq ərazilərdə salınmış şəhərlərin plan quruluşu ərazinin relyefindən asılı idi.

Şəhər əhalisinin əksəriyyətini sənətkar və tacirlər təşkil edirdi. Onlar həm daxili, həm də xarici bazarın tələbatını ödəmək üçün mal istehsal edir, onun satışına nail olurdular. İri şəhərlərdə istehsalda standartlaşma və mədəni inteqrasiya prosesləri özünü daha qabarıq büruzə verirdi.

Yaşayış məskənləri sistemində şəhərtipli iri yaşayış məntəqələri də özünəməxsus yer tuturdu. Mürəkkəb müdafiə istehkamlarına malik olmayan bu yaşayış məskənlərinin iqtisadi həyatında əkinçilik təsərrüfatı mühüm rol oynayırdı. Bu tip abidələrə orta əsr Mingəçevir yaşayış yerini, Torpaqqalanı (Qax rayonu), Şəmkir rayonunda Muncuqlutəpəni və digərlərini misal gətirmək olar. Həmin şəhərlərin və şəhərtipli yaşayış məskənlərinin çoxu hələ erkən orta əsrlərdə və daha qədimdən mövcud olmuşdur.

IX-XIII əsrin əvvəllərində ölkədə müdafiə sisteminin etibarlılığını yüksəltmək məqsədilə yeni qala, qəsr və qüllə tikintisi vüsət almışdı. Bunlardan bəziləri feodal qəsrləri olub ayrı-ayrı hökmdarların yay iqamətgahı rolunu oynamış (Gülüstan, Əlincəqala, Ruin-dej və s.), bəziləri dağ keçidlərini qorumaq məqsədi güdmüş (İsmayıllı və Gədəbəy rayonlarındakı Qız qalaları, Şəkidə Eşik qalası, Astara rayonunda Şindan qalası), bəziləri gözətçi məntəqəsi kimi istifadə edilmişdir (Muxas, Aydınbulaq, Mərdəkan qüllələri). Əlbəttə, bu ixtisaslaşmaya baxmayaraq, onlardan eyni vaxtda müxtəlif məqsədlər üçün də istifadə olunurdu. Bu abidələrdə aparılan arxeoloji tədqiqat işləri zamanı orta əsrlərə aid xeyli maddi mədəniyyət qalıqları, xüsusilə saxsı məmulatı əldə edilmişdir. Həmin faktik materiallar göstərilən qalaların inşa tarixini dəqiq müəyyən etməyə imkan verməsə də, onların dövrünü ümumi şəkildə aydınlaşdırmaq mümkün olmuşdur.

Şəhər, qala-şəhər, şəhərtipli iri yaşayış yerləri və kənd tipli yaşayış yerlərində aşkara çıxarılmış arxeoloji materialı səciyyələndirmə və ümumiləşdirmədən əvvəl

onların hər birində aparılmış arxeoloji qazıntılar haqqında, orta çağda Azərbaycanda mövcud olmuş tarixi-coğrafi bölgələr üzrə, qısa da olsa, bəhs etmək məqsədəuyğundur.

Şamaxı şəhəri beynəlxalq ticarət yolunun üzərində salınmış, Şirvanın paytaxt şəhəri olmuşdur. Dağın yaxşı günəş tutan cənub və şərq yamaclarında salınmış bu şəhərin plan quruluşuna təbii-coğrafi şərait öz təsirini göstərmişdir. Onun qala divarları ilə əhatə olunan sahəsi 91 hektara bərabərdir (tablo 1, şək. 1). Hakim relyef şəraitində yerləşən Narınqala altıkünclü plan quruluşuna malik olub, 7 hektara yaxın sahəni əhatə edirdi (Г.А.Джидди,1981, стр. 44). Şəhərin qala divarlarından bayırda cənuba və şərqə tərəf sənətkar məhəllələri - rabad yerləşirdi (Г.А.Джидди, 1981, стр. 43).

Şamaxı şəhərinin ərazisində əsasən 8 sahədə: şəhərin mərkəzi (II sahə), cənub (I, V, VI, VIII sahələr), şimal-şərq (I, V sahə) və şərq (III, VII sahələr) hissələrində arxeoloji qazıntılar aparılmışdır.



**Şamaxı. Narınqalanın bərpa layihəsi.**

Şəhər yeri müasir tikililərlə örtülü olduğu üçün arxeoloji qazıntı işləri başlıca olaraq, kiçik sahələrdə (15-300 *kv.m*) görülmüşdür. Buna baxmayaraq, şəhərin orta əsr maddi mədəniyyətinin müxtəlif sahələrini öyrənmək üçün xeyli imkanlar əldə edilmişdir. İlk növbədə, şəhərin orta çağ mədəni təbəqə yatımının xarakteri və qalınlığı müəyyənləşdirilmişdir. İç qalada (narınqalada) 3-4 *m*, şəhristanda 4-5 *m*, şəhərin kənarlarında - rabadda isə 2-2,5 *m* qalınlıqda mədəni təbəqə yatımı olduğu aydınlaşdırılmışdır. Mədəni təbəqə yatımında üç, biri digərini ardıcıl əvəz edən inşaat qatı aşkara çıxarılmışdır (Г.А.Джидди, 1974a, стр. 50).

Mədəni təbəqə yatımının alt qatları VIII-IX yüzilliklərə aid olmaqla erkən şirli saxsı məmulatla səciyyələnir. Burada çaydaşılarından adi palçıqla hörülmüş yaşayış evlərinin bünövrələri, ocaq qalıqları, təsərrüfat və su quyuları üzə çıxarılmışdır.

X-XII əsrlərin mədəni təbəqə yatımı daha qalın və tapıntılarla zəngindir. İlk növbədə, yaxşı yonulmuş daşdan, əhəngli məhlulla hörülmüş içqala və şəhər qala divarlarının qalıqları böyük maraq doğurur. Bundan başqa, həmin inşaat qatında küçə qalığı, yaşayış evlərinin, ictimai və dini binaların bünövrələri, təsərrüfat quyuları, tünglərdən quraşdırılmış su kəməri, kanalizasiya xətti üzə çıxarılmışdır. Sənətkarlar məhəlləsində dulusçu emalatxanası, dəmirçixana aşkarlanmış, istehsalla bağlı kürələrin qalıqları, əmək alətləri, istehsal çıxarları və tullantılar üzə çıxarılmış, çoxlu tapıntılar əldə olunmuşdur (Г.А.Джидди 1981; 1990). Diqqəti cəlb edən tikili qalıqları arasında sənətkarlar məhəlləsində aşkarlanmış XI-XII əsrlərə aid anbar otağın qalıqları da vardır. Anbarda bir-birinin yanında, çiyninə qədər torpağa basdırılmış beş iri təsərrüfat küpü aşkarlanmışdır. Küplərdən ikisində qatılaşmış neft, digər ikisində əhəng məhlulu var idi. Beşinci küpdə isə su saxlanılmışdı (Г.А.Джидди, 1981 a, стр. 419). Anbardan altda isə VIII-IX əsrlərin dulusçu emalatxanası yerləşirdi.

Şamaxıda tədqiq olunan diqqətəlayiq tikililərdən biri də 1983-1985-ci illərdə Came məscidinin həyətində mədrəsə tipli kompleksin üzə çıxarılması və arxeoloji qazıntılarla öyrənilməsidir (H.Ciddi, N.Musayev, 1991, s.24-31).

İnkişaf etmiş orta əsrlərdə Şirvanın ən böyük şəhərlərindən olan, ərəb müəlliflərinin "Bab əl-Əbvab" adlandırdıqları Dərbənd şəhəri IX-X əsrlərdə özünün çiçəklənmə çağını yaşamışdır. Xəzər dənizinin qərb sahilində ən böyük limana malik bu şəhər mühüm hərbi-strateji, ticarət və sənətkarlıq mərkəzi idi. VIII-X əsrlərdə şəhərin sıçrayışlı yüksəlişi şəhristanda monumental ictimai və dini binaların, yaşayış evlərinin inşasının geniş vüsət alması ilə müşayiət olunurdu. Həmin çağda şəhərin qala divarları arasında olan 150 hektardan artıq ərazisi sıx məskunlaşmışdı (А.А.Кудрявцев, 1982, стр. 143).

1972-ci ildən aparılan arxeoloji qazıntılar şəhərin topoqrafiyasına aydınlıq gətirmiş, onun iki hissədən: narınqala və şəhristandan ibarət olduğunu göstərmişdir (tablo 1, şək. 4). Dərbəndin müdafiə sistemində xüsusi yer tutan Narınqalada saray, qarnizon üçün kazarma, inzibati binalar, təsərrüfat tikintiləri və su anbarı var idi. VIII-IX əsrlərdə Narınqalanın şərqində ucaldılmış saray kompleksi 600 *kv.m-dən* artıq sahəsi olub, çoxotaqlı plan quruluşuna malik idi. Qalınlığı 1-1,5 *m* olan divarları daşdan əhəng məhlulu ilə hörülmüşdü. X əsrin sonu - XI əsrdə saray kompleksi Narınqalanın şimal-qərbinə köçürülmüşdü. Burada düzbucaqlı plan quruluşuna malik saray kompleksi ucaldılmışdı (А.А.Кудрявцев, 1982, стр. 148-149; 1982a, стр. 43-52). Arxeoloji qazıntılar nəticəsində IX-X əsrlərin mədəni təbəqəsi şəhərin şəhristan hissəsinin demək olar ki, bütün ərazisində qeydə alınmışdır. Şəhristanın dənizkənarı hissəsində mədəni təbəqənin IX-X əsrlərə

məxsus qatının qalınlığı 50-70 *sm* təşkil edir və bu da intensiv məskunlaşmanı göstərir (А.А.Кудрявцев, 1982а, стр. 57).

Dərbəndin səciyyəvi xüsusiyyətlərindən biri sənətkarlıq və ticarətin VIII-X əsrlərdə güclü inkişafı nəticəsində şəhristanın iki hissəyə ayrılması - aşağı, dənizkənarı hissədə, əsasən, sənətkar və tacirlərin məhəllələrinin formalaşması ilə bu hissənin bir növ özünəməxsus rabada çevrilməsi, şəhərin yuxarı hissəsinin, Came məscidi ətrafının şəhristan funksiyasını davam etdirməsidir, (А.А.Кудрявцев 1982, стр. 150).

Arxeoloji qazıntılar zamanı şəhristanın yuxarı hissəsində tədqiq olunmuş təmtəraqlı evlər, ictimai və dini binalar, nəhəng su anbarı və digər monumental tikililər burada əsasən feodal sinfi nümayəndələrinin yaşadığına dəlalət edir. Şəhərin bu zaman başlıca olaraq ticarət, ictimai-siyasi və mədəniyyət mərkəzi Came məscidi yaxınlığındakı bazar meydanında cəmləşmişdi (А.А.Кудрявцев, 1982, стр. 150; 1982а, стр. 59). Dərbəndin bazar meydanının mühüm mərkəzə çevrilməsi əl-Müqəddəsinin məlumatında da öz əksini tapmışdır. O yazırdı: "Came məscid bazar meydanının ortasındadır. Burada su bulağı var. Binaları daşdandır" (N.M.Vəlixanlı, 1974, səh. 132).



**Dərbənd. Narınqalanın qərb divarının yanındakı qazıntı sahəsindən görünüş.**

Bazar meydanından qərbdə və cənubda ictimai binalar, cənubda həm də yaşayış evləri, şərqdə isə şəhristanı iki hissəyə ayıran arakəsmə divar yerləşirdi (А.А.Кудрявцев, 1982 а, стр. 64).

Arxeoloji qazıntılar zamanı təpənin ətəklərində aşkarlanmış köndələninə divarlar Dərbəndin özünəməxsus daxili quruluşunu müəyyənləşdirməyə imkan vermişdir. Artıq XI-XIII əsrlərdə şəhər iki deyil, üç tərkib hissədən ibarət olmuşdur (А.А.Кудрявцев, 1982а, стр. 110-113).

Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələ şəhəri orta əsrlərdə də Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri idi. Onun ərazisi "Səlbir", "Qala" adlanan hissələri və onların ətrafındakı - Kamaltəpə, Bayır şəhər və

sənətkarlıq məhəlləsini əhatə edirdi (tablo 1, şək. 2). Hazırda Səlbir-Qala sahəsi 25 hektarı əhatə edir. Şəhər yerində müxtəlif yerüstü arxeoloji materiallara rast gəlinir. Bunların içərisində IX-XVII əsrlərə aid şirli qab qırıqları daha çoxdur. Səlbir-Qala aşağıda, cənubda qovuşan iki dağ çayları arasında hündür yastı təpəlikdə yerləşməklə müdafiə baxımından əlverişli mövqedədir. Bu ərazi həm də kirəc məhlulunda çaydaşı, yonma puçdaş və kvadrat formalı bişmiş kərpiclə hörülmüş qala divarları ilə də hasara alınmışdır. Qala divarlarının qalıqları, darvaza yeri və darvaza bürcləri şəhər yerinin cənubunda daha yaxşı saxlanmışdır. Burada qala divarları şəhərin içəri səthindən 6 *m*-dək yüksəklikdə qalmışdır.

Qəbələ şəhər yerində - Səlbirdə 11, Qalada isə 8 sahədə qazıntı işləri aparılmışdır. Səlbirdə üst təbəqə XI-XII əsrlərə aid material verir. Burada 1959-1960-cı illərdə yaşayış və təsərrüfat tikililəri, su kəmərləri, kərpic döşəmələr, təndir, ocaq qalıqları, təsərrüfat və məişət quyuları, qəbirlər aşkar olunmuş, çoxlu miqdarda saxsı, metal, şüşə məmulat və sikkələr əldə edilmişdir (S.M.Qazıyev, 1964, səh. 24-33). 1967-ci ildə Səlbirin şimal divarının hissəsi və bir bürcü qazılmış, 1974-1978-ci illərdə Səlbirin cənub-qərb tərəfində kvadrat bürc və ona bitişik qala divarı və şəhərin mədəni təbəqələri tədqiq olunmuşdur (Ф.В.Гадиров, 1975; стр. 62-65; 1978, стр. 40-42). 1988-1989-cu illərdə Səlbirin şimal qala divarında iki yerdə (X-XI sahələr) stratiqrafik əhəmiyyətli qazıntılar aparılmış və cənubunda Səlbiri Qaladan ayıran xəndəyin kənarında, yenə iki yerdə (VIII-IX sahələr), üst mədəni təbəqələr öyrənilmişdir. Həmin qazıntılaradək Səlbirin cənub tərəfində xəndək boyu qala divarının olub-olmaması mübahisəli idi. Qazıntılar burada qala divarlarının olmadığını təsdiqlədi. Bəlli oldu ki, sakinlər Səlbiri tərk edənə qədər şəhər vahid qala divarları ilə müdafiə olunmuş, xəndək isə sonradan qazılmış, Qala hissənin müdafiəsinə xidmət etmişdir (Q.M.Əhmədov, 1992, səh. 62).

12 hektar sahəni tutan Qala hissədə mədəni təbəqə yatımı daha zəngin olub, qalınlığı 5 *m-ə* çatır. Burada I əsrdən başlamış XVIII əsrədək fasiləsiz intensiv həyat olmuşdur.

Qalada 1926 və 1945-ci illərdə aparılan qazıntılar əsasən kəşfiyyat xarakterli olmuş, kiçik həcmdə aparılmış və heç bir sahə xam torpağa qədər qazılmamışdır. Bəzi divar bünövrələri aşkar olunmuş, saxsı qab, şüşə və digər əşyaların sınıqları tapılmışdır. Az-çox aydınlıq 1960-1961-ci illərdə aparılan qazıntılar zamanı əldə edilmişdir. VII-XVII əsrləri əhatə edən, biri digərinin üzərində ardıcıl yerləşmiş üç mədəni təbəqə aşkara çıxarılmışdır. Gil məhlulu ilə çaydaşı, yonulmuş daş və bişmiş kərpiclə hörülmüş divar qalıqları üzə çıxarılmış, çoxlu təndir, ocaq, küp, quyu və s. aşkarlanmış, şirli və şirsiz qab qırıqları, şüşə, metal məmulat və sikkələr əldə edilmişdir. Həmin qazıntılarda

aşkar olunmuş dulus kürəsi orijinal formaya malik olması ilə diqqəti cəlb etmişdir (О.Ш.Исмизаде, 1964 б; S.M.Qazıyev, 1964).

1963-cü ildə Qalanın təxminən ortasında 240 *kv.m* sahədə qazıntılar aparılmış və burada nəhəng bir binanın qalıqları aşkar olunmuş, çoxlu əşyalardan ibarət olan materiallar əldə edilmişdir (İ.Ə.Babayev, Q.M.Əhmədov, 1981, səh. 29). 1971-1983-ci illərdə Covurluçayın uçurumu yanında (IV sahə) aparılan qazıntılar zamanı isə daha böyük sahə əhatə olunmuş, onun xeyli hissəsi xam torpağa çatdırılmış, orta əsrlərə aid (III-XVIII) dörd mədəni təbəqənin varlığı müəyyən edilmiş, burada mədəni təbəqələrin ümumi qalınlığının 4-5 *m* olduğu aydınlaşdırılmışdır. Xeyli bina bünövrələri, təsərrüfat tikililəri və dulus kürəsi qalıqları, təndirlər, quyular, su qurğularının hissələri, çoxlu qab-qacaq, metal, şüşə, sümük əşya parçaları, sikkələr və s. tapılmışdır (Г.М.Ахмедов, Ф.В.Гадиров, 1974; Г.М.Ахмедов, 1975; Г.М.Ахмедов, 1978; Г.М.Ахмедов, В.П.Фоменко, 1979; Г.М.Ахмедов, Г.Дж.Джабиев,1980; Г.М.Ахмедов 1982; 2003a). IV qazıntı sahəsində üzə çıxarılmış evlərin qalıqlarının tədqiqi XII-XIII əsrlərdə şəhərdə tikililərin sıx yerləşdiyi və tez-tez yanğınların baş verməsini göstərmişdir (Г.М.Ахмедов, 2003a, стр. 93). Qala hissəsinin cənub darvazası qarşısındakı Kamaltəpədə orta əsrlərdə şəhərin Came məscidi yerləşirdi. Kamaltəpədən cənuba təxminən 10 hektar ərazini əhatə edən "Bayır şəhər"də aparılmış tədqiqatlarla tikili qalıqları izlənmişdir (Ф.В.Гадиров, 1990, стр. 23). Qəbələ şəhər yerinin şərq sahəsində yerli əhalinin "Yanıq yer" adlandırdığı sənətkarlar məhəlləsi yerləşirdi. Sahəsi 10 hektara çatan sənətkarlar məhəlləsində aparılmış arxeoloji qazıntılar nəticəsində X-XI əsrlərə aid istehsalat tikilisi qalıqları - bir kərpic, bir dulus kürəsi üzə çıxarılıb tədqiq edilmişdir (Ф.В.Гадиров, 1990, стр. 29-31). Təxmini hesablamalara əsasən bu kərpic kürəsində birdəfəyə 15 minə qədər kərpic bişirilə bilərdi (İ.Əliyev, F.Qədirov, 1985, səh. 17).

Bakı şəhəri IX-XIII əsrlərdə Xəzər dənizinin qərb sahilində mühüm liman şəhəri və Şirvanın sənətkarlıq - ticarət və mədəniyyət mərkəzlərindən biri olmuşdur (tablo 1, şək. 3). Şəhərin keçmiş şöhrəti haqqında onun ərazisində indi də qalmaqda olan məşhur Qız qalası, xalq arasında Sınıqqala adlanan məscid-minarə, qala divarları, qala bürcləri, Bayıl buxtasındakı qəsr qalıqları və s. abidələr xəbər verir. Şəhərin orta əsr ərazisini tam aydınlaşdırmaq mümkün deyil, çünki onun, xüsusilə, qala divarlarından xaricdə olan sahəsi müasir binalar və asfalt yollar altında qalmışdır. Hər halda tam aydın olmuşdur ki, XII əsrdə tikilmiş qala divarı içərisində olan sahə - İçərişəhər artıq tamamilə məskunlaşmışdı. Bakıda arxeoloji qazıntılar bərpa işləri nəticəsində və şəhərin yenidən qurulması ilə əlaqədar boşalan sahələrdə aparılmışdır.

Bakıda İçərişəhərdə aparılan qazıntılarda orta əsrlərə aid əsasən iki mədəni təbəqə aşkara çıxarılmışdır. Bu təbəqələrin ümumi qalınlığı mərkəzi hissədə 5,5-6 *m-ə* çatırsa, kənarlarda 3,5-4 *m* və daha ucqarlarda 2,5-3 *m*-dək azalır.

Şəhərin Şirvanşahlar sarayı ərazisində aparılmış arxeoloji qazıntı işləri nəticəsində orta əsrlərə aid zəngin mədəni təbəqə yatımı aşkara çıxarılmışdır (В.Н.Левиатов, 1945; 1946a; 1948; 1948a; 1949). Qazıntılar zamanı yaşayış binalarının qalıqları, təndirlər, təsərrüfat və məişət quyuları, çoxlu miqdarda şirsiz və şirli saxsı qab qırıqları, şüşə, metal parçaları, memarlıq hissələri, sikkələr və digər maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır.

Bakıda, İçərişəhərin şərq ətəklərində aparılan qazıntılar zamanı iki mədəni təbəqə müəyyən edilmişdir. Alt mədəni təbəqə yatımında divar qalıqları, ocaq, təndir, quyular aşkara çıxarılmış, saxsı, metal şüşə, kirkirə daşı, mis sikkələr tapılmışdır. Düzbucaqlı otaqları, kiçik həyəti və dəhlizi olan kompleks tikinti qalığı xüsusilə diqqəti çəkir. Burada həmçinin quyular, ocaqlar, təndirlər, manqal və s. məişət obyektləri tədqiq olunmuşdur. Alt təbəqə IX-XIII əsrlərə aid zəngin material vermişdir. Qayanın üstündə çapılaraq, çox güman ki, su axmaq üçün kiçik arxlar düzəldilmişdir.

Arxeoloji qazıntılarla İçərişəhərin şərq tərəfində məskunlaşmanın daha sıx olduğu aydınlaşmışdır. Burada yaşayış binaları qalıqlarından başqa məhəllə məscidinin qalıqları, iri yuyunma salonu, daş oturacaqları, əlaqəli quyuları, böyük daş hovuzu və döşəməaltı qızdırıcı sistemi olan hamam qalığı aşkara çıxarılmışdır. Burada təndir və ocaqlarla yanaşı, iri təsərrüfat küplərini xatırladan, qayada qazılmış, orijinal formaya malik quyular aşkarlanmışdır. Sahənin bir tərəfində 2,5-3 *m* dərinlikdə yanmış gil, kül, kömür və çoxlu dəmir pasalarına təsadüf olunmuşdur. Bu da güman etməyə əsas verir ki, burada dəmirçixana olmuşdur. Buradan böyük dəmir gürz və çoxlu daş kirkirə və həvəngdəstə tapılmışdır. Saxsı məmulatı, şüşə, fayans və həmçinin bəzi bəzək əşyaları və sikkələr əsasında alt təbəqə IX-XII əsrlərə aid edilir.

İçərişəhərdə demək olar, hər yerdə alt mədəni təbəqə qalın qaya üstündə yerləşir. Binalar düzbucaqlı biçimdə olub, şərq-qərb istiqamətində tikilmişdir. Divarlarda qapı və pəncərə yerləri qalmışdır, bəziləri sonralar yenidənqurma və təmir işləri zamanı hörülmüşdür. Daş döşəməli dar dəhlizlərə də təsadüf olunur. Binaların qabağında kiçik daxili həyətlərin olduğu da müəyyən edilmişdir. Məsələn, Məhəmməd məscidinin yaxınlığında (tablo 2, şək.l) qazıntı aparılarkən (XXIV) kiçik bir həyətin bədii tərtibatı ilə fərqlənən divarı üzə çıxarılmışdır (F.Ə.İbrahimov, 1989a, səh. 8-9). Şərq-qərb istiqamətində 4 *m* uzunluğunda salamat qalmış həmin divar qalığı səliqə ilə yonulmuş əhəngdaşından hörülmüşdür. Divarın qərb tərəfində səliqə ilə hörülmüş üstü tağbənd formalı tikinti qalığı - pilləkən aşkarlanmışdır (tablo 2, şək. 2, 3). Pilləkənin üç pilləsi mühafizə olunmuşdur. Fiqurlu hörgü daş döşəmə səviyyəsindədir. Bu qalıqlar XI-XIII əsrin əvvəllərinə aid edilir.

İctimai və dini binalarda divarlar adətən qalın tikilir, əhəng məhlulu ilə suvanmış olurdu. 1977-1982-ci illərdə İçərişəhərin şərq hissəsində aparılmış qazıntılar zamanı alt

mədəni təbəqədə aşkarlanmış, şərq-qərb istiqamətində yerləşmiş ikiotaqlı tikilinin qalıqları diqqəti cəlb edir. Tikilinin divarlarına yaxşı yonulmuş daşlarla üzlük çəkilmişdir. Arakəsmə divarda şəbəkəli daş pəncərə vardı. Tikilinin böyük otağı yastı daşlarla döşənmişdi. Tapıntılar əsasında binanın dini xarakterli olduğu müəyyən olunmuşdur(Ф.А.Ибрагимов,С.Б.Гусейнова, 1990, стр. 23-24). Dini xarakterli tikili qalıqları 1998-ci ildo Qız qalası ətrafında aparılmış arxeoloji qazıntı zamanı da üzə çıxarılmışdır (tablo 3, 4).

Qala divarlarından bayırda sənətkar məhəllələri yerləşirdi. 1985-ci ildə qala divarlarından 70-80 *m* şimal-şərqdə, keçmiş Kommunist (İstiqlal) küçəsində torpaq işləri görülərkən dulusçular məhəlləsi aşkarlanmış, dulus kürəsi, dulusçu ləvazimatı - qəliblər, istehsal tullantıları, xeyli miqdarda saxsı məmulat üzə çıxarılmışdır. Burada XII-XIII əsrin əvvəllərinə aid 500-dən artıq şirli və şirsiz saxsı qab nümunəsi tapılmışdır (Ф.А.Ибрагимов, 1986, стр. 51-52).

İçərişəhərdə alt mədəni təbəqədə tez-tez təndir qalıqlarına rast gəlinir. Diametrləri 65-70 *sm,* bəzən çox olur. Üç tərəfdən daşla hörülmüş ocaqlar da adi tapıntılardandır. Təndirlərin külbəsi, ocaqların ağzı cənub-qərbə, dəniz küləyinin daimi əsdiyi tərəfə yönəldilmişdir. Alt təbəqə üçün təsərrüfat quyuları, hovuzlar, həvəngdəstələr, kvadrat və dairəvi formalı daş oymalar, manqallar səciyyəvi tapıntılardır. Bunlardan ən çox maraq oyadan II sahədə aşkar olunan anbar qalığıdır. Burada daş oymaların (eni 50-58 *sm)* içərisində kirəclə bərkidilmiş küplər tapılmışdır (F.Ə.İbrahimov, 1999, səh. 80-81).

Arxeoloji materiallar müxtəlifliyi ilə fərqlənirlər. Bunların əsas kütləsini şirli və şirsiz saxsı qablar, fayans və s. təşkil edir. İstehsal tullantıları, kürə qalıqları, üçayaqlılar, gil çubuqları və s. tapılması yerli dulusçuluq istehsalından xəbər verir.

Metal tapıntılardan tikinti və gül mismarlarını, ox uclarını, bıçaq və dəhrə tiyələrini, ayaqqabı nallarını, halqaları və s. qeyd etmək olar. Mis əşya və bəzək şeylərinə də təsadüf olunur (sancaq, halqa, düymə və s.). Fiqurlu daşlar, memarlıq hissələri, kirkirə daşları, bülöv daşları və s. tez-tez rast gəlinir. Çox miqdarda Bakıda, Şamaxıda, Dərbənddə, Təbrizdə və s. yerlərdə zərb olunmuş sikkələr tapılmışdır. Onları Şirvanşahların, Dərbənd maliklərinin, Səlcuqların, Eldənizlərin və s. sülalələrin adından zərb etmişlər. Dər əs-Salamda hicri 138-ci ildə kəsilmiş bir ədəd gümüş pul tapılmışdır. Pullar dəfinə şəklində də tapılır. Mənuçöhrün oğlu Axsitanın (XII əsr) adından kəsilmiş pullardan ibarət bir dəfinə (29 ədəd) təndir külbəsindən götürülmüşdür.

İçərişəhərin mərkəzi hissəsində - uçurulmuş binaların yerində də qazıntılar aparılmış, IX-XIII əsrlərə aid yonulmuş daşdan hörülmüş ev qalıqları, saxsı məmulatı, pul və s. tapılmışdır.

Şirvanın digər mühüm sənətkarlıq - ticarət və mədəniyyət mərkəzi olan Şabran şəhərinin xarabalıqları Azərbaycanın şimal-şərq bölgəsində, düzənlik zonada, Şabrançayın sahilində, Dəvəçi rayonunun Şahnəzərli və Rəhimli kəndləri ətrafında onlarla hektar sahəni əhatə edir. Sakit relyef şəraiti, təbii maneələrin olmaması, kifayət qədər su ehtiyatı burada şəhərsalma üçün əlverişli şərait yaratmışdı. Yazılı qaynaqlar Şabranı münbit torpaqlı, bol məhsullu və çiçəklənən şəhər kimi səciyyələndirir. Şəhər yerində 1979-cu ildən aparılan arxeoloji qazıntılar yazılı mənbələrin məlumatını təsdiqləyərək burada orta çağda intensiv şəhər həyatının mövcudluğunu, Şabranın bütün orta əsrlər boyu Şirvanın mühüm siyasi, iqtisadi və mədəni mərkəzi olmasını sənədləşdirir. Arxeoloji qazıntılar Qazıməmməd-Mozdok qaz boru kəmərinin keçdiyi xətt üzrə beş sahədə aparılmış, yarım hektara yaxın ərazidə mədəni təbəqə qazılaraq tədqiq olunmuşdur. Bundan başqa, 2003-2004-cü illərdə Xanarx kanalının çəkilişi ilə əlaqədar şəhər yerinin ərazisində yoxlama qazıntısı aparılmışdır. Müəyyən edilmişdir ki, mədəni təbəqənin qalınlığı şəhər yerinin mərkəzində 4,6-5 *m*-ə çatdığı halda, kənarlarda 3 *m*-dən artıq deyil. Mədəni təbəqənin ən qalın, eyni zamanda zəngin qatı IX-XIII əsrlərə, xüsusilə də XII-XIII əsrin əvvəllərinə aiddir. Həmin çağda şəhər çiçəklənmə dövrünü keçirmişdir.

Yuxarıda qeyd olunan qazıntı sahələrindən üçü Şabrançayın sağ, ikisi isə sol sahilində yerləşir. 1979-cu ildə Şabrançayın sağ sahilində, Bakı-Xaçmaz şosesindən solda, körpünün yaxınlığında I sahədə aparılmış arxeoloji qazıntılar 50 *kv.m* sahəni əhatə etməklə, kəşfiyyat xarakterli idi və abidənin stratiqrafiyasını, xarakterini, xronoloji çərçivəsini müəyyənləşdirmək məqsədini güdürdü (Дж.А.Халилов и др., 1993, стр. 68-79). Burada qalınlığı 4,6 *m*-ə çatan mədəni təbəqədə VIII-XVI əsrlərə aid çaydaşından hörülmüş divar qalıqları, müxtəlif dövrlərə aid təndirlər, ocaq qalıqları üzə çıxarılmış, saxsı məmulatının üstünlük təşkil etdiyi xeyli miqdarda maddi mədəniyyət nümunələri tapılmışdır. Əsaslı qazıntılar II və V sahələrdə aparılmışdır. 1980-1982-ci illərdə Şabrançayın sağ sahilində, I qazıntı sahəsindən 100 *m* qərbdə, 2000 *kv.m* ərazidə, II qazıntı sahəsində VIII-XV əsrləri əks etdirən, qalınlığı 4,6-5 *m* təşkil edən mədəni təbəqə yatımı tədqiq olunmuşdur. Tədqiq olunmuş üç inşaat qatından üst XIV-XV əsrlərə, orta XII-XIII əsrlərə, alt isə VIII-XI əsrlərə aiddir. Qalınlığı 1,5 *m*-ə çatan XII-XIII əsrlərə aid inşaat qatında çörəkçilər məhəlləsinin bir hissəsi, çaydaşından bünövrə qalıqları, dulus kürəsi, saxsı tünglərdən quraşdırılmış su kəməri qalığı, məişət ocaqları, quyular aşkarlanıb tədqiq edilmişdir. Mədəni təbəqənin bu qatı daha zəngin olub tapıntılar müxtəlif təyinatlı metal məmulatı, saxsı və şüşə qablar, qızıl, gümüş, tunc və misdən düzəldilmiş bəzək əşyaları və s. təmsil olunmuşdur. VIII-XI əsrlərə aid edilən alt inşaat qatında təndir və ocaqlar, drenaj xəttinin

qalıqları, zibil və çirkab quyuları üzə çıxarılmış, xeyli miqdarda əmək alətləri, şirsiz və şirli saxsı qab nümunələri, bəzək əşyaları tapılmışdır (T.M.Dostiyev, 2001, səh. 30-39).

II qazıntı sahəsindən 200 *m* cənubda yerləşən V sahədə aparılan qazıntıların nəticələri daha maraqlı olmuş, şəhərin IX-XVII əsrlər maddi mədəniyyətini araşdırmaq üçün zəngin faktik material vermişdir. 1981-1993-cü illərdə burada 2300 *kv.m* sahədə görülən qazıntı işləri nəticəsində mədəni təbəqənin IX-XI və XII-XIII əsrlərə aid inşaat qatlarında daş və bişmiş kərpicdən tikilmiş istehkamın, iri ictimai bina və yaşayış evlərinin qalıqları, döşənmiş küçələr, tünglərdən quraşdırılmış su kəməri, ocaqlar, təndirlər, dəmirçixana və s. üzə çıxarılmışdır (tablo 5). Saxsı, metal, şüşə məmulatı, bəzək əşyaları, qızılın əyarını təyin etmək üçün istifadə olunan məhəkdaşı nümunələri daha çox əldə edilən tapıntılardır (Р.Б.Геюшев, 1985; T.M.Dostiyev, 2001; F.Ə.Abbasova, 2002). 2002-ci ildə V sahədə qazıntılar bərpa edilmiş, 2002-2005-ci illərdə burada sənət istehsalı - metalişləmə və şüşə istehsalı ilə bağlı yeni faktik materiallar əldə olunmuşdur (F.Ə.Abbasova, 2003; 2005).



**Şabran şəhər yeri. V qazıntı sahəsindən görünüş.**

Şamaxı-Dərbənd karvan yolunun üstündə yerləşən bu şəhər Azərbaycanın Şimal ölkələri ilə ticarətində mühüm rol oynamışdır. Bəndovan şəhər yeri Salyan rayonu ərazisində, Xəzərin qərb sahilində yerləşir. Burada 1970-1978-ci illərdə Azərbaycan Tarixi Muzeyinin Sualtı arxeoloji dəstəsi axtarışlar aparmış, Kür çayının deltasında, Bəndovan burnunda və dənizdə I Bəndovan və II Bəndovan kimi qeydə aldığı şəhər xarabalıqlarını tədqiq etmişdir. (В.А.Квачидзе, 1971; 1972; 1972a; 1976; 1978; 1979; В.А.Квачидзе и др., 1975). Suda və sahilboyu ərazidə görülən işlərin nəticəsində müəyyən edilmişdir ki, vaxtilə burada Şirvanın mühüm şəhərləri olmuş və dənizin səviyyəsinin qalxması ilə onlar suyun altında qalmışlar. Sahil boyunca 1 *km* izlənən I Bəndovan şəhər yerinin tutduğu ərazinin sərhədlərini dəqiq müəyyənləşdirmək mümkün deyil. Tədqiqat işləri zamanı sahildə çubuqhörmə, dənizdə isə çaydaşından hörülmüş tikinti qalıqları, ocaq, təndir, şirli və şirsiz saxsı qab-qacaq, şüşə, metal məmulat, bəzək əşyaları, daş lövbərlər, kirkirə və s. aşkara çıxarılmışdır. Şəhər Şirvanın iri dulusçuluq mərkəzlərindən biri olmuşdur.

Sahildən 650 *m* məsafədə, dənizin dibində iki yerdə dulus istehsalını əks etdirən faktik materiallar - dulus kürəsinin qalıqları, kürə ləvazimatı, istehsal çıxarları aşkarlanmışdır (В.А.Квачидзе, 1999, стр. 17-19; В.А.Квачидзе, 2004, стр. 126).

II Bəndovan şəhər yeri I Bəndovandan şimalda yerləşir. Şəhər xarabalıqları Kürün qədim yataqları - qolları boyunca üç sahədə - A, B, V sahələrində izlənmişdir. "A" sahəsində arxeoloji qazıntılarda dulus kürəsi aşkarlanıb tədqiq edilmişdir, "B" və "V" sahələrində istehsal tullantıları, müxtəlif növ saxsı qab çıxarlarının cəmləşdiyi topalara rast gəlinmişdir. "B" sahəsində şar konusvari qabların çıxarlarının həddən çox olması diqqəti çəkmişdir. Burada istehsal çıxarlarının əhatə etdiyi sahə 1600 *kv.m* təşkil edirdi (В.А.Квачидзе, 2003a, стр. 76-77).

II Bondovan şəhər yerinin saxsı məmulatı istər hazırlanma xüsusiyyətlərinə, istər şirlənmə texnikasına, istərsə də naxış motivlərinə görə I Bəndovan şəhər yerinin saxsı məmulatından fərqlənir. Abidələrin tədqiqatçısı V.A.Kvaçidze IX-XIII əsrin abidəsi olan I Bəndovan şəhər yerini orta əsr Quştafsı ilə, XI-XII əsrlərin abidəsi olan II Bəndovan yaşayış yerini isə Muğan şəhərinin xarabalıqları ilə eyniləşdirir (В.А.Квачидзе, 1999, стр. 17; В.А.Квачидзе, 2004, стр. 126-127). Abidələrin suyun altında qalması isə, ehtimal ki, XIV əsrin əvvəllərində baş vermişdir.

XIV əsrin əvvəllərində Xəzərin suları altında qalmış Şirvanın yaşayış məntəqələrindən biri də Şəhri-Gürkandır. Həmin yaşayış yeri Abşeron yarımadasının Gürkan burnunda, hazırkı Zirə qəsəbəsindən 5 *km* şərqdə yerləşir. 1958-ci ildə Şəhri-Gürkan yaşayış yerinin sahilboyu ərazisi, 1987-ci ildə isə həm sahilboyu ərazi, həm də sualtı ərazisi kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir (Г.М.Асланов, Т.И.Голубкина, 1973, стр. 191-200; В.А.Квачидзе, 2003, стр. 143-147). Sahilboyu ərazidə araba təkərlərinin izlərinin qalığı, yol qeydə alınmış, XI-XIII əsrlərə aid xeyli şirli və şirsiz saxsı qab qırıqları aşkarlanmışdır. Əhəngdaşından hazırlanmış üzüməzən qurğu, ip keçirmək üçün dəliyi olan daş əşya və qurğunun fraqmenti toplanmışdır. Sualtı sahədən boyalı qab qırıqları, bir neçə güvəc fraqmentləri, az miqdarda şirli qab nümunələri tapılıb götürülmüşdür. 250 *m* şimalda kirjim tipli batmış gəmi aşkarlanmışdır ( В.А.Квачидзе 2003, стр. 144).

Bərdə, Gəncə, Şəmkir, Beyləqan, Dəbil Arran şəhərləri arasında başlıca yer tuturdular. Beyləqan şəhərinin xarabalıqları - Örənqala Mil düzündə Beyləqan rayonunun Kəbirli kəndinin ərazisində yerləşir. Vaxtilə Cənubi Qafqazın mühüm şəhərlərindən biri olmuşdur. Bərdədən Ərdəbilə gedən ticarət karvan yolu üzərində yerləşən Beyləqan şəhəri, eyni zamanda, Kürlə Araz arasındakı əraziləri dağ rayonları ilə birləşdirirdi. Mil və Muğan düzənliklərindən Kiçik Qafqaza yaylağa köç edən əhali buradan keçirdi. Şəhərin xarabaları, kvadrat planda olan qala divarlarının qalıqları köbər şəklində düzənliyin adi səthindən 6-8 *m* hündürlükdə aydın görünməkdədir. Qala

divarlarından içəridəki sahədə mədəni təbəqənin qalınlığı 3-5 *m* təşkil edir. Şəhərin yanı ilə orta əsrlərdə Arazla Qarqarçayı birləşdirən Govurarx axırmış; onun izləri bəzi yerlərdə indi də aydın bilinir.

Govurarxın suyundan şəhərin qala xəndəyini doldurmaq və ətraf əraziləri suvarmaq üçün istifadə olunurdu. Şəhər üç hissədən ibarət olmuşdur: 40 hektarlıq sahəni əhatə edən Böyük şəhər, onun cənub-şərq küncündə yerləşən 14 hektarlıq sahəsi olan Kiçik şəhər və Böyük şəhərdən cənub-qərb tərəfdə qala divarlarından kənarda yerləşən sənətkarlar məhəlləsi (tablo 6, şək. 2). Bu sahələrin hamısında çoxlu miqdarda saxsı qab, bişmiş kərpic, metal, şüşə, fayans və s. qırıqlarına və mis pullara rast gəlinir. Belə tapıntılara həm də şəhər yerini əhatə edən ərazilərdə, xüsusilə şimal-qərb tərəfdə yerləşən, adını düzənliyə vermiş Mil-Minarənin xarabalığına qədər olan sahələrdə təsadüf edilir.

Yuxarıda qeyd olunduğu kimi, Örənqalada 1933 və 1951-ci illərdə kiçik həcmli qazıntılar aparılmış, 1953-1968-ci illərdə isə ardıcıl və sistemli olaraq böyük qazıntı işləri görülmüşdür (Q.M.Əhmədov, 1962; 1979).

1951-ci ildə əsas iş Böyük şəhərlə Kiçik şəhərin şimal-şərq qala divarının kəsişdiyi yerdə görülmüşdür. Burada Böyük şəhərin qala divarının bir bürcünün hissəsi aşkara çıxarılmışdır. Həmin bürcü Kiçik şəhərin şimal qala xəndəyi kəsmişdi. Məlum olmuşdur ki, Böyük şəhərin ilk qala divarı və bürcləri 49x49x17 *sm* ölçüdə olan çiy kərpiclə hörülmüşdür. Xeyli şirli və şirsiz qab, fayans, şüşə qırıqları, pul və s. əldə edilmişdir.

1953-1968-ci illərdə Örənqalada 6 sahədə qazıntı aparılmışdır: şimal-şərq (II qazıntı), şimal-qərb (VI qazıntı) qala divarlarında, Kiçik şəhərin içərisində, onun şimal-qərb divarı yanında (I qazıntı), həmin qazıntı şimal-qərbə doğru genişləndirilərək qala divarı, xəndək kəsilmiş və Böyük şəhərin buradakı xəndəkyanı sahəsi əhatə olunmuşdur (V qazıntı) və sənətkarlar məhəlləsində (III və IV qazıntılar).

I qazıntıda şəhərin VI-XIII əsrləri əhatə edən təbəqələri aydınlaşdırılmış, yaşayış binalarının qalıqları aşkar olunmuş (tablo 7, şək.l), küllü miqdarda maddi mədəniyyət nümunələri əldə edilmişdir. Burada mədəni təbəqənin qalınlığı və stratiqrafiyası müəyyənləşdirilmiş, şəhərin tikintilərində tarixən əmələ gələn dəyişikliklər izlənmiş, təbəqələr üzrə əşyavi materialların dövrü müəyyənləşdirilmiş, şəhərin sənət istehsalı və mədəni həyatının inkişaf mərhələləri aydınlaşdırılmışdır.

VI qazıntı sahəsində aparılan qazıntılar nəticəsində müəyyən edilmişdir ki, Böyük şəhərin şimal-qərb qala divarı da şimal-şərq divarı kimi eyni üslubda və eyni material ilə tikilmişdir. Bu divarın da üstündə yaşayış tikintiləri və müsəlman qəbirlərinin qalıqları aşkar olunmuşdur. Divarın qala xəndəyində, içərisində XIII əsrə aid şar-konusvari qablar olan dulus kürəsi tapılmışdır. Bu qazıntıda şəhərin şimal-qərb (Bərdə)

darvazasının müxtəlif inşaat dövrləri, kərpic kürəsi qalıqları və şəhərin kanalizasiya xəttinin hissəsi üzə çıxarılmışdır.

V sahədəki qazıntılardan aydın olmuşdur ki, Kiçik şəhərin şimal-qərb qala divarı Əmir Teymurun dövründə inşa edilmişdir. Qazıntının şimal-qərbə davam edən hissəsində həmin divarın xəndəyi müəyyənləşdirilmiş, Böyük şəhər tərəfdə isə VI-XIII əsrin əvvəllərinə aid yaşayış evlərinin qalıqları aşkara çıxarılmışdır.

Şəhər yerinin cənub-qərb qurtaracağında, Govurarxa yaxın olan yerdə, şəhərin sənətkarlar məhəlləsi yerləşmişdi. Buradakı təpə kimi yerdə (III sahə) XIII əsrin əvvəllərinə aid 7 ədəd dulus kürəsi, üstü örtülü olmuş su kəməri və XII-XIII əsrin əvvəllərinə aid təsərrüfat əhəmiyyətli böyük bir kompleks tikinti qalıqları üzə çıxarılmışdır (tablo 8). 1221-ci ildə monqol qoşunları tərəfindən şəhər dağıdıldıqdan sonra sənətkarlar məhəlləsi qəbiristanlığa çevrilmişdir, burada (III sahədə) ətrafında onlarla müsəlman qəbirləri olan dörd dördkünclü türbə, IV sahədə isə içərisində dörd qəbir olan, mozaika və boyalı rəsmlərlə naxışlanmış səkkizguşəli türbənin qalıqları aşkara çıxarılmışdır. İkinci türbənin içərisində, mehrab yerində yazı qalığı və türbənin ətrafında isə iki müsəlman qəbiri olmuşdur.

III və IV sahələrdəki qazıntıların şəhərin plan quruluşunu, sənətkarlar məhəlləsinin xüsusi ərazidə cəmləşməsini, dulusçuluq, metalişləmə, şüşə istehsalı və digər sənət sahələrinin inkişaf mərhələlərini, şəhərin dağıdılması tarixini və bir sıra başqa məsələləri öyrənmək üçün böyük əhəmiyyəti var.

Beləliklə, Örənqalada ardıcıl və planlı şəkildə aparılan qazıntılar nəticəsində şəhərin meydana gəlməsi, mədəni təbəqələrin dövrləri, Böyük şəhərin və Kiçik şəhərin bir-birinə münasibəti, sonrakının ayrılma tarixi, şəhərin sənətkarlıq və ticarət mərkəzinə çevrilməsi məsələləri həll edilmiş, Örənqalanın orta əsr mənbələrində adı çəkilən Beyləqan şəhərinin xarabalığı olduğu qəti dəqiqləşdirilmiş və ümumiyyətlə, Azərbaycanın orta əsr şəhər tarixi və mədəniyyəti problemlərinin öyrənilməsi üçün geniş perspektivlər açılmışdır.

Ən alt mədəni təbəqə iri təsərrüfat quyularının çoxluğu ilə fərqlənmişdir. Qalınlığı 1,52 *m* olan bu təbəqədə yanıq izləri və ilk orta əsrlərə aid sönük, az miqdarda maddi-mədəniyyət qalıqları - əsasən saxsı qab qırıqları tapılmışdır.

IX-X əsrlərə aid olan təbəqə 2 *m* qalınlığındadır, ilk abbası pulları və ilk şirli qab qırıqları ilə yaxşı müəyyənləşdirilir.

Yaşayış, ictimai və təsərrüfat xarakterli tikinti qalıqları, külli miqdarda məişət və mədəniyyət əşyaları ilə zəngin olan XII-XIII əsrin əvvəllərinə aid mədəni təbəqə şəhərin iqtisadi və mədəni inkişafının çiçəklənmə dövrünü əks etdirir. Bu inkişaf monqol dağıntılarına qədər yüksələn xətlə davam etmişdir.

Örənqala qazıntıları göstərdi ki, şəhərdə həyat ilk orta əsrlərdən başlayaraq ardıcıl surətdə davam etmiş, xüsusilə XII-XIIl əsrin əvvəllərində burada çox böyük canlanma olmuşdur. Ümumiyyətlə, bu şəhər özünün təxminən onəsrlik mövcud olduğu dövrdə Azərbaycanın və bütün Cənubi Qafqazın iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır (Q.M.Əhmədov, 1979).

Govurqala şəhər yeri Ağdam rayonunun Boyəhmədli kəndi ərazisində yerləşir. Əsası III-IV əsrlərdə qoyulmuş bu şəhərin xarabalıqlarının sahəsi 40 hektara yaxındır. Narınqala şəhərin yüksək hissəsində yerləşməklə 3 hektar ərazini əhatə edirdi (Р.Б.Геющев, 1978, стр. 496). Govurqalada aparılan arxeoloji qazıntı zamanı orta əsr təbəqəsində (VIII-X əsrlər) bir nefli məbədin hissəsi və onun yanında X əsrin axırlarında alban çarlığını bərpa etmiş knyaz Hamamın qardaşının daş tabutu aşkara çıxarılmışdır (R.M.Vahidov, 1965, səh. 177-180).

Tərtərçayın hər iki sahilində salınmış Bərdə şəhəri bəhs olunan dövrdə Azərbaycanın mühüm siyasi-inzibati, sənətkarlıq-ticarət və mədəni mərkəzi idi. Orta əsr şəhər xarabalıqlarının üstündə hazırda Bərdə rayonunun mərkəzi yerləşdiyindən mədəni təbəqə yatımı torpaq işləri ilə əlaqədar vaxtaşırı dağıntılara məruz qalır.



**Bərdə şəhəri.Qazıntı sahəsindən görünüş.**

Albaniya dövlətinin paytaxtının V əsrdə Qəbələdən Bərdəyə köçürülməsi hələ o vaxtlar Bərdənin mühüm şəhərlərdən biri olduğuna dəlalət edir. Şərqdən Qərbə və Cənubdan Şimala gedən karvan yollarının qovşağında yerləşən bu şəhər, xüsusilə Sasani imperiyası və Xilafət dövründə Şərqin ən məşhur şəhərlərindən birinə çevrilmişdi. Cənubi Qafqazın idarə edilməsi ilə məşğul olan Sasani mərzbanlarının və ərəb canişinlərinin iqamətgahı burada yerləşirdi. Heç də təsadüfi deyil ki, orta əsr ərəb müəllifləri bu şəhərin adını yüksək epitetlərlə çəkir, ona "böyük", "əhəmiyyətli", "sağlam", "çiçəklənən", "gözəl" və "Arranın anası" deyirdilər. Bərdəni Bağdadla, Reylə, İsfahanla müqayisə edirdilər. Böyük Nizaminin "İskəndərnamə" poemasında Bərdəni tərif etməsi təsadüfi deyildir.

Çox təəssüf ki, bu nəhəng şəhər yerində arxeoloji qazıntılar çox az aparılmışdır. Şəhərin əsaslı öyrənilməsinə 1984-cü ildən başlanmışdır. Qısa müddətdə 1000 *kv.m*-lik sahədə 4 mədəni təbəqə aşkara çıxarılmışdır. Bunlardan ən zəngini IX-XIII əsrlərin əvvəllərinə aid olan təbəqədir. Qalınlığı 3 *m*-dən çoxdur. Yaşayış evlərinin, ictimai

binaların, sənətkarlıq-ticarət tikintilərinin, su və kanalizasiya xətlərinin qalıqları, təndirlər üzə çıxarılmış, quyular təmizlənmiş, çoxlu saxsı, metal məmulat, sikkələr, memarlıq hissələri, istehsal tullantıları, çıxarlar, yarımfabrikatlar və s. əldə edilmişdir. Arxeoloji materiallar bütün aydınlığı ilə sübut edir ki, Nizami dövründə Arranda birincilik Gəncə şəhərinə keçsə də, Bərdə Azərbaycanın zəngin və inkişaf etmiş şəhərlərindən biri olaraq qalırdı (А.Б.Нуриев, 1986, А.Б.Нуриев, А.М.Мамедов, 1986, А.Б.Нуриев и др., 1988).

Orta əsr Gəncə şəhərinin xarabalıqları Gəncəçayın hər iki sahilində, indiki Gəncədən təxminən 7-9 *km* şimal-şərqdə yerləşir. Şəhər yerində orta əsrlərə aid mədəni təbəqə yatımı, şəhərin üç dairə qala divarları, çaykənarı bəndlər, uçmuş körpülər, türbələr, o cümlədən Nizami Gəncəvinin qəbri, daha son dövrlərə aid qəbiristanlıqlar, İmamzadə və bəzi abidələr qalmaqdadır. Mədəni təbəqə yatımını bəzi yerlərdə çayın selləri, bəzi yerlərdə isə müasir tikintilər qismən dağıtmışdır.

1938-1940-cı illərin tədqiqatları zamanı şəhər yerinin planı çıxarılmış (tablo 6, şək. 1), şəhərin içərisində şərti olaraq Birinci şəhər, İkinci şəhər və Sənətkarlar məhəlləsi adlandırılan ərazilərdə qazıntı aparılmış, qala divarları, çayqırağı bəndlər və qəbiristanlıqlar öyrənilmişdir. Şəhərdə 4 *m*-dək qalınlığında mədəni təbəqə olduğu müəyyənləşdirilmişdir (И.М.Джафарзаде, 1939; 1941; 1949). Böyük Vətən müharibəsinin başlanması qazıntıların dayandırılmasına səbəb olmuşdur.

Orta əsr Gəncə şəhər yerində arxeoloji işlər 1981-ci ildə, Nizami Gəncəvinin 850 illik yubileyinə hazırlıqla əlaqədar olaraq bərpa edilmişdir. Bununla da şəhərin və ətrafının planlı surətdə öyrənilməsinə başlanmışdır (Дж.А.Халилов, 1986; Р.Дж.Ахмедов, 1985, 1986, 1986а, 1988; 1988а, 1988б, Р.Дж.Ахмедов и др., 1992). Qazıntıların nəticəsində dini təyinatlı bina, yaşayış evlərinin qalıqları, döşəmə



**Gəncə şəhər xarabalıqları.**

altı qızdırıcı sistemə malik tikili, bitki yağı istehsal edən emalatxana, çaydaşı ilə döşənmiş küçə, kəhriz xəttinin qalıqları üzə çıxarılmışdır. Arxeoloji tədqiqatlarla

müəyyən edilmişdir ki, şəhər həmin yerdə qədimdən mövcud olmuş yaşayış məskəni əsasında yaranmış, sonra möhkəmləndirilmiş şəhərə çevrilmişdir. IX-XIII əsrlərə aid təbəqələr zəngin tikinti qalıqları, kərpic yığımları, saxsı və digər maddi mədəniyyət qalıqları ilə doludur. Şəhərin çiçəklənmə dövrü də bu əsrlərə aiddir. Ruslar Bərdəni dağıtdıqdan sonra Gəncə daha sürətlə inkişaf etmişdir. Gəncə Şəddadilər, sonra isə Eldənizlər - Atabəylər dövlətinin paytaxtına çevrilmişdir. 1122/23-cü il zəlzələsindən böyük zərər çəkmiş, şəhərin qala divarları dağılmış və bir hissəsi torpağın altında qalmışdır (З.М.БУНИЯТОВ, 1990, стр. 74). Bununla belə, şəhər tezliklə bərpa olunmuş və öz həyatını davam etdirmişdir. 1139-cu il sentyabrın 30-da Gəncədə və onun nahiyəsində daha güclü zəlzələ baş vermiş, şəhər tikililərinin çoxu dağılmış, sakinlərin xeyli hissəsi məhv olmuşdu (З.М.БУНИЯТОВ, 1990, стр. 76). 1139-cu il Gəncə zəlzələsi zamanı 150 minə yaxın şəhər sakininin öldüyü ehtimal olunur (Azərbaycan tarixi, 1998, səh. 420).

Son illərin qazıntıları xeyli arxeoloji materiallar aşkara çıxarmışdır. Maraqlı komplekslərdən biri Gəncəçayın sol sahilində, şəhər yerinin şimal-qərb sektorunda 416 *kv.m* sahədə aparılmış arxeoloji qazıntılar zamanı üzə çıxarılmış və bitki yağı alınması ilə bağlı xüsusi istehsalat kompleksidir (Р.ДЖ.АХМЕДОВ И Др., 1992, стр. 153). Şəhər xarabalıqlarından aşkar edilmiş arxeoloji materiallar Yaxın və Orta Şərqin məşhur şəhərlərindən olan Gəncənin tarixini hərtərəfli tədqiq etmək üçün geniş imkanlar açır.

Şətəl şəhər yeri Bərdə və Gəncə şəhərləri arasında Goranboy rayonunun Rəhimli kəndinin cənub-şərqində yerləşir və 40 hektara qədər ərazini əhatə edir (A.M.Məmmədov, 1992, səh. 89-91). Yaqut Həməvi "Coğrafi lüğət"ində Arranda, Bərdə ilə Gəncə arasında Şətəl qalasının yerləşdiyini bildirir (Йакут аль-Хамави, 1983, стр. 27).

Abidənin ərazisində, üç qazıntı sahəsində aparılmış tədqiqatlar burada orta əsr şəhəri üçün səciyyəvi əlamətləri özündə əks etdirən zəngin mədəni təbəqə yatımının varlığını təsdiqləmişdir. Məlum olmuşdur ki, IV-V yüzilliklərdə salınmış yaşayış məskəni IX-X əsrlərdə şəhərə çevrilmiş, XI-XIII əsrin əvvəllərində isə burada gur həyat olmuşdur.

Orta əsr Şəmkir şəhərinin xarabalıqları eyni adlı rayonun Muxtariyyə kəndinin şimal kənarında, Şəmkirçayın sahilində, dəmir yolundan 600 *m* cənubda yerləşir. Xarabalıqlar əsasında şəhərin dördbucaqlı plan quruluşuna malik olduğunu, şərq-qərb oxu üzrə yerləşdiyini müəyyən etmək olur (tablo 10, şək. 1-2). Qala divarları qalıqlarının, xüsusilə qərb və cənub divarlarının qalıqlarının hündürlüyü bəzi yerlərdə 4 *m*-ə çatır. Bu divarlarda şəhər darvazalarının yeri aydın müşahidə olunur. Qala divarları çaydaşı, bişmiş kərpic və yerli ağ daşdan inşa edilmişdir.

Şəmkirçayın yatağında şəhristana istiqamətlənmiş çoxaşırımlı körpünün qalıqları qalmaqdadır. Şəmkirçayın sahilində yerləşən, 1 hektardan artıq sahəni tutan narınqalanın (içqalanın) xarabalıqları daha yaxşı mühafizə olunmuşdur. Narınqala möhkəm qala divarları və xəndəklə qorunurmuş. Qala divarları Arran memarlıq məktəbi üçün səciyyəvi olan hörgü ilə bişmiş kərpic, çaydaşı və yerli ağ və göy daşlardan əhəngli məhlulda kombinə edilmiş hörgü ilə ucaldılmışdır. Narınqalanın daxilində bişmiş kərpicdən inşa olunmuş tikililərin qalıqları vizual izlənilir. Şəhristanın ərazisi mütəmadi olaraq şumlanaraq əkin üçün istifadə olunduğundan burada mikrorelyef pozulmuşdur. Onun ərazisində yerüstü inşaat materialları və memarlıq hissələrinə tez-tez təsadüf olunur. Şəhər memarlığında çaydaşı, yerli puç, ağ daş və bişmiş kərpicdən geniş istifadə olunduğunu söyləmək olar. Şəhristanın ərazisində istehsal qalıqlarına, ilk növbədə, dulusçuluq və dəmirçiliklə bağlı tullantılara, çıxarlara rast gəlinir.

Şəhristanda 16 *kv.m* sahədə aparılmış yoxlama qazıntı abidənin bu sahəsində mədəni təbəqə yatımının qalınlığının 2,2 *m* təşkil etdiyini göstərdi. Abidənin ərazisində mütəmadi şum işləri aparıldığından mədəni təbəqənin XIII əsrə aid edilən üst qatı 66-68 *sm* dərinliyə qədər tamamilə dağıdılaraq qarışdırılmış, tikili qalıqları mühafizə olunmamışdır. 68-220 *sm* dərinliklərdə intensiv şəhər həyatını əks etdirən, özülü çaydaşından, divarları bişmiş kərpicdən hörülmüş tikinti qalıqları, təndir və ocaqlar, məişət və təsərrüfat quyuları, inşaat tullantıları, müxtəlif təyinatlı əmək alətləri, məişət avadanlığı, bəzək əşyaları ilə zəngin mədəni təbəqə yatımı tədqiq edilmişdir.

Mədəni təbəqənin VIII-X əsrlərə aid inşaat qatında bünövrə qalıqları, təndirxanalar, təsərrüfat və məişət quyuları aşkarlanmışdır. Tapıntılar dəmir və daş alətlər, şirli və şirsiz saxsı məmulatı, müxtəlif təyinatlı, çoxsaylı şüşə qab nümunələri, bəzək əşyaları ilə təmsil olunmuşdur.

Mədəni təbəqənin XI-XII əsrlərə aid inşaat qatında tikili qalıqları, ocaq və təndir qalıqları üzə çıxarılmış, xeyli miqdarda şirli və şirsiz saxsı, fayans qab-qacaq nümunələri, əmək alətləri, şüşə qab qırıqları, bəzək əşyaları tapılmışdır.

Şəmkirin şəhristanında aparılmış arxeoloji qazıntı burada VIII-XIII əsrin əvvəllərində intensiv şəhər həyatının mövcudluğunu təsdiqləmiş, XI-XII əsrlərdə şəhərin çiçəklənmə çağını keçirdiyini müəyyənləşdirməyə əsas vermişdir.

Narınqalada aparılmış arxeoloji qazıntıların nəticələri də maraqlı olmuşdur. III qazıntı sahəsində narınqalanın şərq divarı 80 *m* uzunluqda torpaq qalaqlarından təmizlənərək öyrənilmişdir. IV qazıntı sahəsində aparılan tədqiqatlar narınqalanın içərisində iki mədəni təbəqənin varlığını göstərmişdir. Üst, XVIII-XIX əsrlərə aid mədəni təbəqədən altda qalınlığı 4 *m-ə* çatan IX-XIII əsrlərə aid mədəni təbəqə üzə çıxarılmışdır. Bu mədəni təbəqədə istehkam qalıqları, təsərrüfat təyinatlı tikililər, təndir və ocaqlar, təsərrüfat və məişət quyuları, bişmiş kərpicdən hörülmüş qurğu, kürəbənd

üsulu ilə düzəldilmiş kanalizasiya xətti aşkarlanaraq tədqiq edilmişdir. Orta əsr təbəqəsindən əldə olunmuş tapıntılar dəmir əmək alətləri və silah nümunələrindən, inşaat materialları və məişət əşyalarından, şirli və şirsiz saxsı qab nümunələrindən, metal və şüşə məmulatdan, bəzək əşyalarından, sikkələrdən ibarətdir.

Torpaqqala şəhər yeri Tovuz şəhərindən 17 *km* şimal-şərqdə, Kür çayının sağ sahilində, Xunan düzünün kənarında uzunsov-oval biçimdə böyük bir təpə üzərində yerləşir. Təpə hər tərəfdən dərin xəndəklə əhatə olunmuşdur. Təpənin üzərinə çıxmaq üçün yeganə yol onun qərb tərəfindən keçən 3-4 *m* enində yoldur. Təpənin üstündə və ətraf enişində iri çay daşlarından inşa olunmuş qala divarlarının qalıqları qeydə alınmışdır. Şəhərin salındığı təpənin nisbətən düz olan səthi Kür çayının səviyyəsindən 100-120 *m* hündürdədir. Hər tərəfdən dərin uçurumla əhatə olunması hərbi-strateji baxımdan təpənin əhəmiyyətli olduğunu göstərir. Tədqiqatçılar Torpaqqalanı Xunan şəhərinin xarabalıqları hesab edirlər və mülahizələrini abidənin Bərdə-Tiflis karvan yolu üzərində Xunan düzündə yerləşməsi ilə, ərəb coğrafiyaçısı əl-İstəxrinin onun Qala ət-Turab, yəni Torpaqqala adı ilə məşhur olması ilə əlaqələndirirlər (R.M.Vahidov, N.M.Quliyev, 1993, səh. 73). Yazılı qaynaqlardan bəlli olur ki, Xunan sərhəd şəhəri erkən orta əsrlərdə, eləcə də IX-XIII yüzilliklərdə Azərbaycanın ticarət yolu üzərində yerləşən şəhərlərindən biri olmuşdur. Ərəb müəllifləri onu Beyləqan, Varsan, Bərdic, Bərzənd, Şabran, Qəbələ, Şəki, Şəmkir kimi şəhərlərə bənzər şəhər kimi qeyd etmişlər (N.M.Vəlixanlı, 1974, səh. 89). Torpaqqalada 1972-1978-ci illərdə dörd sahədə qazıntılar aparılmış, qalınlığı 3 *m*-dən artıq olan mədəni təbəqə yatımının əsasən VII-XIII əsrlərə mənsubluğu müəyyənləşdirilmişdir (Р.М.Ваидов, Н.М.Гулиев, 1973, стр. 20-21; 1975 а, стр. 467; 1975 б, стр. 48-52; 1979, стр. 30-33; R.M.Vahidov, N.M.Quliyev, 1993, səh. 40-49; Р.М.Ваидов, Н.М.Гулиев, Е.А.Гасымов, 1977, стр. 488-489; 1978, стр. 44-46, Р.М.Ваидов, Р.Б.Геюшев, Н.М.Гулиев, 1979, стр. 511).

Arxeoloji qazıntılarla möhrə, daş və bişmiş kərpicdən tikilmiş ev qalıqları, xristian məbədinin mehrabı, hovuz, təndirlər, təsərrüfat quyuları aşkara çıxarılıb tədqiq edilmişdir. Lilli suyu süzmək üçün istifadə olunan iri daşlar, şirli və şirsiz saxsı qablar, şüşə məmulat, sikkələr tapılmışdır. Tədqiqatçıların fikrincə, inzibati və dini mərkəz olmayan Xunan şəhərinin tərəqqi və tənəzzülü daha çox ticarət və sənətkarlığın inkişafı ilə bağlı



**Şəmkir şəhər yeri. IV qazıntı sahəsi.**

olmuşdur (R.M.Vahidov, N.M.Quliyev, 1993, səh. 46).

Dəbil şəhəri ərəb ağalığı dövründə Xəlifə canişinin mərkəzi olmaqla sənət istehsalının yüksək inkişaf etdiyi şəhərlərdən idi. Dəbil haqqında məlumat verən Yaqut əl-Həməvi isə bu şəhərin Azərbaycanın ucqarlarında, Arran vilayətində yerləşdiyini xüsusilə vurğulayır (Йакут аль-Хамави, 1983, стр. 24).

IX əsrdə Dəbil şəhəri Azərbaycan Sacilər dövlətinin, X əsrin ortalarında isə əvvəlcə Salarilərin, sonra isə Şəddadilərin, XII əsrdən isə Azərbaycan Atabəylər dövlətinin mühüm şəhərlərindən olmuşdur.

Yazılı qaynaqlar Dəbil şəhərini böyük və zəngin şəhər kimi təqdim edirlər. Lakin XIII əsrin birinci yarısında şəhər bir neçə dəfə dağıntı və qarətlərə məruz qalmışdır. XIII əsrin əvvəllərində gürcü qoşunları hücum edərək şəhəri ələ keçirib talamışdır, lakin tezliklə Xarəzmşah Cəlaləddin şəhəri gürcülərdən azad etmişdir. Monqollar 1236-cı ildə şəhəri alaraq dağıtmış və şəhər bundan sonra tənəzzül etmiş, yenidən dirçəlməmişdir.

Arxeoloji tədqiqatlar şəhərin XI-XIII əsrlərdə yüksəliş keçirdiyini, ərazisinin genişlənərək geniş bir sahəni əhatə etdiyini göstərir. Arxeoloji axtarışlar zamanı şəhər qala divarlarının bir neçə dairəsinin izlənilməsi də bunu təsdiq edir (tablo 10, şək. 3). Şəhərin sənətkarlıq məhəllələrinin cəmləşdiyi ərazi də qala divarları ilə əhatə olunmuşdu (K.Q.Kafadaryan, 1952; 1982; Б.Н.Аракелян, 2003).

İnkişaf etmiş orta əsrlərdə Dəbilin narınqalası yenidən qurulmuşdu. Daş təməl üzərində çiy və bişmiş kərpicdən inşa edilmiş narınqalanın divarları 10 hektar sahəni

əhatə edirdi və 40 bürclə möhkəmləndirilmişdi. İç qalanın müdafiə sisteminə həm də su ilə doldurulan xəndək daxil idi.

Arxeoloji qazıntılar zamanı narınqalanın daş təməl üzərində çiy və bişmiş kərpicdən inşa olunmuş çoxlu ictimai binaları və yaşayış evlərinin qalıqları üzə çıxarılmışdır. Narınqalanın şimal-şərq hissəsindəki təpə hakim mövqeyə malik olması ilə fərqlənir və burada aparılan arxeoloji qazıntılar XII-XIII əsrlərin saray qalıqları və digər iri binaların xarabalıqlarının aşkarlanması ilə nəticələnmişdir. Binaların daxili tərtibatında gəc üzrə oyma uğurla tətbiq olunmuşdu. Saray tipli bir binanın divarlarına XI əsrdə həndəsi bəzək yaradan terrakota fiqurlar salınmışdır.

Dəbil şəhərinin rabad hissəsində yaşayış evlərinin və emalatxanaların qalıqları ilə bütöv bir məhəllənin xarabalıqları üzə çıxarılmışdır. XI-XII əsrlərə aid edilən bu məhəllədə çoxlu təndir və dulus kürələri aşkarlanmışdır. Qeyd edək ki, sənətkar emalatxanaları Dəbil şəhər yerinin mərkəzinin, hətta narınqalanın arxeoloji qazıntıları zamanı da üzə çıxarılmışdır.

Arxeoloji qazıntılar Dəbil şəhərinin Azərbaycan şəhərləri, eləcə də Yaxın və Orta Şərqin başlıca mərkəzləri ilə sıx əlaqə saxladığını təsdiqləyir. Şəhərin pul dövriyyəsində Abbasi xəlifələrinin, Bizans imperatorlarının, Sacilərin, Salarilərin, Şəddadilərin, Səlcuq sultanlarının, Azərbaycan Atabəylərinin zərb etdirdiyi sikkələr işlədilmişdir (Х.А.Мушегян, 1962).

Naxçıvan şəhəri orta əsrlərdə Azərbaycanın böyük sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən biri idi. Araz çayı üzərində karvan yollarının qovşağında yerləşən bu şəhər XII əsrdə (30-cu illərdən 70-ci illərin ortalarına qədər) Eldənizlər - Atabəylər dövlətinin paytaxtı olmuşdur (R.A.Məmmədov, 1977, səh. 50). Naxçıvan şəhəri arxeoloji cəhətdən ən zəif öyrənilən şəhərlərdəndir. Burada, keçən əsrin 60-cı illərinin sonunda, Mömünə xatın türbəsindən cənubda, şəhərin narınqalasında kiçik sahəli *(360 kv.m)* arxeoloji qazıntılar aparılmış, ümumi qalınlığı 5 *m* olan mədəni təbəqə aşkara çıxarılmışdır ki, bu da bir-birinin üstündə yerləşən, IX-XI, XII-XIV və XV-XIX əsrlərə aid üç inşaat qatından ibarətdir (R.B.Göyüşov, R.Ə.Məmmədov, 1980). Çaydaşı və möhrədən tikilmiş (alt qatda), gil məhlulunda çiy və bişmiş kərpicdən hörülmüş dördbucaq bina qalıqları, su və təsərrüfat quyuları, döşəmə və kəhriz fraqmentləri üzə çıxarılmışdır. Çoxlu miqdarda şirsiz, şirli saxsı qab qırıqları, fayans, çini qab parçaları və müxtəlif kaşı nümunələri tapılmışdır. Metal əşyalar, kürədə şirli qab bişirilən zaman istifadə olunan gil üçayaqlar və s. əldə edilmişdir.

1976-cı ildə Naxçıvan şəhərində aparılan arxeoloji qazıntılar nəticəsində burada IX-XVII əsrlərə aid qaynar həyat mənzərəsini bərpa etməyə imkan verən zəngin faktik materiallar əldə olunmuşdur.

Xaraba-Gilan şəhər yeri Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Aza kəndi ərazisində, Gilan çayın sahilində təbii cəhətdən çox möhkəm, su təchizatı yaxşı olan, daşlı-qayalı bir sahədə yerləşir və orta əsrlərdə Kiran adı ilə məşhur olmuş şəhərin xarabalıqlarıdır. Yaqut əl-Həməvi bu şəhərdən bəhs edərkən yazır: "Kiran Azərbaycanda şəhərdir, Təbriz ilə Beyləqan arasında yerləşir" (Йакут аль-Хамави, 1983, стр. 30).

Şəhər yeri geniş ərazini əhatə edir. Hazırda xarabalıqları mühafizə olunmuş şəhər istehkamları vaxtilə möhkəmliyi ilə fərqlənmiş və orta əsr səyyahları öz əsərlərində bu haqda qeydlər etmişlər.

Şəhərin topoqrafiyasında narınqala, şəhristan və rabad adlanan üç hissə özünü qabarıq büruzə verir (tablo 11, şək. 1). Narınqala hakim yüksəklikdə, sıldırımlı yamacları olan hündür dağın üzərində salınmışdı. Təbii baxımdan alınmaz bir məkanda yerləşməsinə baxmayaraq əlavə olaraq daşdan hörülmüş dairəvi bürclərlə möhkəmləndirilmiş qala divarları ilə əhatələnmişdir (bu müdafiə xəttinin uzunluğu 600 *m* təşkil edir). Narınqalada mikrorelyef yaxşı mühafizə olunduğundan onun mürəkkəb plan quruluşunu, bir-birilə əlaqəsi olan ayrı-ayrı binaların qalıqlarını aydın müşahidə etmək olur (tablo 11, şək. 2). Narınqalanın mərkəzində iki böyük hovuz qalığı qeydə alınmışdır. Qalıqlar bu hovuzların vaxtilə günbəzvari örtüyə malik olduğunu söyləməyə əsas verir (Б.И.Ибрагимов, 2000, стр. 30-31).

Şəhristan arxeoloji qazıntılarla daha yaxşı öyrənilmişdir. Burada məhəllələri, yaşayış evlərinin, iri ictimai tikililərin - karvansaraların, hamamların, dəyirmanın; dini tikililərin - məscid və türbələrin qalıqlarını vizual müşahidə etmək olur. Şəhərin baş küçəsini və ona qovuşan məhəllə küçələrini də izləmək çətin deyil. Şəhristanın binaları bişmiş kərpicdən əhəngli məhlulla inşa olunaraq kaşılarla bəzədilmişdir.

Bəzən şəhristanda, əsasən isə rabadda yaşayış evləri daş bünövrə üzərində çiy kərpicdən inşa olunmuşdur. Rabadın tikililəri şəhristanın məhəllələrindən kənarda, təpələrin ətəyində və şəhərin cənubunda yerləşir (Б.И.Ибрагимов, 2000, стр. 35-36). Rabadda əsasən sənətkarlar və şəhər yoxsulları məskunlaşmışdılar. Yerli dulusçuluq şəhər sakinlərini məişətdə geniş istifadə olunan müxtəlif təyinatlı mətbəx, süfrə, işıqlandırma və s. saxsı qablarla təmin edirdi. Müxtəlif metal alət və əşyalar şəhərdə metalişləmənin inkişafından xəbər verir.

Vaxtilə şəhərdə yüksək bədii mədəniyyətin mövcudluğunu, sənətkarların savadlılıq dərəcəsini arxeoloji qazıntılar üzə çıxarmışdır. Tez-tez təsadüf olunan kaşı qırıqları üzərində ərəb əlifbasının kufi və nəsx xətləri ilə yazılmış nümunələrə rast gəlinir. XII-XIV əsrlərə aid tapıntılarda üzə çıxan ərəb, Azərbaycan və fars dillərində Qurandan seçmələr və digər yazılar bədii sənətkarlığın yüksək səviyyəsinə dəlalət edir.

Sənətkarlıqla yanaşı şəhərdə ticarət də kifayət qədər inkişaf etmişdi. Arxeoloji qazıntılar zamanı tapılmış gətirilmə saxsı məmulat, zərnaxışlı fayans qablar, çoxsaylı xarici sikkələr Kiran şəhərinin geniş ticarət əlaqələrindən xəbər verirlər.

Beləliklə, Xaraba-Gilanda arxeoloji tədqiqatlar Kiran şəhərinin nəinki kifayət qədər geniş rayonun mühüm hərbi-inzibati, iri sənətkarlıq-ticarət mərkəzi olduğunu, həm də onun təkcə Qafqazda deyil, Yaxın və Orta Şərqdə yaxşı tanındığını təsdiqləyir (Б.И.Ибрагимов, 2000, стр. 141).

Cuğa şəhər yeri Naxçıvan MR-da, Culfa stansiyasından 3 *km* aralıda, Araz çayının sol sahilində yerləşir və geniş ərazini əhatə edir. Şəhər xarabalıqlarını şimalda sərt qayalar, cənubda Araz çayı, qərbdə qəbiristanlıq hüdudlayır. Şəhərin qala divarlarının qalıqları çay boyunca 1,5 *km* uzanır. Qalanın baş darvazası şərq tərəfdə yerləşmişdi və diametri 7 *m-ə* çatan bürclərlə möhkəmləndirilmişdi. Onların salamat qalmış qalıqlarının hündürlüyü bəzi yerlərdə 3 *m*-ə çatır. Qala divarları qırmızı tufdan kirəc məhlulunda inşa olunmuşdu (В.И.Керимов, 1979, стр. 514).

Şəhərgahın ərazisi bişmiş kərpic fraqmentlərindən ibarət inşaat materialları ilə zəngindir. Bu isə şəhərdə bişmiş kərpic memarlığının mövcudluğundan xəbər verir. Yerüstü arxeoloji materiallar əsasən saxsı və fayans qab nümunələrindən ibarətdir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 96-97).

Şəhər yerinin yaxınlığında karvansara və körpü qalıqları qalmaqdadır (Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1979, səh. 13-16).

Arxeoloji kompleksin təhlili Cuğa şəhər yerinin XI-XVII yüzilliklərə mənsubluğunu söyləməyə imkan verir.

Cənubi Azərbaycanın orta əsr şəhərləri geniş arxeoloji tədqiqatlara cəlb olunmadığından onları səciyyələndirmək çətindir. Lakin yazılı qaynaqların məlumatının təhlili Cənubi Azərbaycanda urbanizasiya prosesinin səviyyəsinin kifayət qədər yüksək olduğunu söyləməyə əsas verir. Burada inkişaf etmiş orta əsrlərdə Ərdəbil, Təbriz, Marağa kimi paytaxt şəhərlər, onlarla böyük və orta dərəcəli şəhərlər olmuşdur.

Qədim Marağa şəhərinin yüksəliş çağı VIII-IX əsrlərə təsadüf edir. Yazılı qaynaqlardan bəlli olur ki, IX əsrin ilk qərinəsində Marağa şəhərinin istehkamları təmir edilmiş, şəhər rabadı möhkəmləndirilmişdir (N.Vəlixanlı, 1993, səh. 97). Yaqut əl-Həməvi Marağadan bəhs edərək yazır ki, "Marağa Azərbaycanda ən böyük və məşhur şəhərdir... Burada çoxlu qədim abidələr, tikililər, mədrəsə və xanəgah vardır" (Йакут аль-Хамави,1983, стр. 31).

VIII-IX əsrlərdə kiçik şəhər olan Təbriz, IX əsrin sonundan sürətlə inkişaf edərək X əsrdə Azərbaycanın məşhur şəhərlərindən birinə çevrilmişdi. Əl-Müqəddəsi Təbrizdən bəhs edərkən onu Bağdadla müqayisə edir və qeyd edir ki, şəhərin "Gözəlliyinin həddi-hüdudu yoxdur" (N.Vəlixanlı, 1974, səh. 133).

XII əsrdə Təbriz Atabəylər dövlətinin paytaxtına çevrildikdən sonra daha da tərəqqi edir. XIII əsrin əvvəllərində Təbrizdə olmuş Yaqut əl-Həməvi yazır: "Təbriz Azərbaycanda ən məşhur şəhərdir. Bu kərpic və əhəngdaşıdan yaxşı hörülmüş qala divarları olan çox əhalili, gözəl şəhərdir" (Йакут аль-Хамави, 1983, стр. 21-22).

Yazılı mənbələrdə adları çəkilən Cənubi Azərbaycan şəhərləri arasında Şiz şəhəri də vardır. Əbu Dulafın məlumatlarından məlum olur ki, ərəb istilasından sonra şəhərdə yaşayış davam etmiş, Şərq və Qərb atəşpərəstlərinin ziyarət etdiyi məbəd fəaliyyət göstərməkdə idi (N.M.Vəlixanlı, 1974, səh. 77-79). Şəhər xarabalıqlarında aparılan arxeoloji qazıntılar yazılı qaynaqların məlumatını təsdiqləmişdir. Təxti-Süleyman adı ilə məşhur olan bu şəhər xarabalıqlarında XX əsrin 50-70-ci illərində alman arxeoloqlarının apardığı qazıntılarla müəyyən olunmuşdur ki, burada Abbasilər, səlcuqlar və monqollar dövründə yaşayış davam etmiş, X əsrdən sonra hətta məbəd ərazisi məskunlaşaraq yaşayış üçün istifadə olunmuşdur. Arxeoloji tədqiqatlar tədricən məbədin öz əhəmiyyətini itirdiyini göstərir. Hətta məbədin cənub eyvanında XI əsrdə dulus kürəsi qurulmuşdu. Həmin dulus kürəsindən XIII əsrədək, yəni burada Hülakülərin saray kompleksi inşa edilənədək istifadə edilmişdi (Naumann, 1976, səh. 63). Arxeoloji qazıntılar zamanı məişətlə bağlı, XI-XII əsrlər üçün səciyyəvi olan çoxlu saxsı məmulatı tapılmışdır (Naumann, 1976, səh. 32-33).

Ərdəbil şəhəri IX-X əsrlərdə Azərbaycanın ən böyük şəhəri hesab olunurdu. X əsr ərəb səyyahı Ərdəbildən bəhs edərkən yazır: "Hal-hazırda (Cənubi) Azərbaycanın ən mühüm vilayəti və böyük şəhəri Ərdəbildir. Hərbi düşərgə və hökmdar sarayı buradadır. Bu şəhərin sahəsi 30 kv. fərsəxdir. Tikililərin çoxu möhrədən və bişmiş kərpicdəndir. Şəhərin ortasında möhkəm (qala) divarları vardır. Şəhərin havası sağlam (saf), satış qiymətləri ucuzdur. Onun böyük rustaq və mahalları var: yaxınlığında Sabalan (Savalan) adlı dağ ucalır... Şəhər çox gözəldir. İçərisindən çaylar axır, (su) quyuları vardır. Çörək isə, demək olar ki, həmişə bol olduğundan bir dirhəmə 50 lavaş almaq olar..." (N.M.Vəlixanlı, 1974, səh. 105-106).

X əsrdə Ərdəbil şəhərinin şəhristanı planda kvadrata yaxın olub, yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qala divarları ilə əhatə olunmuşdu (tablo 12, şək. 1). Şəhərin geniş sahəli rabadı (bayır şəhər) vardı. Xaçvari bazar meydanı rabadın şimal-şərqində yerləşirdi. Baş bazar meydanının rabadda yerləşməsi bir tərəfdən Ərdəbilin inkişaf eləmiş rabadının olmasından, digər tərəfdən isə ticarətin geniş vüsət almasından xəbər verir (C.Qiyasi, 1991, səh. 9).

Ərdəbil şəhərinin Abdullahşah və Pirşəmsəddin küçələrinin qovşağında yerləşən, qədim qəbiristanlıqdakı hündür təpə üzərindəki Came məscidinin ərazisində aparılan arxeoloji qazıntılar mədəni təbəqənin zənginliyini, tikililərin

sıxlığını, şəhərin islamın yayılmasından əvvəl salındığını göstərmişdir (H.Ş.Şiran, 1383).

Ultan qalası Muğan düzündə, Araz çayının cənub sahilində, Ərdəbil ostanının Ultan kəndindən qərbdə, dəniz səviyyəsindən 67-73 *m* yüksəklikdə yerləşir. Yerli əhalinin Ultan qalası adlandırdığı bu şəhər xarabalıqlarının qala divarları ilə müdafiə olunan sahəsi düzbucaq biçimdə olub 33 hektar sahəni əhatə edir. Düzbucaqlının küncləri əsas coğrafi cəhətlərə istiqamətlənmişdir (tablo 12, şək. 2-3). Qalanı eni 10 *m-ə* çatan müdafiə xəndəyi əhatə edir. Şəhərin qala divarlarından bayırda cənub-qərb, cənub və şərq istiqamətlərində genişlənən rabad yerləşir. Rabadla birlikdə Ultan şəhər xarabalıqlarının ümumi sahəsi 70 hektara yaxındır (K.Alizadeh, 2007, p. 5). Arxeoloji qazıntılar məhdud miqyasda aparılmış, mədəni təbəqənin stratiqrafiyası müəyyənləşdirilmiş, şəhər istehkamları ilə bağlı bir çox suallara aydınlıq gətirilmişdir. Qalınlığı 5 *m-ə* çatan mədəni təbəqə yatımında dörd inşaat dövrü müəyyənləşdirilmiş, I və II inşaat qatlarında sasani və ərəb fəthləri dövrünün



**Təxti-Süleyman. Dulus kürəsi.**

maddi mədəniyyət nümunələri, III və IV inşaat qatlarında isə IX-XI əsrin əvvəllərinə aid faktik materiallar əldə edilmişdir. İstehkam qalıqlarının tədqiqindən məlum olmuşdur ki, şəhərin ilk qala divarı çiy kərpicdən hörülmüş, qalınlığı 4 *m* olmuşdur. Bu qala divarı sel ilə dağıdıldıqdan sonra onun qalıqları üzərində nisbətən kiçik ölçülü kərpiclərdən yenisi inşa olunmuşdur (K.Alizadeh, 2007, p. 9-13).

Qazıntılar zamanı əldə olunan arxeoloji materiallar əsasən saxsı qab parçalarından ibarətdir və daha çox orta əsr Beyləqan şəhərinin saxsı məmulatı ilə oxşarlıq təşkil edir. Arxeoloji qazıntıların nəticəsinə və faktik materialların təhlilinə

əsaslanaraq tədqiqatçılar bu şəhərin sasanilər dövründə salındığını və burada XI əsrin əvvəllərinədək həyatın mövcud olduğunu, abidənin Varsan şəhərinin xarabalıqları olmasını ehtimal edirlər (K.Alizadeh, 2007, p. 18-20).

Arxeoloji axtarışlar zamanı qeydə alınmış bəzi şəhər yerlərinin yazılı mənbələrdə adı çəkilən hansı şəhərə mənsub olduğu bəlli deyildir. Bunlardan biri Kürdəmir rayonunun Ərəbqubalı kəndində yerləşir və ərazisi 25 hektardan çoxdur. Düzbucaqlı plan quruluşuna malik bu abidənin ərazisi kvadrat formalı bişmiş kərpic qırıqlarından ibarət inşaat materialları, şirsiz və şirli saxsı qab qırıqları ilə zəngindir, şüşə və metal məmulatı, sikkələr tapılmışdır (Г.А.Джидди, 1980; Ф.Л.Османов и др., 1984).

Dibrar şəhər yeri dağlıq zonada, Dəvəçi rayonunun Zöhrabkənd adlı kəndinin kənarında geniş bir ərazini əhatə edir. Abidə yerli əhalinin Şəhərgahdağ adlandırdığı dağın şərq ətəklərində yerləşərək şimal-şərqdən cənub-qərbə uzanır. Dağın yamaclarını Gilgilçayın suları yuyur. Şəhər yerinin şərq hissəsində mikrorelyef yaxşı mühafizə olunmuşdur. Burada kvadrat və düzbucaqlı plan quruluşuna malik, qaya və çay daşlarından hörülmüş binaların xarabalıqları, 200-250 *m* məsafədə qala divarlarının qalıqları izlənilir. Qala divarları qaya daşlarından hörülmüşdür (Г.агаев, 1974, стр. 20-21).

**Ultan qalası. Qalanın qərb bürcü.**



Dibrar şəhər yerindən toplanmış yerüstü arxeoloji materiallar, əsasən, IX-XIII əsrlər üçün səciyyəvi olan şirli və şirsiz saxsı, zərnaxışlı fayans qab qırıqlarından, şüşə bilərzik parçalarından ibarətdir.

Şəhər yerinin cənub kənarında geniş sahəli orta əsr müsəlman qəbiristanlığı yerləşir.

Şübhəsiz ki, Dibrar şəhər yeri Şirvanın orta əsr şəhərlərindən birinin xarabalıqlarıdır. Şəhərin yerində Şirvan şəhərinin lokalizasiyasına dair ehtimal irəli sürülmüşdür (T.M.Dostiyev, 2001, səh. 42-43; M.C.Xəlilov, 2006a, səh. 81-82).

Yaşayış məskənlərinin ayrıca bir tipini kiçik şəhər məntəqələri üçün səciyyəvi əlamətlərə malik şəhərtipli iri yaşayış yerləri təşkil edir. Bu yaşayış məskənləri şəhərlərdən mədəni təbəqənin sönüklüyü, sənətkarlığın zəif inkişafı və çox da mürəkkəb olmayan müdafiə sistemi ilə fərqlənir. Bu tip abidələrə Torpaqqalanı (Qax rayonu), Muncuqlutəpəni, Mingəçevir, Tatlı yaşayış yerlərini misal çəkmək olar.

Orta əsrlərə aid bir neçə şəhərtipli iri yaşayış yeri Azərbaycanın şimal-şərqində, Quba-Xaçmaz bölgəsində tədqiq olunmuşdur. Bunlara Canaxır, Şəhərgah, Xınalıq, Qalaxur, Qalayeri və Utuq yaşayış yerlərini aid etmək olar. Baxmayaraq ki, bu abidələr yerüstü materiallar və kəşfiyyat səciyyəli qazıntılar əsasında tədqiq olunmuşdur, onların ümumi sahələrinin 6-12 hektar, mədəni təbəqələrinin qalınlığı isə 1,5-3 *m* olduğu müəyyən edilmişdir (T.M.Dostiyev, 2001).

Yaqut əl-Həməvi "Mücəm əl-buldan" adlı lüğətində Xınalığın Xazaran dağ keçidində kiçik şəhər olduğunu bildirir (Йакут аль-Хамави, 1983, стр. 23). Xınalıq orta əsr yaşayış yeri Qudyal çayın sol sahilində, dəniz səviyyəsindən 2300 *m* hündürlükdə, Qızılqaya yastanının cənub-şərq yamacında, strateji baxımdan çox əlverişli məkanda salınmışdır və hal-hazırda müasir kənd tikililəri ilə örtülmüşdür. Qala divarlarının qalıqları Xınalığın şimal və şimal-qərb tərəfində dar bərzəxdə qeydə alınmışdır. Yaşayış yerinin cənub-şərq tərəfindən yerləşən giriş isə piramida biçimli qüllə ilə mühafizə olunurdu (G.Məmmədbəyova-Mehmandarova, 1993, səh. 28-30). Xınalığın orta əsrlərdə mahal mərkəzi olduğu ehtimal edilir (T.M.Dostiyev,2001,səh. 47).

Qalacıq yaşayış yeri Şamaxı rayon mərkəzindən 23 *km* cənubda Böyük Qafqazın cənub ətəyindəki yüksəklikdə yerləşir. 1980-1986-cı illərdə burada aparılan arxeoloji qazıntılar zamanı qalınlığı 1 *m*-ə çatan üst mədəni təbəqədə IX-XIII əsrlər üçün səciyyəvi maddi mədəniyyət qalıqları, əhəng daşından hörülmüş qala divarlarının, yaşayış evlərinin qalıqları, təndirlər və ocaqlar üzə çıxarılmış, xeyli şirsiz və şirli saxsı qab nümunələri, metal, şüşə və daş məmulat, XII əsrin sonu -XIII əsrin birinci rübündə Şirvanşahlar tərəfindən zərb olunmuş mis sikkələr dəfinəsi tapılmışdır (А.Б.Нуриев, 1981, стр. 423; 1985, стр. 491; 1986 а, стр. 42-43; 1987, стр. 554; А. Б.Нуриев, Р.М.Ваидов, 1988).

Mingəçevir yaşayış yerlərinin orta əsr mədəni təbəqəsi pis mühafizə olunmuşdur. Burada Kürün sol sahilində 2 və 3 saylı yaşayış yerlərində dağıntılara məruz qalmış tikintilərin qalıqları, dairəvi dulus kürələri aşkarlanıb tədqiq edilmişdir. Şirli qablar, şüşə qab və bəzək (bilərzik) qırıqları, Şirvanşahların sikkələri və s. tapılmışdır (R.M.Vahidov, 1957).

Şəhərburnu yaşayış yeri Kür çayının sahilində Samux rayonunda Qarasaqqal kəndinin yaxınlığında yerləşir. Düzbucaq biçimli plana malik şəhər xarabalıqları 30 hektara yaxın ərazini tutur. Abidənin ərazisində aparılmış yoxlama qazıntı ilə mədəni təbəqə yatımının ümumi qalınlığının 2,4 *m* olduğu və özündə antik, ilk orta əsr və IX-XII əsrlərin təbəqələrini əks etdirdiyi müəyyənləşdirilmişdir. Qalınlığı 80 *sm-ə* çatan IX-XII əsrlərə aid üst mədəni təbəqə zənginliyi ilə fərqlənmiş, burada yaşayış və məişət tikililərinin qalıqları, çoxlu şirli qab-qacaq qırıqları, dəmir bıçaq, mismar, kirkirə daşı, çəki daşı tapılmışdır (A.Məmmədov, 2000, səh. 30-47).



**Təxti -Tavus tapıntıları.**

Yaşayış yerində rünglərdən quraşdırılmış su kəməri xətti də üzə çıxarılmış və 4 *m* məsafədə izlənilmişdir.

Muncuqlutəpə yaşayış yeri Şəmkir rayonunun Qaracəmilli kəndindən 8 *km* şimalda, Kürün sağ sahilində yerləşir. Yaşayış yerinin narınqalası ən yüksək, hakim mövqedə yerləşməklə üç tərəfdən qala divarları ilə möhkəmləndirilmişdi. Şimaldan isə onu Kür çayı hüdudlayırdı. Qalınlığı 1,7-1,8 *m*-ə çatan mədəni təbəqə yatımında IX-X və XI-XIII yüzilliklərə aid olmaqla iki inşaat qatı müəyyənləşdirilmişdir (А.А.АЛИЕВ, 1987, стр. 546; А.А.Алиев, 1988, стр. 453-454; 1988a, стр. 72-73). Qazıntı zamanı çaydaşından və bişmiş kərpicdən hörülmüş tikili qalıqları, çoxlu təndir və ocaqlar, təsərrüfat quyuları üzə çıxarılıb öyrənilmişdir. Memarlıq hissələrinin, o cümlədən sütun başlıqlarının tapılması vaxtilə burada monumental binaların olmasına dəlalət edir. Mədəni təbəqədən tapılmış arxeoloji materiallar şirli və şirsiz saxsı qab-qacaqla, dəmir alət və silahlarla, metal məmulat və müxtəlif bəzək əşyaları ilə təmsil olunmuşdur. Şirli saxsı qabların tapıntılar arasında çoxluğu xüsusi qeyd olunmalıdır.

Torpaqqalanın (Qax rayonu) orta əsr təbəqəsi 1,20-1,80 *m* qalınlığındadır. Burada yaşayış evlərinin qalıqları, saxsı qab və kərpic bişirmək üçün olan ikigözlü kürə aşkara çıxarılmış, müxtəlif saxsı qab, metal və şüşə parçaları, həmçinin sikkələr tapılmışdır. Bunlar abidənin üst təbəqəsini IX-XV əsrlərə aid etməyə əsas vermişdir (R.M.Vahidov, 1965a, səh. 201-211).

Tatlı yaşayış yerini də şəhərtipli hesab etmək olar. Bu yaşayış yeri Qazax rayonunun eyni adlı kəndi ərazisində hündür sahədə yerləşir. Hər tərəfdən hasara alınmışdır. Yaxşı yonulmuş əhəngdaşı ilə hörülmüş divarın qalınlığı 1,5 *m* olub, qalıqlarının hündürlüyü 3 *m-ə* çatır. Yaşayış yerinin sahəsi 5 hektar təşkil edir. Burada üç nefli məbəd və onun örtüyündən tökülmüş kirəmitlərin qalıqları tapılmışdır. Yaşayış yerindən həvəngdəstəsi, şirli və şirsiz qab qırıqları, Bizans hökmdarı X Konstantin Dukinin (1059-1067) qızıl pulu əldə edilmişdir. Yaşayış yeri X-XIII əsrlərə aid edilir (Р.Б.Геюшев, А.Б.Нуриев,1978, стр 42-43).

Qalabozu yaşayış yeri Ağstafa rayonunun Qıraq Kəsəmən kəndi yaxınlığında Kür çayının hündür sahilində yerləşir. Şimaldan, qərbdən və qismən də şərqdən Kür çayı ilə hüdudlanan, cənubda isə hündürlüyü 20 *m-ə* çatan dik yamaclı olmaqla bu yaşayış yeri əlverişli topoqrafik mövqeyə malikdir. Mikrorelyef əsasında yaşayış yerinin təbii maneələrlə qorunmayan cənub kənarında istehkam qalıqlarının varlığını izləmək olur.

Yaşayış yerinin ərazisində bişmiş kərpic, yonulmuş yerli ağ daş və çaydaşı kimi inşaat materiallarına tez-tez rast gəlinir. Abidənin bəzi yerlərində tikili qalıqları izlənilir. Kür çayının mədəni təbəqəni yuması nəticəsində abidənin qərb tərəfində 2,2-2,5 *m* dərinlikdə çaydaşı və bişmiş kərpicdən qarışıq hörgü üsulu ilə inşa olunmuş divarın qalıqlarının 5-6 cərgəsinin üzəri açılmışdır. Çılpaqlaşmış mədəni təbəqə yatımının vizual müşahidə əsasında burada qalınlığının 3 *m*-dən artıq olduğunu söyləmək olar.

Yaşayış yerində ilkin tədqiqatlar zamanı şirli saxsı qabların istehsal olunduğu dulus kürəsinin qalıqları da aşkar olunmuşdur.

Yaşayış yerindən toplanmış yerüstü arxeoloji materiallar şirli və şirsiz saxsı, fayans qab qırıqlarından, dən və kirkirə daşları fraqmentlərindən, bəzək əşyalarından ibarətdir.

Kəşfiyyat xarakterli ilkin tədqiqatlar əsasında Qalabozu yaşayış yeri IX-XV əsrlərə aid edilir (T.M.Dostiyev, 2005).

Təxti-Tavus (Qaraköpəktəpə) Füzuli şəhərinin yaxınlığında, Köndələnçayın sağ sahilində yerləşir. Hündürlüyü 50 *m*-ə çatan bu geniş sahəli təpədə e.ə. V minillikdən orta əsrlərədək ardıcıl həyat olmuşdur. Qədim yaşayış məskəni sasanilər dövründən Təxti-Tavus adını almışdır (Q.İsmayılzadə, 1999a, səh. 47). Arxeoloji qazıntılarla müəyyən olunmuşdur ki, IX-X yüzilliklərdə Təxti-Tavus geniş iqtisadi-mədəni əlaqələrə malik, qala divarları ilə qorunan yaşayış məskəninə çevrilmişdir. Qazıntılar zamanı qala divarları, tünglərdən quraşdırılmış su kəməri xəttinin qalıqları, müxtəlif təyinatlı mülki və ictimai binaların qalıqları, sənətkar məhəlləsi üzə çıxarılmış, xeyli miqdarda şirsiz və şirli qab-qacaq, metal və şüşə məmulat, sümük əşyalar, bəzək əşyaları tapılmışdır (Г.С.Исмаилов, О.А.Даниелян, 1975, стр. 35-37). Bu yaşayış məskənində bədii sənətkarlığın - bədii

keramika istehsalının, zərgərlik, sümükişləmə, bədii şüşə sənətkarlığı sahələrinin kifayət qədər inkişaf etdiyi bildirilir (Q.İsmayılzadə, 1999a, səh. 49).

Şaxtaxtı orta əsr şəhərtipli yaşayış yeri Naxçıvan MR Şərur rayonunun eyni adlı kəndinin ərazisində yerləşir. Çoxbucaqlı plan quruluşuna malik bu yaşayış yeri 20 hektardan artıq sahəni əhatə edir. Arxeoloji qazıntı yaşayış yerinin çökək hissəsində 25 *kv.m* sahədə aparılmış, burada dairəvi planlı dulus kürəsinin qalıqları aşkarlanmış, xeyli miqdarda şirli və şirsiz saxsı qab qırıqları, dəmir bıçaq tiyələrinin parçaları tapılmışdır.

Yaşayış yerinin tikililəri daşdan inşa olunmuşdur. Binaların, yaşayış evlərinin qalıqlarının yerli əhali tərəfindən sökülərək inşaat materialı kimi təkrar istifadə edilməsi nəticəsində mədəni təbəqə qismən dağıdılmışdır.

Arxeoloji materiallar yaşayış yerini IV-XIII əsrlərə aid etməyə imkan vermişdir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993a, səh. 42-44).

Sədərək orta əsr şəhərtipli iri yaşayış yeri Araz çayının sol sahilində Naxçıvan MR eyni adlı kəndindən cənub-şərq tərəfə geniş bir ərazini əhatə edir. Abidə ərazisində kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar nəticəsində daş və bişmiş kərpicdən inşa edilmiş yaşayış evlərinin qalıqları, külli miqdarda maddi mədəniyyət nümunələri aşkar edilmiş, yaşayış məskəninin su təchizatına dair maraqlı materiallar əldə olunmuşdur. Tapıntılar arasında şirli və şirsiz saxsı məmulat daha çoxdur. Buradan pəncərə şüşələrinin qırıqlarının tapılması da qeyd olunmalıdır.

Arxeoloji kompleks Sədərək orta əsr şəhərtipli yaşayış yerinin IX-XVIII yüzilliklərdə mövcud olduğuna dəlalət edir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993a, səh. 73).

Son iki onillikdə Azərbaycan Respublikasının cənub-şərqində bir neçə şəhərtipli yaşayış yeri aşkar edilib ilkin arxeoloji tədqiqatlara cəlb olunmuşdur. Alaşa, Qədim yer, Moşxan, Piyakon, Ərcivan, Şakaşəhər bu qəbildən olan abidələrdir (Q.O.Qoşqarlı, A.İ.Ələkbərov, 1992, səh. 50).

Tədqiqatçılar Ərcivan yaşayış məskəni haqqında Xaqani Şirvaninin qəsidələrindən birində məlumat verildiyini bildirir (S.M.Onullahi, 1994, səh. 81). Köhnə Ərcivan yaşayış yeri Astara rayonunun Ərçivan kəndinin qərb kənarında yerləşir və on hektardan artıq sahəni əhatə edir. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı abidənin ərazisində bişmiş kərpicdən hörülmüş, qalınlığı 1,5 *m* olan istehkam qalıqları qeydə alınmışdır. Tikinti materialları yaşayış yeri üçün bişmiş kərpic memarlığının səciyyəvi olduğunu göstərmişdir. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar, ilk növbədə, şirli və şirsiz saxsı məmulat yaşayış yerinin IX-XVII əsrlərdə mövcud olduğunu ehtimal etməyə əsas vermişdir (T.Axundov və b., 2002, səh. 65-71).

**Şəhər istehkamları.** Arxeoloji tədqiqatlar Azərbaycanın orta əsr şəhərlərinin istehkamları, tikililəri, abadlığı və s. məsələlərə dair zəngin faktik material vermişdir. Tez-tez baş verən xarici basqınlar və feodal ara müharibələri şəhər

əhalisini möhkəm istehkamlar tikməyə məcbur edirdi, şəhərlər möhtəşəm və hündür qala divarları və xəndəklərlə əhatəyə alınırdı. Demək olar ki, bütün orta əsr şəhərlərinin belə qala divarları var idi. Hərb memarlığı Azərbaycan feodal dövlətlərinin diqqət mərkəzində duran sahələrdən olmuşdu. Ölkənin əmin-amanlığı, inzibati idarəçiliyin səviyyəsi, kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafı, əhalinin sosial rifahı bir çox cəhətdən müdafiə sisteminin düzgün təşkilindən və möhkəmliyindən asılı olurdu. Hərbi əməliyyatlar zamanı ətrafda yaşayan əhali də şəhərdə qorunur, onun müdafiəsində iştirak edirdilər. Yerli memarlardan dövrün hərb sənətinə cavab verən, istər güclü, sürətli həmlələrə, istərsə də uzun sürən mühasirələr zamanı düşmənin divardələn qurğularına, mancanaq atəşlərinə davam gətirə bilən kifayət qədər möhkəm, alınmaz qala divarları inşa etmələri tələb olunurdu. Şəhərlərin müdafiəsi şəhərsalmanın həlledici amillərindən birinə çevrilmişdi (Г.М.Ахмедов, 1985, стр. 4; Т.М.Достиев, 2003, стр. 84; С.Г.Мамедов, 1997, стр. 169-203; В.Г.Мурадов, 1984, стр. 27).

Azərbaycanın orta əsr şəhərlərinin kompozisiya-plan sxemi ümummüsəlman şəhərlərinə xas quruluş modelinə uyğun idi. Zəkəriyyə Qəzvini müsəlman şəhərlərinin quruluş modelini belə təsvir edirdi: "Bu iki şəhərdir, biri digərinin içərisində. Kiçik şəhər "şəhristan" adlanır. Onun divarları və bir neçə qapısı var. Böyük şəhər isə kiçik şəhəri dövrələyir və onun da divar və qapıları var. Böyük şəhəri hər tərəfdən üzümlüklər və bağlar, bunları isə əkin sahələri əhatə edir" (З.М.БУНИЯТОВ, 1986, стр. 100). Mənbədən bəlli olur ki, istər şəhristanın, istərsə də bayır şəhərin (rabadın) qala divarları olmuşdur.

Şəhərlərin qala divarları yerli materialdan asılı olaraq, daşdan, çiy və bişmiş kərpicdən və yaxud möhrədən hörülürdü. Şirvan bölgəsindəki şəhərlərin qala divarları əsas etibarilə daşla kirəc məhlulundan tikilmişdir. Orta əsr Bakı, Şamaxı, Dərbənd şəhərlərinin qala divarları bunlara misal ola bilər. Arranın şəhərlərinin qala divarları isə möhrə, çiy kərpic və IX-X əsrlərdən başlayaraq geniş miqyasda bişmiş kərpiclərlə tikilmişdir. Beyləqanın IX-XIII əsrlərə aid qala divarları kiçikölçülü çiy kərpiclə, möhrə və bişmiş kərpiclə gil və kirəc məhlulunda hörülmüşdür. IV və VI qazıntı sahələrində aparılan tədqiqatlar nəticəsində aydın olmuşdur ki, şəhərin ilk qala divarı IX əsrədək uçurulub dağıdılmışdır. Onun üstündə yenidən iki paralel uzanan (eni 90 *sm*) möhrə divarlar tikilmiş, onların arası isə torpaqla doldurulmuşdur. Divarın ümumi eni 4 *m-ə* bərabərdir. Onun möhrə üzlüklərindən və tökmə torpağından IX əsrə aid şirli qab qırıqları tapılmışdır. Bu divar çox ömür sürməmişdir. IX əsrin sonu və X əsrin əvvəllərində divarın xaricində dulus kürəsi tikilmişdir. Kürənin külü müəyyən qədər uçmuş divarı örtmüşdür. Sonralar X əsrdə, hər halda XI əsrdən gec olmayaraq, burada növbəti divar tikilmişdir. Bu dəfə divarın

tikintisində bir-birini əvəz edən möhrə (1 *m)* və çiy kərpic (32x32x7 *sm)* hörgülərdən istifadə edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 25-26). Bu divarın ümumi eni 6 metrdir. VI qazıntı sahəsində o özündən əvvəlki divardan xaricə çıxır və hətta dulus kürəsinin üstünü örtür. Daha sonrakı dövrə təxminən XII-XIII əsrin əvvəllərinə bişmiş kərpiclə (24x24x5 və 26x26x5 *sm*) ikiqat işlənmiş möhrəli çiy kərpic divarı aid etmək lazımdır (Q.M.Əhmədov, 1979, səh. 44-46). Qeyd olunan divarların müxtəlif dövrlərə aid olması onların bünövrələrinin müxtəlif səviyyələrdə qalması ilə də təsdiq edilir. Divarların bünövrələrinin səviyyəsi şəhərin mədəni təbəqələrinin səviyyəsinə müvafiq şəkildə uyğun gəlir.

Orta əsr Gəncə şəhərinin qala divarları möhrə, çiy kərpic və çaydaşı ilə bişmiş kərpicin dəyişən cərgələrindən ibarətdir (tablo 13, şək. b). Daş və kərpic hörgülərdə kirəcdən geniş istifadə olunmuşdur. Gəncədə aparılan qazıntılar nəticəsində şəhərin üç dairə qala divarı olduğu müəyyənləşdirilmişdir (И.М.Джафарзаде, 1949, стр. 35-59).

Birinci dairə möhrə və iri çiy kərpiclə hörülmüşdür. Bu divarın eni 6-7 *m*-dir. Divarın hər iki üzü sonradan möhkəmləndirilmişdir. Bayır tərəfdə eni 1 *m* olan üzlük divar kirəc məhlulunda çaydaşı, tuf daş və bişmiş kərpiclə, ikinci dairə divar kirəc məhlulunda çaydaşı ilə hörülmüşdür. Eni 3 metrdir. Üçüncü dairədə hələlik qazıntı aparılmamışdır. Hər üç divarın dövrləri hələ dəqiq müəyyən olunmayıb, ancaq onların şəhər böyüdükcə müxtəlif vaxtlarda ardıcıl olaraq tikildiyi şübhə oyatmır.

Gəncənin qala divarları çayın sahil bəndləri və iki sahili birləşdirən körpülərlə uzlaşdırılaraq inşa edilmişdir.

Gəncə xüsusilə XII-XIII əsrin əvvəllərində çox möhtəşəm istehkamlara malik bir şəhər olmuşdur. Xatırladaq ki, Zəkəriyyə əl-Qəzvini Gəncənin müsəlman aləminin sərhəd vilayətində yerləşməsini, möhkəm istehkamlara malik olmasını, sakinlərinin cəsurluğunu xüsusi qeyd edir (З.М.БУНИЯТОВ, 1978, стр. 189). Bu səbəbdən monqollar Azərbaycana birinci hücumları zamanı (1221) Gəncəni ala bilməmiş, əhalidən ancaq bac olaraq pul və geyim şeyləri götürməklə kifayətlənmişlər, ikinci hücumda isə (1231) monqollar yalnız uzunmüddətli müqavimətdən sonra çox böyük çətinliklə şəhəri tuta bilmişlər.

Orta əsr Şəmkir şəhərinin istehkamlarından narınqala divarları nisbətən yaxşı öyrənilmişdir. Arxeoloji qazıntılarla narınqalanın şərq divarı 80 *m* uzunluqda torpaq qalaqlarından təmizlənərək bünövrəyədək öyrənilmişdir (T.M.Dostiyev, 2007, səh. 28). Bünövrə üçün çınqıl qatında xəndək qazılmış, yerli ağ daşlardan və iri çay daşlarından keyfiyyətli əhəngli, gilli yapışdırıcı məhlulla özül qoyulmuşdu. Bünövrə kürsülüklə vahid konstruksiya təşkil edir və ikipilləlidir (tablo 14, şək. 1). Belə quruluş divarın dayanaqlığını artırır, onun antiseysmistik imkanlarını gücləndirirdi. Bünövrə və kürsülüyün hündürlüyü 1,5 *m-ə* çatır. Divarın özü bişmiş kərpic, yerli ağ daş və çaydaşından əhəngli, gilli məhlulla Arran memarlıq məktəbi üçün səciyyəvi olan qarışıq hörgü üsulu ilə hörülmüşdü. Divarın torpaq qalaqlarından təmizlənmiş qalıqlarının hündürlüyü 5-6 *m* təşkil edirdi. Memar və bənnalar divar üzlüyünə xüsusi diqqət yetirmiş, ağ daş blokların, qırmızı kərpiclərin və boz-göy çay daşların ritmik şəkildə növbələşməsi bir tərəfdən göz oxşayan polixrom divar səthi yaradır, digər

**Şamaxı. Qazıntı zamanı üzə çıxarılmış qala divarının planı və görünüşü.**




tərəfdən istehkama monumentallıq əzəmət verirdi (tablo 14, şək. 2).

Şəhərlərin qala divarları tikilən zaman yerin quruluşu nəzərə alınırdı. Zərurət yarandıqda qala divarları dayaqlarla möhkəmləndirilirdi. Məsələn, Şamaxının qala divarı tikilərkən onun hər 3,5 metrliyində qalın dayaqlar ucaldılmışdır (Г.А.Джидди,1981, стр. 42). Şabran şəhər yerində, V qazıntı sahəsində üzə çıxarılan qala divarında da bürclər və kontrforslar sıx yerləşməklə (tablo 16, şək. 1) həm də divara dayaq olmuşdur.

Orta əsr şəhərlərinin içqala divarları kifayət qədər hündür tikilirdi, bəzən 10-15 *m*-ə çatırdı. Dərbənd şəhərinin narınqalası möhtəşəmliyi ilə daha çox fərqlənir (tablo 17, şək. 1). Qala divarlarını dördkünc və yaxud yarımdairəvi bürclər müşayiət edirdi. Gəncə qazıntıları zamanı buradakı qala divarlarında həm dördkünc, həm də yarımdairəvi bürclər aşkara çıxarılmışdır. İ.M.Cəfərzadənin fikrincə, dördkünc bürclər daha qədimə aiddir (И.М.Джафарзаде, 1949, стр. 39-58). Beyləqanın qədim divarındakı bürclər yarımdairəvi uzunsov, IX-XIII əsr divarı isə yarımdairəvi, nisbətən kiçik formaya malikdir. Dərbəndin qala divarlarında kvadrat və yarımdairəvi bürclər qalmaqdadır. Şamaxı və Bakı şəhərlərinin divarlarındakı bürclər isə yarımdairəvidir.

Qala divarlarında bürclər müəyyən məsafələrdə tikilirdi. Gəncə, Beyləqanda onların arası 40-50 *m*-dir, Bakıda isə daha azdır. Divarın təhlükəli hissəsində bürclərin sayı çox artırılırdı. Məsələn, Dərbənddə başlıca təhlükə şimaldan gözlənildiyindən burada bürclər daha sıx yerləşmişdi. Dərbənd qalasındakı 73 bürcdən 46-sı şimal divarında idi (А.А.Кудряацев, 1982, стр. 102). Qəbələnin isə cənub qala divarının bürcləri çox sıx tikilmişdir. Bu bürclər nəinki müdafiə, həm də divara dayaq rolunu oynayırdı. Divar və bürclərin yuxarısı adətən dişli, gözlü olurdu. Bu da müdafiə üçün düşmən atəşini izləmək, atəş atdıqdan sonra qorunmaq imkanı yaradırdı. Divarların yuxarısında müdafiəçilərin hərəkəti və hərbi ləvazimat saxlamaq üçün səkilər düzəldilirdi. Bütün bunları XII-XV əsrlərdən zamanımıza qədər qalmış Bakıda İçərişəhərin qala divarlarında əyani şəkildə görmək mümkündür.

Örənqala qazıntılarında VIII-IX əsrlərə aid mədəni təbəqədən tapılmış bir ədəd bürc formalı qab xüsusi maraq doğurur (Q.M.Əhmədov, 1960, səh. 1253-1257). Qabın iki divarı var. Çöl divarda oxvari mazqallar kəsilmiş, yuxarı qurtaracağında isə üçbucaq dişlər düzəldilmişdir. Bu cür müdafiə əlamətləri, görünür, orta əsrlərdə təkcə qala divarlarında deyil, eyni zamanda ayrı tikilmiş qüllə və bürclərdə də olmuşdur.

Azərbaycanın hərbi mühəndisləri o vaxtlar mövcud olan bütün müdafiə üsullarından istifadə etmişlər. Şəhərlərin qala divarlarındakı darvaza bürcləri bir-birinə daha yaxın məsafədə tikilirdi və onların dayanaqlığına xüsusi diqqət yetirilirdi. Misal olaraq Qəbələnin cənub darvazasının bürclərini göstərmək olar (tablo 15). Arxeoloji tədqiqatlar onların VIII əsrin sonu və ya IX əsrdə bişmiş kərpiclə daha etibarlı hörüldüyünü təsdiqləmişdir (Г.М.Ахмедов и др., 1979, стр. 511). Darvaza bürclərinin yuxarı hissəsi zəngin bədii tərtibatı ilə fərqlənirdi. Beyləqanın XI-XII əsrlərə aid darvaza bürcləri bişmiş kərpiclə çox gözəl üzlənmişdir. Qırmızı kərpic cərgələri, ağ kirəc məhlulu xətləri və kərpiclər arasında düzəldilmiş işıq-kölgə salan oyuqlar, bütövlükdə, darvaza tikinti kompleksinə xüsusi

yaraşıq verirdi (Г.М.Ахмедов, Ф.А.Ибрагимов, 1970, стр. 380-381). Azərbaycanın şəhərlərinin 2-3, bəzən isə 4 darvazası olurdu. Təbriz və Dərbənd istisna təşkil edirdi. Əl-Müqəddəsi Dərbəndin şimal divarında üç, dəniz və cənub tərəfdən isə çoxlu darvazaları olduğunu qeyd edir (N.M.Vəlixanlı, 1974, səh. 132). Şimaldakı darvazalar "Carçı", "Qırxlar" və "Daşqapı", cənubdakılar isə "Qala", "Bayat", "Orta qapı" (tablo 17, şək. 2-4) və "Dubarı" adlarını daşımışlar (А.А.Кудряацев, 1982; 1982a; С.О.Хан-Магомедов, 1972). Darvazalar dəmirdən və ya qalın taxtadan düzəldilirdi. Taxta darvazalar dəmir qurşaqlarla möhkəmləndirilirdi. Gəncə darvazalarının bir tayı indiyədək Gürcüstanda Gelati monastırında saxlanılmaqdadır (Х.М.Френ,1926;И.Енико лопов, 1948).

Şəhərlərin müdafiə kompleksinə qala divarlarını bayırdan müşayiət edən qala xəndəyi də daxil idi. Qala xəndəkləri təhlükə olduqda yaxından axan çay, arx və ya kanalın suyu ilə doldurulurdu. Darvazadan xariclə əlaqə xüsusi körpü vasitəsilə saxlanılırdı: gündüzlər körpü xəndəyin üstündə durur, gecələr isə qaldırılıb divara bağlanırdı. Beyləqanın qala xəndəyinin eni 12-15 *m*, Gəncənin 8-9 *m*, dərinlikləri isə 3-4 *m* idi. Qəbələdə xəndəyi hər iki tərəfdən şəhəri əhatə edən Covurluçay və Qaraçay əvəz edirdi. Süni xəndək şəhərin ancaq şimal qala divarı ətrafında qazılmışdı. Bakıda qala xəndəyi Xəzər tərəfdən dənizin suyu ilə doldurulurdu.

Orta əsr Bakı şəhərinin istehkam tikililəri arasında Qız qalası xüsusi maraq doğurur. 1962-1963-cü illərdə Bakıda Qız qalasının və ona bitişik olan, dənizə doğru uzanan, 19 *m* enində qala divarları və bürclərin bünövrəsi təmizlənmiş, yaxşı yonulmuş iri daşlarla kirəc məhlulunda hörülmüş bina qalıqları, daş təbəqəni oymaqla düzəldilmiş quyular aşkara çıxarılmışdır. Quyuların diametri 0,7-0,8 *m* idi. Aydınlaşdırılmışdır ki, Qız qalası böyük qaya üstündə tikilmişdir (tablo 18). Daş süxurda qazılmış quyunun suyunun yoxlanılması göstərmişdir ki, o içməyə tamamilə yararlıdır. Belə bir fikir söylənilmişdir ki, bu abidə Abşeronun başqa müdafiə tikintiləri kimi qala rolunu oynamış, şəhərin müdafiəsi üçün istifadə edilmişdir (О.Ш.Исмизаде, 1964; 1965a; 1968; М.Халилов, 1997, стр. 296-297). Həmin abidənin dini səciyyə daşıması haqqında da fikirlər var (Д.А.Ахундов, 1974, стр. 14-25; Р.М.Гиршман, 1978, стр. 37-41). Başqa bir fərziyyə isə Qız qalasının rəsədxana kimi istifadə olunmasını irəli sürür (Г.Ахмедов, 1997, стр. 179-191).

Qız qalasında aparılan qazıntılardan və quyuların təmizlənməsindən əldə edilən materiallar XI-XII əsrlərə aiddir. Qalanın inşa tarixinə dair yekdil fikir yoxdur. Amma, bir çox əlamətlər onun V-VI əsrlərdə inşa olunduğunu ehtimal etməyə əsas verir.



**Bakı. Qız qalası.**

Feodal hökmdarlar şəhərə yaxın dağların çıxılmaz yerində yay iqamətgahı və sonuncu sığınacaq kimi istifadə olunan qala tikdirirdilər. Şamaxı yaxınlığındakı Gülüstan və Buğurt qalası, Şabran yaxınlığındakı Çıraqqala, Naxçıvan yaxınlığındakı Əlincəqala, Bərdə yaxınlığında Şatar, Urmiya yaxınlığında Şahi, Təbriz yaxınlığında

Dizmar, Marağa yaxınlığında Ruin-Diz belə qalalardan idi. Şahi qalasının fərqləndirici əlaməti onda idi ki, o, Urmiya gölünün mərkəzindəki adada, günbəzvari dağda ucaldılmışdı (С.Г.Мамедов, 1997, стр. 189).

Bu dövrə aid şəhər istehkamlarının planı adətən dördbucaqlı şəklində olurdu. Məsələn, Ərdəbilin, Beyləqanın, Gəncənin, Şəmkirin istehkamlarını nümunə göstərmək olar. Qəbələnin də planı dördbucaqlı şəklindədir. Belə plandan kənara çıxma halları, əsasən, yerin quruluşu ilə bağlı olmuşdur.

**Şəhər tikililəri.** Şəhərlərin qala divarları içərisində yerləşən ərazisi yaşayış evləri, ictimai və dini binalardan ibarət sıx tikintilərə malik idi. Tikintilərin tipologiyası yeni tip binalarla zənginləşirdi. Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycan şəhərlərində də monumental tikililərin yeni tipləri: məhəllə və Came məscidləri, minarələr, mədrəsələr və digər ictimai-dini binalar ucaldılırdı. İctimai-dini və yaşayış binalarının tikintisində çatma tağlar, tağ-tavanlar, günbəzlər, çatma tağlı portallar, şəbəkəli pəncərələr, stalaktit karnizlər kimi konstruktiv elementlərdən geniş istifadə olunurdu. Arxeoloji qazıntılar geniş miqyasda aparılmadığından VIII-X əsrlərin tikililəri, eləcə də sonrakı dövrlərin tikililəri əksər hallarda komplekslər şəklində deyil, tək-tək üzə çıxarılmışdır. Bununla belə arxeoloji qazıntıların miqyasının məhdudluğuna baxmayaraq üzə çıxarılmış tikinti qalıqları orta əsr memarlığının tədqiqi üçün çox qiymətli faktik materiallar olmaqla, Azərbaycan şəhərlərində inşaat texnikası və memarlığının yüksək səviyyəsindən xəbər verir. Müəyyən olunmuşdur ki, artıq IX-X əsrlərdə Azərbaycan şəhərlərində bişmiş kərpic və daş memarlığı aparıcı mövqe tutmuş, möhrə və çiy kərpicdən inşa olunmuş tikililərin sayı kəskin şəkildə azalmışdı. Yaşayış evləri və saray binalarının, ictimai-dini komplekslərin, körpü və digər təyinatlı tikililərin qalıqlarının forma və materialları orta əsr memar və mühəndislərinin yüksək peşəkarlığını təsdiqləyir.

Yazılı qaynaqların məlumatı və arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan tikili qalıqları əsasında belə qənaətə gəlmək olar ki, şəhərlərin Şəhristan və narınqala hissələrində tikililərin salınması planlı, müəyyən bir sistemlə aparılırdı. Şəhərin qala divarlarının içərisində - narınqalada, adətən, hökmdarın (paytaxt şəhərlərdə) və yaxud şəhər başçısının iqamətgahı - sarayı və digər inzibati tikililər yerləşirdi.

Arxeoloji qazıntılarla Dərbəndin narınqalası daha yaxşı tədqiq olunmuşdur. Məlum olmuşdur ki, VIII-IX əsrlərdə ərəb canişininin sarayı narınqalanın şərqində, divara bitişik idi (А.А.Кудрявцев, 1982, стр. 139-140). Saray kompleksinin qalıqları 600 *kv.m-ə* yaxın sahəni əhatə edirdi. Saray yaxşı yonulmuş daşlardan, yüksək keyfiyyətli əhəngli məhlulla inşa olunmuşdu. Divarların qalınlığı 1-1,5 *m*-dir. Kompleksə daxil olan yaşayış və təsərrüfat təyinatlı otaqlar kvadrat və dördbucaq

biçimli olub, sahələri o qədər böyük deyil - 4x4 *m*, 7,5x5,8 *m* və 7x7 *m* ölçüdədir (,А.А.Кудрявцев 1982, стр. 139-140).

X əsrin sonu - XI əsrin əvvəllərində narınqalanın şimal-qərbində yeni saray kompleksi inşa olunur. Düzbucaqlı plan quruluşuna malik bu bina daha dayanaqlı və möhtəşəm idi. O, yaxşı yonulmuş daşdan, yüksək keyfiyyətli əhəngli məhlulla inşa edilmişdir. Kompleksə daxil olan otaqlar əvvəlki tək əsasən dördbucaq biçimdə olub, sahələri 32-40 *kv.m-dir*. Divarların qalınlığı 1,4-1,5 *m*-dir. Qazıntı zamanı saray kompleksindən daş sütun altlıqlarının tapılması burada sütunlu salonun mövcudluğuna dəlalət edir. Saray kompleksinin yaşayış otaqlarını və salonunu vaxtilə gəc oymalar bəzəyirmiş (А.А.Кудрявцев, 1982a). Diqqəti cəlb edən cəhət sarayın bədii tərtibatında Şirvan-Abşeron memarlıq məktəbi üçün səciyyəvi olmayan gəc oyma naxışların tətbiqidir.

X əsrin sonu - XI əsrin əvvəllərində Dərbənd əmirinin sarayı narınqalanın şərqindən şimal-qərb tərəfə keçirilir (А.А.Кудрявцев, 1982a).

Dəbilin narınqalasının arxeoloji qazıntılarında da saray kompleksinin qalıqları üzə çıxarılmışdır (K.Kafadaryan, 1952; 1982).

Narınqala ətrafındakı ərazilərdə adətən varlı adamlara məxsus daha çox yaşayış binaları və ictimai-inzibati binalar yerləşirdi. Şəhərin bu hissəsi, narınqala da daxil olmaqla şəhristan adlanırdı. Əhalinin qala divarları ilə qorunan hissədə yaşamaq istəyi şəhristanda binaların sıx yerləşməsini şərtləndirmişdi. Şəhərin ictimai və təsərrüfat həyatında şəhristan üstün mövqe tuturdu. Ərəb coğrafiyaçılarının verdikləri məlumata görə Bərdədə hökmdarın sarayı, xəzinəsi və Came məscidi şəhristanda qala divarından içəridə yerləşirdi.

Şəhərlərin şəhristan hissəsində inzibati, ictimai binalar, hamam, karvansara və sair yaşayış binaları və digər tikililər mövcud idi. Beyləqan, Şamaxı, Bakı, Qəbələ, Dərbənd, Gəncə, Xaraba-Gilan və başqa şəhərlərdə aparılan qazıntılar şəhristanda xüsusilə XII-XIII əsrin əvvəllərində tikintilərin çoxluğundan, onların sıx yerləşməsindən xəbər verir. Arxeoloji qazıntılarla Dərbənddə, Şamaxıda, Bakıda, Şabranda üzə çıxarılmış ictimai-dini binaların, yaşayış evlərinin, istehkam tikililərinin qalıqları Şirvan memarlığı üçün səciyyəvi olan xüsusiyyətləri özündə əks etdirir. Şamaxı şəhərinin VI qazıntı sahəsində ictimai binanın üç otaq və bir salonunun qalıqları tədqiq olunub. O səliqəli yonulmuş daşlardan əhəngli məhlulla inşa edilmişdir. Əhəngin keyfiyyətini artırmaq üçün onun tərkibinə bir qədər kül əlavə olunmuşdu. Divarların dayanaqlığını artırmaq məqsədi ilə ağac kətillərdən istifadə edilmişdi. Daha yaxşı mühafizə olunmuş qərb divarında 75x50x30 *sm* ölçüdə taxça düzəlmişdi. Qalıqların şimala, həm də cənuba doğru izlənilməsi binanın çoxotaqlı kompleks olduğuna dəlalət edir (Г.А.Джидди, 1981).

Şirvanın mülki memarlığının maraqlı nümunələrindən biri arxeoloji qazıntılar zamanı Dərbənd şəhərində, cənub qala divarının yaxınlığında aşkarlanmışdır. VIII əsrin sonunda inşa olunmuş və XIII əsrin ortalarınadək istifadə edilmiş həmin bina hələlik bu şəhərdə bişmiş kərpicdən tikilmiş yeganə bina qalığıdır. Binanın qalıqlarının hündürlüyü 2,5-3 *m* təşkil edir. Onun bünövrəsi üçün 50-70 *sm* dərinlikdə xəndək qazılaraq yonulmamış daşlarla doldurularaq yüksək keyfiyyətli əhəngli məhlulla möhkəmləndirilmişdir. Bünövrənin qalınlığı 1,35-1,7 *m-dir.* Daha dəqiq desək, şərq divarının bünövrəsi 1,35-1,4 metr, şimal divarında isə 1,6-1,7 metrdir. Binanın divarları 26x26x5 *sm,* 27x27x5 *sm,* 28x28x5 *sm,* 30x30x5 *sm* ölçüdə yaxşı bişirilmiş kərpiclərdən hörülmüş, qalınlığı 1,2-1,3 metrdir. Dərbəndin digər yaşayış evləri kimi bu bina da şimal-cənub xətti üzrə yerləşməklə uzunluğu 19,4-19,5 *m,* eni 8,2-8,3 *m*-dir. Binaya giriş şərqdən idi. Evin döşəməsi əhəngdən olub dörd səviyyəsi qeydə alınmışdır və bu səviyyələrin hər biri buradakı yaşayışın dörd mərhələsi ilə əlaqəlidir (А.А.Кудрявцев, 1977, стр. 74-76). Yalnız bir mərhələdə şimal divarından 8,82 *m* məsafədə arakəsmə divar hörülmüşdü. XII-XIII əsrin əvvəllərində binada geniş təmir işləri aparılmışdır. Arakəsmə divar hörülmüş, döşəmənin səviyyəsindən divarlarda taxça və camaxatan açılmışdır. Qərb divarında düzəldilmiş taxçanın hündürlüyü 35 *sm,* dərinliyi 40 *sm-dir.* Ondan 184 *sm* aralıda hündürlüyü 68 *sm,* eni 40 *sm* olan camaxatan yerləşirdi. Şərq divarında bir camaxatan və bir taxça düzəldilmişdir. Bu dövrdə şimal divarına bayır tərəfdən kiçik bir tikili əlavə olunmuşdur (А.А.Кудрявцев, 1977, стр. 79).

Şamaxı, Dərbənd və Bakıdan fərqli olaraq Şabran şəhərinin memarlığı üçün bişmiş kərpicdən və kaşı bəzəklərdən geniş istifadə səciyyəvidir. IX-XIII əsrlərin tikililərindən yalnız X əsrə aid qalanın hörgüsündə əhəngdaşı tətbiq olunmuşdur və bu inşaat materialı bir tərəfdən üzlük rolunu oynayır, digər tərəfdən isə divarın möhkəmliyini və monumentallığını artırırdı. Ümumiyyətlə, IX-XII əsrlərin ictimai-dini binaları və yaşayış evlərinin bünövrəsi əsasən çaydaşından olub qalınlığı 60-70 *sm-dir.* Divarlar bişmiş kərpicdən hörülərək qalınlığı 48-54 *sm*-dir. XII əsrə aid edilən evin bir otağı yaxşı mühafizə olunmuşdur. Dördbucaq biçimdə olan həmin otağın sahəsi 22 *kv.m-dir.* 23,5x23,5x5 *sm* ölçülü bişmiş kərpiclərdən əhəngli məhlulla hörülmüş bu evin qapısı şərq divarında yerləşirdi və qapı yerinin eni 75 *sm-dir.* Məhəllə divarı evin şimal divarını təşkil edirdi və bu divarda eni 80 *sm* olan camaxatan düzəldilmişdi. İçəri tərəfdən evin divarlarına suvaq çəkilmişdi (T.M.Dostiyev, 2001, səh. 91).

Qəbələ şəhərinin ictimai-dini binalarının və yaşayış evlərinin inşasında əsasən daşdan və bişmiş kərpicdən istifadə olunurdu. Bişmiş kərpic memarlığı üstün mövqeyə malik idi. Arxeoloji qazıntılarla şəhər yerinin qala sahəsinin mərkəzində üzə çıxarılmış IX-X əsrlərə aid bir binanın divarlarının aşağı cərgələri səliqə ilə yonulmuş böyük ölçülü daşlardan, yuxarı cərgələri isə kvadrat formalı bişmiş kərpicdən hörülmüşdür (İ.Babayev,

Q.Əhmədov, 1981, səh. 29). Qala sahəsində XII-XIII əsrlərə aid edilən başqa bir binanın eni 75 *sm* olan əsas divarları səliqə ilə yonulmuş daşdan, arakəsmə divarları isə bişmiş kərpicdən hörülmüşdür. Qəbələdə IX-XIII əsrlərə aid daş və bişmiş kərpicin növbələşdiyi divar hörgülərinə rast gəlinir (İ.Babayev, Q.M.Əhmədov, 1981, səh. 44).

Qəbələ şəhər yerində divarları sırf bişmiş kərpicdən hörülmüş binalar da az deyildi. Arxeoloji qazıntılar zamanı şəhərin Qala sahəsində bişmiş kərpicdən inşa edilmiş bina qalığı tədqiq olunmuşdur. Divarının qalınlığı 1,5 *m* olan binanın hörgüsü yaraşıqlı görünsün deyə kərpiclər hörgünün bəzi cərgələrində tili üstə qoyulmuşdur (İ.Babayev, Q.Əhmədov,1981, səh. 43).

Bünövrəsi əsasən çaydaşından olan tikililərdə daha çox 25x25x4,5 *sm* ölçülü kərpiclərdən istifadə olunub. Divarların eni isə əsasən 54-58 *sm* təşkil edir. Evlərin döşəməsi torpaqdan olub üzərinə gil suvaq-şirə çəkilirdi. Bəzən bu məqsədlə böyük ölçülü kərpiclərdən də istifadə edilirdi (Г.М.Ахмедов, 2003a, стр. 93). Arxeoloji tədqiqatlar nəticəsində Qəbələ şəhərində binaların əksəriyyətinin çoxotaqlı olduğu müəyyənləşdirilib. Arxeoloji qazıntılar zamanı dəhlizi, böyük və kiçik otaqları olan ev qalıqları tədqiq edilmişdir. Ocaqlar divarda və yaxud divara yaxın qurulurdu. Ocağın tüstüsü asma buxarı vasitəsi ilə dama çıxarılırdı. Evlərin qızdırılması üçün ocaqdan başqa manqal və təndirdən də istifadə olunurdu. Binaların üstü əsasən kirəmitlərlə örtülürdü. Onlar əvvəlkitək müstəvi və yarımdairəvi kirəmitlərdən ibarət olub ölçülərinin kiçikliyi ilə fərqlənirdi (İ.Babayev, Q.Əhmədov, 1981, səh. 43-44; Г.М.Ахмедов, 2003a, стр. 89-93).

Azərbaycanın şimal-qərbində orta əsrlərdə Arran memarlıq məktəbi formalaşıb. Bu məktəbin başlıca mərkəzləri Bərdə, Gəncə, Şəmkir, Beyləqan və Dəbil şəhərləri olmuşdur. Tədqiqatçıların fikrincə, bu memarlıq məktəbinin rüşeymləri ilkin olaraq IX əsrdə Bərdədə təşəkkül tapmış, X-XI əsrlərdə Gəncədə, Şəmkirdə, Dəbildə və Beyləqanda inkişaf etmiş, XII əsrdə çiçəklənmə çağını yaşamış, monqol işğalından sonra öz əvvəlki əhəmiyyətini itirmişdir.

Arran memarlıq məktəbinin səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsində Bərdə, Gəncə, Şəmkir, Beyləqan və Dəbildə aparılmış arxeoloji qazıntıların materiallarının əhəmiyyəti olduqca böyükdür. Bişmiş kərpicdən inşa olunaraq firuzəyi rəngli kaşı ilə bəzədilmiş Şəmkir minarəsi orta çağ Azərbaycan memarlığının mükəmməl sənət əsəri olmaqla yerli memarların bişmiş kərpicdən ən mürəkkəb memarlıq quruluşunu yüksək peşəkarlıqla yaratmağa qadir olduqlarını təsdiqləmişdir (Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1985, səh. 51). Arran memarlıq məktəbinin səciyyəvi xüsusiyyətlərindən biri qarışıq hörgü üslubundan - bişmiş kərpic, çaydaşı və yerli ağ daşın xüsusi qayda üzrə hörgüdə işlədilməsidir. Memarlıq tariximizdə "Gəncə

hörgüsü" adı ilə məlum olan (И.М.Джафарзаде, 1949) hörgünün xüsusiyyəti çaydaşı ilə bişmiş kərpicin divar səthində naxış yaradan qayda əsasında birlikdə işlədilməsidir. Arran memarlıq məktəbinin digər səciyyəvi xüsusiyyəti tikililərdə hörgünün çoxrəngli olmasındadır. Məsələn, Şəmkir şəhərinin içqalasında bişmiş kərpiclə yerli ağdaş və göy rəngli çaydaşı hörgüdə xüsusi zolaqlar şəklində tətbiq edilərək açıq və tünd, soyuq və isti rənglərin növbələşməsindən alınan bədii effekt yaradır, hörgüyə xüsusi bir görkəm verir (tablo 14, şək. 2).

Arran memarlıq məktəbinin erkən mərkəzlərindən olan Bərdə şəhərində möhtəşəm saray komplekslərinin, təmtəraqlı yaşayış evlərinin, Came və məhəllə məscidlərinin, çoxlu karvansara və bazarların olduğunu IX-X əsrlərin yazılı qaynaqları



**Beyləqan şəhər yeri. Yaşayış evinin qalıqları**

xüsusi qeyd edir. Əl-Müqəddəsi Bərdədən bəhs edərək yazır: "Burada əzəmətli qala vardır. Oranın bazarlarının üstü örtülüdür. Came məscidi bazarın arxasındadır. Bu (yer) həmin iqlimin Bağdadıdır. Onun evləri çox gözəldir; kərpic və gipsdən tikilmişdir" (N.M.Vəlixanlı, 1974, səh. 131). Bərdə şəhəri ərazisində aparılmış arxeoloji qazıntılar da yazılı qaynaqların məlumatını təsdiqləyərək IX-XIll əsrlərə aid tikili qalıqların sıxlığını sübuta yetirmiş, yaşayış binaları, hamam otaqları, körpü qalıqları və s. aşkar edilmişdir (A.Nuriyev, Ə.Babayev, 2001, səh. 111-112). Əhəngdaşından yonulmuş IX-X əsrlərə aid

sütun altlıqları mükəmməl sənət əsərləri olmaqla bərabər, həm də şəhərdə sütunlu, möhtəşəm binaların olmasına dəlalət edir.

Yazılı mənbələrin məlumatına görə XI-XII əsrlərdə Gəncədə təmtəraqlı saraylar və inzibati binalar, məscidlər, iri mədrəsələr, çoxsaylı ictimai binalar, örtülü bazarlar və karvansaralar, əyan və tacirlərin yaraşıqlı evləri vardı. Arxeoloji qazıntılar zamanı belə binaların bünövrələri, divarlarının qalıqları, memarlıq bəzəkləri aşkara çıxarılıb tədqiq edilmişdir. Arxeoloji qazıntılardan tapılmış yüksək ustalıqla yonulmuş iri daş sütunaltlıqları vaxtilə şəhərdəki monumental binaların varlığından xəbər verir. Onların çoxu qırmızımtıl-boz travertindən yonularaq oturacaqları kvadrat formada, gövdəsi səkkizguşəli şəkildə işlənmiş və üst tərəfi silindrik formada tamamlanmışdır (И.М.Джафарзаде, 1949; Р.Дж.Ахмедов, 1988б).

Beyləqan şəhərində IX-X əsrlərdə tikililər əsasən möhrə, çiy kərpic və az hallarda isə bişmiş kərpicdən inşa olunmuşdur. Bu dövrün yaşayış evlərini səciyyələndirmək üçün Beyləqan şəhəri yerində I qazıntı sahəsində aşkarlanmış kiçik eyvanlı üçotaqlı mənzilə diqqət yetirək (tablo 7, şək. 1). Mənzilin əsas və arakəsmə divarları möhrədən düzəldilmiş, üzərinə samanlı palçıqla suvaq çəkilmişdir. Divarların qalınlığı 60 *sm*, otaqların sahəsi isə 20-34 *kv.m*-dir. Bütün otaqlarda təndir vardır. Otaqların birində altı küp basdırılmışdır. Həmin otağın bir küncündə silindrik quyu ilə əlaqəli olan, biri digərinə geydirilmiş 7 tüngdən ibarət xətt aşkarlanmışdır. Görünür təsərrüfat xarakterli bu otaqda həm də əlüzyuyan olmuş, tünglərdən quraşdırılmış kəmər isə çirkabı bayırdakı silindrik quyuya axıtmağa xidmət etmişdir (Q.M.Əhmədov, 1979, səh. 23).

Şəhərin ilk qala divarları üzərində tikilmiş IX-X əsrlərə aid düzbucaqlı biçimdə böyük bir otaq 1968-ci il qazıntıları zamanı üzə çıxarılmışdır. Möhrədən inşa olunmuş bu otağın uzunluğu 5,4 *m*, eni 4,6 *m* olub şimal-qərbdən cənub-şərqə istiqamətlənmişdir. Otaqda həm iri, həm də kiçik təndir qalığı vardı. Böyük təndir darı ilə doldurulmuşdu (Q.M.Əhmədov, 1979, səh. 24).

Beyləqan şəhərinin IX-X əsrlər təbəqəsində 26x27x5-6 *sm* ölçüdə çiy kərpicdən hörülmüş tikililərə də təsadüf olunmuşdur. Azərbaycanda az da olsa həmin ölçüdə bişmiş kərpicdən hörülmüş divar qalıqlarına təsadüf olunması Arran məktəbi üçün səciyyəvi olan bu materiallardan artıq IX-X əsrlərdən istifadə edildiyinə dəlalət edir.

Beyləqan şəhərində XI-XII əsrlər inşaat sənətinin yüksəlişi, bişmiş kərpic istehsalının artması, inşaat texnikasının təkmilləşməsi, memarlıq bəzəyinin geniş tətbiqi ilə əlamətdar oldu. Yazılı qaynaq şəhərdə XII-XIII əsrin əvvəllərində "çoxlu qəsr və evlər tikildiyini", "quruculuq işləri sahəsində şəhərin şöhrət tapdığını" qeyd edir (Əcaib əd-dünya, 1954, səh. 201-202). Bu dövrdə şəhərin şəhristan hissəsində

sıxlıq artır, yaraşıqlı ictimai binaların və yaşayış evlərinin tikintisi geniş vüsət alır. Məsud ibn Namdar şəhərdəki məscid, mədrəsə, karvansara və bazarlardan bəhs edir (Масуд ибн Намдар, 1970). Başqa bir mənbədə bildirilir ki, Beyləqanda "çoxlu binalar tikilir və əyanlar oraya köçürlər" (Əcaib əd-dünya, 1954, səh. 202).

Beyləqan şəhər yerində aparılmış arxeoloji qazıntılar zamanı XI-XIII əsrin əvvəllərinə aid müxtəlif həcmli və görkəmli tikililər aşkar olunmuşdur. Şəhərin mərkəzində bir neçə yerdə üzə çıxarılmış və öz mürəkkəb görkəminə görə mübahisə yaradan tikili qalıqları daha çox maraq doğurur. Şəhər yerinin I və V qazıntı sahələrində tətbiq olunan belə tikililərdən birinin döşəməsi 40x40x8 *sm* və 20x20x5 *sm* ölçüdə olan bişmiş kərpiclərlə səliqə ilə döşənmiş, divarlarına isə həndəsi fiqurlar şəklində olan kərpiclərdən naxışlı üz çəkilmişdir. Onun baş divarında böyük və kiçik dilovlar düzəldilmiş, döşəməsində isə ağzı kərpiclə hörülmüş quyu qazılmışdır. Döşəmənin quyu olan sahəsi nisbətən çökəkdir. Döşəməyə tökülən su süzülüb quyuya axmışdır. Bu qəbildən sahəsi 10 *kv.m* olan digər tikili kvadrat biçimdə olub döşəməsi 38x38x7 *sm* ölçüdə bişmiş kərpiclə döşənmişdir (tablo 7, şək. 2). Döşəmənin mərkəzində ağzı səkkizguşəli ulduz formasında hörülmüş quyu var. Tikintinin üç divarının qalıqları mühafizə olunmuş, dördüncü divar isə uçub döşəməyə tökülmüşdür. Divarlar burada da həndəsi fiqur şəkilli kərpiclərdən hörülmüş naxışlı divarlar tipindədir. Tikintinin "köynəyini" təşkil edən belə üz divarlar əsas divarın nəinki nöqsanlarını örtür, həm də onun dayanaqlığını artırırdı. Divardakı qapı yerlərindən məlum olur ki, bu tikilidə ən azı üç qapı olub. Onlardan ikisi cənub-şərq, biri isə şimal-şərq divarında qalmışdır. Şimal-şərq divarındakı qapı küçəyə açılırmış (Q.M.Əhmədov, 1979, səh. 47-48). A.L.Yakobson 1953-1954-ci il qazıntılarının nəticəsinə əsaslanaraq bu tip tikili qalıqlarını hamam adlandırmışdır (А.Л. Якобсон, 1959, стр. 69-98). Həmin tikintiləri hərtərəfli tədqiq edən Q.M.Əhmədov onların kiçik həyət olduğunu bildirir və qeyd edir ki, "belə həyətlərdə evlərin damından tökülən yağış suyu döşəməsində olan dərin quyuya axırdı, onlar eyni zamanda yay vaxtları təmiz havada istirahət etmək üçün də çox yararlı idi" (Q.M.Əhmədov, 1979, səh. 48).

XI-XIII əsrin əvvəllərində Beyləqanın şəhristanındakı evlərin əksəriyyəti çoxotaqlı olub əsasən bişmiş kərpicdən inşa edilmişdi. 1962-63-cü illərdə V qazıntı sahəsində aşkarlanan altı otaqdan dördü, tədqiqatçıların fikrincə, vahid bir kompleksə aiddir. Görünür, otaqlardan biri qonaq otağı, digəri "əndərun" (qadın və uşaq otağı), üçüncüsü təndirxana, dördüncüsü isə təsərrüfat xarakterli olub bir tərəfdən anbar, digər tərəfdən isə tualet kimi istifadə olunmuşdur (Q.M.Əhmədov, 1979, səh. 49).

Başqa bir dördotaqlı ev 1968-ci ildə VI qazıntı sahəsində tədqiq edilmişdir. Onun 2,3x2,3 *m* ölçüdə kiçik həyəti vardır. Həyətin mərkəzi nisbətən çökək olub, ortasında yağış sularının süzülməsi üçün quyu düzəldilmişdir.

Belə qənaətə gəlmək olar ki, kiçik sahəli həyəti olan evlər Beyləqan şəhəri üçün XII-XIII əsrin əvvəllərində səciyyəvi olmuşdur.

Daş bünövrəli çiy kərpicdən inşa olunmuş möhtəşəm tikililərə Arran məktəbinin digər mərkəzi Dəbil şəhərinin arxeoloji qazıntılarında da rast gəlinmişdir. Şəhərin narınqalasında üst mədəni təbəqədə daş bünövrəli çiy kərpicdən hörülmüş bir neçə mərtəbəli, çoxotaqlı binanın qalıqları aşkar edilib təmizlənmişdir. 300 illik mövcudluğu dövründə bu bina dəfələrlə təmirə və dəyişikliyə məruz qalmışdır. Onun döşəməsi kərpiclə döşənmiş, divarları isə gəc oymalarla bəzədilmişdir. Yaşayış otaqlarından başqa bu kompleksə zərgər, dulusçu, dəmirçi emalatxanası, hamam və başqa tikililər də daxil idi (K.Q.Kafadaryan, 1952; К.Кафадарян, 1960).

Dəbil şəhərinin ictimai tikililərindən bəhs edərkən ilk növbədə vaxtilə şəhərin cənubunda yerləşmiş karvansara tipli binanın qalıqlarını qeyd etmək lazımdır. Yaxşı yonulmuş tuf daşdan inşa olunmuş həmin tikilinin bir neçə sıra sütunları olmuşdur (К.Кафадарян, 1960).

XI əsrin ortalarında qismən Arran məktəbinin, qismən isə Orta Asiyadan gələn cərəyanların təsiri ilə formalaşmış Naxçıvan-Marağa memarlıq məktəbi özünün çiçəklənmə çağını XII əsrdə, Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə keçirir. Atabəylər dövründə Naxçıvan şəhərinin tərəqqisindən bəhs edən mənbə burada geniş inşaat işlərinin aparılmasını qeyd edir: "Orada çoxlu köşklər, təmtəraqlı eyvanlar, şəhərin yaxınlığında daşdan tikilmiş qala, bu qalanın içərisində mədrəsə və məscidlər və qalada çox gözəl bulaqlar var... Bütün bunlar kərpicdən və gəcdən tikilmişdir. Köşklərin çox hissəsi bürclər kimi üç və dördtəbəqəlidir (mərtəbəlidir)... Əlahəzrət Eldənizin vaxtında (Naxçıvan) ən əzəmətli şəkil aldı. Orada darülmülk və dövlətxana tikildi" (Əcaib əd-dünya, 1954, səh. 208).

Naxçıvan memarlıq məktəbinin səciyyəvi əlamətlərini Xaraba-Gilanda arxeoloji qazıntılarla öyrənilmiş yaşayış evlərinin və ictimai binaların qalıqları da qabarıq əks etdirir. Şəhərin şəhristan sahəsində bişmiş kərpiclə inşa olunan məscid, türbə və digər iri binaları bədii tərtibatı ilə diqqəti cəlb edir. İctimai binaların əksəriyyəti, o cümlədən karvansaralar, hamamlar və dəyirmanlar şəhristanın məhəllələri arasında yerləşmişdi. Yaşayış evləri şəhərin hansı sahəsində yerləşməsindən asılı olaraq plan quruluşuna və inşaat texnikasına görə seçilirlər. Yaşayış evləri əsasən çoxotaqlı və ikimərtəbəli olub, bədii tərtibatının zənginliyi ilə fərqlənir. Narınqalada yaşayış evləri əsasən mərkəzdə cəmləşmişdir. Onlar

ikimərtəbəli olub, üst mərtəbələri 20x20x5 *sm*, 20,5x20,5x5 *sm* ölçülü, kvadrat formalı bişmiş kərpicdən hörülərək, üzəri gəclə suvanmışdır. Bu tikililərin xarabalıqlarından tapılmış dekorativ hissələr evlərin gəc oymalarla bəzədildiyini göstərir.

Şəhristanda yaşayış evləri ikimərtəbəli, çoxotaqlı komplekslər şəklində olub sıx yerləşmişdilər. Bir evin divarı eyni zamanda digər evin divarını təşkil edirdi (Б.И.Ибрагимов, 2000, стр. 40-41). Evlərin yükdaşıyan əsas divarları kifayət qədər qalın və möhkəmdir. Onların bəzilərinin qalınlığı 1,5 *m-ə* çatır. Şəhristanın yaşayış evlərini səciyyələndirmək üçün 1977-1978-ci illərdə şəhristanın şərqində arxeoloji qazıntılarla öyrənilmiş XII-XIII əsrin əvvəllərinə aid tikiliyə müraciət edək. Divarları 1,8-2 *m* hündürlüyə qədər mühafizə olunmuş bu evin qərb tərəfi istisna olmaqla qazıntılarla əsas sahəsi təmizlənmişdir. İkinci mərtəbə tamamilə dağılmışdı. Amma 11 pilləsi salamat qalmış, 2 *m* hündürlükdə pilləkən onun vaxtilə mövcudluğuna dəlalət edir. Birinci mərtəbədə səkkiz otaq aşkarlanmışdır. Otaqların döşəmələrinin səviyyəsi fərqli idi. Sahəsi 9,6 *kv.m* olan otaq, görünür dəhliz olmuşdur. Burada ikinci mərtəbəyə pilləkən yerləşdirilmişdir. Otaqlardan biri təndirxana, digəri isə mətbəx rolunu oynamışdır. Təndirxanada silindrik formada iki təndir vardır. Onlardan birinin diametri 50 *sm*, digərinin isə 70 *sm* idi. Mətbəx adlandırılan otaqda da iki təndir yerləşirdi. Onlardan biri böyük, külbəsiz olub içərisində taxıl saxlanılırmış. İkinci təndir kiçik olub içərisindən güvəc qırıqları və mis qabın fraqmenti tapılmışdır. Otaqda şimal divarı boyunca səki (sufa) düzəldilmişdi. Dəhlizə bitişik otağın cənub-qərbində külbəsiz təndir, şimal divarında isə 1,1 *m* enində camaxatan vardı. Dəhliz yaxınlığında yerləşən digər otaq koridoru xatırladır. Burada 25x25x5 *sm* ölçülü bişmiş kərpiclərdən hörülmüş qapı tağının qalıqları aşkarlanmışdır. Evin qərbindəki otaqlar arxeoloji qazıntılarla qazılıb təmizlənməmişdir. Qonaq otağı və "əndərun" görünür ikinci mərtəbədə yerləşmiş və tam dağılmışdır.

Beləliklə, tədqiq olunan evin mühüm xüsusiyyətlərindən biri alt mərtəbədə təsərrüfat təyinatlı otaqların yerləşməsidir. Digər diqqəti cəlb edən cəhət evin ciddi düşünülmüş plan əsasında inşa olunması, müxtəlif təyinatlı otaqların vahid bir tamda birləşməsindədir (Б.И.Ибрагимов, 2000, стр. 42-43).

Şəhristandan fərqli olaraq rabadda yaşayış evləri, əsasən, bir mərtəbəli olub, iki-üç otaqlı idilər. Burada memarlıq bəzəklərinə rast gəlinmir.

Xaraba-Gilanın ictimai binaları arasında şəhərin ikinci, üçüncü və dördüncü mərhələləri arasında yerləşən karvansara arxeoloji qazıntılar nəticəsində yaxşı tədqiq edilib öyrənilmişdir (tablo 19). Bünövrəsi qayalıq üzərində qoyulmuş bu binanın ilk cərgələri iri daşlardan hörülmüş və yuxarıya doğru daşların ölçüləri tədricən kiçilir.

Birləşdirici məhlul kimi yüksək plastikliyi ilə fərqlənən palçıqdan istifadə olunmuşdur. Qapı və pəncərə aşırımları isə əsasən kvadrat formalı bişmiş kərpicdən əhəngli məhlulla hörülmüşdür. Karvansaranın divarları 2,8-3 *m* hündürlüyə qədər daşdan, sonra isə 27x27x8 *sm* ölçüdə çiy kərpicdən hörülmüşdür. Divarların qalınlığı 2 *m*-dən 60 *sm-ə* qədərdir. Binanın antiseysmik keyfiyyətini yüksəltmək üçün bünövrə və hörgünün aşağı cərgələri daha qalın inşa olunmuşdur. Divardakı pəncərə açırımları içəriyə doğru genişlənir. Bu isə onların otağı işıqlandırma imkanlarını artırırdı.

Karvansaranın planda kvadrat formalı daxili həyəti vardı. Burada alqı-satqı və istirahət etmək olardı. Karvansaranın bütün otaqları dördkünc biçimdədir. Təyinatına görə onları aşağıdakı tiplərə bölmək olar: a) yaşayış, b) məişət, c) təsərrüfat, ç) anbar, d) heyvanlar üçün. VII, IX, XX, XXI, XXII, XXIV, XXVII otaqlar və eləcə də mühafizə olunmamış ikinci mərtəbənin bütün otaqları yaşayış otaqları idi. Onların səciyyəvi xüsusiyyətləri döşəmənin torpaqdan olması, külbəsiz təndirlərin, buxarı tipli ocaqların və xüsusi quruluşlu səkilərin (sufa) varlığıdır. Sonuncu bütün yaşayış otaqlarında mühafizə olunmamışdır.

Karvansaranın yaşayış və təsərrüfat təyinatlı otaqları, dəhliz və koridorları oyma gipslə bəzədilmişdir. Xüsusilə yaşayış otaqlarının qapı və pəncərə açırımları, camaxatan və səkilər (sufa) zəngin bəzədilmişdi (Б.И.Ибрагимов, 1985; 2000, стр. 52-57).

Şəhristandan bayırda şəhərin adətən sənətkarlıq məhəllələri, rabadın tikintiləri yerləşirdi. Bəzi şəhərlərin rabadı da qala divarları ilə əhatə olunurdu. Rabadın və şəhərətrafı təsərrüfat sahəsinin böyüklüyü şəhərin özünün böyüklüyü ilə bağlı idi, çünki rabad şəhərin ayrılmaz hissəsi idi. Rabadda başlıca olaraq "qara camaat" adlanan kasıb ailələr, sənətkarlar, kiçik ticarətçilər və kənddən gələn yoxsullar yaşayırdı. Şəhərətrafı sahədə evlər seyrək olur, onları adətən həyətlər, bağ və bağçalar, bostan-tərəvəz sahələri və s. müşayiət edirdi. Gəncədə və Beyləqanda aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, rabadda evlər əsasən səliqəsiz tikilmiş, müvəqqəti səciyyə daşımışdır. Belə yerlərdə iri binalar nadir hallarda tikilirdi. Misal olaraq Beyləqandakı Mil-Minarə adlanan məscid mədrəsəni göstərmək olar (Q.M.Əhmədov, 1979, səh. 4).

Yuxarıda qeyd olunduğu kimi, rabad və şəhərətrafı sahələrin məskunlaşması əsasən kənd əhalisinin hesabına şəhərə gedən yolun kənarlarında baş verirdi. Bəzən belə sahələr bir neçə kilometr uzanırdı. İ.M.Cəfərzadənin hesablamasına görə Gəncənin şəhərətrafı sahəsi 9-10 *kv.km*-ə bərabər idi (И.М.Джафарзаде, 1949, стр. 17). Qalmış tikinti qalıqlarına əsasən müəyyən edilmişdir ki, Beyləqanın qərbə

uzanan şəhərətrafı sahəsi 2,5 *km*-ə bərabər olmuş, məşhur Mil-Minarəyə qədər davam etmişdir (Q.M.Əhmədov, 1979, səh. 4).

Dərbənd şəhərinin sənətkar məhəllələrinin formalaşması özünəməxsusluğu ilə fərqlənmişdir. VIII-X əsrlərdə sənətkarlıq və ticarətin güclü inkişafı nəticəsində Dərbənd şəhristanının aşağı, dənizkənarı hissəsində sənətkar və tacirlərin məhəllələri formalaşmış, bu hissə bir növ özünəməxsus rabada çevrilmişdi. Şəhərin yuxarı hissəsi, Came məscidinin ətrafındakı sahə isə şəhristan funksiyasını davam etdirməkdə idi (А.А.Кудрявцев, 1982, стр. 150).

Ümumiyyətlə, arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış tikili qalıqları və salamat qalmış memarlıq abidələrinin tədqiqi orta əsr tikililərinin bir çox səciyyəvi ünsürlərini, onların xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir. İnşaatçılar müxtəlif tip tikililəri ucaldarkən ərazinin xüsusiyyətlərini və inşa olunacaq binanın xarakterini nəzərə almaqla öz işlərini qururdular. Tikilinin bünövrəsinin möhkəmliyinə xüsusi diqqət yetirilirdi. Təbii şəraitin imkan verdiyi ərazilərdə qayalıqlardan səmərəli istifadə olunurdu. Bunu Bakıda Qız qalası əyani nümayiş etdirir (Ö.Ş.İsmizadə, 1965, səh. 225-227). Qayalıq olmayan ərazilərdə tikililərin bünövrəsi üçün xəndək qazılır, qaya daşlarından və ya çaydaşılarından adi palçıqla və ya əhəngli məhlulla özül qoyulurdu. Kürsülük çox vaxt bünövrə ilə vahid konstruksiya təşkil edirdi. Bir, iki, bəzən hətta üç pilləli stilobata təsadüf olunur (К.М.Мамедзаде, 1983, стр. 195). Kürsülük divarların dayanaqlığını artırır, xüsusilə binanın antiseysmik imkanlarını gücləndirirdi. Kürsülüyün iri daşlardan hörülməsinə üstünlük verirdilər (К.М.Мамедзаде, 1983, стр. 198).

Memarlıq abidəsinin xarakterindən asılı olaraq döşəmələr müxtəlifdir: sadə gil suvaq - şirə çəkilmiş döşəmələrdən başlamış fiqurlu kərpic döşəmələrə qədər. Arxeoloji qazıntılar zamam Dərbənd şəhərinin yaşayış evlərində hətta əhəng döşəmələrə də təsadüf olunmuşdur (А.А.Кудрявцев, 1977).

Orta əsrlərdə şəhər tikililərində tətbiq olunan hörgülərin quruluşu müxtəlifdir və əsasən aşağıdakı növlərlə təmsil olunmuşdur: bişmiş kərpicdən, daşdan və onların qarışığından ibarət hörgü. Kənd tipli yaşayış yerləri üçün səciyyəvi olan çiy kərpicdən hörülmüş divarlara məhdud şəkildə şəhər yerlərində rast gəlinir. XI-XII əsrlərin bişmiş kərpicdən inşa olunmuş tikililərində bəzən hörgü vasitəsi ilə divar səthində naxış salınması (tablo 20) dövrün mühüm əlamətlərindəndir.

Yaşayış evlərinin və ictimai-dini binaların inşaatında qapı, pəncərə, taxça və digər açırımların tərtibatına yetərincə diqqət verilirdi.

Azərbaycanın orta əsr memarlığında müxtəlif formalı tağlardan geniş istifadə olunmuşdur. Onlar əsasən çatma və dairəvidir. Dairəvi tağlara başlıca olaraq dövrün xristian abidələrində rast gəlinir.

Sivri tağlar müxtəlif tipdə olub mülki, ictimai-dini və müdafiə tikililərində uğurla tətbiq olunurdu. Tağların hörgü üsulu müxtəlifliyi ilə fərqlənir. Kərpicdən qurulan tağlarda yüksək keyfiyyətli birləşdirici məhlulun olması vacib şərt idisə, daşdan qurulan tağların möhkəmliyi daha çox ayrı-ayrı daşların forma və düzülüşündən asılı idi. Tağların qurulması ciddi hesablama əsasında aparılırdı (К.М.Мамедзаде 1983, стр. 233-236; М.С.Булатов, 1988, стр. 119-121).

Bəzi tikililərin qalıqları şəhər memarlığında tağ-tavanlardan istifadəni sənədləşdirir. Tağ-tavanın ucaldılmasında sənətkarlar hörgünün dəqiq aparılmasına, daşların bir-birinə yaxşı geydirilməsinə xüsusi diqqət yetirirdilər. Hörgü tikişlərinin ardıcıllığına ciddi riayət olunurdu. Mülki və ictimai binaların inşaatında çatma tağ-tavanlar, xatirə abidələrində isə xaçvari tağ-tavanlar daha çox qurulurdu. Sonuncuda tağ-tavanın bütün ağırlığı dörd dayaq nöqtəsinə düşürdü (К.М.Мамедзаде, 1983, стр. 238-239).

İctimai-dini binaların inşasında günbəzli örtüklər də ucaldılırdı. Onlar əsasən yarımkürəvi və konusvari formalıdır.

**Şəhər abadlığı.** Orta əsr şəhərsalma problemləri hələlik Azərbaycanda lazımi səviyyədə tədqiq olunmamışdır. Bu səbəbdən şəhərlərin mülki və ictimai tikintiləri haqqında, hətta onun plan-quruluşu - məhəllələri, küçələri, bazar meydanları və s. haqqında tam aydın təsəvvürümüz yoxdur. Orta əsr Azərbaycan şəhərlərinin heç olmasa birinin məhəlləsinin bütövlükdə aşkara çıxarıb tədqiq etmək bir arzu olaraq qalmaqdadır.

Orta əsr Bakı şəhərinin - İçərişəhərin son dövrlərə aid (1806-1810) planı qalmışdır. Çox güman ki, bu plan şəhərin monqol istilasından əvvəlki dövrün plan quruluşunu bir ənənə kimi saxlamışdır.

Orta əsr şəhərləri üçün dar küçələr, əyri və kiçik dalanlar, sistemsiz tikintilərin olması, yaşıllığın azlığı səciyyəvi hal idi. Bakıda İçərişəhərin küçə və dalanlarının qalıqları onlarda son zamanlar xeyli dəyişikliklər edilməsinə baxmayaraq, nə qədər darısqal, çəp, əyri olduqlarını bütün aydınlığı ilə nümayiş etdirir. Görünür məhəllə daxili küçələr ensiz olub, əsasən, piyadaların hərəkəti üçün nəzərdə tutulmuşdu. Şəhər darvazalarına istiqamətlənmiş əsas magistral küçələr isə kifayət qədər enli olub ikiçarxlı arabaların, yüklü dəvələrin sərbəst hərəkət edə bilməsinə imkan yaradırdı. Məhəllə daxili küçələrdən fərqli olaraq onlar düzxətli və səliqəli idi.

Beyləqanda şəhər darvazalarının üz-üzə dayanması burada əsas küçənin düz olmasından xəbər verir (А.А.Иессен, 1959а, стр. 34). Düzxətli, kənarları boyunca yaşayış evləri yerləşmiş küçə qalığı Dəbildə arxeoloji qazıntılarla öyrənilmişdir (А.Калантарян и др., 1979, стр. 521). Şəmkir şəhər xarabalıqlarında darvaza

yerlərinə əsasən baş küçələrin biri digərini mərkəzdə kəsərək, şəhristanı dörd sektora ayırdığını ehtimal etmək olar. Dərbəndin baş küçələri 3-4 *m* enində olub, narınqalanın yerləşdiyi təpənin ətəklərindən dənizə doğru istiqamətlənmişdi (А.А.Кудрявцев, 1982, стр. 148).

Görünür bütün küçə və meydanlar döşənirdi. Onları döşəmək üçün bişmiş kərpic, çınqıl, çaydaşı, saxsı qırıqları, yastı daşlardan istifadə edirdilər. Beyləqanda tədqiq olunmuş küçə kərpic və saxsı qab qırıqları ilə 10-15 *sm* qalınlıqda döşənmiş, onun üstündən isə yastı daşlarla örtülmüşdü (Q.M.Əhmədov, 1979, səh. 145). Arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, Qəbələ şəhərinin küçə və dalanları əsas etibarilə xırda daşlı qumla örtülərək bərkidilmişdi. Şimaldan gələn baş küçə isə dikinə düzülmüş bişmiş kərpiclə döşənmişdi (И.П.Щеблыкин, 1945, стр. 92). Gəncədə çaykənarı və körpülü küçələr çaydaşı ilə döşənmişdi (И.М.Джафарзаде, 1949). Çaydaşıları ilə döşənmiş küçə qalığı İmamzadə yaxınlığında aparılan qazıntıda da üzə çıxarılmışdır (Р.Дж.Ахмедов, 1986, стр. 415).

Orta əsr şəhərlərində meydan və küçələr gecələr işıqlandırılırdı. Beyləqan və Şabran qazıntılarından hasarlara taxılan xüsusi formalı çıraqların tapılması da buna dəlalət edir.

Şəhər idarə aparatının qarşısında duran ən mühüm abadlıq məsələsi sakinlərin suya ehtiyacını ödəmək, su təchizatı sisteminin təşkili və onun saz vəziyyətdə saxlanılması idi. Bu məqsədlə təbii-coğrafi şəraitdən asılı olaraq müxtəlif üsullardan istifadə edirdilər. Dağ çaylarının və bulaqların bol olduğu ərazilərdə arx, kəhriz və tünglərdən quraşdırılmış kəmər vasitəsilə şəhərə su gətirirdilər. Arranın düzən şəhərləri Araz və Kür çaylarından çəkilmiş suvarma şəbəkəsi (kanalları) vasitəsi ilə təchiz olunurdu. Bu baxımdan başlanğıcını Araz çayından götürən, ümumi uzunluğu 60 *km* olan Govurarx, Mil düzünün, o cümlədən Beyləqan şəhərinin təsərrüfat həyatında mühüm əhəmiyyətə malik idi (E.Ə.Qasımov, 2002, səh. 92; Q.M.Əhmədov, 1979, səh. 93). Ətraf ərazidə su mənbəyi olmadıqda və ya kifayət etmədikdə suyun yer səthinə yaxın olan sahələrdə quyu və ovdanlar qazmaqla yeraltı sulardan istifadə edilirdi. Bu, istər yazılı mənbə məlumatları, istərsə də Beyləqan, Şamaxı, Bakı, Şabran, Dərbənd şəhərlərinin arxeoloji tədqiqi ilə təsdiqlənir (E.Ə.Qasımov, 2002, səh. 80-85).

Orta əsr Bərdə, Gəncə, Bakı, Təbriz şəhərlərinin su təchizatında kəhrizlərdən geniş istifadə olunmuşdur. Yaşayış məskənlərinin coğrafi şəraitinə uyğun olaraq kəhrizlərin qazılması müxtəlif üsullarla icra olunurdu. Düzən zonalarda və yumşaq torpaqlı ərazilərdə çəkilən kəhrizlər yerin altından lağım atmaq yolu ilə qazılırdı (Я.А.Рустамов, 1964; E.Ə.Qasımov, 2002, səh. 54-55).

Quyulardan qalxan yeraltı sular üstü bağlı kəhriz xətti ilə axıb gedirdi. Kəhriz xətti xarab olmasın deyə daşla və ya bişmiş kərpiclə üzlənir, yaxud içərisinə düzülmüş tünglərlə su istənilən yerə axıdılırdı. Daş süxurlarda və qayalıqlarda qazılan kəhriz xətti üçün belə üzləməyə və tünglərə ehtiyac duyulmurdu. Belə hallarda su çirklənməsin deyə ancaq xəttin üstü sal daşlarla örtülürdü. Kəhrizləri vaxtaşırı təmizləmək, lazım gəldikdə onu təmir edə bilmək üçün müəyyən məsafələrlə xüsusi yoxlayıcı qurğular-quyular hörülürdü.

Gəncədə orta əsr kəhrizləri zəmanəmizə qədər qalmışdır, onların bəzilərində təmiz və sərin su indi də axır. Burada Gəncəçayın sol sahilindəki ərazinin cənub-şərqində X əsrə aid bir neçə kilometr davam edən kəhrizin qalıqları aşkarlanmışdır. Həmin kəhriz xəttində qoruyucu quyular qeydə alınmışdır (tablo 21, şək. 1). Bu quyuların yanları kirəc məhlulunda çaydaşı ilə hörülmüşdür (E.Ə.Qasımov, 2002. səh. 60-61). Yerin altında qazılmış kəhriz xətti isə yonulmuş və adi çaydaşı ilə üzlənmişdir. Bəzən kəhrizlərin quyusu elə qazılmışdır ki, onlardan müstəqil quyu kimi də su götürmək üçün istifadə edilə bilinirdi. Gəncənin kəhriz sistemi onun yüksək təcrübə və biliyə malik ixtisaslı mühəndislər tərəfindən inşa olunduğuna dəlalət edir.

Bəzən şəhər ərazisinə su xətləri bişmiş kərpicdən kirəc məhlulunda hörülmüş arxlarla aparılırdı. Belə arxlar üstü bağlı və ya açıq düzəldilirdi (Qəbələ, Beyləqan).

IX-XIII əsrin əvvəllərində Azərbaycan şəhərlərinin su təchizatında ən geniş yayılmış vasitə dulus tünglərindən quraşdırılmış su kəmərləri idi (tablo 21, şək. 2). Belə tünglər qazıntı aparılmış, demək olar ki, bütün şəhər və qalalarda tapılmışdır. Onların uzunluğu 30-40 *sm*, diametri isə 16-17 *sm* idi. Onlar iç-içə geydirilir və birləşən yeri kirəc məhlulu ilə bərkidilirdi. Gəncə ustaları daha möhkəm olsun deyə kirəcə kül də qatırdılar. Beyləqan ustaları bu məqsəd üçün tünglərin üstünə əlavə saxsı və yaxud daşdan düzəldilmiş örtüklər qoyurdular. Kəmərin suyun təzyiqinə davamını artırmaq məqsədi ilə onu bişmiş kərpiclə örtüb məhlulla bərkidirdilər. Məsələn, Şabranda, Xunanda, Şamaxıda tünglərdən quraşdırılmış xətlərin üstü kərpiclə və yaxud kirəc məhlulu ilə örtülmüşdür. Qəbələdə aşkara çıxarılmış, iki tərəfində boru şəklində çıxığı olan (bura tünglər keçirilirdi) küplər maraqlıdır. Belə küplər nəzarət üçün istifadə edilirdi. Onların ağzı qapaqla bağlanır, lazım gəldikdə, qapaq götürülərək su xətti yoxlanılırdı. Bəzən belə küpləri kiçik quyular əvəz edirdi (Gəncə). Tünglərdən quraşdırılmış su kəmərləri adətən küçələrin kənarı ilə aparılırdı. Bu, kəməri təmir etmək işini asanlaşdırırdı. Beyləqanda ikiağızlı dirsək tüngləri, hətta üçağızlı tünglər tapılmışdır. Bunlar vasitəsilə su xəttini döndərmək və şaxələrə ayırmaq mümkün olurdu. Şamaxıda arası 5-6 *sm* olan qoşa su xətti də aşkara çıxarılmışdır. Tünglərdən quraşdırılmış kəmərlər həm suyun ətraf

ərazilərindəki mənbələrdən şəhərə gətirilməsində, həm də şəhər daxilində məhəllə və küçələrə paylanmasında mühüm vasitə idi.

Şəhərlərdə su ehtiyatının toplanması və saxlanması üçün hovuzlar, xüsusi sututarları düzəldilirdi. Bu tip tikililər Xunanda (Р.М.Ваидов и др., 1979, стр. 511; E.Ə.Qasımov, 2002, səh. 97-98), Beyləqanda (Н.В.Минкевич-Мустафайева, 1973. стр. 319), Xaraba-Gilanda (Б.И.Ибрагимов, 2000, стр. 31), Dərbənddə (А.А.Кудрявцев, 1976, стр. 127; 1982a, стр. 89-90) arxeoloji tədqiqatlarla öyrənilmişdir. Yaqut əl-Həməvi isə Dərbənd haqqında belə yazır: "Şəhərin lap yaxınlığında pilləkənləri olan tağlı quyu var. Su azalanda pilləkənlərlə quyuya düşürlər" (N.Ə.Əliyeva, 1999, səh. 142). Yaqut Həməvinin təsvir etdiyi bu sututan görünür ovdandır. Orta çağda, Azərbaycanda daşla hörülmüş, üstü tağ örtüklü, içərisinə düşmək üçün pilləkəni olan ovdanlar geniş yayılmışdı. Şəhərlərin su təchizatında bulaqlar da özünəməxsus yer tutmuşdur. Bulaqlardan istifadə faktı Şamaxı, Qəbələ, Dərbənd şəhərlərinin arxeoloji qazıntılarından məlumdur (E.Qasımov, 2002, səh. 102-105).

Tikililərin sıx yerləşdiyi, on minlərlə əhalinin yaşadığı şəhər məskənlərində sanitariya məsələlərinin həllinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac duyulurdu. Araşdırmalar küçə və meydanların, ictimai-dini binaların, istehsalat tikililərinin təmizliyinə diqqət yetirildiyini, bu məqsədlə xüsusi qurğular düzəldiyini təsdiqləyir. Müxtəlif mühəndis qurğularının mövcudluğu, eləcə də mühtəsib nəzarətinin ciddiliyi şəhərlərdə təmizliyə riayət olunmasına şərait yaradırdı.

Çirkab və zibil quyuları, drenaj və kanalizasiya xətləri belə qurğulardan idi. Məişət və istehsalat tullantıları, müxtəlif cür zir-zibil imkan daxilində şəhərdən kənara çıxarılırdı. Şəhər daxilində isə zibil yalnız xüsusi dərin quyulara atılırdı. Küçə və meydanlardan çirkli və ya yağış sularının çıxarılması üçün drenaj sistemindən istifadə olunurdu. Yazılı mənbələr Dərbənd şəhərində su axarlarının (drenaj xətlərinin) mövcudluğunu xüsusi vurğulayırlar (N.M.Vəlixanlı, 1974, səh. 132). Şaxələnmiş kanalizasiya sisteminin qalıqları Şəmkirin narınqalasında IX-X əsrlərə aid təbəqədə üzə çıxarılmışdır (tablo 21, şək.3). Həmin mühəndis qurğusu bişmiş kərpic, çaydaşı və ağ daş lövhələrdən istifadə etməklə kürəbənd üsulu ilə inşa olunmuşdur (T.M.Dostiyev, 2007, səh. 29). Kanalizasiya xəttinin qalıqları arxeoloji qazıntılar zamanı Örənqala şəhər yerində də üzə çıxarılmışdır (tablo 21, şək. 4).

Arxeoloji qazıntılardan məlum olmuşdur ki, orta əsr şəhərlərində lokal kanalizasiya üçün xüsusi quyular qazılırdı. Belə quyular Gəncə, Beyləqan, Şəmkir, Qəbələ və Şabranda aşkar olunmuşdur. Çirkab quyuları, bir qayda olaraq, mənzillərdən aralıda qazılırdı. Hər tikinti kompleksinin özünəməxsus çirkab quyusu

var idi. Onlar adətən 3-4 *m* və daha çox dərinlikdə olub silindr şəklində qazılırdı. Quyuların ağzı ağac, qamış və yaxud taxta ilə örtülürdü. Bəzən quyuların ağzı bişmiş kərpic və yonulmuş daşla döşənirdi. Bəzi hallarda belə quyular tünglər vasitəsilə mənzillərlə əlaqələndirilirdi. Buna da ən çox daxili həyətlərdə təsadüf olunur. Bunlara yağış suları da axıb gedir və torpağa hopurdu. Quyuların qıraqları uçub dağılmasın deyə, bəzən onların yuxarı hissəsi bişmiş kərpiclə möhkəm hörülürdü. Onlar çirkab sularının axıdılması üçün də yararlı idi. Beyləqanda aşkar olunmuş belə quyuların bəzilərinin ağız döşəməsi səkkizguşəli ulduzvari deşiklə tamamlanmışdır. Bir çox quyuların ağız hissəsi ortaya qoyulmuş, mərkəzində kiçik deşik olan bişmiş kərpiclə döşənmişdir. Beyləqanda, Şəmkirdə, Qəbələdə belə kərpiclər tapılmışdır. Bu cür sanitariya qurğuları Orta Asiya şəhərlərində aşkara çıxarılan daşnov adlanan qurğuları xatırladır. Belə quyulu otaqlar görünür yuyunmaq, xüsusilə qış fəslində dəstəmaz və qüsl üçün istifadə olunurdu.

## Qalalar, qəsrlər və qüllələr

Yazılı qaynaqların təhlili Azərbaycan feodal hökmdarlarının istehkam tikililərinin ucaldılmasına xüsusi əhəmiyyət verdiklərini söyləməyə imkan verir. Mənbələrdən birində deyilir ki, Azərbaycan "əsasən dağlıq diyardır, çoxlu qalaları, bol nemətləri, saysız meyvə ağacları vardır" (Йакут аль-Хамави, 1983, стр. 7-8). Azərbaycanın müdafiə istehkamları kompleksinə bir-birindən müəyyən məsafədə tikilmiş qəsr və qüllələr də daxil idi. Belə qəsr və qüllələrdə iğtişaşlar və basqınlar zamanı feodalın ailəsi mühafizə olunur, onlarda hərbi hissələr saxlanılır və şəhəri hücumlardan xəbərdar etmək üçün gecələr işıq yandırılır, gündüzlər isə tüstü qaldırılırdı. Təəssüf ki, orta əsr qalaları arxeoloji cəhətdən zəif öyrənilmiş abidələrdəndir.

Gülüstan qalası - Şamaxı şəhərindən 3 *km* şimal-qərbdə ətraf ərazilərdən 180-200 *m* yüksəklikdə olan, şimal-qərbdən cənub-şərqə genişlənən dağın üstündə yerləşir və onun mürəkkəb relyefinə uyğunlaşdırılmışdır. Sahənin uzunluğu 400 *m*, eni isə 30-140 *m* arasında dəyişir (tablo 22, şək. 1). Qala şimal-şərq və cənub-qərb tərəfdə uçurumlu dərə, qərb və şimal-qərb tərəfdə sərt enişlə hüdudlanır, yalnız şəhərə baxan cənub tərəfdə az enişli yamac vardır. Burada qeydə alınan böyük bürc qalıqları qalaya aparan yeganə cığırın ciddi qorunduğuna dəlalət edir. Qalanın narınqalası hakim mövqeyə malik şimal-qərb tərəfdə ucaldılmışdır. Qalanın divarı ve bürcləri kirəc məhlulunda dördkünc yonulmuş daşla tikilmişdir (tablo 22, şək. 2). Qala müdafiə üçün çox əlverişli yerdə olduğundan Şirvanşahlar dövlətinin hərbi-müdafiə sistemində çox mühüm rol oynamış və Şirvanşahlar bu qaladan həm də yay

iqamətgahı kimi istifadə etmişlər. Burada aparılmış arxeoloji qazıntılarla onun IX-XVI əsrlərə aid olduğu müəyyən edilmişdir (E.A.Пахомов, 1940; H.Ə.Ciddi. 1960; 1961; 1961a; 1967). Qalanın daha zəngin materialı IX-XIII əsrlərə aiddir. Qazıntılar nəticəsində abidənin quruluşu, onun iç qalasını səciyyələndirən cəhətlər, qala divarları, bürclər, saray kompleksi, su şəbəkəsi, gizli yol və s. tədqiq olunmuşdur. Saray kompleksindən yalnız "dəhlizə oxşar tikili", dörd otaq və salonun qalıqları qazıntılar zamanı təmizlənmişdir (H.Ə.Ciddi, 1967, səh. 50-62). Saray kompleksi ikimərtəbəli olmuş, amma ikinci mərtəbə tamamilə dağılmışdı. Saray daşdan əhəngli məhlulla inşa edilmişdi. Qazıntı zamanı iki hörgü qatı müəyyənləşdirilmişdir. Birinci hörgü qatı IX-X əsrlərə aid olub, kobud yonulmuş daşlardan istifadə etməklə ucaldılmışdı. XII əsrdə sarayda təmir işləri zamanı səliqə ilə yonulmuş daşlardan yüksək keyfiyyətli əhəngli məhlulla ikinci hörgü qatı ucaldılmışdı. Sarayın qazıntılar zamanı aşkarlanan otaqları dördbucaq biçimdə olub sahələri müxtəlifdir. Otaqlar arasında qapı yerləri vardı. Otaqların, salonun və dəhlizin qalıqları saray kompleksinin birinci mərtəbəsinin tağ-tavanla tamamlandığını göstərir. Dəhlizin üstündə ikinci mərtəbənin daş döşəməsinin və kürəbənd tipli kanalizasiya xəttinin qalıqları üzə çıxarılmışdır. Kompleksin qalıqlarının ətrafından xeyli kaşı tapılması sarayın kaşılarla bəzədildiyini söyləməyə əsas vermişdir.

Tapılmış sadə və şirli saxsı qablar, fayans və seladon qab qırıqları, həmçinin şüşə, metal əşyalar və pullar əsas etibarilə qalanın çiçəklənmə dövrünə - XII-XIII əsrin əvvəllərinə aiddir.

Arxeoloji tədqiqatlar qalanın divar və bürclərinin əsasən iki müdafiə xətti yaratdığını söyləməyə əsas verir. Qalanın yerləşdiyi dağın yuxarısındakı geniş sahəni cənub və qərb tərəfdən əhatə edən və Xınıslı kəndindən müşahidə olunan ön istehkam qalıqları ön müdafiə xəttini, dağın yüksək zirvəsində yerləşən istehkam qalıqları - narınqalanın divar və bürcləri sonuncu müdafiə xəttini təşkil edirdi. Ön müdafiə xəttinin uzunluğu təxminən 400 *m-ə* çatır və buradakı qalınlığı 2,5-5 *m* olan divar 6 yarımdairəvi bürclə möhkəmləndirilmişdir. O, altıncı bürcə çatdıqda perpendikulyar formada şimala dönür və narınqalanın bürcü ilə birləşir. Narınqalanın divarları daha etibarlı olub, yeddi bürclə möhkəmləndirilmişdir (H.Ə.Ciddi, 1967, səh. 44-45).

Naxçıvan şəhərindən 30 *km* şərqdə, dəniz səviyyəsindən 1640 *m* hündürlükdə, Əlincəçayın sağ sahilində yerləşən Əlincəqala orta çağın ən möhtəşəm müdafiə tikililərindən olub Azərbaycan Atabəylərinin iqamətgahı və xəzinə yeri olmuş, 14 il Əmir Teymurun mühasirəsinə davam gətirmiş və alınmazlığı ilə böyük sərkərdəni heyrətləndirmişdir. Mənbələrdə adı X əsrdən Alıncaq, Alancıq, Əlincək, Erincək, Əlincə kimi xatırlanan bu qala, Şəmsəddin Eldənizin dövründən başlayaraq

ölkənin mühüm hərbi-strateji məntəqəsi kimi daim diqqət mərkəzində olmuş, Azərbaycan Atabəyləri burada çoxlu saray və yardımçı binalar inşa etdirmişlər.

Əlincəqala uzunmüddətli müdafiə üçün geniş hərbi-strateji imkanlara malik olmaqla Əlincəçayın sağ sahilində, geniş düzənliyin mərkəzində ucalan, yalnız yanlardakı dar cığırlarla qalxmağın mümkün olduğu, hər tərəfi sıldırımlı dağın üzərində salınmışdır (tablo 23). Həmin cığırların təhlükə gözlənilən yerləri ərazinin relyefinə uyğun divar və bürclərlə möhkəmləndirilmişdir. Qala divarları bir-birinin ardınca pillələr halında ucalaraq dağın zirvəsini, orada yerləşən tikililəri əhatə edir. Qalaya şimal, şərq və qərb tərəfdən olmaqla üç darvazadan keçmək mümkün idi. Darvazalar istehkam qurğuları, bürc mazğalı olan divarlarla möhkəmləndirilmişdir. Qalanın baş, şimal darvazası hakim mövqeyə malik idi. Qalanın şimal qülləsi hakim mövqe tutmaqla geniş ərazini və strateji əhəmiyyətli yolu nəzarət altında saxlamağa imkan verirdi. O, kvadrat biçimli olub 7x7 *m* ölçüdədir. Daxildən 2 qatlıdır. Birinci qat arakəsmə ilə iki otağa ayrılır. Üst qat döyüş səkisi ilə əlaqələndirilmişdir. Qalanın divarları boyunca döyüş səkisi və mazğallar izlənilir. Qala divarlarının mühafizə olunmuş hündürlüyü 5 *m*-dən 8 *m*-dək dəyişir. Döyüş səkisinin hündürlüyü isə 2-3 *m*, eni 1,5 *m* təşkil edir.

Qalanın divar və bürcləri yonulmamış daşlardan inşa olunmuş, örtüklərin və qapı açırımlarının konstruksiyalarında kvadrat formalı bişmiş kərpiclərdən istifadə edilmişdir (В.Керимов, 1998, стр. 53). Qalanın içərisində müxtəlif təyinatlı tikililərin - yaşayış evlərinin, saray kompleksinin, cəbbəxananın, təsərrüfat tikililərinin xarabalıqları qalmışdır. Dağın ən uca yerində Əlincəqalanın içqalası – Şaxtaxtı yerləşir. Saray kompleksi burada yerləşirdi. Onun ümumi sahəsi 800 *kv.m*-dir. Kompleksin mərkəzində yerləşən salonun sahəsi 96 *kv.m*-dir və görünür o rəsmi qəbul otağı olmuşdur. Digər otaqların sahəsi 7,5-36 *kv.m*-dir. Otaqların divarlarının qalınlığı 0,75 *m*-dir. Cənub tərəfdə divarın qalıqlarının hündürlüyü 2,8-3 *m*, şimal tərəfdə isə 1-1,5 *m*-dir. Qapı açırımlarının eni 0,8-1,1 *m*-dir (В.Алиев, В.Керимов, 1975, стр. 467-468; В.Керимов, 1998, стр. 53, табл. XXVII, XXVIII).

Qalanın su təchizatı üçün yağış sularından istifadə də nəzərdə tutulmuşdur. Yağış sularını toplayaraq su ehtiyatı yaratmaq məqsədilə xüsusi arxlar düzəldilmiş və həmin arxlarla su hovuzlara axıdılmışdır.

Hər tərəfdən sıldırım qayalarla və keçilməz təbii enişlə müdafiə olunan qala həmlələrə və uzunmüddətli mühasirələrə qarşı az qüvvə ilə durmaqda etibarlı istehkam tikilisi idi.

Kəşfiyyat xarakterli arxeoloji tədqiqatlarla müəyyən olunmuşdur ki, Əlincəqala nəinki möhtəşəm, etibarlı qala, həm də Əlincəçay vadisinin siyasi-inzibati mərkəzi olmuşdur. Bunu qalanın yerləşdiyi dağın cənub və cənubi-qərb

ətəklərindəki planlı yaşayış məskəninin xarabalıqları sübut edir. İlkin çöl tədqiqatlarının nəticələrinə əsasən Əlincə yaşayış yerinin 10 hektara yaxın sahəni əhatə etdiyini söyləmək olar. (Məlumat üçün t.e.n. Bəhlul İbrahimliyə təşəkkür edirik.) Həmin yaşayış yerində mikrorelyef nisbətən yaxşı qaldığından burada dağ daşlarından (tufit) gil məhlulu ilə hörülmüş dördkünclü planda olan tikililərin qalıqları aydın müşahidə olunur. Ərazidən toplanan yerüstü arxeoloji materiallar, xüsusilə saxsı məmulat, sikkə tapıntıları XI-XIV əsrləri əhatə edir. Görünür, Eldənizlər dövlətinin xəzinəsinin yerləşdiyi bu qalaya hücumun ilk zərbəsini təsvir olunan yaşayış məskəni öz üzərinə götürürdü.

Gədəbəyin Söyüdlü kəndindən 7 *km* aralıda, dağ zirvəsində yerləşən Qız qalası memarlıq biçimlərinin son dərəcə monumentallığı ilə fərqlənir (C.Qiyasi, 1991, səh. 156). Qalanın çoxbucaqlı bitkin planı vardır. Bucaqlardakı dairəvi bürclər onun möhkəmliyini artırır, möhtəşəmliyini daha qabarıq nəzərə çatdırır (tablo 24, şək. 2).

Qız qalası dağ relyefinə uyğunlaşdırılaraq inşa olunmuş və ikiqatlıdır. Üst qatda, dağın zirvəsində beşbucaqlı plana malik narınqala yerləşir. Cənubdan içqalaya alt qatda inşa olunmuş ikinci bölüm birləşir. Qala kvadrat formalı bişmiş kərpicdən inşa olunmuşdu.

Gədəbəy Qız qalasının fərqləndirici konstruktiv elementlərindən biri narınqalanın bayır səthlərində maşikulların ikiqatlı olmasındandır. Divar və bürclərin ortasından kəmər kimi keçən və yuxarıda onları tac kimi tamamlayan bu iki sıra maşikullar Qız qalasının müdafiəsini xeyli gücləndirməklə yanaşı, həm də onun bədii təsir qüvvəsini artırırdı.

XII əsrdə inşa olunduğu ehtimal edilən Gədəbəy Qız qalası Azərbaycan hərb memarlığının qiymətli nümunələrindən biri olmaqla əlçatmaz dağ zirvələrində memar təxəyyülünün incisi kimi ucalır (C.Qiyasi, 1991, səh. 156).

Murov dağın ətəyində, Ağdərə və Goranboy rayonlarının sərhədində, İncəçayın sahilində, dəniz səviyyəsindən 1700 *m,* ətraf ərazidən 200-250 *m* hündürlükdə yerləşən Gülüstan qalası da Gədəbəy Qız qalası ilə eyni dövrdə inşa olunmuşdur. Qala şərq, qərb və cənub-qərb tərəflərdən sıldırımla, şimaldan meşə, cənub-şərqdən isə yamacla əhatə olunmuşdur. Qalaya yol cənub-şərq tərəfdəndir. Qala şərq-qərb istiqamətində 200-250 *m,* şimal-cənub istiqamətində 20-25 *m* uzanır. Qala divarının eni şimal və qərb tərəflərdə 0,8-0,9 *m* olduğu halda, cənub divarda 1,5 *m*-ə çatır. Qalanın içərisində bina qalıqları, ovdan vardır. Orada habelə çaya aparan gizli yol qeydə alınmışdır (A.Məmmədov, Ş.Əyyubova, 2003.)

Orta çağda dağ keçidlərini, eləcə də ətraf əraziləri nəzarət altında saxlamaq üçün xeyli qəsr və qüllə inşa olunurdu. Belə müdafiə tikililərindən biri İsmayıllı

rayonun Xanəgah (Xənəyə) kəndindən 2,5-3 *km* şimalda, Axoxçayın sağ sahilində yerləşən Qız qalasıdır (F.L.Osmanov, 1972, səh. 61-62; C.Ə.Qiyasi, F.L.Osmanov, 1980, səh. 139-143; Q.C.Cəbiyev, 2005). Ön istehkam Qarasu dərəsindədir. Uzunluğu 28,6 *m*, hündürlüyü 7,7 *m*, qalınlığı 1,8 *m* olan bu sədd dərənin ağzını qapayırmış. Səddin ortasında üstü tağşəkilli darvaza yerləşirdi. Səddi keçdikdən sonra Qarasu dərəsi ilə şimala doğru qalxdıqca sağ tərəfdəki sıldırım qayalıqdakı boşluqları qapayan qala divarlarının qalıqları görünür.

Abidənin şimal küncündən başlayaraq qala divarları həm şərq, həm də qərb yamacı boyunca uzanaraq onu dövrəyə alır. Ümumiyyətlə, Qız qalasının planı mürəkkəb formalıdır (tablo 24, şək. 1). Qalanın ümumi sahəsi 1,5 hektara qədərdir. Sahəsi 300 *kv.m* olan narınqala üst terrasda yerləşməklə hakim mövqeyə malikdir. O qalanın şərq divarı ilə hüdudlanır, digər tərəflərdən isə sərt enişə ayrılır. Qalanın inşaatında daşdan və bişmiş kərpicdən, kirəc məhlulundan istifadə olunmuşdur.

Dağ qalaları arxeoloji tədqiqatlarla şimal-qərbi Azərbaycanda daha yaxşı öyrənilmişdir. Bunlardan Surxab qalasını, Ustacan qalasını, Qızlar qalasını, Eşik qalasını, Muxas qülləsini, Aydınbulaq qülləsini misal çəkmək olar.

Qəbələ rayonunun Zalam kəndindən təxminən 3 *km* şərq tərəfdə, dağın üstündə, əlverişli coğrafi şəraitdə yerləşən Qızlar qalası isə güclü dağıntıya məruz qalmışdır. 1972-ci ildə aparılan arxeoloji qazıntılar nəticəsində qala divarları, bürcləri və darvaza yeri tam aşkarlanmışdır. Dördkünclü biçimdə olan bu qalanın uzunluğu 16,5 *m*, eni 15,7 *m*-dir. Qala divarlarının qalıqlarının hündürlüyü bəzi yerlərdə 1,5 metrə qədərdir. Qalanın hər bir küncündə monolit dairəvi bürc, hər bir divarında isə yarımdairəvi kontrfors vardır. Bürclərin diametri 3,5 *m*, kontrforsların diametri isə 1,5 *m*-dir. Darvaza qalanın cənub-qərb tərəfində yerləşir və eni 1,8 *m*-dir. Qalanın salamat qalmış qalıqları daşdan kirəc məhlulu ilə inşa olunmuşdur. Lakin ətrafa səpələnmiş 33x33x8 *sm* ölçüdə bişmiş kərpic nümunələrinin çoxluğu istehkamın üst hissəsinin həmin inşaat materialından hörüldüyünü söyləməyə imkan verir.

Arxeoloji qazıntılar nəticəsində Qızlar qalasında 20 *sm* qalınlığında mədəni təbəqə yatımının varlığı müəyyən olunmuş, daş sütun altlığı fraqmenti və xeyli saxsı qab qırıqları tapılmışdır (F.V.Qədirov, 1984, səh. 88-91).

Faktik materiallar Qızlar qalasının IX əsrdə inşa olunduğunu və XI əsrin əvvəllərinədək istifadə edildiyini söyləməyə imkan verir.

Eşik qalası və ya Şinaz qalası Şəki rayonunun Baş Laysk kəndi ilə Şin kəndini ayıran dağ tirinin orta hissəsində yerləşir və təxminən 0,5 hektar sahəni tutur (tablo 24, şək. 4). Qala Dağıstana gedən dağ keçidi qoruyurdu. Qalanın qapısı Şin dərəsinə açılırdı. Qapının eni 1,5 *m* idi. Qarşısında kvadrat biçimli, 10x10 *m* ölçüdə

qüllə yerləşirdi (tablo 24, şək. 5). Onun salamat qalmış qalıqlarının hündürlüyü 3 *m*-ə çatır. Qala divarları çaydaşı və səliqə ilə yonulmuş qaya daşlarından kirəclə hörülmüşdür. Divarların qalıqlarının hündürlüyü 2 *m*-dən artıqdır. Qalanın içərisində və qapı ilə qüllə arasındakı sahədə yoxlama qazıntıları aparılmış, VIII-XVII əsrlərə aid mədəni təbəqənin varlığı müəyyənləşdirilmişdir.

Salavat dağ keçidini nəzarət altında saxlayan Əniq (Enıq) qalası dəniz səviyyəsindən 1100 *m* hündürlükdə, Qusarçayın sağ sahilində, Qusar rayonunun eyni adlı kəndində təbii maneələrə malik, hündür təpə üzərində yerləşir. Qalanın müdafiə qabiliyyətini daha yaxşı təmin etmək üçün memar relyefin bütün imkanlarından uğurla istifadə etmişdir. Qala uçurumlu ətəkləri olan nəhəng təpənin cənubunda salınmışdır.

Nə vaxtsa möhtəşəm istehkam olmuş bu qaladan iki qalıq salamat qalmışdır. Birinci halda divarın uzunluğu 15-16 *m*-dir. İkinci qalıq isə qala darvazasının künc bürcüdür. Divarın eni 2 *m,* bürcün diametri isə 6 *m-ə* yaxındır. Qalıqların hündürlüyü 5,8 *m*-dən 9,3 *m-ə* qədərdir. Qala yeri qaya daşlarından və çaydaşından inşa olunmuşdur (C.Ə.Xəlilov, 1962). Gürcü "Xronoqrafi"nın (XIV əsr) məlumatı əsasında Əniq qalasının 1288-ci ildə dağıdıldığı ehtimal olunur (М.Дж.Халилов, 1993, стр. 27-28).

Dağ keçidlərində yerləşən bütün orta əsrlər boyu hərbi-strateji əhəmiyyətini saxlamış mühüm qalalardan biri Astara rayonunda, dəniz səviyyəsindən 1828 *m* yüksəklikdə ucaldılmış Şindan qalasıdır (S.M.Onullahi, 1994, səh. 81-86; A.İ.Ələkbərov, 2003a, səh. 152-157). Qala Şindan dağının zirvəsində bir hektara qədər sahəni tuturdu. Qala divarları yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir.

IX əsrin ictimai-siyasi həyatında mühüm rol oynamış Bəzz qalası Cənubi Azərbaycanda, dəniz səviyyəsindən 2300-2600 *m* hündürlükdə, Qaradağın Kələybər qəsəbəsindən təqribən 3 *km* cənub-qərbdə yerləşir (tablo 25, şək. 1). Dərinliyi 400-600 *m* olan dağ dərələri ilə hüdudlanan Bəzz qalası hərbi-strateji baxımdan çox əlverişli mövqeyə malikdir. X əsr müəllifi Əbu Dülaf yazır ki, "Elə orada xürrəmilər adı ilə məşhur olan qırmızı geyinmiş adamlar bayraqlarını qaldırdılar. Babək burada çıxış etmişdi" (N.M.Vəlixanlı, 1974, səh. 80). Eyni məlumatı Yaqut əl-Həməvi də təkrarlayır: "Burada xürrəmilər kimi tanınan muhammirələrin bayrağı qaldırılıb. Babək bu yerdəndir və əl-Mehdini də burada gözləyirlər" (N.A.Əliyeva, 1999, səh. 149-150).

Bəzz qalası daşdan inşa olunmuş, bürclərlə möhkəmləndirilmişdir. 1967-ci ildə Bəzz qalasında aparılmış arxeoloji tədqiqatlar zamanı burada tikili qalıqları, təndirlər, ocaqlar, əmək alətləri, silahlar, şirli və şirsiz saxsı qablar, sikkələr və digər maddi-mədəniyyət nümunələri aşkarlanmışdır. Sikkələrin bir qismini Azərbaycan

Atabəylərinin zərb etdirdikləri dirhəmlər təşkil edir. Mədəni təbəqədən Azərbaycan Atabəylərinin pullarının tapılması xürrəmilər hərəkatı yatırıldıqdan, Bəzz qalası dağıdılaraq yandırıldıqdan sonra təmir edilərək yenidən istifadə olunduğuna dəlalət edir.

Qədim qala və ya Qala Miş Əhərdən 18 *km* şimalda, Kəleybərə gedən yoldan solda, yüksək dağda inşa olunmuş böyük istehkam tikilisidir (tablo 25, şək. 2). Müdafiə sistemi iki səviyyədə təşkil olunmuşdu. Aşağı ön müdafiə divarı relyefə uyğunlaşdırılaraq əsas qala ilə birləşirdi. O, yarımdairəvi bürclərlə möhkəmləndirilmişdi. Hakim mövqedə yerləşən əsas qala planda uzunsov formaya malik olub, dördkünc və yarımdairəvi bürclərlə möhkəmləndirilmişdi. Qala əhəngdaşından inşa olunmuşdur. Darvazanın şimal-şərq tərəfdə yerləşdiyi ehtimal edilir (W.Kleiss, 1969, səh. 66).

Bəlləbur qalası dağətəyi zonadan düzənliyə keçiddə ucaldılmış, düzən ərazinin müşahidəsi və müdafiəsi vəzifəsi daşıyan qalalardan olmuşdur. Qalanın xarabalıqları Lənkəran şəhərindən 9 *km* cənub-qərbdə, Bəlləbur kəndinin yaxınlığında yerləşir və 1 hektara yaxın sahəni əhatə edir. Təpə üzərində salınmış bu qalanın xarabalıqlarını hazırda meşə basmışdır. Qala şimal-cənub istiqamətində uzanan düzbucaq biçimdə olub küncləri yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Qalanın bünövrəsi daşdan, divarları 28x28x6 *sm* ölçülü bişmiş kərpiclərdən hörülmüşdür. Qala divarlarının hündürlüyü 4-5 *m*, qalınlığı 1,5 *m-ə* çatır.

Abidənin ərazisindən toplanmış arxeoloji materiallar əsasən IX-XII əsrlər üçün səciyyəvi şirli və şirsiz saxsı materiallarından ibarətdir. Qala ərazisindən həm də mis, gümüş və Bizans qızıl pulları tapılmışdır (И.Азимбеков, 1926; А.Алекперов, 2005).

Qalaca abidəsi İmişli rayonunun Qızılkənd yaşayış məntəqəsindən təxminən 1 *km* aralıda yerləşir. Sahəsi 2 hektara çatan bu qala planda dördbucaqlı olub, künclərі cəhətlərə istiqamətlənmişdir. Qalanın salamat qalmış divarlarının hündürlüyü 2,5 *m*-ə çatır. Qalanı 3-4 *m* enində müdafiə xəndəyi əhatə edir. Abidənin ərazisində bişmiş kərpic parçalarına, şirli və şirsiz saxsı qab qırıqlarına rast gəlinir. İlkin tədqiqatlar abidəni IX-XIII əsrlərə aid etməyə imkan verir.

Hacı Təhməztəpə İmişli rayonunun Qızılkənd və Aranlı kəndləri arasında yerləşir və kvadrat biçimli, 140x140 *m* ölçüdə qalanın xarabalıqlarıdır. Qalanın divarlarının qalıqlarının hündürlüyü 3 *m-ə* çatır. Mikrorelyef əsasında qalanın mərkəzində böyük bir tikilinin qalıqları izlənilir. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar XII-XIII əsrin əvvəlləri üçün səciyyəvi olan şirli və şirsiz saxsı qab qırıqlarından ibarətdir.

Maluq qalası Şəki rayonunun Aşağı Daşağıl kəndindən şimal-şərqdə, Qaraçayın sağ sahilində, düzənlik ərazidə yerləşir. Onun adı yazılı qaynaqlarda 1052 və 1071/1072-ci illərin hadisələri ilə əlaqədar xatırlanır. Qala dördkünc biçimli olub küncləri dairəvi bürclərlə, divarları isə yarımdairəvi kontrforslarla möhkəmləndirilmişdir (tablo 24, şək. 3). O, çaydaşından tərkibinə xırda çınqıl və kömür qırıntıları qatılmış kirəc məhlulla hörülmüşdü. Şimal və qərb divarları güclü dağıntıya məruz qalmışdır. Nisbətən yaxşı mühafizə olunmuş yerlərdə qala divarının hündürlüyü 2 *m*-ə çatır. Qalanı dərinliyi *2 m,* eni bəzi yerlərdə 12-15 *m* təşkil edən müdafiə xəndəyi əhatə edir. Abidə yaxınlığında sahəsi 6 hektara yaxın olan orta əsr yaşayış yerinin qeydə alınması Maluq qalasının həmin yaşayış yerinin narınqalası olduğunu ehtimal etməyə əsas verir (İ.Bədəlova, 2005).

XII əsrdən başlayaraq Bakının siyasi-inzibati rolunun yüksəlməsi Abşeron yarımadasında etibarlı müdafiə sisteminin yaradılmasını tələb edirdi və Şirvanşahlar bu sahədə zəruri tədbirləri həyata keçirirdilər (И.П.Щеблыкин, 1943, стр. 27).

Abşeron qalalarından daha erkəni Mərdəkandan məlumdur. Burada bir-birinin yaxınlığında üç qəsr vardır. Onlardan ən qədimi 1187-ci ildə inşa olunmuş kvadrat planlı qəsrdir. Ondan bir qədər aralıda 1204-cü ildə dairəvi qülləli kiçik qəsr inşa edilmişdir. Ehtimal etmək olar ki, Şağan qalası da elə bu dövrdə inşa olunmuşdur. Ölkənin dağlıq ərazilərində dağ qalalarının oynadığı rolu Abşeronda qəsrlər, qüllələr sistemi əvəz etmişdir (C.Qiyasi, 1991, səh. 160). Vahid plan-məkan həlli olan bu qəsrlər iri və uca tutumlu qüllədən və onu dövrələyən qapalı bayır qala divarlarından ibarətdir. Qüllələrin bayırdan bütöv görünən tutumları daxildən günbəzvari örtüklə qatlara bölünür. Məsələn, Böyük Mərdəkan qalasının qülləsi beş qata bölünmüşdür. Birinci qat istisna olmaqla hər bir qatda yelçəkmə və işıqlandırma üçün günbəzlərin ortasında kiçik bacalar və yan divarlarda pəncərə açırımları vardır. Qatlar arası pilləkən ikinci mərtəbədən başlayır. Qəsrlərin bayır divarları və bürcləri, eləcə də qüllələri tacabənzər maşikullarla tamamlanırdı. Qalanın müdafiəsi əsasən həyət divarları üstündən və qüllənin damından aparılırdı (Л.С.Бретаницкий 1966, стр. 76; C.Qiyasi, 1991, səh. 160).

Qəsrlərin həyətində qayada oyulmuş təsərrüfat quyuları zəruri ərzaq ehtiyatı saxlamağa xidmət edirmiş. Qəsrlərdə həm də su quyusu olurdu.

Bakı buxtasında - Bayıl daşlarında aparılan qazıntılar xüsusi əhəmiyyətə malikdir. Burada 1938-1940-cı illərdə Xəzərin suyunun enməsi və qala divarları olan tikinti qalıqlarının görünməsi ilə əlaqədar, həmin abidənin tədqiqinə başlanılmış (tablo26), 1946, 1962, 1969-cu illərdə davam etdirilmişdir (Е.А.Пахомов, 1940а: И.Джафарзаде, 1947; О.Ш.Исмизаде, 1966; 1971). Tədqiqatlar nəticəsində suyun altından üzərində ərəb əlifbası ilə yazı olan 800-dək daş lövhələr aşkara çıxarılmışdır. Abidənin 1234-1235-ci illərdə tikildiyi tarix daşlarda aydın yazılmışdır. Abidənin nə məqsəd üçün tikilməsi haqda müxtəlif mülahizələr söylənmişdir. Bəziləri onu "karvansara", başqaları "sualtı şəhər". "Bayıl daşları", "Səbail daşları", "Yunan şəhər" və s. hesab etmişlər. Abidənin cənub



**Aydınbulaq qülləsi.**

hissəsində qazıntılar aparılmış, az yonulmuş daşdan hörülmüş kvadrat planda olan tikinti qalığı aşkara çıxarılmış, qazan, çıraq, bardaq, boşqab qırıqları tapılmışdır (О.Ш.Исмизаде, 1971). Arxeoloji qazıntılar nəticəsində belə bir fikir söylənilmişdir ki, bu abidə Bakını qorumaq üçün dənizdə tikilmiş qala olmuşdur. Həm də gömrükxana rolunu oynamışdır. Bu fikir Y.A.Paxomov və bəzi memarların fikrinə uyğun gəlir. İ.M.Cəfərzadə belə hesab edirdi ki, bu tikinti kompleksi sitayiş obyektidir, əvvəllər atəşpərəstlərin sitayiş yeri olmuş, sonra islam dininə uyğunlaşdırılmışdır. Bəzi tədqiqatçılar onun Şirvanşahların saray kompleksi olduğunu bildirirlər (Е.А.Пахомов, 1940а; И.Джафарзаде 1947; Л.С.Бретаницкий и

др., 1947; И.П.Щеблыкин, 1949). V.A.Kvaçidze Bayıl qəsrinin inşaatının tamamlanmadığını, XIII əsrin sonu - XIV əsrin əvvəllərində Xəzər dənizinin səviyyəsinin qalxması ilə abidənin su altında qalması ehtimalını irəli sürmüşdür (В.А.Квачидзе, 2006а, стр. 134).

Şirvanın müdafiə sistemində dağ keçidlərini nəzarətdə saxlayan qüllələr də özünəməxsus yer tuturdu. Misal olaraq Muxas qülləsini göstərmək olar. O, Oğuz rayonunun Muxas kəndinin şimalında, Daşağıl keçidi qarşısında yerləşir. Qüllə şimal, cənub və qərb tərəflərdə düzbucaqlı planda, şərq tərəfdə isə yarımdairəvi olub ərazinin relyefinə uyğunlaşdırılmışdır. Onun hündürlüyü 11,6 *m*, divarının qalınlığı hörgünün aşağı sıralarında 1,5 *m*, yuxarıda 1 *m*-dir. Qərb divarında hündürlüyü bayır tərəfdən 1,1 *m*, içəridən 1,5 *m* olan qapı açırımı vardır (tablo 27, şək. 1).

Muxas qülləsinin üçqatlı olduğu ehtimal olunur. İkinci qatda mazğal və işıqlandırma üçün pəncərə rolu oynamış, hündürlüyü 1,5 *m*, eni 0,6 *m* olan açırım vardır. Qüllə çaydaşı və çay daşlarından kirəc məhlulu ilə tikilmişdir. 1 x0,5x0,5 *m* ölçülü sal daşlar qüllənin künclərində və pəncərə yerlərində istifadə olunmuşdu.

Qüllənin ərazisində aparılmış yoxlama qazıntılar burada 0,5 *m* qalınlıqda mədəni təbəqə yatımının varlığını göstərmişdir. Əldə olunmuş arxeoloji materialların və abidənin memarlıq xüsusiyyətlərinin müqayisəli təhlili onun IX əsrdə inşa edildiyini və XIV əsrədək istifadə olunduğunu söyləməyə imkan vermişdir (F.V.Qədirov, 1984. səh. 98-102).

Aydınbulaq qülləsi Şəki rayonunda eyni adlı kəndin şimalında yerləşir və yerli əhali arasında həm də Torpaqqala, Ağcaqala, Meydanqala, Qız qalası adlandırılır. O, dördkünc biçimli olub, küncləri monolit yarımdairəvi bürclə möhkəmləndirilmişdir. Bürclərdən biri, eləcə də cənub və qərb divarları dağıdılmışdır. Şimal və qərb divarları isə nisbətən yaxşı mühafizə olunmuş, hündürlüyü 10,5 *m*-ə çatır (tablo 27, şək. 2). Qüllənin həm divarları, həm də bürcləri yuxarıya doğru daralır. Muxas qülləsində olduğu kimi burada da üç qat olmuş, birinci mərtəbədə qapı yeri, iki və üçüncü qatlarda pəncərə açırımı varmış. Qapı yerinin eni 1 *m*, hündürlüyü 0,8 *m*-dir. İkinci mərtəbədə mühafizə olunmuş pəncərə yeri isə 1 *m* hündürlükdə,0,4 *m* enindədir.

Abidənin ərazisindən toplanmış arxeoloji materiallar qülləni IX-XII yüzilliklərə aid etməyə imkan vermişdir (F.V.Qədirov, 1984, səh. 102-105; Ф.В.Гадиров, К.М.Мамедзаде, 1969). Düzənlik ərazidə ucaldılmış bu qüllə, görünür, keşikçi qülləsi olmuşdur.

Beləliklə, qüllə, qəsr və qalaların tədqiqi onların dövrün hərb sənətinin, hərbi memarlığın tələblərinə cavab verdiyini, ölkənin etibarlı müdafiəsi üçün qaneedici olduğunu göstərir.

## Kənd tipli yaşayış yerləri

Yazılı qaynaqlar Azərbaycanda orta əsrlərdə çoxlu zəngin kəndlərin olduğunu qeyd edirlər. X əsr ərəb coğrafiyaşünası əl-Müqəddəsi Azərbaycandan bəhs edərkən bildirir ki, "Bu (yerlər) başdan-başa kənd və əkin sahələridir" (N.M.Vəlixanlı, 1974, səh. 130). Əsərini XIII əsrin əvvəllərində yazmış Yaqut əl-Həməvi Muğanın çoxlu kənd və otlaqları olan vilayət olduğunu qeyd edir (N.Əliyeva, 1999, səh. 70. 181). O, Azərbaycandakı bəzi kəndlərin adını da çəkir: Xalxal yaxınlığında Hamis, Qəzvinlə Xalxal arasında Bərəndək, Xalxalda Səncəbəz, Dərbənd yaxınlığında Sincan, Təbrizdən 6-7 *km* aralı Varan, Urmiya yaxınlığında Farfaqabad, Urmiyadan bir mərhələ aralıda Mart, Urmiya və Təbriz arasında Kuzkunan (N.Əliyeva, 1999, səh. 69).

Azərbaycan Respublikasında XX əsrin son rübündə aparılmış geniş miqyaslı çöl arxeoloji tədqiqatları da yazılı qaynaqların məlumatını təsdiqləyərək orta çağda ölkəmizdə kənd məskənlərinin sıx yerləşdiyini göstərir. Bunu arxeoloji baxımdan məqsədyönlü və sistemli tədqiqatlara cəlb olunmuş Quba-Xaçmaz bölgəsinin timsalında aydın müşahidə etmək mümkündür. Burada qeydə alınmış orta əsr yaşayış yerlərinin böyük əksəriyyətini kənd tipli yaşayış məskənlərinin qalıqları təşkil edir. Onlar topoqrafik baxımdan çaykənarı, düzən, yamac və meşəiçi kənd tipləri ilə təmsil olunmuşdur. Çaykənarı kəndlərə mənsub yaşayış yerlərinin əksəriyyəti dağ çaylarının hündür sahilində, meşəiçi kəndlər isə meşə zolaqlarındakı talalarda, alçaq təpələr üzərində yerləşirlər. Yamac kəndlərinin əksəriyyəti yaxşı insolyasiya olunan, külək tutmayan dağın şərq və cənub ətəklərində salınmışlar. Bölgədə dağ çaylarının sıx şəbəkəsinin mövcudluğu, yaşayış məskənlərinin salınması və inkişafında su mənbələrinin mühüm əhəmiyyət kəsb etməsi çaykənarı kəndlərin daha geniş yayılmasını şərtləndirmişdi.

Quba-Xaçmaz bölgəsinin IX-XII əsr kənd tipli yaşayış yerlərinin tədqiqi əsasında Azərbaycanda həmin çağda kəndlərin ölçülərinə görə fərqli olduğunu, bir neçə min *kv.m*-dən bir neçə hektara qədər sahəyə malik kənd məskənlərinin mövcudluğunu müəyyənləşdirmək olur. Quba-Xaçmaz bölgəsində ölçülərinə görə böyük, orta və kiçik sahəli kənd yaşayış yerləri olmaqla üç tip ayrılmışdır.

Böyük kənd tipli yaşayış yerləri sahəsi 3,5 hektardan artıq olan abidələrlə təmsil olunmuşdur. Buraya Seyidli, Çiləgir, Talabı, Yurdyerləri, Köhnəpir və digər yaşayış yerləri daxildir. Arxeoloji qazıntılar Müşkür düzünün şimalında, Xaçmaz rayonunun eyni adlı kəndindən 1 *km* qərbdə yerləşən Seyidli yaşayış yerində aparılmışdır. Hər tərəfdən meşə ilə əhatə olunan bu yaşayış yerinin sahəsi 4

hektardan artıqdır (tablo 28, şək. l). Arxeoloji qazıntılar zamanı burada qalınlığı 1,5 *m-ə* çatan mədəni təbəqədə tikili qalıqları, təndir və ocaqlar, dəmirçiliklə bağlı qalıqlar üzə çıxarılmış, xeyli miqdarda VIII-XV əsrlər üçün səciyyəvi olan saxsı qab qırıqları, əmək alətləri, bəzək nümunələri tapılmışdır (T.M.Dostiyev, 2001, səh. 56-57). Məlum olmuşdur ki, burada VIII əsrdə kənd salınmış, XI-XII əsrlərdə o genişlənərək maksimum həddə çatmış, monqol ağalığı dövründə tənəzzül keçirmiş, XV əsrdə isə sakinlər onu tərk etmişlər.

Orta dərəcəli kənd tipli yaşayış yerləri sahəsi 1 hektardan artıq, lakin 3,5 hektardan az olan abidələrlə təmsil olunmuşdur. Bu tip abidələrə misal olaraq Dərəzarat, Qalaqantəpə və Dəyirmantəpə yaşayış yerlərini göstərmək olar. Onlardan Dərəzarat yaşayış yerində kiçik arxeoloji qazıntılar aparılmışdır. Qazıntı nəticəsində mədəni təbəqə yatımının qalınlığının 2,2 *m* olduğu müəyyən edilmiş, tikinti qalıqları, təndirlər, təsərrüfat quyuları aşkara çıxarılmış, XII-XIV əsrlərə aid saxsı qab qırıqları, metal məmulat, şüşə və sümükdən bəzək əşyaları və s. tapılmışdır (C.Ə.Xəlilov, 1960, səh. 105-114).

Qalaqantəpə yaşayış yeri Müşkür düzündə, Caqacuq çayın sağ sahilində, Xaçmaz rayonunun Qalaqan kəndinin şimal-qərb kənarında yerləşir və 3,5-4,5 *m* hündürlükdə, dördkünc biçimdə geniş sahəli təpədən ibarətdir. Yaşayış yerinin cənub-şərq tərəfində aparılmış yoxlama qazıntı mədəni təbəqə yatımının 3,5 *m* qalınlıqda olduğunu göstərmişdir. Qazıntı nəticəsində əldə olunmuş arxeoloji materiallar VII-XII əsrlərə aid şirli və şirsiz saxsı, fayans qab qırıqları, iy başlığı və bülöv daşı ilə təmsil olunmuşdur (Дж.А.Халилов и др., 1991, стр. 106).

Dəyirmantəpə yaşayış yeri Xaçmaz rayonunun Maşıoba kəndi yaxınlığında iki təpənin üzərində yerləşir. Abidənin ərazisində aparılmış ilkin tədqiqatlar yaşayış yerində IV-XII əsrlərə aid 2,7 *m* qalınlıqda mədəni təbəqə yatımının varlığını göstərmişdir.

IX-XII əsrlərin kənd tipli yaşayış yerləri arasında kəmiyyət etibarilə III tip kiçik sahəli kəndlərin xarabalıqları üstünlük təşkil edir. Sahəsi 1 hektardan artıq olmayan bu abidələrin səciyyəvi cəhətlərindən biri onların əsasən qrup halında salınmasındadır. Belə kəndlərin təşəkkül tapmasında bir nəslin üzvlərinin bir-birinin yaxınlığında məskunlaşmaq istəyi mühüm rol oynamışdır (H.Həvilov, 1991, səh. 115-116). Bu baxımdan Məscidtəpə, Aqbilbaba yaşayış yerlərini misal gətirmək olar. Əslində III tipi kəndə nisbətən xeyli kiçik yaşayış məntəqəsini əks etdirən "şenlik" istilahı ilə adlandırmaq daha düzgün olardı. III tip kənd yaşayış yerlərindən ikisində - Sərkərtəpə və Sandıqtəpə yaşayış yerlərində geniş arxeoloji qazıntılar aparılmışdır. Sərkərtəpə yaşayış yeri Müşkür düzündə, Xaçmaz rayonunun Sərkərli kəndindən şimal-şərqdə, Ağçayın sahilində, şərq-qərb istiqamətində uzanan təpə,

tunc dövrünə aid yaşayış yerinin üzərində salınmışdır. Salamat qalmış sahəsi 0,5 hektardan bir qədər çoxdur (tablo 28, şək.2). Arxeoloji qazıntılar təpənin cənub-qərbində 1000 *kv.m* sahədə aparılmış və müəyyən olunmuşdur ki, 1,4 *m* qalınlıqda üst mədəni təbəqə VIII-XIII əsrlərə, 4,5 *m* qalınlıqda alt mədəni təbəqələr isə orta və ilk tunc dövrlərinə aiddir. Üç inşaat qatına ayrılan orta əsr təbəqəsində daş bina və çubuq hörmə evin qalıqları, onların yaxınlığında təsərrüfat və məişət quyularının, təndir və ocaqların yerləşdiyi sahə aşkar edilib təmizlənmişdir. Tapıntılar şirsiz saxsı qablardan, şirli kasa, xeyrə və boşqab qırıqlarından, dəmir, sümük, daş alətlərdən, metal, şüşə məmulatdan ibarətdir. Şirli saxsı məmulat arasında yüksək bədiiliyi ilə fərqlənən polixrom şirli saxsı qab nümunələrinin çoxluğu diqqəti cəlb etməyə bilməz. Onlar XI-XIII əsrlərin şirli saxsı məmulatının yarısını təşkil edirlər (T.M.Dostiyev, 2002, səh. 41). Tapıntılar arasında Məhəmməd ibn Biştəkinin adından hicri 620-ci ildə Əhər şəhərində zərb olunmuş sikkə də vardır (T.M.Dostiyev, 1997, səh. 192-202).

Sandıqtəpə yaşayış yeri Quba şəhərinin cənub-şərq kənarında, Ağçayın yüksək sahilində yerləşir. Yaşayış məskəni erkən orta əsrlərdə çox böyük olmuş, bir neçə təpə üzərində yerləşmişdi. İnkişaf etmiş orta əsrlərə aid mədəni təbəqə isə yalnız bir təpədə, erkən orta əsrlərdə narınqalanın yerləşdiyi, sıldırımlı yamacları olan təpədə qeydə alınmışdır. Üstünün sahəsi 1600 *kv.m*, hündürlüyü şimal-qərbdə 11 *m*, cənub-şərqdə, çay yatağı tərəfdə 24 *m*-ə çatan bu təpə üç tərəfdən dərin xəndək, bir tərəfdən isə Ağçayın dərin yatağı ilə hüdudlanır (tablo 28, şək. 3). 1300 *kv.m* sahədə, yəni təpənin $^{4}/_{5}$ hissəsində aparılmış arxeoloji qazıntılar mədəni təbəqə yatımının qalınlığının 2-2,4 *m* olduğunu, onun 1,5 *m*-ə çatan üst mədəni təbəqəsinin inkişaf etmiş orta əsrlərə, 0,9-1 *m* qalınlıqda alt mədəni təbəqəsinin isə erkən orta əsrlərə mənsubluğunu təsdiqləmişdir. Üst mədəni təbəqədə iki inşaat qatı müəyyən olunmuşdur. Təpənin şimal-qərbində IX-X əsrlərə aid inşaat qatında yaşayış evinin bünövrəsi, təsərrüfat quyuları, məişət ocaqları aşkar edilib təmizlənmişdir, XI-XIII əsrlərə aid inşaat qatında iki-üç otaqlı yaşayış evləri komplekslərinin qalıqları, çoxlu çaydaşı töküntüləri aşkarlanıb tədqiq edilmişdir. Üst mədəni təbəqədə yanğın izlərinin qeydə alınması XI-XIII əsrlər ərzində yaşayış məskənində iki dəfə güclü yanğın baş verdiyini ehtimal etməyə əsas verir. İnkişaf etmiş orta əsrlərə aid təbəqədən xeyli şirli və şirsiz saxsı qablar, şüşə məmulat, silah nümunələri, sümük alətlər tapılmışdır (T.M.Dostiyev, 2001, səh. 69-71). Arxeoloji qazıntıların nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, XIII əsrin ikinci yarısının hərbi-siyasi hadisələri ilə əlaqədar bu yaşayış yerində həyat kəsilmişdir.

Şamaxı ətrafında bir neçə kənd tipli yaşayış yeri aşkarlanıb qeydə alınmışdır. Onlardan Gümüşlü yaşayış yeri Şamaxıdan 15 *km* cənubda, Bağırlı kəndi ərazisində

yerləşir. Abidənin orta əsr təbəqəsi şirli qablar, Şirvanşahların və Eldəgizlərin sikkələri ilə müəyyən edilmişdir. Maraqlıdır ki, burada vaxtilə Qırlıq dağındakı Gəray bulağından kəndə gətirilən su xəttinin tüngləri də tapılmışdır (A.B.Nuriyev, 1965, səh. 159-166).

Xocalı yalı yaşayış yeri Şamaxı rayonunun Kolanı və Poladlı kəndləri arasında yerləşir və geniş ərazini əhatə edir. Kəşfiyyat axtarışları zamanı abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar şirli və şirsiz qab qırıntılarından və kirkirə daşlarından ibarətdir. Kirkirə daşlarının çoxluğu diqqəti xüsusilə cəlb edir. Abidə IX-XIII əsrlərə aid edilir (А.Б.Нуриев, 1979, стр. 36)

Quşqona yaşayış yeri də həmin rayonda Əngəxaran kəndi yaxınlığında dağın üstündə yerləşir və XI-XIII əsrlərə aid edilir (F.Ə.İbrahimov, 1963). Burada tikinti qalıqları, su tünglərinin sınıqları və çoxlu şirli və şirsiz saxsı qalıqlarına da təsadüf olunmuşdur.

Kəndyeri adlı yaşayış yeri Şamaxıdan 2-3 *km* şimalda alçaq təpənin üstündə yerləşir. Mədəni təbəqənin qalınlığı yaşayış yerinin şərq kənarında 0,75 *m*, mərkəzində isə 1,8 *m-ə* qədərdir. Alt təbəqə VIII-X əsrlərə aid arxeoloji materiallarla səciyyələndirilir. Burada yonulmamış daşdan inşa edilmiş bina qalıqları üzə çıxarılmışdır. Qalınlığı 0,8 *m-ə* çatan üst təbəqədən xeyli şirli və şirsiz saxsı və şüşə qab qırıqları, bəzək əşyaları tapılmışdır (H.Ə.Ciddi, 1969, səh. 49-57).

Xanyurdu yaşayış yeri də Şamaxı şəhərindən şimalda, hündür təpə üzərində yerləşir. Təpənin üzərində yonulmuş daşlardan əhəngli məhlulla hörülmüş tikili qalıqları izlənilir. Buradan XI-XIII əsrlərə aid çoxlu saxsı qab nümunələri əldə edilmişdir.

Tova yaşayış yeri eyni adlı kəndin 1 *km* şimalında, Yumruqalaq və Yastıqalaq dağları arasında yerləşir. Yaşayış yeri üç tərəfdən dərin sıldırım qaya ilə əhatə olunub, ancaq şərq tərəfdən ona daxil olmaq mümkündür. Burada da daşla müdafiə divarı tikilmişdir. Ona görə buranı möhkəmləndirilmiş yaşayış yeri də adlandırmaq olar. Hələlik, burada qazıntı aparılmayıb, lakin toplanmış yerüstü materiallar - şirli və şirsiz saxsı qablar, pullar abidənin IX-XIII əsrlərə aid olduğunu göstərir. Sikkələr Şamaxı, Dərbənd və Bakıda XIII əsrdə zərb edilmişdir.

Çobanabdallı yaşayış yeri Samux rayonunun Çobanabdallı-Nəbiağalı şosesinin solunda, düzənlik sahədə yerləşir. Abidənin ərazisində 50 *kv.m* sahədə aparılmış arxeoloji qazıntılar yaşayış yerinin 1,7 *m* qalınlıqda üst mədəni təbəqəsinin IX-XII əsrlərə aid olduğunu göstərmişdir. Yaşayış yerində 21x21x4 *sm* ölçüdə bişmiş kərpicdən tağbənd formada hörülmüş su təchizatı xətti aşkarlanmışdır. Qazıntı zamanı şirsiz və şirli saxsı qab qırıqları, metal və şüşə məmulatı tapılmışdır (A.Məmmədov, 2000, səh. 29).

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Cənubi Qafqaz qaz boru kəmərinin inşası ilə əlaqədar 2004-2005-ci illərdə Gəncə-Qazax bölgəsində geniş arxeoloji qazıntılarla öyrənilmiş III Hacıalılı, Faxralı, Daşburun və Qıraq Kəsəmən yaşayış yerləri orta əsr kənd tipli yaşayış məskənlərinin səciyyəsi baxımından xüsusi əhəmiyyət kəsb edirlər.

Qıraq Kəsəmən yaşayış yeri Ağstafa rayonunun eyni adlı kəndindən təxminən 2 *km* şərqdə, Kür çayından, Qalabozu yaşayış yerindən təxminən 3 *km* cənubda qərbdən şərqə uzanan, terraslarla vadiyə enən təpənin cənub-şərq yamacında yerləşir. Təpənin hündürlüyü 2-5 *m*, sahəsi bir neçə hektardır (tablo 29, şək.l). Şimal tərəfdə daha hündür, yamacları dik, şərqdə isə əksinə, yamacları mailidir. Yaşayış yerinin ərazisindən XIX-XX əsrlərdə qəbiristanlıq kimi istifadə olunduğundan abidənin mədəni təbəqə yatımı ciddi dağıntıya məruz qalmışdır. Qıraq Kəsəmən yaşayış yerində qazıntı işləri dörd sahədə aparılmış, üç yoxlama qazıntısı qoyulmuşdur. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin dəhlizində 75 *m* uzunluğunda, 4-5 *m* enində I sahədə aparılmış qazıntı nəticəsində mədəni təbəqə yatımının qalınlığı təpənin bütün sahələrində eyni olmayıb kənarlarda 40-60 *sm* olduğu halda mərkəzdə 1 *m* və daha artıq təşkil etdiyi müəyyənləşdirilmişdir. Burada təsərrüfat təyinatlı tikili qalıqları (tablo 29, şək. 2), ocaqlar, təndirlər, təsərrüfat quyuları aşkara çıxarılıb tədqiq edilmişdir. I qazıntı sahəsinə paralel Cənubi Qafqaz qaz boru kəməri xəttində IV qazıntı sahəsində 176 *kv.m* sahədə arxeoloji tədqiqat işləri aparılmış, burada emalatxana qalıqları, təsərrüfat və məişət quyuları, təndir və ocaq qalıqları aşkarlanmışdır. I qazıntı sahəsindən 40 *m* cənub-şərqdə, çökək sahədə aparılmış qazıntılar isə (II qazıntı, II şurf) Kür çayının bir neçə dəfə məcrasından çıxaraq ətraf əraziləri, o cümlədən yaşayış məskənini basdığını təsdiqləyən faktik materiallar vermişdir (Т.М.Достиев, В.А.Квачидзе, 2006; Т.М.Достиев, 2007).



**Daşbulaq yaşayış yeri. Qazıntı sahəsindən görünüş.**

Cənubi Qafqaz boru kəməri xəttində abidənin çökək ərazisində, 384 *kv.m* sahədə (III qazıntı) aparılmış tədqiqat işləri nəticəsində emalatxana qalıqları (tablo 29, şək. 3), möhrə divar qalığı, arx yeri, təsərrüfat və məişət quyuları, təndir və

ocaqlar üzə çıxarılmışdır. Qazıntının müxtəlif sahələrində mədəni təbəqənin qalınlığı fərqli olub 60-110 *sm* arasında dəyişir.

Yaşayış yerində geniş sahəli qazıntılar yoxlama - şurf qazıntılarla uzlaşdırılmış, yaşayış yerinin çökək ərazisində üç şurf qoyulmuşdur. III şurf qazıntısı daha maraqlı nəticə vermiş, burada təsərrüfat təyinatlı sahə üzə çıxarılmışdır. Həmin sahədə təsərrüfat quyusu, çiyinə qədər torpağa basdırılmış üç küp, dən daşı, kirkirə daşı, ocaq qalığı aşkarlanmışdır.

Qazıntıların nəticələri Qıraq Kəsəmən yaşayış yerinin sərbəst plan quruluşuna malik, seyrək tikililəri olan geniş sahəli kənd məskəni tipinə mənsubluğunu söyləməyə əsas verir.

Qıraq Kəsəmən yaşayış yerində qazıntılar nəticəsində əldə olunmuş tapıntılar VIII-X əsrlər üçün səciyyəvi olan şirsiz və şirli qab-qacaqla, dəmir alətlər, metal əşyalar, şüşə məmulatla təmsil olunmuşdur. Şirli qablar arasında piyalə və duzqabı fraqmentlərinin, şüşə məmulat arasında isə bilərziklərin çoxluğu diqqəti cəlb edir.

Daşbulaq yaşayış yeri Şəmkir rayonunun Daşbulaq kəndinin cənub kənarında, qurumuş çay yatağının şərq tərəfində yerləşir. Planda ellips formasına yaxın olub çay yatağı boyunca şimal-cənub istiqamətlərində uzanan 160 *m* uzunluqda, 70-75 *m* enində, 2 *m* hündürlükdə təpə şəklindədir. Təpənin ətəkləri mailidir, şərq tərəfdə isə ətraf əraziyə qarışaraq sərhədləri bilinmir. Asfalt yolun inşası ilə əlaqədar mikrorelyef pozulmuş, təpə ilkin formasını itirmişdir. Dəllər Cəyir və Daşbulaq kəndlərini birləşdirən şose yol çəkilərkən yaşayış yerinin üst təbəqəsi qismən sıyrılıb götürülmüşdür. Yaşayış yerinin cənub-qərbindən şimal-şərqinə istiqamətlənməklə şose yolu abidəni iki hissəyə bölür.

2004-2005-ci illərdə Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz boru kəmərlərinin inşaatı ilə bağlı abidənin cənub tərəfində, 316 *kv.m* sahədə arxeoloji qazıntılar aparılmışdır (M.M.Hüseynov, B.M.Cəlilov, 2007, səh. 61-63). Mədəni təbəqənin qalınlığı 80 *sm-ə* çatır. Orada təsərrüfat və məişət quyuları, təndir qalıqları aşkarlanıb tədqiq edilmişdir. Təsərrüfat quyularının bəzilərinin divarı hamarlanaraq üzərinə suvaq çəkilmişdir. Təndirlərin divarlarına içəri tərəfdən cızma xətlər salınmasına da rast gəlinmişdir. Əldə olunan arxeoloji materialların böyük əksəriyyəti quyulardan tapılmışdır. Tapıntılar arasında şirli və şirsiz saxsı məmulat çoxluq təşkil edir. Onların içərisində öz orijinal forması ilə fərqlənən şirsiz qab nümunələri, basma üsulu ilə bəzədilmiş təsvir motivli boyalı qablar diqqəti cəlb edir. Bütövlükdə, arxeoloji materialların müqayisəli təhlili Daşbulaq yaşayış yerinin IX-XI əsrlərdə fəaliyyətdə olduğunu sənədləşdirir.

Gəncə nahiyəsinin kəndlərindən birinin xarabalıqları Goranboy rayonunun Faxralı kəndindən şimalda aşkarlanıb tədqiq edilmişdir (В.А.Квачидзе, 2004a, стр.142-150). Yaşayış yerinin uzunluğu 300 *m-dən* artıqdır. 2004-2005-ci illərdə Bakı-Tbilisi-Ceyhan

neft və Cənubi Qafqaz qaz boru kəmərlərinin inşaatı ilə əlaqədar aparılmış arxeoloji qazıntılar nəticəsində yaşayış məskəni sakinlərinin təsərrüfat və istehsal məişətini əks etdirən, qalınlığı 60 *sm* təşkil edən mədəni təbəqə öyrənilmişdir. Burada istehsalat tikililərinin, kürələrin, ocaqların, təndirlərin qalıqları, metal pasalar, metalişləmə və dulusçuluqla bağlı istehsalat tullantıları üzə çıxarılmışdır. Tapıntılar arasında şirli və şirsiz saxsı qab qırıqları, metal məmulat, şüşə bilərzik qırıqları, üzəri naxışlı sümük düymə və s. vardır. Şirsiz saxsı qablar arasında kiçik tutumlu ayaqlı vaza tipli qab ( В.А.Квачидзе 2004а, табл. III, рис. 1) diqqəti cəlb edir. Şirli qablar IX-XII yüzilliklər üçün səciyyəvi nümunələrlə təmsil olunmuşdur. Müvafiq olaraq Faxralı yaşayış yeri IX-XII əsrlərə aid edilir.

III Hacıalılı yaşayış yeri Samux rayonunun Hacıalılı kəndindən cənub-qərbdə, kəndə gedən şosenin sol tərəfində, düzən ərazidə yerləşir. Sahəsi 1 hektardan artıqdır. Yuxarıda adı çəkilən boru kəmərləri dəhlizində hər biri 125 *kv.m* olmaqla iki sahədə qazıntı aparılmış, qalınlığı 1,1-1,2 *m* olan mədəni təbəqə yatımı tədqiq edilmişdir. Mədəni təbəqədə dəmirçi emalatxanasının qalıqları, istehsal tullantıları, arx qalıqları, təsərrüfat quyuları, təndirxanalar, ocaq qalıqları üzə çıxarılmış (tablo 30, şək. 1-2), xeyli miqdarda müxtəlif təyinatlı əmək alətləri, şirsiz və şirli saxsı qab nümunələri, bəzək əşyaları tapılmışdır. Mədəni təbəqənin zənginliyi, kül, kömür qatlarına tez-tez təsadüf olunması, xüsusilə də təndirlərin sıxlığı yaşayış məskənində intensiv həyatın olmasından xəbər verir. Stratiqrafik təhlil və tapıntıların xarakteri abidəni IX-XI əsrlərə aid etməyə əsas verir.

Mil düzündə, Beyləqan şəhər xarabalıqlarından 4 *km* şimal-qərbdə Qaratəpədə tədqiq edilmiş yaşayış yeri də kənd tipli yaşayış məskəninin qalıqlarıdır. Burada yaşayış məskəni dəmir dövrünün yaşayış yeri üzərində salınmışdır. Hündürlüyü 4 *m*, diametri 140 *m* olan bu təpədə qalınlığı 4,6 *m* olan, üç mədəni təbəqəyə ayrılan maddi mədəniyyət qalıqları yatımının varlığı arxeoloji qazıntılarla müəyyən olunmuşdur. Qalınlığı 80 *sm-ə* çatan, XI-XIII əsrin əvvəllərinə aid edilən üst mədəni təbəqədə çiy kərpicdən inşa olunmuş tikili qalıqları, ocaqlar, təndirlər, müxtəlif təsərrüfat quyuları aşkarlanıb tədqiq edilmişdir. Burada habelə üzərinə gil suvaq çəkilmiş təxminən 3x4 *m* ölçüdə döşəmə qalıqları da qeydə alınmışdır. Bu qalıqların çubuq hörmə evin qalıqları olduğu ehtimal olunur (О.Ш.Исмизаде, 1965, стр. 222). Qazıntılar zamanı tapılmış maraqlı inşaat materiallarından qapının dabandaşını qeyd etmək olar. Yaşayış yerindən tapılmış arxeoloji materiallar o qədər də çox olmayıb əsasən şirli və şirsiz saxsı qablarla təmsil olunmuşdur (О.Ш.Исмизаде, 1965; Г.Ф.Джафаров, 1981, стр. 418).

Qaratəpədəki kənd tipli yaşayış yerində monqolların hücumu ilə əlaqədar həyat kəsilmiş, sakinlər onu tərk etmiş, sonradan maldar əhali bu təpədən qəbiristanlıq kimi istifadə etmişdir.

Muxurtəpə İmişli rayonunda, Əli Bayramlı-Bəhramtəpə şosesinin 91-ci *km*-də, şosedən 1,5 *m* sağ tərəfdə yerləşir. Planda oval formaya malik, hündürlüyü 10 *m*-ə çatan təpə şəklində ətraf ərazidən seçilən bu yaşayış yerinin sahəsi 3 hektara yaxındır. Abidənin ərazisi şirsiz və şirli saxsı qab qırıqlarından ibarət yerüstü arxeoloji materiallarla zəngindir. İlkin tədqiqatlar əsasında yaşayış yeri IX-XIII əsrlərə aid edilmişdir (З.Н.Бадалова, Г.П.Касаманлы, 1985, стр. 68-74).

Qızıltəpə yaşayış yeri İmişli rayonunda, Məzrəli, Qaradonlu, Aranlı və Çaxırlı kəndlərindən 1,5-2 *km* aralıda yerləşmiş, diametrləri 90-100 *m* olan iki təpə üzərində salınmışdır. Təpələrdən birinin hündürlüyü 10-11 *m,* ikincisinin isə 5 *m-ə* yaxındır. Yaşayış yerinin ərazisi bişmiş kərpic, şirli və şirsiz saxsı qab qırıqlarından ibarət yerüstü materiallarla zəngindir. Kvadrat formalı, 22x22x5 *sm* ölçülü kərpic nümunələrinin çoxluğu yaşayış yerində onun başlıca inşaat materialı olduğunu düşünməyə əsas vermişdir. Toplanmış yerüstü arxeoloji materiallar əsasında yaşayış yeri erkən və inkişaf etmiş orta əsrlərə aid edilmişdir.

Əmirəhməd təpəsi adlı orta əsr yaşayış yeri Mil düzündə Ağcabədi rayonunda, Govurarxın sağ tərəfində, ondan 1,2 *km* məsafədə diametri 130 *m,* hündürlüyü isə 2,5 *m* olan təpənin üstündə yerləşir. Abidənin mövcud olduğu sahədən və ətraflarından xeyli miqdarda şirli və şirsiz saxsı qab qırıqları tapılmışdır. Həmin saxsı nümunələri IX-XIII əsrlərə aiddir (T.Rəsuloğlu, 1994, səh. 52).

Qurd təpəsi adlı yaşayış yeri isə Ağcabədi rayonunda, Govurarxın sol sahilində Qaradalaq kəndində yerləşir. Dairəvi formada olan təpənin diametri 100 *m,* hündürlüyü 1,5 *m*-dir. Təpənin şimal tərəfindən Govurarx keçir, qalan üç tərəfdən ev və həyətyanı sahələrlə əhatə olunub. Yaşayış yerinin şimal-qərb tərəfində 16 *kv.m* sahədə arxeoloji qazıntı aparılmış, IX-XIII əsrlərə aid maddi mədəniyyət qalıqları, əsasən, şirsiz və şirli saxsı qab qırıqları tapılmışdır (T.Rəsuloğlu, 1994 səh. 53). Hər iki yaşayış yeri vaxtilə Govurarxın yanı ilə gedən karvan yolu üstündə yerləşmişdir və Mil düzündəki Qalatəpə ilə Örənqala arasında əlaqə rolunu oynamışlar.

Ağcaaşıq yaşayış yeri Araz çayının sahilində, Zəngilan rayonunun Zərnəli kəndində, Xudafərin körpülərindən 4 *km* aralıda yerləşir. Abidə geniş ərazili olub, cənub ve şərq tərəfdən Araz çayı ilə, şimal tərəfdən təpələrlə, qərb tərəfdən isə dərin xəndəklə hüdudlanır. Abidənin ərazisində kiçik yoxlama qazıntıları nəticəsində V-XIII əsrlər üçün səciyyəvi olan maddi mədəniyyət nümunələri, əsasən şirsiz və şirli saxsı qab qırıqları aşkarlanmışdır. Həmin tapıntılar əsasında yaşayış yeri V-XIII əsrlərə aid edilmişdir (R.B.Göyüşov, A.B.Nuriyev, 1974, səh. 10). Azərbaycan Respublikasının cənub-şərqində bir sıra orta əsr kənd tipli yaşayış yerləri qeydə alınmışdır. Onlardan Türkyeri Masallı rayonunun Mahmudavar kəndinin qərbində yerləşir. Sahəsi 5-6 hektar təşkil edən bu yaşayış yerinin ərazisində əkin işlərinin

aparılması ilə əlaqədar mikrorelyef dağıdılmışdır. Yoxlama qazıntı ilə yaşayış yerində mədəni təbəqə yatımının qalınlığının 2 *m-ə* yaxın olduğu müəyyənləşdirilmiş, 1,5 *m* dərinlikdə bünövrəsi çaydaşından, divarları bişmiş kərpicdən hörülmüş tikili qalıqları, 1,8 *m* dərinlikdə isə su kəmərinin qalıqları üzə çıxarılmış, xeyli arxeoloji material əldə edilmişdir. Türkyeri yaşayış yerində aparılmış çöl tədqiqatları nəticəsində aydın olmuşdur ki, VIII-IX əsrlərdə buradakı daha qədim yaşayış yerinin sahəsində yeni məskən salınmışdır. XVII əsrin sonunadək həmin yaşayış məskənində gur həyat olmuşdur (К.О.Кошкарлы, 1988, стр. 64-65).

Polutəpə yaşayış yeri Cəlilabad rayonunun Üçtəpə kəndinin şərq kənarında, İncəçayın sahilində, planda oval formaya malik təpə üzərində yerləşir. Sahəsi 5 hektardan artıqdır. 20 *kv.m* sahədə aparılmış yoxlama qazıntıları nəticəsində müəyyən olunmuşdur ki, burada qalınlığı 1 *m-ə* çatan IX-XI əsrin əvvəllərinə aid mədəni təbəqə qalınlığı 3,2 *m* təşkil edən eneolit təbəqəsi üzərindədir. Abidənin orta əsr təbəqəsində üç təsərrüfat quyusu qeydə alınmış, şirsiz və şirli saxsı qab qırıqları tapılmışdır. Saxsı məmulatı keyfiyyətli bişirilməsi ilə diqqəti çəkir. Şirli qablar arasında yaşıl şir altında ağ anqob naxışlı nümunələr çoxluq təşkil edir.

Cəlilabad rayonunda qeydə alınmış digər yaşayış yeri Sərhədabad kəndindən 1 *km* qərbdə yerləşən Şiləvəngə yaşayış yeridir. Yaşayış yeri geniş ərazilidir. Üzümlük üçün dərin şumlama zamanı burada tikili qalıqları, xeyli miqdarda şirsiz və şirli saxsı qab qırıqları aşkarlanmışdır. Şirsiz saxsı məmulat güvəc, küpə, sərnic, bardaq və lüləyin, qapaq, çıraq qırıqlarından, şirli saxsı məmulat isə kasa və nimçə fraqmentlərindən ibarətdir. Şirli saxsı qab nümunələri arasında heyvan təsvirləri ilə bəzədilmiş nümunələr də vardır.

İlkin tədqiqatlar əsasında Şiləvəngə yaşayış yeri IX-XIII əsrlərə aid edilmişdir (H.P.Kəsəmənli, İ.A.Babayev, 1980, səh. 146-160).

Könədi yaşayış yeri Lerik rayonunun Çayrud kəndinin qərbində yerləşir. Abidənin ərazisində 4 *kv.m* sahədə yoxlama qazıntı mədəni təbəqənin qalınlığının 1 *m*-ə çatdığını göstərmişdir. Yoxlama qazıntısından, eləcə də abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar yaşayış yerini VIII-X əsrlərə aid etməyə imkan vermişdir (A.İ.Ələkbərov, 2002, səh. 64).

Naxçıvan Muxtar Respublikasında orta əsrlərə aid onlarla kənd tipli yaşayış yerləri qeydə alınmışdır. Onlardan bəziləri haqqında məlumat verək:

Köhnə Vayxır yaşayış yeri Naxçıvan şəhərindən 16 *km* şimalda eyni adlı kəndin yaxınlığında yerləşir. Yerüstü arxeoloji materiallar əsasən X-XIV əsrlər üçün səciyyəvi olan şirli və şirsiz saxsı qab qırıqlarından ibarətdir. Şirli qabların bəzilərinin oturacaqlarında möhür vurulmuşdur (V.H.Əliyev, 1965, səh. 252-255).

Yurdçu yaşayış yeri Naxçıvan MR Şərur rayonunun eyni adlı kəndinin cənub-qərb tərəfində yerləşir. 100 *kv.m* sahədə aparılmış arxeoloji qazıntılar mədəni təbəqə yatımının qalınlığının 1,7 *m* olduğunu göstərmiş, burada dulus və dəmirçi emalatxanasının qalıqları üzə çıxarılmış, xeyli miqdarda əmək alətləri, silahlar, şirli və şirsiz saxsı məmulat, şüşə qab nümunələri tapılmışdır (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993a, səh. 44-50).

Yurdçu yaşayış yerindən həm də təsadüfən dəfinə tapılmışdır. Dəfinədəki pullar Bizans imperatorunun, Səlcuq sultanlarının və Azərbaycan Atabəylərinin zərb etdirdikləri sikkələrdir. İlkin tədqiqatlar Yurdçu yaşayış yerinin IX-XIV əsrlərə aid olduğunu sübuta yetirir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993a, səh. 49).

Babəki yaşayış yeri Naxçıvan MR Şərur rayonunun eyni adlı kəndi yaxınlığında yerləşməklə 3 hektar sahəni əhatə edir. Təsərrüfat işləri zamanı mədəni təbəqə qismən dağıdılmışdır. Onun qalınlığı 2 *m*-dən artıqdır və kül qatları, tikinti qalıqları, saxsı qab qırıqları və osteoloji materiallarla zəngindir. Toplanmış yerüstü arxeoloji materiallar əsasında abidə VIII-XVIII əsrlərə aid edilir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993a, səh. 92-93).

Yeycə yaşayış yeri Naxçıvan MR Culfa rayonunun Saltax kəndindən şimal-şərqdə, Əlincə çayın sahilində yerləşir. Yaşayış yeri qərb-şərq istiqamətində yerləşən təpə formasında olub qərbdə Əlincə çayı, şimal və cənubda dərin dərə ilə hüdudlanır, şərq tərəfdə isə alçaq təpələrlə birləşərək ümumi relyefə qovuşur. Abidənin qərb tərəfində torpaq işləri görülərkən mədəni təbəqə qismən dağıdılmış, şimal-qərb tərəfdə mədəni təbəqə yatımının aydın müşahidə olunduğu kəsik əmələ gəlmişdir. Məlum olmuşdur ki, mədəni təbəqə yatımı ümumi qalınlığı 5 *m-ə* çatan üç inşaat qatından ibarətdir. Mədəni təbəqədə möhrədən və daşdan hörülmüş divarların qalıqları aşkarlanmışdır.

Yeycə yaşayış yerindən aşkarlanmış arxeoloji materiallar əsasən IX-XVIII əsrlər üçün səciyyəvidir. Müvafiq olaraq abidə də həmin dövrə aid edilir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 61-66).

Qıtqın yaşayış yeri Əlincə çayın sol sahilində, Culfa bölgəsinin Xanağa kəndindən şərqdə yerləşir. Sahəsi 17600 *kv.m*-dir. Abidənin bəzi sahələrində qalınlığ 1 *m*-ə çatan mədəni təbəqənin üzəri açılmışdır. Yaşayış yerinin tikililəri əsasən çaydaşı, bişmiş kərpicdən hörülmüşdür. Toplanmış yerüstü arxeoloji materiallar əsasən şirli və şirsiz saxsı qab qırıqlarından ibarətdir. Arxeoloji material Qıtqın yaşayış yerinin IX-XVIII əsrlərdə fəaliyyətdə olduğunu sənədləşdirir (Ə.İ.Novruzlu V.B.Baxşəliyev, 1993, səh. 44-47).

Beləliklə, Azərbaycanın orta əsr arxeoloji abidələrinin tədqiqi feodal cəmiyyətində yaşayış məskənlərinin mürəkkəb sisteminin mövcudluğunu göstərir.

Yaşayış yerləri kiçik, iki-üç ailənin məskunlaşdığı kəndlərdən başlamış on minlərlə əhalinin yaşadığı böyük şəhərlərədək müxtəlif yaşayış məskənlərini təmsil etmişdir.

## III FƏSİL

## TƏSƏRRÜFAT, SƏNƏTKARLIQ VƏ TİCARƏT

### Təsərrüfat

**Əkinçilik.** Azərbaycanda əvvəlki dövrlərdə olduğu kimi, IX-XIII əsrlərdə də təsərrüfatın əsas sahələrindən birini əkinçilik təşkil edirdi. Dövrün əkinçilik mədəniyyəti yazılı mənbələr əsasında ümumiləşdirici əsərlərdə (Azərbaycan tarixi, 1998, səh. 193-198; 399-402) və ayrı-ayrı monoqrafiyalarda (T.Ə.Bünyadov, 1964) imkan daxilində lazımınca işıqlandırılmışdır. Bu problem üzrə etnoqraflar da xeyli iş görmüşlər (Azərbaycan etnoqrafiyası, 1988, səh. 33-117; Г.А.Гулиев, 1968; Г.Дж.Джавадов, 1989). Lakin Azərbaycanın orta əsr dövrü əkinçilik mədəniyyəti indiyə qədər arxeoloji baxımdan yetərincə öyrənilməmişdir. Məlumdur ki, həmin mövzunu hərtərəfli tədqiq etmək üçün arxeoloji materialların müstəsna əhəmiyyəti vardır. Respublikamızın ərazisində aparılan qazıntılar zamanı abidələrin IX-XIII əsr təbəqələrindən əkinçiliyə aid xeyli arxeoloji materiallar əldə edilmişdir.

Əkinçilik təsərrüfatının əsas arxeoloji göstəriciləri, söz yox ki, başlıca olaraq, qazıntılardan tapılan əkinçilik alətləri, müxtəlif avadanlıq, taxıl və digər mədəni bitki qalıqlarıdır. Doğrudur, əkinçilik alətləri və təsərrüfat avadanlığı qazıntılar zamanı tək-tək və çox hallarda sınıq, əzik və paslanmış vəziyyətdə tapılır. Lakin bu tapıntıların ilkin formasını etnoqrafik materiallar əsasında bərpa etmək mümkündür.

Onu da qeyd edək ki, orta əsrlər dövrünə aid geniş qazıntılar əsas etibarilə, şəhər xarabalıqlarında (Qəbələ, Gəncə, Beyləqan, Şamaxı, Şabran, Xaraba-Gilan, Bakı, Bərdə, Dərbənd və s.) aparıldığından kənd təsərrüfatı alətləri və avadanlığı o qədər də çox tapılmır. Buna baxmayaraq bu tapıntılar, nə qədər az olsa, yenə də şəhərin kəndlə əlaqəsini öyrənmək üçün çox qiymətli faktik materiallardır.

Məlumdur ki, orta əsrlərdə şəhərlə kənd nahiyəsi sıx qarşılıqlı əlaqədə idi. Feodal cəmiyyətində əsas istehsal vasitəsi olan torpaq feodalın əlində olduğundan (А.А.Ализаде, 1956, стр. 62) bu və ya digər ərazidə salınan şəhər, çəkilən kanalın, becərilən torpağın, otarılan otlağın sahibi feodal dövləti və yaxud tək-tək feodallar idi. XI əsrin sonu - XII əsrin əvvəllərində Beyləqanda naib və müstövfi vəzifələrində işləmiş Məsud ibn Namdarın iqta torpaqları vardı, bir neçə mülkə və əmlaka sahiblik edirdi (Масуд ИБН Намдар, 1970, стр. 92а, б, 93б).

Hakim sinfin yuxarı təbəqəsi şəhərdə yaşayır, kənd nahiyəsində istehsal olunan izafi məhsul şəhərə axır və burada bölüşdürülürdü (О.Г.Большаков, 1984, стр. 10). "Orta əsrlərdə sənətkarlığın əkinçilikdən və şəhərin kənddən ayrılmasına baxmayaraq, şəhərlər yenə də özünün yarımaqrar quruluşunu itirmirdi" (Q.M.Əhmədov, 1979, səh. 71). Heç təsadüfi deyildir ki, orta əsr müəllifləri Azərbaycan haqqında məlumat verərkən bəzən şəhərlə onun kənd nahiyəsi arasında fərq qoymurlar.

Məsələn, X əsr ərəb coğrafiyaşünas-səyyahı İbn Havqəl yazır ki, "...Arranda Bərdə, əl-Bab və Tiflisdən (başqa) böyük şəhərlər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiyə, Şərvan, Abxaz, Şəbəran, Qəbələ, Şəki, Gəncə, Şəmkir və Xunan isə mühüm olmayan vilayətlərdir, şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, geniş, yararlı təsərrüfat sahələrinə malikdir" (N.M.Vəlixanlı, 1974, səh. 110).

IX-XII əsrlərdə Azərbaycan iqtisadiyyatında əkinçilik mühüm yer tutur, ölkə əhalisinin böyük hissəsi aqrar sahədə çalışırdı.

Əvvəlki dövrlərdən fərqli olaraq əkinçiliyin müxtəlif sistemləri uğurla tətbiq olunurdu. Yazlıq və payızlıq səpini keçirilən ikitarlalı və üçtarlalı əkin sahələri mövcud idi (Azərbaycan tarixi, 1998, səh. 194). Dəmyə əkinçilik ilə yanaşı dağətəyi və qismən də dağlıq rayonlarda arxlar, düzən rayonlarda isə (Mil-Qarabağ və Muğan düzənliklərində) Kür və Araz çaylarından çəkilmiş kanallar (Govurarx) vasitəsilə suvarılan, yəni süni suvarmaya əsaslanan əkinçilik də geniş yayılmışdır. Mil və Muğan düzlərində aparılan arxeoloji qazıntılar və kəşfiyyat axtarışları zamanı Araz çayından başlayaraq Mil düzündə Qarqarçayı, Muğan düzündə isə Bolqarçayı birləşdirən Govurarxların intensiv şəkildə istifadə olunduğu sübuta yetirilmişdir. Xüsusilə Mil düzündə Beyləqan kimi möhtəşəm şəhərin IX əsrdən başlayaraq sürətlə inkişaf etməsi və XI-XII əsrin əvvəllərində öz inkişafının çiçəklənmə dövrünü keçirməsi, şübhəsiz ki, bu ərazilərdə suvarma əkinçiliyinin geniş vüsət aldığı şəraitdə mümkün olmuşdur (Q.M.Əhmədov, 1979, səh. 94). Bunu da nəzərə çatdıraq ki, bu vəziyyət Azərbaycana xas məhəlli xüsusiyyət olmayıb bütün Müsəlman Şərqi üçün səciyyəvi idi. Süni suvarmaya əsaslanan əkinçiliyin yüksək inkişaf etdiyi ərazilərdə şəhərlərin sıx şəbəkəsinin, sürətli inkişafının şahidi oluruq (О.Г.Большаков, 1982, стр. 179-180). Mil düzünün təsərrüfat həyatında Govurarxın rolu olduqca böyük idi. Onun uzunluğu 60 *km,* eni bəzi yerlərdə 4-5 *m*-dən çoxdur. Ərəb tarixçisi əl-Bəlazuri hələ IX əsrdə Beyləqan ətrafında olan arxlardan birinin ərəb canişinlərindən Adi ibn Əmir Kendi adını daşıdığını qeyd edir (Баладзори, 1927, стр. 16). Y.A.Paxomov haqlı olaraq ehtimal edir ki, burada söhbət qədim arxların genişləndirilməsindən və yaxud yeni arxın çəkilməsindən

gedə bilər (E.A.Пахомов, 1959a, стр. 22). Xatırladaq ki, Mil düzündə indi də Hindarx adlı böyük bir yaşayış məskəni mövcuddur.

Gəncə şəhəri ətrafında son zamanlara qədər mövcud olan və vaxtilə Gəncəçaydan çəkilmiş arxlardan orta əsrlərdə də geniş istifadə edildiyi arxeoloji tədqiqatla təsdiqlənmişdir. İ.M.Cəfərzadənin fikrincə, bu arxlarla şəhərətrafı təsərrüfatlar - əkin sahələri, bostanlar və bağlar suvarılırdı (И.М.Джафарзаде, 1949, стр. 27-28). Belə qədim arxlara Qəbələ ətrafında da təsadüf olunmuşdur. Mənbəyini Covurluçaydan götürüb, şəhərin Çaqqallı hissəsini keçərək cənuba doğru uzanan, xalq arasında "Şəfili arxı" adı ilə məşhur olan arx buna misal ola bilər. Arxların çəkilməsi, bənd tikilməsi, dəhnə basılması böyük işçi qüvvəsi tələb edən ağır proses idi. Bu səbəbdən kanalların və ana arxların çəkilməsində əhali elliklə iştirak edirdi (Azərbaycan tarixi, 1998, səh. 194).

Orta əsrlərdə suvarma əkinçiliyində yeraltı sulardan da geniş istifadə olunurdu. Bunun üçün kəhriz suvarma sistemi ən münasib suaxıdıcı qurğular hesab edilirdi. Yaqut Həməvi Azərbaycan ərazisində suyun bol olması ilə əlaqədar olaraq yazırdı ki, "mən heç bir yerdə burada olan qədər çox suyu və bulaqları olan yer tanımıram. Bu ölkə üzrə səyahətə çıxana özü ilə qabda su götürməyə ehtiyac yoxdur, çünki o hara getsə, orada sərin, şirin və saf suya rast gələcəkdir" (Йакут аль-Хамави, 1983, стр. 7-8).

Məlumdur ki, bütün zamanlarda əkinçiliyin inkişafında, əkinçilik alətlərinin daha mükəmməl formalarının meydana gəlməsi mühüm rol oynamışdır. Bu baxımdan Beyləqan qazıntılarından tapılan dəmir gavahın (А.Л.ЯКОБСОН, 1959, стр. 104) maraqlı tapıntı hesab olunmalıdır (tablo 31, şək. 2). Dəmir gavahın 41 *sm* uzunluğa malikdir. Ağaca keçirilən hissə isə 24 *sm*-dir. Kəsər hissə həm enli, həm də bir tərəfə daha çox çıxıntılıdır. Oxşar formalı gavahın (tablo 31, şək. 3) Dərbənd şəhərinin arxeoloji qazıntılarından da məlumdur (А.А.Кудрявцев, 1984a). Etnoqrafik materiallar əsasında bu tip gavahının el arasında indi də "ağır kotan" adlanan kotana aid olduğu fikri söylənilmişdir. Beyləqandan kotan qılıncının (tablo 31, şək. 1) da tapılması (Q.M.Əhmədov, 1979, səh. 157, şək. 31b) bu fikri bir daha təsdiq edir.

Xışdan kotana keçid əkinçilik tarixində çox böyük dönüş yaratmışdır. Torpaqdan asılı olaraq kotan vasitəsilə gün ərzində 0,25 hektaradək sahəni keyfiyyətlə şumlamaq olurdu. Xüsusilə dərin şuma ehtiyacı olan dağətəyi və Aran bölgələrində qara kotanın tətbiqinin əhəmiyyəti böyük idi (Azərbaycan tarixi, 1998, səh. 193). Xışdan fərqli olaraq kotan torpağı nəinki xam yerdən qoparır, həm də qopan hissəni arxası üstə çevirməyə imkan verir. Bu da şumlanmış torpaqda alaq otunun yenidən cücərməsinin qarşısını alır, torpağın səpin üçün tam yararlı

vəziyyətdə olmasına şərait yaradır. Beləliklə, yüksək məhsuldarlığın bünövrəsi qoyulur. Məhz buna görə bu şum aləti orta əsr əkinçiliyində mütərəqqi üsula keçidin maddi dəlili kimi qiymətləndirilməlidir. Əlbəttə, torpağın şumlanmasında dəmir gavahınlı xış hələ də aparıcı yer tuturdu və Azərbaycanda son zamanlara qədər (XIX-XX əsrin əvvəllərinədək) işlədilirdi. Belə xış gavahının nümunəsi Qəbələ qazıntılarından əldə edilmişdir (İ.A.Babayev, Q.M.Əhmədov, 1981, səh. 46).

Əhalinin həyatı təminatında taxılın həlledici əhəmiyyəti kənd təsərrüfatında taxılçılığın ön plana çəkilməsini şərtləndirmişdi. Azərbaycanın torpaq-iqlim şəraiti taxıl bitkilərinin becərilməsinə böyük zəhmət sərf etmədən kifayət qədər yüksək məhsul almağa imkan verirdi. Arxeoloji qazıntılar zamanı xeyli buğda, arpa və darı qalıqları tapılmışdır. Müəyyən olunmuşdur ki, buğdanın həm yumşaq, həm də bərk növləri becərilirdi. Əvvəlki dövrlərə nisbətən orta əsrlərdə darının daha çox becərilməsi də diqqətəlayiqdir. Taxılçılıq ölkənin bütün vilayətlərinə yayılmışdı. Şəki, Şirvan, Muğan, Beyləqan, Naxçıvan, Xoy, Təbriz, Əhər, Urmiya iri taxılçılıq vilayətləri idi (Azərbaycan tarixi, 1998, səh.195; 399).

Dövrün başlıca biçin aləti çin və oraq idi (tablo 31, şək. 6-8). Forma və quruluş etibarilə oxşar olan bu alətlər kəsər tərəfinin dişli (çin) və ya dişsiz (oraq) olması ilə fərqlənirdi (F.Ə.İbrahimov, 1988, səh. 42-43). Onların nümunələri arxeoloji qazıntılar zamanı Beyləqan (Q.M.Əhmədov, 1979, səh. 52, şək. 31v; Н.В.Минкевич-Мустафайева, 1959, стр. 163), Şamaxı (Г.А.Джидди, 1981, стр. 52), Qəbələ (İ.Babayev, Q.Əhmədov, 1981, səh. 46), Dəbil (K.Kafadaryan, 1952, səh. 158), Yumrutəpə (F.İbrahimov, 1988, səh. 43) və digər abidələrdən tapılmışdır. Etnoqraflar Beyləqandan tapılmış oraqlardan birinin (uzunluğu 15 *sm,* eni isə 3-6 *sm-ə* bərabərdir) müasir oraqlara çox oxşar olduğunu xüsusi qeyd edirlər (T.Ə.Bünyadov, 1964, səh. 32). Naxçıvan ərazisində biçin aləti kimi həm də orağa nisbətən bir qədər böyük ölçülü "mərəndi" adlı alətdən də istifadə olunurdu. Onun dişsiz tiyəsi nisbətən iri olduğu üçün biçin prosesini sürətləndirməyə imkan verirdi (Azərbaycan tarixi, 1998, səh. 401). Biçinçi iş prosesində sol əlinə sümükdən, ağacdan və ya göndən barmaqlıq geyərmiş. Arxeoloji qazıntılardan sümük barmaqlıqlar da məlumdur. Orta əsrlərdə taxılın vəl ilə xırmanlarda döyüldüyü də məlum idi. Xızı rayonunda Dərəzarat kənd tipli yaşayış yerində aparılan qazıntılar zamanı orta əsrlərə aid xırman yeri aşkar olunmuşdur (C.Ə.Xəlilov, 1960, səh. 105-116).

Orta əsrlərdə taxılın saxlanmasının arxeoloji dəlili kimi təsərrüfat quyularını və iri küpləri qeyd edə bilərik. Taxılın saxlanılmasında ağacdan hazırlanmış kod, səbət və taxta anbarlar torpaqda çürüyüb məhv olduğundan onların qalıqlarını arxeoloji qazıntılar zamanı izləmək mümkün olmur. Eyni sözü kisə və çuvallarda

saxlanılan taxıl haqqında da demək olar (А.Л.ЯКОБСОН, 1959, стр. 102). Orta əsrlərdə ehtiyat taxıl saxlamaq nəinki kənd əhalisi, hətta şəhər əhalisi üçün də adi hal olmuşdur. Beyləqanda aparılan qazıntılar zamanı yanmış taxıl qalıqları əsasında xüsusi taxıl anbarlarının mövcud olduğu müəyyən edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 49). Əsasən ilk orta əsrlər dövrü üçün səciyyəvi olan kəsik konus formalı təsərrüfat quyuları (diametri 1-1,5 *m*-dən 2-3,5 *m*-dək, dərinliyi 1-3,5 *m)* (А.Л.ЯКОБСОН,1965. стр. 9; Q.M.Əhmədov, 1979, səh. 21) IX-X əsrlərdə də geniş istifadə olunurdu. Hər halda Beyləqan, Qəbələ, Daşbulaq, Qıraq Kəsəmən, III Hacıalılı və digər abidələrdə aparılan qazıntılar bunu deməyə əsas verir. Bu dövrdən etibarən isə bütün inkişaf etmiş orta əsrlər boyu belə quyuları iri silindrik formalı (diametri 170-130 *sm,* dərinliyi 2-3,5 *m*) quyular əvəz edir (Q.M.Əhmədov, 1979, səh. 21). Bununla bərabər, xüsusilə XII-XIII əsrin əvvəllərində anbar otaqlarından və iri təsərrüfat küplərindən geniş şəkildə istifadə edilirdi. Bakıda İçərişəhərdə (II sahə) böyük anbar otağı aşkar olunmuşdur. Orada beş böyük küp tapılmışdır. Küplərdən dördü xüsusi daş cilovun içərisində qoyulmuş və kirəc məhlulu ilə bərkidilmişdi (F.İbrahimov, 1999). Beyləqanda isə hətta sıradan çıxmış təndirlərdə də taxıl (darı) saxlanıldığı müşahidə edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 23). Beyləqanda bir təndir isə buğda ilə dolu qalmışdır (А.Л.ЯКОБСОН, 1959, стр. 126). İstər təsərrüfat quyuları, istərsə də iri təsərrüfat küpləri Azərbaycanın demək olar ki, bütün orta əsr şəhərlərində (Beyləqan, Qəbələ, Bərdə, Naxçıvan, Şamaxı, Bakı, Şabran və s.) aparılan qazıntılar zamanı IX-XIII əsr mədəni təbəqələrində aşkar olunmuşdur. Şəhərlərin taxıl anbarlarında, təsərrüfat quyuları və iri təsərrüfat küplərində arpa, buğda, darı, çəltik saxlanıldığı həmin taxıl növlərinin yanmış qalıqlarından tam aydın olur. Beyləqan qazıntılarında bu taxıl növlərinin qalıqlarına, demək olar ki. bütün qazıntı sahələrində təsadüf edilmişdir. Maraqlı burasıdır ki, Beyləqanda otaqlardan birində dərz qalıqları belə aşkar edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 74). Görünür, bu təsadüfi deyildi. Orta əsrlərdə mövcud olmuş anlama görə "...buğdanı sünbüllü saxlasalar, həmçinin uzun müddət qalıb xarab olmaz" (A.İbrahimov, 1961, səh. 105; T.Ə.Bünyadov, 1964, səh. 47).

Taxılın emalından bəhs edərkən ilk növbədə qazıntılardan və bəzən təsadüfi tapılan əl dəyirmanı və su dəyirmanı daşları haqqında məlumat vermək lazımdır. Əl dəyirmanı (kirkirə daşları) arxeoloji qazıntılar aparılan, demək olar ki, bütün abidələrdə tapılır. Görünür, bu əmək aləti ehtiyat üçün evlərdə daim saxlanılırdı. Su dəyirmanları işləməyəndə (suyun kəsilməsi, donması və s. səbəblərdən) əl dəyirmanları kəndlərdə olduğu kimi şəhərlərdə də əhalinin əlindən tuturdu. Əl dəyirmanı iki (alt və üst) dairəvi qalın daşlardan ibarət olub, alt daşın ortasına dikinə ox bərkidilir, həmin oxa ortası deşikli üst daş keçirilirdi. Üst daşın ortasında olan

deşiyə dən tökülür və üst daş alt daşdakı oxun ətrafına fırlandırılırdı. Bunun üçün üst daşın kənarında xüsusi deşiyə bənd edilən ağac dəstəkdən istifadə edilirdi. Qədim və müasir əl dəyirmanları və ondan istifadə qaydaları arxeoloji (R.M.Vahidov, 1961, səh. 71; A.Məmmədov, 1992, səh. 54-55) və etnoqrafik (T.Ə.Bünyadov, 1964, səh. 53-54) ədəbiyyatda təfsilatı ilə təsvir olunduğundan burada təkrar etməyə ehtiyac duymuruq. Ancaq bir tapıntı haqqında danışmağa dəyər. Həmin daş Beyləqanda VIII əsrə aid abbası pulları ilə birlikdə tapılmış əl dəyirmanının (kirkirənin) üst daşıdır (tablo 82, şək. 11). Maraqlı burasıdır ki, bu daşın altında (dən deşiyinin yanlarında) təvərə keçirmək üçün 1 *sm* uzunluğunda gəz açılmışdır (Q.M.Əhmədov. 1962, səh. 8; Q.M.Əhmədov, 1979, səh. 36). Eyni formalı əl dəyirmanının üst daşı Şabran şəhərinin qazıntılarından da məlumdur (T.M.Dostiyev, 2001, səh. 191-192). Belə daşların oxşarına Rusiyanın Vşije şəhər yerində təsadüf olunmuşdur. Vşije kirkirə daşı XII-XIII əsrlərə aiddir. B.A.Rıbakov həmin kirkirənin istifadə olunması yollarını çox müfəssəl təsvir etmişdir (Б.А.Рыбаков, 1948, стр. 421-422). Bu təsvirdən aydın olur ki, təvərəli dən daşları, müasir su dəyirmanları kimi, dənin iri və narın üyüdülməsi üçün nizama salına bilinirdi. Hər halda Beyləqandan təvərə gəzi olan kirkirə daşının tapılması o dövrdə hətta şəhər əhalisinin su dəyirmanı ilə tanışlığını sübut edən əsaslı dəlildir. Beyləqanda su dəyirmanlarının olması haqqında X əsr ərəb coğrafiyaşünası İbn Hövqəlin verdiyi məlumatı bu arxeoloji dəlil bir daha təsdiqləyir. XI əsrin sonu - XII əsrin əvvəllərində Beyləqanda yaşamış Məsud İbn Namdarı ərəb xəlifəsinə və Gəncə divanına yazdığı şikayət məktublarından məlum olur ki, Məsudun Əliyan və Divakən adlı yerlərdə su dəyirmanları vardı (Масуд ИБН НАМДАР, 1970, стр. 93в/198).

Bərdə şəhərində aparılan qazıntılar zamanı VIII-IX əsrə aid mədəni təbəqədən su ilə hərəkətə gətirilən dəyirman daşlarının nümunələri tapılmışdır (А.Б.Нуриев, 1985а, стр. 283; А.Б.Нуриев 1986, стр. 22). Eyni formalı su dəyirmanı daşları Gəncə qazıntılarından X-XI əsrlərə aid təbəqədən məlumdur (Р.Дж.Ахмедов, 1985). Onlar formaca müasir su dəyirmanı daşlarına tam oxşar şəkildə düzəldilmişdir. Həmin daşların su dəyirmanlarında necə istifadə edildiyi etnoqrafik və arxeoloji ədəbiyyatda geniş şəkildə şərh olunmuşdur (T.Ə.Bünyadov, 1964, səh. 55-57; A.Məmmədov, 1992, səh. 57-58).

Orta əsrlərdə Azərbaycanda çəltik, kətan, pambıq və digər texniki bitkilərin də becərildiyi haqqında nəinki dövrün yazılı mənbələrində məlumat verilir (Əcaib əd-dünya, 1954, səh. 199), həm də arxeoloji materiallarla təsdiqlənir. VIII-IX əsrlərdən başlayaraq Azərbaycanda çəltikçiliyin inkişafında mühüm irəliləyişlər baş verir. Çəltikçilik Şabran, Şəki, Muğan-Talış, Naxçıvan, Təbriz nahiyələrində xüsusilə geniş yayılmışdı. Bəzi vilayətlərdə o qədər çox məhsul istehsal olunurdu ki,

bəzən atları da onunla yemləyirdilər (Azərbaycan tarixi, 1998, səh. 400). Arxeoloji tədqiqatlar çəltikçiliyin inkişafına dair xeyli faktiki materiallar vermişdir. Azərbaycanda aparılan arxeoloji qazıntılar zamanı ən çox çəltik qalıqları Beyləqanda aşkara çıxarılmışdır (А.Л.ЯКОБСОН, 1959, стр. 75; Р.Дж.Ахмедов, 1965, стр. 143). Görünür, bu şəhərdə aparılan qazıntıların miqyası ilə əlaqədardır. Burada hələ X əsr təbəqəsindən çəltik qalıqları məlumdur. XIII əsrin əvvəllərində monqolların şəhəri payız fəslində dağıdıb yandırması bir sıra bitkilərin, o cümlədən çəltiyin anbarlarda yanmış şəkildə qalmasına səbəb olmuşdur. Çəltik qalıqlarına Bəndovanda aparılan qazıntılar zamanı da təsadüf edilmişdir. XIII əsrin əvvəlinə aid bir fars dilli mənbədə Arranın əmtəə məhsulları arasında düyünün də olduğu qeyd edilir (Əcaib əd-dünya, 1954, səh. 199). Bu da o dövrdə çəltikçiliyin əkinçilikdə mühüm yer tutduğuna gözəl sübutdur. Əkinçilik təsərrüfatında texniki bitkilərin becərilməsi də özünəməxsus yer tuturdu. Texniki bitkilərdən pambıq və kətan becərilməsinə daha çox diqqət verilirdi. Düzən ərazilərdə süni suvarmanın tətbiqi pambıqçılığın inkişafı üçün əlverişli zəmin yaradırdı. Yazılı qaynaqlarda Bərdə, Naxçıvan, Beyləqan, Marağa və başqa şəhərlərin nahiyələrində çoxlu pambıq istehsal edildiyi qeyd edilir. Xaqani Şirvani pambıq tarlalarını ulduzlu göylərlə müqayisə etmişdir (Xaqani Şirvani, 1973, səh. 24). Azərbaycanın ixracat malları arasında pambıq parça və libaslar da vardı. Yerli xammal əsasında Gəncədə yüksək keyfiyyətli pambıq parça və libaslar istehsal olunurdu (Əcaib əd-dünya, 1954, səh. 208).

Pambıq, digər üzvi materiallar kimi, torpaqda pis mühafizə olunduğundan ona arxeoloji qazıntılarda nadir hallarda təsadüf olunur. Lakin ondan hətta adi məişətdə geniş istifadə edildiyi şübhə oyatmamalıdır. Götürək elə çıraqları. Çıraqların piltələrinin pambıqdan olduğu etnoqrafik materiallarla təsdiqlənir (T.Ə.Bünyadov, 1964, səh. 57) Azərbaycanın orta əsr yaşayış yerlərində (şəhər, qala, kənd və s.) arxeoloji qazıntılardan pambıq piltəsi olan çıraqlar küllü miqdarda tapılır.

Kətan becərilməsi Dərbənd nahiyəsində geniş yayılmışdı. Yerli xammal əsasında istehsal olan kətan parça və libaslar Dərbəndin əmtəə mallarından biri idi (А.А.Кудрявцев, 1982, стр. 138-139).

Bostan və tərəvəzçilik təsərrüfat sahələri də orta əsrlərdə xeyli inkişaf edir. Azərbaycanda əldə edilən arxeoloji materiallar və yazılı mənbələrdən məlum olur ki, IX-XIII əsrin əvvəllərində nəinki kənd əhalisi, həm də şəhərlilər bostan və tərəvəz becərməklə məşğul olmuşlar. Məsud ibn Namdar Beyləqanda göyərti satanlardan bəhs edir. Hətta onların şəhər üsyanında iştirak etdiklərini göstərir (Масуд ибн Намдар, 1970, стр. 132 б, 110; Q.M.Əhmədov, 1979, səh. 71). "Əcaib əd-dünya" adlı əsərdə Gəncədə

yemiş, paxla, Şəmkirdə salat hazırlamaq üçün göyərtilər və yemiş yetişdirildiyindən danışılır (Əcaib əd-dünya, 1954, səh. 207-208). Qəbələ qazıntılarından xiyar, yemiş tumları, Gəncədən balqabaq, xiyar, yemiş, qarpız (Azərbaycan etnoqrafiyası, 1988, səh. 108), Beyləqandan qarpız, boranı və iki növ yemiş tumları tapılmışdır. Məsud ibn Namdar Beyləqan bazarında sabun, tuluq, fındıq, üzüm, içki, süd, balıq, yağ, şor, pendir, meyvə ilə yanaşı qarpız, xiyar və şirniyyat satıldığını qeyd edir (Q.M.Əhmədov, 1979, səh. 71). Beyləqanda aparılan arxeoloji qazıntılar zamanı əhalinin istifadə etdikləri bostançılıq alətlərinin nümunələri - bel, kətmən və s. əldə edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 71; F.Ə.İbrahimov, 1988, səh. 43-44). Bel, kətmən Dərbənd, Şabran, Sərkərtəpə qazıntılarından da məlumdur (tablo 31, şək. 4, 5; tablo 32, şək. 12). Beyləqanda yaşamış Məsud ibn Namdarın məktublarından aydın olur ki, şəhərin yanında onun bostan sahələri olub (Масуд ибн Намдар, 1970, стр. 92 а,6). X-XIII əsr mənbələrində Azərbaycanda, məsələn, Dərbənddə zəfəran becərildiyi haqda məlumat verilir. Akademik Ə.Əlizadə belə hesab edir ki, mənbələrdə qeyd olunmasa da həmin dövrdə kəndlərdə də zəfəran əkilirdi (А.А.Али-заде, 1956, стр. 39).

Bağçılıq orta əsrlərdə daha sürətlə inkişaf edirdi. Süni suvarma şəbəkələrinin genişlənməsi bu sahənin də artması üçün şərait yaradırdı. XIII əsrin birinci rübündə özünün Azərbaycan səyahətindən danışan Yaqut Həməvi yazır: "Mən heç yerdə burada olan qədər çoxlu bağ görməmişəm" (N.Əliyeva, 1999, səh. 110). "Əcaib əd-dünya" adlı əsərdə isə Gəncədən və Naxçıvan şəhərlərindən bəhs edilərkən bunların gözəl kəndlərlə əhatə olunduğundan, çoxlu yaşıllıq və axar sularından və abad bağlarından danışılır (Əcaib əd-dünya, 1954, səh. 208, 210).

Zəngin cır meyvə növlərinin - alma, heyva, alça, şaftalı, armud, nar, fındıq və s. olması mədəni meyvələrin alınması və çoxaldılması üçün geniş imkanlar yaradırdı. Arxeoloji qazıntılardan meyvə qalıqlarının və çəyirdəklərinin tapılması IX-XIII əsrin əvvəllərində Azərbaycanda bağban işinin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Bu dövrdə xüsusilə üzümçülük daha geniş yayılmışdı. Arxeoloji qazıntı aparılan abidələrin, demək olar ki, hamısında həmin dövrə aid mədəni təbəqələrdə üzüm çəyirdəklərinə küllü miqdarda təsadüf olunmuşdur. Heç də təsadüfi deyil ki, orta əsr yazılı mənbələrində də Azərbaycan üzümünə yüksək qiymət verilir. "Əcaib əd-dünya" adlı mənbədə Beyləqanın gözəl, Gəncənin ləzzətli üzümündən bəhs edilir, "dünyanın heç bir yerində Naxçıvanın üzümü qədər yaxşı və faydalı üzüm olmadığı" göstərilir. Üzümdən müxtəlif şirniyyat və "maviz" adlanan kişmiş hazırlandığı qeyd olunur (Əcaib əd-dünya, 1954, səh. 207-210). Beyləqan qazıntılarından nəinki üzüm çəyirdəkləri, hətta yanıb qaxac olmuş üzüm salxımları tapılmışdır (Q.M.Əhmədov, 1979, səh. 71). Məsud ibn Namdarın Gəncə divanına və xəlifəyə yazdığı məktublardan məlum olur ki, o, Beyləqanda darvazanın ağzında üzüm bağlarına malik idi. Məsudun təkcə

üzüm bağları ona 20 qızıl dinar gəlir verirdi (Масуд ибн Намдар 1970, стр. 99 б/192). Gəncə, Şəmkir və Beyləqan qazıntılarından tapılan qırmızımtıl boya ilə rənglənməsi, gözəl şüyrələnməsi və üstünə silindr formalı ştamplar vasitəsilə naxış vurulması ilə fərqlənən qulplu küpləri tədqiqatçılar ziyafət qabları hesab edirlər, onlardan "şənlik məclislərində şərab, dini mərasimlərdə isə şərbət içmək üçün istifadə olunduğu" göstərilir (Q.M.Əhmədov, 1959, səh. 80). Şərab və şərbətin əsas etibarilə üzümdən hazırlandığı etnoqrafik ədəbiyyatdan yaxşı məlumdur (Azərbaycan etnoqrafiyası, 1988, səh. 177-179). Üzüm qalıqları ilə yanaşı arxeoloji qazıntılardan başqa meyvə nümunələri də tapılmışdır. Məsələn, Qəbələ qazıntılarının orta əsr təbəqələrindən qoz, fındıq, nar, ərik, alma, armud, xurma və s. meyvə qalıqları əldə edilmişdir (F.L.Osmanov, 1962, səh. 98). Arxeoloji qazıntılar zamanı bağçılıqla bağlı əmək alətlərinə də rast gəlinir. Bağban bıçaqları və dəhrələr (tablo 31, şək. 9) belə alətlərdəndir. Maraqlı materiallardan biri Qəbələdən əldə edilən şabalıd qovurmaq üçün deşikli qalındivar gil tava (sac) qalığıdır. Mənbələrdə Bərdə şabalıdı tərif olunur. Belə ki, X əsr müəllifi İbn Hövqəl Bərdə şabalıdının Suriya şabalıdından üstün olduğunu qeyd edir: "Burada yetişən şabalıd böyüklükdə dad, ləzzət və bəhər verməkdə Suriya (Şam) şabalıdından yaxşıdır" (N.M.Vəlixanlı, 1974. səh. 108). Gəncə qazıntılarından qoz qabığı, gavalı, badam, püstə, gilas, şaftalı (И.М.Джафарзаде, 1949), Beyləqanda isə ərik, gilənar, alça, gavalı çəyirdəkləri tapılmışdır (А.Л.ЯКОБСОН, 1965. стр. 11, 13; Q.M.Əhmədov, 1979, səh. 71). "Əcaib əd-dünya" adlı mənbədə Beyləqanda gözəl nar və portağal, Şəmkirdə və Gəncədə əncir, nar və tut yetişdirildiyindən bəhs edilir (Əcaib əd-dünya, 1954, səh. 201, 207-208). Bərdədən çoxlu miqdarda şirin nar ixrac olunmasından danışılır (Əcaib əd-dünya, 1954, səh. 201). Nizami Gəncəvinin əsərlərində bir sıra meyvə növlərinin - nar, badam, püstə, xurma, əncir, portağal və s. tərifi verilir, meyvələrin çoxluğundan, bağların barından, bolluğundan söhbət açılır.

Meyvənin çox bol olması ilə əlaqədar idi ki, bu dövrdə, hətta şəhərdə meyvə emalı ilə məşğul olan xüsusi emalatxanalar tikilirdi. Bu baxımdan Beyləqanda sənətkarlar məhəlləsində XII-XIII əsrin əvvəllərinə aid mədəni təbəqədə aşkar olunan təsərrüfat tikinti kompleksi xüsusi maraq doğurur. Həmin tikinti qalıqları haqqında arxeoloji ədəbiyyatda geniş bəhs edilmişdir (Минкевич-Мустафайева, 1965, стр. 149-160; 1968, стр. 214-220). Söhbət, şübhəsiz, böyük və kiçik ölçüdə hovuzları (çalaları) olan və su kəmərləri vasitəsilə bir-birilə əlaqələndirilən tikinti haqqında gedir (Q.M.Əhmədov, 1979, səh. 50). Bu tikinti üçün xarakterik cəhət onun bişmiş kərpic (20x20x4; 21x21x4 *sm*) və kirəc məhlulu ilə hörülməsi, bütün hovuz və çalaların içərisinin kirəc məhlulu ilə suvanmasıdır. Bəzi hovuzların içərisində suvaq bir neçə qatdan ibarətdir.

Tikintinin mərkəzində kvadrat formalı hovuz (XIV) yerləşir. Həmin hovuza şimal-qərbdən səkkizguşəli hovuz (XXII) birləşir. Sonuncunun divarlarında yeddi yerdə kvadrat formalı kiçik çalalar (XXIV, XXVI, XXIX, XXX) düzəldilmişdir. Çalalaın qalmış dərinliyi 1 *m*-dən çox deyildir. Mərkəzi hovuzu (XIV) cənub-şərqdən kvadrat formalı hovuz əhatə edir ki, onun da mərkəzi hovuzla birləşən divarlarını çıxmaq şərtilə qalan divarlarında kvadrat (V, VI və XI) və yarımdairəvi (VII, VIII və IX) formalı çalalar tikilmişdir. Mərkəzi hovuzun şimal-şərq tərəfində üç hovuz (XXI-XXIII) vardır. Bunlardan XXII və XXIII hovuzların hərəsində daha bir düzbucaqlı şəkildə kiçik hovuz əlavə edilmişdir. Tikintinin cənub-qərb tərəfində isə düzbucaqlı formada olan iki hovuz (II və XVII), bir çala (III) və iki quyu (I və IV) vardır. Tikintidəki hovuz və çalaların əksəriyyəti bir-biri ilə tünglər vasitəsilə əlaqələndirilmişdir. Səkkizguşəli hovuzdan mərkəzi hovuza keçid yolu qoyulmuşdur. Tikintinin şimal-qərbi cənub-şərqinə nisbətən yüksəkdir. Bu da suyun cənub-şərqə doğru axmasına imkan verir. Tikintiyə suyun şimal-qərbdən gəlməsi burada aşkara çıxarılmış kərpic hörgülü kanal və saxsı tünglərlə çəkilmiş kəmərdən aydın olur. Su kəmərləri bəzi yerlərdə divarın içərisi ilə (XXIV-XXVI çalaların divarı), bəzi yerlərdə isə lap döşəmənin altı ilə (XII hovuzun döşəməsi) aparılmışdır. Ümumiyyətlə, burada sudan çoxlu istifadə olunduğu şübhə oyatmır. Lakin suyun nədən ötrü istifadə edildiyi hələ də tam aydınlaşdırılmamışdır (Q.M.Əhmədov, 1979, səh. 50).

N.V.Minkeviç-Mustafayeva belə ehtimal edir ki, həmin tikinti meyvələrin (üzüm, əncir, nar və s.) şirəsindən şirniyyat istehsal etmək və yaxud şərab hazırlamaq üçün istifadə olunmuşdur (Минкевич-Мустафайева, 1965, стр. 158; 1968, стр. 214-220).

**Heyvandarlıq.** Orta əsrlərdə əhalinin təsərrüfat məşğuliyyətində digər mühüm sahə maldarlıq idi. Heyvandarlıq təsərrüfatı ilə bağlı avadanlıq orta əsr abidələrində aparılan arxeoloji qazıntılardan az tapılan materiallardandır. Xüsusilə maldar təsərrüfatında işlədilən əmək alətlərinə nadir hallarda təsadüf olunur. Bu onunla izah edilməlidir ki, maldarlıqla əsasən kənd əhalisi məşğul olurdu. Azərbaycanda isə kənd tipli yaşayış yerləri, yuxarıda qeyd edildiyi kimi, arxeoloji cəhətdən zəif öyrənilmişdir.

Məlumdur ki, oturaq maldarlığın inkişafında ot-ələf ehtiyatının toplanmasında istifadə olunan əmək alətləri (dəryaz, yaba və s.), nəqliyyat və qoşqu vasitələri, süd emalı ilə bağlı qab-qacaq və maldarlıqla bağlı digər avadanlıqlar başlıca olaraq kənd məskənləri üçün səciyyəvi idi və indi də belədir. Lakin bu avadanlığın müəyyən hissəsi şəhər sənətkarları tərəfindən istehsal edildiyindən onların qalıqlarına şəhər qazıntılarında da təsadüf olunur. Məsələn, orta əsr

Azərbaycan şəhərlərində aparılan arxeoloji qazıntılardan tək-tək də olsa ot biçini və yığımında istifadə olunan alətlər və xeyli miqdarda ağartı avadanlığı məlumdur.

IX-XIII əsrin əvvəllərində Azərbaycanda ayrı-ayrı heyvandarlıq sahələrinin - qaramal saxlamağın, qoyunçuluq, atçılıq və dəvəçiliyin inkişaf etdiyi məlumdur (Azərbaycan tarixi, 1998, səh. 197, 402). Bu dövrdə, "Arranda böyük qoyun sürüləri, qaramal naxırları, at ilxıları otarılırdı" (Əcaib əd-dünya, 1954).

Gözəl iqlimi, zəngin otlaqların, yaylaq və qışlaqların bolluğu ilə fərqlənən Azərbaycanda feodal münasibətləri inkişaf etdikcə, məhsuldar qüvvələr artdıqca maldarlıq təsərrüfatı durmadan artır, daha geniş miqyas alırdı (Əcaib əd-dünya, 1954, səh. 207). Xüsusilə qoyunçuluq getdikcə üstün mövqe tutur, yarımköçəri təsərrüfat forması kimi heyvandarlıqda aparıcı sahəyə çevrilirdi. Mil, Muğan və Şirvan düzənliklərini Böyük və Kiçik Qafqazın ətəklərilə birləşdirən köç yolları ilə hərəkət edən maldarlar orta əsr şəhərləri yanından keçdiyindən, şəhər həyatının canlanmasına müəyyən dərəcədə təsir göstərirdi. İbn Havqəl Azərbaycanın Gülsara bazarında bir gündə bir milyon baş xırdabuynuzlu heyvan satılması haqqında xəbər verir. (M.X.Şərifli, 1978, səh. 332). XIII əsrin əvvəllərinə aid bir farsdilli mənbədə Şirvanın əmtəə malları sırasında qoyunun da adı çəkilir (Əcaib əd-dünya, 1954, səh. 207). Bütün bunlar, şübhəsiz, Azərbaycanda IX-XIII əsrin əvvəllərində qoyunçuluq təsərrüfatının yüksək səviyyədə olduğunu göstərən məlumatlardır.

Arxeoloji qazıntılardan tapılan saysız-hesabsız iribuynuzlu mal-qara, dəvə, at və davar sümükləri də bunu təsdiqləməyə əsas verir. Bu materiallar içərisində qoyun sümükləri daha çoxdur. Çox təəssüflə qeyd etməliyik ki, Azərbaycanda orta əsr abidələrində aparılan arxeoloji qazıntılar zamanı tapılan osteoloji materialların tədqiqinə yetərincə əhəmiyyət verilməyib. Buna görə də həmin materialların hansı cins heyvanlara məxsus olduğunu tam dəqiqliyi ilə demək mümkün deyil. Lakin çənə, kəllə, ayaq sümükləri əsasında gözəyarı da olsa demək olar ki, hətta şəhərlərdə, heyvandarlıq məhsullarından geniş istifadə edilmişdir. Həmin materiallar şəhər əhalisinin müəyyən dərəcədə heyvandarlıqla məşğul olduqlarını və yaxud hər halda, maldar kənd əhalisi ilə bilavasitə əlaqələrini göstərir. Qeyd etmək lazımdır ki, qazıntılar zamanı bəzən bütöv skeletə də təsadüf edilib (Q.M.Əhmədov, 1959a, səh. 14). Həmin skeletlər əsasında mal-qaranın müxtəlif cinslərdən olan heyvanlara məxsusluğu müəyyən olunmuşdur. Mingəçevir qazıntılarından tapılan materiallardan məlum olur ki, orta əsrlərdə yerli əhalinin bəslədikləri heyvan cinsləri müasir heyvan cinslərindən o qədər də seçilmirdi (А.Н.Бурчак-Абрамович, 1949, стр. 480-481). Beyləqandan tapılan mal-qara və davar buynuzları onların cinslərinin müxtəlifliyini (inək, camış, qoyun, keçi və s.) nümayiş etdirir. Eyni sözü qab-qacaq üzərində verilmiş təsvirlər, fiqur qablar əsasında da demək olar. Məsələn, istər

Gəncə, istər Şəmkir, istərsə də Beyləqanın boyalı küpləri üzərində müxtəlif mal-qara və qoyun-keçi cinsləri təsvir olunmuşdur (В.И.Левиатов, 1945а, стр. 50;Q.M.Əhmədov, 1959, səh. 79; R.Y.Bəşirov, N.N.Hüseynli, 2007, səh. 32). "Şirvan lüləyini" adı ilə elmi ədəbiyyatda məşhur olan, Azərbaycandan tapıldığı heç bir şübhə oyatmayan, hazırda Rusiyanın Sankt-Peterburq Dövlət Ermitajında saxlanılan, 1206-cı ildə istehsal edilmiş üç fiquru birləşdirən tunc qaba diqqət yetirsək görərik ki, (tablo 41, şək.l), əsas fiqur zebu cinsli inəkdən ibarətdir (И.М.Дъяконов, 1938, стр. 247-254).

Orta əsr abidələrinin IX-XIII əsrlər təbəqələrində ağartı əldə etmək, saxlanılmaq və emalında istifadə üçün saysız-hesabsız qab nümunələrinə təsadüf olunur. Bunlardan mal sağmaq üçün işlədilən sərnic, süd bişirilən və yaxud ayran çürüdülən qazan, qatıq çalmaq, pendir, şor saxlamaq üçün istifadə olunan alçaq boylu, enlı boğazlı qabları göstərmək olar. Küpə, dopu, goduş və s., qaymaq almaq üçün lazım olan gil təknələr, yağ emalı üçün işlədilən nehrələr, süd içmək, yemək üçün işlədilən dolça, kasa və s. qablar orta əsr abidələrinin hətta şəhər qazıntılarında tez-tez rast gəlinən adi tapıntılardır. Həmin qabların istifadə qaydaları etnoqrafik ədəbiyyatda geniş təsvir olunmuşdur və bunların demək olar ki, hamısı ənənəvi qablar kimi indi də tətbiq olunmaqdadır (Azərbaycan etnoqrafiyası, 1988, səh. 242-249).

Atçılıq təsərrüfatı sahəsi də orta əsr arxeoloji abidələrində osteoloji materiallarda, tək-tək də olsa at ləvazimatı qalıqlarında və qab üzərindəki təsvirlərdə təmsil olunmuşdur. Məlumdur ki, at əvvəlki dövrlərdə olduğu kimi, orta əsrlərdə də ölkənin məhsuldar qüvvələrinin inkişafına böyük təkan vermiş, əkinçiliyin, maldarlığın artmasına güclü təsir göstərmiş, mədəniyyətin yayılmasında, xüsusilə hərb işində misilsiz rol oynamışdır. "Kitabi-Dədə Qorqud"da, IX-X əsrlərə aid ərəb müəlliflərinin qeydlərində, XI-XII əsrdə yaşayıb-yaratmış şairlərin (Mənsur Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi və s.) əsərlərində atçılığa dair zəngin material var. Atla bağlı geniş və əhatəli etnoqrafik materialın olması çoxlu nağıl, əfsanə. atalar sözü, zərbi-məsəllər və s. yaranması da təsadüfi deyil (Azərbaycan etnoqrafiyası, 1988, səh. 249-267). Bütün bunlar atçılığın qədim vətəni olan Azərbaycanda orta əsrlərdə də bu sahənin inkişafından xəbər verir. "Əcaib əd-dünya" adlı əsərdə "Arran ölkəsində böyük at ilxıları olması" barədə məlumat verilir (Əcaib əd-dünya. 1954, səh. 199). Arxeoloji qazıntılardan məlum olur ki, at təkcə minik və nəqliyyat vasitəsi kimi deyil, həmçinin ovçuluqda və idman sahəsində də geniş istifadə olunmuşdur. Beyləqanda tapılan IX-XII əsrlərə aid şirli qabların üzərində vəhşi heyvan ovu və çövkən oyunu səhnələri təsvir edilmişdir. Vəhşi heyvan ovu səhnəsi təsvir olunmuş qablardan biri IX-X əsrlərə (А.Л.ЯКОБСОН, 1959а, стр. 232, табл. V), digəri isə XII

əsrə aiddir (A.JI.ЯКОБСОН, 1959a, табл. VI), çövkən oyunu təsvir olunmuş qab isə XII əsrə aiddir (A.JI.ЯКОБСОН 1959a, табл. X). Yeri gəlmişkən qeyd edək ki, at belində ova çıxmaq, idman etmək, xüsusilə çövkən oyunu ilə bağlı səhnələr Nizami Gənəvinin məşhur "Xosrov və Şirin" və "İskəndərnamə" poemalarında da geniş təsvir olunmuşdur. XII əsrə aid atlı təsvirinin ən parlaq nümunəsinə isə Gəncə şəhəri ərazisindən tapılmış bir şar-konusvari qab üzərindəki rəsmi aid etmək olar. Burada başqa heyvan, quş və s. ilə yanaşı qabın dairəsində xüsusi kəmər təşkil edən atlı təsvirləri çox canlı verilmişdir. Yuxarıda qeyd olunan qablardakı təsvirlər əsasında həmçinin o dövrün at ləvazimatı (yüyən, qantarğa, üzəngi və s.) haqqında müəyyən fikir yürütmək mümkündür. Beyləqan qazıntılarından bizə yüyən və tapqır halqaları məlumdur (Q.M.Əhmədov, 1979, səh. 37). Gəncə qazıntılarından isə at ləvazimatı dəsti, at nalı üçün istifadə olunan dəmir mıxlar məlumdur (И.М.Джафарзаде, 1949, стр. 84). At nalı və çoxlu dəmir mıx nümunələri Beyləqan qazıntılarından da əldə edilmişdir (A.JI.ЯКОБСОН, 1959, стр. 142).

Qatır və uzunqulaq sümüklərinə qazıntılar zamanı az təsadüf olunsa da bu heyvanlardan da orta əsrlərdə minik və yük daşınmasında geniş istifadə edildiyi şübhə oyatmır. Az qulluq tələb edən və yük daşımaq üçün çox davamlı olan bu heyvanlardan xüsusilə dağlıq və dağətəyi ərazilərdə geniş istifadə olunurdu. Şübhəsiz ki, onlar düzən ərazilərdə də bu heyvanlardan istifadə edirdilər. Beyləqanda və Gəncədə aparılan arxeoloji qazıntılar zamanı dəmirdən düzəldilmiş uzunqulaq nalları tapılmışdır (Минкевич-Мустафайева, 1965, стр. 163; И.М.Джафарзаде, 1949, стр. 84). Bir saxsı qabın üzərində isə boynunda xaltası olan uzunqulaq təsviri verilmişdir. Bu qab Beyləqandan tapılmışdır (Q.M.Əhmədov, 1979, səh. 135, şək. 41 ə.). Məsud ibn Namdar Beyləqanda "uzunqulaq və qatır bazarı" olduğundan xəbər verir (Масуд ИБН НАМДАР, 1970, стр. 200).

Dəvəçilik orta əsrlərdə daha geniş inkişaf etmiş sahələrdən biri olmuşdur. Azərbaycanda bu dövrdə minlərlə dəvə olması barədə "Kitabi-Dədə Qorqud"da məlumat verilir (Kitabi-Dədə Qorqud, 1962, səh. 50). Nizami Gəncəvi isə müxtəlif növ yük daşımaq üçün bəzən beş-altı min dəvədən istifadə edildiyini göstərir (Nizami Gəncəvi, 1941, səh. 122). Düzən ərazilərdə yük daşımaq və xüsusilə minik üçün dəvənin əvəzi yox idi. Orta əsrlərdə Şərq ölkələrində, o cümlədən Azərbaycanda ticarət dəvə karvanları vasitəsilə aparılırdı. Azərbaycandan Şərq ilə Qərbin böyük ticarət mərkəzlərini birləşdirən beynəlxalq ticarət yolları keçirdi. Susuzluğa çox dözümlü, az yem tələb edən və asan yemlənən əvəzsiz ənənəvi nəqliyyat vasitəsi olmaqla bərabər, dəvənin əti, südü, yunu və dərisindən geniş şəkildə istifadə olunurdu (Azərbaycan etnoqrafiyası, 1988, səh. 269-270). Beyləqanda aparılan qazıntılar zamanı IX-X əsrə aid quyulardan birində bütöv dəvə

skeletinə təsadüf edilmişdir. Bu isə o dövrdə hətta şəhərlərdə dəvə saxlanıldığını sübut edir (Q.M.Əhmədov, 1979,səh. 23).

Beyləqan, Dəbil, Bakı, Şabran, Mingəçevir və digər orta əsr abidələrində aparılmış arxeoloji qazıntılar zamanı toyuq, ördək sümüklərinin, yumurta qabığı qalıqlarının xeyli miqdarda tapılması ev quşçuluğu təsərrüfatının kifayət qədər inkişaf etdiyini və əhalinin məşğuliyyətində özünəməxsus rol oynadığını göstərir. Dəbil qazıntılarından toplanmış toyuq sümüklərinin tədqiqi X-XII əsrlərdə burada ev toyuqlarının üç cinsinin bəslənildiyini göstərmişdir (С.К.Даль,1952). İçərişəhərdə Şirvanşahlar sarayı həyətində aparılan arxeoloji qazıntılardan tapılan 21 ədəd quş sümüyünün 10 fərdə mənsub olduğu bildirilir (И.К.Верещагин, 1959; А.И.Бурчак-Абрамович, 1987). Orta əsr abidələrindən tapılan quş sümüklərinin tədqiqata tam cəlb olunmaması quşçuluq təsərrüfatındakı ev quşlarının növ və cinsləri haqqında geniş danışmağa imkan vermir. Bununla belə arxeoloji qazıntılardan tapılan osteoloji qalıqlar IX-XIII əsrlərdə şəhər və kənd əhalisinin qidalanmasında toyuq, ördək, qaz və hind toyuğu ətindən və yumurtasından geniş istifadə olunduğunu söyləməyə əsas verir.

**Balıqçılıq.** Azərbaycanın təbii-coğrafi şəraiti, zəngin faunası ölkənin ayrı-ayrı ərazilərində balıqçılıq və ovçuluğun yardımçı təsərrüfat sahəsi kimi mövcudluğunu şərtləşdirmişdir. Yazılı qaynaqlar Kür və Araz çaylarında ovlanan "sərmahi" adı ilə məşhur olan dadlı və ləzzətli balığın hətta İraq və Reyə ixrac olunduğunu, bu çaylarda həmçinin "əz-zəraqi" və "işubə" bahqları da tutulduğunu qeyd edirlər (N.M.Vəlixanlı, 1974, səh. 88, 108). Şübhəsiz ki, Azərbaycanın Xəzər dənizi sahilində yerləşməsi, Araz və Kür kimi bol sulu çayları, digər xırda dağ çayları, buradakı göllər və digər su mənbələrinin varlığı ölkə ərazisində müxtəlif və zəngin balıq növlərinin ovlanması imkanlarını artırırdı. Bu ənənəvi təsərrüfat sahəsinin genişləndirilməsi təcrübəsi getdikcə çoxalır və balıq ovunda yeni istehsal üsulları tətbiq edilirdi. Qarmaqla, torla və digər üsullarla balıq ovlamaq, onun saxlanması və ticarəti yolları orta əsrlərdə daha da təkmilləşir. Torlar üçün xüsusi açırımlı və növlü 7-12x5-8x3-5 *sm* ölçülü saxsı ağırlıq daşlarının (lotların) qazıntılar zamanı tapılması balıqçılığın kifayət qədər yüksək səviyyəsindən xəbər verir (А.А.Кудрявцев. С.В.Гусев, 1988, стр. 95). Yazılı qaynaqlar balıqçı (sammak) peşəsinin sahilyanı şəhərlərdə yayılmış peşələr arasında özünəməxsus yer tutduğunu xüsusi vurğulayır (М.С.Саидов, 1963, стр. 5-7). Əhalinin mətbəxində balıq məhsullarından istifadə müəyyən yer tuturdu. Arxeoloji qazıntılardan tapılan zəngin balıq sümüyü qalıqları bunu sübut edir. Məsələn, Beyləqanda aparılan qazıntılar zamanı IX-X əsrlərə aid mədəni təbəqədə balıq sümüyünə təsadüf olunmuşdur (Q.M.Əhmədov, 1979, səh. 23). Çox təəssüf ki, bu sümüklər də lazımi dərəcədə

toplanıb elmi tədqiqat obyekti olmamışdır. Lakin iri və xırda sümüklü, pulcuqlu balıq növlərinin mövcud olduğu bir fakt kimi qeyd olunmalıdır. Pulcuqlu balıq sümükləri Şabran, Bakı, Sərkərtəpə və Seyidli abidələrinin arxeoloji qazıntılarından yaxşı məlumdur. Məsələn, orta əsr Sərkərtəpə yaşayış yerində 6 saylı zibil quyusunun 30 *sm* qalınlıqda balıq pulcuğu ilə doldurulması maraqlı faktdır (T.M.Dostiyev, 1999a, səh. 181).

Arxeoloji qazıntılardan tapılmış bəzi qabların üzərində balıq təsvirinə təsadüf olunması da diqqəti cəlb etməyə bilməz. Belə təsvirlərə Qəbələdə metal təbəqə üzərində (О.Ш.Исмизаде , 1964б, стр. 126), Beyləqanda boyalı qablar və şirli saxsı məmulat üzərində (А.Л.ЯКОБСОН, 1959, стр. 17; 1959a, стр. 249, 275), Bakı və Şabranda şirli qab qırığı üzərində rast gəlinmişdir. Yazılı qaynaqların məlumatının arxeoloji materiallarla müqayisəli təhlili əsasında balıq ovu ilə nəinki kənd əhalisinin, həm də şəhər sakinlərinin məşğul olduğunu təsdiqləmək olar. Görünür artıq IX-XII yüzilliklərdə Azərbaycan şəhərlərində, xüsusilə dəniz sahillərində və Kür-Araz ovalığında yerləşən şəhərlərdə balıq emalı və satışı ilə məşğul olan peşəkar adamlar da olmuşdur. "Əcaib-əd dünya" adlı əsərdə balıq hətta Şirvanın ixracat malları siyahısına daxil edilmişdir. Həmin mənbədə Beyləqanın da balıq ticarəti ilə məşğul olduğu qeyd edilir (Əcaib əd-dünya, 1954, səh. 207-208).

**Ovçuluq** IX-XII əsrlərdə bir yardımçı təsərrüfat sahəsi kimi öz əhəmiyyətini saxlamaqda idi. Çöl heyvanlarının (maral, ceyran, cüyür, dovşan və s.) ovlanması və





**Üzərində ov səhnəsi təsvir edilmiş fayans qabın qırıqları.**

quş ovu ilə əhali daim məşğul olmuşdur. Çöl heyvanlarının və quşlarının ovlanması dadlı və ləzzətli qida əldə etməklə yanaşı, həm də yuxarı sosial zümrəyə mənsub

ailələr üçün bir növ əyləncə sahəsi idi. Dövrün bədii ədəbiyyatında, xüsusilə saray məişəti ilə bağlı ov səhnələri geniş təsvir olunmuşdur. Artıq bu dövrdə ovçuluq feodal sinfi üçün şan-şöhrətlə yanaşı, igidlik, şücaət sayılırdı. Hətta şah saraylarında qulluq edən şəxslərin qabiliyyət və bacarığı bir çox hallarda onların ovçuluq məharəti ilə ölçülürdü (Azərbaycan etnoqrafiyası, 1988, səh. 235). Arxeoloji qazıntılardan tapılan materiallar da bu fikri təsdiq etməkdədir. Faktik materiallardan məlum olur ki, ov ilə at belində və piyada məşğul olurdular. Belə ov səhnələri Beyləqan şəhərinin arxeoloji qazıntılarından tapılmış şirli qablar üzərində təsvir olunmuşdur. Bir qabın üzərində ox-yayla silahlanmış atlı şir ovlamaqla məşğuldur. Onu həmçinin ov iti - tazı müşayiət edir (А.Л.ЯКОБСОН, 1959a, табл. V). Başqa bir qabda ovçu hücum edən pələngin zəncirindən yapışmışdır. A.L.Yakobson bu təsvirin sirk tamaşası səhnəsini əks etdirməsi ehtimalının da mümkünlüyünü bildirir (А.Л.ЯКОБСОН, 1959a, стр. 270, табл. XXXI, 4). Üçüncü bir qab üzərindəki təsvirdə isə ox-yayla silahlanmış piyada ovçu dağ keçisini yaralamışdır (А.Л.ЯКОБСОН, 1959a, табл. IX). Gəncə qazıntılarından tapılmış bir qabda mahir ovçu tərəfindən ayağı qulağına bənd olunmuş heyvan təsviri verilmişdir. Burada Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından götürülmüş Bəhram Gurun ceyranın dal ayağını qulağına bənd etməsi səhnəsi təsvir olunmuşdur (И.М.Джафарзаде, 1949, стр. 31). Şirli saxsı qablar üzərində ov səhnələrindən başqa xeyli ov heyvanları təsvirlərinə rast gəlinir ki, bunlar da dövrün heyvanat aləmi ilə tanış olmaq baxımından faydalıdır (tablo 71, şək. tablo 72, şək. 6). Ən çox təsvir olunan heyvanlardan maral (Bakı, Qəbələ, Beyləqan), ceyran (Beyləqan, Gəncə), dovşan (Zəncan, Beyləqan, Qəbələ), şir (Bəndovan) idi. Cənubi Azərbaycanda XI-XII əsrlərdə istehsal olunmuş polixrom şirli qablardan birində islimi naxışlarından ibarət nəbati fonda vəhşi öküz, tazı və şahin təsviri verilmişdir. Heyvanlar dinamik vəziyyətdə - öküz və tazı qaçış vəziyyətində, şahin isə uçuşda təsvir edilmişdir (A.İ.Pope, 1965, p. 1528, fıq. 538). Təsvirlərdə heyvanların hamısı təbii və canlı şəkildə çəkilmişdir. Demək olar ki, ceyran, maral və dovşanda çeviklik, oynaqlıq, zəriflik, ürkəklik özünü tam büruzə verir. Bütün bunlar yerli əhalinin onları əhatə edən heyvanat aləmi ilə hərtərəfli tanış olduqlarını bariz şəkildə nümayiş etdirir.

Arxeoloji qazıntılar nəticəsində aşkarlanmış osteoloji qalıqlar ev quşçuluğunun üstün mövqeyinə baxmayaraq Azərbaycanda IX-XII əsrlərdə quş ovunun da geniş yayıldığını təsdiqləyir. Xüsusilə də yüksək zümrədən olan adamlar quş ovundan əyləncə növü kimi daim istifadə etmişlər. Quş ovuna çıxanlar adətən özləri ilə ov quşları (şahin və s.) və ov iti (tazı, tula) aparmışlar. Bəndovandan tapılmış bir qabın oturacağındakı damğada ovçu ov quşu ilə təsvir edilmişdir. Arxeoloji qazıntılardan əldə olunan materiallar, ilk növbədə şirli saxsı məmulat

müxtəlif növ çöl quşları barədə təsəvvür yaradır. Bu təsvirlərdə caynaqlı quşlardan tutmuş (qartal, quzğun və s.) zərif quş (bülbül, şanapipik, sərçə və s.) növlərinədək rast gəlmək olur (tablo 70, şək. 2,3; tablo 71, şək. 3-4, 6). Ən çox təsadüf edilən isə qırqovul və turacdır. Maraqlıdır ki, "Əcaib əd-dünya" adlı əsərdə Beyləqanın əmtəə malları sadalanarkən orada çoxlu qırqovul və turacın olduğu qeyd edilir (Əcaib əd-dünya, 1954, səh. 202). Həmin mənbədə Bərzənd şəhərində də quş alveri ilə məşğul olunmasından bəhs olunur (Əcaib əd-Dünya, 1954, səh. 200). Bütün bunlar quş ovunun orta əsrlərdə bir yardımçı təsərrüfat sahəsi kimi yerli əhalinin məşğuliyyət sahələrindən biri olduğuna dəlalət edir.

## Sənətkarlıq

Orta əsrlərdə Azərbaycanın iqtisadi həyatında, xüsusilə şəhərlərdə, sənət istehsalı böyük rol oynamış, yerli əhalinin məişətinə və mədəniyyətinə geniş daxil olmuşdur. IX-XII əsrlərdə sənətkarlığın şəhərlərdə cəmləşməsi prosesi daha da sürətlənmişdi. Bu sənətkarlar nəinki şəhər, həm də kənd əhalisinin tələblərini ödəyən əsas istehsalçılara çevrilmişdilər.

Arxeoloji qazıntılar nəticəsində kifayət qədər istehsalat kompleksləri, sənətkarların əmək alətləri və ləvazimatları, xammal qalıqları, yarımfabrikatlar, istehsal çıxarları, eləcə də çoxsaylı sənətkarlıq nümunələri aşkarlanmışdır. Bu məmulatların özü orta yüzilliklərdə Azərbaycanın sənət istehsalının ayrı-ayrı sahəsində tətbiq olunan texnika və texnologiyanı müəyyənləşdirməyə, sənətkarlığın inkişaf dinamikası, sənətdaxili ixtisaslaşmanın səviyyəsi haqqında fikir söyləməyə imkan verir.

Yazılı mənbələrin məlumatının və arxeoloji dəlillərin müqayisəli təhlili, müsəlman Şərqinin sənətkarlığı üçün səciyyəvi olan bütün sənət sahələrinin Azərbaycan şəhərlərində fəaliyyət göstərdiyini təsdiqləyir. Məsələn, Beyləqan şəhərində XI-XII əsrlərdə 30-dan çox sənət və peşə sahələrinin mövcud olduğu müəyyən edilmişdir. Tam olmayan bu siyahıya dəmirçilik, çilingərlik, silahsazlıq, misgərlik, zərgərlik, qalayçılıq, bənnalıq, daşyonma, malaçı, kirəc istehsalı, dulusçuluq, şüşə istehsalı, kənkan işi, dülgərlik, pambıqtəmizləmə, toxuculuq, dərzilik, ipəkçilik, boyaqçılıq, camaşırçılıq, sümükişləmə, dabbağlıq, çəkməçilik, çustçuluq, sərraclıq, şirniyyatçılıq, əczaçılıq, çörəkçilik, qəssablıq, baqqal, ətriyyatçı və s. daxildir (Q.M.Əhmədov, 1979, səh. 52).

Azərbaycanda, xüsusilə, ipəkçilik çox inkişaf etmişdi. Bunun üçün təbii imkanlar böyük idi. İlk mənbələrdə Azərbaycan şəhərlərində istehsal olunan xeyli ipək növlərinin adı çəkilir: sıklatun, xitai, atlas, aba-şar, diba, kəz-kəşidə, cama və s.

Nizami Gəncəvinin əsərlərində Azərbaycanda XII əsrdə müxtəlif tikmələrin, yüksək keyfiyyətli kətan və zərif ipək parçaların, güləbətin, zərbəft və s. geniş istehsalı haqqında məlumat verilir. Mənbələrdə yerli boyaqların da yüksək keyfiyyətə malik olması qeyd olunur. X əsr müəllifi Müqəddəsi yazır ki, Bərdədə istehsal olunan ipin, xalçanın, boyağın, örtüyün, rəngin tayı-bərabəri yoxdur (N.M.Vəlixanlı, 1974, səh. 135). XI əsr müəllifi Nizam-ül-Mülk o zaman Gəncə ipəyindən hazırlanan paltarların yüksək rütbəli şəxslərə fərqləndirici geyim kimi verildiyini qeyd edir. "Hüdud-əl-aləm" adlı mənbədə qeyd olunur ki, "Muğan özünün çuval və palazı ilə şöhrət tapmışdı, Naxçıvan, Xoy və Səlmas şəhərləri özlərinin zili, xalça, belbağı və digər toxunma şeyləri ilə, Ərdəbil və Şirvan isə rəngli ipək və yun materialları ilə məşhurlaşmışdı (Hüdud al-Alam, 1937, p. 142-145).

IX-XIII əsrlərdə əmək alətləri və texnikası xeyli təkmilləşmişdi. Bu da sənət istehsalında əmək bölgüsünün daha da dərinləşməsinə, sənətdaxili ixtisaslaşmanın genişlənməsinə, sənətkarların peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olurdu. Bu dövrdə dəmirçilikdə sənətdaxili ixtisaslaşma nəticəsində əmək aləti hazırlayan mütəxəssis ustalar yetişir, silahsazlar, çilingərlər, bıçaqçılar, nalbəndlər öz ixtisaslarını daha da təkmilləşdirirdilər. Qalayçılıq xüsusi sahə kimi fəaliyyət göstərir, onlar şəhər misgərxanalarında çalışır və yaxud kəndlərə gedib əhalinin mis qablarını qalaylamaqla məşğul olurdular. Bəzək istehsalında şəhər zərgərləri, xüsusilə fərqlənirdi. Gönişləmədə dabbağlarla yanaşı xəz, dəri işləyənlər, sərraclar, çəkməçilər, çustçular, başmaqçılar, çanqçılar, pinəçilər və s. çalışırdılar. Dərzilər arasında papaqçılar, palançılar, kürkçülər mövcud idi. Toxuculuq və xalçaçılıqla əlaqəli şəkildə boyaqçılar fəaliyyət göstərirdi. Daşişləmə sahəsində memarlar, bənnalar, həkkaklıqla məşğul olan ustalar var idi. Ağacişləmədə dülgər, nəccar və digər ixtisaslar inkişaf edirdi. Dulusçuluqda da əmək bölgüsü onun daxilində ixtisaslaşmanın artması ilə səciyyələnirdi, tikinti məmulatı, şirsiz və şirli saxsı qab hazırlayan ustalar getdikcə müstəqil fəaliyyət göstərirdilər. Kərpic, şirsiz qab, şirli qab, hətta şar-konusvari qab bişirmək üçün xüsusi kürələrin mövcud olması bunu aydın nümayiş etdirir. Qabların üstündəki adlardan məlum olur ki, orta əsr Beyləqan şəhərində usta Əli bəzəkli böyük küplərin istehsalı, Xəttab, Nəsir, Bədəl bədii şirli qab istehsalı ilə, Fəzlun və onun oğlu Əhməd şar-konusvari qab istehsalı üzrə ixtisaslaşmışdılar (Q.M.Əhmədov, 1979, səh. 68).

Bəzi tədqiqatçılar Azərbaycan şəhərlərində IX-XIII əsrlərdə sənətkar təşkilatlarının mövcudluğunu bildirirlər (Azərbaycan tarixi, 1998, səh. 411). Bu dövrdə əsas kütləsi sənətkar və şəhər yoxsullarından ibarət olan "əxi"lər (yəni qardaşlıq ittifaqları) ictimai həyatda daha fəal rol oynayırlar (Azərbaycan tarixi,

1998, səh. 411). Əxilər emalatxana sahibləri və sələmçilərə qarşı mübarizə edir, təşkilat üzvlərinə və başqa şəhərdə olan məsləkdaşlarına kömək etmək üçün vəsait toplayırdılar. Mənbədə Beyləqanda kiçik sənətkar birliklərinin mövcud olması haqqında məlumat verilir (Masud ibn Namdar, 1970). Müsəlman Şərqinin şəhərlərində, o cümlədən Azərbaycan şəhərlərində IX-XII əsrlərdə "əsnaf" istilahı ilə qeydə alınan sənətkar təşkilatları fəaliyyət göstərirdi. Həmin təşkilatların başında rəislər dururdu (M.X.Гейдаров, 1987, стр. 46-48). "Tarix əl-Bab" adlı mənbədə sərracların, dabbağların rəislərinin adları çəkilir. Mənbədən aydın olur ki, Dərbənd şəhərində rəislər böyük siyasi nüfuza malik idilər (Тарих аль-Баб, 1963, стр. 70, 75, 79). V.F.Minorskiyə görə "rəis inzibati aparatla əhali arasında vasitəçi olub, hökumətin sərəncamlarını sakinlərə çatdırır və şəhər sakinlərinin adından təqdimat verirdi" (B.Ф.МИНОРСКИЙ, 1963, стр. 163-164). Xaqani Şirvaninin məktublarından birində isə rəislərin ictimai-siyasi nüfuzunun zəifləməsindən şikayətlənir (M.X.Гейдаров, 1987, стр. 48).

Etnoqrafik materiallardan məlumdur ki, emalatxanalarda əmək bölgüsü mövcud idi. Adətən, dəmirçixanada şagird körük çəkir, zindanda dəmiri döyməklə ustaya kömək edirdi. Bir neçə adamın iştirakına misgər emalatxanalarında da ehtiyac var idi. Bunlar körük çəkir, mürəkkəb əməliyyatları həyata keçirməkdə ustaya kömək edirdilər. Qalayçı da tək işləyə bilməzdi. Bunun üçün heç olmasa iki nəfər fəaliyyət göstərməli idi. Bunlardan biri - şagird nəm əsgi və qumla qabı sürtür və usta qalay vuranda köpüyü çəkirdi. Belə misalları sənətkarlığın başqa sahələri haqqında da demək olar. Şagirdlər, əlbəttə, ustalardan asılı vəziyyətdə idi. Ustalar özləri isə feodaldan və ya şəhər hakimlərindən asılı idilər. Məsələn, etnoqrafik məlumatdan aydın olur ki, dulusçuluqla məşğul olan ustalar xammalı torpağın sahibinin icazəsi olmadan əldə edə bilməzdilər. Elə buna görə dulusçu torpaq sahibindən asılı vəziyyətə düşürdü. Belə feodallardan biri Beyləqanda Məsud ibn Namdar idi. Onun Beyləqanın ətrafında dulusçuluq üçün yararlı gil yatağı var idi. Həmin yataqdan dulusçuların istifadə etməsinə o özü icazə verirdi. Dulusçuluq istehsalında aparıcı mövqe usta başı və yaxud emalatxananın sahibinə mənsub idi. Dulus qablarının yazısından məlum olur ki, qabın üstünə ad yazmaqda xüsusi qayda mövcud olmuşdur. Əksər yazılarda "əməl" sözündən sonra ad gəldiyi halda, bəzən addan qabaq, ustad sözü də yazılırdı. Yəqin ki, bu təsadüfi deyildi. Çox güman ki, burada biz emalatxanada çalışan ustaların müxtəlif mövqeyə malik olduqlarını görürük. Bu fakt hər halda orta əsr Azərbaycan şəhərlərində dulusçuluq sənətində ictimai təşkilatın mürəkkəbliyindən xəbər verir (Q.M.Əhmədov, 1979, səh. 70). İnşaat yazıları göstərir ki, oxşar vəziyyət memarlıqda da mövcud idi.

Eyni sənət sahəsi ilə məşğul olmuş baba, ata və oğulun adları yazılmış qablar da maraqlıdır. Beyləqanda şar-konusvari qabların üstündə Fəzlun və onun oğlu Əhmədin adının göstərilməsi onların hər ikisinin həmin növ qabların istehsalı ilə məşğul olmasına gözəl misaldır. Bir küpün üstündə isə Əlinin babası Əzizin də dulusçuluqla məşğul olduğu göstərilmişdir. Belə yazılar orta əsrlərdə sənətkarlığın irsi keçməsini əsaslı surətdə təsdiq edir. Ümumiyyətlə, XI-XIII əsrlərdə ustaların məşğul olduqları sənət sahəsini imzalarında göstərmələri səciyyəvi hal idi. Məsələn, XI əsrdə Gəncə darvazasını hazırlayan İbrahim özünün dəmirçi olduğunu vurğulamışdır. Naxçıvanda Yusif ibn Kuseyir türbəsini tikən usta "bənna", Bakıdakı Ləzgi məscidinin mehrabını bədii işləyən usta "nəccar", Mərdəkandakı qala-qəsri inşa edən ustanın "memar" olduğu bildirilir (Q.M.Əhmədov, 1979, səh. 70). Belə misalların sayını artırmaq da olar.

Arxeoloji, etnoqrafik materiallardan və yazılı mənbələrdən məlum olur ki, Azərbaycanda bu dövrdə sənətkarlar, daha doğrusu, sənətkar təşkilatları ölkənin həyatında mühüm ictimai mövqe tutur və xüsusilə şəhərlərin idarə olunmasında böyük təsir gücünə malik idilər. Məhz bu dövrdə "Qabusnamə"nin (XI əsr) müəllifi hakim dairələrə tövsiyə edirdi ki, "uşaqlarınıza sənət öyrədin", Nizami Gəncəvi isə kərpickəsən ustanın dili ilə gənclərə başqasından asılı olmamaq üçün, özgəyə əl açmamaq üçün sənətlə, zəhmətlə məşğul olmağı məsləhət görürdü. Heç də təsadüfi deyil ki, şahzadə Ruzbeh "Şirvan lüləyini" həmin dövrdə - 1206-cı ildə hazırlamışdı.

Orta əsrlərdə Azərbaycan şəhərlərində ayrı-ayrı sənət sahəsi ilə məşğul olan bütöv məhəllələr mövcud idi. Beyləqanda dulusçular, Şabranda çörəkçilər, Şamaxıda dulusçular və dəmirçilər məhəllələri buna misal göstərilə bilər (Г.М.Ахмедов, 1985, стр. 4-5). Onlar adətən şəhərin kənarlarında cərgələr üzrə yerləşirdilər. Qəbələdə dulusçuların - kərpic bişirənlərin məhəlləsi şəhərin şərqində, Covurluçayın sol sahilində aşkara çıxarılmışdır.

Metalişləmə sənəti sənətkarlıq sahələri arasında aparıcı mövqe tuturdu. Metalişləmə sənətinin inkişaf səviyyəsi, onun texnoloji təkmilləşməsi bu və ya digər dərəcədə əkinçiliyin, sənətkarlığın, hərb sənətinin və təsərrüfat məişətinin səviyyəsinə təsir göstərirdi (T.M.Dostiyev, 2001, səh. 127).

Orta əsr şəhərlərində aparılan qazıntılar zamanı çoxlu metal alət, silah, məişət avadanlığı və bəzək əşyaları tapılmışdır ki, bunlar dövrün metalişləmə sənətinin inkişaf səviyyəsini müəyyənləşdirmək üçün böyük əhəmiyyətə malikdir. IX-XIII əsrlərdə Azərbaycanda filiz çıxarılması və metal emalı haqda bəzi məlumatlara ilk mənbələrdə də təsadüf olunur (N.M.Vəlixanlı, 1974; Йакут аль-Хамави, 1983). Çıxarılan filiz adətən yatağın yaxınlığında kürələrdə əridilirdi. Mis əridilən kürələrin izlərinə Azərbaycanın Şəmkir, Gədəbəy rayonları ərazisində və digər yerlərdə

təsadüf edilmişdir. Orta əsrlərdə mis və dəmir ərintilərini şəhərlərdə də bəzən təkrar əridir, ərintinin keyfiyyətini yaxşılaşdırır və onlardan istənilən alət və əşyanı hazırlayırdılar. Beyləqan, Gəncə, Şəmkir, Qəbələ, Şamaxı, Bakı, Şabran və başqa şəhər yerlərində qazıntılar zamanı metal ərintisi hissələrinə və metal pasaya tez-tez təsadüf olunması bunu bir daha təsdiq edir.

Maraqlıdır ki, indiyə qədər Azərbaycanda onlarla metal yataqları və metalişləmə ilə əlaqədar yaranmış yer və kənd adları mövcuddur. Eyni sözləri metal istehsalı ilə bağlı yaranmış ayin, xalq deyimləri, atalar sözləri və s. haqqında da demək olar.

**Dəmirçilik.** Orta əsrlərdə əsas əmək alətləri və silahlar dəmirdən düzəldilirdi. Dəmir həm də tikintidə, təsərrüfatda və məişətdə geniş tətbiq olunurdu.

Tədqiqatlar dəmirçiliyin həm şəhər, həm də kəndlərdə mövcudluğunu təsdiqləyir. Dəmirçiliklə bağlı istehsalat komplekslərinin qalıqları arxeoloji qazıntılarla Şamaxı, Beyləqan, Qəbələ və Şabran şəhər yerlərində üzə çıxarılmışdır (Г.М.Ахмедов, 1984, стр. 109-116). Şabran şəhər yerində XII əsr qatında aşkar edilmiş dəmirçi kürəsi düzbucaqlı formada olub bir böyük və iki kiçik kameradan ibarət idi. Kürənin altlığı çaydaşıları ilə döşənmiş, divarları isə 25x25x5 *sm* ölçüdə bişirilmiş kərpiclərlə hörülmüşdü. Kürənin mühafizə olunmuş qalıqları onun orijinal konstruktiv quruluşa malik olmasına dəlalət edir. Emalatxanadan kündə formalı dəmir külçələr - xammal da tapılmışdır. Onlar əsasən 1 -2 *kq* ağırlığındadır. Lakin çəkisi 5 *kq*-a çatan ağır külçələrə də təsadüf olunmuşdur (V.Ə.Məmmədov, 1992, səh. 97-98; T.M.Dostiyev, 2001, səh. 129). Dəmirçiliklə bağlı istehsalat qalıqlarına Seyidli yaşayış yerində də təsadüf edilmişdir (T.M.Dostiyev, 2001, səh. 129).

Tapılan bütün əşyalarda onların zindan üstündə çəkiclə döyülərək hazırlandığını izləmək olur. Halqa, zəncir, balta, bel, nizə, mizraq, ox ucluqları və s. döymə üsulu ilə hazırlanırdı. Əşyaların hissələri də bu üsulla birləşdirilirdi. Qızdırılmış metaldan həncamə, mişar, asmalar və s. düzəldərkən polad qələm ilə onları kəsirdilər. Tapı-lan nal, sacayaq, zireh və s. qalıqları onlarda deşiklərin qızdırılaraq açıldığını nümayiş etdirir. Bəzən dəmir hissələrini birləşdirmək üçün bəndetmə üsulundan da istifadə olunurdu. Kəsici alətlər poladqarışıq dəmirdən düzəldilirdi. Poladqarışıq dəmirin qaynaq üsulu ilə hazırlanması texnologiyası yerli sənətkarlara hələ antik dövrdən bəlli idi (Н.М.Терехова,Т.С.Мехдиев, 1986).

XI əsr dəmirçilik sənətini öyrənmək üçün yuxarıda adını çəkdiyimiz Gəncə darvazasının böyük əhəmiyyəti var. Darvazadakı yazıdan aydın olur ki, onu dövrün bütün məlum texniki üsullarından istifadə etməklə, 1063-cü ildə dəmirçi İbrahim Osman oğlu hazırlamışdır (Х.М.Френ, 1926). Darvazanın çərçivəsi döymə üsulu ilə hazırlanmış, çərçivəyə köndələn vəziyyətdə dəmir qollar bərkidilmişdir. Qolların

üstünə papaqlı mismarlarla dəmir təbəqələr bənd edilmişdir. Yazı dəmir təbəqələrdən birinə nəqş olunmuşdur (tablo 32, şək. 14).

Orta əsr Azərbaycan şəhərlərinin arxeoloji qazıntılarından dəmirçi alətlərinin bir çox nümunələri məlumdur. Məsələn, Bakı qazıntılarından çəkic, gürz, dəmirçi masası, iskənə (F.Ə.İbrahimov, 1995, səh. 10-12), Dərbənddən zindan, çəkic, maşa, yeyə (А.А.Кудрявцев, 1982, səh. 141), Dəbildən çəkic və iskənə (K.Q. Kafadaryan, 1952, səh. 154-160) tapılmışdır.

Kəsici alətləri və silahları itiləmək üçün yiyədən istifadə olunurdu. Beyləqandan tapılan mişar qalığı buna misaldır. Xart daşı və bülövlərdən geniş istifadə olunmuşdur. Onların nümunələri qazıntılarda tez-tez tapılır. Bunlar dairəvi, yastı və düzbucaqlı formada olub, əksər hallarda baş tərəfində kəmərdən asmaq üçün ip keçirilən deşik vardır. Bülöv və xartlar çaydaşı və ya dağ süxurlarından hazırlanırdı.

Dəmirçixanalarda çox çeşidli məmulat istehsal edilirdi. Kənd təsərrüfatında işlədilən alətlər əsasən şum, biçin və bağçılıq alətləri ilə təmsil olunmuşdur (tablo 31).

Arxeoloji qazıntılar zamanı aşkarlanmış bəzi alətlər çoxfunksiyalı olub, həm sənətkarlıqda, həm də məişətdə istifadə olunurdu. Çəkic, balta, kərki, kəlbətin, mişar, iskənə, qayçı, bıçaq və s. belə alətlərdəndir (tablo 32; 33; 34). Həmin alətlərin əksəriyyəti öz formasını müasir dövrə qədər saxlamışdır. Bu da onların artıq orta yüzilliklərdə mükəmməl formaya malik olduğuna dəlalət edir. Müxtəlif təyinatlı bıçaqların istehsalı kütləvi xarakter daşıyırdı. Artıq XI-XII əsrlərdə ixtisaslaşmanın dərinləşməsi nəticəsində bıçaqçılıq müstəqil sənət sahəsinə çevrilmişdir. Şəmkir şəhəri yüksək keyfiyyətli bıçaq istehsalı ilə şöhrət qazanmışdı (Əcaib əd-dünya, 1954, səh. 207).

Silahsazlıq müstəqil sahə kimi formalaşaraq sənət istehsalında xüsusi mövqeyə malik idi. Hətta silahsazlığın özünün daxilində ixtisaslaşma dərinləşməkdə idi. Təbriz, Gəncə, Dəbil, Şəmkir, Şamaxı silah istehsalının mühüm mərkəzləri sayılırdı. Silahsazlar həm hücum silahları, həm də hərbi sursat istehsalı ilə məşğul idilər. Hücum silahlarına ox-yay, nizə, xəncər, qılınc, hərbi bıçaq, döyüş yabası, toppuz daxil idi.

Ənənəvi döyüş silahlarından olan qılınca, qədimdə olduğu kimi, orta çağda da xüsusi əhəmiyyət verilir, o, döyüşçü rəmzi kimi qəbul olunurdu. Bu dövrün anlamına görə "əgər insan bütün silah növləri ilə silahlanıbsa, amma qılıncı yoxdursa onun silahlanması qaneedici hesab olunmur, lakin qılıncı olub digər silahları yoxdursa onun silahlanması tamamilə qaneedici hesab edilir" (С.Г.Мамедов, 1997, стр. 263-264). Qılınca belə yüksək qiymət verilməsi onun

hərb sənətində oynadığı roldan irəli gəlirdi. Digər silahlardan fərqli olaraq bütün qoşun növləri qılıncla silahlanırdı. Təsadüfi deyildir ki, Məsud ibn Namdar bir döyüş səhnəsini təsvir edərkən döyüşçülərin qılınc və xəncərlə silahlandığını xüsusi qeyd edir (Масуд ИБН Намдар, 1970, стр. 42-43).

Arxeoloji qazıntılar zamanı tapılmış qılınc nümunələri fraqmentlərdən ibarətdir (tablo 35, şək. 1-8). Tiyəni əks etdirən qırıqlar 10-15 *sm* və daha kiçik ölçülü olduqlarından onların formasını təyin etmək çətindir. Fraqmentlər əsasında qılıncların həm iki ağızlı, həm də bir ağızlı olduğunu, poladdan hazırlandığını söyləmək olar.

Geniş yayılmış silahlardan olan xəncər həm də feodal sinfinin kişi geyiminin vacib elementlərindən sayılırdı. Xəncərləri tiyəsinin formasına görə iki tipə ayırmaq olar: I tip xəncərlərin tiyəsi enli, düz olub uca doğru daralaraq sivriləşir (tablo 35, şək. 9, 11, 13). Belə xəncərlər Bakı və Dəbil şəhərlərinin arxeoloji qazıntılarından məlumdur. Onların tiyəsinin hər iki tərəfi iti olub uca doğru getdikcə sivriləşir (F.İbrahimov, 1995, səh. 25;Б.Аракелян, 2003, табло 157, 2). II tip xəncərlər bir ağızlı olması ilə fərqlənir (tablo 35, şək. 10, 12, 14).

Hərbi bıçaqlar da Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji qazıntılarından yaxşı məlumdur.

Mezolit dövründən məlum olan ox və kaman orta əsrlərdə də mühüm silahlardan biri olaraq qalırdı. Ox ucluq, ağac gövdə və lələkdən ibarət olurdu. Qazıntılardan ox ucluqları tapılır.

Orta əsr abidələrinin arxeoloji qazıntılarından məlum olan ox ucluqlarının, demək olar ki, hamısı sulquncludur (tablo 36). Onları tiplərə yalnız pərlərinin formasına görə ayırmaq olar. Ox ucluqlarının tipoloji təsnifatı genişliyi ilə S.Ə.Əhmədov və E.B.Cəfərovanın monoqrafiyasında verildiyindən (Ş.Əhmədov, E.Cəfərova, 2005. səh. 43-54) onların ümumi səciyyəsi ilə kifayətlənəcəyik. Ox ucluqları təyinatlarından asılı olaraq müxtəlif formada hazırlanmışlar (tablo 36). Yastı, ikipərli və üçpərli ox ucluqları zirehsiz hədəfi məhv etmək üçün idi və tapıntılar arasında üstünlük təşkil edirlər. Belə ox ucluqları geniş yara açaraq güclü qanaxmaya və bununla da düşmənin canlı qüvvəsinin sıradan çıxmasına səbəb olurdu. Sıx toxunmuş halqalı zireh geymiş düşməni sıradan çıxarmaq üçün ensiz, kəsikdə dəyirmi və ya kvadrat olan, möhkəmləndirilmiş ox ucluqları tətbiq olunurdu. Belə ox ucluqları halqalı zirehi dəlib düşmənə xətər yetirirdi. Lövhəli zireh geyimə malik düşmən döyüşçüsünə qarşı isə üçtilli və dördtilli ox ucluqları işlədilirdi (S.Əhmədov, E.Cəfərova, 2005, səh. 52). Bu silahın növləri arasında çəngəl formasında, haçalanan ox ucluğuna da (tablo 36, şək. 32, 48) təsadüf olunur

(Г.М.Ахмедов, 2003a, стр. 91, TaÖJi. II, 1). Belə ox ucluqlarının quş ovunda istifadə olunduğu ehtimal edilir.

Orta çağda həm süvarilər, həm də piyadalar döyüşdə dəmir ucluqlu nizələrdən uğurla istifadə edirdilər. Hər bir orduda ayrıca nizəçilər dəstəsi olurdu. Xaqani Şirvaninin məlumatından bəlli olur ki, nizəçi xidmət müqabilində 1000 dirhəm alırdı və Şirvan ordusunda nizəçilər mühüm yer tuturdu (Г.А.Джидди, 1981, стр. 54), Uzunluğu 3 *m* və daha artıq olan nizələrin dəstək hissəsi ağacdan olduğundan arxeoloji qazıntılar zamanı yalnız onların dəmir ucluqlarına təsadüf olunur.

Arxeoloji qazıntılar zamanı nizə ucluqları Beyləqandan, Bakıdan, Qəbələdən, Şamaxıdan, Qaleybuğurtdan, Dəbildən (F.Ə.İbrahimov, 1988, səh. 48; 1995, səh. 21-22; Г.А.Джидди, 1981, стр. 54; K.Q.Kafadaryan, 1952, səh. 162-163) tapılmışdır. Forma etibarı ilə nizə ucluqları konusvari, lentvari və rombşəkillidir. Konusvari nizə ucluqları tapıntılar arasında üstünlük təşkil edir (tablo 37, şək. 7, 11, 14, 15).

Mizraq nizəyə oxşar silah olub ölçüsünün kiçik olması ilə ondan fərqlənirdi. Mizraq ucluqlarının uzunluğu 4,5-9 *sm*-dir. Onlar əsasən konusvari formadadır (tablo 37, şək. 8, 9).

Orta əsrlərdə istifadə olunmuş döyüş yabasının nümunəsi Bərdə qazıntılarından məlumdur. Onun iki uzun, sivri dişi vardır. Gövdəyə birləşdirilən sap yeri boru formalıdır (A.B.Nuriyev, Ə.H.Babayev, 2001, səh. 98, tablo 29, 1).

Müdafiə ləvazimatı dəbilqə, zirehli geyim və qalxanla təmsil olunmuşdur. Zireh geyiminin ən geniş yayılmış növü məftildən sıx toxunmuş, xırda halqalardan gödəkcə idi. XII əsrə qədər qısa gödəkcələr istehsal olunurdusa, həmin əsrin sonundan uzun gödəkcələr yayılmağa başlayır. Uzun gödəkcələr piyadalar üçün yararlı olduğu halda, süvarilər üçün qısa gödəkcələr daha məqsədəuyğun idi.

Arxeoloji qazıntılar zamanı halqalardan toxunmuş zireh geyim fraqmentləri Dərbənddən (tablo 38, şək. 5), dəmir lövhələrdən quraşdırılmış zireh geyim qalıqları isə Beyləqan və Dərbənddən tapılmışdır (tablo 38, şək. 1-4). Şamaxı şəhərində aparılan qazıntılar zamanı XI-XII əsrlər təbəqəsindən tapılmış, üzərində əyninə zireh geymiş cəngavərin əlinin təsviri qalmış şirli saxsı qab fraqmenti də diqqətəlayiqdir (tablo 38, şək. 7). Yazılı qaynaqlarda belə zireh geyimi cöşən və ya tanurə adlandırılır (Г.А.Джидди, 1985, стр. 136; 1986, стр. 419).

Müdafiə ləvazimatına habelə döşlük, çiyinlik, dirsəklik, kəmər və dizlik də daxil idi.

Arxeoloji qazıntılar əhalinin məişətində, eləcə də inşaat işlərində dəmir məmulatın (tablo 39; 40) geniş işlədildiyini göstərir. Yarımdairəvi və aypara formalı

nallar orta əsr şəhər xarabalıqlarının qazıntılarında tez-tez təsadüf olunur (tablo 40, şək. 2, 4-8). Bu da nalbəndlik sənətinin geniş yayılmasından xəbər verir.

**Misgərlik və metaltökmə sənəti.** Metalişləmənin digər mühüm sahəsi zəngin mis yataqlarının varlığına əsaslanan, qədim istehsal ənənələrinə malik misgərlik sənəti orta əsrlərdə öz inkişafında yeni mərhələyə daxil oldu. Gəncə, Dəbil, Şamaxı, Dərbənd, Naxçıvan, Təbriz, Ərdəbil kimi Azərbaycan şəhərləri mis məmulatı istehsalında öncül mövqe tuturdular. Orta əsr misgər emalatxanası arxeoloji qazıntılarla Dəbildə tədqiq olunmuşdur. Burada döymə və zərbetmə üsulu ilə hazırlanmış cam, sini, məcməyi, qazan və s. əşyalar tapılmışdır (Е.Н.Аракелян, 2003, стр. 343). Misgər emalatxanalarında tətbiq olunan istehsal texnologiyası ənənəvi olaraq əritmə, isti və soyuq döymədən ibarət idi. Bundan başqa, istehsal prosesində zərbetmə, kəsmə, lehimləmə, məftilçəkmə, deşmə və digər texniki üsullardan istifadə olunurdu. Bəzən bir əşyanın hazırlanmasında bir neçə texniki üsul tətbiq olunurdu. Orta əsr misgərlərinin yüksək texniki nailiyyətlərini nümayiş etdirən faktlardan biri də misdən tük naziklikdə saplar hazırlanmasıdır. Belə saplar bədii tikmə sənətində geniş işlədilirdi. Onların nümunələri Beyləqan şəhərinin arxeoloji qazıntılarından məlumdur. Qazıntılardan əldə olunmuş materiallar palanduz, qıyıq, oymaq kimi əmək alətlərinin (tablo 34, şək. 3-9, 19-20, 10-12) misdən hazırlandığını təsdiqləyir. Mis və tuncdan əsasən məişətdə işlədilən qab-qacaq hazırlanırdı (tablo 41-42). Beyləqan, Bakı və Qəbələ qazıntılarından mis lövhədən döymə üsulu ilə hazırlanmış süfrə qabları - camlar tapılmışdır. Onların həm naxışlı, həm də saya nümunələrinə təsadüf olunmuşdur. Bəzi nüsxələr üçayaqlıdır (F.Ə.İbrahimov, 1988, səh. 75-77). Döymə üsulu ilə mis təbəqədən hazırlanmış məmulat arasında ləyən, qapaq, parç, dolça, məcməyi, qaşıq, tərəzi gözləri də vardır (F.Ə.İbrahimov, 1988, səh. 74-78).

Metaltökmə sənəti də uğurla inkişaf edirdi. Metaltökmə sənətində bərk və yumşaq qəliblərdən istifadə olunurdu. Beyləqan şəhərinin qazıntılarından qazan qulpu hazırlanmaq üçün istifadə olunmuş gil qəlib, mis və ya qızıl ərintisini götürmək üçün işlədilən qab (tablo 43, şək. 2) tapılmışdır (Минкевич-Мустафайева, 1959, стр. 155). Mis və tunc məmulatın istehsalında tökmə üsulu geniş tətbiq olunurdu. Rusiyanın Sankt-Peterburq Dövlət Ermitajında mühafizə olunan məşhur "Şirvan lüləyini" (1206) üçfiqurlu kompozisiya şəklində (tablo 41, şək. 1) düzəldilməsinə baxmayaraq əridilmiş metalı usta bir dəfə qəlibə tökməklə hazırlamışdır. Bu da o dövr üçün yüksək texniki nailiyyət sayılırdı. XII-XIII əsrlərin metal qazanları da böyük ustalıq işi və texniki təkmillik nümunələridir. Onların hazırlanmasında ağac və ya şifer modellərdən, bəzən isə aplikasiya adlanan üsuldan istifadə olunmuşdur. Şabran, Dəbil qazıntılarından həvəng, Beyləqan və Bakı

qazıntılarından həvəng dəstəyi, Qəbələdən tapılmış qab ayağı da tökmə üsulu ilə istehsal edilmişdir (tablo 42, şək. 3, 4, 7).

Dəbil şəhərindən məlum olan üç ayaqlı, altı tilli gövdəyə malik qab da tökmə üsulu ilə hazırlanmışdır (tablo 42, şək. 2). Onun ağzının kənarı yana qatlanmış, üstünə cəftəvari qulplar birləşdirilmişdir. Gövdəsi bayır tərəfdən həndəsi ornamentlə bəzədilmişdir (Б.Н.Аракелян, 2003, табл. 158, 7).

Mis və tunc məmulatı arasında tökmə üsulu ilə hazırlanmış çıraqlar xüsusi qrup təşkil edir. Onlar Dəbil, Beyləqan, Şabran, Bakı və Qəbələ şəhər yerlərində aparılmış arxeoloji qazıntılardan məlumdur (tablo 43, şək. 1- 4, 6). Qəbələdən tapılan IX əsrə aid edilən çırağı (tablo 43, şək. 4) çilçıraq da adlandırmaq olar (S.M.Qazıyev, 1964, səh. 44; F.L.Osmanov, 1966, səh. 41; F.Ə.İbrahimov, 1988, səh. 79-80).

Bakıda Şirvanşahlar sarayı həyətində aparılan arxeoloji qazıntılar zamanı tapılmış iki çıraq da (şamdan) orijinal formaya malikdir (В.Н.Левиатов,1948 а, стр. 113-114). Onlar hündür ayağı aşağıya doğru genişlənən badə formasındadır.

Xaraba-Gilandan tapılmış tunc şamdan nümunələri də tökmə üsulu ilə hazırlanmışdır (R.Bəşirov, 2002, səh. 59, şək. 14, 15).

Qəbələ qazıntılarından mis mürəkkəbqabı məlumdur (tablo 42, şək. 12). Buradan habelə kiçik çeyçe tapılmışdır. Onun içərisinə cızma üsulu ilə xonçalar çəkilmiş və qabın sahibinə xeyir-dua arzulayan yazı həkk olunmuşdur (О.Ш.Исмизаде, 1964 б, стр. 106, табл. 15, рис. 9).

Arxeoloji qazıntılar zamanı mis və ya tuncdan tökülmüş müxtəlif təyinatlı qab və əşyaların ayrı-ayrı hissələrinə də təsadüf olunur. Beyləqan qazıntılarından tapılmış insan başı şəklində düzəldilmiş qazan qulpu və heyvan başı şəklində olan qazan ayağı bədii cəhətdən böyük maraq doğurur (А.Л.ЯКОБСОН, 1959, стр. 145). Xaraba-Gilandan tapılmış aftafa lüləyi isə zoomorf görünüşlüdür. Lüləyin uc tərəfi əjdaha (Б.И.Ибрагимов, 2000, стр. 115) və ya qurd başı şəklində (R.Bəşirov, 2002, səh. 58) hazırlanmışdır (tablo 42, şək. 8). Beyləqan, Şəmkir və Gəncə şəhərlərinin arxeoloji qazıntılarından tapılmış quş fiqurları da tökmə üsulu ilə hazırlanmışdır (tablo 33, şək. 14).

Beyləqan şəhər yerinin arxeoloji qazıntılarından əldə olunmuş mis əsaslı metal əşyaların spektral analizi onların çoxkomponentli olduğunu, IX-XI əsrlərə aid nümunələrdə qalay 2,7-3,8 faiz, XII-XIII əsrin məmulatlarında isə 0,96 faizdən 2,38 faizədək, bütün nümunələrdə sink 11,5 faiz, qurğuşunun miqdarı isə 24 faizə qədər təşkil etdiyini göstərmişdir. Mütəxəssislərin fikrincə, sonuncu iki metalın misə qatılması müsbət nəticələr verir. Sink misə bərklik, qurğuşun isə ərintiyə plastiklik, axıcılıq verir, ərintinin kövrəkliyini aradan qaldırır, tökmə işini asanlaşdırır,

məmulatın keyfiyyətini yaxşılaşdırırdı. Bu səbəbdən sink və qurğuşunu ərintiyə birlikdə qatırdılar (М.Н.Рагимова, А.М.Гасанова, 2002, стр. 58-60).

**Zərgərlik.** Metalişləmə sənətinin üçüncü başlıca sahəsi zinət istehsal edən zərgərlik sənəti sırf şəhər sənətkarlığı idi və şəhərlərdə cəmləşmişdir. Bakı, Şabran, Qəbələ, Beyləqan şəhərlərinin arxeoloji qazıntılarından zərgərlik sənəti ilə bağlı faktiki materiallar: gil putalar, qəliblər, metalı süzmək üçün qab, istifadə olunmuş məhək daşları, zərgər qaşığı, çəkici, kəsici alət və s. (tablo 44) tapılmışdır (F.Ə.İbrahimov, 1988, səh. 89-90; Q.M.Əhmədov, 1979, səh. 55; T.M.Dostiyev, 2001, səh. 137-138; İ.A.Babayev, Q.M.Əhmədov, 1981, səh. 47). Qəbələnin Qala sahəsində, III qazıntıdan tapılmış, serpantindən hazırlanmış qəlibdə (tablo 44, şək. 7) tökmə üsulu ilə möhür üzük, qəlibin arxa tərəfi isə çaxmaq üsulu ilə kəmər üçün pilək hazırlamağa xidmət etmişdir (Т.И.Голубкина, 1973). Arxeoloji materiallardan bəlli olur ki, orta əsr Azərbaycan zərgərləri bəzək əşyaları istehsal edərkən qiymətli metallarla - qızıl və gümüşlə yanaşı, həm də mis və tuncdan istifadə etmişdilər. Bu xüsusiyyət Azərbaycan şəhərlərinin məhəlli xüsusiyyəti olmayıb Müsəlman Şərqinin zərgərlik sənətinin səciyyəvi xüsusiyyətlərindən biri idi.

Arxeoloji qazıntıların nəticələri zərgərlik məmulatı arasında baş, qol-bilək, barmaq, sinə, bel bəzəklərinin üstünlük təşkil etdiyini göstərir. Bəzək əşyaları məmulatın növündən, bədii məziyyətlərindən asılı olaraq istehsal texnikasına görə sadə və ya mürəkkəb quruluşda hazırlanmışdır. Yerli zərgərlər iş prosesində əritmə, döymə, burma, oyma, cızma, yonma, lehimləmə kimi texniki üsullardan geniş istifadə edirdilər (T.M.Dostiyev, 2001, səh. 144). Məmulatın növündən asılı olaraq bəzək əşyaları həndəsi, nəbati və ya zoomorf motivli naxış elementləri ilə bəzədilirdi. Kütləvi məhsul istehsalına imkan verən qəlibkarlıq texnikasından da kifayət qədər geniş istifadə edilirdi.

**Dulusçuluq.** Orta əsr abidələrindən tapılan materialların əsas kütləsini saxsı məmulatı təşkil edir. Bu məmulat IX-XIII əsrlərdə Azərbaycanda dulus istehsalının yüksək səviyyədə olduğunu göstərir. IX əsrdən başlayaraq dulusçuluqda inkişaf yüksələn xətt üzrə davam edir və XII-XIII əsrin əvvəllərində özünün yüksək səviyyəsinə çatır. Dulusçuluğun yüksək inkişafı söz yox ki, ölkənin ümumi iqtisadi və mədəni inkişafı ilə bağlı idi.

IX-XIII əsrlərin dulusçu kürələrinin qalıqları Mingəçevirdə (Г.И.Ионе, 1951, стр. 72-77), Beyləqanda (Минкевич-Мустафайева, 1959; F.Ə.İbrahimov, 1965, səh. 212-219), Qəbələdə (О.Ш.Исмизаде, 1963, стр. 13-24; Q.C.Cəbiyev, H.X.Ramazanov, S.B. Hüseynova, 1991, səh. 28-29), Şabranda (T.M.Dostiyev, 2001, səh. 144-145), Bakıda (Ф.А.Ибрагимов и др., 1979, стр. 42), Şamaxıda (Г.А.Джидди, 1990, стр. 25-26; Г.А.Джидди, 1985; 1985a), Gəncədə (И.М.Джафарзаде, 1949a,

стр. 26), II Bəndovan şəhərgahında (В.А.Квачидзе, 1986), Torpaqqalada (R.M.Vahidov, 1965a), Təxti-Süleymanda (Nawmann, 1976) arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır (tablo 45).

Beyləqanda tədqiq edilmiş IX-X əsrlərə aid iki kürə dairəvi plana malik olub şimal-qərbdən cənub-şərqə istiqamətlənmişdir. Ocaqlığın qapısı cənub-şərq tərəfdən idi. Kürənin ətrafındakı qalıqlar əsasında bu kürələrdə şar-konusvari qablar istehsal edildiyi ehtimal olunur (Q.M.Əhmədov, 1979, səh. 29). XI-XIII əsrin əvvəllərinə aid edilən dulus kürələrindən ikisi əvvəlki kürələr tipində, biri isə yeni tipdə olub planda düzbucaqlı biçimdədir. Kürə boyu həm alt, həm də üst gözün ortasında bişmiş və çiy kərpicdən tikilmiş "buxarı" vardır (Q.M.Əhmədov, 1979, səh. 56-57). Şamaxıda tədqiq olunmuş dulus kürələri ikiqatlı olub, əsasən ellipsşəkilli, dairəvi və nal formasındadır. Möhrədən qurulmuş bu kürələrin diametri 1,5-1,7 *m* təşkil edirdi (Г.А.Джидди, 1990, стр. 26). Torpaqqalada tədqiq olunan kürə isə inşaat keramikası istehsalı üçün nəzərdə tutulmuşdur. Bişmiş kərpic istehsalı üçün qurulmuş dulus kürəsi Qəbələ və II Bəndovan şəhər xarabalıqlarında da aşkarlanmışdır (İ.Əliyev, F.Qədirov, 1985, səh. 32; В.А.Квачидзе, 1979, стр. 514).

XI-XII əsrlərin dulus kürələri Qax rayonundakı Ləkit Ketüklü kəndindəki monastırda da aşkarlanıb tədqiq edilmişdir. Burada yeddi dulus kürəsinin qalıqları üzə çıxarılmışdır. Qazıntılar nəticəsində tədqiq olunan dulusçu emalatxanası uzunluğu 10,95 *m*, eni 8 *m* olan, çaydaşından hörülmüş düzbucaq biçimli tikilidə yerləşmişdir. Emalatxanada kirəmit, şirsiz və şirli saxsı qab-qacaq istehsal olunmuşdur (А.А.Карахмедова 2002, тр. 94-99).

Şabranda tədqiq olunmuş kürələrdən biri şirli qabların istehsalı ilə ixtisaslaşmışdı (В.Н.Левиатов, 1946, стр. 84-87).

Qəbələnin Qala sahəsinin şərqində VIII-XI əsrlər təbəqəsində 7 dulus kürəsi qalıqları, onların ətrafından xeyli kürə ləvazimatı, şir tozu, müxtəlif rəng qalıqları aşkarlanmışdır (Q.C.Cəbiyev, H.X.Ramazanov, S.B.Hüseynova, 1991, səh. 28).

II Bəndovanda tədqiq olunmuş dulus kürəsi isə düzbucaq biçimli olub, 22-23x-22-23x24-5 *sm* ölçülü bişmiş kərpiclərdən hörülmüşdür. Kürənin ocaqlıq qatı qalmışdır. Kürə kifayət qədər böyük olub uzunluğu 3,8 *m*, eni 3,1 *m* idi (В.А.Квачидзе, 1985, стр. 179).

Kürələrin içərisində və ətrafında, bəzən isə mədəni təbəqə yatımında dulusçu ləvazimatı, o cümlədən S-şəkilli gil qarmaqlar, gil çubuqlar, üçayaqlar və konusvari altlıqlar tapılır (tablo 46, şək. 1-4, 7-10). Gil qarmaqlar və çubuqlar kürənin divarına keçirilərək onlardan bardaq, dolça və digər qulplu qablar asılaraq bişirilirdi. Üçayaqlar isə şirli kasa, boşqab, xeyrə və s. açıq formalı qabların bişirilməsində istifadə olunurdu.

Bu dövrdə Azərbaycanda saxsı məmulatı istehsalı texnikası daha da təkmilləşir, əl dulus çarxı hər yerdə sürətlə hərəkət edən ayaq dulus çarxı ilə əvəz olunur, qab hazırlama və naxışçəkmə üsullarında yeniliklər baş verir. Arxeoloji qazıntılar nəticəsində dulus çarxı Dəbildən bizə məlumdur (tablo 46, şək. 12). Orta əsr şəhərlərinin arxeoloji qazıntılarından əldə edilmiş qəlib (tablo 46, şək.11) və möhürlər (tablo 46, şək. 5-6) dulusçu ustaların qabların naxışlanmasında basma üsulundan da istifadə etdiklərini təsdiqləyir. Bəhs olunan dövrdə yeni növ qablar meydana çıxır, qabları yazmaq dəbi yaranır. Boşqab, aftafa, sərnic, küpə, şar-konusvari qablar, gülabdanlar və s. bu dövrün məhsullarıdır. Anqob və xüsusilə şirdən istifadə etmək dövrün ən böyük nailiyyəti hesab olunur. Bu materiallar qabların bədii işləməsi üçün geniş imkanlar yaradır. Şirsiz və şirli qablara cızma xətlərlə, rəngli boya ilə, anqobla, basma, kəsmə üsulu ilə naxışlar vurulurdu. Bu dövrdən başlayaraq Azərbaycanda fiqur kərpiclər, kaşılar və tünglər istehsal olunurdu.

Xüsusilə Beyləqan, Gəncə, Bərdə, Xaraba-Gilan, Dəbil, Şabran, Qəbələ və Dərbənd qazıntıları daha çox və zəngin saxsı məmulatı vermişdir. IX-XIII əsrin əvvəllərinə aid saxsı qab Bakıda İçərişəhərdə, Naxçıvanda, Mingəçevirdə, Gülüstan qalasında da az tapılmamışdır. Adları yuxarıda qeyd olunan Azərbaycanın başqa orta əsr abidələrinin arxeoloji qazıntılarından da xeyli saxsı toplanmışdır.

Azərbaycanda müasir kustar dulus saxsı məmulatı, kərpic və kirəmit istehsalı əsasında bu sahələrin orta əsrlərdə mövcud olmuş texnoloji prosesinin, gilin əldə edilməsindən hazır məhsulun satışına qədər bütün mərhələlərini izləmək mümkündür. Zəngin etnoqrafik materiallar orta əsr dulusçuluq sənətini hərtərəfli tədqiq etmək üçün çox faydalıdır. Materialların tədqiqi nəticəsində məlum olmuşdur ki, orta əsr şəhərlərində IX-X əsrlərdə, o da çox nadir hallarda, əl dulus çarxından istifadə edilmişdir. Hətta bu dövrün kənd yaşayış məskənlərində də ayaq dulus çarxından istifadə olunduğu müşahidə edilmişdir. Qab hazırlanan gil, emalatxanada çox yaxşı və həll yoğrulurdu, diqqətlə təmizlənir və ayaq çarxında yüksək keyfiyyətdə hazırlanırdı. Bişirmə keyfiyyəti də çox yüksək idi. Nümunə üçün bu dövrün şar-konusvari qablarını göstərmək olar. Onlar bişirildikdə daş kimi bərk vəziyyət aldığı üçün sındırmaq belə mümkün olmur. Orta əsr dulusçuları müxtəlif məqsədli qablar üçün fərqli gildən istifadə edirdilər. Məsələn, qazan hazırlamaq üçün odadavamlı gil götürülürdü, zərif qablar narın gildən düzəldilirdi və s.

İnşaat keramikasının da keyfiyyəti xeyli yaxşılaşmışdı. Tünglərin və kirəmitlərin gili saxsı qabların gilinə bənzər hazırlanırdı. Kərpiclərin gilinə isə çoxlu qarışıq əlavə edilirdi. Tünglər ayaq çarxında, kərpiclər və kirəmitlər isə xüsusi qəliblərdə düzəldilirdi.

Orta əsr saxsı məmulatı hazırlanma texnikasına görə iki əsas qrupa - şirsiz və şirli qablara bölünür.

IX-XIII əsr şirsiz saxsı qabları çeşid və forma etibarı ilə çox müxtəlifdir. Qabların çox çeşiddə olması onların müxtəlif məqsəd üçün istifadə edilməsi ilə əlaqədardır. Həm də maraqlıdır ki, şar-konusvari qablar istisna olmaqla bütün orta əsr saxsı qabları öz formasını son zamanlara qədər saxlamışdır. Bu da onların elə həmin dövrdə kamil hazırlanması və zamanın sınağından məharətlə çıxa bilməsi ilə bağlıdır. Təkcə şar-konusvari qablar hələ də alimlərə tam aydınlığı ilə məlum olmayan səbəblərdən XVI əsrdə istifadədən çıxmışdır.

Çox yayılmış qabların bir növü də küplərdir (tablo 47). Küplər ərzaq, şərab, su və digər mayeləri saxlamaq üçün istifadə edilirdi. Hündür boğazlı küplərin bəzən 2-4 ədəd dəstəyi olurdu. Dəstəyin üstündə konusvari çıxıqlar düzəldilmişdir. Qulpsuz iri küplər torpağa basdırılır, dəstəkli küplər isə anbarın içərisinə, otaqların künclərinə qoyulur və lazım gəldikdə yeri dəyişdirilirdi. Dəstəkli küplər bəzəklərinə görə iki yerə ayrılır: birinci qrup küplər ağ anqobla örtülmüş və memarlıq bəzəkləri ilə naxışlanmışdır. Onların üstündə bəzən yazıya da təsadüf olunur. Beyləqandan tapılmış, üzərində Əzizin oğlu Əlinin adı olan küp buna misal ola bilər. İkinci qrup küplər isə üstü şüyrələnmiş və qırmızı rənglə boyanmışdır. Onların üstü müxtəlif təsvirlər olan zolaqlarla naxışlanmışdır (tablo 48). Bəzən belə küplər başdan-başa firuzəyi şirlə örtülmüşdür. Onların nümunələrinə Beyləqanda təsadüf edilmişdir. Belə hesab edilir ki, bu küplərdən məclislərdə şərab və yaxud şərbət içmək üçün istifadə olunmuşdur.

Qulpsuz iri təsərrüfat küpləri Azərbaycanın bütün orta əsr şəhərlərində aparılan arxeoloji qazıntıların IX-XIII əsr təbəqələrindən aşkar olunmuşdur.

Nehrə qalıqlarına (tablo 49, şək. 10-11) Qəbələ, Mingəçevir, Şabran, Seyidli, Sərkərtəpə qazıntılarında təsadüf olunmuşdur. Gəncə və Beyləqandan onlar çox az tapılır. Görünür bu onunla izah edilir ki, düzən yerlərdə yerləşən bu şəhərlərin əhalisi yay aylarında dağlara köç etdiklərinə görə, indi olduğu kimi, o vaxtlarda da, əsasən, ağac nehrələrə üstünlük vermişdilər.

Sərnic, küpə, dopu, goduş və s. qablar (tablo 49, şək. 1-9) əsas etibarilə maldarlıq təsərrüfatı ilə bağlı olub, ağartı üçün istifadə edilirdi.

Şirsiz saxsı məmulatının əsas kütləsini, əlbəttə, mətbəx və süfrə qabları təşkil edir. Bunların əksəriyyəti qazan (güvəc), boşqab, kasa, nimçə, badya və duz qablarından ibarətdir.

Qazanlar əsas etibarilə yarımşar formadadır, onların əksəriyyətinin dairəvi oturacağı var, ancaq dayaz qazanların oturacağı yastıdır (tablo 50, şək. 1-3, 6). Geniş boğazlarının ağız hissəsi bir az içəri qatlanmışdır, qulpları kiçik və çəftəvaridir

(Q.M.Əhmədov, 1959, səh. 60-65). Onların yarımşar şəkilli oturacağı əl ilə, boğaz hissələri isə dulus çarxında formalaşdırılmışdır. Əl ilə bütöv hazırlanan qazanlara da təsadüf olunur. Onların oturacağını formaya salmaq üçün torba üsulundan istifadə edilmişdir (Yarımşar şəkildə tikilmiş torba qumla doldurulur, torba gil ilə suvandıqdan sonra içərisi boşaldılır, beləliklə, qazanın oturacağı alınırdı). Bəzi qazanların novça və lülə şəkilli burunları var. Qazanların çiyin hissəsinə, başlıca olaraq dərin nöqtələr, xətlər, çərtmələr və bəzən firuzə rəngli şirli qab qopuqları ilə düzəldilmiş bəzəklər vurulmuşdur. Yapma naxışlara da təsadüf olunur.

Su qabları da (səhəng, bardaq, aftafa və b.) çoxluq təşkil edir (tablo 52-59). Azərbaycanın orta əsr çıraqları iki qrupa bölünür: birinci qrupa iki tiplə təmsil olunan piydanlar aiddir. Birinci tipə yastı oturacaqlı, piyalə şəkilli piydanlar daxildir (tablo 61, şək. 3-4). İkinci tip piydanlar üç hissədən - fitil qoyulmaq üçün kiçik açıq burnu olan üst kasacıq, oturacaq rolu oynayan alt kasacıq və onları birləşdirən oxdan ibarətdir (tablo 61, şək. 5-6). Belə piydanlar - çıraqlar Qəbələ, Beyləqan, Şabran, Mingəçevir və digər abidələrdən məlumdur. Onlar sayca azlıq təşkil edirlər. Görünür onlarda piy yandırılırdı və Azərbaycan üçün o qədər də səciyyəvi deyildi.

İkinci qrupa qaraçıraq adlandırılan çıraqlar aiddir. Onların qısa boğazı, kiçik gövdəsi, fitil keçirilən burnu və qulpu var (tablo 61, şək. 1-2, 7-11, 13-14). IX-X əsrlərdə çıraqların qulpunun bir ucu ağzının kənarına, digər ucu isə gövdəsinə yapışdırılırdı. XI-XIII əsrlərdə çıraqların gövdəsi daha kiçik, qulp isə adətən lentvari şəkildə dairəvi düzəldilirdi və qabın boğazına birləşdirilirdi. Bəzilərinin üzəri

şirlə də örtülmüşdür. İkinci növ çıraqlar bütün Cənubi Qafqaz ərazisindən tapılır, daha doğrusu, o ərazilərdən ki oraya orta əsrlərdə Bakı nefti daşınırdı. Belə çıraqlarda neft yandırıldığı şübhə oyatmır. Silbinc tipli qabların (tablo 60, şək. 3) tapılması uşaqların beşikdə bəsləndiyi haqqında məlumat verir. Sadə məişət qabları ya tamam naxışsızdır, ya onların çiyin hissəsi cızma düz və dalğalı xətlərlə, yaxud da basma naxışla bəzədilmişdir. Azərbaycanın basmanaxışlı qabları bədii cəhətdən xüsusilə çox zəngindir. Onlar Yaxın və Orta Şərq şəhərlərindən tapılan qablara çox oxşardır (tablo 56; 57). Azərbaycanın orta əsr saxsı məmulatının xüsusi qrupunu şar-konusvari qablar (tablo 62) təşkil edir. Bu qablardan hansı məqsəd üçün istifadə edildiyi elmi ədəbiyyatda uzun müddət müzakirə olunmasına baxmayaraq, hələ də mübahisəli olaraq qalır. Tədqiqatçıların bir qrupu şar-konusvari qabların yandırıcı mərmi, qumbara kimi hərbi işdə istifadə olunduğunu bildirir (В.А.ВЯТКИН, 1926, стр. 57-60; Л.Д.Дмитров, 1943, стр. 117-138; А.В.АРЦИХОВСКИЙ, 1947, стр. 160-161; И.М.Джафарзаде, 1949. стр. 71; S.M.Qazıyev, 1965a, səh. 152; S.Əhmədov, 2000, səh. 35-38). Bəzi tədqiqatçılar şar-konusvari qablardan civə və bu qəbildən olan maddələrin qablaşdırılması və daşınması üçün istifadə edildiyini göstərirlər

(Б.В.Лунин, 1961, стр. 262-263; О.Л.Вильчевский, 1961, стр. 212;, Г.А.Джидди 81, стр. 60-61). Şar-konusvari qabların ətriyyat və digər qiymətli mayelərin qablaşdırılması və daşınması məqsədi ilə işlədildiyini bildirən alimlər də az deyil (Г.В.Шишкина, 1979, стр. 16; Р.М.Джанполадян, 1982, стр. 12; Е.Атагаррыев, 1986, стр. 167-168). Tədqiqatçıların bir qrupu isə şar-konusvarı qabların təsərrüfat əhəmiyyətli olduğunu, müxtəlif şirniyyat və içkilərin saxlanması və daşınması üçün istifadə edildiyini ehtimal edirlər (Q.M.Əhmədov, 1979, səh. 31). Bir qrup tədqiqatçılar isə şar-konusvari qabların polifunksional əhəmiyyət kəsb etməsi, onlardan qiymətli mayelərin daşınmasında, məişət ehtiyaclarını ödəmək üçün, civə və digər kimyəvi maddələri saxlamaq və daşımaq üçün istifadə edildiyini bildirirlər (Б.И.Ибрагимов, 2000, стр. 82; T.M.Dostiyev, 2001, səh. 157). Belə qablar Azərbaycanda Qəbələ, Bakı, Bəndovan, Şamaxı, Şabran, Beyləqan, Gəncə, Şəmkir, Naxçıvan, Dəbil, Bərdə şəhərlərində aparılan qazıntılardan və bir neçə başqa abidələrdən yerüstü material kimi məlumdur. IX-X əsrlərə aid şar-konusvari olmaqla həmin qablar forma etibarı ilə daha çox şar şəklində olması, naxış sadəliyi və saxsının məsaməliliyi cəhətdən fərqlənir. Onların bəzilərinin üzərində yazıya təsadüf olunur. Bunlar ən çox cızma və iç-içə batıq xətlə naxışlanmışdır. XII-XIII əsrin əvvəllərinə aid olan şar-konusvari qablar isə nisbətən daha zəngin naxışlanmışdır. Onların saxsısı yaşıl-boz rəngə çalır və çox möhkəmdir. Formalarında dəyişiklik oturacaq (aşağı) hissəsinin daha dar olmasıdır. Bu dövrün qabları üçün möhürlə vurulmuş naxışlar səciyyəvidir (Q.M.Əhmədov, 1959, səh. 141-142). Azərbaycanın şar-konusvari qabları üçün Beyləqan qazıntılarının XIII əsrin ikinci rübünə aid mədəni təbəqəsindən aşkar olunanları xüsusilə maraqlıdır. Düz oturacaqlı, şar-konusvari olmaqla həmin qablar spesifik haldır. Belə qablar başqa dövrlərdən və başqa ölkələrdən məlum deyil. Bunların zəngin həndəsi basma naxışları var. Orta əsr Gəncə şəhərinin ərazisindən Gəncəçayın sağ sahilindən tapılmış bir ədəd şar-konusvari qab xüsusilə diqqəti çəkir. Bu qabın həcmi nisbətən böyükdür, hündürlüyü 30 *sm,* enli yerdə diametri 18 *sm*-dir. Böyük ustalıqla



**Gəncə. Şar-konusvari qab.**

hazırlanıb, yaxşı bişirilib və gözəl naxışlanıbdır. Qabın üzəri təsvirlər, göy cisimlərinin şəkilləri və nəbati naxışları olan basma zolaqlarla əhatələnmişdir. Qabda həmçinin ərəb əlifbasının "nəsx" xətti ilə basılmış yazı var. Gövdənin ortasını qurşaqlayan enli kəmərdən qoşa sünbüllər arasında altı yerdə süvari təsviri, ondan yuxarıdakı dar kəmərdə qaçış vəziyyətində 22 dovşan rəsmi, ondan sonrakı kəmərdə altı sözdən ibarət yazı, daha yuxarıdakı kəmərlərdə isə müvafiq surətdə 4 quş, bitki, yenə də quş təsvirləri möhürlənmişdir. Gövdənin aşağısına isə yeddi dairə çəkilmişdir.

Atlı təsvirləri də möhürlə basılıb. Atlının əynində çuxa, əlində qamçı var. Uzun saçları sifəti boyunca tökülüb, ayaqlarını bərk sıxaraq qantarğanı dartıb, atı qamçı ilə vurduğundan şahə qalxmış at elə bil, bu an sıçrayacaq. Ümumiyyətlə, qabdakı təsvirlərin hamısı çox canlı verilib. Heyvanların qaçışı, quşların uçuşu da beləcə realdır. Bütövlükdə götürsək, bu qabı yüksək sənətkarlıq nümunəsi hesab etmək olar. Qabdakı təsvirlərin açması haqda müxtəlif fikirlər var. Bəziləri hesab edirlər ki, atlı Məhəmməd Cahan Pəhləvanın özüdür, qaçan dovşanlar isə onun düşmənlərinin simvolik şəkilləridir. Bəziləri isə bu səhnənin Şərq təqviminin simvolları ilə əlaqələndirirlər. Səkkizguşəli işarəni bazar günü, dovşanı il, xərçəngi (yaxud əqrəbi) isə ay göstəricisi kimi izah edirlər. Beləliklə, güman edilir ki, qab dovşan ilində iyun və oktyabr aylarının birinci bazar günündə, yəni taxıl biçiminin başa çatdığı dövrdə istehsal olunmuşdur.

**irli saxsı məmulatı.** IX əsrdən başlayaraq şəhər əhalisi məişətinə genişliyi ilə daxil olmağa başlayan şirli qab istehsalı sürətlə artır, saxsı məmulatının bu yeni növü nəinki əməli əhəmiyyəti, həm də bədii xüsusiyyətinə görə əhalinin diqqətini cəlb edir. Azərbaycanda şir icad olunana qədər saxsı qabların səthini örtmək üçün xüsusi gil məhlulundan - anqobdan istifadə olunurdu. Azərbaycanda və bütün Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Cənubi Qafqazda şir parlaq və rəngsiz qurğuşun tozundan alınırdı. Qurğuşun oksidindən hazırlanan şir qabın səthinə vurulduqda, saxsını möhkəmləndirir, onun məsamələrini doldurmaqla su hopdurmasının qarşısını alır, səthi hamarlayır, saxsının rəngini dəyişmədən parıldamasına səbəb olur. Şirin altında xətlərlə və yaxud müxtəlif rənglərlə vurulan naxış qaba daha çox bədii görkəm və gözəllik verir.

Azərbaycanın şirli saxsı qabları hazırlanma texnikası və bədii işləməsinə görə bir neçə qrupa bölünür (А.Л.Якобсон, 1959a, стр. 228-300; Q.M.Əhmədov, 1979, səh. 32-34; 59-60; А.А.Кудрявцев, 1979, səh. 111-132; 1981, səh. 78-109; И.А.НОВРУЗЛУ, 1993, səh. 24-38,47-63; Б.И.Ибрагимов, 2000, стр. 85-114; Т.М.ДОСТИЕВ, 1989, стр. 193-206; T.M.Dostiyev, 2001, səh. 162-168). Bunlar əsas etibarilə aşağıdakılardan ibarətdir:

1. Parlaq qurğuşun şiri altında qabın saxsısının və ya qırmızı boyanmış səthinin anqobla naxışlanması (tablo 63).

2. Şəffaf qurğuşun şiri altında qabın səthinə marqanes rəngli və yaxud anqobla naxış vurulmuş qablar (tablo 64).

3. Üç (yaşıl, sarı, şabalıdı) rənglə, anqob astar üstünə, bəzən dayaz və qalın cızma xətlər də çəkilməklə naxışlanmış qablar. Belə qabların naxışında cızma xətlər qabın əsas (rəngli) naxışı ilə uzlaşmır (tablo 65).

4. Anqob astar üstünə cızma xətlərlə və adda-budda marqanes və yaşıl rənglərlə naxışlanmış qablar. Bunlar şəffaf şirlə örtülmüşdür (tablo 66).

5. Anqob astardan qazıyaraq iri (ilk dövrlərdə) və yaxud xırda (daha sonralar) naxışlar çəkilmiş qablar. Bu naxışlar üstdən rəngsiz şəffaf və ya yaşıl rəng qatılmış şirlə örtülmüşdür (tablo 67, şək. 1-2).

6. Naxış fonundakı anqob təbəqəsini qazıb naxış işləmələrini üzə çıxarmaqla bəzədilmiş, bir və ya çox rəngli şirlə şirlənmiş qablar (tablo 67, şək. 5; tablo 68, şək. 4).

7. Anqobüstü cızma naxışları çoxrəngli rəsmlərlə uzlaşmayan saxsı qablar (tablo 68, şək. 2).

8. Anqobüstü cızma naxışları çoxrəngli rəsmlərlə tam uzlaşan qablar (tablo 69, 70; 72).

9. Anqob astar üstündən çoxrəngli rənglərlə naxışlanmış (cızma xətləri olmayan) qablar (tablo 69, şək. 6).

10. Anqobüstü marqanes rəngli naxışın əlavə cızma xətlərlə bəzəyi olan qablar (tablo 67, şək. 6-7).

11. Bir rənglə rəsmlər çəkilmiş qablar.

12. Bişirilənə qədər basma, kəsmə və yapışdırma naxışla bəzədilmiş şirli qablar (tablo 67, şək. 4).

Onu da qeyd etməliyik ki, bu qrupların bəziləri texniki xüsusiyyətləri və bədii işlənməsinə, xüsusilə rəsmlərin kompozisiyasına görə müxtəlif çalarlara malikdir.

Şirlə əsas etibarilə süfrə qabları örtülürdü. Açıq formaya malik qablar (kasa, boşqab, duzqabı və s.) əsasən içəridən, içərisi görünməyən qablar isə (bardaq, çıraq və s.) çöldən şirlənirdi. Bəzi iri boğazlı qablar isə hər iki tərəfdən şirlə örtülmüşdür.

Bədii şirli qabların əsas kütləsini kasalar təşkil edir. IX-X əsrlərə aid şirli qablar başlıca olaraq anqob boyaları ilə bəzədilirdi. Sonralar XI və XII-XIII əsrlərdə Azərbaycan dulusçuları metal oksidlərindən alınan rənglərdən geniş istifadə etməyə başlayırlar. Marqanes oksidi (şabalıdı rəng), mis oksidi (yaşıl rəng), dəmir oksidi (sarı rəng), kobalt oksidi (mavi rəng) və digər metallardan alınan rənglər və onların müxtəlif çalarları şəffaf qurğuşun şirinin altında qablara misilsiz gözəllik verir. İstər

rənglə, istər cizgilərlə çəkilmiş, istərsə də möhürlə basılmış naxışlar nazik və şəffaf qurğuşun şiri altında olduğu kimi görünür və qabın bədii görkəmini davamlı və effektli edirdi.

Azərbaycanın şirli qablarının hazırlanmasında, xüsusilə onların bədii işləməsində istifadə olunan bir çox texniki üslublar, o vaxtlar Orta və Yaxın Şərq ölkələri, həmçinin Cənubi Qafqaz üçün ümumi idi. Lakin elə üslublar var ki, onlar ancaq Azərbaycan üçün səciyyəvi idi. Onlara yaşıl toxuma lent və otlar arasında canlı şəkildə heyvan və quş təsvirləri çəkilmiş qabları aid etmək olar. Bu qrup qabların naxışı qazıma üsulu ilə hazırlanmışdır. Azərbaycan üçün daha bir qrup səciyyəvi qablar anqobüstü marqanes zolaq və təsvirlərin yenidən şirüstü cızma xətlərlə nəzərə çatdırılması üsulu ilə naxışlanan qablardır. Belə qablarda ustalar marqanesl ə çəkdiyi naxışı onun astarı hesabına təkrar canlandırırdı. Başqa sözlə desək, naxışın astarından bir əlavə naxış toxunurdu (tablo 67, şək. 6-7). Anqob astar üstündən marqanes şiri ilə siluet təsvirlər çəkilmiş qablar da Azərbaycan üçün səciyyəvi sayılır.

Bəzi bəzəkvurma üsulu, görünür, bir dulus mərkəzinə aid olmuşdur. Məsələn, marqanes şiri üstündən əlavə cızma xətlərlə naxışlama əsasən Beyləqan üçün səciyyəvi idi.

Azərbaycan şirli saxsı qabları üçün oturacağı altına möhür vurulması halı da səciyyəvidir. Belə qablar Gəncə, Qəbələ, Şamaxı, Bakı, Şabran, Beyləqan şəhərlərinin və başqa abidələrin arxeoloji qazıntılarından məlumdur. Beyləqan və Qəbələ qazıntılarında möhürlərin özlərinə də təsadüf edilmişdir. Belə möhürlərin əsas kütləsi həndəsi fiqurlar və göy cisimlərinin sxematik təsvirləri şəklində naxışlanmışdır (tablo 76). Nadir hallarda heyvan, quş və adam təsviri olan möhürlərə (tablo 77) də rast gəlinir (О.Ш.Исмизаде, 1964a, стр. 174-175; С.Б.Гусейнова, 1986; С.Б.Гусейнова, В.А.Квачидзе, 1979, стр. 95). Möhürlər naxışlarına görə adətən qruplara bölünür. Lakin qrupların arasında da bəzi əlamətlərinə görə fərqlənənlər vardır. Qrupların naxışlarında zaman keçdikcə inkişafın olduğunu da izləmək mümkündür. Xüsusilə, həndəsi fiqurlar və göy cisimlərinin təsviri olan möhürlərdə bu cəhət daha aydın nəzərə çarpır. Belə vəziyyət, görünür, ustanın oğlu, usta köməkçisi tərəfindən hazırlanan və yaxud yeni dəst qabların istehsalı ilə əlaqədar yaranmışdır.

Müxtəlif Azərbaycan şəhərlərində oxşar möhürlərə təsadüf olunur. Möhürləri bir qayda olaraq həm zəngin və qiymətli, həm də sadə şirli qabların oturacağına vururdular. Şirli saxsı qabların oturacağına möhür vurulmasının təyinatı barədə tədqiqatçılar arasında yekdil fikir yoxdur. Bir qrup tədqiqatçı möhürləri dulus emalatxanalarının nişanı hesab edir (В.Н.Левиатов, 1940, стр. 36; 1946, стр. 84;

О.Ш.Исмизаде, 1964a, стр. 168; Г.А.ДЖИДДИ, 1981, стр. 65). Bəzi tədqiqatçılar möhürlərin ayrı-ayrı dulusçu ustalara mənsubluğunu bildirirlər (Q.M.Əhmədov, 1979, səh. 69; О.Ш.Исмизаде, Ф.А.Ибрагимов, 1983, стр. 46; Р.Дж.Ахмедов, 1992, стр. 62), digərləri möhürlərin dini mərasim qablarına vurulduğunu qeyd edirlər (С.Б.Гусейнова, 1991, стр. 35; С.Б.Гусейнова, В.А.Квачидзе, 1979, стр. 99, 1983). Möhürlərin verginin və ya gömrük rüsumunun ödənilməsi nişanı olması haqqında da ehtimal vardır (В.А.Квачидзе, 1994, стр. 123-125). Azərbaycan şəhərlərindən tapılan möhürlü qablar əsasında belə qənaətə gəlmək olar ki, bu möhürlər nə emalatxanaya, nə də sifarişçiyə aid olmamışdır, çox güman ki, onlar ustalara aid olmuş və qablara da möhürü ustalar özləri vurmuşlar. Möhürləri emalatxanaya aid etmiş olsaq, onda şəhərlərdə eyni zamanda hədsiz miqdarda çox dulus emalatxanalarının mövcud olduğunu söyləmək lüzumu ortaya çıxar. Məsələn, Beyləqan qazıntılarından 150 möhür surəti aşkar olunmuşdur. Məlumdur ki, hər qab üçün, hətta sadə qab üçün sifariş verib möhür hazırlatmaq özünü doğrultmazdı. Çünki belə möhürlərdə sifarişçi adı yazılmır və ümumiyyətlə, qabın baha başa gəlməsinə səbəb ola bilərdi. Eyni qablarda həm usta adlarının, həm möhürlərin (Beyləqanda usta Bədəl, Ömər oğlu İsa və s.) olması çox güman ki, ustaların öz adlarını və nəsillərinin nişanlarını nümayiş etdirmək arzusu ilə bağlıdır. Bu onunla da əsaslandırılır ki, həm yazılar, həm də etnoqrafik materiallar orta əsrlərdə sənətin irsi keçdiyini göstərir. Bu faktla həm də qruplar üzrə möhürlərdəki oxşarlığı da izah etmək olar. Ümumiyyətlə, orta əsrlərdə nəsli nişanlardan geniş istifadə olunurdu. Belə nişanlarla bayraqlar, mal-qara, qab-qacaq fərqləndirilirdi. Son zamanlara qədər Azərbaycanın Qəbələ rayonunun Küsnət kəndində cib bıçaqlarının üstündəki nişana görə yerli əhali onun hansı ustaya aid olduğunu asanlıqla müəyyən edə bilirdi. Eyni sözü İsmayıllı rayonu Lahıc kəndindəki misgərlər haqqında da demək olar. Burada hər ustanın öz nişanı var, həmin nişanı onlar hazırladığı qabın üstünə həkk edirlər.

**Fayans qablar.** Azərbaycanda qazıntılardan tapılan fayans qabların əksəriyyəti gətirmə qablardır. Lakin Beyləqan, Gəncə, Şəmkir, Xaraba-Gilan, Dəbil şəhər yerlərində aparılan arxeoloji qazıntılar zamanı tapılan fayans qabların içərisində məşhur İran fayansından fərqlənən nüsxələrə də təsadüf olunur (tablo 78). Bunları yerli istehsala aid etmək mümkündür. Çox təəssüf ki, zəif öyrənildiyi üçün belə tapıntıların Azərbaycanda hansı istehsal mərkəzinə aid olduğunu müəyyən etmək çətindir.

V.N.Leviatov hətta zərnaxışlı fayans qabların bir qisminin Azərbaycanda - Beyləqan və Gəncədə hazırlandığını mümkün hesab edirdi. Onun yazdığına görə orta əsr Gəncə şəhər yerinin sənətkarlar məhəlləsində belə qabların çıxar nümunəsi tapılmışdır. Orada ağ gil təbəqəsi də aşkar olunmuşdur (В.Н.Левиатов, 1940, səh.

33). Qeyd etməliyik ki, hələ X əsr coğrafiyaşünası İbn Xordadbeh Arranda qab hazırlamaq üçün ağ gildən istifadə edildiyini göstərmişdir. Fayans qabların çıxar nümunələri Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılardan da məlumdur. Dəbildə fayans qablar istehsalına X əsrdən başlansa da onun yüksək çağı XI-XII əsrlərə təsadüf edir (Б.Н.Аракелян, 2003, стр. 346-347). Beyləqan qazıntılarından o qədər fayans qab tapılmışdır ki, bütün bu tez sınan və çətin daşınan qabların kənardan gətirilmə olduğunu iddia etmək şübhə doğurur. XI-XIII əsr Azərbaycan ustaları, xüsusilə Beyləqan və Gəncə dulusçuları dövrün saxsı istehsalının bütün texniki nailiyyətlərini mənimsəmişlər. Odur ki, yerli ustaların fayans istehsalı üzrə də dövrün texniki nailiyyətlərindən xəbərdar olduqları şübhə oyatmaya bilər. Azərbaycan şəhərləri, o cümlədən Gəncədən tapılan fayans qablar üzərində Nizami Gəncəvinin motivləri əsasında süjetli təsvirlərin çəkilməsi, görünür, təsadüfi deyildir.

**Şüşə istehsalı.** IX-XIII əsrin ilk qərinəsində Azərbaycanda şüşə məmulatı istehsalı genişlənir, onun keyfiyyəti yüksəlir. Bir çox sənət sahələrindən fərqli olaraq şüşə istehsalı sırf şəhər sənətkarlığı idi. Belə ki, bu sənət sahəsi zəruri xammal ehtiyatından başqa yüksək hərarətin alınmasına imkan verən quruluşa və bir sıra mürəkkəb texnoloji qurğulara malik xüsusi kürələrin qurulmasını, eləcə də sənətkarın yüksək peşəkarlığını tələb edirdi (Ю.Л.Щапова, 1983; А.А.Кудрявцев, 1988, 1988a). Şüşə istehsalı üçün başlıca xammal tərkibində dəmir oksidinin az, natrium və kalsium oksidlərinin yüksək olduğu qum idi. Azərbaycanda zəruri xammal ehtiyatlarının bolluğu şüşə istehsalının ehtiyacını tam təmin etməyə qadir idi. Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji qazıntılarından xeyli miqdarda deformasiyaya uğramış qab qırıqları, bəzək əşyaları, istehsal tullantıları, külli miqdarda şüşə məmulat tapılmışdır. Bu dövrün şüşə məmulatı çox çeşidlidir. Şüşə məmulatındakı standartlıq isə onun istehsalının bazarın tələbatına yönəldiyinə dəlalət edir. Mühüm yeniliklərdən biri pəncərə şüşələri istehsalına başlanılmasıdır. Şüşə istehsalı ilə bağlı sənətkar emalatxanasının qalıqları isə Dərbənd şəhərinin arxeoloji qazıntılarından məlumdur (М.И.Исаков, 1959, стр. 206; А.А.Кудрявцев, 1988, стр. 66). Buradakı şüşə əridilən kürə dairəvi plana malik olub diametri 1 *m*-dən artıq, hündürlüyü isə 1,5 *m* idi. Kərpicdən qurulmuş bu kürənin divarları şüşə ərintiləri ilə örtülmüş, kürənin içərisi isə pasa və tünd-göy rəngli şüşə kütləsi ilə dolu idi. Şüşə istehsalı ilə məşğul olmuş bəzi sənətkarların adı bizə məlumdur. Misal üçün, Şamaxı şəhərində aparılan arxeoloji qazıntılar zamanı oturacağına möhür vurulmuş iki şüşə qab qırığından birində "Əməli Xaldun ibn Əli", digərində isə "Əməli Əbu Rəşid Musa" adları göstərilmişdir (Г.А.Джидди, 1985, стр. 136).

Arxeoloji qazıntılar zamanı tapılmış şüşə məmulatının kimyəvi-analitik və spektral tədqiqi orta əsrlərdə yerli emalatxanalarda şüşə istehsalı texnologiyasının xüsusiyyətlərini, lokal əlamətlərini izləməyə imkan verir. Bu baxımdan Beyləqan, Şabran, Qəbələ şəhər yerlərindən və Sandıqtəpənin üst mədəni təbəqəsindən tapılmış şüşə nümunələrinin spektral analizləri mühüm əhəmiyyət kəsb edir (М.А.Безбородов, А.Л.ЯКОБСОН, 1960; Т.М.Достиев, 1994; T.M.Dostiyev, Q.Ə.Hacıyev, 2000). Şabran şəhərinin şüşə məmulatının miqdarı spektral analizlərinin nəticələrinə diqqət yetirək. Nümunələrdən altısı bilərzikləri, biri pəncərə şüşəsini, qırx biri müxtəlif təyinatlı qab qırıqlarını təmsil edir. Müəyyən olunmuşdur ki, məişətdə işlədilən qab-qacaqların böyük əksəriyyəti Si-Na-Ca əsaslıdır. Onların əksəriyyəti Si-Al-Na(K)-Ca və Si-Na(K)-Ca(Mg) şüşə tipinə mənsubdur. Orta əsr sənətkarları məhsulun təyinatından asılı olaraq şüşəni müxtəlif reseptlər əsasında hazırlayırdılar. Məsələn, Si-Na-Pb tərkibli şüşə yalnız bilərziklərin istehsalında tətbiq olunurdu (T.M.Dostiyev, Q.M.Hacıyev, 2000, səh. 78).

Pəncərə şüşələrinin istehsalının təşkili də dövrün uğurlarından hesab oluna bilər. Diskşəkilli, müstəvi şüşənin alınması yerli ustalardan yüksək peşəkarlıq tələb edirdi. Ən çox isə məişətdə işlədilən qab-qacaq və bəzək əşyaları istehsal olunmuşdur.

Şüşə məmulatının hazırlanmasında müxtəlif texniki üsullardan - sərbəst üfürmə, qəlibdə üfürmə, tökmə, dartma, burma, qaynaqetmə, cilalama və s. istifadə olunmuşdur.

Zaman keçdikcə şüşə məmulatının keyfiyyəti yüksəlmiş, rəng çalarları zənginləşmişdir. Şəffaf, rəngsiz şüşələrlə yanaşı yaşıl, sarı, mavi çalarlı şüşələrə də tez-tez təsadüf olunur.

Şüşə məmulatının bədii tərtibatında cızma üsulundan başqa möhürlə basma naxışlar salmaq, müxtəlif rəngli saplardan yapma naxışlar vurmaq üsulu da uğurla tətbiq olunurdu.

Arxeoloji qazıntılardan tapılmış şüşə məmulatı təyinatına görə süfrə qablarından (tablo 79; 80), ətir və əczaxana qablarından (tablo 81, şək. 1-8), əl-kimya qablarından (tablo 81, şək. 9-14), bəzək əşyalarından (tablo 96, şək. 10-18, 21-28, 30-31) və pəncərə şüşələrindən ibarətdir.

Süfrə qabları qrafin, kuzə, bərni, piyalə, stəkan, badə, qədəh nümunələri ilə təmsil olunmuşdur. IX-XIII əsrlərə aid mədəni təbəqədə nazik divarlı, nəfis şüşə qablarla yanaşı, bəzən kobud hazırlanmış qablara da təsadüf olunur. Belə qabların şüşəsində hava boşluqları aydın görünməkdədir. Şübhəsiz, bu hal, həmin qabların istehsalının aşağı səviyyədə olduğunu nümayiş etdirir. Beyləqan və Qəbələdən

tapılan kobud qabların xoşal gövdəsi, qısa boğazı və içəriyə batıq oturacağı var (Q.M.Əhmədov, 1979, səh. 61).

Arxeoloji qazıntılardan zərnaxışlı, nazik divarlı süfrə qablarına məxsus xeyli fraqmentlər tapılması şəhər sakinlərinin məişətində nəfis şüşə qablardan geniş istifadəni sənədləşdirir.

Əczaçılıq və kimya laboratoriyalarında işlədilən qablar şəhər yerlərinin qazıntılarından aşkarlanmışdır. Laboratoriyalarda tətbiq olunan qablardan alembiklər (tablo 81, şək. 9-11, 13-14) Şabran, Qəbələ, Beyləqan, Gəncə və Dəbil şəhərlərinin arxeoloji tədqiqindən məlumdur (T.M.Dostiyev, səh. 178, В.П.Фоменко, 1976, стр. 50; Р.М.Джанполадян, 1974, стр. 40). Azərbaycanda bu tip laboratoriya qablarının VIII əsrin sonlarından yayılmağa başladığı ehtimal olunur. Erkən saxsı alembiklər digər laboratoriya qabları ilə birlikdə Qəbələ şəhərinin arxeoloji qazıntılarından məlumdur (İ.Əliyev, F.Qədirov, 1985, səh. 76). Şabran və Qəbələ şəhərlərinin qazıntılarından tapılmış IX-X əsrlərə aid qıf formalı boğazı, novçalı ağzı olan qabın qırıqları, kolba tipli şüşə qaba məxsus fraqment də laboratoriya ləvazimatı kimi istifadə olunmuş qabların nümunələridir (T.M.Dostiyev, 2001, səh. 178; İ.Əliyev, F.Qədirov, 1985, səh. 81).

Şüşə emalatxanalarında bəzək əşyaları - muncuq, asma, bilərzik və üzüklər də istehsal edirdilər. Bəzək əşyalarının, xüsusilə muncuqlarm hazırlanması müxtəlif texnoloji prinsiplərə əsaslanırdı. Bunların istehsalı dartılmış nazik şüşə borucuğu doğramaq, eşməklə, yastı şüşə qaytanı bərk əsasa sarımaqla, doğranmış şüşə çubuğu cilalamaqla və bir sıra digər üsullarla həyata keçirilirdi.

**Daşişləmə sənəti.** Memarlıq abidələri, eləcə də arxeoloji qazıntılar zamanı aşkarlanmış tikili qalıqları, xatirə abidələri, müxtəlif təyinatlı daş məmulatı daşişləmə sənətinin kifayət qədər inkişaf etdiyini təsdiqləyən dəlillərdir. Daşişləmə sənətinin ən incə və zərif nümunələri bəzək əşyası istehsalında özünü göstərir.

Daş alətlərdən su dəyirmanı və əl dəyirmanı (kirkirə) daşları istehsalı geniş yayılmışdı. Dəyirman daşları vulkanik süxurlardan - kvars, bazalt və qumdaşından hazırlanırdı. Onların nümunələri Beyləqan, Gəncə, Bərdə, Şabran və Dərbənd qazıntılarından tapılmışdır (tablo 82, şək. 11-12). Məlum olur ki, hətta şəhər şəraitində belə su dəyirmanları kirkirəni sıxışdırıb aradan çıxarmamışdı.

Arxeoloji tədqiqatlar zamanı daşdan yonulmuş, müxtəlif meyvələrdən şirə alınmasında işlədilən sıxac nümunələrinə (tablo 83, şək.1-2), hərbi işdə atıcı silahlarda istifadə edilmiş daş mərmilərə də (tablo 83, şək. 4) rast gəlinmişdir.

Liman şəhərlərində yerli daşyonanlar dənizçiliklə bağlı məmulat da hazırlayırdılar. İlk növbədə daş lövbərlər haqqında məlumat verək. IX-XIII yüzilliklərə aid daş lövbərlər Bəndovan, Gürqan, Bayıl qəsri və Dərbənd

qazıntılarından məlumdur (tablo 84). Onlar əsasən düzbucaq və trapes biçimlidir və kəndir keçirmək üçün deşikləri vardır (А.А.Кудрявцев,С.В.Гусев 1988, стр. 85-92; В.А.Квачидзе, 1978).

Daşişləmə sənətinin yüksək səviyyəsindən xəbər verən arxeoloji tapıntılardan biri də Şabran şəhər yerində aşkarlanmış incə nəbati naxışlarla bəzədilmiş fontan qalığıdır (tablo 83, şək. 6). Onun bütövlükdə, eləcə də ayrı-ayrı hissələrinin öyrənilməsi göstərir ki, həkkaklar naxış salarkən dişli törpülərdən, müxtəlif tip yeyələrdən, burğu, pərgar, ülgü, iskənə və s. alətlərdən istifadə etmişlər (T.M.Dostiyev, 2001, səh. 191).

Bütövlükdə, IX-XIII əsrlərin daş məmulatının və memarlıq abidələrinin tədqiqi göstərir ki, yerli ustalar daşişləmə sənətində kəsmə, yonma, hamarlama, cilalama, deşmə, naxışvurma üçün müxtəlif əmək alətləri tətbiq etmiş, bu sahədə böyük uğurlar qazanmışdılar.

**Sümükişləmə.** Arxeoloji qazıntıların nəticələri IX-XII yüzilliklərdə sümükişləmə sənətinin şəhər sənətkarlığında özünəməxsus yer tutduğunu göstərir. Qazıntılar zamanı xeyli miqdarda mişarlanmış və ya iti alətlə kəsilmiş, lakin naməlum səbəbdən istehsala cəlb olunmamış buynuz və heyvan sümükləri, istehsalı başa çatmamış sümük məmulatı tapılıb. Sümükişləmə sənətində ev heyvanlarının sümük və buynuzları əsas xammal kimi götürülürdü. Ov heyvanlarından isə maral və cüyürün buynuz və sümüklərindən geniş istifadə olunurdu (Q.M.Əhmədov, 1979, səh. 36; T.M.Dostiyev, 2001, səh. 187-188). Yerli sənətkarlar iş prosesində mişardan, iri kəsici alətlərdən, burğudan, pərgardan, yeyədən istifadə edirdilər.

Bəzi tapıntılar ustaların əl işləmələrilə yanaşı dəzgahdan da istifadə etdiyini düşünməyə əsas verir. İstehsal olunan məmulat çoxçeşidliyi ilə fərqlənir: bura sadə əmək alətləri - iynə, biz, iy ucluğu, kirkit, bıçaq və ülgüc sapları, döyüş və ya ov ləvazimatı - qoruyucu üzük, şallaq dəstəyi, məişət və bəzək əşyaları olan qaşıq, daraq, düymə, muncuq və s. aiddir (tablo 85, 86). Gülüstan qalasından 17 *sm* uzunluğu olan dişli sümük lövhə (tablo 85, şək. 10) tapılmışdır (H.Ə.Ciddi, 1967). Etnoqrafik materiallar əsasında belə lövhələrdən sapand toxumaq üçün istifadə edildiyi müəyyən edilmişdir. Dəbil, Beyləqan, Gəncə, Bakı, Sandıqtəpə və Sərkərtəpə abidələrindən çoxlu sümük biz nümunələri tapılmışdır. Beyləqan və Dəbildən tapılmış nüsxələrin geniş hissəsi cızma xətlərlə elə naxışlanmışdır ki, insan sifətini xatırladır (tablo 85, şək. 2-4). Kağız kəsmək üçün istifadə olunmuş sümük bıçaq (tablo 85, şək. 1) da Beyləqan qazıntılarının nadir tapıntılarından hesab olunur (Q.M.Əhmədov, 1979, səh. 64). Az da olsa sümükdən iy başlıqlarına da rast gəlinir (tablo 85, şək. 12-14). Cənubi Azərbaycanda Təxti-Süleymandan tapılmış şallaq dəstəyi (tablo 85, şək. 8) incə zövqlə hazırlanması ilə diqqəti cəlb edir (R.Nawmann,

1976, səh. 39, şək. 20). Oxşar formalı, üzəri cızma xətli və pərgar naxışı ilə bəzədilmiş şallaq dəstəkləri Sərkərtəpə və Dəbil qazıntılarından da məlumdur (tablo 85, şək. 6-7). Şabran şəhər yerindən XII əsr qatından tapılmış, uzunluğu 13 *sm* olan dəstək (tablo 85, şək. 9) iki yastı lövhədən ibarətdir. Onlar lövhələrin bir ucundakı dəmir pərçimlə birləşdirilmişdir (Т.Достиев, 1999, стр. 81).

**Ağacişləmə.** Bu sənətin inkişafı bol xammal ehtiyatının mövcudluğu və ağac məmulatının təsərrüfat və məişətin müxtəlif sahələrində, memarlıqda geniş tətbiqi ilə şərtlənmişdi. Qazıntılar zamanı ağac məmulatına nadir hallarda təsadüf olunması digər üzvi materiallar kimi onun çürüməyə meylli olması ilə bağlıdır. Yazılı qaynaqlardan bəlli olur ki, XII-XIII əsrin əvvəllərində Azərbaycanın Naxçıvan, Ərdəbil kimi şəhərlərində ağacişləmə sənəti geniş yayılmışdı. Ərdəbilin ağacişləmə emalatxanalarında daha çox kasa və tabaqlar hazırlayırdılar. Şəhərdə onları təmir edən və düzəldən çoxlu sənətkar vardı (Йакут аль-Хамави, 1983, стр. 11; N.Əliyeva, 1999, səh. 130). Başqa bir mənbə Ərdəbildə istehsal olunan sənətkarlıq məmulatı arasında ağacdan tabaq, daraq, musiqi aləti (saz), arabalar olduğunu vurğulayır (Əcaib əd-dünya, 1954, səh. 196).

Ağacişləmə sənəti ilə bağlı arxeoloji dəlillər dolayısı olub, əsasən, bu sənət sahəsində işlədilən əmək alətlərindən ibarətdir. Yalnız Xaraba-Gilan qazıntıları istisna təşkil edir. XII-XIII əsrlərin sərdabələrinin arxeoloji tədqiqindən naxışlı və yazılı ağac lövhələr tapılmışdır. Karvansarada isə ağacdan hazırlanmış silindrik formalı iki əşya aşkarlanmışdır. Onların dəftərxana ləvazimatı olduğu ehtimal olunur (Б.И.Ибрвгимов, 2000, стр. 120, рис. 39, 57). Arxeoloji qazıntılar zamanı tapılmış balta, kərki, mişar, burğu, iskənə ağacişləmə ilə bağlı alətlərdəndir. Həmin alətlər kəsmə, yonma, deşmə, naxışsalma kimi texnoloji prosesləri yerinə yetirməyə imkan verirdi. Arxeoloji dəlillər yaşayış evlərinin inşaatında tir, pərdi, sütun, qapı və pəncərə ilə yanaşı, bəzən hətta ağac konstruksiyalı tikililərin yayıldığına şəhadət edir. Məsələn, Sərkərtəpə yaşayış yerində aşkar olunmuş XII əsrə aid evin ağacdan inşa olunmuş dəhlizi XIII əsrin birinci yarısında yanğın nəticəsində məhv olmuşdu. Sandıqtəpə yaşayış yerində tədqiq olunmuş yaşayış evlərinin birində isə qapı açırımında kömürlənmiş ağac çərçivənin qalıqları qeydə alınmışdır (T.M.Dostiyev, 2001. səh. 193). Qıraq Kəsəmən yaşayış yerində isə təndirxananın yanğın nəticəsində uçmuş, kömürlənmiş tirlərinin qalıqları aşkarlanmışdır.

Beyləqan qazıntılarından məlum olan XII-XIII əsrin əvvəllərinə aid bir ədəd ağac daraq bədii ağacişləmə sənətinə, xüsusilə nəccarlığa dair qiymətli tapıntıdır (Q.M.Əhmədov, 1979, səh. 64).

**Toxuculuq.** İpəkçilik, gönişləmə və s. sənət sahələri üzrə arxeoloji materiallar çox cüzidir. Çünki belə sahələrə aid materiallar torpaqda pis qaldığından

zəmanəmizə qədər gəlib çatmayıb. Lakin yazılı mənbələrdə həmin sahələrə aid bəzi məlumatlara təsadüf olunur. X əsrin əvvəllərində yaşamış ərəb müəllifı əl-İstəxrinin verdiyi məlumata görə Dərbənd şəhərində kətan paltar tikilirdi (N.M.Vəlixanlı, 1974, səh. 89). Xaqani Şirvani və XIII əsrin əvvəllərində yaşamış, adı bizə məlum olmayan bir müəllif o vaxt Azərbaycan şəhərlərində sətin, ucuz parçalar, came adlı və digər parçalar toxunduğunu öz əsərlərində qeyd etmişlər. O dövrün geyimləri haqqında Xaqani Şirvani, Nizami Gəncəvi və digər orta əsr müəlliflərin əsərlərində məlumatlara təsadüf edirik. Nizami Gəncəvi özünün məşhur "İskəndərnamə" əsərində Azərbaycanda orta əsrlərdə yüksək keyfiyyətli gön istehsalından xəbər verir. Beyləqan qazıntılarından bizə gön, pambıq və yun qalıqları məlumdur. Burada qalın ipdən sıx toxunmuş torba, nazik parçadan tikilmiş pul kisəsi, güləbətin tikmə hissələri də tapılmışdır (Q.M.Əhmədov, 1979, səh. 64).

Azərbaycanın orta əsr geyimlərini öyrənmək üçün bədii şirli saxsı məmulatı üzərindəki insan təsvirlərinin böyük əhəmiyyəti var. Bu sahədə, xüsusilə Beyləqanın yerli şirli saxsı qabları diqqətəlayiqdir (Q.M.Əhmədov, 1979, səh. 64). IX-X əsr təbəqəsindən bir şirli qabın üzərində bədənə yatımlı geyimi olan atlı təsvir olunmuşdur (tablo 65, şək. 3). Geyim sarı dairələrlə naxışlanmışdır. Belə təsvirlər XII-XIII əsr şirli saxsı məmulatı üzərində daha çoxdur. Bunlardan birində piyada ovçu xalata bənzər və yatımlı qolları olan çərkəzi geyimdə təsvir olunmuşdur. Ovçunun başında daqqapapaq vardır. Başqa qabda atlının əynində qısa çuxa, üçüncüdə isə uzun və gen çuxa verilmişdir. Başındakı papaq üçqulaq formasındadır (tablo 68, şək. 1). Qablardan birində iki şəxs üz-üzə dayanmış vəziyyətdə göstərilmişdir (tablo 73, şək. 1). Onların əynində beli nazik, uzunətəkli çuxa vardır, qolları qısa və yatımlıdır. Papaqları üçqulaq şəklindədir. Çuxa tikmə ilə naxışlanmışdır. Əlbəttə, belə geyimləri zadəgan adamlar geymişlər. Buna biz "Şahnamə", "İskəndərnamə" və "Xosrov və Şirin" əsərlərini oxuyanda bir daha əmin oluruq.

**Xalçaçılıq.** Orta əsrlərdə xalçaçılıq yüksək inkişaf səviyyəsinə çatmış, Azərbaycanın şəhər və kəndlərində xalça istehsalı kütləvi xarakter daşımışdı. Bərdə, Təbriz, Naxçıvan, Xoy, Mərənd, Şabran mühüm xalçaçılıq mərkəzləri hesab olunurdu (Hudud al-Alam, p. 142-145). Bu dövrdə istehsal olunan xalça məmulatı xalı, xalça, canamaz olmaqla müxtəlif növdə, formada və ölçüdə olurdu. Xovsuz xalça məmulatı da toxunurdu. Xalçaçılar həm də palaz, kilim, xurcun və s. məmulat toxuyurdular. Beyləqan qazıntılarından palaz, çuval, xurcun və örkən qalıqları tapılmışdır (Q.M.Əhmədov, 1979, səh. 64).

Arxeoloji qazıntılar zamanı xalçaçılıqla bağlı bəzi əmək alətləri - kirkit və qayçı da aşkar olunmuşdur. Buynuzdan hazırlanan kirkitlər xalçaçılıqda arğac

iplərini əriş ipləri arasında oturtmaq üçün istifadə edilirdi (A.N.Mustafayev, 1999, səh. 277). Qalagilər yaşayış yerindən tapılmış qayçının (tablo 34, şək. 2) forması adi qayçılardan fərqlənir, dəstək hissəsi əyilərək kəsər hissəyə nisbətən bir qədər qaldırılmışdır. Kəsici hissələrin ucları isə yuxarıya qatlanmışdır (T.M.Dostiyev, 2001, səh. 132). Onun quruluşu xovu qırxıb nizama salmaq üçün çox əlverişlidir. Təsadüfi deyildir ki, orta əsrlərdə xovlu xalçalar "miqrazi" və ya "qayçı" adlanırdı (Л.Керимов, 1983,стр. 9).

Şalbaflıq, şərbaflıq və xalçaçılıq sənətlərinin inkişafı onlarla bağlı olan boyaqçılıq sənətinin də inkişafına zəmin yaratmışdı.

## Ticarət

Sənət istehsalının artması ticarətin inkişafı üçün şərait yaradırdı. IX-XIII əsrlərdə şəhər sənətkarlıq sahələri, demək olar ki, bütünlükdə əmtəə səciyyəsi daşıyırdı. Sənətkarlar əhalini hazır metal əşyaları, saxsı məmulatı, tikinti və təsərrüfat materialları, gön-ayaqqabı, ev ləvazimatı və s. məhsullarla təmin edirdilər.

IX əsrdən başlayaraq şəhərlərin yüksəlişi ölkənin iqtisadi həyatında sənətkarlığın mövqeyini artırır. Şəhərlər kəndin sənətkarlıq məhsullarına və əmək alətlərinə olan tələbatını daha çox ödəməli olurdular. Hər bir şəhər öz ətrafındakı kəndləri sənətkarlıq məhsulları ilə təchiz edirdi. Belə şəhərlərin əhatə etdiyi ərazi indiki rayonların ərazisindən böyük deyildi. Məsələn, Qəbələ şəhəri sabiq Qəbələ mahalını, Dərbənd təxminən müasir Xudata qədər olan ərazini əhatə edirdi. Bundan cənubda Şabran və Şirvan şəhərləri yerləşirdi. Bakı Abşeronu təchiz edirdi. Orta əsrlərdə Layzan adlanan ərazi Şamaxıya yaxın idi. Mil-Qarabağ düzənliyində və Kür-Araz ovalığında Şəmkir, Gəncə, Bərdə, Beyləqan, Muğan düzündə Muğan, Varsan, Bərzənd və başqa şəhərlər var idi. Naxçıvan diyarının əsas şəhərləri Naxçıvan və Kiran idi.

Bu misallardan aydın olur ki, həmin dövrdə şəhərlər kəndlərlə nə qədər sıx əlaqədə idi. Şəhərə yola düşən kəndlilər o qədər böyük məsafə getməli olmurdular. Göstərdiyimiz vəziyyəti təsdiq etmək üçün bu və ya digər şəhərin saxsı məmulatının yayılma ərazisini izləmək kifayətdir. Sənətkarlar daxili ticarət üçün nəzərdə tutduğu məhsulu özləri dükanlarında, şəhərin bazarında və yaxın kəndlərdə satırdılar. Kəndlilər isə kənd təsərrüfatı məhsullarını və sənət istehsalı üçün lazım olan xammalı (pambıq, barama, ipək və s.) gətirib şəhərdə satır və orada sənətkarlıq məhsulları alırdılar. Ətraf kəndlərin ərzaq məhsulları da şəhərdə öz alıcılarını tapırdı. Məhz buna görə idi ki, ilk mənbələrdə şəhərlərin adı çəkiləndə çox vaxt təkcə şəhərin ərazisi deyil, onun əhatə etdiyi iqtisadi rayon nəzərdə tutulurdu. IX-

XIII əsr mənbələri düzən və dağətəyi ərazilərdə yerləşən şəhərlər üçün əmtəə malları kimi ipək, pambıq, kətan, düyü, taxıl, üzüm, fındıq, nar, əncir, lobya və s., dağlıq ərazilərdə yerləşən şəhərlər üçün isə (Dərbənd, Qəbələ və s.), kətan, xəz, dəri, alma, zəfəran və başqa kənd təsərrüfatı məhsullarının adını çəkirlər. Belə məhsulların qalıqlarına, yuxarıda deyildiyi kimi, qazıntılarda da təsadüf olunur. Şəhər bazarlarında adları çəkilən mallar sırasında çox vaxt mal-qara (qoyun, öküz, at və s.) və quş (kəklik, qırqovul və s.) adlarına da təsadüf olunur. Bunların da sümüklərinə qazıntılarda kifayət qədər rast gəlmək mümkündür. Büün bunlar orta əsrlərdə ölkənin daxili ticarətində şəhərlərin oynadığı rolu nümayiş etdirir. Şəhər sənətkarlığı ətraf ərazilərin əhalisini daim özünə cəlb edir, onların istehsal etdiyi məhsulun şəhərdə satılmasına şərait yaradırdı. Bu işdə bazar günləri şəhərlərdə aparılan ticarət mühüm rol oynayırdı. X əsr ərəb mənbəyi Bərdənin eni və uzunu bir fərsəng (5-7 *km)* olan əl-Kürki adlı bazarı haqqında məlumat verir və burada "əhalinin hər bazar günü alverə toplandığını" qeyd edir (N.M.Vəlixanlı, 1974, səh. 108). Bəzi tədqiqatçılar bu bazarın adının mənasına da diqqət yetirmiş, onu müqəddəs" kimi şərh etmişlər (M.Xəlilov, 2006, səh. 40).

XIII əsrin əvvəllərinə aid bir mənbə "Beyləqanda çoxlu miqdarda bazarların olması" haqqında xəbər verir. Şəhərlərdə ticarətin geniş yayılmasını arxeoloji qazıntılardan tapılan ticarət əşyaları - tərəzi qolları, tərəzi gözləri, daş və metaldan olan çəki daşları və s. təsdiq edir (tablo 43, şək. 8-23). Belə əşyalar Beyləqan, Qəbələ, Gəncə, Bakı, Şabran və Sərkərtəpədən əldə edilmişdir (Q.M.Əhmədov, 1979. səh. 73; İ.Babayev, Q.Əhmədov, 1981, səh. 54; F.Ə.İbrahimov, 1995, səh. 36-37. T.M.Dostiyev, 2001, səh. 136-137). Şəhər sənətkarları əsas etibarilə bazar üçün işləyirdilər. Bunu arxeoloji qazıntılardan tapılan saxsı məmulatı aydın nümayiş etdirir. Qabların kütləvi istehsalı, formalarının standartlığı, naxış salmaq üçün qəliblərdən istifadə olması və s. təsadüfi hal deyildi.

Maraqlıdır ki, üzərində sahibinə xeyirxahlıq arzulayan bədii saxsı qablarda sifarişçinin adına təsadüf edilmir, halbuki, ustaların adlarına tez-tez rast gəlinir. Bu ondan irəli gəlirdi ki, ustalar həmin qabların bazarda kimə qismət olacağını bilmirdilər. Beyləqandan tapılmış, üzərində Fəzlunun iki möhürü vurulmuş şar-konusvari qablar bu cəhətdən, xüsusilə diqqəti cəlb edir (Q.M.Əhmədov, 1979, səh. 72). Bu qabların bəzilərində möhürdə ancaq ustanın adı, bəzilərində isə ustanın adı ilə yanaşı, şəhərin də adı göstərilmişdir. Söz yox ki, ikinci növ möhürü olan qablar ixrac olunmaq üçün nəzərdə tutulmuşdur. Yerli xammal çox vaxt şəhərlərin bu və ya digər sənət sahəsi ilə ixtisaslaşmasına şərait yaradırdı. Bu təbii amil getdikcə şəhərlərin coğrafi əmək bölgüsünə gətirib çıxarırdı. Şəhərlərin ixtisaslaşması da şəhərlərarası ticarətin artmasına səbəb olurdu.

Azərbaycan şəhərlərini karvan yolları birləşdirirdi. Həmin yollar ilk yazılı mənbələrdə və xüsusi tarixi ədəbiyyatda genişliyi ilə təsvir olunmuşlar (Я.А.Манандян, 1954. стр. 253-259;З.М.Буниятов, 1965, стр. 166-170; N.M.Vəlixanlı, 1993, səh. 74-125). Qəbələ şəhərini düzən rayonları ilə Türyançay dərəsindən (Salavat keçidi) və Göyçay dərəsindən (Alban keçidi) gedən yollar birləşdirirdi. Yerli əhali indi də Qəbələdə "Elçi yolu", Mil düzündə "Beyləqan yolu" adı ilə məşhur olan qədim yol adlarını çəkir.

Karvan yollarının fəaliyyətini təmin etmək üçün çayların üzərində dövrün tələblərinə cavab verən dayanaqlı körpülər tikirdilər. Araz çayı üzərində on beş aşırımlı Xudafərin (XII əsr) və Culfa (XII-XIII əsrlər) körpülərinin qalıqları indi də qalmaqdadır (tablo 87, şək. 1). Həmin körpülər Mil düzünü və Naxçıvanı Azərbaycanın cənub şəhərləri ilə birləşdirirdi. Gəncə-Tiflis yolunda Kür çayının üstündə XII əsrdə « Qırmızı körpü ("Sınıq körpü") tikilmişdir (Л.С.Бретаницкий, 1966, стр. 133). Bu körpü XVII əsrdə bərpa edilmişdir. Uzunluğu 175 *m* olan bu körpünün dörd aşırımı vardır. Göstərilən karvan yolunda Şəmkirçay və Zəyəmçay üzərində də böyük, çoxaşırımlı dayanaqlı olan körpülər inşa edilmişdi. Onların qalıqları (tablo 87, şək. 3-4) indi də durur (T.M.Dostiyev, V.A.Kvaçidze, 2003). Arxeoloji tədqiqatlar zamanı Gəncə şəhər yerinin ərazisində, Gəncəçayın yatağında üç çoxaşırımlı körpünün qalıqları da qeydə alınmışdır (И.М.Джафарзаде, 1949). Onların əsasən dayaqları qalmışdır.

Bəhs edilən dövrdə kiçik dağ çayları üzərində bir aşırımlı körpülər tikilirdi (И.П.Щеблыкин, И.Т.Горчакова 1947, стр. 6).

Karvan yolları üstündə karvansaralar - dayanacaqlar inşa edilirdi. Belə dayanacaqlarda tacirlər istirahət edir və quldurlardan mühafizə olunurdular. Bu tip tikilinin xarabalıqları Araz çayı sahilində, Naxçıvan MR-da tədqiq edilmişdir (А.Саламзаде и др., 1979, стр. 516). XII-XIII əsrin əvvəllərində inşa olunduğu ehtimal edilən həmin karvansaranın bir hissəsi Bakı-Culfa dəmiryolu çəkilərkən dağıdılmışdır. Qazıntılar nəticəsində abidənin təxminən yarısı üzə çıxarılıb təmizlənmişdir (tablo 87, şək. 5). Görünür o, kvadrat planlı, daxili həyətli karvansaralar tipində olmuşdur. Karvansara bişmiş kərpicdən inşa olunaraq içəri tərəfdən divarı gəc məhlulla suvanmışdır. Bəzi yerlərdə düzbucaqlı bünövrədən günbəzvari örtüyə stalaktitvari tromplar formasında maraqlı həllə malik keçidlər var (А.Саламзаде и др., 1979, стр. 516; Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1985, səh. 223-225).

Karvansaranın şərq cinahında açırımları olmayan qapı biçimində həll olunmuş dərin taxçalara malik böyük bir salon yerləşir. Sağda və solda yerləşən otaqların hamısı geniş mərkəzi keçidə çıxır.

Şəhərlərin özlərində də karvansaralar var idi. Burada başqa yerlərdən gələn tacirlər üçün hər cür şərait yaradılırdı.

Şəhərlərarası ticarət şəhərlərin və onların iqtisadi rayonlarının həmin yerlərdə olmayan mallara tələbatını ödəyirdi. Məsələn, Bakı şəhəri bütün Azərbaycanı və qonşu Cənubi Qafqaz ölkələrini neft ilə təchiz edirdi. Həmin ərazidə tapılan qara çıraqlar bunu arxeoloji cəhətdən təsdiqləyir. Şabran şəhəri qonşu şəhərlərin zərgərlərini özünün məşhur məhəkdaşı ilə təmin edirdi. Bu daşla qızılın əyarı müəyyənləşdirilirdi. Bərdə başqa şəhərlərin toxucularını özünün mənbələrdə "qırmız" adlanan boyağı ilə təchiz edirdi və s.

XIII əsrin əvvəllərinə aid bir mənbədə şəhərlərarası ticarəti təsdiqləyən maraqlı məlumatlar verilir. Məsələn, Beyləqanda Şirvanın və Dərbəndin mallarının çox olduğu qeyd olunur.

Azərbaycanın əmtəə malları qonşu ölkələrin bazarlarına da aparılırdı. Şəhərlər beynəlxalq ticarətdə mühüm rol oynayırdılar. VIII əsrdən başlayaraq beynəlxalq yolların cənubdan şimala keçməsi Şirvan və Arran şəhərlərinin uluslararası ticarətdə əhəmiyyətini artırmışdı (Манандян, 1954, стр. 200).

IX-XII əsrlərdə Azərbaycanın əsas karvan ticarət yolları dörd istiqamətə yönəlmişdi: 1. Azərbaycanı əl-Cəzirə, Suriya və İraq ilə birləşdirən və sonuncunun vasitəsilə Hind okeanı vilayətlərinə istiqamətlənən marşrut; 2. Kiçik Asiya şəhərlərinə gedən karvan yolları; 3. Şimal-Şərqi və Cənub-Şərqi Avropaya istiqamətlənmiş yollar; 4. İran, Orta Asiya, Hindistan və Çinə gedən yollar (Y.H.Gözəlova, 2000, səh. 15). I qrupa daxil olan karvan yollarında Azərbaycanın cənub rayonları, xüsusilə Ərdəbil və Marağa fəal idi. Bu marşrut üzrə, karvan yolları vasitəsilə Şirvan və Arran şəhərləri müsəlman Şərqinin mühüm ticarət mərkəzləri - Bağdad və Qahirə ilə əlaqə saxlayırdılar. Ərdəbil-Bəlxab-Varsan-Beyləqan-Yunan-Bərdə yolu Arranın mərkəzi rayonlarını cənub şəhərləri ilə birləşdirirdi.

Qərbə istiqamətlənmiş beynəlxalq ticarət yolları Dəbil və Tiflisdən keçməklə iki qrupa ayrılır. Bərdə-Dəbil istiqamətində olan beynəlxalq ticarət yolu Azərbaycan şəhərlərini Kiçik Asiya ticarət mərkəzləri ilə əlaqələndirirdi. Bərdə-Gəncə-Şəmkir-Xunan-Tiflis karvan yolu üzrə ilə isə Azərbaycan şəhərləri Trabzon və Qara dəniz limanları ilə əlaqə saxlayırdılar (Y.N.Gözəlova, 2000, səh. 15). Xilafətin şimal ticarətində Volqa-Xəzər beynəlxalq ticarət yoluna üstünlük verməsi ilə Şimal-Şərqi və Cənub-Şərqi Avropaya istiqamətlənmiş şimal marşrutunun əhəmiyyəti daha da artmışdı. Bu marşrutda Bərdə, Şamaxı və Dərbənd şəhərləri başlıca məntəqələr idi. Xüsusilə Dərbənd vasitəçi mərkəz kimi "şimal və şərq" mallarının cəmləşdiyi anbar rolunu ifadə edirdi (А.А.Кудрявцев, 1980; З.М.Буниятов, 1965). Şimal marşrutunda Dərbəndin birbaşa su yolları Volqa-Xəzər marşrutunun fəallığını

təsdiqləyir. IX-XI əsrlərdə Aralıq dənizi ölkələrilə ticarətdə Misir, Hind okeanı ölkələrilə ticarətdə İraq mühüm rol oynadığı kimi, Xəzər dənizi ölkələrilə aparılan ticarətdə də Azərbaycan, o cümlədən onun Dərbənd və Bakı kimi limanları böyük əhəmiyyətə malik idi (Y.H.Gözəlova, 2000, səh. 19).

Dərbənd limanı o zaman Xəzər dənizində ən böyük liman hesab olunurdu. Dənizin içərisinə doğru uzanan qala divarları arasında yerləşmiş bu liman yaxşı möhkəmləndirilmiş və ciddi nəzarət altında idi. Mənbələrdə bildirilir ki, "Dənizdən başlanan bu limanda hər iki tərəfdə dənizdən şəhərədək divarla hörülmüş tikinti var. Bu (tikinti ilə) girintili-çıxıntılı keçiddən daxil olan gəmilər keçirlər. Keçidin girəcəyinə Tir və Beyrutda olduğu kimi zəncir bağlanılmışdır. (Zəncirin) üstündə qıfıl asılmışdır. Bu (qıfılın açarı) dənizin vəziyyətinə nəzarət edəndədir. Onun icazəsi olmadan gəmi limana nə girə, nə də çıxa bilər" (N.M.Vəlixanlı, 1974, səh. 109). Limanın sahəsi haqqında yazılı qaynaqların məlumatı fərqli olub 25 hektardan 300 hektara qədərdir (А.А.Кудрявцев, 1980, стр. 111). Sualtı arxeoloji tədqiqatlar yazılı qaynaqların məlumatını tamamlayaraq Dərbənd limanının nəhəngliyini, 14 hektar sahəni əhatə etdiyini təsdiqləyir (А.А.Кудрявцев, 1987б; А.А.Кудрявцев и др., 1986).

Volqa-Xəzər su magistralında Dərbənd çox mühüm bir məntəqə olduğundan Xəzər dənizinin enini Təbəristandan Dərbəndə qədər yolun günləri ilə ölçürdülər (А.А.Кудрявцев, 1980, стр. 112; Y.N.Gözəlova, 1998, səh. 46). Dərbənd Curcan, Təbəristan və Deyləmdən gələn dəniz marşrutlarını şimala gedən dəniz və karvan yolları ilə birləşdirirdi (Y.Gözəlova, 1998, səh. 46).

Yazılı qaynaqlar Xəzər dənizində Bakı limanının da beynəlxalq əhəmiyyət kəsb etdiyini vurğulayır(З.М.Буниятов, Н.М.Велиханова, 1988, стр. 116).

Azərbaycanın ixracatında Bərdə ipəyinin rolu böyük idi. Bərdədən İrana və Xuzistana çoxlu miqdarda ipək daşınırdı. Hindistana və başqa yerlərə "boyaq məhsulu", gözəl dadı və ləzzəti olan duza qoyulmuş "şermahi" adlı balıq göndərilirdi. Bütün dünya bazarlarına Naxçıvanın ağac əşyaları, Şabranın məhəkdaşısı, Şəmkirin bıçaqları çıxardılırdı. Həm cənub, həm də şimal ölkələrinə hazır paltar - geyimlər aparılırdı (N.M.Vəlixanlı, 1974; Hudud al-Alam, 1937). Mal almaq və öz mallarını satmaq üçün Azərbaycana şimaldan ruslar, xəzərlər, həmçinin Sərirdən, Şəndandan, Həyzandan, Gürcüstandan, Zirehkərandan, cənub ölkələri olan Curcandan, Təbəristandan, Deyləmdən, İraqdan tacirlər gələrdilər. Şimaldan gələn tacirlər özləri ilə su samuru dərisi, qara tülkü dərisi və Sloveniyanın hətta ən ucqar yerlərindən xəz-dəri malları gətirirdilər (Azərbaycan tarixi, 1998, səh. 205). Şərq tacirləri öz ölkələrinə Rusiyadan Volqa çayı vasitəsilə bu ölkədə hazırlanmış zireh silahlar aparırdılar. XIII əsrin əvvəllərinə aid fars mənbəyində dünyanın bütün

yerlərindən Gəncə şəhərinə silah gətirilməsindən bəhs edilir. Həmin mənbə Naxçıvanda Bizans malları ilə alver edildiyini də qeyd edir. Azərbaycan şəhərlərində yunan, erməni və slavyan qullarının satışından da bəhs olunur (Əcaib əd-dünya, 1954).

Orta Asiyadan Azərbaycana dairəciklərlə naxışlanmış "şana" adlanan xüsusi parçalar gətirilirdi. Naxçıvanda satılan mallar içərisində yaxşı toxunmuş Çin parçaları da var idi.

Azərbaycan bazarlarında hətta tezsınan xarici mallar - bədii saxsı qablar, xüsusilə fayans və seladon, şüşə əşyalar, muncuqlar, qarnıyarıqlar (kauri) və bir sıra digər nəfis bəzək əşyaları satılırdı.

Seladonun Çindən, zərnaxışlı fayans qabların isə İrandan gətirildiyi bildirilir. Azərbaycan ərazisində zərnaxışlı fayans qablara ən çox Beyləqan, Gəncə və Şəmkir qazıntılarında təsadüf olunmuşdur (tablo 88, 89). Bakı, Şamaxı, Qəbələ, Şabran şəhərlərində və Gülüstan qalasında da belə qab nümunələri tapılmışdır.

Azərbaycandan tapılan fayans qablar özlərinin hazırlanma texnikası, bədii işlənməsi və formalarına (kasa, bardaq, aftafa, fiqur qablar və s.) görə müxtəlifdir. Onların gili adətən ağdır, bəzən çəhrayı rəngə çalır. Yerli qırmızı rəngli gili olan şirli qablardan fayans qablar hər iki (içəri və bayır) üzünün şirlə örtülməsi, gözəl forması və yüngüllüyü ilə fərqlənir. Fayans qablar dulus çarxında, fiqurlar isə qəlibdə və yaxud əl ilə hazırlanmışdır. Hələlik fiqur qablar Beyləqan qazıntılarından məlumdur. Onların arasında şir, göyərçin, öküz və s. fiqurlar var. Bunlar adətən bayır tərəfdən mavi rəngli şirlə örtülmüşdür. Bəzən zərnaxışlı fiqur qablara da təsadüf olunur (F.Ə.İbrahimov, 1964, səh. 119-122; Q.M.Əhmədov, 1979, səh. 75).

Başqa bir qrupa gili daha məsaməli olan, üzəri isə qabarıq və ya basma həndəsi naxışlar və təsvirlərlə (ilan, əjdaha, insan sifəti və s.) bəzədilmiş fiqur qablar aiddir. Belə qablar Qafqazın digər abidələrindən də məlumdur. B.A.Şelkovnikov hesab edir ki, onlar İranda deyil, Qafqazın özündə istehsal olunub.

Ağ qalay şiri üstü ilə açıq-mavi və yaxud yaşılaçalan kobalt vasitəsilə naxışlanmış fayans qablar xüsusi qrup təşkil edir. Dayaz, kiçik kasa tipli qablarda mavi zolaqlar şüa şəklində qabın mərkəzindən qıraqlara doğru genişlənərək uzanır. Enli boğazlı qablarda ağ və mavi zolaqlar şaquli şəkildə bir-birini əvəz edir. Bu qabların üzərində mavi zolaqlarda cızma xətlərlə fars dilində yazılar vardır. Onların İrandan gətirildiyi ehtimal olunur (Q.M.Əhmədov, 1979, səh. 75).

Azərbaycan şəhərlərində, xüsusilə Beyləqanda tapılan kobalt və zərnaxışlı fayans qablar forma, naxış və üslubca çox müxtəlifdir. Üzərində heyvanların qaçışı səhnəsi, atlı təsvirləri, maral, ceyran şəkilləri olan nümunələrə xüsusilə tez-tez rast gəlinir. Bu qablar üçün həndəsi, nəbati və epiqrafik naxışlar da səciyyəvidir. Çox

vaxt belə naxışları farsca yazılar müşayiət edir. Gəncə və Beyləqanda Nizami Gəncəvinin "Yeddi gözəl" poeması motivləri verilmiş fayans qablara təsadüf edilmişdir. Yuxarıda artıq qeyd olunduğu kimi, Gəncədən tapılan qabda Bəhram Gurun Fitnənin tənəli sözlərinə cavab olaraq ceyranın ayağını qulağına birləşdirməsi səhnəsi çəkilmişdir (tablo 73, şək. 2-3). Beyləqandan tapılan qabda isə Bəhram Gur yeddi gözəlin əhatəsində təsvir olunmuşdur (tablo 88, şək. 1).

Azərbaycan şəhərlərində "minai" adlanan şirüstü rəsmlərlə bəzədilmiş fayans qablara da təsadüf olunur. Onların ən böyük parçası Beyləqandan tapılmışdır. Elmi ədəbiyyatda zərnaxışlı "minai" tipli və bəzi digər fayans qabların İrandan - Rey, Kaşan və Sultanabad şəhərlərindən gətirilmiş olduğu fikri geniş yayılmışdır (Q.M.Əhmədov, 1979, səh. 76).

Seladon qabların da Azərbaycana gətirilmə olduğu alimlərdə şübhə oyatmır (Г.А.Абилова, 1956, стр. 56-60; Q.M.Əhmədov, 1979, səh. 76). Azərbaycanda seladon qablar Beyləqan, Gəncə, Bərdə, Bakı, Bəndovan, Qəbələ, Şabran şəhərləri və Gülüstan qalasında aparılan qazıntılar zamanı tapılmışdır. Onlar XII-XV əsrlərə aid edilir. Beyləqandan tapılmış, ağ-bozumtul gildən hazırlanmış qabartma naxışlı, hər iki səthi açıq-yaşıl şirlə örtülmüş qab parçası XII və XIII əsrin əvvəllərinə aiddir. Belə qablar Çində, Çjestyan vilayətinin Luntsu-Yuan rayonunda Sun dövründə (960-1276) istehsal olunurdu (Q.M.Əhmədov, 1979, səh. 76). Çox bahalı seladon qab nümunələrinin tapılması, sözsüz ki, Azərbaycanla Çinin ticarət əlaqələrini əks etdirən mötəbər dəlillərdəndir.

Azərbaycanın Şərq ölkələri ilə ticarət əlaqələrinin arxeoloji göstəricilərindən biri də yuxarıda haqqında bəhs etdiyimiz zərnaxışlı şüşə parçalarıdır. Onların Suriya və yaxud Misirdən gətirildiyini güman etməyə müəyyən əsas vardır.

**Sikkələr.** Azərbaycanın ticarət həyatını daha dolğun və genişliyi ilə özündə əks etdirən ən mötəbər arxeoloji material, əlbəttə, əvvəlki əsrlərdə olduğu kimi, yenə də sikkə tapıntıları hesab edilməlidir (tablo 90). Qazıntılardan əldə edilən və təsadüfi tapılan sikkələrdən aydın olur ki, IX əsrdə Azərbaycanda qızıl, gümüş və mis sikkələr dövriyyədə olmuşdur. Qızıl sikkələr Azərbaycanda nisbətən az zərb olunmuşdur. Beynəlxalq ticarətdə pul vahidi kimi işlədilən gümüş sikkələrin - dirhəmlərin və əsasən yerli ticarət vahidi olan mis sikkələrin - felslərin zərbi isə geniş yayılmışdı. Qazıntılar zamanı adətən pul dəfinələri az tapılır. Tapılan dəfinələrdə təzə, mübadilədə iştirak etməmiş sikkələrə demək olar ki, təsadüf olunmur. Məsələn, 1940-cı ildə Bərdədən tapılan dəfinə belə nümunələrdəndir (Е.А.Пахомов, 1943, стр. 82). Dəfinələrin içərisində təkcə yerli zərbxanaların deyil, həm də Xilafətin ərazisinə daxil olan, Qərbi Avropadan başlamış Şimali Afrikaya qədər bütün ölkələrin pullarına rast gəlinir. Bu fakt Azərbaycanın nə qədər geniş

ərazini əhatə edən ticarət əlaqələrində olduğunu gözəl sübut edir (Е.А.Пахомов, 1959, стр. 59). Araşdırmalarla müəyyən olunmuşdur ki, X əsrin ikinci yarısında basdırılan dəfinələrdə yerli dirhəmlər 3,1% olduğu halda, xarici sikkələr 96,9% təşkil edir (Л.А.Азимова, 1986). Bu, bir tərəfdən xarici ticarətin yüksək inkişafına, digər tərəfdən isə Azərbaycanda zərb olunan gümüş sikkələrin - dirhəmlərin Şimal ölkələrinə kütləvi aparılmasına dəlalət edir. Məlumdur ki, Azərbaycanda və eləcə də Xilafətin digər şəhərlərində zərb olunmuş gümüş sikkələr, çox hallarda Azərbaycandan kənara, xüsusilə şimal ölkələrinə aparılırdı (Т.М.Достиев, 2005). Azərbaycandan və ona qonşu ölkələrdən, həmçinin Rusiya, Almaniya, İsveç, Norveç, İngiltərə və başqa ölkələrin ərazilərindən tapılan sikkələr əsasında müəyyən olunmuşdur ki, IX-X əsrlərdə Cənubi Qafqaz və ona qonşu ölkələrin zərbxanaları səylə işləmişlər (Е.А.Пахомов, 1926, стр. 22). Pulların üstündə zərb olunduğu yerlərin adları göstərilmişdir. Şəhərlərdən Bərdə, Dərbənd, Yəzidiyyə, əyalət və ölkələrdən isə Arran, Ərməniyyə və Azərbaycan adları məlumdur. Pullarda eyni zamanda Xəlifənin, yaxud onların varislərinin, bəzən əyalətlərdəki canişinlərin və başqa şəxslərin adları zərb olunurdu (Е.А.Пахомов, 1959, стр. 59). Sacilərin hakimiyyəti dövründə Azərbaycanda Xilafət zərbxanaları ilə yanaşı, Ərdəbil, Bərdə, Marağa zərbxanaları da fəaliyyət göstərirdi. Bu zərbxanalarda Sacilərin adından dinar və dirhəmlər zərb olunurdu ki, bu pullar Xilafət pulları ilə yanaşı, ölkənin beynəlxalq ticarətində əhəmiyyətli rol oynayırdı (Л.А.Азимова, 1977, стр. 98).

Sikkə zərbinin artması, ona mübadilə vasitəsi kimi ehtiyacın çoxalması XI əsrdə Azərbaycanda və bütün müsəlman Şərqində başlanan "gümüş böhranı"nın səbəblərindən biri idi. Xilafətin zəifləməsi, ondan ayrılan feodal dövlətlərin siyasi mövqelərinin artması, pula ehtiyacın çoxalması ona gətirib çıxardı ki, həmin dövlətlər özləri mis pullar kəsməyə başladılar. Sikkələrin keyfiyyəti aşağı endi, gümüşə tutulmuş pullar buraxılmağa başlandı, bəzən xırda ticarət mübadiləsi üçün gümüş pulları iki və üç hissəyə doğramaq məcburiyyəti ortaya çıxdı. Məsələn, XI əsrin birinci yarısında torpağa basdırılmış Qəbələ pul dəfinəsindən sikkələrin əksəriyyəti gümüşə tutulmuş və hər biri 2 və 3 hissəyə doğranmış pullardan ibarət idi. Bunlar Şirvanşahlar, Şəddadilər və Rəvvadilər sülaləsindən olan hökmdarlara aid pullardır (М.А.Сейфеддини, Г.М.Ахмедов, 1978, стр. 57-66). XII əsrdə tez-tez saxta pul kəsmək hallarına da təsadüf olunmuşdur. Beynəlxalq ticarətin inkişafına "gümüş böhranı" mane oldu, lakin onu dayandıra bilmədi. Azərbaycanın feodal hakimləri, başqa müsəlman ölkələrində olduğu kimi, bu böhranın təsirini aradan qaldırmaq üçün beynəlxalq ticarətdə işləyə bilsin deyə, öz sikkələrinin üstünə səlcuq sultanlarının, bəzən ərəb xəlifələrinin adını da zərb edirdilər. Bununla onlar pullarının həmin imperiyaların ərazisində işlənməsinə şərait yaradırdılar

(А.А.БЫКОВ, 1938, стр. 79; Д.К.Капанадзе,1955, стр. 61). Gümüş pulların əvəzini mübadilə və ödəniş vəsaiti kimi mis və qızıl pullar müvəffəqiyyətlə həyata keçirirdi (З.М.Буниятов, 1978, стр. 209). Azərbaycan ərazisində tez-tez tapılan Bizans solidləri və səlcuq dinarları buna misal ola bilər.

Müəyyən edilmişdir ki, XII-XIIl əsrin əvvəllərində hər dövlətin mis pulları əsas etibarilə öz ərazisində dövriyyədə olmuşdur. Səlcuq pulları isə istər Azərbaycanın şimal, istərsə də cənub rayonlarında geniş yayılmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, IX-X əsrlərin gümüş sikkələrində pulun zərb edildiyi şəhərin və yaxud ölkənin adı göstərilirdisə, XII-XIII əsrin əvvəllərinə aid nə Dərbənd, nə Şirvan, nə də səlcuq sikkələrində belə göstəricilərə təsadüf olunmur. Ancaq bu dövrün böyük və ağır çəkili pullarında Ərdəbil şəhərinin adı zərb edilmişdir. Çəkisi müxtəlif olan "normal" və "qeyri-normal" kəsilmiş pullar da tapılmaqdadır (Е.А.Пахомов, 1957, стр. 85-89). IX-XII əsrlərə aid ən çox sikkə tapıntıları Beyləqan (А.В.Рагимов, 1959, стр. 351-365), Gəncə və Qəbələ qazıntılarından məlumdur. Bərdə, Şəmkir, Dəbil, Naxçıvan, Şamaxı, Bakı, Şabran, Dərbənd şəhərlərində, Gülüstan qalasında və başqa yerlərdə aparılan qazıntılar zamanı da xeyli sikkə nümunələri əldə edilmişdir.

Beləliklə, arxeoloji dəlillər və numizmatik materiallar IX-XIII əsrin əvvəllərində Azərbaycan şəhərlərində daxili ticarətin intensivliyini, şəhərin kənd nahiyəsi ilə sıx iqtisadi əlaqəsini, geniş xarici ticarət əlaqələrinin mövcudluğunu, pul dövriyyəsinin yetərincə inkişaf etdiyini təsdiqləyir.

# IV FƏSİL

# MƏDƏNİ-MƏİŞƏT ABİDƏLƏRİ

## Məişət avadanlığı

Arxeoloji tədqiqatlar orta əsrlərdə Azərbaycanın şəhər və kəndlərində ənənəvi olaraq gildən yapılmış təndir, ocaq və manqal kimi məişət qurğularından geniş istifadə olunduğunu göstərir. Təndirlər bəzən bişmiş kərpicdən də hörülürdü. Onlar polifunksional məişət qurğusu olub çörək bişirilməsində, həm də evlərin qızdırılmasında tətbiq olunurdu.

Arxeoloji tədqiqatlar orta əsr məişət avadanlığı barədə də təsəvvürlərimizi xeyli genişləndirmişdir. Belə ki, müxtəlif materiallardan - dəmirdən, misdən, tuncdan, gildən, şüşədən və s. düzəldilmiş məişət avadanlığı geniş toplanan arxeoloji materiallardandır.

Misal olaraq dəmir zəncir (tablo 39, şək. 9, 13) (Beyləqan), sacayaq (tablo 39, şək. 1) (Qəbələ), dilli qıfıl açarı (tablo 39, şək. 10, 12) (Beyləqan, Şamaxı), müxtəlif bıçaq tiyələri (tablo 33), ərsin (tablo 39, şək. 2-5) (Beyləqan, Bakı, Şamaxı, Xaraba-Gilan, Şabran, Dərbənd), qapı cəftələri (tablo 39, şək. 11, 16) (Şamaxı, Gəncə, Bakı), qayçı (tablo 34, şək.l) (Qəbələ, Qalagah), çənbər (tablo 39, şək. 14) (Beyləqan, Bakı) qalıqlarını göstərmək olar. Beyləqan, Xaraba-Gilan, Qəbələ, Şamaxı, Şabran, Dərbənd və digər abidələrdə aparılan qazıntılar zamanı tapılmış nallar (tablo 40, şək. 2, 4-7) təkdırnaqlı (at, uzunqulaq) və qoşadırnaqlı (öküz, kəl) heyvanlar üçün istifadə olunmuşdur. Nal mıxları da adi tapıntılardandır. Gəncə, Bakı, Şabran, Qəbələdən ayaqqabı nalları (tablo 40, şək. 8) da tapılmışdır. Tikinti işlərində və küçə darvazalarını bəzəmək üçün istifadə olunan mismarlar müxtəlif başlıqlı və müxtəlif ölçülərdə düzəldilmişdir (tablo 40, şək. 9, 10, 16-23). Dəmirdən, tunc və misdən çəki daşları Beyləqan, Dəbil, Qəbələ, Bakı, Şabran və Şamaxıda hazırlanırdı (tablo 43, şək. 12-23).

Məişətdə mis və tunc qab-qacaq özünəməxsus yer tuturdu. Arxeoloji qazıntılardan əldə olunmuş mətbəx avadanlığı qazan, abgərdən, kəfgir, həvəngdəstə ilə təmsil olunmuşdur. Qazan nümunələri əsasən ayrı-ayrı qırıqlardan ibarətdir. Bütöv nüsxə Dəbil şəhərinin arxeoloji qazıntılarından məlumdur. Onun səkkiztilli gövdəsi, üç ayağı vardır. Ağzının kənarı yana qatlanmış, üstünə qulplar birləşdirilmişdir. Gövdəsi tillər arasında həndəsi naxışla bəzədilmişdir (tablo 42, şək. 2). Beyləqan qazıntılarından abgərdən məlumdur. Onun çanaq hissəsi yarımkürə formasında olub ağzının kənarı xaricə qatlanmışdır (tablo 42, şək. 5), dəstəyi

sınmışdır (F.Ə.İbrahimov, 1988, səh. 78, tablo 21, şək. 1). Şabrandan tapılmış kəfgirin mərkəzində bir qədər çökəklik olan dairəvi işlək hissəsi, ucu qarmaq formasında qatlanmış dəstəyi vardır (tablo 42, şək. 9). Xaricdən səkkiztilli, daxildən isə silindrik forması olan tunc həvəng də Şabran qazıntılarından məlumdur (T.M.Dostiyev, 2001, səh. 136). Həvəngin gövdəsində tillər arasında səth rombşəkilli lövhələrlə bəzədilmişdir (tablo 42, şək. 3). Beyləqandan isə misdən tökülmüş həvəng dəstəyi (tablo 42. şək. 7) tapılmışdır (Q.M.Əhmədov, 1979, səh. 54). Bakıda İçərişəhər qazıntılarından əldə olunmuş tunc həvəng dəstəyinin işlək tərəfi enli olub, ortası bir qədər qabarıqdır, əks tərəfi isə ovalvari formadadır. İş vaxtı əlin sürüşməməsi üçün ortaya yaxın səviyyədə qabarıq çıxıntı var (F.Ə.İbrahimov, 1995, səh. 32).

Metaldan süfrə qabları cam, badya, vaza-qənddan, məcməyi, tayqulp və qaşıqlarla təmsil olunmuşlar. Məcməyi tipli qab hələlik Qəbələ yaxınlığındakı "Qaçaq evi" adlı orta əsr abidəsindən məlumdur. Onun yastı, düz oturacağı, bir az yuxarı qatlanmış divarı vardır. Ağzının qırağı qabarıq xətlə naxışlanmışdır (F.V.Qədirov, 1965, səh. 265; F.Ə.İbrahimov, 1988, səh. 73).

Tapıntılar arasında yarımkürəvi gövdəsi, xaricə qatlanmış ağzı olan metal badya nümunələrinə də rast gəlinir (tablo 42, şək. 6).

F.Ə.İbrahimov Beyləqan və Qəbələ şəhərlərinin qazıtılarından məlum olan camları üç qrupa bölür: ləyənvari, üçayaqlı və sadə camlar (F.Ə.İbrahimov, 1988, səh. 76). Metal camlar Bakı (F.Ə.İbrahimov, 1995, səh. 34) və Dəbildən də (K.Q.Kafadaryan, 1952, səh. 169) məlumdur. Beyləqan qazıntılarından aşkarlanmış üçayaqlı mis qab, görünür, çərəz qabı kimi istifadə olunmuşdur (tablo 42, şək. 10).

Tayqulp qab Qəbələnin Qala sahəsindən tapılmışdır. Onun gövdəsinin yarısı və qulpu sınmışdır. Gövdəsi bayır tərəfdən zərif naxışlarla bəzədilmişdir (tablo 42, şək. 14). Qənddan biçimli vazalar isə Beyləqan və Bakıda aparılmış qazıntılardan məlumdur (tablo 42, şək. 15). Beyləqan qazıntılarında aşkarlanan xörək qaşıqları müasir qaşıqları xatırladır (tablo 42, şək. 1, 11). Xörək qaşıqları ilə yanaşı, kiçik qaşıqlar da tapılmışdır (F.Ə.İbrahimov, 1988, səh. 77-78).

"Şirvan lüləyini", Osman ibn Salman Naxçıvaninin hazırladığı və Parisdə Luvr muzeyində nümayiş etdirilən tunc dolça, XII-XIII əsrlərə aid edilən, hazırda Nyu-Yorkda P.Morqanın kolleksiyasını bəzəyən tunc dolça, eləcə də arxeoloji qazıntılar zamanı aşkar edilmiş bu tip qablara məxsus fraqmentlər əhalinin məişətində həmin qablardan istifadəni təsdiqləyir (tablo 41). Tam salamat qalmış kiçik tutumlu dolça isə arxeoloji qazıntılar zamanı Bakıdan tapılmışdır (tablo 42, şək. 16).

Mis məmulatın xüsusi qrupunu işıqlandırma vasitəsi çıraqlar təşkil edir. Onların nümunələri Qəbələ, Şabran, Beyləqan və Bakıdan tapılmışdır. Şabrandan tapılmış XII əsrə aid çırağın yuvarlaq, lakin bir qədər yastılaşdırılmış gövdəsi, yuxarıya doğru tədricən genişlənən boğazı və yana qatlanmış ağzı vardır (tablo 43, şək. 6). Boruşəkilli lülə bir qədər yuxarıya qaldırılmış və fitil üçün ucunda oyuq vardır. Qulp ağzının kənarına və gövdəyə birləşdirilmişdir. Çırağın çıxıntı şəklində üç ayağı olmuşdur, qulpun üzərindəki qalıq çırağın ağzının qapaqla örtüldüyünə dəlalət edir (T.M.Dostiyev, 2001, səh. 136).

Bakıdan tapılmış oxşar formalı tunc çırağın (tablo 43, şək. 1) gövdəsi və lüləsinin üzəri başdan-başa müxtəlif heyvanlarla bəzədilmişdir (В.Н.Левиатов, 1949. стр. 136). Qəbələdən tapılan çilçırağın dörd ayağı və beş burnu var (tablo 43, şək. 4.) Ağzı qapaqla bağlı olmuşdur (F.L.Osmanov, 1966; S.M.Qazıyev, 1964; F.Ə.İbrahimov, 1988). Beyləqandan iki metal çıraq məlumdur. Bunlardan biri piydan formasındadır, kiçik kasavari gövdəsi və açıq burnu və halqavari qulpu var. İkincisinin ancaq lüləvari burun hissəsi tapılmışdır (Q.M.Əhmədov, 1979, səh. 55).

Bakıda, İçərişəhərdə aparılan qazıntılardan tapılmış çıraq-şamdan orijinal formaya malikdir. Onun sütun altlığını xatırladan altlığı hündür, boruşəkilli gövdəyə keçir, ağzının kənarları bayıra qatlanaraq dəyirmiləşdirilmişdir. Gövdənin aşağısında bayıra bikonik genişlənmə vardır (tablo 43, şək. 5) (В.Н.Левиатов, 1948а, стр. 113-114; F.Ə.İbrahimov, 1995, səh. 31). Üçayaqlı tunc buxurdan (tablo 43, şək. 7) Dəbil qazıntılarından məlumdur.

Yuxarıda qeyd olunduğu kimi, Qəbələ qazıntılarından misdən hazırlanmış "mürəkkəbqabı" tapılmışdır. IX-X əsrlər təbəqəsindən tapılmış bu mürəkkəbqabının (tablo 42, şək. 12) düz oturacağı, silindrik gövdəsi var. Ağzının kənarları isə dördləçəkli çiçək formasındadır (S.M.Qazıyev, 1964, səh. 42).

Mis tərəzi gözləri (tablo 43, şək. 8-11) Beyləqan, Qəbələ (F.Ə.İbrahimov, 1988, səh. 84), Bakı (F.Ə.İbrahimov, 1995, səh. 36), Dəbil (Б.Н.Аракелян, 2003) və Sərkərtəpədə (T.M.Dostiyev, 2001, səh. 137) aparılan qazıntılardan məlumdur.

Məişət və təsərrüfatda mis və tuncdan hazırlanmış zəng və zınqırovlar da (tablo 95. şək. 23-26) geniş istifadə olunurdu. Zənglərin kəsilmiş konusşəkilli, zınqırovların isə şarşəkilli və ya uzunsov formalı gövdəsi olurdu (F.Ə.İbrahimov, 1988, səh. 86-88).

Gildən hazırlanmış məişət əşyaları saxsı məmulatı bölməsində geniş təsvir edilmişdir. Ağac məişət əşyalarından bizə nümunə olaraq Beyləqan ustaları tərəfindən böyük ustalıqla hazırlanmış daraq saxlanılmışdır.

Azərbaycanın orta əsr abidələrindən tapılmış şüşə məişət əşyalarının əsas kütləsini qablar: bərnilər, qrafinlər, kiçik bardaqlar, qədəhlər, ətir və aptek qabları və

s. təşkil edir. Onlar bəzən həndəsi naxış və təsvirlərlə bəzədilmişdir. Qrafin qablar daha çox XI-XIII əsrlər təbəqəsindən tapılır. Onların nümunələri Beyləqan, Dəbil, Qəbələ, Şabran, Dərbənd və Gülüstan qalasında aparılan arxeoloji qazıntılardan məlumdur. Qəbələdən tapılmış qrafinin şarşəkilli gövdəsi, uzun, dar boğazı var (tablo 79, şək. 6). Ağzının kənarları yana qatlanmışdır. Onun boğazına spiralşəkilli, marqanes rəngli şüşə sap sarılmışdır (F.L.Osmanov, 1964, səh. 152; Г.М.Ахмедов, В.П.Фоменко, 1987, səh. 158-159). Dərbənddən tapılmış qrafinlər boğazlarının görünüşünə görə üç varianta ayrılır (tablo 79, şək. 5, 12-13, 17-20). Onların hamısı naxışlanmışdır (А.А.Кудрявцев, 1988a, стр. 72). Gen boğazlı, qulplu qabların fraqmentlərinə təsadüf olunur. Qulp adətən qaba hazırlanma prosesində, isti ikən bənd edilirdi. Qulplu və basma naxışlı qablar ən çox XII-XIII əsrin əvvəlləri təbəqəsindən tapılır. Qəbələdən tapılan demək olar ki, bütöv nazikdivarlı qabın kürəvi gövdəsi, dabanlı oturacağı və yuxarıya doğru genişlənən hündür boğazı var (tablo 79, şək. 1). Boğazda bayıra bikonik genişlənmə vardır.

Süfrə qabları arasında banka, piyalə və stəkan tipli qablar çoxluq təşkil edir (tablo 80, şək. 2-9). Banka tipli qabların əksəriyyətinin üzəri saya olduğu halda piyalə və stəkan tipli qablar əsasən naxışlanmışdır. Naxışlar müxtəlifdir: rəngli şüşə kütləsinin dalğalı və ya düz qurşaq şəklində yapışdırılması, basma, kəsmə naxışlar və s. (tablo 80, şək. 1,2,5-7,9).

Qədəhlər adətən fraqmentlər halında tapılır. Onlar daha çox Dərbənd qazıntılarından tapılmışdır (А.А.Кудрявцев, 1988, стр. 222; 1988a, стр. 68-70).

Şəhər yerlərinin arxeoloji qazıntıları zamanı IX-XI əsrlərin qatlarında nazikdivar, qulpsuz şüşə bərnilərin fraqmentlərinə tez-tez rast gəlinir (tablo 80, şək. 19-20). Fraqmentlərdən bəlli olur ki, onların içəriyə batıq oturacaqları hündür, şaquli divarları düz, hamarlanmış ağzı olurdu (В.П.Фоменко, 1962, стр. 36, табл. 2, рис. 1-3: Q.M.Əhmədov, 1979, səh. 34-35; T.M.Dostiyev, 2001, səh. 176). Bu dövrdə piyalələr də geniş yayılmış süfrə qablarından idi. Onların alçaq yarımkürəvi gövdəsi, düz hamar və ya kənarları geri qatlanmış ağzı vardır (tablo 80, şək. 6-8). Oturacaqları bəzi nüsxələrdə içəriyə batıqlı, yaxud alçaq, diskşəkilli altlıqlıdır (А.А.Кудрявцев, 1988. стр. 219-220; Г.М.Ахмедов, В.П.Фоменко, 1987, стр. 156-166; В.П.Фоменко, 1965a, стр. 162; T.M.Dostiyev, 2001, səh. 176-177). Şüşə stəkan nümunələri Qəbələ, Dərbənd, Şabran, Dəbil qazıntılarından yaxşı məlumdur (tablo 80, şək. 5, 9). XII-XIII əsrin əvvəllərində şüşə qabların məişətdə istifadəsi genişlənir. Onların çeşidi artır, həm forması, həm də naxışları müxtəlifləşir. Dərbənd şəhərinin arxeoloji qazıntılarında şüşə məmulat üzrə aparılan müşahidə maraqlı nəticə vermişdir. Məlum olmuşdur ki, XI-XIII əsrin əvvəllərinə aid təbəqədə tapılan şüşə məmulatın üçdə ikisi qab-qacaq nümunələridir. Qabların istehsalının kəmiyyət

göstəricisinin artması ilə bərabər, həm də ayrı-ayrı tip qabların məişətdə istifadəsində də dəyişiklik baş verir. Bu dövrdə bərni və piyalələrə nisbətən darboğazlı qablar – qrafin və bardaqlardan istifadə genişlənir (А.А.Кудрявцев, 1988a, стр. 66). Qəbələ, Şabran, Dərbənd və digər abidələrdən aşkar olunmuş qrafin qırıqlarının çoxu şarşəkilli və ya uzunsov formalı gövdəsi olan qablara məxsusdur (tablo 79, şək. 2-6). Bəzi nüsxələrdə boğazında xaricə bikonik genişlənmə var. Beyləqan, Bərdə, Şabran, Qəbələ şəhərlərinin arxeoloji qazıntılarından tapılan bardaq nümunələrinin (tablo 79, şək. 1, 7, 14, 15) kürəvi və ya armudvari gövdəsi, silindrik gen boğazı, tək qulpu vardır (Q.M.Əhmədov, 1979, səh. 62; İ.Əliyev, F.Qədirov, 1985, səh. 30-31; B.Nuriyev, Ə.Babayev, 2001). Qəbələdən tapılan nüsxə darboğazlı olub, boğazın aşağısında bayıra bikonik genişlənmə vardır (tablo 79, şək. 1). Daha çox təsadüf olunan basmanaxış və üstünə əlavə şüşə bəzəklər yapışdırılmış qablardır. Qabların qulpları da müxtəlifdir.

Arxeoloji qazıntılar zamanı istər şəhər, istərsə də kənd tipli yaşayış yerlərindən çoxlu flakonlar tapılıb (tablo 81, şək. 1-8). Onlar ətir və dərman qablaşdırmaq üçün istifadə olunurdu. Sandıqtəpə yaşayış yerindən xeyli miqdarda, müxtəliftipli flakonlar tapılması diqqəti cəlb etməyə bilməz. Onlann arasında qalın divarlı, silindrik gövdəli, dar, yuxarıya doğru daralan boğazı olan flakonlar yaşılaçalan şüşədən (tablo 81, şək. 4) düzəldilmişdir. Nazik divarlı, daxilə batığı olan oturacağı, şarşəkilli gövdəsi, dar, yuxarı hissədə genişlənən hündür boğazı, qıf formasında ağzı bayıra açılan flakonlar isə (tablo 81, şək. 1) şəffaf, rəngsiz şüşədən hazırlanmışdır (Т.М.Достиев, 1994).

Orta əsr şəhərlərindən tapılmış daş məişət əşyalarına nümunə olaraq müxtəlif cins daşlardan məharətlə hazırlanmış qabları qeyd etmək olar. Bunlara qazan, tava, duzqabı və s. daxildir. Bu növ qabların bir neçə nüsxəsi Beyləqan qazıntılarından əldə edilmişdir. Bunların içərisində cızma xətlər və dairələrlə zəngin naxışlanmış qablar var. Qazıntılarda yüngül və məsaməli tufdan düzəldilmiş sürtgəclər – daban-daşıları da tez-tez tapılır (tablo 82, şək. 7-9). Onlardan hamamlarda istifadə olunmuşdur. Belə hamam ləvazimatı ən çox Gəncə və Beyləqandan məlumdur.

Sümükdən hazırlanmış məişət əşyalarına nümunə olaraq Beyləqan qazıntılarından tapılmış müştüyü, kiçik borunu, darağı, bədii işlənmiş lövhəni, bizləri, halqaları (Q.M.Əhmədov, 1979, səh. 64), Qəbələdən tapılmış nərd oyununda istifadə olunan sümük zərləri qeyd etmək olar (İ.Babayev, Q.Əhmədov, 1981, səh. 53).

Orta əsr abidələrindən tapılan sümük əşyaların əsas kütləsini ortası deşik konusvari formalı düymələr (tablo 86) təşkil edir. Onları nümunələri Beyləqan,

Şabran, Dərbənd, Qəbələ, Gəncə və başqa yerlərdən əldə edilmişdir. Belə düymələr, görünür, qiymətli dəri paltarlar üçün hazırlanırdı.

Yuxarıda qeyd olunduğu kimi, Beyləqan qazıntılarından gön, pambıq, yun, qalın ipdən sıx toxunmuş parça, nazik parçadan tikilmiş pul kisəsi qalıqları tapılmışdır. Buradan həmçinin nazik metal sapla toxunmuş, el arasında "güləbətin" adı ilə məşhur olan parça nümunəsi əldə edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 65). Qəbələ gil qazanlarında kobud toxuma parça izləri qalmışdır.

## İncəsənət

IX-XII əsrlərdə Azərbaycan monumental və dekorativ-tətbiqi incəsənəti öz inkişafında növbəti yüksəliş mərhələsini keçirmişdir. Yerli gələnəklərdən və müsəlman Şərqinin mədəni nailiyyətlərindən bəhrələnərək yerli sənətkarlar dövrün ruhuna, cəmiyyətin bədii-estetik tələbatına cavab verən parlaq sənət əsərləri yaratmışlar. Qeyd edək ki, IX-XII əsrlərin Azərbaycan incəsənəti bütün müsəlman incəsənəti üçün ümumi olan qanunlara, vahid elmi-nəzəri sistemə söykənirdi. Onun üçün təsviri sənətdən çəkinmək, ornamentalizmə güclü meyl səciyyəvidir. Bütpərəstlik heykəltəraşlıqdan, xristianlıq isə monumental təsviri sənətdən bədii ifadə vasitəsi kimi yararlandığı halda, İslam bu sənət sahələrini, ümumiyyətlə, canlı varlıqların təsvir edilməsini məqbul saymamış, əksinə, ornamentalizmə və xəttatlığa rəvac vermişdir. İnformasiyanın rəmzlərlə verilməsi, həndəsi və nəbati elementlərdən mürəkkəb kompozisiyaların yaradılması, abstraktlığa meyl orta əsr Azərbaycan incəsənətinin mühüm əlamətlərindəndir. Bununla belə, canlı aləmin təsviri dekorativ tətbiqi sənətdə tamamilə aradan qaldırılmamışdı. Təsərrüfat və məişətdə istifadə olunan məmulat üzərində bəzən canlı aləmin təsvirinə təsadüf olunur.

IX-XII yüzilliklərdə Azərbaycan şəhərlərində bədii sənət sahələrinin coşqun inkişafı ilə əlamətdar olmuşdur. Bu dövrün sənət məmulatı utilitar ehtiyacları ödəməklə yanaşı, həm də bədii-ideya yükü daşıyırdı. O həmçinin cəmiyyətin estetik ideallarının və incə zövqünün göstəricisi idi.

Bədii sənətin bir çox sahələri monumental tikililərlə - saray kompleksləri, dini binalar və xatirə abidələri ilə bağlı olmuşdur. Yerli sənətkarlar tikinti materiallarının fiziki və estetik keyfiyyətlərindən uğurla istifadə edərək səthlərdə bədii təsirə malik kompozisiyalar yaradırdılar. Xüsusilə daş və gəc üzrə oymalar, kaşı bəzəkləri dövrün, xüsusilə XI-XIII əsrin əvvəllərinin memarlıq abidələrinin bədii tərtibatında mühüm rol oynayırdı. Daş üzrə oyma sənəti Şirvan-Abşeron memarlıq məktəbi üçün daha çox səciyyəvidir. Onun gözəl nümunələri Dərbənd,

Bakı, Şabran və başqa Şirvan şəhərlərinin memarlıq abidələrindən və arxeoloji qazıntılarından məlumdur. Daş üzrə oyma sənətinin təkamülünü izləmək baxımından Dərbənd abidələri böyük maraq doğurur. Dərbənd şəhərinin qala qapılarından Qırxlar qapı və Orta qapı yüksək bədii tərtibatı ilə fərqlənir. Dərbəndin cənub divarındakı oyma bəzəklər arasında çapan atların cüt təsvirində rəssam sadə kontur şəklin köməyi ilə heyvanların dinamika və plastikasını qabarıq təsvir etməyə nail olmuşdur. Narınqalanın cənub divarındakı atlı və oxatanların təsviri də gözəl sənət əsərlərindəndir. Dərbənd şəhərinin şimal divarında isə at, quş və insan təsvirləri qalmışdır (А.А.Кудрявцев, 1990, стр. 76-77).

Bayıl qəsrini dövrələyən, daş lövhələrindən tərtib olunmuş yazılı qurşaq Azərbaycan orta çağ monumental xəttatlığının incilərindən hesab oluna bilər. Həmin qurşaqda oyma üsulu ilə işlənmiş kitabələrdə həm də canlıları təsvir edən çoxlu rəsmlər də vardır (tablo 100). Qabartmaları tədqiq edən mütəxəssislər burada pələng, dəvə, at, öküz, quş və insan başı təsvirlərinin varlığını bildirirlər (И.Джафарзаде, 1947: О.Ш.Исмизаде, 1966). Oturaq, ayaq üstə, qaçan vəziyyətdə təsvir edilmiş həmin rəsmlər, söz yox ki, bədii xarakter kəsb etməklə yanaşı həm də rəmzi məna, ideya yükü daşıyırdı. Burada həmçinin mifik təsvirlər də verilmişdir. Sfinks (aslan bədənli, qadın başlı, qanadlı məxluq), qrifon (qartal başlı, aslan gövdəli məxluq) və vaq-vaq adlı təsvirləri (gövdəsi bitki, budaqlarından canlıların baş hissəsi asılmış təsvir) əfsanəvi-mifik xarakter daşıyır.

Şabran şəhər yerində aşkarlanmış fontan qalığı orta əsr daş plastikasının gözəl nümunələrindəndir (tablo 83, şək. 6). Qalığının hündürlüyü 40 *sm*-ə çatan bu kiçik memarlıq forması səkkizkünclü sütun formasında olub, hər bir səthində incə nəbati naxışlar həkk edilmişdir. Sütunun daxili yonularaq hamarlanmış, boru halına salınmışdır (T.M.Dostiyev, 2001, səh. 191, şək. 15, 3).

Gəc üzrə oyma bəzəklərlə bəzədilmiş tikili qalıqlarına Azərbaycanın müxtəlif memarlıq məktəblərində rast gəlinir. Daş memarlığının hegemon olduğu Dərbənd şəhərində də gəc üzrə oyma sənəti kifayət qədər geniş yayılmışdı. Burada aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş gəc oyma bəzəklər dərin, həcmli olması, dəqiqliyi, ornamental motivlərin mürəkkəbliyi və müxtəlifliyi ilə bu sənət sahəsinin yüksək inkişaf səviyyəsindən xəbər verir (tablo 91, şək. 2). Bunu da qeyd etmək lazımdır ki, Dərbənddə gəc oymalar əsasən mülki memarlıq abidələrində - narınqaladakı saray komplekslərində, şəhristanın yuxarı hissəsində, Came məscidindən qərbdəki məhəllədə tədqiq edilmiş yaşayış evində ("rəisin evində"), eləcə də Came məscidində aşkarlanmışdır.

Yaşayış evində aşkarlanmış gəc oymaların bir qismi 4-10 *kv.sm* ölçüdə olub ornament və kompozisiya haqqında təsəvvür yaratmır. Amma 50-yə yaxın 15 *kv.sm*-

dən 300 *kv.sm*-ə qədər ölçüdə 1,5-2,5 *sm* qalınlıqda düzbucaqlı və oval lövhələr vahid ornamental kompozisiyalara malikdir. Maraqlıdır ki, burada həm də gəctəraşın naxış salarkən işlətdiyi, maral buynuzundan düzəldilmiş itiuclu alət tapılmışdır (А.А.Кудрявцев, 1987, стр. 87).

Orta çağ Azərbaycan gəctəraşları çoxqatlı oyma bəzəklərdə daha mürəkkəb və zəngin quruluşlu kompozisiyalar yaratmışlar. Onlar gəc dekorun bədii effektliyini artırmaq məqsədi ilə bəzən müxtəlif rənglərdən istifadə edirdilər (C.Qiyasi, 1991, səh. 188). Bunu Dərbənd şəhərinin arxeoloji qazıntılarından aşkarlanan gəc oymalar əyani sübut edir.

Dərbəndin gəc oymaları əsasən ikitəbəqəli idi, amma birtəbəqəli və üçtəbəqəli bəzəklərə də təsadüf olunur. Belə ki, divara və dekorativ hissəyə əvvəlcə gəc suvaq vurulurdu. Qalınlığı 2,5-3 *sm* olan bu təbəqə astar rolunu oynayırdı. İkinci təbəqədə 1-2,5 *sm* dərinlikdə oyma naxış salınır, bəzən çəhrayı, sarı, göy rəngə boyanırdı. Yüksək bədiiliyi ilə fərqlənən üçtəbəqəli gəc bəzəklər saray komplekslərinin dekorunda tətbiq olunmuşdur (А.А.Кудрявцев, 1974, 1976a). Divar səthini örtən gəc üstə vurulmuş orta, boyanmış təbəqə üst qatın oyma naxışları üçün astar rolunu oynayır. Qara rəngli astar üzərində ağ, qar rəngli oyma üst bəzəklər effektlə diqqəti cəlb edir. Burada gəc oymalar astara, qara rəngə qədər davam etmişdir (А.А.Кудрявцев, 1990, стр. 78).

Dərbəndin gəc oymalarmm əsas kompozisiya motivləri dərin batıqlar, müxtəlif üçbucaqlar, romblar və altıbucaqlar ilə doldurulmuş ayrı-ayrı xonçalardan, kvadratlardan və dairələrdən ibarətdir (tablo 91, şək.2). Onlar çox vaxt spirallar, dairəciklər, itiyarpaqlılarla uzlaşır. Ornamental kompozisiyalarda həndəsi naxışlarla bərabər, həm də nəbati naxışlar - stilizə olunmuş budaqlar, yarpaqlar, çiçəklər, üzüm salxımları və s. tətbiq olunurdu.

Dərbənd gəc oymalarında bütün daxili sahəsi dairəvi, oval və ya damcıvari, bəzən vergülşəkilli oymalarla bəzədilmiş dərin həndəsi fiqurlar və medalyonlar geniş yayılmışdı (А.А.Кудрявцев, 1987, стр. 89).

Dərbənd gəctəraşlarının sevimli ornament motivlərindən biri daxili səthi altıguşəli ulduzlarla doldurulmuş həndəsi fiqurlardan ibarət naxış idi. Gəc oymalar arasında bəzən astral rəmzlər və hifzedici elementlərlə bağlı mürəkkəb fiqurların dairəyə alındığı mürəkkəb kompozisiyalar da az deyildir (А.А.Кудрявцев,1987, стр. 93). Bir sözlə, arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, IX-X əsrlərdə Dərbənd şəhərində inşaat sənətinin yüksəlişi, geniş quruculuq fəaliyyəti gəc üzrə oymakarlıq sənətinin təşəkkülünü şərtləndirmiş və şəhərdə peşəkar gəctəraşlar formalaşmışdır.

Gəc üzrə oymakarlıq Arran, Naxçıvan-Marağa, Qəzvin-Həmədan memarlıq məktəbinə mənsub abidələrdə də qeydə alınmışdır və Azərbaycanın bütiin bölgələrində peşəkar gəctəraşların fəaliyyət göstərdiyi şübhə doğurmur. Dəbil şəhərin narınqalasında qazıntılar zamanı XI-XII əsrlərin saray kompleksinin və digər monumental tikililərin daxilinin bədii tərtibatında gəc oymalardan geniş istifadə olunduğuna dəlalət edən çoxlu nümunələr tapılmışdır (Б.Н.Аракелян, 2003, стр. 339). Taxça üzərinə salınmış gəc qabartma haşiyə xüsusilə diqqəti çəkir. Haşiyədə nəbati fonda bir-birinin ardınca qaçan heyvanlar, taxçanın tağında, künclərdə isə fantastik məxluqun - başında tac olan insan sifətli, şir bədənli varlığın təsviri vardır (tablo 91, şək. 3).

Bəndovanda tapılmış şirli saxsı lövhələrin (tablo 91, şək. 1) oyma gəc lövhələr üçün qəlib kimi istifadə edildiyini ehtimal etmək olar. Daha çox interyerdə işlədilən gəctəraşlıq XI-XII yüzilliklərin məscid mehrablarında ən yüksək bədii duruma çatmışdır. Mehrabların naxış sistemində nəbati elementlər üstünlük təşkil edir.

Bişmiş kərpicin dekorativ imkanları orta yüzilliklərdə onun üzlük materialı kimi zəngin bəzək çeşniləri yaratmasını şərtləndirmiş, Arran, Naxçıvan-Marağa, Qəzvin-Həmədan memarlıq məktəblərində "kərpici", "cınağı" naxış motivlərindən geniş istifadə edilmişdir. Qəbələ, Beyləqan, Gəncə, Şabran orta əsr şəhərlərinin arxeoloji qazıntılarından üzə çıxarılan tikinti qalıqları, eləcə də memarlıq abidələrindən müəyyən etmək olar ki, "cınağı" naxış orta əsr ustalarının ən sevimli kərpic bəzəklərindən olmaqla divar səthlərinə dinamiklik, oynaqlıq gətirirdi. Bu naxış üzlük kərpiclərin ardıcıl olaraq tininə, üfüqi və dikinə düzümü yolu ilə yaradılırdı (C.Qiyasi, 1991, səh. 184).

Orta əsr şəhər yerlərində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən bir sıra tikili qalıqları yerli ustaların kərpic hörgüsündə ziqzaq, düzbucaq, meandra kimi naxış motivlərinə müraciət etdiyini göstərir (К.М.Мамедзаде, 1983, стр. 202). Kərpic dekorunun ən mürəkkəb nümunəsi isə "girih" adlanan həndəsi naxış idi. Bəzən divar səthinin, tağ və portalların bədii tərtibatı üçün nəzərdə tutulan bəzəyə uyğun müxtəlif relyefli naxışa malik üzlük kərpicləri istehsal edirdilər. Belə qalıqlar Beyləqan şəhərinin qazıntılarından yaxşı məlumdur (А.Л.ЯКОБСОН, 1959, стр. 94-97: Q.M.Əhmədov, 1979, səh. 78). Orada üzlük kimi istifadə olunan kərpiclər kəsmə həndəsi naxışlarla bəzədilmişdir (tablo 92, şək. 1-2).

Kərpic memarlığının inkişafı XII əsrin birinci yarısında şirli kərpic (tablo 92, şək. 3-4) istehsalının yaranmasını şərtləndirdi. Şirli kərpiclərin meydana çıxması sonradan kaşıçılığın meydana gəlməsinə və inkişafına təkan verdi. Azərbaycanda şirli kərpicdən istifadənin ilk nümunəsi hələlik Qırmızı Günbəd türbəsindən (1148)

məlumdur. XII əsrdə Naxçıvan-Marağa memarlıq məktəbində şirli kərpiclərin memarlıq bəzəyi kimi tətbiqi xüsusilə mükəmməl xarakter daşıyırdı. Buna misal olaraq Mömünə xatın və Göy günbədi misal göstərmək olar (tablo 107, şək. 2-3). Həmin abidələri həm də kaşıçılıq sənətinin şah əsərləri sırasına daxil etmək olar. Şirvan bölgəsində isə Pirsaat üzərindəki Pir Hüseyn xanəgahı da yüksək bədii kaşı dekoruna malikdir. Arxeoloji qazıntılar Beyləqandakı Mil-Minarə dini kompleksinin bədii tərtibatında da kaşı bəzəkdən geniş istifadəni təsdiqləyir (Q.Əhmədov, 1979, səh. 78).

Arxeoloji qazıntıların nəticələri, eləcə də memarlıq abidələri Azərbaycan memarlığında tətbiq olunan kaşıların öz formasına görə iki tipə ayrıldığını göstərir: a) müstəqil işlənən kvadrat, altıbucaq, romb, çoxguşəli, düzbucaqlı, böyük ölçülü kaşılar (tablo 92, şək. 5-8); b) mozaika dəstində işlənən səkkizguşəli ulduzlar, ulduzlararası boşluqları dolduran xaçvari, vergül, yarımdairəvi və s. formalı kiçik ölçülü kaşılar (tablo 92, şək. 9-16) (Л.С.Бретаницкий, 1966, стр. 325).

Azərbaycan memarlığında polixrom mozaika daha erkən tətbiq olunaraq yüksək inkişaf səviyyəsinə çatmışdır. Memarlıq bəzəyi üzrə xüsusi ustaların ixtisaslaşması da məhz bu inkişafın, binaların bədii tərtibatına diqqətin artmasının qanunauyğun nəticəsiidi.

Geniş əhali kütləsinin mədəni səviyyəsinin və mədəni əlaqələrinin göstəricilərindən biri özündə xalq ənənələrini və bədii zövqünü əks etdirən, dekorativ-tətbiqi sənət əsərləridir. Azərbaycanın orta əsr şəhərlərinin xarabalıqlarında, kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntılardan xeyli bədii keramika, metal, şüşə, sümük və s. tapılmışdır.

Bədii keramika dekorativ-tətbiqi sənətlər arasında "demokratikliyi" ilə daha çox fərqlənən sahə olub, feodal cəmiyyətinin müxtəlif sosial təbəqələrinin bədii zövqünü qabarıq şəkildə əks etdirir. Bu dövrün bədii saxsı məmulatı istər bədii işlənməsi, istər forma müxtəlifliyi və mükəmməlliyi, istərsə də naxış motivlərinin zənginliyi ilə fərqlənir. Ayaq dulus çarxının tətbiqi və şirin kəşfi dulusçu ustalara daha nəfis qablar istehsal etmək imkanı yaratmışdı. Şirsiz saxsı məmulatı əsasən cızma və yapma, bəzi hallarda qazma, kəsmə, basma naxışlarla bəzədilirdi. Bəzən, hətta saya qabların forma gözəlliyi - qabın müxtəlif hissələrinin ahəngdarlığı, şaquli və üfüqi xətlərin, maili və əyrilərin uğurlu uzlaşması ilə güclü estetik təsirə malikdir. Şirsiz saxsı məmulat arasında basmanaxışlı qablar dekor zənginliyi ilə daha çox fərqlənir. Bu dövrdə hətta iri təsərrüfat küplərinin üzərində möhürlə basılmış təsviri motivli ornamental bəzəklərə təsadüf olunur. Bəzi qabların qulpları üstünə konusvari pilləli çıxıqlar, bəzilərinə yandan dairəvi və yaxud qoyun buynuzlarını, ilanı xatırladan bəzəklər yapışdırılmışdır. Bunlar qabı bəzəkli göstərməklə yanaşı, həm də

qabdakı ərzağı şər qüvvələrdən mühafizə etməli idi. Nazikdivar qabların bəzilərində, metal qablarda olduğu kimi, batıq naxışlar vardır.

Beyləqan, Şamaxı, Bakı, Gəncə və Qəbələdə geniş yayılmış qabların bir qrupunu enli boğazı yuxarıya doğru genişlənən bardaqlar təşkil edir. Belə qabların çiyin hissəsi, üzərində zəngin naxışlar olan kasavari qəliblərdə hazırlandığından relyefli təsvirlər və bəzəklərlə doludur. Belə bəzəklərin əsas motivləri buruq, əyri xətlər, ulduz və s. təşkil edir (tablo 56). Qəbələdən tapılmış bu növ qab həm də zəngin kəsmə naxışlarla bəzədilmişdir. Hətta od üstündə istifadə edilməsinə baxmayaraq, gil qazanlar da naxışsız deyil, onların yuxarı hissələrində çıxıqlar düzəldilmiş və bəzən firuzəyi şirli qab qopuqları ilə inkrustasiya olunmuşdur. "Memarlıq" naxışı olan küplərin üzərinə şir təsvirləri yapışdırılmışdır. Küplərin üzərində möhürlə basılmış kəmərlərdəki təsvirlər isə çox müxtəlifdir. Burada müxtəlif kompozisiyada "dirilik ağacı", keçi, at, maral, quş, tazı, balıq, qaban təsvirləri verilmişdir (tablo 48). Şəmkir şəhər yerindən tapılmış nümunələrdən birində şahinlə ov səhnəsi təsvir edilmişdir (R.Y.Bəşirov, N.N.Hüseynli, 2007, səh. 32).

Təsvirlərdəki heyvanlar ya bir-birinin arxasında adi vəziyyətdə dayanmış və yaxud da onlar bir-birinin ardınca qaçırlar. Bəzi hallarda heyvan təsvirləri iki ağac arasında yerləşir, çox zaman isə onlar ağacın ətrafında üz-üzə dayanmış vəziyyətdədirlər. Bir neçə kəmərdə bir-birinin arxasında olan heyvan rəsmləri növbə ilə quş (xoruz) rəsmləri ilə əvəz olunur. Heyvan təsvirləri ilə birlikdə verilmiş iri balıq rəsmlərinə də rast gəlinir.

Qablar üzərində bu səhnələri təsvir edən yerli ustalar xalqın əsrlər boyu yaratdığı sənət ənənələrini davam etdirmiş, xalqın arzu və istəklərini təsvirlərdə əks etdirməyə çalışmışlar. Onların bəzilərində köhnəlik - qədimlik əlamətləri ("dirilik ağacı", balıq, keçi və s.) özünü göstərməkdədir (А.А.Карахмедова, 2006). Əksəriyyəti isə dövrünün məişət həyatından götürülmüşdür.

Azərbaycanda IX-XIII əsrlərdə təsviri sənətin inkişaf səviyyəsinin daha parlaq göstəricisi şirli saxsı məmulatıdır. Bu məmulat nəinki gözəl formaları, naxış motivlərinin zənginliyi ilə, həm də rənglərin müxtəlif çalarları ilə göz oxşamaqdadır. Yuxarıda onların təsnifatı və rəsmlərin texniki işlənməsi haqqında bəhs olunmuşdur. Burada yerli şirli qabların bəzi bədii xüsusiyyətlərini qeyd etmək məqsədəuyğundur.

Azərbaycanın şirli qabları başlıca olaraq həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Heyvan təsvirləri nisbətən azdır, insan təsvirlərinə isə tək-tək hallarda rast gəlinir. İlk dövr (IX-X əsrlər) saxsı məmulatında həndəsi naxışlar daha çoxdur. Adətən nəbati naxışlar, heyvan və insan təsvirləri stilizə olunmuş şəkildə verilir. Bu vəziyyət, görünür, canlı aləmin təsvirinin məqbul hesab olunmaması haqqında islam

dininin təsirindən yaranmışdır. Sonralar, XII-XIII əsrin əvvəllərində təsviri sənətdə yerli ənənələrin canlanması baş verir. Dulusçu rəssamlar həndəsi və nəbati naxışları təkmilləşdirməklə yanaşı, öz yaradıcılığında keçmiş dövrlərin yadda qalan, xüsusilə Sasani dövrü motivlərinə də müraciət edir, epik mövzularda eyni kompozisiyalar yaradırlar. Bununla belə, yerli sənətkarlar həmin motivləri olduğu kimi təkrarlamır, dövrün ideologiyasına, estetik baxışlarına və istifadə etdikləri materiala müvafiq olaraq onları yenidən işləyir, yüksək bədiiliyilə fərqlənən gözəl sənət əsərləri yaradırdılar (Т.М.Достиев, 1989, стр. 202-203). Feodal zadəgan məişətindən və epik padşahların həyatından götürülmüş təsviri motivlər olan Beyləqan bədii keramikası buna gözəl misaldır.

Azərbaycanın şirli saxsı məmulatı qonşu ölkələrin saxsı məmulatından təsvirlərin müxtəlifliyi və zənginliyi ilə seçilir (tablo 63-75). Müxtəlif heyvanlar (at, ceyran, uzunqulaq, şir, maral, dovşan, vaşaq və s.), balıq və quşlar olduqca təbii və canl şəkildə verilmişdir. Heyvan təsvirlərinin sxematik çəkilişinə nadir hallarda, o da ilk dövr qablarında təsadüf olunur. Cənubi Azərbaycanın Ağkənd şirli saxsı məmulatı içərisində heraldik təsvirlərə də rast gəlinir. Belə nümunələrdən birində qartal gerb formasında işlənilmişdir (tablo 71, şok. 5).

Azərbaycan dulusçuları bu və ya digər həndəsi, nəbati naxışları və təsvirləri kasaların dairəvi səthinə böyük ustalıq və bacarıqla çəkə bilmişlər. Rəsmlərin və rənglərin seçilməsində, onların əlaqələndirilməsində Azərbaycan dulusçu ustaları, xüsusilə XII-XIII əsrin əvvəllərində böyük kamillik nümayiş etdirmişlər.

Şamaxı şəhərinin qazıntıları zamanı tapılmış, üzərində pəri ("quş-qız") təsviri olan polixrom şirli qab fraqmenti yüksək bədii sənət əsərinin qalığı kimi diqqəti cəlb edir. Təsvir qəhvəyi, qara, yaşıl və ağ rənglərlə çəkilərək sarı çalarlı şəffaf qurğuşun şirlə şirlənmişdir (tablo 75, şək. 4). Təsvirdə pəri bədəni quş, başı isə insan sifəti şəklində verilmişdir (Г.А.Джидди, 1988, стр. 458-459). Quşun təsviri yandan-sağ tərəfdən, başı isə öndən çəkilmişdir. Diqqəti cəlb edən təsvirdə baş bəzəklərinin və baş üzərində halənin nəzərə çatdırılmasıdır.

Qısa bir dövr ərzində - IX əsrdən XIII əsrin əvvəllərinədək dulusçu-rəssamlar təcrübələrini zənginləşdirməklə təsviri sənətdə çox yüksək nailiyyətlər əldə etmişlər. Onlar Azərbaycan xalqının o dövr üçün yüksək mədəniyyətini parlaq nümayiş etdirən təsviri sənətin nadir nümunələrini yaratmışlar. Onların yaratdıqlarının çoxu nəinki Azərbaycan, hətta başqa xalqların mədəniyyət tarixində özünəməxsus layiqli yer tuta bilmişdir.

Arxeoloji qazıntılardan əldə olunmuş faktik materiallar IX-XIII əsrin əvvəllərində metalın bədii işlənməsinin Azərbaycanda kifayət qədər inkişaf etdiyini

və el sənətkarlarının cızma, döymə, qabartma, bədii tökmə kimi üsullardan məharətlə istifadə etdiyini sənədləşdirir.

Təsviri kompozisiya nümunəsi kimi "Şirvan lüləyəni"ni xüsusi qeyd etmək lazımdır (tablo 41, şək. 1). Həmin qabda üç fiqur- inək, onun donqarını parçalayan şir və anasını əmən buzov birlikdə təsvir olunmuşdur. Kompozisiya stilizə edilmiş formalarda yaradılmış, qabın üzəri cızma və xatəmkarlıq üsulunda gümüşlə bəzədilmişdir. Nəbati naxışlar arasında insan, heyvan və quş fiqurları cızılmışdır. İnək fiqurunun yan tərəfində, enli qurşaqlar arasında süjet xarakterli kompozisiyalar - ziyafət, nərd oynayanlar, ov səhnəsi təsvir edilmişdir. "Şirvan lüləyəni"n də inəyin sakitliyi, buzovun oynaqlığı, şirin isə yırtıcılığı real səpkidə verilmişdir (И.М.ДЪЯКОНОВ, 1938, стр. 247-254; F.Ə.İbrahimov, 1988, səh. 83).

Texniki və bədii cəhətdən yüksək sənət nümunəsi olan bu əsərə diqqət yetirdikdə burada hər bir detalın, hər bir cizginin bir-birilə uzlaşaraq tamlıq, vahidlik yaratdığının şahidi oluruq. Bakıda, İçərişəhərdə arxeoloji qazıntılar zamanı Şirvanşahlar saray kompleksindən tapılmış tunc çıraq da (tablo 43, şək. 1) Şirvan bədii metal sənətinin nadir nüsxələrindən hesab oluna bilər (В.Н.Левиатов, 1949, стр. 137-138). Uzunluğu 18 *sm,* hündürlüyü 8,5 *sm* olan bu çırağın üzərində at, iki öküz başı, on dörd pişik başı və iki insan sifəti qabartma üsulunda təsvir olunmuşdur. Sənətkar təsvirlərin real səpkidə verilməsinə nail olmuşdur. Metal üzərində cızma xətlərlə naxışlanmış əşyalara misal olaraq Qəbələdən tapılmış aftafa lüləyini, ortasında ornamental kəmər çəkilmiş camı, Beyləqan qazıntılarından aşkarlanmış metal qabları nümunə gətirmək olar. Beyləqan qazıntılarından tapılmış XII-XIII əsrin əvvəllərinə aid zərbetmə üsulu ilə bəzədilmiş üçayaqlı mis qabın mərkəzində altıguşəli ulduz və onun ətrafında isə nəbati naxışlardan ibarət medalyon salınmışdır (tablo 42, şək. 10). Medalyonun kənarında isə simmetrik şəkildə üç yerdə dairə içərisində dələyə oxşar heyvan rəsmləri çəkilmişdir. Onların arasında isə qabın gələcək sahibinə xoşbəxtlik arzusu həkk olunmuşdur (F.Ə.İbrahimov, 1988, səh. 76).

Arxeoloji qazıntılarından əldə olunan şüşə məmulatda da bədii zövq öz əksini genişliyi ilə tapa bilmişdir. Bu, nəinki onların yığcam və aydın formaya malik olmalarında, gözəlliyində, rənglərinin müxtəlifliyi və parlaqlığında, həm də naxışlarında özünü göstərir. Biz burada həndəsi kəsmələr, qabarıq və batıq naxışlar, "dəniz dalğası" naxışı, ilan və sarğı şəkilli yapışdırmalar, müxtəlif rənglərin "mozaikası" və digər bəzəklərlə rastlaşırıq (tablo 79-80).

Beyləqandan, Dəbildən və Dərbənddən zərlə naxışlanmış şüşə qablar da tapılmışdır. Bunların istehsal olduğu yer, hələlik, dəqiq müəyyən olunmamışdır. Yapışdırma naxışı olan qablar Qəbələdən və Gəncədən yaxşı məlumdur. Yapışdırma

naxışlar adətən qabların boğazına və çiyin hissəsinə tutqun-şabalıdı, sarı və firuzəyi rəngli şüşədən ip şəklində düzəldilərək vurulmuşdur. Bəzən belə bəzəklər ilan şəklində qabın boğazına dolandırılırdı.

Azərbaycanın islam dövrü tətbiqi-dekorativ sənətləri arasında bədii sümükişləmə özünəməxsus yer tuturdu və onun inkişaf səviyyəsinə arxeoloji qazıntılar zamanı tapılmış çoxsaylı sümük əşyalar şahidlik edir. Sümük məmulatının böyük əksəriyyəti cızma və kəsmə üsulu ilə bəzədilmişdir. Dərbənd şəhərinin arxeoloji qazıntılarından tapılmış, hündürlüyü 11 *sm* mühafizə olunan çılpaq qadın heykəlinin fraqmenti yüksək bədiiliyi ilə diqqəti cəlb edir. Heykəlin yalnız bədən hissəsi mühafizə olunmuş, baş və qolların isə sınığının izləri qalmışdır. Usta bu fiqurda qadın bədəninin gözəlliyini yüksək peşəkarlıqla diqqətə çatdırmışdır. Səliqə ilə cilalanmış bədənin üzərində çəhrayı rəngin izləri müşahidə olunur (А.А.Кудрявцев, 1990, стр. 31).

Arxeoloji qazıntılar zamanı xeyli miqdarda sümükdən hazırlanmış, incə zövqlə naxışlanmış əmək aləti hissələri və döyüş ləvazimatı da tapılmışdır. Mürəkkəb həndəsi və nəbati naxışlarla bəzədilmiş bıçaq və xəncər dəstəklərinə daha çox rast gəlinir. Şabran şəhərinin arxeoloji qazıntılarından tapılmış və XII əsrə aid edilən belə dəstəklərdən birinin (T.M.Dostiyev, 1999, səh. 81) üst səthi pərgar, cızma və çərtmə üsulla zəngin bəzədilmişdir. Kompozisiyanın mərkəzində XI-XII əsrlərdə geniş yayılmış naxışlardan biri "səlcuq zənciri" salınmışdır (tablo 85, şək. 9). Beyləqan qazıntılarından tapılmış bir bıçaq dəstəyinin üzərində isə sxematik şəkildə qadın surəti təsvir edilmişdir (Q.M.Əhmədov, 1979, səh. 36, şək. 21). Sxematik cizgilərlə insan sifəti təsvir edilmiş sümük əşyalar Dəbil şəhərinin qazıntılarından da məlumdur (tablo 85, şək. 3-4). Beyləqan şəhərindən tapılmış, kağız kəsmək üçün istifadə olunmuş sümük bıçaq da zərif naxışlarla bəzədilmişdir (tablo 85, şək. 1).

Döyüş və ovçuluq ləvazimatı qrupuna aid edilən Sərkərtəpə, Dəbil və Təxti-Süleyman abidələrinin arxeoloji qazıntılarından tapılmış və XI-XII əsrlərə aid edilən şallaq dəstəkləri (?) formasının gözəlliyi, səthinin naxışlanması və parlaqlığı ilə diqqəti cəlb edir (tablo 85, şək. 6-8).

Bədii sümük məmulatı arasında üzərləri yaxşı cilalanmış, həndəsi naxışlar, daha çox pərgar naxışlarla (mərkəzində nöqtə olan dairə və ya konsentrik dairələr) bəzədilmiş düymələr, amuletlər, təsbeh-muncuqlar daha çoxdur.

## Bəzəklər

Azərbaycanın orta əsr şəhər abidələrində aparılan arxeoloji qazıntılardan əldə olunmuş IX-XII əsrlərə aid bəzək məmulatı əsas etibarilə əlvan metaldan, şüşə və sümükdən düzəldilmişdir. Bəzək məmulatını təyinatına görə baş, sinə, qol, barmaq və geyim bəzəklərinə ayıraraq təsnif etmək mümkündür. Baş bəzəklərinə cütqabağı və sırğalar, sinə bəzəklərinə boyunbağı, medalyon, silsilə, boğazaltı, müxtəlif materiallardan hazırlanmış muncuqlar, asmalar, qızıl və gümüş zəncirlər; qol bəzəklərinə bilərziklər; barmaq bəzəklərinə üzüklər; geyim bəzəklərinə kəmər, toqqa və kəmərüstü bəzəklər, düymələr, sancaqlar və müxtəlif tip pilələr daxildir.

Kiş məbədində məqbərədə aparılan qazıntı işləri zamanı tapılmış orta əsrə aid naxışlı qızıl lövhələrin diadema tipli baş geyiminə mənsub olduğu şübhə doğurmur (tablo 93. şək. 6). Diademanın üzərindəki bəzək üçləçəkli çiçək, sünbül şəkilli nəbati naxışdan, dairəvi, spiralvari həndəsi ornamentdən və stilizə olunmuş ilan təsvirindən ibarətdir (В.Керимов, Б.Стурфиел, 2003, стр. 97).

Baş bəzəklərinə daxil olan sırğaları hazırlanma materialına görə iki qrupa ayırmaq olar. Tunc və mis sırğaların daxil olduğu birinci qrup formaya görə dörd tipə bölünür: Birinci tipə halqa formalı sırğalar daxildir. Onlar orta əsr Beyləqan, Bakı və Qəbələ şəhərlərinin arxeoloji qazıntılarından məlumdur (B.Rəcəbova, 2000, səh. 65). Uc hissələrinə muncuq keçirilmiş sırğalar bu tipin ayrıca variantını təşkil edir (tablo 94, şək. 1-2) və onlar XII-XIII əsrin I yarısına aid olunur (B.Rəcəbova, 2000. səh. 65; F.Ə.İbrahimov, 1988, səh. 98-99).

İkinci tip sual işarəsi şəklində nazik mis məftildən hazırlanmış sırğalarla təmsil olunmuşdur (tablo 94, şək. 3-4). Belə sırğalar Qəbələ və Şabran şəhərlərinin arxeoloji qazıntılarından məlumdur. Onların erkən nümunəsi isə Şəmkir şəhərinin arxeoloji qazıntıları zamanı XI əsrə aid qatdan tapılmışdır.

Üçüncü tipə armudvari formaya malik olan və qəlibdə tökmə üsulu ilə hazırlanmış sırğalar daxildir. Şabran qazıntılarından tapılmış bu tipə mənsub sırğanın mərkəzi hissəsi xətlərlə naxışlanmışdır.

Rombvari sırğalar dördüncü tipə aid edilir. Nazik mis təbəqədən bir-birinin üstünə qatlama yolu ilə düzəldilən, asmaq üçün olan qulpları isə rombun bir tərəfinə birləşdirilmiş bu sırğaların bir cütü Beyləqan qazıntılarından tapılmışdır (F.Ə.İbrahimov, 1988, səh. 98).

İkinci qrupa daxil olan qızıl və gümüş sırğalar isə iki tiplə təmsil olunmuşdur. Mingəçevir qazıntılarından əldə olunmuş bir cüt qızıl sırğa nazik qızıl məftildən hazırlanmış, aşağı tərəfinə kiçik ölçülü qarmaq keçirilmişdir (tablo 93, şək. 2).

Bakıdan - qədim müsəlman qəbiristanlığından tapılan, XII-XIII əsrlərə aid edilən qızıl sırğanın qulağa keçirilən hissəsi sual işarəsi şəklində, asma hissəsi isə aypara formasında olub üzəri naxışlanmışdır (tablo 94, şək. 5) (В.В.Бартольд, 1905, стр. 119; İbrahimov F.Ə., 1995, səh. 53).

Asmalar həm boyunbağı ilə, həm də ayrılıqda istifadə olunurdu. Onlar materialına görə dörd qrupa bölünür:

Mis və tuncdan hazırlanmış və birinci qrupu təşkil edən asmalar forma etibarilə müxtəlifdir. Şarşəkilli asmalar Qəbələ, Şabran, Dəbil və Beyləqan qazıntılarından məlumdur. Belə formaların içərisi boş olduğu üçün çox yüngüldür. Bəzilərinin üzəri saya, digərlərinin isə naxışlıdır. Asmaq üçün hər birinin yuxarı tərəfində kiçik dairəvi deşiyi olan çıxıntı vardır. Beyləqan qazıntılarından tapılmış belə bir asmanın üstü dilimli şəkildə naxışlanmışdır (F.Ə.İbrahimov, 1988, səh. 99).

Tökmə üsulu ilə hazırlanmış yarımşar formalı kiçik, lakin nisbətən ağır asma da Beyləqanın qazıntılarından məlumdur (F.Ə.İbrahimov, 1988, səh. 99).

Şar konusvari şəkildə, içərisi boş düzəldilmiş asmalar yüngül olub, üzəri dilimli naxışla bəzədilmişdir (tablo 95, şək. 16). Bu tip asmalar Beyləqan və Qəbələ şəhərlərinin arxeoloji qazıntılarından tapılmışdır (F.Ə.İbrahimov, 1988, səh. 99). Asmalar arasında zoomorf və antromorf təsvirli nümunələr də vardır. Misal olaraq Beyləqandan tapılmış tunc asmaları göstərmək olar. Onlardan birinin üzərində başında dəbilqə olan insan təsviri verilmişdir (tablo 95, şək. 15). Digər asma isə qadın fiquru formasında düzəldilmişdir (tablo 95, şək. 12). Sonuncuda qadının döşləri və göbəyi daha qabarıq nəzərə çatdırılmışdır. Bu tip asmaları uşaq arzulayan qadınların geydiyi ehtimal olunur (Q.M.Əhmədov, 1979, səh. 56). Xaraba-Gilandan tapılmış bəzək nümunələri arasında bayquş, kərtənkələ (tablo 95, şək. 14) formasında hazırlanmış asmalar da vardır (Б.И.Ибрагимов, 2000, стр. 115).

Asmalar arasında medalyon formalı nümunələr də az deyildir. Qəbələ şəhərinin arxeoloji qazıntılarından tapılmış nazik mis təbəqədən döymə yolu ilə hazırlanmış medalyon tipli asma zəngin naxışlanması ilə diqqəti cəlb edir. O, səkkizkünclü formada olub, künclərin birində asılmaq üçün deşik vardır. Medalyonun üzərində üç konsentrik dairə salınmışdır. Mərkəzdə altıguşəli ulduz təsviri verilmişdir. Ulduzu və onun yerliyini əhatə edən üstü naxışlı lentlərin mürəkkəb hörgüsündən ibarət, bir-birinə toxunulmuş altıləçəkli gül rəsmi çəkilmişdir. İkinci konsentrik qurşaq saya saxlanılmış, üçüncüdə isə saat əqrəbinin əks istiqamətində səkkiz balıq təsviri verilmişdir. Dairələrin və balıqların üzərini xırda nöqtələr bəzəyir (tablo 94, şək. 8). Medalyon-asma XII-XIII əsrlərə aid edilir.

Medalyon formalı asmalar Beyləqan, Bakı, Şabran şəhərlərinin arxeoloji qazıntılarından da tapılmışdır.

İkinci qrupda cəmləşən qiymətli metallardan hazırlanmış asmalara arxeoloji qazıntılar zamanı az da olsa təsadüf olunur. Qızıldan hazırlanmış boyun bəzəyi Mingəçcvir qazıntılarından məlumdur. Trapesiya formasında olan asmalar üç-üç, halqa vasitəsi ilə bir-birinə bənd edilmişdir. Bu bəzəklər isə nisbətən iriölçülü halqa vasitəsi ilə bir-birinə bərkidilmişdir (tablo 93, şək. 5). Boyunbağı IX-X əsrlərə aid olunur (V.M.Vahidov, 1961, səh. 132).

Astara rayonunun Şavqo kəndi yaxınlığında tapılmış gümüş boyunbağı isə bir neçə hissədən ibarət olmaqla dairəvi lövhələrin zəncirə bənd edilməsi ilə hazırlanmışdır (Г.М.Асланов и др., 1966, стр. 26). Zəncirlər hörməlidir və bərabər hissəsi yastılaşdırılmışdır (tablo 94, şək. 19). Zəncirin ümumi uzunluğu 36,7 *sm-dir.* "S" şəkilli qarmaqlarla bir-birinə bənd edilmiş zəncirdən ibarət boyunbağı (tablo 95. şək. 22) Dəbil şəhərinin qazıntılarından da məlumdur.

Şamaxı şəhərinin arxeoloji qazıntılarından əldə olunmuş gümüş medalyon-asma dairəvi lövhələr şəklindədir. Bu asma üç dairəvi lövhənin halqaya keçirilərək əsas hissəyə lehimlənməsi yolu ilə hazırlanmışdır (Г.А.Джидди, 1981, стр. 53, табло 1,8).

Sümükdən hazırlanmış asmalar üçüncü qrupu təşkil edir. Torpaqqalanın arxeoloji qazıntılarından tapılan, hansısa quşun onurğa sümüyündən hazırlanmış asma orijinal formaya malik olub ayparanı xatırladır. Sap keçirmək üçün ortasında deşik açılmışdır (B.Rəcəbova, 2000, səh. 64, tabl. XV, 21). Başqa bir asma kvadrat şəklində olub, yuxarı tərəfində ip keçirmək üçün deşik açılmış çıxıntısı vardır. Üzəri yaxşı şüyrələnmiş bəzəyi yoxdur (tablo 94, şək. 9). Görünür o, rəmzi məna kəsb etmiş, hifzedici amulet təyinatı daşımışdır (B.Rəcəbova, 2000, səh. 64).

Mineral və daşlardan hazırlanmış asmalar dördüncü qrupda birləşir. Seyidli yaşayış yerindən tapılmış travertin asma öz orijinallığı ilə diqqəti cəlb edir (tablo 94, şək. 21). Ürək formasında yonulub hazırlanmış bu asmanın hər iki üzündə xırda yuvalar açılaraq daş-qaş qoyulmuşdur. Lakin onlar mühafizə olunmamış, düşmüşdür. Yuvalardakı qalıqlar onlarda yaşıl rəngli daşın olduğunu müəyyən etməyə imkan verir (T.M.Dostiyev, 2001, səh. 144, şək. 41, 4).

Arxeoloji qazıntılar zamanı tapılmış muncuqlar əsasən yarımqiymətli daşlardan (əqiq, qranit, lazurit) və şüşədən hazırlanmış, müxtəlif texniki üsullarla bəzədilmişdir. Xaraba-Gilan qazıntılarından tapılmış qranit muncuqlar altıtilli, silindrik və dördbucaq tillidir. Onların arasında oturmuş insanı və ya meymunu xatırladan fiqur (tablo 94, şək. 15) xüsusilə diqqəti cəlb edir (Б.И.Ибрагимов, 2000, стр. 119, şək. 39,21). Lazuritdən hazırlanmış muncuq isə fantastik heyvanı xatırladır (Б.И.Ибрагимов, 2000, стр. 119). Onun başının yarısı sınmışdır. Sifəti yastı olub dairəvi, dərin gözləri, cütlənmiş ayağı vardır.

Əqiqdən hazırlanmış muncuqlar əhali arasında xüsusilə geniş yayılmışdır. Onların arasında şar, silindr və çoxtilli formalı nümunələr daha çoxdur (tablo 94, şək. 22-24). Bu qəbildən olan muncuqlara, demək olar ki, əksər orta əsr şəhər yerlərində rast gəlinir. Onların üzəri diqqətlə cilalanmış, ortasından sap keçirmək üçün deşik açılmışdır.

Şüşədən hazırlanmış muncuqlar istər kəmiyyəti, istərsə də forma müxtəlifliyi ilə fərqlənir. Rəngli daşlarla inkrustasiya edilmiş şüşə muncuqlar şar və damcı formasında olub göy, qara və yaşıl rəngdədirlər (B.Rəcəbova, 2000, səh. 61). Nümunə üçün Şabran şəhərinin qazıntıları zamanı tapılmış, armudvari formalı açıq-yaşıl şüşədən hazırlanmış muncuğa diqqət yetirək. Onun üzəri yeddi yerdən açıq-qəhvəyi və ağ rəngli daşlarla bəzədilmişdir (tablo 94, şək. 13).

Şüşə muncuqlar arasında gözcüklü muncuqlar daha çoxdur (tablo 94, şək. 24). Göy və ya qara rəngli şüşədən hazırlanan bu tip muncuqlar bir qayda olaraq kürəvi formaya malik olur, səthində ağ-qırmızı, sarı və yaşıl rəngli gözcüklər düzəldilirdi (B.Rəcəbova, 2000, səh. 61).

Göz muncuqları gildən də hazırlanırdı. Səthində gözcüklər düzəldilmiş gil muncuqlar Beyləqan, Qəbələ, Şabran, Mingəçevir qazıntılarından yaxşı məlumdur. Şabran şəhərinin arxeoloji qazıntıları zamanı tapılmış bir gil gözmuncuğu orijinallığı ilə diqqəti cəlb edir. Açıq-qəhvəyi rəngdə olan bu muncuğun üzərində iki tərəfdən gözcük insan gözü şəklində formalaşdırılmışdır. Ağ yerlik üzərində qara kirpikləri effektlə seçilən iki gözcük məharətlə işlənmişdir.

**Bilərziklər (qolbaqlar).** Başlıca qol, bilək bəzəyi olan bilərziklər əlvan metaldan və şüşədən istehsal olunurdu.

Gümüş qolbaqlar iki tiplə təmsil olunmuşdur. Lentvari qolbaqlar Astara rayonunda gümüş pullarla birlikdə tapılmışdır (Г.М.Асланов и др.,, 1966, табл. VIII, 3). Ucları içəriyə qatlanmış qolbaq ikicərgəli burulmuş məftillə dövrələnmiş və bir cərgə dənəciklərlə bəzədilmişdir. Mərkəzi hissəsi "S" formalı işarələrlə naxışlanmışdır. İki yerdə qaş yuvası düzəldilmişdir. Qaşlar mühafizə olunmamış, düşmüşdür. Üzəri dörd üçbucaq formalı dənəvər naxış elementi ilə bəzədilmişdir (tablo 96. şək. 1). Digər iki gümüş qolbaq da oxşar formalı olub ölçü etibarı ilə fərqlənir və nəbati rəsmlərlə bəzədilmişdir (tablo 96, şək. 2). Lentşəkilli qolbaqlar Dəbil şəhərinin arxeoloji qazıntılarından da məlumdur (tablo 96, şək. 3).

Bakıda qədim müsəlman qəbiristanlığından tapılan bəzək əşyaları arasında gümüş məftillərdən hazırlanmış bilərzik nümunəsi də olmuşdur (B.B.Бартольд, 1905. стр. 119). O ucları qapanmış dairə formasındadır. Məftildən eşmə üsulu ilə hazırlanmış, bir ucu qarmaq, digəri ilgək formasında tamamlanan bilərziklərin bütöv salamat qalmış nümunəsi Dəbil qazıntılarından məlumdur (tablo 96, şək. 4).

Orta əsr abidələrinin arxeoloji qazıntılarından xeyli mis və tunc bilərziklər tapılmışdır. Formasına görə onları dörd tipə ayırmaq olar. Texnoloji baxımdan ən sadə hesab olunan lentvari bilərziklər xüsusilə geniş yayılmışdır. Belə bilərziklər arxeoloji qazıntılar zamanı Beyləqan, Qəbələ, Şamaxı, Şabran və Sərkərtəpədən tapılmışdır (B.Rəcəbova, 2000, səh. 55-56). Ucları qapanmayan, en kəsiyi dairəvi, üzəri saya və ya nəbati naxışlı bilərziklər ikinci tipi təşkil edir (tablo 96, şək 5). Üçüncü tip nazik, en kəsiyi dairəvi olan mis məftillərdən eşilmiş, dairəyə yaxın formaya salınmış bilərziklərlə təmsil olunur. Belə bilərziklərin bir ucu ilgək, digəri isə qarmaq formasında olur (tablo 96, şək. 6-7). Mis və tunc bilərziklərin dördüncü tipinin səciyyəvi xüsusiyyəti uclarının zoomorf və ya antromorf fiqurla tamamlanmasıdır (tablo 96, şək. 8-9). Belə bilərziklər Şabrandan, Qəbələdən, Şamaxıdan, Sərkərtəpədən tapılmışdır (B.Rəcəbova, 2000, səh. 57).

Şüşə bilərziklər istər orta əsr şəhərlərinin, istərsə də kənd tipli yaşayış yerlərinin arxeoloji qazıntılarından kütləvi tapılan bəzək əşyasıdır. Əksər hallarda onlar fraqmentlər şəklində, az hallarda isə bütöv tapılır. Onlar yaşıl, qara, göy, çəhrayı şüşədən hazırlanmışdır. En kəsikləri dairəvi, yarımdairəvi, kvadrat, üçbucaq şəkilli bilərziklər çoxluq təşkil edir (tablo 96, şək. 10-24). Onların bəziləri spiralşəkilli dolanmış saplarla bəzədilmişdir. Bəzən dolama şüşə saplar rəngli olurdu (tablo 96, şək. 24). Bəzən də bilərziklər müxtəlif rəngli şüşələrlə inkrustasiya edilirdi (tablo 96, şək. 16-17). Şüşə bilərziklərin ayrıca tipini burma üsulu ilə hazırlanmış bilərziklər təşkil edir (tablo 96, şək. 21-23).

**Üzüklər.** Başlıca əl-barmaq bəzəyi olan üzüklər əvvəlkitək mis, tunc, gümüş, qızıl və şüşədən hazırlanmış və orta əsrlərdə daha geniş yayılmışdır. Onlar qaşlı və qaşsız olmaqla iki başlıca bölməyə ayrılır. "Xatəm" adlanan qaşsız halqa bəzək əşyası olmaqla bərabər həm də ideya yükü daşıyır, nikah, mehr-məhəbbət rəmzi kəsb edirdi. Qaşlı üzüklər forma müxtəlifliyi ilə fərqlənir. Onların əksəriyyəti mis və tuncdan hazırlanmışdır. Bəzilərinin üst tərəfi yastılaşdırılaraq düzbucaq, ellips, rombvari, kvadrat, çoxbucaqlı, dairəvi, gül formasına salınaraq zərb yolu ilə üzərinə naxışlar vurulmuşdur (tablo 97, şək. 5-6, 8-9, 11-20). Beyləqandan tapılan üzüklərdən birinin həm qaşı, həm də qaşın hər iki tərəfi zərb yolu ilə zəngin naxışlanmışdır. Üstü bir-birinin içərisində zərb olunmuş düzbucaqlardan və onların arasındakı diş-diş formada bəzəklərdən ibarət olan bu üzüyün qaşının yan tərəfləri nəbati rəsmlərlə zərif naxışlanmışdır. Bakıda, İçərişəhərdə aparılan arxeoloji qazıntılardan IX-XIII əsrlərə aid xeyli qaşlı üzük tapılmışdır. Onlardan yastılaşdırılmış, üstünə qoşa romb zərb olmuş nüsxə daha çox maraq doğurur (F.Ə.İbrahimov, 1995, səh. 49). Dekorativliyi gücləndirmək üçün rombların içərisi düzxətlərlə bəzədilmişdir (tablo 97, şək. 3). Digər bir düzbucaqlı

qaşın üstünə isə qarşı-qarşıya duran üçbucaqlar salınmışdır. Qəbələ şəhərində tapılmış üzüyün qaşı isə altıləçəkli çiçək formasında olub, hər ləçəyində kiçik dairə çəkilmişdir (tablo 97, şək. 11). Metal qaşlı üzüklərin üzərində bəzən təsvir motivlərinə də rast gəlinir. Dəbil şəhərindən tapılmış belə üzüklərdən birinin düzbucaqlı qaşında vəhşi heyvan-qurd təsviri vardır (tablo 97, şək. 17). Beyləqandan tapılmış metal qaşlı üzüyün qaşında isə sxematik quş təsviri verilmişdir. Quşun baş hissəsi üç, bədəni iki xətlə, quyruğu qısa xətlərlə təsvir edilmişdir. Quşun qanadları isə ştrixlərin köməyi ilə diqqətə çatdırılmışdır.

Metal qaşlı üzüklərin xüsusi tipini möhür-üzüklər təşkil edir. Onlar zinət əşyası olmaqla yanaşı, həm də şəxsi və ya nəsli möhür funksiyası daşımışdı. Tunc və gümüşdən hazırlanmış möhür üzüklərin nümunələri Beyləqan və Şabran şəhərlərinin arxeoloji qazıntılarından məlumdur (Q.M.Əhmədov, 1979, səh. 56; T.M.Dostiyev, 2001, səh. 141). Beyləqan şəhərindən tapılmış üzüyün qaşı, yəni möhür hissəsi dördbucaqlı formadadır. Onun üzərində isə biri digərinə əks istiqamətdə ərəb əlifbası ilə "Allah" və "Məhəmməd" kəlmələri həkk olunmuşdur (tablo 44, şək. 9). Ehtimal olunur ki, möhür-üzük "Məhəmməd" adlı şəxsə mənsubdur. Bununla belə, "Allah" və "Məhəmməd" kəlmələrinin xeyir-dua səciyyəsi daşıdığı ehtimalını da istisna etmək olmaz.

Şabrandan tapılmış iki möhür-üzük zəngin bədii tərtibatı ilə xüsusilə diqqətəlayiqdir. İriölçülü nüsxədə halqadan qaşa keçiddə hər iki tərəfdən üz-üzə dayanmış, ağızları açıq olan ilan təsvirləri vardır (tablo 97, şək. 4). Sanki onlar möhürü qoruyurlar. Möhürün qaş hissəsi on ləçəkli gül formasındadır. Üzərində güzgü əksində yüksək peşəkarlıqla ərəb əlifbası ilə "Sahibi Xuda Baxış-Afiyət" cızılmışdır (Б.Раджабова, 1985).

İkinci möhür-üzük ölçücə kiçik olub, texniki və bədii xüsusiyyətlərinə görə təsvir edilən nüsxəni təkrarlayır (tablo 97, şək. 10). Onun möhüründə ərəb əlifbası ilə "Bəxeyr" cızılmışdır (B.Ə.Rəcəbova, 2000).

Daş-qaşlı üzüklərdə qiymətli və ya yarımqiymətli daşın qoyulması üçün qaş hissə yuva formasında düzəldilirdi. Bu tip üzüklərin ən nəfis nüsxələri qızıldan hazırlanırdı. Şabran şəhər yerindən tapılmış XII əsrə aid üzüyün halqası içəridən hamar, bayır tərəfdən qabarıq məftilin dövrələnməsindən ibarət olub tac, daş-qaş yuvası dərin və dairəvidir. Qaşı saxlamaq üçün qaş yerinə dörd qarmaq bərkidilmişdir. Qaş mühafizə olunmamış, düşmüşdür. Halqa hissədən tac hissəyə keçid üzüm salxımını xatırladan qabarıq naxışla nəzərə çatdırılmışdır. Tac bayır tərəfdən xırda dənəciklərlə, altdan isə rombvari xonçada çarpazlaşan, qarmaqşəkilli cızma naxışla bəzədilmişdir (tablo 97, şək. 1).

Qobustanın Yazılıtəpə sahəsindən tapılmış həmdövr qızıl üzük də oxşar formalıdır. Lakin onun halqadan tac hissəyə keçidi ilan fiqurları formasında verilmişdir (tablo 97, şək. 2). İlanlar üzüyün tacını açılmış ağızlarında tutmuşlar. Qaş firuzədəndir (F.Muradova, C.N.Rüstəmov, 1993, səh. 98). Beyləqan qazıntılarından tapılmış qızıl üzüyün isə qaşı qırmızı rəngli mineral daşdandır (tablo 97, şək. 9).

Metal üzüklərlə yanaşı orta çağda şüşə üzüklər də geyilirdi. Göy və qara rəngli şüşədən hazırlanmış halqaşəkilli üzüklər Mingəçevir, Qəbələ, Şamaxı, Dərbənd, Şabran və Dəbilin arxeoloji qazıntılarından məlumdur. Belə üzüklərin üst tərəfinə bəzən eyni materialdan qaş düzəldilirdi (tablo 96, şək. 27 ).

Orta əsr abidələrinin arxeoloji qazıntılarında eşmə şüşə üzüklərə az təsadüf olunur. Bu tip üzüklər iki rəngdə şüşədən istifadə etməklə burma üsulu ilə düzəldilirdi. Onların qaşı dairəvi, ellips şəklində olmaqla hamardır (tablo 97, şək. 11, 30, 31).

Sümükdən hazırlanmış, üst tərəfində uzunsov lövhəşəkilli qaş düzəldilmiş üzük Beyləqan qazıntılarından məlumdur (tablo 86, şək. 8).

**Toqqa və kəmər bəzəkləri.** Bel bəzəkləri Bakı, Şabran, Beyləqan, Dəbil, Torpaqqala abidələrinin arxeoloji qazıntılarından tapılmış metal toqqa və kəmər hissələri ilə təmsil olunmuşdur (tablo 95, şək. 1-11, 13, 14, 19, 32, 33). Toqqaların ən bəsit forması birgözlü olub, dairəvi və ya oval şəkilli başlıqdan ibarətdir və uca doğru sivriləşən dilçəyi vardır (tablo 95, şək. 2, 6). Toqqaların əksəriyyəti isə ikigözlüdür. Adətən, kəmərin bənd edildiyi göz düzbucaqlıdır. Beyləqandan tapılmış toqqalardan birinin yalnız kəmərə bənd edilən hissəsi saxlanılmışdır. Onun içəri üzündə üç yerdə üçbucaq şəklində çıxıntı vardır. Toqqa kiçik deşikləri olan bu çıxıntılar vasitəsi ilə kəmərə bənd edilirdi (F.Ə.İbrahimov, 1988, səh. 102). Dördkünc və lira formalı toqqalar arakəsmə ilə iki gözə ayrılır (tablo 95, şək. 1). Görünür toqqanın dili arakəsmədə olurdu. Dəbildən tapılmış toqqa başlıqlarından biri liraşəkilli olsa da mürəkkəb quruluşu ilə fərqlənir (tablo 95, şək. 4). Dəbil qazıntılarından məlum olan başqa bir toqqa orijinallığı ilə daha çox diqqəti cəlb edir. Kəmərə bənd edilmiş toqqa şəbəkəli formaya malik olub dili yarpaqşəkillidir, uca doğru daralır. Dilin sağ və sol tərəflərində isə dördkünclü çıxıntılar vardır (tablo 95, şək. 5).

Arxeoloji qazıntılar zamanı kəmərüstü bəzəklərə də rast gəlinir. Onlar düzbucaqlı, oval, rombvari, üçbucaqşəkilli, ox və çoxləçəkli gül formasında pilələrdən ibarətdir. Pilələrin üzəri də öz növbəsində müxtəlif naxışlarla bəzədilmişdir (tab-95, şək. 10, 11, 13, 14, 19). Kəmər bəzəkləri arasında bir kəmər qaşı diqqəti daha çox cəlb edir. Qaşın ortasında pəncələri üstə oturmuş vəziyyətdə

şir təsvir olunmuşdur. Şirin başı bədənə nisbətən irihəcmlidir. Kəmərüstü bəzəklərdən birində isə öküz başını xatırladan təsvir vardır.

**Sancaqlar**. Sadə quruluşa malik olan milşəkilli, ucusivri sancaqlar başlıqlarının yarpaqvari və zoomorf formalı olması ilə fərqlənir. Yarpaqvari başlıqlı sancaqlar kəmiyyət etibarilə çoxluq təşkil edir. Zoomorf elementli sancaqlardan ikisi ilanbaşlı, dördü isə quş fiquru formasındadır (tablo 95, şək. 28, 30-31). İlanbaşlı sancaqlar Beyləqan və Qəbələdən, quş fiqurlu başlıqlı sancaqlar isə Gəncə, Şəmkir, Dəbil və Beyləqan qazıntıları zamanı tapılmışdır (F.Ə.İbrahimov, 1988, səh. 101).

Bakıda qədim müsəlman qəbrindən tapılmış qızıl sancaq öz orijinal forması ilə fərqlənir. Yüksək bədiiliyi ilə səciyyələnən bu sancağın başlığı zərif şəbəkə formasında düzəldilmişdir. Nazik tellərdən hörülmüş bu hissənin dörd tərəfi tacvari şəkildə qabarıqdır (tablo 95, şək. 27) (В.В.Бартольд, 1905, стр. 119; F.Ə.İbrahimov, 1995, səh. 56).

Sancaqların bəziləri libas bəzəyi, bəzisi isə baş örtüyü və saçı bənd etmək üçün istifadə olunmuşdu.

**Düymələr.** Başlıca geyim bəzəklərindən hesab olunan düymələr əsasən sümükdən hazırlanmış və arxeoloji qazıntılar aparılmış orta əsr abidələrinin əksəriyyətindən tapılmışdır.

Konus, bikonik, yarımkürəvi formada düzəldilmiş, üzərləri parıldayana qədər diqqətlə cilalanmış, həndəsi naxış elementləri ilə bəzədilmişdir. Pərgar naxışı, konsentrik dairələr, ulduzlar, çərtmələr, xırda çiçək rəsmləri geniş yayılmışdır (tablo 86, şək. 13-39). Düymələrdən birinin üzərində isə quş təsviri çəkilmişdir (tablo 86, şək. 28). Quşun gözləri aydın təsvir edilmiş, bədəni isə xırda dairəciklərlə bəzədilmişdir.

## Epiqrafik abidələr

Arxeoloji qazıntılar zamanı XI-XIII əsrlərə aid xeyli epiqrafik abidə aşkarlanmışdır və onların hər biri böyük tarixi-mədəni əhəmiyyət kəsb edir. Bu kitabələrdə Azərbaycanın orta çağda sosial-iqtisadi, siyasi və mədəni inkişafının ayrı-ayrı məsələlərinə aydınlıq gətirən məlumatlara, müxtəlif məzmunlu şeirlərə, fərmanlara, xatirələrə və s. rast gəlinir. Epiqrafik abidələr tarixi məlumatı təhrif olunmadan heç bir məzmun dəyişiklərinə uğramadan, dəqiq və etibarlı sənəd kimi nəsildən-nəslə ötürür (M.Nemətova, 1987, səh. 4).

Bəhs edilən dövrə aid epiqrafik abidələr əsasən ərəb və fars dillərindədir. Ərəl dili uzun müddət təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində rəsmi və dini funksiya daşıdığından yazışmalar da həmin dildə aparılmışdır. Səlcuq türklərinin Ön Asiyada hegemonluğu şəraitində ərəb dili tədricən öz əvvəlki rəsmi əhəmiyyətini itirməyə başlamış, fars dili isə saraylara yol açmış, poeziya dilinə çevrilmişdir. Bu proses öz əksini epiqrafik abidələrdə də tapmışdır.

İslamın ilk dövrlərində bütün müsəlman Şərqində olduğu kimi, Azərbaycanda da istər monumental memarlıq abidələrində, istərsə də müxtəlif təyinatlı saxsı metal, şüşə məmulatında və digər məişət əşyalarında kitabələr ərəb əlifbasının kufi xəttində həkk edilirdi. Müxtəlif həndəsi formalara malik kufi xəttinin tətbiqində iki dövr olmuşdur. Birinci dövrə IX-XI əsrlərin, ikinci dövrə isə XI əsrin axırı - XIV əsrin birinci yarısının kitabələri daxildir. Azərbaycanın arxeoloji abidələrinin tədqiqi zamanı aşkarlanmış ən qədim ərəbdilli kitabə hələlik Dərbənddən məlumdur. 2001-ci ildə Dərbənd istehkamları kompleksinə daxil olan Dağbarını tədqiq edərkən Mitaqi kəndində, Kecərliqala qülləsinin yaxınlığında yerləşən qədim müsəlman qəbiristanlığında XI-XII əsrlərin sarkofaq tipli məzar daşları qeydə alınmışdır. Onların üzərində kufi və nəsx xətləri ilə həkk edilmiş epitafiyalar vardır. Tədqiqatçıların diqqətini üzərində kitabə olan 154x73x10 *sm* ölçülü, düzbucaq formalı daş stela cəlb etmişdir (М.С.Гаджиев и др., 2002, стр. 161). Kufi xətti ilə ərəb dilində həkk edilmiş 8 sətirlik qabarıq kitabədə (tablo 98, şək. 1 -2) deyilir:

1) Rəhimli, mərhəmətli Allahın adı ilə. De: "O - Allah - birdir, Allah əbədidir, nə doğmuş, nə də

2) doğulmuşdur, Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur (surə 112). Mühəmməd Allahın elçisidir,

3) Düzgün yola və həqiqi dinə döndərmək, ona dini tam aşkar etmək üçün, hərçənd bunu çoxallahlılar nifrətlə qarşılayır.

4) Allah Məhəmmədi salamlasın. Bunu Kisra tikdirdi və (sonra bunu möhkəmlətmək, yeniləşdirmək) əmr etdi Allahın qulu (Abdallah) Haru-

5) n, möminlərin əmiri (Əmir əl-muminin) - Allah onu təyinatında yüksəltsin...

6) Möminlərin əmirinin oğlu, müsəlmanların taxtına varis əl-Əmin Allah onun (nəsil... - ?) və ailəsini yüksəltsin. Tikdirdi...

7) ...

8) ...Allah onu yüksəltsin. Abdullahın oğlu Məhəmmədin əli ilə yüz yetmiş altıncı ildə (yazılmışdır) (М.С.Гаджиев, А.Р.Шихсаидов, 2005, стр. 198).

Hicri 176-cı il miladi 793-cü ilə uyğun gəlir. Bu kitabə hələlik bütün Qafqazda ən qədim kufi xətli kitabə hesab olunur. Kitabədə xatırlanan "Kisra", şahənşah I Xosrov Ənuşirəvanı, "Möminlərin əmiri, Harun" xəlifə Harun ər-Rəşidi, "Taxtın varisi əl-Əmin Məhəmməd" isə xəlifənin böyük oğlu Məhəmməd əl-Əmini bildirir.

Tədqiqatçıların fikrincə, kitabə ilkin vaxtlarda hansısa monumental tikili üzərində, ola bilsin ki, Dağbarının hörgüsündə və ya istehkamdakı qüllələrin birinin divarında olmuşdur (М.С.Гаджиев, А.Р.Шихсаидов, 2005, стр. 201).

Arxeoloji qazıntılar zamanı təsadüf olunmuş epiqrafik abidələrdən bir neçəsi Bakıdan - İçərişəhərdən tapılmışdır. Onların içərisində daha erkən kitabələr diqqəti cəlb edir.

1982-ci ilin arxeoloji axtarışları zamanı aşkar olunmuş yazılı bir daşın ölçüsü 0,86x0,27 *m*-dir. Daşın forması və üzərindəki yazının məzmununa görə onun məzar daşından bir parça olduğu müəyyən edilmişdir. Yazılı daş xatirə abidəsinin ikinci hissəsini təşkil edir. Prizmavari sarkofaq formasında olan abidə əhəng daşından yonulmuşdur. Onun üst tərəfində çiçəkli kufi adlanan xətlə qabarıq tərzdə ərəbcə kitabə həkk olunmuşdur. Kitabənin tərcüməsi belədir: (Rəhimli və mərhəmətli Allahın adı ilə. Bu) qəbir Əbu Səəd Namdarındır - Allah onun qəbrini işıqlandırsın və (М.С.Неймат, 1991, стр. 38-39, рис. 8)...

Haqqında danışdığımız çiçəkli kufi xətlə yazılmış daş kitabə məqbərənin üstündən tapılmışdır. Məqbərənin saxlanılmış daş döşəməsi üzərində qoyulmuş daş şəbəkənin ətrafını təmizləyərkən XII əsrin sonu - XIII əsrin əvvəllərinə aid mis sikkə aşkarlanmışdır.

1985-ci ildə Bakıda aparılan arxeoloji qazıntılar zamanı kufi xətti ilə yazılmış kitabəsi olan əhəng daşı tapılmışdır. Kitabənin əvvəlində əs-Sala(m) sözünü oxumaq mümkün olmuşdur (М.С.Неймат, 1991, стр. 38-39, рис. 11).

Bakı Dövlət Universitetinin Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan 0,5x0,4 *m* ölçüdə əhəngdaşı üzərindəki kitabə ikisətirlik yazının orta hissəsini təşkil edir. Kitabə ərəbcə, çiçəkli kufi xətti ilə həkk edilmişdir. Tərcüməsi belədir:

1 ... İslamın dayağı...

2 ... qırx beşinci (il).

Bəhs olunan nadir yazı nümunəsinin oxşarı XI əsrə aid edilmiş prizmavari ağ mərmərdən düzəldilmiş 0,63x0,11x0,11 *sm* ölçüdə məzar daşı Xaraba-Gilandan tapılmışdır. Həmin abidə hal-hazırda Gürcüstan Dövlət Muzeyinin Mtsxeti filialında - Armazisxevidə daş abidələr sərgisində nümayiş etdirilir (М.С.Неймат, 1991, стр. 38, рис. 7,7а,7б). Həmin muzeyin ekspozisiyasında 1901-ci ildə Bakıda qazıntılardan aşkar edilmiş və 1904-cü ildə Zaqafqaziya ölkəşünaslıq muzeyinə aparılmış məzar daşları da vardır. Bədii

daşyonma sənəti əsərlərinin ən nəfis nümunələri olan bu abidələr stilobatlı sarkofaq formada bütöv bir sal daşdan yonulmuşdur. Baş və ayaq tərəfdə qoyulmuş daşlar da maraqlıdır. Həmin abidələr Gürcüstan muzeyində müxtəlif yerlərdən toplanılmış bütün yazılı daşlardan və xatirə abidələrindən öz gözəl biçiminə, əsrarəngiz kufi kitabələrinə, orijinal formalarına görə fərqlənir. Belə xatirə abidələrindən biri də qədim Bakının - İçərişəhərin Gənclər meydanına açılan Qoşa qala qapılarındakı divara, şəhər tərəfindən hörülmüşdür. Belə ki, abidənin ancaq sarkofaq hissəsinin kufi yazı olan tərəfi görünməkdədir. Qalan hissəsi isə hörgüdə qalmışdır. Qoşa qala qapıları üstündə, bu abidədən başqa qala divarları və qapıların inşaat tarixi ilə heç bir əlaqəsi olmayan, digər inşaat kitabələrindən ibarət daş sənduqə formalı xatirə abidələri də vardır. Bunlar qala divarının bərpası zamanı inşaat materialı kimi istifadə olunmuşdur (M.C.Неймат, 1991, стр. 41-42, рис. 22-24).

Orta əsrlərdə Bakı şəhərinin müdafiə sisteminə daxil olan Qız qalasının üstündə, 14 *m* hündürlükdə yerləşdirilmiş kitabə onun XII əsrdə bərpa olunmasını göstərir. Tədqiqatçı M.Nemətova kitabəni "Məsud ibn Davudun qülləsidir" kimi oxuyur. O qeyd edir ki, məşhur rus şərqşünası N.Xanıkov kitabədəki birinci sözü səhv olaraq "qübbə" oxumuşdur. "Qübbə" sözünün "qala" mənası vermədiyinə əsaslanan bir sıra tədqiqatçılar müxtəlif fikirlər söyləməyə başlamışlar.

M.Nemətovanın yazdığına görə həmin söz qüllə kimi oxunur. Qüllə isə türkcə bürc - mayak deməkdir. Bu isə bir daha "Qız qalası"nın orta əsrlərdə Bakı və Abşeronun müdafiə sisteminə daxil olduğunu bildirir (M.C.Неймат, 1991, стр. 41, рис. 21).

Kufi xətli epiqrafik abidələr Şabran şəhər yerindən də məlumdur. 1935-ci ildə Y.A.Paxomov orada tədqiqat apararkən üzərində kufi xətli epitafiyası olan bir neçə məzar daşı aşkar etmişdir. Tədqiq olunmuş məzar daşlarından biri sarkofaq formasında olub, uzununa tərəfində bəzəkli kufi xətti ilə qabarıq iki sətir yazıdan ibarət epitafiya həkk olunmuşdu. Kitabənin ərəb dilindən tərcüməsi belədir:

"(Allah şahiddir ki) ondan başqa Allah yoxdur,
Mələklər də, asiman da
həqiqətdə (etiqad edir ki) qüdrətli müdrik
olan ondan başqa Allah yoxdur!"

*( Е.А.Пахомов, 1935, стр. 11).*

Kufi xətti ilə yazılmış çox maraqlı kitabə qaz kəməri çəkilən zaman orta əsr Şəmkir şəhəri yerində, torpaq altından aşkar edilmişdir (M.C.Нейматова, Г.М.Ахмедов, 1971, стр. 395-396). Azərbaycan Tarixi Muzeyində saxlanılan bu kitabə ərəb dilində iri kufi xətti ilə dörd sətirdə yerli ağ daşdan düzəldilmiş lövhədə həkk edilmişdir (tablo 98, şək.

3). Kitabənin tərcüməsi belədir: "Allahın adıyla bu gözətçi bürcünün, yüksək Allahın qüdrətilə bina olunmasına və onun istəyi və onun mühafizəsi və tam himayəsi altında, mömin Şeyx M...L-u bin Əfşin (ya Əqşin - *M.N.)* öz malı ilə (öz hesabına - *M.N.)* mühafizə binaları silsiləsindən dörd yüz doxsan üçüncü ildə əmr etmişdir". Hicri 493-cü il 1099/1100-cü miladi ilinə uyğundur (М.С.Неймат, 1991, стр. 38).

Kufi xətli kitabələrdə bəzən tarix yazılmışdır. Kitabədə tarixin yazılması isə onun əhəmiyyətini daha da artırır. Ərəb paleoqrafiyası xəzinəsinə nadir inci kimi daxil olan Şəmkir kitabəsi tarixsiz epiqrafik abidələrin dövrünü düzgün müəyyənləşdirməyə də kömək edəcəkdir. Kitabədə qüllənin əsas gözətçi məntəqəsi məqsədilə bina olunduğu, şəhərin müdafiə sistemi tikililəri sırasına daxil edilməsi haqqında maraqlı məlumat verilir.

Şəmkir rayonu ərazisində Muncuqlutəpə yaşayış yerində arxeoloji qazıntılar zamanı XI əsrə aid kufi xətli daha bir kitabə aşkarlanmışdır. Sütun başlığının üzərində kufi xətti ilə ərəb dilində həkk olunmuş kitabədə deyilir:

"Hakimiyyət Allaha məxsusdur (dörd yüz qırx ikinci il (1050/1051) İmamallah bin Məhəmməd əl-Müdəbbirin işidir. Allah ona rəhm etsin" (М.С.Неймат, 1991, стр. 37).

Kufi xətli kitabələrin fraqmentləri Xaraba-Gilanda aparılan arxeoloji qazıntılardan da tapılmışdır (tablo 99). Epiqrafik tapıntıların böyük qismini uzunsov gəc lövhələr üzərindəki yazılar təşkil edir. Bəzən ayrı-ayrı fiqurlar formasında olan gəc lövhələrə də təsadüf olunur. Onların bir tərəfi divara yapışdırılır, ön tərəfində isə qabarıq yazı, həndəsi və nəbati naxışlar olurdu. Arxeoloji qazıntılar zamanı tapılmış lövhələrdən birinin üzərində, yazılı tərəfdə çərçivənin içərisində "La ilahə illəllah" (Allahdan başqa Allah yoxdur) yazılmışdır.

Başqa bir lövhədəki çərçivədə isə "Kilan" sözü yazılmışdır (Б.И.Ибрагимов, 2000, стр. 123-124).

Xaraba-Gilanda 2 saylı türbənin arxeoloji tədqiqi nəticəsində daha çox epiqrafik materiallar əldə olunmuşdur. Onlar bişmiş kərpiclərdən və kaşılardan tərtib olunmuş yazı dəstlərindən ibarətdir. Belə dəstlərdən birində "Əbu Bəkr" adını oxuyuruq. Altıguşəli yazılardan birində isə "Əli" adının təkrar olunmasına tuş gəlirik. Belə yazı forması "şeş Əli" (altı Əli) adını almışdır (Б.И.Ибрагимов, 2000, стр. 124). 2 saylı türbənin girişindən tapılmış kvadrat formalı kərpicin üzərində isə kufi xətti ilə qabartma "Məhəmməd" adı da yazılmışdır.

Mütəxəssislərin təyinatına görə dekorativ motivlərdə kufi xətti ustalar tərəfindən həddən artıq şərtləşdirilirdi və bu forma kitabələrin oxunmasını çətinləşdirirdi. Sonralar xəttatlar daha aydın yazı növünə - nəsx xəttinə keçdilər.

Lakin kufi elementləri bir müddət keçid dövrünü əks etdirən epiqrafik abidələrdə işlənmişdir.

Səbail qalasında arxeoloji qazıntılar zamanı tapılmış yazılı daşlar süls elementi nəsx xətti ilə həkk olunmuşdur (tablo 100). Səbail kitabələrində Məhəmməd, Əli, Məniçöhr, Cəlaləddin, Əhməd... adları, sultan, şah titulları, Bakı, Şamaxı kimi şəhərlərin adlarına təsadüf olunmuşdur (М.С.Неймат, 1991, стр. 41-43). Məsələn, quraşdırılmış iki daş üzərində "Cəmaəti-şəhr Şamaxı" sözləri oxunmuşdur (S.Nəsirova, 1977; 1999, səh. 15). Bir kitabədə tikilinin Şirvanşah Fəriburz zamanında hicri 630 (1232/33)-cu ildə inşa edildiyi bildirilir. Digər kitabədə şirvanşah Fəriburzun oğlu şirvanşah Axsitan zamanında hicri 632 (1234/35)-ci ildə qalada tikinti, bərpa işləri aparılması haqqında məlumat verilir. Kitabələrdə Əbu Rəşid Şirvaninin oğlu usta Zeyd əd-Din haqqında da məlumat var (М.С.Неймат, 1991, стр. 42-43).

Saxsı qablar üzərindəki yazılar xüsusi maraq doğurur. Çünki saxsı qablar həm kütləviliyi, həm də xalqın mədəni məişət həyatı ilə bağlılığı baxımından fərqlənir. Onlar qazıntılarda ən çox tapılan materiallardır. Qablar üzərindəki yazıların məzmunu müxtəlifdir. Qabların üzərində tez-tez adlara rast gəlinir. Misal üçün, Dəbil qazıntılarından əldə olunmuş şar-konusvari qabların üzərində müxtəlif adlar (tablo 101, şək. b), o cümlədən Əbubəkr (şək. b, 31, 33), Əli (şək. b, 37), Əmin (şək. b, 10, 25), Əhməd (şək. b, 29), Yusif (şək. b, 21-22, 24, 28), Mənsur (şək. b. 36), Məhəmməd (şək. b, 30), Ömər (şək. b, 26), Həsən (şək. b, 34), Şirin (şək. b, 19,20) oxunmuşdur (Р.М.Джанполадян, 1982, стр. 21). Beyləqan şəhərinin qazıntılarından aşkarlanan qablar üzərindəki yazılar da həmin şəhərin dulusçu ustalarının adını müəyyənləşdirməyə imkan vermişdir (tablo 101, şək. a). Yazılar adlardan başqa bizi qabın gələcək sahibinə xeyirxahlıq arzulayan kəlamlarla da tanış edir. Fars dilində lirik beytlərdən və rübailərdən ibarət yazılara da tez-tez təsadüf olunur. Beyləqan ustalarından Xəttabın hazırladığı şirli qabın içərisinə farsca, nəsx xəttilə yazılmış rübai belədir:

Buruq saçlarının ucunda ürəyimi gördüm,
Sənin zülmündən düşmüşdü o haldan.
Dedim bu qədər sən burada nə ilə məşğulsan
Dedi ki, öz işimlə, yəni sənin qəminlə.
*(Q.M.Əhmədov, 1979, səh. 81).*

Şirli qabların əksəriyyətinin üzərindəki yazılar qabların bədii işləməsinin ayrılmaz hissəsini təşkil edir. Yazılar qabların bəzəkləri ilə uyğunlaşdırılır, qabın

boş qalmış yerlərini doldurur, beləliklə, bəzəkləri daha da zənginləşdirirdilər. Bəzən IX-XIII əsrin əvvəllərinə aid Azərbaycan saxsı məmulatında yazılar kufi xəttin ənənəsini davam etdirməklə, qabların bəzəyində epiqrafik naxış kimi iştirak edir.

Xaraba-Gilandan tapılmış, X-XII əsrlərə aid edilən saxsı dolça üzərində qara mürəkkəb ilə yazılmış yazı özünəməxsusluğu ilə fərqlənir. Qabın gövdəsindəki ornamental qurşaqdan aşağıda bir xətt yazı vardır. Yazıdan aşağıda, qabın ortasına yaxın Ay, gün və əqrəb təsvirləri çəkilmişdir (tablo 101, şək. c). Əqrəb və Ay təsvirləri arasında iki sözdən ibarət, Ay təsviri altında isə bir sözdən ibarət yazı vardır. Günəş təsvirinin ətrafına başdan ortada 7 (V) rəqəmi olmaqla sağ və sol tərəflərdə 1, 2, 9 ərəb rəqəmləri yazılmışdır. Ay və Günəş təsvirlərinə qaş, göz, burun və ağız çəkilmiş, onlar insan sifətinə oxşadılmışdır. Hələlik yazının hansı dildə yazıldığını müəyyən etmək və oxumaq mümkün olmamışdır (B.İ.İbrahimov, 2006, səh. 123-124).

Azərbaycanın orta əsr şəhər qazıntılarında geniş şəkildə tapılan fayans qabların da yazıları müəyyən maraq doğurur. Hələlik ancaq Beyləqanın qazıntılarından əldə edilən fayans qabların yazıları oxunmuşdur. Belə qablarda adətən usta adlarına təsadüf olunmur. Yazılar fars və ərəb dillərində yazılmışdır. Ancaq bəzən yazılarda elə artıq hərflər işlədilir ki, onlar ərəb və fars dilli yazılarda olmamışdır. Görünür bu artıq hərflər qablar istehsal olunan yerlərdə yaşayan başqa xalqların dilindən ərəb və fars yazılarına daxil olmuşdur. Fayans qablar üzərindəki yazılar lirik şeirlərdən, qabın gələcək sahibinə xeyirxahlıq arzulayan mətnlərdən və hikmətli sözlərdən ibarətdir. Adətən belə yazılar qablarda naxış və təsvirlərdən boş qalmış yerləri doldurmaq üçün istifadə edilir, bəzən boş yerlər çox olduqda hətta təkrar olunur, eyni yazı iki dəfə və yaxud bir neçə dəfə təkrar verilir.

Zərnaxışlı fayans qablarda yazılar daha müxtəlifdir. Bəzən belə yazılar, o zaman çox işlənən mətnlərdən ibarət olduğundan sürətlə yazılardı və bu işdə ustanın sərbəstliyi özünü göstərərdi. Beyləqanda tapılmış bir qabın üzərindəki onun gələcək sahibinə daimi uğurlar və şöhrət arzulayan yazı buna misal ola bilər.

Belə hallar da var ki, eyni qabın üstündə xeyirxahlıq arzulayan eyni mətn həm farsca, həm də ərəbcə yazılmışdır. Belə yazıya nümunə ortasında otluqda iki ceyran təsviri verilmiş fayans kasanı göstərmək olar. Bu qabda adi xeyirxahlıq arzulayan ərəb mətni, qısaldılmış şəkildə farsca şeirlə - beytlə verilmişdir. Bundan sonra qabın üstündə ərəb dilində yazılmış hikmətli sözlər gəlir (Е.А.Шелковников, 1959, стр. 322, табл. XI, 1).

Gətirilən misallardan aydın olur ki, istər sadə, istərsə şirli, həmçinin fayans qablardakı yazılarda ümumi cəhətlər çoxdur. Bu ümumi cəhətlər belə qabların bazar əhəmiyyətli olduğunu, satış üçün hazırlandığını göstərir. Qazıntılardan tapılan baha

qiymətli fayans qabların üzərindəki yazılarla bərabər, daha aşağı təbəqələrin məişət həyatında işlədilən yerli, sadə qabların da üzərində yazılar vardır. Xüsusilə lirik beyt və şeirlərin olması nəinki varlıların, həm də sadə əhali kütləsinin, o cümlədən adi dulusçuların belə bir qisminin gözəl yazıb-oxumağı bacardıqlarına dəyərli sübutdur. Həmin yazıları yazan adamların onun məzmunundan xəbərsiz olduğunu düşünmək çətindir.

## V FƏSIL

# DİNİ, XATİRƏ VƏ QƏBİR ABİDƏLƏRİ

### Məscidlər, xanəgahlar və xristian məbədləri

**Məscidlər.** IX-XIII əsrin əvvəllərində Azərbaycanda dini abidələr əsas etibarilə məscid, minarə, xanəgah tikintilərindən ibarət idi. Bəzi yerlərdə, xüsusilə də dağ ərazilərdə xristian dini abidələrinə - kilsə və monastır qalıqlarına təsadüf olunur. Xatırladaq ki, yerüstü dini abidələr memarlarımız tərəfindən nisbətən yaxşı tədqiq olunmuşdur. Dini abidələrin bir qismi isə arxeoloji tədqiqatlar nəticəsində aşkara çıxarılmışdır.

Azərbaycan ərazisində IX-XIII əsrin əvvəllərində dini abidələr içərisində ən geniş yayılanı məscidlər olmuşdur. Məscidlər müsəlmanların ibadət etdikləri ən ümdə yerlər idi. Məscid ərəb dilində ibadətxana, səcdə qılmaq mənasını bildirir. Müsəlman Şərqində məscidlər başlıca ibadət yeri olmaqla bərabər həm də mömin insanlar arasında ünsiyyəti, birliyi möhkəmlədən polifunksional, ellik bina idi. İlk məscid, məlum olduğu kimi, Məhəmməd peyğəmbərin dövründə Mədinə şəhərində tikilmişdir. Sonrakı tarixi dövrlərdə Yaxın və Orta Şərqdə, Mərkəzi Asiyada, Azərbaycanda, Hindistanda, İspaniyada və s. ölkələrdə çoxlu məscid inşa edilmişdir. Məkkədə tikilmiş məscid müsəlman aləmində ən müqəddəs yer - "Allahın evi" hesab edilir.

Ən qədim, VII-VIII əsrlərdə tikilən ilk məscidlər quruluş etibarilə düzbucaqlı, həyətləri isə dördbucaqlı formada olmuşdur. Məscidin ibadət salonunun Məkkə istiqamətindəki divarında (qiblə tərəfdə) mehrab yerləşdirilirdi. Əhalinin cümə günləri ibadət etdiyi iri həcmli, böyük günbəzli məscidlər "came" adlanırdı. Digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycan şəhərlərində də came məscidləri mövcud idi. Onlardan ən erkənləri Dərbənd və Şamaxı şəhərlərində inşa olunmuşdur. Dərbənd şəhərində hələ VIII əsrdə hər bir məhəllədə məscid inşa olunmaqla bərabər eyni zamanda şəhristanın ən əlverişli və abad yerində hicri 115-ci ildə Came məscidi ucaldılmışdır. Hicri 770-ci ildə baş vermiş zəlzələdən ciddi zədələnmiş bu məscid əsaslı təmir edilmiş, lakin onun plan quruluşu, daxili fəza həllinin ilkin forması saxlanılmışdır (tablo 102, şək. 2). Şərqdən qərbə doğru istiqamətlənməklə düzbucaqlı plan quruluşuna malik bu məscid daxili sütunların

düzülüşü ilə üç nefə ayrılır. Mərkəzi nef yan neflərdən daha üstün mövqeyə malikdir. Məscid cənubda üstü günbəzli, kvadrat biçimli salon ilə tamamlanır. Günbəzin diametri 9 *m*-ə çatır. Günbəzli salonun qarşısında, mərkəzi nefdə kiçik ölçülü, günbəzlə örtülmüş xüsusi otaq-məqsurə vardır (М.Усейнов и др., 1963, стр. 170). Məscidin giriş qapıları şimaldandır. Məscidin bünövrəsi və divarları, əsasən daşdan, neflər üzərindəki tağlar, tavanlar və günbəz kvadrat biçimli bişmiş kərpicdən hörülmüşdür (А.А.Кудрявйев, 1982, стр. 126).

Dərbənd Came məscidinin istər plan quruluşu, istərsə də daxili fəza həlli Suriyanın erkən sütunlu məscidlərini xatırladır.

Başqa bir erkən məscid VIII əsrdə Şamaxıda inşa olunmuşdur. Şəhərin aşağı hissəsində, Came məscidi ərazisində aparılmış arxeoloji qazıntılar da bunu təsdiqləmişdir. Orada üç inşaat qatını əks etdirən mədəni təbəqə yatımı qeydə alınmışdır. Qazıntılar zamanı ərazidən orta əsr dini binalarında geniş tətbiq olunan inşaat materialları, o cümlədən mavi şirli kaşılar da tapılmışdır. Faktik materiallar Şamaxı Came məscidi həyətində hələ VIII-XIII əsrin əvvəllərində məscid olduğunu bir daha təsdiqləmişdir (Г.А.Джидди, 1981, стр. 26). Mütəxəssislərin yekdil fikrinə görə Şamaxı Came məscidi dəfələrlə bərpa olmasına baxmayaraq ilkin plan quruluşunu qoruyub saxlamışdır (tablo 102, şək. 1). Düzbucaqlı plan quruluşuna malik məscidin ibadət salonu üç kvadrat biçimli bölümə ayrılaraq geniş keçidlərlə bir-birilə əlaqələndirilmişdir. Hər bir bölümün öz mehrabı vardır. Bəzi tədqiqatçıların fikrincə, Şamaxı şəhərindəki Came məscidi VIII əsrdə xəlifə Validin qardaşı Əbu Müslüm tərəfindən tikilmişdir. Qeyd edək ki, 1902-ci ildə Şamaxı zəlzələsinin nəticələrini araşdıran komissiyanın tərkibində çalışan geoloq Şahqulu Qacar vaxtilə Came məscidinin üzərində olmuş kitabə əsasında onun hicri 126-cı ildə inşa edildiyini müəyyənləşdirmişdir (Ş.Fətullayev-Fiqarov, 2003, səh. 49). Bu da müəyyən olunmuşdur ki, məsciddə əsaslı təmirlərdən biri Şirvanşah I Axsitan dövründə aparılmışdır.

Arxeoloji qazıntılarla Şamaxı Came məscidinin qoşa minarəli olduğu müəyyənləşdirilmişdir (H.Ə.Ciddi, N.Musayev, 1991, səh. 26-27). Qazıntı zamanı məscidin həyətində bir-birindən 7 *m* aralı olmaqla iki minarənin qalıqları aşkarlanmışdır. Səliqə ilə yonulmuş əhəngdaşından inşa olunmuş minarənin qalıqları dördkünc biçimdə olub, üz səthləri qövsvari çıxıntılara malikdir. Hər iki minarənin aşağı hissəsində daşdan 1,5 *m* hündürlükdə kürsülük, şimal tərəfdə pillələr, onların önündə isə səkilər vardır. Həmin səkilərin üstündən burulan pillələrin vasitəsilə yuxarıya qalxmaq mümkündür. Minarələrin bayır tərəfində, şərq fasadında isə piştağ olmuşdur. Arxeoloji qazıntılardan həm də bəlli olmuşdur ki, minarələr məscidin divar və baştağından sonra inşa olunmuşdur. Xatırladaq ki, X əsrin ərəb

coğrafiyaşünasları Şamaxı Came məscidində minarənin olmadığını qeyd edirlər. Əl-Bündari isə 1123-ci ildə gürcü və qıpçaq birləşmiş hərbi qüvvələrinin Şamaxıya hücumundan ətraflı bəhs edərək bildirir ki, "...onlar (gürcülər və qıpçaqlar) Şamaxı Came məscidini uçurdular, minarələrini sındırdılar və şəhəri dağıdıb bütün tikililərini sökdülər" (Əl-Bündari, səh. 179). Buradan bəlli olur ki, XII əsrin ilk rübündə Şamaxı Came məscidinin minarələri mövcud imiş. Arxeoloji qazıntıların nəticəsi də minarələrin XI-XII əsrlərin arasında tikildiyini ehtimal etməyə əsas vermişdir (H.Ə.Ciddi, N.Musayev, 1991, səh. 27).

Şamaxı Came məscidinin minarələrinin fərqləndirici xüsusiyyəti onların məscid binasından və baştağdan ayrılıqda yerləşməsindədir.

Əbu Müslimin Azərbaycanda islamı yaymaq və möhkəmləndirmək fəaliyyəti ilə əlaqələndirilən digər bir məscid qalıqları C.Aleksandroviç-Nasifi tərəfindən 1926-cı ildə Ağsu rayonu ərazisində aşkarlanıb tədqiq edilmişdir. Mütəxəssislərin gəldiyi qənaətə görə, Şamaxı Came məscidi ilə eyni plan quruluşuna malik bu tikili onunla həmdövr olmuş və dəfələrlə təmir edilmişdir (Ş.Fətullayev-Fiqarov, 2003, səh. 49).

Yazılı qaynaqlardan bəlli olur ki, Bərdə şəhərinin Came məscidi də möhtəşəm monumental tikili olmuşdur (N.Vəlixanlı, 1974, səh. 109).



**Xaraba-Gilan. Came məscidinin qalıqları.**

Kiran şəhərinin Came məscidinin qalıqları Xaraba-Gilan şəhər yerinin şəhristan hissəsində, ikinci məhəllədə yerləşir. İlkin arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Came ikimərtəbəli olmuş, birinci mərtəbə daşdan, ikinci

mərtəbə və dam örtüyü isə bişmiş kərpicdən hörülmüşdü. İkinci mərtəbə, demək olar ki, tam dağılmışdır. Camenin birinci mərtəbəsinin cənub divarları və pilləkəni nisbətən yaxşı qalmışdır. Birinci mərtəbənin divarlarının hörgüsündə istifadə olunan daş blokların ağırlığı 1 tona çatır. Tikinti üslubuna əsasən Came məscidinin XI-XII əsrlərdə inşa olunduğu ehtimal olunur.

Zaman keçdikcə, Azərbaycanda islam dini möhkəmləndikcə məscid tipləri də təkamül prosesi keçirərək daha da mükəmməlləşir. XI-XIII əsrin əvvəllərində Azərbaycan məscidləri, əsasən mərkəzi günbəzlə örtülmüş kubşəkilli binalar şəklində idi. Naxçıvan, Mərənd, Urmiya, Sucas Came məscidləri, bir sıra Abşeron məscidləri və s. həyət daxilində yerləşərək, ətrafı sıra tağ eyvanlarla əhatələnmiş tikililərdən ibarət olmuşdur. Məscidlərin minarələri bir qayda olaraq binanın baş fasadı tərəfdə simmetrik şəkildə yerləşirdi. Şirvan-Abşeron memarlıq məktəbi üçün isə assimmetrik minarələr səciyyəvidir.

Bakıda, İçərişəhərdə "Sınıq qala" adı ilə xalq arasında tanınan məscid bənzərsiz həcm-məkan quruluşuna malik, tək minarəli dini binadır (tablo 102, şək. 3-4). Minarə yaxşı yonulmuş daşdan, yuxarıya doğru daralan silindr şəklində tikilmişdir. Yuxarısında azan vermək üçün eyvanı, içərisində dairəvi pilləkənləri var. Örtüyü dilimli tağ şəklindədir. Eyvanın məhəccəri və karnizin altındakı kufi yazılar və naxışlar minarənin görkəmini daha da cəzbedici edir. Məscidin tikilmə tarixi və tikən ustanın adı onun şimal divarında, iri daş lövhənin üstündə ərəb dilində kufi xətlə yazılmışdır. Həmin yazı Ə.Ələsgərzadə tərəfindən oxunmuşdur. Kitabə belə tərcümə olunur: "Rəhimli və mərhəmətli Allahın adı ilə. Bu məscid binasını (tikməyi) ustad rəis Məhəmməd Əbubəkr oğlu əmr etdi. 471 -ci il tarixdə". Mütəxəssislərin fikrincə memarlıq görkəminə, tikinti materiallarına və texnikasına görə məscid və minarə bir-birindən kəskin fərqlənir. Məscidin damına çıxmaq üçün minarənin ayrıca qapısı var. Güman edildiyinə görə, məscidin binası minarədən sonra tikilmişdir. Məscidin cənub fasadı da ikimərtəbəlidir və birinci mərtəbədə giriş yoxdur. Xalq arasındakı məlumata görə məscidin altında qədimdə atəşpərəstlərin məbədi olubmuş. Məbədin üstündə məscid tikilmişdir. Məscidin yerləşdiyi sahə müqəddəs yer sayılmışdır.

Arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, məscidin birinci mərtəbəsinin cənub divarında, üstü tağbənd formalı qapı yeri vardır. Birinci mərtəbədəki otağın tavanı da tağbənd şəklində tikilmişdir. Həmin otağın cənub divarında biri digərindən xeyli aralı, düzbucaqlı formada olan qoşa pəncərə yeri vardır. Məscidin içərisində, birinci mərtəbənin şimal və cənub divarlarının orta hissəsində, otağın döşəməsi səviyyəsindən xeyli yuxarıda üzbəüz simmetrik şəkildə tikilmiş daş çıxıntılar aşkar olunmuşdur. Divarla birlikdə hörülmüş bu çıxıntı bir növ

üçpilləli pilləkəni xatırladır. Ən üstdəki qalın daşın ortasında diametri 10, dərinliyi 8 *sm* olan deşik vardır. Hər iki divarda qarşı-qarşıya hörülmüş xüsusi formalı çıxıntıların təyinatı hələ ki müəyyən edilməmişdir. Qazıntılardan aydın olmuşdur ki, məscid bilavasitə qaya təbəqəsinin üstündə tikilmişdir. Məscidin Şərq divarına yaxın məzar və həmin məzarla əlaqədar tikilmiş hörgü qalıqları aşkara çıxarılmışdır. Müəyyən edilmişdir ki, qəbir və onunla əlaqədar tikilmiş hörgü qalıqları məscidin tikildiyi dövrdən sonralara aiddir. Qəbirdə yüksək rütbəli din xadimlərindən biri dəfn edildiyi güman olunur.

Yığcam plan-məkan quruluşu və bitkin mühəndis həlli ilə fərqlənən XI-XII əsrlərin digər klassik dini memarlıq abidəsi sayılan Ərdəbil Came məscidi şəhərin böyük bazar meydanında, bulağı olan təpə üzərində ucaldılmışdı. Kvadrat biçimli ibadət salonu və dərin eyvanın əmələ gətirdiyi düzbucaqlı plan quruluşuna malik bu məscidin erkən islam dövründə qədim atəşgah qalıqları üzərində inşa olunduğu ehtimal edilir (C.Qiyasi, 1991, səh. 42; H.Ş.Şiran, 1383, səh. 39). 1975, 1989-1990-cı illərdə Came məscidi ərazisində aparılmış arxeoloji qazıntılar zamanı X əsrə aid sıra ilə düzülmüş sütunaltlıqları üzə çıxarılması məscidin artıq bu dövrdə monumental bir dini bina olduğundan xəbər verir (H.Ş.Şiran, 1383, səh. 41). Səlcuqlar dönəmində Came bitkin formasını almış, bir çox tikililərin daxil olduğu böyük bir kompleks olmuşdur (H.Ş.Şiran, 1383). Günbəzli ibadət salonunun qapalı cənub divarının ortasında mehrab taxçası düzəldilmiş, qalan üç divarının hər birində isə ortada enli, yanlarda dar olmaqla üç açırım vardır (W.Kleiss, 1969, p. 33-34). Uzunluğu 15,5 *m,* eni 10 *m* olan eyvanı ilkin quruluşda tağbəndlə örtülü imiş. Məscidin iri günbəzi bayır səthi büzməli olan hündür boyun (baraban) üzərində ucalırmış. İbadət salonunun kubşəkilli tutumunun üst qatında da dəhliz varmış. Mütəxəssislərin fikrincə, məhz bu xüsusiyyətləri məhəlli xarakter daşımaqla Ərdəbil Came məscidini bənzərsiz etmişdir (C.Qiyasi, 1991, səh. 43).

Mərənd, Urmiya, Sucas, Qəzvin Came məscidlərinin də əsasında XI-XII əsrlərdə inşa edilmiş, cənub divarında mehrab taxçası işlənmiş kub tutumlu, üstü günbəzlə örtülmüş ibadət salonu durur (tablo 103).

Beyləqan şəhər yerinin yanında aşkar olunan, xalq arasında Mil-Minarə adlandırılan məscid-minarə qalıqları da böyük kompleksin xarabaları təsirini bağışlayır. Məscidin hörgülərinin ətrafında tökülən külli miqdarda müxtəlif formalı və rəngli bəzəkli kaşılar (tablo 92, şək. 5-16) Mil-Minarə Cümə məscidinin nə dərəcədə gözəl tikildiyini nümayiş etdirir. Böyük sənətkarlıqla düzəldilmiş fiqurlu və rəngli bişmiş kərpiclər məscidin binasının yüksək memarlıq səviyyəsində tikildiyini göstərir. Məscidin hörgüsündə düzbucaqlı, romb, kvadrat, çoxbucaqlı, dairəvi, üçbucaqlı və s. formada olan iri müxtəlif rəngli (ağ, firuzəyi, şabalıdı)

kaşılarla bərabər, mozaika qopuqlarına bənzər xırda fiqurlardan da istifadə olunmuşdur. Kaşıların xeyli hissəsinin kufi xətti ilə yazılmış yazılara və toxuma naxışlara aid olması onların dar və uzun, bəzən dirsəkli formasından aydın olur. Mil-Minarənin ətrafında 10-dan çox türbə olduğu müəyyən edilmişdir. Bütün bu abidələr kompleksi XI-XIII əsrin əvvəllərinə aiddir. Yerli əhalinin məlumatına görə məscidin çox uca qoşa minarələri olmuş və təxminən 1830-1840-cı illərdə uçmuşdur. Minarələrdən birinin hələ XIX əsrin ortalarına qədər salamat olması A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərindən də məlumdur.

Arxeoloji tədqiqatlarla müəyyən olunmuşdur ki, Qəbələ şəhərində artıq IX-X əsrlərdən Came məscidi Qalanın cənub qapısı qarşısında, hazırda Kamaltəpə adlanan sahədə yerləşirmiş (Ф.В.Гадиров, стр. 483; İ.H.Əliyev, F.V.Qədirov, 1985, səh. 9). Məscidin qalıqları hələlik çox məhdud şəkildə tədqiq olunduğundan onun plan quruluşu, daxili fəza həlli haqqında fikir söyləmək mümkün deyildir.

XII əsrdən başlayaraq Şamaxı Came məscidinin nəzdində mədrəsə fəaliyyət göstərirdi. Arxeoloji qazıntılar zamanı məscidin həyətinin şimal tərəfindən məscid binası ilə üzbəüz mədrəsənin hücrələrinin qalıqları aşkarlanıb tədqiq olunmuşdur (tablo 102, şək. 1). Hücrələr dördkünc biçimdə olub, çaydaşından olan bünövrə üstündə, az yonulmuş daşdan əhəngli palçıq ilə inşa edilmişdir. Hücrələr dəhliz və iç otaq olmaqla iki hissədən ibarətdir. Hücrələrin örtüyü çatma tağ-tavanlıdır. 1 saylı hücrə istisna olmaqla digərlərinin şimal divarında 2 *m* hündürlükdə, 90 *sm* enində, 50 *sm* dərinlikdə, yuxarı hissəsi çatma tağ formasında tamamlanan mehraba oxşar taxça vardır. 1 və 8 saylı hücrələrin dəhliz və iç otaqlarının şərq və qərb divarında, yuxarı hissədə yarımdairəvi tağla tamamlanan taxçalar düzəlmişdir. Tağların hörgüsündə bişmiş kərpicdən istifadə edilmişdir (H.Ə.Ciddi, N.Musayev, 1991).

Arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, mədrəsə binası XII əsrin əvvəllərində inşa edilmiş, XII əsrin sonu və ya XIII əsrin əvvəllərində güclü dağıntıya məruz qalmışdır. XIV əsrin sonu - XV əsrin əvvəllərində onun qalıqları üzərində yenidən mədrəsə ucaldılmış və həmin tikili dəfələrlə bərpa və təmir edilməklə 1902-ci il zəlzələsinə qədər fəaliyyət göstərmişdir (H.Ə.Ciddi, N.Musayev, 1991, səh. 29).

**Xanəgahlar.** Xanəgah tipli dini tikililərin meydana gəlməsi müsəlman Şərqində sufi təliminin yayılması ilə bağlı olmuşdur. Xanəgah dini-mənəvi həyat mərkəzi olmaqla İslamın mənəvi aspektlərinə, mərasim və ayinlərə ciddi riayət olunduğu məkan idi (Ислам, 1991, стр. 272). Sufilərin bir qismi həmişə xanəgahda yaşayırdı, bəziləri isə sufi ideyalarını təbliğ etmək məqsədi ilə ölkədən-ölkəyə, şəhərdən-şəhərə, obadan-obaya gedir, müvəqqəti yaşayış üçün özlərinə xanəgahlarda sığınacaq tapırdılar (Р.Амензаде, 2000, стр. 9-10). Xanəgahlarda tədris işləri

aparılır, ilahiyyatçıların diskussiyası olur, görüşlər keçirilir, elmi mülahizələr dinlənilirdi.

Azərbaycanda sufi təlimləri erkən çağlardan yayılmış, burada Suhravərdiyə, Səfəviyyə, Qələndəriyyə, Qədiriyyə, Xəlvətiyyə və digər sufi ordenləri fəaliyyət göstərirdi. Ərəb coğrafiyaşünas-səyyahı əl-Müqəddəsi Xoy və Ərdəbildə sufi məclislərində iştirak etdiyini bildirirdi. "Tarix əl-Bab"dan isə məlum olur ki, Dərbənddə sufi məclislərində şəhər sakinlərinin müxtəlif zümrələrinin nümayəndələri iştirak edirdilər (В.Ф.МИНОРСКИЙ, 1963). Nişapurda sufi cəmiyyətinə başçılıq edən Şeyx Əbu Səid Əbül Xeyrin təlimini yayan müridlərin Şirvanda 400-dən artıq xanəgahı olmuşdur. Pirsaat çayı sahilində, Şamaxıdan İrana gedən karvan yolunun üzərində inşa olunmuş Şirvan şeyxi Pir Hüseynin xanəgahı da həmin xanəgahlardandır (M.Nemət, 1992, səh. 8).

Xanəgahlar əsasən karvan yolları üzərində inşa edilirdi. Onlar ölkənin iqtisadi-siyasi, mədəni-ideoloji əlaqələrində mühüm rol oynayırdılar. Xanəgahların səciyyəvi cəhətlərindən biri müdafiə əhəmiyyətli möhkəm divarlarla əhatə olunması, möhtəşəm, baştağlı giriş qapısının mövcudluğundadır (Р.Амензаде, 2000, стр. 11). Xanəgahların kompozisiyası onların fəaliyyəti ilə müəyyənləşmiş və dini mərasimlərin tələblərindən irəli gələn binaların kompleksindən ibarət olmuşdur (Т.Х.Стародуб, 1989, стр. 272). Kompleksə yaşayış üçün istifadə edilən hücrələr, ibadətlə bağlı tikililər (məscid, minarə), ayinlərin icrası üçün tikililər (zikrxana, sovməə), ümumi toplantı üçün salon (camaatxana), təsərrüfat təyinatlı yardımçı tikililər və s. daxil idi (Р.Амензаде, 2001, стр. 245-246). Bəzən xanəgahda qeyd olunan elementlərdən bu və ya digəri olmaya da bilərdi.

Xanəgah tipli dini abidələri səciyyələndirmək baxımından Pirsaatçay sahilindəki Pir Hüseyn xanəgahı mühüm əhəmiyyət kəsb edir (tablo 104, şək. 1-2). Xanəgah bir neçə bitişik tikililərdən, o cümlədən Pir Hüseynin müqəddəs məzarı olan türbədən, məsciddən, minarədən və bir neçə digər kiçik otaqlardan ibarətdir. Ətrafına müdafiə divarları çəkilmişdir. Divarlardan xaricdə daşdan tağ örtüklü karvansara yerləşir. Görünür, xanəgah kompleksi Şeyx Pir Hüseynin türbəsi ətrafında bir neçə əsr ərzində yaranmışdır. Türbə ilə məscid arasında kiçik bir keçid var. Düzbucaqlı plan quruluşlu məscid çatma tağbəndlə örtülmüş uzunsov ibadət salonuna malikdir. Memarlıq xüsusiyyətləri məscidin XI-XII əsrin qovşağında tikildiyini söyləməyə əsas verir. Türbəyə bitişik olduğundan məscidin ibadət salonu həm də ziyarətxana funksiyasını daşımışdır. XIII əsrin ortalarında xanəgahda geniş bərpa və quruculuq işləri aparılmışdır. Məscidin mehrabının zəngin bədii yapma gəc naxışla tərtibatı, eləcə də türbənin kaşı bəzəyi də həmin dövrə aiddir. Bu quruculuq

işləri sırasında kompleksin mühüm tikililərindən biri sayılan minarənin inşasını xüsusi qeyd etmək lazımdır.

Şirvanda xanəgah tipli başqa bir dini abidə Şamaxıdan 17 *km* cənubda hazırkı Göylər kəndində aşkara çıxarılmışdır (tablo 104, şək. 3-4). Vaxtilə Şamaxı-Ərdəbil karvan yolunun üstündə yerləşən bu abidə həm ticarət, həm də ziyarət əhəmiyyəti daşımışdır. Xalq arasında "Pir Mərdəkan" adı ilə tanınan xanəgah kompleksinin yalnız türbə binası dövrümüzə qədər salamat qalmışdır. Onun ətrafında isə məscid, hücrələr, karvansara və digər tikililərin qalıqları aşkarlanmışdır (М.С.Нейматова, Г.А.Джидди, 1979). Yaxşı yonulmuş daşdan dördkünc plan üzrə inşa olunmuş türbə şiş çadırvari günbəzlə tamamlanır. Türbənin içərisindəki məzar üzərindəki başdaşında kufi elementli süls xətti ilə həkk olunmuş kitabədə bildirilir ki, qəbir Şeyx, imam, ən böyük alim, mömin Tair Tac əl-Hüda Mərdakani ibn Əlinindir (M.Nemət. 1992, səh. 20). Mütəxəssislər Tac əl-Hüdanın "mömin", "şeyx" titullarına və "imam" vəzifəsinə görə onun xanəgahın imamı olduğunu bildirirlər. Xanəgahın bina olunması isə, görünür, XII əsrin sonu - XIII əsrin əvvəllərinə aiddir.

Naxçıvan Muxtar Respublikası ərazisində bir neçə xanəgah tipli abidə zəmanəmizə qədər qalmışdır. Çox təəssüf ki, başqa xanəgahlar kimi bunlarda da arxeoloji qazıntı işləri aparılmamışdır. Bunlardan biri Əlincəçayın kənarında Xanəgah kəndindəki Şeyx Xorasan xanəgahıdır. Onun şeyxi Xorasanda Qələndəri sufi cəmiyyətinin əsasını qoymuş Əbu Səid Əbül Xeyrin müridi Əbu Ömər Naxçıvani olmuşdur. Kompleks tikililərdən - məscid, türbə və s. ibarətdir. Bu xanəgahın XI-XII əsrlərdə tikildiyi ehtimal olunur. Türbənin günbəzi dağıldığından onun quruluşu haqqında fikir söyləmək çətindir. Xanəgahın giriş qapısının hər iki tərəfi gəcdən oyma və qabarıq naxışlar və dini məzmunlu kitabələrlə bəzədilmişdir. Türbənin giriş tağının memarlıq elementləri Mömünə xatın türbəsindəkinə oxşayır. Onun inşasında kərpiclə yanaşı, firuzəyi kaşıdan da geniş istifadə olunmuşdur. Kompleksə daxil olan məscid sonrakı dövrlərdə (XV əsrdə) tikilmişdir.

**Xristian məbədləri.** Xristian abidələrinə misal olaraq Ağdam rayonunun Sofulu kəndində Govurqalada qazıntılar zamanı aşkara çıxarılmış birnefli məbədi qeyd etmək olar (R.M.Vahidov, 1965, səh. 167-175). Məbəd daşdan tikilib. Məbədin ibadət salonu (62 *kv.m)* və ona şimal-şərq tərəfdən bitişik olan xidmət otaqları var. İbadət salonunun şərq qurtaracağında yarımdairəvi absidası və mehrab üçün kürsülüyü (səcdəgahı) mövcuddur. İbadət salonu və kürsülük yaxşı yonulmuş daşla səliqəli döşənmişdir. Bəzi döşəmə daşlarında qazıma xətlərlə həndəsi fiqurlardan ibarət ayin əhəmiyyətli təsvirlər verilmişdir. Məbəddən çoxlu xaç təsvirli daşlar, daş və gipsdən həndəsi fiqurlar və nəbati təsvirli memarlıq hissələri tapılmışdır.

Tikintilərdən məlum olur ki, məbədin kirəmit örtüyü olmuşdur. Məbəd VIII-X əsrlərə aid edilir (Р.Б.Геюшев, 1985).

İnkişaf etmiş orta əsrlər dövrünə aid xristian məbədləri başqa abidələrdə də, o cümlədən Qarabağ bölgəsində yerləşən Amaras-Ağoğlan şəhər yerində tədqiq olunmuşdur (R.B.Göyüşov, 1975). Antik dövrdən yaşayış məskəni kimi mövcud olan Amarasda IV əsrdə məbəd tikilmiş və bura Qafqaz Albaniyasının dini mərkəzlərindən birinə çevrilmişdir. IX əsrdə burada monastır kompleksi inşa edilmişdir. Arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, X əsrdə məbəddə yenidənqurma işləri aparılmış, onun sahəsi əvvəlkinə nisbətən xeyli geniş götürülmüş və qərbə doğru uzadılmışdır. Məbədin X əsrdə yenidən qurulmasına başlıca səbəb ilk ərəb işğalı zamanı Amaras ərazisinin qanlı döyüş meydanına çevrilməsi və döyüş zamanı ilk məbədin qismən dağıdılması olmuşdur. Məbədin sahəsi dəyişilsə də, o öz əsas formasını saxlamışdır. Məbədin üstü tağ formasında örtülmüşdür.

Qazıntılardan məlum olmuşdur ki, məbəd uzunsov bazilik formasında olmaqla (tablo 106, şək. 3), daxilində uzunluğu 15,9 *m*, eni isə 11 *m*-dir. Hər iki tərəfdən iki olmaq şərtilə dörd sütunla üç hissəyə ayrılmışdır. Məbədin döşəməsi daşdandır. Onun şərq tərəfində döşəməsi 1,2 *m* yüksəklikdə mehrab yerləşir. Mehrab adi qaydada oval formalıdır. Mehrabın eni 1,2 *m*, hündürlüyü isə 2 *m* olan pəncərəsi vardır. Mehrabın cənub və şimal tərəfində cübbəxanalar yerləşir. Cübbəxanaların yanında, yəni hər iki tərəfdən mehraba qalxmaq üçün xüsusi pilləkənlər düzəldilmişdi (R.B.Göyüşov, 1975, səh. 55-57).

Müəyyən edilmişdir ki, X-XIV əsrlər arasında məbədin daxili quruluşu dəyişməmişdir. Lakin məbədin divarlarında X əsrdə yenidənqurma zamanı ilk məbədin naxışlı daşlarından istifadə olunmuşdur. Amarasda yalnız dini abidələrdə təsadüf olunan memarlıq bəzəyi kimi işlənmiş bir qrup naxış diqqəti cəlb edir. Amaras məbədinin qapısı üzərində isə ağac təsviri verilmişdir. Məlum olduğu kimi, ağac təsviri xristianlığın hələ ilk dövrlərindən bir növ dəbdə olmuşdur.

Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Amarasın memarlıq abidələri içərisində dini abidələri nə qədər dəbdəbəli tikilmişdirsə, yaşayış evləri bir o qədər zövqsüz inşa edilmişdir.

Alban xristian dini memarlığının maraqlı abidələrindən biri də Kəlbəcər rayonunun Vəng kəndində, Tərtərçayın sol sahilində yerləşən Xudavəng monastırıdır. Buradakı kompleksə baş kilsə, bir neçə bazilika, yaşayış binaları, təsərrüfat tikililəri, kiçik sovmələr daxildir (tablo 105). Məbəd müdafiə divarları ilə əhatə olunmuşdur. Kompleksin ən qədim tikilişi baş məbədin şimalında inşa edilmiş "alban bazilikası"dır. Uzunluğu 16 *m*, eni isə 4,2 *m* olan bu məbəd uzun bir salondan

ibarətdir və quruluş etibarilə ilk bir nefli xristian bazilikalarını xatırladır. Mehrabın sağ və solunda cübbəxana vardı. Daşdan əhəngli məhlulla tikilmiş bu dini tikili VIII-IX əsrlərə aid edilir (R.Göyüşov, 1972, səh. 65). Baş kilsənin özü istər həcm-məkan, istərsə də plan quruluşuna görə asimmetrik həllə malikdir (Д.А.Ахундов, 1986, стр. 226).

X-XV əsrlərdə ilk bazilika məbədin yanında bir sıra düzbucaq biçimli kilsə və sövmələr tikilmişdir. Xaçın knyazı Həsən Vaxtanq oğlunun hakimiyyəti illərində burada günbəzli kilsə inşa olunmuşdur (tablo 105, şək. 1). Xudavəng monastr kompleksində mühafizə olunmuş ən qədim yazı da Həsən Vaxtanq oğlu tərəfindən 1182-ci ildə həkk etdirilmiş və monastıra gələrək rahib həyatı qəbul etməsi haqqında məlumat verir (R.Göyüşov, 1972, səh. 67). Xudavəng monastır kompleksində XIII əsrin əvvəlində inşa olunmuş mülki bina-sarayın salonu alban memarlığının unikal tikililərindən hesab oluna bilər. Kvadrat biçimli salonun mərkəzində bazalt daşdan yonulmuş dörd sütun, onların üzərində tağlar vardır.

Əsası ilk orta əsrlərdə qoyulmuş, bəhs olunan dövrdə də istifadə edilən alban xristian məbədləri Kəlbəcər rayonunun Kəşdək, Kilsə kəndlərində də qeydə alınaraq tədqiq edilmişdir (A.Məmmədov və b., 2006).

Dövrümüzə qədər salamat qalmış xristian məbədləri arasında Gədəbəydəki Həmşivəng məbəd kompleksi də diqqətəlayiq abidələrdəndir (tablo 105, şək. 2) Kompleks memarlar tərəfindən araşdırılmışdır (Г.Мамедова, 2004, стр. 111).

Son alban xristian məbədləri Qazax bölgəsinin Daş Salahlı və Aşağı Əskipara kəndlərində də tədqiq olunmuşdur. Avey məbədi Daş Salahlı kəndində, Aveydağ silsiləsinin uca zirvəsində yerləşir. 1988-1989-cu illərdə məbədin cənubunda arxeoloji qazıntılar aparılmışdır (F.Muradova, 2004, səh. 138-145). Məbəd kompleksi düzbucaq biçimli böyük binadan və ona birləşən kiçik yardımçı otaqlardan ibarətdir. Binanın daxili aralıq qapı ilə 4,5x3,5 *m* və 3,5x2,5 *m* olmaqla iki otağa ayrılır. Böyük otağın şərq divarında tağ formalı absida yerləşir. Otağın tavanı günbəzvaridir. Məbədin arxa hissəsindəki kiçik otağın şərq tərəfində tağ formalı apsida mehrab yerləşir. Məbəd kompleksinə daxil olan ikinci tikili əsas binanın şimal-şərq hissəsindədir. Onun qapısı qərbdəndir. Arxeoloji qazıntı zamanı məbədin cənubunda qəbiristanlıq üzə çıxarılmışdır.

Aşağı Əskipara kəndində yerləşən alban xristian məbədinin inşa tarixi haqqında tədqiqatçılar arasında yekdil fikir yoxdur. A.L.Yakobson onu VI əsrə, İ.P.Şeblıkin VII-IX əsrlərə, N.M.Tokarski X əsrə, D.Şərifov X-XI əsrə aid edir (F.M.Muradova, C.N.Rüstəmov, 2005, səh. 35). Məbəd günbəzli, dörd apsidalı tikilidən ibarətdir. Hündür, səkkiztilli baraban alçaq, konusvari örtüklə tamamlanır. Məbədin cənub və qərb tərəfdən iki qapısı vardır. Mehrab şərq tərəfdə yerləşir. Onu iki yandan hücrələr əhatələyir. Məbədin döşəməsi dördkünc əhəngdaşı ilə



**Zeyzit məbədi. Arxeoloji sahənin planı.**

döşənmişdir (tablo 106, şək. 1-2).

Şəki-Qax bölgəsində yerləşən alban xristian abidələri - Kiş, Zəyzit, Ləkit xristian məbədləri bəhs olunan dövrdə təmir və yenidənqurma işlərinə məruz qalmışlar. Kiş məbədi (tablo 106, şək. 4) son orta əsrlərədək fasiləsiz öz fəaliyyətini davam etdirmişdir (В.Керимов, Б.Стурфиел, 2003). Ləkitdəki Katuk monastırının isə artıq XI-XII yüzilliklərdə müsəlmanlar tərəfindən məscidə çevrilməsi arxeoloji tədqiqatlarla müəyyənləşdirilmişdir (А.А.Карахмедова, 1986, стр. 14-15). Zəyzit məbədi ərazisində aparılmış memarlıq və arxeoloji tədqiqatlar məbədin erkən orta əsrlərdə tikildiyini və XIII əsrədək istifadə edildiyini göstərmişdir. Arxeoloji qazıntılardan əldə olunan saxsı məmulatının II-VI əsrlərə və VIII-XIII əsrlərə aid dilməsi də bunu təsdiqləyir (В.Керимов, 2008, стр. 16-17).

Orta əsrlərə aid müsəlman və xristian dini əşyaları qazıntılardan çox az tapılmışdır. Bunlara demək olar ki, bütün şəhər yerlərindəki qazıntılardan tapılan gülabdan tipli qabları, Beyləqandan tapılmış üstündə Məhəmməd peyğəmbərin və 12 imamın adları yazılmış üzük möhürü (tablo 44, şək.9), üstündə ərəb rəqəmləri ilə verilmiş sehrli kvadratı (tablo 60, şək. 8), dəmir və tuncdan düzəldilmiş kiçik xaçları və başqa əşyaları aid etmək olar.

## Xatirə və qəbir abidələri

IX-XIII əsrin əvvəllərində Azərbaycanda qəbir abidələrinin qabaqkı dövrlərə nisbətən müxtəlifliyi daha da azalır, ölkədə islam dini dövlətin ideologiyası olduğu üçün bütpərəst dəfn adətləri, demək olar ki, tamamilə aradan çıxır. Xristian dəfn qaydaları isə xeyli məhdudlaşır. Tədricən qəbirlərə avadanlıq qoymaq da dəbdən düşür. Qazıntılar zamanı tək-tək də olsa bükülü vəziyyətdə dəfn olunmuş bütpərəst qəbirlərinə, az miqdarda arxası üstdə dəfn olunmuş xristian qəbirlərinə və sağ böyrü üstdə uzanmış, üzü qibləyə dəfn olunmuş çoxsaylı müsəlman qəbirlərinə təsadüf olunur. Sonuncu dəfn adəti daha geniş yayılmışdır. Müsəlman əhali öz ölülərini əsasən sadə torpaq qəbirlərdə dəfn edirdilər, bəzən qəbrin üstünü bişmiş və ya çiy kərpiclə örtürdülər. Daş və ya kərpiclə hörülmüş sərdabələrdə, az hallarda isə ayaqlı ağac tabutlarda dəfnlərə təsadüf olunur. Sadə torpaq qəbirlər Qəbələ, Beyləqan və başqa yerlərdə aşkar edilmişdir. Sərdabədə dəfn edilmiş qəbirlərə Beyləqan, Qala və Xaraba-Gilanda təsadüf edilmişdir. Sərdabələr, bəzən ailə üzvlərinin dəfn olunması üçün nəzərdə tutulurdu. Tabutda dəfn olunmuş qəbirlərə misal olaraq Nizami Gəncəvinin qəbrini göstərmək olar. Müsəlman qəbirlərinin üstünə ərəb və farsca yazılmış və bədii naxışları olan başdaşıları qoyurdular. Qəbir daşları əsas etibarilə iki hissədən ibarət olurdu: başdaşı və sənduqə. Bəzi rayonlarda sənduqələri sinə daşları əvəz edirdi. İstər baş daşları, istərsə də sənduqə və sinədaşılarının üz hissələri yazılır, həndəsi naxışlar, müxtəlif gül və məişət əşyalarının təsviri ilə doldurulurdu (И.М.Джафарзаде, С.К.Джафарзаде, 1956). Daşların üzərindəki epitafiyada mərhumun adı, dəfn olunduğu tarix göstərilir, müqəddəs ayə və hədislərdən nümunələr verilirdi. Həmin yazılarda insanlara vahid Allahın adıyla insanpərvərlik, xeyirxahlıq, ədalət, rəhm, bir-birilərinə rəğbət və inam hissləri aşılanırdı. Daşlarda həkk olunmuş təsvirlərdə mərhumun peşə və sənətini əks etdirən lövhələr göstərilmişdir. Həmin yazı və təsvirlər əsasında mütəxəssislər nəinki dəfn olunmuş adam haqqında, hətta dövrün nəqqaş, xəttat, rəssam, heykəltəraş və başqa bədii daşyonma ustalarının fəaliyyəti haqqında zəngin və dəqiq məlumat toplaya bilirlər. Adətən xanəgah, pir, türbə, imamzadə və s. abidələrin kitabələrində, həmçinin məzar daşlarında alimlərin, din xadimlərinin, cəmiyyət şeyxlərinin, təriqət başçılarının

adları çəkilir. Arxeoloji qazıntılardan aşkara çıxarılmış və yer üstündə zamanımıza qədər qalmış qəbir daşlarını tədqiq etməklə alimlərimiz dövrün incəsənətində onların tutduğu mövqe, islam dininin yayılması ilə əlaqədar təsviri sənətə münasibət, qəbir daşlarının quruluşu, bədii işlənməsi, onun naxış və təsvirlərinin tarixi kökləri, yazı xətt növləri, abidələrin etnik mənsubiyyəti və bir sıra digər elmi məsələlər barədə mülahizə yürütmək imkanı əldə edirlər. Qədim qəbiristanlıqların arxeoloji tədqiqi müxtəlif dövrdə yaşamış əhalinin ictimai, iqtisadi və mədəni həyatına aid xeyli material vermişdir.

Doğrudur Azərbaycan ərazisində hələlik IX əsrdən qədimə aid ərəb yazılı məzar daşları tapılmamışdır. Bu onunla izah olunur ki, ilk dövrlərdə islam dininin dəfn qaydalarına görə qəbirlər üstünə abidə qoymaq cəhdləri pislənmişdi. İslam dəfn qaydasına görə qəbrin torpağından başqa yerüstü nişanəsi olmamalı idi. Lakin sonralar müqəddəslərə etiqadın yaranması sərdabələrin, türbələrin və xüsusi müqəddəs yerlərin yaranması ilə nəticələnmişdir. Hətta xüsusi müqəddəs yerlər mövcud idi ki, bəzən ölən adamın vəsiyyəti ilə onun qəbri həmin müqəddəs yerdə müvəqqəti dəfn edilir, sonra isə onun sümükləri müsəlmanların müqəddəs yeri Məkkəyə aparılıb torpağa tapşırılırdı. Belə müvəqqəti dəfn olunmuş qəbirlər Bakı şəhərində Qız qalasının yanında aşkar olunmuşdur (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1976,səh. 184-199).

Feodal sinfinə mənsub olan və tanınmış şəxslərin qəbirləri üstündə bəzən zəngin memarlıq görkəmi olan türbələr tikilirdi. İslam dininin ruhuna zidd olan türbə tipli xatirə abidələrinin meydana gəlməsi və geniş yayılmasında qədim türk ənənələrinin yeni şəraitdə transformasiyası mühüm rol oynamışdır (C.Qiyasi, 1991, səh. 83). Belə türbələr adətən daşla və yaxud bişmiş kərpiclə inşa olunurdu. Onların qalıqlarına Qəbələ, Beyləqan, Xaraba-Gilan və Bakı qazıntılarında təsadüf olunmuşdur. Bu abidələr üçün ümumi cəhətlər mövcuddur: türbənin qüllə hissəsini memarlıq görkəmi ilə hər cür nəzərə çarpdırmaq, türbənin əsas bölgüləri - kürsülük, gövdə və örtük arasındakı mütənasibliyi gözləmək, örtüyün konus və piramida formasını dəqiq vermək, giriş, portal və digər memarlıq ünsürlərinin, həmçinin onların naxışlarını qabarıq şəkildə göstərmək və s. Türbələrin içərisi iki hissədən ibarət tikilirdi,alt hissədə qəbir yerləşdirilirdi. Türbələrin kürsülük hissəsi adətən iri bloklarla üzlənirdi, örtüyü ikiqat hörülürdü. İçəridən oxvari və ellips formalı örtüyü xaricdən konus və piramida şəkilli üzlük tamamlayırdı. Üzlük, türbənin görkəmini qabarıq nəzərə çarpdırırdı (М.Усейнов и др., 1963, стр. 81).

Azərbaycan xatirə memarlığının inkişafında orta əsrlərdə tikilən qüllləvari türbələrin böyük rolu olmuşdur. Qülləvari türbələrin ən qədimi hicri 450 (1067) və Hicri 486 (1093)-cı illərdə Qəzvinlə Həmədan arasında yerləşən Xərraqanda inşa olunmuş, yerli əhalinin Qoşa İmam adlandırdığı türbələrdir. Türbələr planda səkkizbucaqlıdır və bucaqların hər biri silindrik qülləciklərlə möhkəmləndirilmişdir. Memar Məhəmməd Əbül Məali Zəncani ucaltdığı bu qülləvari türbələrdə bişmiş

kərpicin imkanlarından yüksək peşəkarlıqla istifadə edərək bitkin sənət əsəri yarada bilmişdir (C.Qiyasi, 1991, səh. 85-89). Bu tip abidələrdən Marağada tikilmiş Qırmızı günbəz (1 148), Göy günbəz (1196), Naxçıvandakı Yusif Küseyir oğlunun (1162), Mömünə xatının (1187) və s. türbələr zamanımıza qədər salamat qalmışdır (tablo 107).

Yusif Küseyir oğlunun türbəsi yaxşı bişmiş kərpiclə tikilmişdir və ikiqatlıdır (tablo 107, şək.l). Üstünün örtüyü səkkizguşəli piramida şəklindədir. İki hissədən ibarətdir. Alt hissədə yeraltı sərdabə, üst hissədə isə türbənin gövdəsi yerləşir. Tağlı qapısı var. Türbənin yuxarı hissəsində inşaat yazısı yerləşdirilmişdir. Friz hissədə Qurandan yazı verilmişdir. Xarici səthi həndəsi naxışlarla nəfis işlənmişdir. Abidə istər memarlıq, istər quruluş və istərsə də bədii işlənməsinə görə dövrünün yüksək səviyyədə duran nadir sənət əsəridir. Sərdabəyə giriş üst qatdan enən yol vasitəsilə mümkündür. Abidə məşhur memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilmişdir və onun bizə məlum olan ilk əsəridir (Ə.Salamzadə, 1976, səh. 10-16). Mömünə xatın türbəsi isə XII əsr Azərbaycan memarlığının şah əsəri hesab olunmalıdır (tablo 107, şək. 2). Quruluş və bədii işlənmə etibarilə Yusif Küseyir oğlunun türbəsindən daha kamil, daha yaraşıqlıdır, öz sələfini ölçülərinin böyüklüyü ilə, həm də plan biçiminin mürəkkəbliyi ilə geridə qoyur (C.Qiyasi, 1991, səh. 95). Yeraltı sərdabə planda onbucaqlıdır. Marağadakı Qırmızı Günbəz türbəsində olduğu kimi burada da sərdabənin ortasında onüzlü dayaq sütunu vardır. Sütundan onbucaqlının hər küncünə doğru bir tağ atılmışdır.

Türbənin yerüstü qülləsi bayırdan onguşəli, daxildən isə dairəvidir. Yusif Küseyir türbəsində olduğu kimi, burada da bucaqlar çıxıntı şəklində həll edilmiş, səthlər isə batıq vəziyyət almışdır. Türbənin üst örtüyü günbəzvaridir. Alt hissə Yusif Küseyir oğlunun türbəsindən fərqli olaraq xaricdən müstəqil girişə malikdir. Yazı və naxışların tərtibatında rəngli kaşılardan geniş istifadə olunmuşdur. Abidənin xarici üzlüyü başdan-başa nəfis həndəsi naxışlar və kufi xətti ilə yazılmış yazılarla örtülmüşdür. Naxışlar təkrar olunmur, burada müxtəlifliyin bütün imkanlarından istifadə edilmişdir. Mömünə xatın türbəsində Əcəmi yaradıcılığı özünün ən yüksək səviyyəsini nümayiş etdirmişdir (Ə.Salamzadə, 1976, səh. 18-27). Arxeoloji qazıntılarla sübut edilmişdir ki, türbə tək deyil, abidələr kompleksinin daxilində yerləşdirilmişdir. Kompleksə tağlı qapı, məscid və digər tikililər daxil idi.

Marağa şəhərindəki qülləvari türbələrdən Qırmızı günbəz Azərbaycan xatirə memarlığında yeni konstruktiv ünsürlərin və memarlıq bəzəyinin tətbiqi ilə diqqəti cəlb edir. İkiqatlı olan bu türbənin həm sərdabəsi, həm də üst hissəsi kvadrat plandadır. Sərdabənin ortasında dayaq sütunu vardır. İlk dəfə bu abidədə təsadüf olunan belə konstruktiv həll sonradan digər qülləvari türbələrin sərdabələrində də rast gəlinir. Sərdabəyə giriş daş kürsülükdə, şərq tərəfdə açılmış qapı vasitəsi ilə mümkün idi. Türbənin yerüstü hissəsi kubvari formada olmaqla kürsülük üzərində bişmiş kərpicdən ucaldılmışdır. Gövdənin şimal divarında salınmış qapı iri baştağ

şəklində işlənmişdir. Digər üç divarda isə qoşa çatma taxça qurulmuşdur. Bayır tərəfdən küncləri qapayan silindrik qülləciklər - kərpic sütunlar bədii kompozisiya rolunu oynayır və türbənin əzəmətini daha da artırır. Gövdənin kubvari quruluşu yuxarıda piramidal tutumlarla səkkizüzlü boyuna çevrilir. Həmin boyun üzərində də dövrümüzə gəlib çatmayan piramidaşəkilli bayır günbəz olubmuş.

Türbənin bayır üzlərindəki taxçaların içərisi kərpic hörgüsü ilə yaradılan incə naxışlarla bəzədilmişdir. Şimal divar, xüsusilə baş tağ zəngin naxışlanmış, kufi xətli kitabə ilə haşiyələnmişdir. Burada ilk dəfə olaraq firuzəyi rəngli kaşılı kərpiclərdən istifadəyə təsadüf edirik (C.Qiyasi, 1991, səh. 89).

Qülləvari türbələrin qalıqları arxeoloji qazıntılarla Xaraba-Gilan şəhər yerində, "şəhristan"ın IV məhəlləsində də tədqiq edilmişdir (tablo 108, şək. 3-4; tablo 109). Türbələr ikiqatlı olub, üst qat əsasən dağıdılmışdır. 1 saylı türbədə alt qat - yeraltı sərdabə planda bayır tərəfdən kvadrat, içəri tərəfdən isə səkkizbucaqlı biçimdədir. Sərdabədə planda səkkizbucaqlı mərkəzi dayaq sütunu yerləşdirilmişdir. Sütun yuxarıya doğru genişlənərək göbələkvari forma alır. Sərdabə yerli qaya daşlarından inşa olunmuşdur. Türbənin üst qatı səkkizbucaqlı olub, 20x20x5 *sm* ölçülü bişmiş kərpicdən hörülmüşdür. İkinci qat güclü dağıntıya məruz qalmış, daha çox mühafizə olunduğu cənub-qərb divarında onun hündürlüyü 80 *sm*-dir. Türbənin divarlarının qalınlığı 1,5 *m,* üzlüyün qalınlığı isə 12 *sm*-dir. Türbənin ətrafından tapılmış üzlük bloklarının çoxluğu türbənin divarlarının səthinin dekorativ kərpiclərin hörgüsü ilə həndəsi naxışlarla örtüldüyünə dəlalət edir. Naxış kompozisiyalarının mərkəzində altıbucaqlı, səkkizbucaqlı, dördbucaqlı və s. fiqurlar durur. Ümumiyyətlə, türbənin bədii tərtibatında Yusif ibn Küseyir türbəsinin bədii tərtibatına yaxınlıq çoxdur. Başlıca fərq Xaraba-Gilan türbəsinin dekorativ bloklarının ölçü etibarı ilə xeyli kiçik olmasındadır. Xaraba-Gilan türbəsinin küncləri Yusif ibn Küseyir və Mömünə xatın türbələrindən fərqli olaraq silindrik formada işlənmişdir (Б.И.Ибрагимов, 2000, стр. 45-48). Künclərin belə işlənməsi, yuxarıda göstərildiyi kimi, Xərraqan və Marağadakı Qırmızı Günbəz türbələri üçün səciyyəvidir. Xaraba-Gilan türbəsində giriş açırımı cənubdadır. Sərdabənin giriş açırımı isə şərqə açılır və sivri tağlı tərtib olunmuşdur. Onun eni 1,3-1,4 *m,* hündürlüyü 1,05 *m*-dir. Sərdabədə müsəlman qaydasında dəfn qeydə alınmışdır. 1 saylı türbənin XII əsrin 80-ci illərində memar Əcəmi Əbubəkr oğlu tərəfindən inşa edildiyi bildirilir (Б.И.Ибрагимов, 2000, стр. 47).

2 saylı türbə birincidən şimal-qərbdə yerləşir və kub formasındadır (tablo 109). Türbə iki qatlıdır. Alt qat - sərdabə səkkizbucaqlı biçimdə olub, mərkəzində göbələkvari dayaq sütunu yerləşmişdir. Dayaq sütunun ucları tağlarla sərdabənin yastı örtüyü və divarlar ilə birləşmişdir. Qeyd edək ki, mərkəzi dayaqlı sərdabələr Naxçıvan-Marağa memarlıq məktəbi üçün səciyyəvi olub təkcə möhkəmliyi ilə deyil, həm də biçiminin incə plastikası ilə, daxili sahmanının gözəlliyi ilə fərqlənir (C.Qiyasi, 991, səh. 91). Sərdabəyə giriş açırımı dəhliz - keçid kimi işlənmiş, sərdabənin döşəməsi səliqə ilə, böyük yastı daşlarla döşənmişdir. Daxili sahman ciddi təsir bağışlayır.

Türbənin üst qatı bayırdan daşla, içəridən isə 20x20x5 *sm* ölçülü bişmiş kərpiclə inşa olunmuşdur. Baştağ türbənin şərq tərəfində yerləşir və sivri tağlı formasında işlənmiş giriş açırımına malikdir. Baştağ yüksək bədii tərtibatı ilə də diqqəti cəlb edir. Alt və üst qatları kvadrat biçimli açırım ilə əlaqələndirmişdir. Üst qat "ziyarətxana" təyinatına malik olmuşdur, onun daxili məkanı zəngin bəzədilmişdir. Qərb yarısı stalaktitlərlə tamamlanır.

Türbənin memarlıq həlli, onun ayrı-ayrı ünsürləri, eləcə də arxeoloji qazıntılardan tapılmış maddi mədəniyyət qalıqları bu xatirə tikilisinin XII əsrin sonu - XIII əsrin əvvəllərində inşa edildiyini söyləməyə əsas verir (Б.И.Ибрагимов, 2000, стр. 48-50).

Bişmiş kərpicin başlıca hörgü materialı olduğu Naxçıvan-Marağa xatirə abidələrində monumentallıq ilə bərabər zəriflik özünü büruzə verir. Tədqiqatçıların fikrincə, dövrün qabaqcıl konstruksiya və inşaat üsullarının tətbiqi, həm də yaradılması işində Naxçıvan-Marağa memarlıq məktəbinin nümayəndələrinin xidməti olduqca böyük olmuşdur (Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1985, səh. 62).

XII-XIII əsrlərdə Arran memarlıq məktəbində də monumental xatirə tikililərinin əsas tipini qülləvari türbələr təşkil edirdi. Arxeoloji qazıntılar zamanı Nizami Gəncəvinin qəbrinin üstündə Arran memarlığı üçün səciyyəvi olmuş çoxrəngli bayır üzlüyü olan sərdabəli qülləvari türbənin ucaldığı müəyyən olunmuşdur (И.М.Джафарзаде, 1949).

Bakıdakı arxeoloji qazıntılar zamanı bəhs olunan dövrə aid dəfn mərasimi ilə əlaqədar bir neçə məqbərə qalıqları aşkar edilmişdir.

Onlardan şəhərin şərq hissəsindəki qoşa məqbərə tikililəri xüsusi maraq doğurur. Məqbərənin bünövrəsi qayanın üstündə hörülmüşdür. Yaxşı yonulmuş əhəngdaşından səliqə ilə tikilən otaqlar şimal-qərb, cənub-şərq istiqamətindədir. Abidənin üstü xeyli dağılmışdır. Məqbərələr eyni forma və ölçüdə, düzbucaqlı quruluşda tikilmiş, üstü tağla tamamlanmışdır. Otağın içəri tərəfə açılan qapısı vardır.

Şəhərin cənub-qərb tərəfində, qala divarlarına yaxın ərazidə aparılan arxeoloji qazıntı zamanı XII əsrə aid məqbərə qalığı üzə çıxarılmışdır. Onun daxili iri daş şəbəkə ilə iki yerə bölünmüşdür. Məqbərədə dəfn olunanın şəxsiyyətini təyin edən kitabə vardır. Yuxarıda qeyd olunduğu kimi, kitabə ərəb əlifbası ilə, çiçəkli kufi xətlə yazılmışdır.

Həmin məqbərədən arxeoloji qazıntılar zamanı bir ədəd XII əsrin sonuna aid mis pul tapılmışdır. Başdaşı qırıldığından kitabədə onun tarixi və dəfn olunan şəxsin - Əbu Səid Namdarın titul və vəzifəsini bildirən kəlmələr yoxdur. Şəhərdə tikilən bu məqbərə, söz yox ki, orada dəfn olunanın tanınmış şəxsiyyət olduğunu göstərir.

IX-XIII əsrlərin qəbiristanlıqları arxeoloji cəhətdən zəif öyrənilmişdir. Lakin az da olsa aparılmış işlərdən məlum olur ki, qəbirlərin əsas kütləsini sadə torpaq qəbirləri təşkil etmişdir. Qəbələ şəhər yerinin (Səlbirdə) cənub-qərb hissəsində

aparılan qazıntılar zamanı XI əsrə aid müsəlman adəti ilə dəfn olunmuş 36 qəbir aşkar edilmişdir. Bunlardan 13-ü uşaq qəbirləri olmuşdur.

Səlbirin şimal-şərq hissəsində isə səkkizguşəli türbənin sərdabə hissəsi aşkara çıxarılmışdır. Sərdabənin bünövrəsi çaydaşı ilə kirəc məhlulunda hörülmüşdür. Yuxarı hissələrdə isə yonulmuş puç daşlardan istifadə olunmuşdur. Sərdabədə bir nəfər yaşlı adam və iki uşaq dəfn edilmişdir. Yaşlı şəxsin qəbri yonulmuş daşla hörülmüş və üstünə daş lövhələr qoyulmuşdur. Qəbir VIII-IX əsrlərə aid binanın divarını kəsmişdir. Çox güman ki, bu türbə də yuxarıda göstərilən qəbirlərlə həmdövrdür.

Eyni dövrə aid bir neçə sadə torpaq müsəlman qəbri Səlbirin cənub şərqində, IX qazıntı sahəsində də aşkara çıxarılmışdır. Daha sonrakı dövrlərdə isə Qəbələnin əsas qəbristanlıqları Səlbir-Qaladan kənarda-qərbdə, Qara çayla Qala arasındakı dərədə, şərqdə isə Covurluçayın sol sahilində hazırda "Şəhidlər qəbiristanlığı" adlanan sahədə yerləşmişdir. Hər iki qəbiristanlıqda sənduqə formalı qəbir daşları qalmışdır (S.M.Qazıyev, İ.A.Babayev, 1967, səh. 30; İ.Babayev, Q.Əhmədov, 1981, səh. 45). Bundan başqa Qəbələnin Kamaltəpə adlanan sahəsində erkən müsəlman (VIII-IX əsrlər) qəbirləri aşkarlanıb tədqiq edilmişdir (В.Ф.Гадиров, 1985, стр. 483; F.V.Qədirov, 1988, səh. 98-104).

Beyləqanda şəhərin şimal qərb qala darvazasında, VI sahədə aparılan qazıntılar zamanı 10 ədəd sadə müsəlman qəbirləri üzə çıxarılmışdır. Onların üstü bişmiş kərpiclər vasitəsilə örtülmüşdür. Qəbirlərə heç bir material qoyulmamışdır. Müşahidələr göstərir ki, bəhs edilən tipdə müsəlman qəbirləri şəhərin başqa yerlərində də aşkar edilmişdir.

II qazıntı sahəsində aparılan tədqiqatlar zamanı qəbiristanlığın şəhər yerindən şərqdə, təxminən 200 *m* məsafədə yerləşdiyi, fəxri qəbiristanlığın isə qərbdə Mil-Minarə istiqamətində yerləşdiyi müəyyən edilmişdir. Mil-Minarə ilə şəhər yeri arasında bir neçə türbə qalığı aydın görünməkdədir. Həmin türbələrin də üst örtüyündə kaşılardan geniş istifadə olunmuşdur (Q.M.Əhmədov, 1979, səh. 47).

Azərbaycanın xristian əhalisi IX-XIII əsrin əvvəllərində də ölüləri sərdabədə, daş tabutda və torpaq qəbirlərdə dəfn etmək adətini saxlayırdılar. Daş sərdabələrə Bərdə rayonu Zimirxan kəndində, Ağdam rayonunda Govurqalada və başqa yerlərdə təsadüf olunmuşdur (İ.H.Nərimanov, C.H.Rüstəmov, 1965, səh. 198-200; R.M.Vahidov, 1965, səh. 167-180). Sadə torpaq xristian qəbirləri Amaras şəhər yerində aşkara çıxarılmışdır, bunlarda, XII-XIII əsrlərdə meyit arxası üstə, qərb-şərq istiqamətində, əlləri qarnının üstündə çarpazlaşdırılmış dəfn edilmiş, qəbirlərə avadanlıq qoyulmamışdır (R.B.Göyüşov, 1975, səh. 80-83).

IX-XIII əsrlərə aid xristian qəbirləri Şəki rayonunda Kiş məbədi ərazisindəki qəbiristanlıqda da tədqiq olunmuşdur. Burada sadə torpaq qəbirlərlə yanaşı katakomb qəbirlər də aşkarlanmışdır (В.Керимов, Б.Стурфиел, 2003, стр. 48-70).

Bəhs olunan dövrdə üstündə xaç və başqa məişət təsvirləri olan qəbir daşları

meydana gəlib yayılmışdır. Alban xaçdaşları Kəlbəcər, Gədəbəy, Laçın, Ağdam və Yuxarı Qarabağ ərazisində qeydə alınmışdır. Bu dövrdə tarixi alban vilayəti olan Sünikdə menhirləri xatırladan qəbirüstü xaç daşlarının ucaldılması faktı da diqqəti cəlb etməyə bilməz. Belə xaç daşlardan biri IX əsrdə alban knyazının qəbri üzərində qoyulmuşdur. Onun hündürlüyü 2,5 *m*-ə çatır. Aşağıda eni 1,4 *m*, yuxarıda 1,6 *m*-dir. Üstü yarımdairəvi tağ formasında tamamlanır. Üzərində nəbati və astral naxışlar fonunda alban xaçı qabardılmışdır. Qeyd edək ki, bəhs olunan dövr alban xaç daşlarının səciyyəvi cəhətlərindən biri onların bədii tərtibatında xristian ikonoqrafiyasının müsəlman bəzək elementləri ilə çulğalaşmasıdır (Д.А.Ахундов, 1986, стр. 252).

Beləliklə, arxeoloji tədqiqatlar bəhs olunan dövrdə müsəlman dəfn adətinin ölkə ərazisində geniş yayıldığını, qəbirlərin üstünə sənduqə, baş və sinədaşıları kimi xatirə abidələri qoyulduğunu göstərir. XI əsrin sonlarından başlayaraq xatirə abidələrinin mürəkkəb növlərindən olan türbələrin inşasına başlanılır. XI-XII əsrlərdə onlar daha geniş yayılır. Bəhs olunan dövrdə ölkənin bəzi dağlıq bölgələrində həmçinin xristian adəti ilə dəfn qalmaqda idi.

# İKİNCİ HİSSƏ

*(XIII əsrin ikinci yarısı - XVII əsr)*

# VI FƏSİL

## YAŞAYIŞ YERLƏRİ

Monqol istilası nəticəsində şəhər və kəndlər talan və qarətlərə məruz qaldı. Onlarla şəhər, yüzlərlə kənd məhv edildi. Azərbaycanın çiçəklənən şəhərləri - Ərdəbil, Xoy, Marağa, Naxçıvan, Beyləqan, Gəncə, Şəmkir, Şamaxı xüsusi qəddarlıqla dağıdıldı. Kağızkonan, Şiz, Ucan, Bərzənd, Uşnu, Bəcirəvan, Beyləqan, Şəmkir şəhərləri bu dağıntılardan sonra bir daha dirçələ bilmədi (Azərbaycan tarixi, 1999, səh. 71).

Arxeoloji tədqiqatların nəticələri monqol işğalı ilə bağlı şəhər və kəndlərin əksəriyyətinin xarabazara çevrildiyini təsdiqləyir. Misal üçün, Şimal-Şərqi Azərbaycanın orta əsr abidələrinin arxeoloji tədqiqi XIII əsrin ortalarında burada 36 yaşayış məskənindən yalnız onunda həyatın davam etdiyini göstərir. Digərlərini əhali tərk etmişdi. Düzən və dağətəyi zonalar daha çox tar-mar olunmuşdu (Т.М.Достиев, 1999, стр. 106).

Köçəri monqol əyanlarının özbaşınalıqları və zorakılığı, ənənəvi əkinçilik bölgələrini köç ərazilərinə çevirmək cəhdləri xüsusilə dözülməz idi. Lakin çox keçmədən, hakimiyyətdə olan mütərəqqi qüvvələr dövlətin qüdrətinin yüksəlməsində və xəzinənin doldurulmasında oturaq həyatın, sənətkarlıq, ticarət və şəhərlərin əhəmiyyətini dərk etməyə başladılar. XIII əsrin sonu - XIV əsrin əvvəllərində Qazan xanın həyata keçirdiyi islahatlar ölkənin sosial-iqtisadi həyatının dirçəlişinə, məskunlaşmanın genişlənməsinə, şəhər həyatının canlanmasına təkan verdi. Köhnə şəhərlərdə dirçəliş başlandı, yeni şəhərlər və kəndlər salındı.

### Şəhərlər

Yazılı mənbələrin araşdırılması və arxeoloji tədqiqatların yekunlarının təhlili monqol ağalığı dövründə urbanizasiya prosesində məhəlli xüsusiyyətlərinə və inkişaf tempinə görə üç bölgəni - Azərbaycan (Cənubi Azərbaycan), Arran və Şirvanı fərqləndirməyə imkan verir. Cənubi Azərbaycanda urbanizasiya prosesi yüksələn xətlə inkişafını davam etdirməkdə idi. Hülakular dövlətinin paytaxtına çevrilmiş Təbriz şəhəri coşqun inkişaf dövrünü yaşayırdı. Şəhərin təkcə vəzir Fəzlullah Rəşidəddin tərəfindən salınmış Rəbi Rəşidi məhəlləsində 30 min ev, 24 karvansara, 1500 dükan, məscid, bazar, hamam, zərbxana, 7 min tələbəsi və 4500




Xəritə 2. Azərbaycan Respublikası. Son orta əsr arxeoloji abidələri.

1. Malxana yeri; 2. Salmanbulağı; 3. Seyidli; 4. Xuray; 5. Qalaxur; 6. Kuçumxantəpə; 7. Maşoba; 8. Qaflatəpə; 9. Lagar; 10. Rutar; 11. Köhnə Xudat; 12. Yurd yerləri; 13. Daştəpə; 14. Çaraklar; 15. Xınalıq; 16. Xurunxur; 17. İspik; 18. Qədim yer; 19. Canaxır; 20. Taləbı; 21. Güney təpə; 22. Köhnəpir; 23. Xubeyli; 24. Galiblar; 25. Taliş; 26. Sırttəpə; 27. Qartı; 28. Kəndindalı; 29. Gülüstantəpə; 30. Dağbilici; 31. Muçi; 32. Qalaça; 33. Başəmirxanlı; 34. Kalapaktəpə; 35. Dərəzərat; 36. Fındıqan; 37. Gələsən-Görəsən; 38. Govurxandıq; 39. Balaşın; 40. Xırmantəpə; 41. Şihitəpə; 42. Xarabakənd; 43. Ağcaburun; 44. Çaxçaxlı; 45 Baylər; 46. Qalacıq; 47. Şamdlan; 48. Xankəndi; 49. Carhan; 50. Xırdalan; 51. Novxanı; 52. Fatmayı; 53. Kürdəxanı; 54. Balaxanı; 55. Zabrat; 56. Nardaran; 57. Bilgəh; 58. Mastağa; 59. Mərdəkan; 60. Ramana; 61. Bakıxanov; 62. Dübəndi; 63. Qala; 64. Binəqədi; 65. Hökməli; 66. Gümbültepe; 67. Koroğlu qalası; 68. Keçili; 69. Qaracəmirli; 70. Bitdili; 71. Dinarəq; 72. Qalakənddə qala; 73. Mingəçevir; 74. Qoşatəpə; 75. Lex qalası; 76. Kilsəkənd; 77. Kərimtəpə; 78. Vəlibəy təpələri; 79. Solaxaytəpə; 80. Xıllı; 81. Marışlı; 82. Xol Qaraqaşlı; 83. Alaşar; 84. Cəm-Cəm; 85. Ərkivan; 86. Əmirtürbə; 87. Piyakon; 88. Mahmudavar; 89. Sərək; 90. Kənd yeri; 91. Çayüzü; 92. Cuzinqala; 93. Qalavar; 94. Gagiran; 95. Hamarkənd; 96. Dizə-Dula; 97. Əliabad; 98. Büzeyr qalası; 99. Lilidiqo; 100. Konadi; 101. Bürsulum; 102. Bəllabur; 103. Şıxakəran; 104. Kolevan; 105. Kalafu qalası; 106. Zarapesta; 107. Lonin; 108. Dilmədi; 109. Ərçivan; 110. Sədərək; 111. Şərur; 112. Billava; 113. Hadiqaib; 114. Tananan; 115. Almalı; 116. Tazakənd; 117. Parçı; 118. Qarabağlar; 119. Vayxır; 120. İşaqlar; 121. Xaraba şəhər; 122. Qoçüstü; 123. Mahmudoba; 124. Şapurqala; 125. Marra; 126. Cuğa; 127. Ərazin; 128. Camaldın; 129. Yeyca; 130. Il Nahacir; 131. Yayçı; 132. Xanağa; 133. Qıtqın; 134. Saltaq; 135. Qazançı; 136. Baş Dizə; 137. Ucadivar.

müəllimi olan tədris müəssisəsi vardı. Burada üçmərtəbəli karvansaralar da fəaliyyət göstərirdi (Azərbaycan larixi, 1999, səh. 72).

Monqol ağalığı Arran şəhərlərinin durumuna xüsusilə ağır təsir göstərdi. Buradakı şəhərlərin bir qismi xarabazara çevrildi. Digərləri isə öz əvvəlki təmtəraqlarını itirdilər və bir daha XII əsrdəki inkişaf səviyyəsinə yüksələ bilmədilər. Şirvanın şəhərləri isə bu iki əks qütb arasında orta vəziyyətdə idi (Т.М.Достиев, 2000, СТР. 135-136).

Tədqiqatlar nəticəsində son orta əsrlərdə Azərbaycanda 45-ə qədər iri şəhərin olması müəyyənləşdirilmişdir. Paytaxt şəhərlər, o cümlədən Marağa, Təbriz və Şamaxı şəhərləri inkişaf üçün daha əlverişli imkanlara malik idi.

Son orta əsrlərdə Gülüstan, Əlincə, Qaleybuğurt, Abşeron qalaları, Gələsən-Görəsən, Kiş, Surxab, Bərduk, Qoturqala, Dəm-Dəm kimi qalaları ölkənin müdafiə sistemində özünəməxsus yer tuturdu.

Şirvan şəhərləri arasında Şamaxı, Dərbənd, Bakı, Şabran mühüm şəhərlər olaraq qalırdı. Şamaxı son orta çağda paytaxt şəhəri olmaqla Şirvan şəhərləri içərisində ən mühümü hesab olunurdu və XVII əsrə qədər öz mövqeyini qoruyub saxlaya bilmişdi. XVII əsrdə burada olmuş Evliya Çələbi "Səyahətnamə" əsərində şəhərdə 126 məhəllənin olduğunu, onlardan Meydan və Şaburan məhəllələrinin daha abad olmasını bildirir (Evliya Çələbi, 1997, səh. 63). Meydan şəhristanın yuxarı hissəsində, Şaburan isə narınqalada yerləşirdi (Г.А.Джидди, 1981, стр. 102).

Şəhərin II, III, IV və V qazıntı sahələri narınqalada, I, VI, VII qazıntı sahələri isə şəhristanın cənub və şərq hissələrində mədəni təbəqənin son orta əsr qatlarının tədqiqi üçün əhəmiyyətli olmuşdur (Г.А.Джидди, 1981, стр. 31). Şamaxının I qazıntı sahəsində mədəni təbəqənin qalınlığı 1 *m-ə* çatan üst yatımı XIV-XVII əsrlərə aid olmuş, burada daşla üzlük çəkilmiş hovuzun qalıqları üzə çıxarılmış, müxtəlif istiqamətlərə şaxələnən tünglərdən quraşdırılmış kəmər aşkarlanmışdır.

IV sahədəki qazıntılar da mədəni təbəqənin 1 *m* qalınlıqda üst yatımının XIV-XVII yüzilliklərə aidliyini təsdiqləmişdir.

Narınqalanın cənub hissəsində, V sahədə aparılan qazıntılarda üzə çıxarılmış, səliqə ilə yonulmuş daşdan əhəngli məhlulla inşa olunmuş, altıkünclü biçimdə abidə qalıqları son orta əsrlərə aid edilir.

Şəhristanda VII qazıntı sahəsində son orta yüzilliklərə aid qatlar daha yaxşı öyrənilmişdir. Bu sahədə XIV-XV əsrlərə aid inşaat qatı daha zəngindir və qalınlığı 1,5 *m*-ə çatır. Burada dəmirçi emalatxanası aşkarlanıb tədqiq edilmişdir (Г.А.Джидди, 1981, стр. 30-31; 1986, сгр. 419). VII qazıntı sahəsində XVI-XVII əsrlərin su təchizatı və kanalizasiya sistemi ilə bağlı xeyli faktik materiallar aşkarlanmışdır (Г.А.Джидди, 1981, стр. 31).

VIII qazıntı sahəsində isə XIV-XVII əsrlərdə fəaliyyət göstərmiş hamam qalıqları (tablo 111, şək. 2) aşkarlanıb tədqiq edilmişdir (Г.А.Джидди, 1988, стр. 458).



**Şamaxı. VI qazıntıda üst təbəqənin plan və kəsiyi.**

Şamaxı şəhəri ərazisində aparılmış qazıntılar və salamat qalmış memarlıq abidələrinin tədqiqi nəticəsində şəhərin XVI-XVII əsrlər dövrünə aid sxematik planı tərtib olunmuşdur (tablo 110, şək. 1). Həmin planda Şamaxının beş qala qapısından üçünün, bəzi məhəllə və abidələrin yerləşdiyi nöqtələr dəqiqləşdirilmişdir. Qapılardan biri narınqala yaxınlığında, digəri şəhərin qala divarının cənub-şərq hissəsində, üçüncüsü isə cənub divarında yerləşirdi (В.Г.Мурадов, 1984, стр. 45-46, рис. 8). Son orta əsrlərdə də Şamaxı üçpilləli plan quruluşunu qoruyub saxlamışdı və narınqala, şəhristan və rabaddan ibarət idi. Sənətkar emalatxanaları və ticarət cərgələri, böyük bazar şəhərin qala divarlarından bayırda, cənubda cəmləşmişdi (В.Г.Мурадов, 1984, стр. 49).

XIV-XV əsrlərdə Bakı şəhərinin həm siyasi-inzibati mərkəz, həm də liman kimi əhəmiyyəti artmışdı. XIV əsrin əvvəllərində şəhərin sahilboyu, Qız qalası yaxınlığındakı ərazisinin dəniz suları altında qalması faktını arxeoloji dəlillər təsdiqləmişdir. XIV əsrin ortalarından artıq şəhərdə canlanma müşahidə olunurdu. Şəhər həyatının dirçəlməsində Bakının bir çox vergilərdən azad olunması haqqında Sultan Məhəmməd Ulcaytu tərəfindən verilmiş yarlıq böyük təsirə malik olmuşdur. XV əsrdə şəhərin Şirvanşahlar dövlətinin paytaxt şəhərinə çevrilməsi, Şirvanşahların iqamətgahının burada ucaldılması Bakının siyasi, sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərmişdi. İçərişəhərdə arxeoloji qazıntılar mədəni təbəqə

yatımının XIV-XVII yüzilliklərə aid qatlarının zənginliyini, intensiv şəhər həyatının varlığını təsdiqləmişdir. Qalınlığı 1,5 *m-ə* çatan üst təbəqədə XIV-XVII əsrlərə aid bina qalıqları, üstüörtülü kanalizasiya xətləri, kəhriz və tünglərdən quraşdırılmış su kəmərləri, çoxlu təndir və ocaq qalıqları üzə çıxarılmışdır (tablo 112). Binalar daşdan tikilmiş, əsasən düzbucaq biçimlidir. Binaların qarşısındakı kiçik həyətlərdə xeyli məişət obyektləri üzə çıxarılmışdır. Həyətlərin bəziləri yastı, hamar daşlarla səliqə ilə döşənmişdir. Burada müxtəlif ölçülü təndirlərin sıx yerləşməsi onların birinin sıradan çıxdıqdan sonra yerində digərinin düzəldildiyini göstərir. Bəzən eyni zamanda fəaliyyət göstərmiş bir neçə iri ölçülü, divarları naxışlı təndirlərin birlikdə tapılması isə onların çörəkçilik peşəsilə əlaqədar olduğuna dəlalət edir. Həyətlərdə həmçinin ocaqlar, manqallar, təsərrüfat və zibil quyuları da aşkarlanıb təmizlənmişdir (F.İbrahimov, 1999, səh. 79-80). Şirvanşahlar saray kompleksinin (tablo 113) ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində Şirvanşahların saray binasının 52 otaqdan ibarət ikimərtəbəli kompleks olduğu müəyyənləşdirilmiş (В.Н.Левиатов, 1944, 1945, 1946a, 1948, 1948a, 1949; И.П.Щеблыкин, 1939), divanxananın təyinatı, sarayın su təchizatı sistemi aydınlaşdırılmışdır.

1964-1965-ci illərdə Qız qalasının yaxınlığında üzə çıxarılmış üç tərəfdən "П" şəklində sütunlu, sıra tağları olan maraqlı abidənin (tablo 114) təyinatı birmənalı şərh olunmur. Arxeoloqlar onu dini təyinatlı kompleks, memarlar isə bazar adlandırırlar (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1973, səh. 343-355; Л.С.Бретаницкий, 1966, стр. 407). Abidənin daxili həyətində xeyli müsəlman qəbirləri aşkarlanmışdır. Həyətin mərkəzində silindrik formalı quyu, ondan bir qədər aralıda isə üçpilləli kürsülük üzərində hündürlüyü 1,1 *m,* qalınlığı 0,45 *m* olan səkkiztilli sütun vardır. Sütunun yuxarısındakı oyuqda od izləri qalmışdır. Qazıntı zamanı həyətdən üzərində ərəb əlifbası ilə həkk olunmuş yazılar və naxışlar olan çoxlu qəbir daşları da tapılmışdır. Bura adi qəbiristanlıq ola bilməzdi. Şübhəsiz ki, bu abidə mühüm bir dini kompleks olmuş, qəbirlərdə isə, görünür, yüksək rütbəli şəxslər və ruhanilər dəfn edilmişlər. Ola bilsin ki, bu kompleks İmamzadə tipli abidə olmuşdur (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1976, səh. 184-199; С.Б.Гусейнова, 2004, стр. 146).

1990-cı ildə İçərişəhərdə son orta əsrlərə aid təbəqədə sahəsi 12 *kv.m* olan hamam otağı qalığı tədqiq edilmişdir. Onun döşəməsi tava daşlarla döşənmişdi. Döşəmənin mərkəzində suyun axıb getməsi üçün deşiyi olan daş tavanın üzərində səkkizbucaqh naxış vardı (F.İbrahimov və b., 1991, səh. 27).

Tapıntılar əsasən saxsı, şüşə, fayans qab qırıqlarından, metal məmulat, bəzək əşyaları və sikkələrdən ibarətdir. Tapıntılar arasında diametri 85 *sm* olan dəyirman daşı da vardır. Onun mərkəzindəki dəliyin diametri 10 *sm*-dir (tablo 112, şək. 2). Şabran şəhər xarabalıqlarında aparılmış arxeoloji qazıntılar son orta əsrlərdə burada intensiv şəhər həyatının olduğunu təsdiqləyən xeyli faktik materiallar vermişdir. Bunu da qeyd edək ki, Şabran şəhər yerində uzun müddət kənd təsərrüfatı işləri aparıldığından, ərazi fasiləsiz olaraq şumlandığından üst, XVI-XVII yüzilliklərin

inşaat qatı ciddi dağıntıya məruz qalmışdır. Son orta yüzilliklərin mədəni təbəqə yatımı V qazıntı sahəsində nisbətən yaxşı mühafizə olunmuş, burada XVI-XVII yüzilliklərin tikili qalıqlarını və digər maddi mədəniyyət elementlərini tədqiq etmək mümkün olmuşdur. Qazıntılar nəticəsində müəyyən edilmişdir ki, qalınlıgı 1 *m*-ə çatan üst, I inşaat qatında 35-40 *sm* dərinliyə qədər mədəni təbəqə yatımı qarışdırılmışdır. Ondan aşağıya isə toxunulmamışdır. Bu inşaat qatında bünövrəsi çaydaşından olan yaşayış evlərinin və ictimai binaların, istehsalat tikililərinin qalıqları, xırda daşlı qumla döşənmiş küçə tədqiq edilmişdir (tablo 116, şək. 1). Qazıntılar zamanı XVI-XVII yüzilliklərə aid dəmirçilik və zərgərlik məmulatı istehsalı ilə bağlı faktik materialların aşkarlanması xüsusilə mühüm elmi əhəmiyyət kəsb edir.

XIV-XV əsrlərin maddi qalıqlarını əks etdirən, qalınlığı 1 *m*-ə çatan inşaat qatı I, II və V qazıntı sahələrində də tədqiq olunmuşdur. II qazıntı sahəsində üzə çıxarılmış ictimai bina qalıqları diqqətəlayiqdir (tablo 115, şək. 1). Qazıntı zamanı bu inşaat qatından tapılmış maddi mədəniyyət nümunələri arasında mavi və ya firuzəyi şir altından qara və ya şabalıdı rənglə bəzədilmiş saxsı qab nümunələri çoxluq təşkil edir.

V qazıntı sahəsində tədqiq edilmiş XIV-XV əsrlərə aid tikili qalıqları arasında dördkünc biçimli, küncləri yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qüllə qalıqları (tablo 115, şək. 2), yaşayış evlərinin xarabalıqları, lokal xarakterli, tünglərdən quraşdırılmış kanalizasiya xətti, təsərrüfat və zibil quyuları, müxtəlif ölçülü və təyinatlı təndirlər, çoxlu məişət ocaqları, metal emalı və zərgərlik sənəti istehsalının izləri, çaydaşıları və yastı əhəng daşlarla döşənmiş küçə aşkar edilib təmizlənmişdir. Bu dövrün təsərrüfat quyularının divarları zibil quyularından fərqli olaraq bişmiş kərpiclə hörülmüşdür. Diqqəti cəlb edən cəhətlərdən biri də zibil quyularından üçünün, əsasən iribuynuzlu mal-qara və davar sümükləri ilə doldurulmasıdır.

Tapıntılar arasında müxtəlif təyinatlı əmək alətləri, silahlar, saxsı qablar, şüşə və sümük məmulatı üstünlük təşkil edir. Maraqlı tapıntılardan XIV əsrin sonu - XV əsrin əvvəllərinə aid edilən, basmanaxışlı bardaqların istehsalında tətbiq olunmuş qəlibi, sikkə zərbində istifadə olunduğu ehtimal olunan üst ştempelin qırıqlarını göstərmək olar. Tapıntılar arasında Uzaq Şərqlə ticarət əlaqələrinə dəlalət edən Çindən gətirilmə seladon və çini qab qırıqlan da az deyil (T.M.Dostiyev, 2001, səh. 38-41).

Monqol işğalı ilə əlaqədar Dərbənd şəhərinin özü böyük dağıntılara məruz qalmasa da, onun nahiyəsi güclü zərər çəkdi. Şəhərin ticarət-sənətkarlıq mərkəzi kimi əhəmiyyəti xeyli zəifləmiş oldu (А.А.Кудрявцев, А.Р.Шихсаидов, 1979, стр. 140; Г.Г.Гамзатов, 1982а, стр. 71). Şəhər Qızıl Orda xanları ilə Hülakular arasında uzun sürən mübarizənin davam etdiyi bir dövrdə hərbi əməliyyatlar obyektinə

çevrildi. Tərəflərdən hər biri Dərbəndin hərbi-strateji əhəmiyyətini nəzərə alaraq, onu öz nəzarəti altında saxlamağa səy göstərirdi.

Dərbənd şəhəri son orta əsrlərdə ikipilləli plan quruluşunu qoruyub saxlamışdı (tablo 116, şək. 2). Lakin monqol istilasından sonra şəhərdaxili topoqrafiyada xeyli dəyişikliklər baş vermişdi. Şəhərin məskunlaşmış ərazisi nəzərə çarpacaq dərəcədə azalmışdı. Təsadüfi deyildir ki, XIII əsrin ortalarında şəhərdə olmuş G.Rubruk bildirir ki: "Bu şəhərin daxilində əvvəllər torpaq əsil cənnət torpaqları olmuşdur" (Г.Рубрук, 1957, стр. 187).

Əmir Teymurun Qızıl Ordaya yürüşündən sonra Dərbəndin tənəzzülü daha da dərinləşmiş, şəhərin aşağı, dənizkənarı ərazilərini əhali tərk etmişdi. XV əsrin sonunda şəhərdə olmuş A.Kontarini Dərbəndi təsvir edərək bildirir ki, onun ərazisinin yalnız altıda bir hissəsi - narınqala və şəhristanın yuxarı hissəsi məskunlaşdırılmışdır. Şəhristanın aşağı hissəsini əhali tərk etmiş, tikililərin demək olar ki, hamısı dağılmışdı (Путешественники, 1961, стр. 92).

Arxeoloji qazıntılar yazılı qaynaqların məlumatını təsdiqləyərək son orta əsrlərdə yaşayışın əsasən narınqala və onun ətrafında, şəhristanın yuxarı məhəllələrində, narınqaladan Came məscidinə qədərki ərazidə cəmləşdiyini göstərmişdir (Г.Г.Гамзатов, 1982, СТР. 10).

Narınqalada aparılan arxeoloji qazıntılar burada son orta əsrlərdə sıx tikililərin mövcudluğunu, intensiv yaşayışı təsdiqləmişdir. Narınqalanın şimal-qərb hissəsi bu dövrdə həyatın daha gur olması ilə fərqlənirdi (А.А.Кудрявцев, 1981а, стр. 106; Г.Г.Гамзатов, 1982 а, стр. 76).

Narınqalanın cənubunda XV-XVII əsrlərdə mövcud olmuş dəmirçixana üzə çıxarılmışdır (А.А.Кудрявцев, 1981а, стр. 106; Г.Г.Гамзатов, 1982, стр. 10).

Şəhristanda aparılan arxeoloji qazıntılar zamanı müxtəlif ölçülü yaşayış evləri, su təchizatı sisteminin qalıqları üzə çıxarılmış, xeyli miqdarda məişətlə bağlı avadanlıq, silah nümunələri və bəzək əşyaları tapılmışdır (Г.Г.Гамзатов, 1982, стр. 10-11).

Qəbələ şəhəri də son orta yüzilliklərdə sosial-iqtisadi, hərbi-siyasi və mədəni mərkəz kimi özünün əhəmiyyətini saxlamaqda idi. Arxeoloji qazıntılar göstərir ki, XIV-XVIII yüzilliklərdə Qəbələnin Qala, Kamaltəpə və Bayırşəhər sahələrində qaynar həyat davam etmiş, Səlbir və Sənətkarlar məhəlləsində isə həyat sönmüşdür (İ.Əliyev, F.Qədirov, 1985, səh. 19-20).

Qalada IV qazıntı sahəsində son orta əsrlərin təbəqə yatımı tam götürülmüşdür. Orada kvadrat və düzbucaq biçimli tikili qalıqları, müxtəlif təyinatlı təndir və ocaqlar aşkarlanıb təmizlənmişdir. Görünür, meyvə qurudulmasında istifadə edilmiş, diametri 1,6 *m*-dən artıq, divarlarının qalınlığı 5,5-6,5 *sm* olan təndirlərə rast gəlinmişdir. Bu qazıntı sahəsinin şimal tərəfində - şərq-qərb istiqamətində yerləşmiş, keramika və çınqılla döşənmiş küçənin bir hissəsi təmizlənmişdir.

IV qazıntı sahəsi tapıntılarla da zəngin olmuşdur. Buradan müxtəlif təyinatlı metal məmulat, saxsı qab-qacaq, Çindən gətirilmə çini və seladon qab qırıqları, sümükdən qoruyucu üzük, Şamaxıda, Bakıda, Kaşanda, İstanbulda zərb olunmuş sikkələr tapılmışdır (Г.М.Ахмедов, 2003а, стр. 101-104).

Qalanın cənub qapısının qarşısında qoyulmuş V qazıntı sahəsində aşkarlanmış qalıqlar arasında XV yüzilliyə aid edilən metaləritmə kompleksi mühüm elmi əhəmiyyət kəsb edir (Ф.В.Гадиров, 1987, стр. 548).

Qalanın şimal-şərqində VIII qazıntı sahəsində son əsrlərin mədəni təbəqə yatımı 1000 *kv.m*-ə yaxın sahədə öyrənilmiş, iki küçə və onların hər iki tərəfi boyunca yerləşmiş yaşayış evlərinin və istehsalat tikililərinin qalıqları üzə çıxarılmışdır (Г.Дж.Джабиев, С.Б.Гусейнова, 1988, стр. 58-60; 1992, стр. 135-137). Küçələrdən birincisi qazıntı sahəsinin mərkəzində şimal-qərbdən cənub-şərqə istiqamətlənmiş, eni 3,6 *m*-dir (tablo 117, şək. 1). O, 31 *m* uzunluqda təmizlənmişdir. İkinci küçə birinciyə paraleldir. Ondan cənub-qərbdə üzə çıxarılmışdır. Birinci küçə boyunca dulusçular məhəlləsinin yerləşdiyi ehtimal edilir. Belə ki, qazıntı zamanı burada dulusçu emalatxanasının qalıqları aşkarlanıb tədqiq edilmişdir. Orada həmçinin şüşə əridilməsində istifadə olunmuş kürə qalıqları üzə çıxarılmışdır.

Tapıntılar əmək alətləri, silah nümunələri, şirsiz və şirli saxsı məmulat, xeyli miqdarda gətirilmə çini və fayans qab fraqmentləri, muncuqlar, şüşə qab və bilərzik qırıqlarından və sikkələrdən ibarətdir. Otaqların birindən tapılmış dəfinədə Bakıda, Şabranda və Naxçıvanda zərb olunmuş 14 mis sikkə vardır (Г.Дж.Джабиев, С.Б.Гусейнова, 1992, стр. 136-137).

Ümumiyyətlə, Qalada aparılan arxeoloji qazıntılar şəhərdə XVIII əsrin sonlarınadək yaşayışın davam etdiyini təsdiqləmişdir.

Məlumdur ki, XIII əsrin sonu - XIV əsrin əvvəllərində Hülakular sülaləsinin daxili siyasətində şəhərsalma fəaliyyəti mühüm yer tuturdu. Qazan xan geniş quruculuq işləri aparır, beynəlxalq ticarət yollarında şəhərlər və karvansaralar tikdirirdi. Belə şəhərlərdən biri də yazılı qaynaqlarda Mahmudabad adı ilə bəlli olan, Muğan ərazisində, beynəlxalq ticarət xəttində salınmış şəhər idi. Həmin şəhərin xarabalıqları Salyan şəhərindən təxminən 8-10 *km* şimalda, Bakı-Salyan şosesinin 100 *km*-də, sağ tərəfdə, Kür çayının qədim yatağı boyunca yerləşməklə, hündürlüyü 5-7 *m*-ə çatan nəhəng təpə formasındadır. Abidə təxminən 36 hektar sahəni əhatə edir (В.А.Квачидзе, 1980, стр. 36). Yerli əhali şəhər xarabalıqlarını "Qırxçıraq" adlandırır. XIX əsrin sonlarında burada bişmiş kərpicdən tikilmiş yaşayış evlərinin, ictimai binaların, məscidlərin, karvansaraların qalıqları aydın müşahidə olunurmuş və yerli əhali inşaat materialı əldə etmək üçün bura gələrək həmin tikililəri sökürmüşlər (СМОМПК, 1888, вып. 5, стр. 70-71).

Abidənin dağıdılması, mədəni təbəqə yatımının pozulması XX əsrdə də davam etmiş, təsərrüfat işləri nəticəsində mədəni təbəqə yatımının üst qatı dağıdılmışdır.

1988-ci ildə şəhərgahın şimal-qərb kənarında 800 *kv.m* sahədə arxeoloji qazıntı aparılmış, çiy kərpic və kvadrat biçimli bişmiş kərpicdən hörülmüş tikili qalıqları, təndirlər, quyular və kanalizasiya xəttinin qalıqları aşkarlanmışdır (Р.Б.Геюшев, 1992). Dördkünc biçimli, bişmiş kərpicdən inşa olunmuş tikilinin divarlarının qalıqlarının hündürlüyü 0,8-0,9 *m*-ə çatırdı. Tikili 2,75 x 3,1 *m* ölçülü otaqdan, təndirxanadan və iki kiçikölçülü tikilidən ibarət idi (B.M.Abdullayev, R.B.Göyüşov. 1988, səh. 2-5).

2001-ci ildə abidə ərazisində üç qazıntı sahəsində tədqiqat aparılmış, qalınlığı 1,5 *m*-ə çatan mədəni təbəqə yatımı öyrənilmişdir. Qazıntı nəticəsində çaydaşlarından və bişmiş kərpicdən inşa olunmuş tikili qalıqları, diametri 90-100 *sm* olan təndir qalıqları üzə çıxarılmışdır (N.Ə.Müseyibov, 2002, səh. 46-47).

Qırxçıraqdan əldə olunmuş arxeoloji materiallar əsasən əmək alətlərindən, metal məmulatdan, şirli və şirsiz saxsı qab-qacaqdan, gətirilmə fayans və çini qabların qırıqlarından, bəzək əşyalarından ibarətdir. Abidədən tapılmış sikkələr XIII-XVII əsrləri əhatə etsə də, XIV-XV əsrlərin mis sikkələri tam üstünlük təşkil edir. 2001-ci il qazıntıları zamanı tapılmış 11 mis sikkənin hamısı XV əsrin əvvəllərində zərb olunmuşdu (N.Ə.Müseyibov, 2002, səh. 47).

Bölgənin arxeoloji materiallarının müqayisəli öyrənilməsi nəticəsində belə qənaətə gəlmək olar ki, XIII əsrdə Qırxçıraqda kiçik bir yaşayış məntəqəsi olmuşdur. XIV əsrin başlanğıcında Xəzər dənizinin səviyyəsinin qalxması ilə əlaqədar Bəndovan şəhər yerini su basmış, sahil xətti Qırxçırağa yaxınlaşmışdı. Bu hadisədən sonra Şirvanın mühüm vilayətlərindən olan Guştəsvinin inzibati mərkəzi xarabalıqları Qırxçıraqla eyniləşdirilən Mahmudabada köçürülmüşdür. Şəhər sürətlə inkişaf edərək XIV-XV əsrlərdə vilayətin başlıca inzibati, sənətkarlıq-ticarət və mədəni mərkəzinə çevrilmişdir (В.А.Квачидзе, 1980, стр. 40).

Ağsu şəhərindən 7 *km* cənubda, Ağsu rayonunun Ülgüc kəndi yaxınlığında qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmiş Xarabaşəhər şəhərgahının düzbucaqlı plan quruluşu vardır. Sahəsi 34 hektar olan bu şəhər yeri eni 20-25 *m*, dərinliyi 7-8 *m* olan müdafiə xəndəyi və 2400 *m* məsafədə izlənən qala divarları ilə əhatə olunmuşdur. Cənub tərəfdə xəndəyin eni 40 *m*-ə çatır. Şəhərgahın cənub-şərq və cənub-qərb künclərində hər birinin diametri təqribən 20 *m*, hündürlüyü 10 *m* olan iki süni təpə yerləşir. Həmin təpələrin şəhər istehkamları ilə bağlı olması ehtimal edilir (F.Osmanov, 2006, səh. 90).

Şəhər yerində mikrorelyef pozulmadığından onun ərazisində müxtəlif təyinatlı tikililərin və istehsalat ocaqlarının qalıqları izlənilir. Abidənin mərkəz hissəsində uzunluğu 48 *m*, eni 15 *m*, dərinliyi 8-10 *m* olan və yerli əhali tərəfindən "hamam yeri" adlandırılan çökəklik vardır. Abidənin ərazisində yonulmuş daşlara və bişmiş kərpic nümunələrinə rast gəlinməsi şəhər memarlığında başlıca olaraq inşaat materialı kimi yonulmuş daş və bişmiş kərpicdən istifadə edildiyinə dəlalət edir. İstehsal tullantıları və ərazinin vizual müşahidələri şəhər yerinin şimal-şərq

hissəsində dulusçular məhəlləsinin yerləşdiyini ehtimal etməyə imkan verir (F.Osmanov, 2006, səh. 90).

Mədəni təbəqənin xarakterini müəyyənləşdirmək üçün abidənin şimal-qərbində 10 *kv.m* sahədə yoxlama qazıntısı aparılmış, mədəni təbəqə yatımı 1,4 *m* dərinliyə qədər izlənilmişdir. Qazıntı nəticəsində səliqə ilə yonulmuş çaydaşından adi palçıqla hörülmüş tikili qalığı və quyu aşkarlanıb təmizlənmişdir. Tikilinin bünövrəsi və divar hörgüsünün yalnız dörd cərgəsi salamat qalmışdı. Döşəmə torpaqdan idi.

Yoxlama qazıntılarından əldə edilən və abidənin ərazisindən toplanan yerüstü arxeoloji materiallar şirsiz və şirli saxsı, fayans və çini qab qırıqlarından, XV-XVIII əsrlərdə zərb olunmuş sikkələrdən ibarətdir (F.Osmanov, 2006, səh. 106-108).

Ağsu rayonundakı Xarabaşəhər abidəsində aparılmış kəşfiyyat xarakterli ilkin tədqiqatların yekunları orada XVII-XVIII əsrlərdə gur şəhər həyatının olduğunu göstərir (F.Osmanov, 2006, səh. 90-92, 106-108; Г.Дж.Джабиев, 1985, стр. 484; Q.C.Cəbiyev, 2003, səh. 19).

Ərəş şəhərini yazılı qaynaqlar ipəkçiliyin mühüm mərkəzi kimi səciyyələndirirlər (Azərbaycan tarixi, 1999, səh. 227). Ərəş şəhər xarabalıqları hazırkı Yevlax rayonunun Xaldan kəndindən təxminən 1 *km* cənubda, Əlicaçayın sahilində, Bozdağın ətəyində yerləşir. Keçən əsrin ortalarınadək şəhər xarabalıqlarında onun qala divarlarının qalıqları vizual müşahidə olunurmuş (A.M.Məmmədov və b., 2007). Sahəsi 10 hektara çatan bu şəhər yerində son orta əsrlər üçün səciyyəvi sayılan zəngin yerüstü arxeoloji materiallar vardır (A.B.Nuriyev, 2002, səh. 73-75).

Yuxarıda qeyd olunduğu kimi, monqol işğalının nəticələri Arranda, Qarabağda şəhər həyatına daha ağır zərbə vurmuşdu.

Gəncə şəhəri son orta əsrlərdə də Arranın ən böyük şəhəri olaraq qalmaqda idi. Hələ 1938-1940-cı illərdə aparılmış arxeoloji qazıntılar nəticəsində XIIl-XVI yüzilliklərin mədəni təbəqə yatımı tədqiq edilmiş, bu dövrə aid olunan 784 sikkə tapılmışdır (И.Джафарзаде, 1949). 1981-1982-ci illərdə aparılan arxeoloji tədqiqatlar zamanı şəhərin sol sahil hissəsində mədəni təbəqənin qalınlığının 1,9 *m* olduğu müəyyən edilmişdir. Üzə çıxarılmış tikili qalıqları iri çaydaşılarından və bişmiş kərpicdən adi palçıq və gəclə hörülmüşdür. Divarların qalınlığı 1,2-1,3 *m* təşkil edir. Divarların inşasında ənənəvi olaraq "cınağı" və "Gəncə hörgüsü" tətbiq olunmuşdur. Qazıntı sahəsinin müxtəlif yerlərində çaydaşından döşəmələr, təsərrüfat quyuları, təndir qalıqları aşkarlanmışdır.

Tapıntılar əsasən şirsiz və şirli saxsı qab qırıqlarından, fayans və çini qab parçalarından, metal məmulatı, şüşə qab və bilərzik qırıqlarından ibarətdir (ДЖ.А.ХАЛИЛОВ., 1990, стр. 43-45).

Bakı-Gəncə dəmir yolundan cənubda, III qazıntı sahəsində aparılmış tədqiqatlar burada mədəni təbəqə yatımının 4 *m*-dən artıq olduğunu göstərmişdir.

Qazıntı nəticəsində iriölçülü çaydaşılarından hörülmüş tikili qalıqları və diametri 0,8 *m* olan su dəyirmanı daşı üzə çıxarılmışdır. Tapıntılar əsasən şirli və şirsiz saxsı qab qırıqlarından, metal məmulatdan, daş və sümük əşyalardan, mis sikkələrdən ibarətdir.

Arxeoloji qazıntıların yekunlarının təhlili əsasında Gəncəçayın sol sahilində yaşayışın XII əsrdən, yəni 1139-cu il zəlzələsindən sonra başladığı və XVI əsrin sonunadək burada intensiv həyatın mövcudluğu təsdiqlənmişdir (ДЖ.А.ХАЛИЛОВ, 1986, стр. 104; ДЖ.А.ХАЛИЛОВ И ДР., 1990, стр. 47).

1986-1988-ci illərdə orta əsr Gəncə şəhər xarabalıqlarının cənub-qərb sektorunda arxeoloji qazıntılar zamanı 1 *m* dərinlikdə, ictimai təyinatlı iri bina qalıqları tədqiq olunmuşdur (tablo 118, şək. 1). Onun divarlarının qalınlığı 1,1 *m*-ə çatırdı. Qazıntı sahəsindən uçmuş günbəzin qalıqlarının tapılması həmin tikilinin günbəzli olduğunu ehtimal etməyə əsas yaratmışdır (Р.Дж.Ахмедов, 1988, стр. 71-72).

Bütövlükdə, arxeoloji qazıntılar son orta əsrlərdə Gəncədə şəhərin bərpası və gur həyatın mövcudluğunu təsdiqləməklə bəhs olunan dövrün maddi mədəniyyətinə dair qiymətli faktik materiallar vermişdir.

Yazılı qaynaqlardan bəlli olur ki, monqol işğalı zamanı dağıntılara məruz qalmış şəhərlər arasında Bərdə şəhəri də var idi. Şəhər yerində arxeoloji qazıntılar zamanı XIII-XIV əsrlər təbəqəsində yaşayış evlərinin qalıqları, tünglərdən quraşdırılmış su kəmərləri, müxtəlif təyinatlı böyük və kiçik təndirlər üzə çıxarılmış, təsərrüfat və məişətdə işlədilmiş metal, saxsı, şüşə, daş və s. məmulat tapılmışdır (А.Б.Нуриев, 1985, стр. 282).

Şərifan şəhər yeri Həkəri çayının sağ sahilində, onun Araz çayına töküldüyü yerin yaxınlığında, Zəngilan rayonunun Şərifan kəndindən şimal-qərbdə yerləşir. Düzbucaqlıya yaxın plan quruluşuna malik şəhər yeri təxminən 9 hektar sahəni əhatə edir. Şəhər xarabalıqları bir tərəfdən dağla, digər tərəfdən isə çay ilə hüdudlanır. Abidənin ərazisinin şimal-qərb sərhədində, təpə üzərində XIV əsrə aid türbənin qalıqları vardır.

1974-cü ildə Şərifan şəhər yerinin mərkəzində iki sahədə aparılan arxeoloji qazıntılar orada mədəni təbəqə yatımının qalınlığının 3 *m*-ə çatdığını göstərmişdir. Üzə çıxarılan tikili qalıqları arasında bişmiş kərpicdən inşa olunmuş hamam kompleksi (tablo 118, şək. 2-3) diqqətəlayiqdir (Р.Б.Геюшев и др.,1975, стр. 468).

1979-cu ildə şəhər yerində daha iki sahədə geniş qazıntılar aparılmış və abidə ərazisində 6 yerdə yoxlama qazıntıları qoyulmuşdur. Şimal yamacda 144 *kv.m*-lik ərazini əhatə edən, şərti olaraq III qazıntı adlanan sahədə mədəni təbəqə yatımının qalınlığının 2-2,75 *m* olduğu müəyyənləşdirilmişdir (Г.М.Ахмедов,Р.Дж.Ахмедов, 1984, стр. 58). Aparılmış qazıntılar nəticəsində yaşayış evlərinin bünövrələri, çəltik anbarı, təndirlər və külli miqdarda məişət əşyaları aşkara çıxarılmış, metalişləmə istehsalı ilə bağlı qalıqlar qeydə alınmışdır. Tapıntılar əsasən saxsı qab qırıqları, İran

və Çindən gətirilmə fayans və seladon qab parçaları, şüşə məmulat və bir neçə sikkədən ibarətdir.

Arxeoloji materiallar XIII-XVII yüzilliklər üçün səciyyəvi olduğundan Şərifan şəhər yeri də həmin dövrə aid edilir.

Qala divarları ilə möhkəmləndirilmiş kiçik şəhərtipli yaşayış məskəninin xarabalıqları Masallı rayonunun Ərkivan kəndində, Vilyan çayı sahilində qeydə alınmışdır. Şəhərgah 10 hektardan artıq sahəni tutur.

Yarımdairəvi bürclər və kontforslarla möhkəmləndirilmiş qala divarlarının bünövrəsi çaydaşılarından, divarların özü isə bişmiş kərpicdən hörülmüşdür. Yerüstü arxeoloji materiallar əsasında Ərkivan şəhərgahı XIII-XV əsrlərə aid edilir (К.О.Кошкарлы, 1992, стр. 125).

Monqol işğalının nəticələri Naxçıvan və Kiran şəhərləri üçün də çox ağır oldu. XIII əsrin ortalarında Naxçıvanda olmuş flamand rahibi Gilyom de Vilhelm de Rubruk onun tamamilə dağılmış olduğunu bildirmişdir (Г.Рубрук, 1957).

Qazan xanın islahatlarından sonra şəhərdə müəyyən canlanma olsa da, Çobani və Cəlairi əmirləri arasındakı çəkişmələr, daha sonra Toxtamış xanın və Əmir Teymurun yürüşləri Naxçıvan şəhərinin inkişafına mənfi təsir göstərmiş və beləliklə, şəhər tədricən öz əvvəlki mövqelərini itirmişdir. XVII əsrdə Naxçıvanda olmuş fransız taciri Şarden yazırdı ki, "Naxçıvan dağılmış böyük şəhərdir, onu tədricən bərpa və məskun olunan xarabalar yığını adlandırmaq olar" (Шарден, 1902).

Yuxarıda qeyd olunduğu kimi, Naxçıvan şəhərində Mömünə xatın türbəsi yaxınlığında aparılmış arxeoloji qazıntılar zamanı mədəni təbəqənin üçüncü, üst qatı şəhərin son orta əsrlərdə inkişafını izləməyə imkan vermişdir. Qazıntı nəticəsində burada son orta əsrlərə aid daşdan və bişmiş kərpicdən inşa olunmuş tikili qalıqları aşkarlanmışdır. Daşdan tikilmiş evin döşəməsində bişmiş kərpiclər böyrü üstə, bir növ rombvari şəkildə düzülmüşdür. Son orta əsrlərə aid su quyusu planda dairəvi olub divarları çaydaşı ilə hörülmüşdür. Quyunun ağzında qarşı-qarşıya qoyulmuş tüng və onların altında dəmirdən dördqanadlı çərçivə aşkarlanmışdır (R.B.Göyüşov, R.A.Məmmədov, 1980, səh. 120).

Mədəni təbəqənin üst qatından şirli və şirsiz saxsı və çini qab qırıqları, metal məmulat tapılmışdır. Şirli qablardan birinin içərisində maral təsviri çəkilmişdir (R.B.Göyüşov, R.A.Məmmədov, 1980, səh. 127-128).

Naxçıvan şəhər yerində 1983-1991-ci illərdə aparılmış qazıntılar mədəni təbəqə yatımının son orta əsrlər qatında yaşayış evləri, metal emalı, dulusçuluqla bağlı emalatxana qalıqlarının aşkarlanıb öyrənilməsinə imkan vermişdir. Məlum olduğu kimi, şəhərin qala divarları ilə müdafiə olunan hissəsi hazırda xalq arasında Köhnə qala adı ilə məşhurdur. Köhnə qala Kiçik qala və Böyük qala olmaqla iki hissədən ibarətdir (tablo 119, şək. 1). Arxeoloji qazıntılar zamanı Böyük qalada bişmiş kərpicdən inşa olunmuş yaşayış

evlərinin qalıqları, Kiçik qalada isə dulusçu emalatxanası aşkarlanmışdır (A.Q.Seyidov və b., 1995, səh. 11-16).

Kiçik qaladan 1 *km* cənub-qərbdə aparılmış arxeoloji qazıntılar zamanı sənətkar məhəlləsi üzə çıxarılmışdır.

Keçən əsrin 70-80-ci illərində Xaraba-Gilan abidəsində aparılan arxeoloji qazıntılar, xüsusilə şəhərgahın şərqində, şəhristanın II məhəlləsində, II qazıntı sahəsində tədqiqatlar Kiran şəhərinin XIII-XIV əsrlərdəki sosial-iqtisadi və mədəni inkişafını izləmək, həmin çağda şəhər tikililərinin xarakterini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir (Б.И.Ибрагимов,В.И.Керимов, 1980, стр. 41-43). Qazıntılar monqol hücumunun dağıdıcı nəticələrini qabarıq göstərir. V məhəllə xüsusilə güclü dağıntıya məruz qalmış, onun tikililəri bünövrəyə qədər uçulmuş, qalıqların üzəri daş qalaqları ilə örtülmüşdür (Б.И.Ибрагимов, 2000, стр. 33).

1983-1984-cü illərdə qazılmış, 28 otaqdan ibarət, XII əsrin sonunda tikilmiş karvansara kompleksi XIII əsrin əvvəllərində monqollar tərəfindən dağıdılaraq yandırılmışdı. Lakin sonralar karvansara bərpa olunmuş və XIV əsrin sonunadək fəaliyyət göstərmişdir (Б.И.Ибрагимов, 1985, стр. 153).

Şəhər xarabalıqlarının tədqiqi yaşayış evlərinin və ictimai binaların əvvəlki tək iri daş bloklardan və bişmiş kərpicdən inşa olunduğunu göstərir. XII əsrdən tətbiq olunan divarlara üzlük və ya suvaq çəkilməsi ənənəsi XIII-XIV əsrlərdə də davam etməkdə idi.

Kiran şəhəri süqut etdikdən sonra Aza şəhəri dirçəlmiş və vilayətin iqtisadi və mədəni mərkəzinə çevrilmişdi. Yazılı qaynaqda Aza şəhəri haqqında qeyd edilir ki, "Kiçik bir şəhərdir. Taxıl, pambıq, üzüm məhsullarının bol olması ilə şöhrət qazanmışdır. Buradakı şərab məşhurdur..." (Х.Казвини, 1983, 51). Aza şəhər xarabalıqları Ordubad rayonunda, Gilançayın Araz çayına qovuşduğu yerdə yerləşir. Təkminarəli Came məscidi XIX əsrdə Xanıkov tərəfindən qeydə alınmışdır. Şəhərin qəbiristanlığı Gilançayın sağ sahilində yerləşir (B.İ.İbrahimov, 1989). Şəhər xarabalıqlarının bir hissəsinin üzərində müasir Der kəndi salınmışdır.

Astabad şəhər xarabalıqları Naxçıvan şəhərindən təxminən 15 *km* cənub-şərq tərəfdə, Araz çayının sol sahilindəki düzənlikdə yerləşir. Şəhər qala divarları ilə möhkəmləndirilmiş, ətrafında müdafiə xəndəyi qazılmışdır. Şəhər yerində 225 *kv.m* sahədə aparılmış arxeoloji qazıntılar burada mədəni təbəqə yatımının qalınlığının 11,4 *m*-ə çatdığını göstərmişdir.

Şəhər qalası planda çoxbucaqlı olub, altı bürclə möhkəmləndirilmişdir (tablo 119, şək. 2). Astabadın fərqləndirici xüsusiyyəti tikililərin qala divarı ilə birləşməsidir. Yəni qala divarları, eyni zamanda tikililərin divarlarından birini təşkil edirdi (O.H.Həbibullayev, F.V.Qədirov, 1993, səh. 108). Bina qalıqlarının əksəriyyəti düzbucaq biçimlidir. Evlərin divarları möhrədən, çiy kərpicdən və daşdan tikilmişdir. Az miqdarda bişmiş kərpiclə hörülmüş tikililərə də təsadüf olunmuşdur. Arxeoloji qazıntı zamanı 8 təndir qalığı, çoxlu ocaq yerləri üzə çıxarılmışdır. Təndirlər çörək bişirmək üçün olub diametrləri 0,6-0,8 *m*-dir. Onların

hamısının tüngdən külbəsi vardır. Qazıntı zamanı mədəni təbəqədən xeyli miqdarda şirsiz və şirli saxsı qab nümunələri, metal məmulat, mis sikkələr və s. maddi mədəniyyət qalıqları tapılmışdır.

Ümumiyyətlə, qazıntı zamanı əldə olunan arxeoloji materialların müqayisəli təhlili, eləcə də numizmatik materiallar Astabad şəhər yerində XIV-XVIII əsrlərdə intensiv həyat olduğunu müəyyənləşdirməyə imkan vermişdir (O.H.Həbibullayev, F.V.Qədirov, 1993, səh. 103-120).

Naxçıvan Muxtar Respublikasında Araz çayının sol sahilində yerləşən Xaraba şəhər yazılı mənbələrdə adı çəkilən Qaraçuq yaşayış məntəqəsi ilə eyniləşdirilir (Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002, səh. 69). Abidə şimaldan Qaraçuq kəndi, şərqdən Bulqan, qərbdən "Göl yeri" adlandırılan böyük çökəklik, cənubdan isə Araz çayı və Cənubi Azərbaycanın Qızılqışlaq kəndi ilə həmsərhəddir. Şəhər xarabalıqlarının mikrorelyefi yaxşı mühafizə olunmuş, tikinti qalıqlarını aydın müşahidə etmək olur. Arxeoloji qazıntı və yoxlama işləri abidənin altı sahəsində görülmüşdür (A.B.Nuriev, 1970, 1971). Qazıntılar şəhərin möhrədən inşa olunmuş qala divarları ilə müdafiə olunduğunu göstərmişdir (Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002, səh. 68). Şəhər yerinin hündür hissəsində aparılmış arxeoloji qazıntı zamanı 30-85 *sm* dərinlikdə yaşayış evinin qalıqları aşkarlanıb tədqiq edilmişdir.

Arxeoloji qazıntılar nəticəsində Xaraba şəhərdə dəmirçilik, dulusçuluq və digər sənət sahələri ilə bağlı emalatxana qalıqları və faktiki materiallar aşkarlanmışdır.

Xaraba şəhərdə aparılan arxeoloji tədqiqatlar burada XIII əsrdən başlayaraq dörd-beş əsr ərzində fasiləsiz yaşayış olduğunu müəyyənləşdirməyə imkan vermişdir. Şəhərdə həyatın kəsilməsi Araz çayının daşqınları ilə bağlı olmuş, əvvəlcə sahilboyu sahədə, sonra isə hündür ərazilərdə həyat sönmüşdür (Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002).

Monqol ağalığı dövründə Cənubi Azərbaycanda urbanizasiya prosesi özünün növbəti inkişaf mərhələsini keçirirdi. Düzdür, Şirvanda, Arran və Qarabağda olduğu kimi, Cənubi Azərbaycanda da monqol yürüşlərinin nəticəsi olaraq bir sıra şəhərlər - Kağızkonan, Unar, Bəcrəvan, Bərdic və s. qarət və dağıntılardan bir daha özünə gələ bilməyib tam tənəzzül edir. Yazılı qaynaqlardan bəlli olur ki, kağız istehsalı üzrə ixtisaslaşmış Kağızkonan XIII əsrin sonu - XIV əsrin əvvəllərində böyük kəndə çevrilmiş, sakinləri artıq, əsasən, əkinçiliklə məşğul olurdu (M.X.Гейдаров, 1982, стр. 72). Marağa, Urmiya, Xoy, Salmas, Sərab şəhərlərində monqol yürüşlərinin nəticələri aradan qaldırılandan sonra yenidən dirçəliş müşahidə olunurdu. Bu zaman Təbriz şəhəri nəinki Azərbaycanın, bütövlükdə isə bütün müsəlman Şərqinin nəhəng şəhərlərindən sayılırdı.

XII-XVI əsrlərdə Azərbaycan feodal dövlətlərinin paytaxtı olmuş Təbriz şəhən son orta əsrlərdə təzadlı tale yaşamış, coşqun inkişaf və sürətli yüksəliş, amansız dağıntılar və böyük qırğınların şahidi olmuşdur. Böyük gəlir, sərvət əldə

etmək ümidi ilə bu şəhərə həm özləri ilə rahatlıq və zənginlik gətirən saysız-hesabsız karvanlar, həm də qan tökən, od püskürən, qətl-qarətlər törədən ordular can atırdılar. Hülakular dövlətinin paytaxtı olması, əlverişli mövqeyi Təbriz şəhərinin ərazisinin genişlənməsini, əhalisinin artmasını şərtləndirmişdi. XIV əsrin əvvəllərində bu şəhərin qala divarlarının uzunluğu 25000 addım, qala divarları içərisindəki sahəsi 3600 hektar təşkil edirdi (М.Х.Гейдаров, 1982, стр. 76). Vəzir Fəzlullah Rəşidəddin Bağdad şəhərinin monqollar tərəfindən alınıb dağıdılmasından sonra Təbrizin müsəlman Şərqinin ən böyük şəhərinə çevrilməsi, Bağdadın şöhrətinin bu şəhərə keçməsi üçün şəhərsalma fəaliyyətində yaxından iştirak edirdi



**Təbriz. Rəbi Rəşidi. 2007-ci il qazıntısından görünüş.**

(B.Omrani, H.E.Səngəri, 1385, səh. 74). Təbrizin Hülakular ulusunun paytaxtı kimi əlverişli mövqeyi burada XIII əsrin sonundan başlayaraq şəhərsalma fəaliyyətinin geniş vüsət almasını şərtləndirmiş, Qazan xan bu sahədə xüsusi ilə fərqlənmişdir. O, çoxlu məscid, mədrəsə, xanəgah, hamam və digər xeyriyyə binaları tikdirmiş, Ucan, Əhər, Şirvan, Sərdrud, Şam, Sərabrud adlı şəhər darvazaları, onların önündə isə karvansara, hamam, karxana və digər binalar inşa etdirmişdi. Bu dövrdə şəhərin qərbində "Rəbi Rəşidi" və "Şəhristani Rəşidi" adlanan məhəllələr salınmışdı (tablo 120, şək. 1).

Rəbi Rəşidinin şəhər qala divarlarından kənarda salınmasını şərtləndirən amillər sırasında hicri 671-ci ildə (1272/1273) Təbrizdə güclü zəlzələ nəticəsində şəhər tikililərinin bir qisminin zərər çəkməsi almışdır. Vəzir Fəzlullah Rəşidəddinin

şəhərin sənətkarlıq, ticarət və mədəni mərkəz kimi mövqelərini möhkəmləndirmək, zəlzələnin nəticələrini heçə endirmək məqsədi qeyd olunur. Xatırladaq ki, Qazan xan islahatından sonra Elxani əmirləri şəhərsalmada fəal iştirak edir, bir-birilə rəqabət aparırdılar (B.Omrani, H.E.Səngəri, 1385, səh. 72). Hazırda Rəbi Rəşididə keçmiş təmtəraqlı şəhər tikililərindən yalnız təpəliklər şəklində qalıqlar mühafizə olunmuşdur. Qalıqlar arasında dairəvi tikili (tablo 120, şək. 4) daha qabarıq bilinir. V.Klays onun türbə qalıqları olduğu ehtimalını irəli sürmüşdür (W Kleiss, 1969, 76, abl. 81). L.Z.Ruhəngizin rəhbərliyi ilə dairəvi tikilidə son illərdə aparılan qazıntılar bu fikri təsdiqləyən dəlillər verməmişdir. Buradakı istehkam qalıqlarının isə (tablo 120, şək. 2) Səfəvilər dövrünə mənsubluğu, Şah Abbasın sərəncamı ilə inşa olunması haqqında fikirlər mövcuddur (B.Omrani, H.Səngəri, 1385, səh. 72-74).

Arxeoloji tədqiqatlarla Rəbi Rəşidinin sərhədləri müəyyənləşdirilmişdir. Rəbi Rəşidi arxeoloji kompleksi şimaldan Surxab dağ, şərqdən Bağmeşə, qərbdən Şeşgilan məhəlləsi və cənubdan Mehranrudla sərhədlənir. Rəbi Rəşidi dörd hissədən - Rəbb, Rəbəz, Şəhristan və Bağlardan ibarət idi (L.Rouhangiz, 1384). Qazıntılar zamanı burada Qacarlar, Səfəvilər və Elxanilər dövrlərinə aid olmaqla üç mədəni təbəqənin varlığı müəyyənləşdirilmişdir. Elxanilər dövrünə aid mədəni təbəqə daha zəngin olması ilə fərqlənir. Bu təbəqədən altda xam torpağın qeydə alınması Təbrizin bu hissəsində məskunlaşmanın Elxanilər dövründən başladığına dəlalət edir.

Yazılı qaynaqlarda Təbrizin bir sıra məhəllələrinin, o cümlədən Vicuyə, Sənçapan, Şeşgilan, Surxab, Pole Səngi, Mahad-Mahin, Dərbi-Sərd, Dərbi-Növbər, Çərəndab, Dərbi-əla (Alaqapı), Leylana, Şotorban, Keçil, Qazərəan, Xiyaban, Rey, Cahar-Minar və Hökmabad məhəllələrinin adları çəkilir (S.M.Onullahi, 1982, səh. 76-78). Təbrizin Sahibabad adlanan baş meydanı orta çağın ən böyük meydanlarından olub, ölçüləri 510x165 *m* olan İsfahan meydanından xeyli böyük idi. Həmin meydan Meydançayın sağ sahilindəki Nəsriyyə, Həşt-behişt və bazar komplekslərinin kompozisiya qovşağı idi (V.Muradov, 1983, səh. 79).

Təxti-Süleymanda aparılmış arxeoloji qazıntılar nəticəsində monqol ağalığı dövründə buradan yay iqamətgahı kimi istifadə edilməsini sübuta yetirən faktik materiallar əldə olunmuşdur (tablo 121). Abaqa xanın hakimiyyəti dövründə (1265-1281) şəhərdə həyat yenidən canlanmış, geniş quruculuq işləri aparılmışdır. Arxeoloji qazıntılar zamanı Ovçu və ya Yay qəsri adlanan bütöv bir kompleksin qalıqları üzə çıxarılıb təmizlənmişdir (Naumann, 1976). Bu dövrdə yaşayış məskəni Saturiq adını daşımışdır. Lakin burada intensiv həyat uzun çəkməmiş, artıq XIV əsrdə öz əvvəlki əhəmiyyətini itirərək tədricən tənəzzül etmişdir. Sonradan yaxınlıqda salınmış kəndin əhalisi tikililəri sökərək inşaat materiallarını aparmaqla yay iqamətgahının dağılması prosesini sürətləndirmişdilər (Naumann, 1976).

Arxeoloji tədqiqatlar Ərdəbil şəhərində son orta əsrlərdə intensiv yaşayışın olduğunu, artıq Elxainilər dövründən quruculuq işlərinin aparıldığını, Səfəvilər dövründə onun inkişafına diqqətin daha da artırıldığını təsdiqləyir (H.Ş.Şiran, 1383).

Son orta əsrlərdə kiçik şəhər əlamətləri olan iri yaşayış məskənləri ölkənin müxtəlif bölgələrində mövcud idi. Naxçıvan MR Culfa bölgəsində qeydə alınmış Cuğa yaşayış yerini bu tip abidələr sırasına daxil etmək olar. Yaşayış yeri Cuğa kəndindən şimal-qərbdə, Araz çayının sol sahilində, ərazinin relyefinə uyğun olaraq ensiz zolaq şəklində qərbdən-şərqə uzanır. Tikililər dağılmış, abidənin ərazisinə inşaat materialları səpələnmişdir. Bişmiş kərpic qırıqları xüsusilə çoxdur. Tapıntılar əsasən şirsiz və şirli saxsı qab qırıqları, fayans qab nümunələrindən ibarətdir. Yaşayış yerinin qərb kənarında sahəsi 5 hektara çatan qədim müsəlman qəbiristanlığı yerləşir.

İlkin tədqiqatlar burada yaşayış məskəninin XI əsrdə salındığını və fasiləsiz olaraq yaşayışın XVII əsrə qədər davam etdiyini, son orta əsrlərdə isə gur həyatın olduğunu söyləməyə imkan verir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 96-98).

Şahbuz rayonunun ərazisində, Şahbuzkənd yaxınlığında yerləşən Köhnəqala yaşayış yerini də kiçik şəhərtipli yaşayış yerləri siyahısına daxil etmək olar. Sahəsi 10 hektardan artıq olan bu yaşayış yeri əlverişli coğrafi mövqeyə malik olub, hər tərəfdən təbii maneələrlə - sıldırım qayalarla qorunurdu. Abidənin cənub-şərq hissəsində isə 150 *m* məsafədə daşdan hörülmüş divarın qalıqları izlənilmişdir. İlkin tədqiqat işləri nəticəsində toplanmış yerüstü arxeoloji materiallar əmək alətlərindən, şirli və şirsiz saxsı qab qırıqlarından, şüşə qab parçalarından ibarətdir. Arxeoloji materialların təhlili Köhnəqala yaşayış yerinin XIV-XVIII əsrlərə mənsubluğunu göstərir.

Şimal-Şərqi Azərbaycanda bəzi şəhər əlamətləri daşıyan iri yaşayış yerlərinin sayı son orta əsrlərdə xeyli azalır. Belə abidələrdən Quba-Xaçmaz bölgəsində II Şəhərgah, Canaxır və Qalaça yaşayış yerlərini göstərmək olar.

XIV-XV əsrlərdə Canaxır yaşayış məskənində yaşayış yalnız Orta təpədə davam etmişdir. Sahəsi 7 hektar, hündürlüyü 11-13 *m* olan bu təpənin cənub-şərq kənarında 1992-ci ildə 75 *kv.m* sahədə aparılan stratiqrafik qazıntı burada üç mədəni təbəqənin (antik, erkən orta əsrlər və XIII-XV əsrlər) olduğunu sübuta yetirmişdir. Abidənin bu hissəsində qalınlığı 1,3 *m*-ə çatan üst mədəni təbəqədə döşəmə, təndir və ocaq qalıqları aşkar edilib təmizlənmiş, xeyli miqdarda şirli və şirsiz saxsı qab qırıqları, sümük və daş alətlər tapılmışdır.

1993-cü ildə yaşayış yerinin şimal-şərq kənarında 125 *kv.m* sahədə XIII-XV əsrlərə aid mədəni təbəqə öyrənilmiş, burada bünövrəsi çaydaşından, divarları çiy kərpicdən hörülmüş yaşayış evlərinin qalıqları, təndirlər, 7 təsərrüfat quyusu, dəmirçixana qalıqları, məişət ocaqları aşkarlanaraq tədqiq edilmişdir. Əldə olunmuş arxeoloji materiallar, əsasən, şirli və şirsiz saxsı qab qırıqlarından, dəmir və daş alətlərdən, silah nümunələrindən, şüşə qab qırıqlarından, bəzək əşyalarından ibarətdir (T.M.Dostiyev, 2001, səh. 49-52).

Canaxır yaşayış yerlərindən fərqli olaraq Qalaça yaşayış yeri dağlıq zonada, Quba rayonunun Xaltan kəndindən 3 *km* cənub-qərbdə yerləşir. Yaşayış yeri təbii

maneələrlə cənubdan və şərqdən Xarmidarçay, qərbdən isə dağ silsiləsi ilə qorunur. Hündürlüyü 2-9 *m*, uzunluğu 2-5 *km*, eni 200 *m* olan təpə planda düzbucaq formasındadır. Yaşayış yerinin ərazisi 25x25x5,5 *sm*, 23x23x5 *sm* ölçülü bişmiş kərpic qırıqları ilə zəngindir. Bütöv kərpiclərə də təsadüf olunur. Kəşfiyyat xarakterli tədqiqatlar Qalaça yaşayış yerini XIV-XVI əsrlərə aid etməyə əsas verir (Дж.А.Халилов,К.О.Кошкарлы, Р.Б.Аразова, 1991, стр. 38).

**Şəhər istehkamları.** Əvvəlki dövrlərdə olduğu kimi, son orta əsrlərdə də istehkam tikililərinin ucaldılmasına, şəhərlərin etibarlı müdafiə sisteminin yaradılmasına böyük əhəmiyyət verilirdi. Aparılan arxeoloji tədqiqatlar monqol ağalığı və sonrakı dövrlərdə şəhər istehkamlarının bərpası və yenidən qurulması ilə bağlı xeyli faktik materiallar vermişdir. XVIII əsr rus rəssamı Sergeyevin çəkdiyi mənzərə rəsmləri Şamaxıda monqol istilasından sonra tikilmiş və şəhristanı dövrələyən qala divarlarına dair aydın təsəvvür yaradır. Şəkillərdən məlum olur ki, bu qala divarları ərazinin relyef quruluşuna uyğunlaşdırılmış və ziqzaqşəkillidir. İstehkamın cənub hissəsi Came məscidinin arxasından keçərək şərq və qərb tərəflərdən dağın ətəklərinə qalxırdı (Г.А.Джидди, 1981, стр. 43).

Örənqalada aparılan arxeoloji qazıntılar zamanı Əmir Teymurun inşa etdirdiyi, arxeoloji ədəbiyyata "Kiçik şəhər" kimi daxil olmuş, 14 hektar sahəni əhatə edən şəhristanın qala divarlarının qalıqları üzə çıxarılıb tədqiq olunmuşdur. Şəhərin qərb və şimal divarları bərpa olunmuş, ona şərq və cənubdan birləşən yeni divarlar tikilmişdir. Arxeoloji qazıntılarla müəyyən edilmişdir ki, qala divarları iki tərəfdən bir-birinə paralel, bişmiş kərpicdən adi palçıqla hörüldükdən sonra divarlar arasındakı boşluq torpaqla doldurulmuşdur. Bayır və içəri tərəfdən bişmiş kərpiclə hörülmüş üz divarlarının arasına tökülmüş torpaq layı bu iki divarı bir-birinə bağlayıb 6 *m*-ə qədər qalınlıqda əzəmətli bir qala divarı əmələ gətirmişdir. Qala divarlarının qarşısında müdafiə sisteminə daxil edilən xəndək qazılmış, xəndəyin torpağından isə üz divarlarının arasındakı boşluğu doldurmaq üçün istifadə edilmişdir. Üz divarları şəhər xarabalıqlarından əldə olunmuş köhnə və bəzən sınıq kərpiclərlə səliqəsiz hörülmüşdür. 33 bürclə möhkəmləndirilmiş Kiçik qala divarlarının hündürlüyünün 7 *m*-dən yüksək olduğu ehtimal edilir (Q.M.Əhmədov, 1979, səh. 88-89).

Arxeoloji tədqiqatlar XV əsrin əvvəllərində Qəbələ şəhərinin istehkamlarında bərpa və yenidənqurma işləri aparıldığını təsdiqləmişdir. Qala hissənin divarları bərpa olunmuş və bir hissəsi yenidən tikilmişdir. Yeni tikilmiş qala divarlarının izləri Qalanın şimalında, Covurluçayla Qaraçay arasında aşkara çıxarılmışdır. Qala divarlarının bayır tərəfindəki, iki çayı birləşdirən qala xəndəyi də bu dövrdə qazılmışdır (Г.М.Ахмедов, 1988, стр. 52-54). Qala divarının tikilməsində yonulmuş iri daşlardan, çaydaşından və bişmiş kərpiclərdən istifadə olunmuşdur. İnşaat materiallarının şəhərin Səlbir hissəsinin köhnə qala divarlarından və şəhərin dağıdılmış tikililərindən əldə edildiyi ehtimal olunur. Hörülmüş qala divarı

uzadılmış yarımdairəvi formaya malik bürclərlə möhkəmləndirilmişdir. Bu qala divarları təxminən XVI əsrin sonunadək şəhərin müdafiəsini təmin etmişdir. Sonradan Covurluçayın şəhərin şərq tərəfini yuması nəticəsində bütün şəhər boyunca dərin yarğan əmələ gəlmişdir. Qalanın şərq divarının yenidən inşa olunmasına ehtiyac duyulmadığından onun şimal-şərq tərəfində dairəvi bürc tikilmişdir.

Arxeoloji tədqiqatlarla Ərəş şəhərinin kvadrat biçimli qala divarlarına malik olduğu müəyyənləşdirilmişdir. Qalanın uzunluğu 215 *m*, eni isə 200 *m* olmuş, hər küncündə yanmoval formalı bürclə möhkəmləndirilmişdir. 1947-ci ildə qala divarının salamat qalmış qalıqlarının hündürlüyü 4,2 *m*-ə çatırmış. Şəhərin hər divarında yerləşməklə dörd darvazasının olduğu bildirilir (A.M.Məmmədov və b., 2007). Müdafiə sisteminə daxil olan xəndək qala divarını hər tərəfdən hüdudlayırdı və eni 4 *m* idi.

XIV-XV əsrlərdə Dərbənd şəhərinin istehkamlarında da təmir işləri aparılaraq, qala divarları daha da möhkəmləndirilmişdir. Təmir işləri zamanı Dərbənd darvazaları əsaslı şəkildə yenidən qurulmuşdur. Məlum olduğu kimi, Dərbəndin narınqalasında iki, şəhristanın şimal divarında dörd, cənub divarında isə altı darvaza olmuşdur. Şimal divarında Qırxlar darvazası bütün dövrlərdə baş darvaza rolunu oynamışdır. XV əsrdə darvaza əsaslı şəkildə yenidən qurulmuş, üzəri bədii işlənmişdir. Sütun başlıqları arasında quraşdırılan fars dilində kitabədə təmir işlərinin hicri 842 (1438/1439)-ci ildə usta Hacı Əhməd tərəfindən yerinə yetirildiyi bildirilir: "Ey əziz, bu tikintinin memarı fərmana can-baş ilə əməl edən usta Hacı Əhməd idi. O, sultanın hökmranlığı dövründə dağdan dənizə qədər... zəhmət ilə bərpa elədi. Dərbənd abad oldu" (М.С.Неймат, 2008, стр. 68;А.А.Кудрявцев, 1989, стр. 118). Dərbənd darvazaları arasında Orta qapı yüksək bədii tərtibatı ilə fərqlənir və daha çox Şirvanın saray baş tağlarını xatırladır (tablo 17, şək. 4). XIV-XV yüzilliklərdə aparılmış yenidənqurma nəticəsində darvaza öz bitkin formasını almışdır. O bayır tərəfdə, bürclər arasında dairəvi sütunlara dirənən bir böyük, iki kiçik çatma tağla bəzədilmişdir. Darvaza açırımının üstündə isə daş artırmada aslan fiquru həkk edilmişdir (А.А.Кудрявцев, 1989, стр. 119).

Yazılı qaynaqlardan məlumdur ki, Qazan xanın hakimiyyəti illərində Təbriz şəhərinin yeni istehkamları ucaldılmış və şəhərin qala divarları içərisindəki sahəsi 13 dəfə artaraq 3600-4000 hektar təşkil etmişdir (ХамдаллахКазвини, 1983, стр 39; V.Piriyev, 2003, səh. 241-242).

Təbriz şəhərinin istehkamları XVII əsrdə də öz əzəmətini itirməmişdi. Evliya Çələbi Təbriz qalasının topoqrafiyasından bəhs edərək yazırdı: "Onun divarlarının çevrəsi 6000 addım idi: tikintisi keçmişdə olduğu kimi indiyədək bütöv qalmışdır. 300 bürcü, 300 (bürclərarası) kontrforsu, 6 darvazası vardır. Bu darvazalar aşağıdakılardan ibarətdir: Uçan, Şərvan, Sərzrud, Şam Qazan, Sərv və Təbriz..." (E.Çələbi, 1997, səh. 19).

Rəbi Rəşididə 2005-2006-cı illərdə aparılan arxeoloji qazıntılar nəticəsində I Şah Abbasın burada inşa etdirdiyi qala divarları tədqiq edilmişdir. Məlum olmuşdur ki, qala divarlarının tikintisində XIV əsrin məzar daşlarından inşaat materialı kimi istifadə olunmuşdur. Onların üzərində hicri 711-742-ci illər tarixlərinə rast gəlinir.



**Rəbi Rəşidi. Qala divarına hörülmüş dəmir daşı.**

**Şəhər tikililəri.** Monqol istilası Azərbaycanda memarlığın yüksələn inkişafına ağır zərbə vurdu. Bir çox memarlıq kompleksləri yerlə yeksan edildi. Memarlığın inkişafını təmin edən amillər müvəqqəti olaraq aradan çıxdı. Şəmkir, Beyləqan və Dəbil şəhərlərinin süqutu, Gəncə şəhərinin güclü dağıntıya məruz qalması orta əsr Azərbaycanının mühüm memarlıq məktəblərindən birinin - Arran memarlıq məktəbinin tənəzzülü ilə nəticələndi.

Arxeoloji qazıntılar zamanı orta əsr şəhər yerlərində monqol işğalının nəticələrini əks etdirən dağıntı və yanğın qatlarına tez-tez təsadüf olunur. Arxeoloji dəlillər şəhər həyatının tənəzzülünü, inşaat sənətinin durğunluğunu, şəhər mədəniyyətindəki kobudlaşma cəhətlərinin əmələ gəldiyini təsdiqləyir. Bununla belə, yuxarıda qeyd olunduğu kimi, monqol ağalığı urbanizasiya prosesini tam dayandıra bilməmişdi. Qazan xanın islahatlarından sonra isə şəhər həyatında müəyyən canlanma baş vermişdi.

Hülakular sülaləsinin nümayəndələri Qazan xandan başlayaraq geniş quruculuq işlərinin, şəhərsalma fəaliyyətinin intensivləşdirilməsinin təşəbbüskarı və himayədarı kimi çıxış etmişlər. Dövrün başlıca monumental tikililəri iri şəhərlərdə ucaldılmışdır (Ф.Рашид-ад-Дин, 1957). Bu nöqteyi-nəzərdən Cənubi Azərbaycan şəhərləri daha əlverişli mövqeyə malik idi. İri şəhərlərin hərbi-inzibati, iqtisadi və mədəni-ideoloji tələbatını ödəmək üçün monumental binalar - saraylar, imarətlər, köşklər, məscidlər, karvansaralar, bazarlar, hamamlar, sututarları inşa edilmişdi. Qədim ənənələrdən bəhrələnən yerli memarlar cürətli yaradıcılıq təşəbbüsləri ilə Azərbaycan memarlığına bir çox mütərəqqi yeniliklər gətirmişdilər. Son orta əsrlərdə şimalda Şirvan-Abşeron, cənubda isə Təbriz memarlıq məktəbinin mövqeləri möhkəmlənmişdi. Təbrizin Hülakular, daha sonra Cəlairilər,

Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin paytaxtı olması Təbriz memarlıq məktəbinin XIII-XVI əsrlərdə təkcə Azərbaycanda deyil, bütövlükdə müsəlman Şərqinin memarlığında aparıcı mövqe tutmasını şərtləndirmişdir. Artıq XIII yüzilliyin sonu - XIV yüzilliyin əvvəllərində Qazan xanın geniş quruculuq tədbirləri nəticəsində Təbriz şəhərinin plan quruluşunda, onun memarlığında orta əsr şəhərsalma sənəti üçün səciyyəvi olmayan yeniliklər əmələ gəlir. Müasir şəhərsalma üçün səciyyəvi olan çoxmərkəzli plan quruluşunun Təbrizdə bərqərar olmasının şahidi oluruq. Təbrizin bu zamankı quruluşunda mühüm yeniliklərdən biri Rəşidiyyə (Rəbi Rəşidi) adlı akademiya - universitet şəhərciyinin salınması idi. Bir tərəfdən Elxanilərin nəhəng dövlətin ölçüsünə uyğun əzəmətli tikililər ucaltmaq istəyi, digər tərəfdən Azərbaycan memarlığının zəngin potensialı "azman miqyaslı və zəngin ornamentli" memarlıq üslubunu Təbriz məktəbi üçün xarakterik etmişdi (C.Qiyasi, 1985, səh. 9-11). Əvvəlki dövrlərin məşhur memarlıq abidələrini ölçü böyüklüyü və təmtəraq ilə ötmək tələbinin memarlar qarşısında qoyulması hülakuların öz güc və qüdrətini memarlıq abidələrində ifadə etmək siyasəti olub, bu sahədə də özlərinə qədərki sülalələrin fəaliyyətini kölgədə qoymaq məqsədi daşıyırdı.

Əvvəlkitək şəhər divarları arasında tikililər planlı və sıx yerləşmişdi. Saray kompleksi və inzibati binalar narınqalada yerləşirdi. Dərbənddə, narınqalada tədqiq olunan altı saray kompleksindən ikisi son orta əsrlərə aid edilir. Onlardan biri XIV-XV əsrlərdə, digəri isə XVI-XVII əsrlərdə fəaliyyət göstərmişdi. Sahələri 700-800 *kv.m* təşkil edən bu saray kompleksləri çox otaqlı olub, çapma və yonulmuş daşdan hörülmüş, daxili sahmanı yüksək bədiiliyi ilə fərqlənirmiş. Narınqalada saray kompleksindən başqa XV-XVI əsrlərə aid xan hamamı və XVI-XVII əsrlərə aid iki sututarı tədqiq edilmişdir.

Narınqalanın mərkəzində aşkarlanmış memarlıq kompleksləri arasında XV-XVII əsrlərə aid edilən kazarmatipli monumental tikili qalıqları da vardır. Bu kompleksin otaqlarında təndir qalıqları, daş sütun altlıqları, tünglərdən quraşdırılmış su kəməri xətti üzə çıxarılmış, məişət əşyaları və silahlar, mis sikkələr tapılmışdır (А.А.Кудрявцев, 1988б, стр. 131).

Narınqalada üzə çıxarılmış son orta əsrlərə aid memarlıq kompleksləri Şirvan-Abşeron memarlıq məktəbinin səciyyəvi elementlərini özündə əks etdirir. IV qazıntı sahəsində aşkarlanmış memarlıq komplekslərindən biri böyük və kiçik otaqları, dəhlizi, açıq həyəti və təsərrüfat tikililərindən ibarət olub yonulmamış daşdan, adi palçıqla tikilmişdir. Divarların qalınlığı 65-75 *sm*-dir. Həyət tava daşlarla döşənmişdir. Bu kompleksdən altda aşkarlanan digər memarlıq kompleksi bir neçə otaqdan ibarət olub, daha səliqəli və möhkəmliyi ilə fərqlənir. Komplekse daxil edilən otaqlardan biri daha böyük olub 9x6 *m* ölçüdədir (А.А.Кудрявцев, 1974, стр. 117).

Qeyd olunan memarlıq komplekslərinin qazıntılarından xeyli miqdarda Rey, Kaşan, Çindən gətirilmə fayans və çini qab nümunələri, yerli istehsalın məhsulu olan

saxsı qəlyanlar, mis sikkələr, memarlıq hissələri tapılmışdır. Üzərində ərəb yazısı olan, XV-XVII əsrlərə aid daş lövhələr xüsusilə diqqətəlayiqdir.

IV qazıntı sahəsində üzə çıxarılmış başqa bir memarlıq kompleksi yuxarıda qeyd edilənlərdən fərqli olaraq bişmiş kərpicdən əhəngli palçıqla inşa olunmuşdur. Bu kompleksin 9,4x3,2 *m* ölçüdə bir otağı tam, digəri isə qismən təmizlənmişdir. Qalan otaqlar isə qazıntı sahəsindən kənarda qalmışdır. Kompleksin divarlarının qalınlığı 0,8-1 *m*, bəzi yerlərdə hətta 2,6 *m* təşkil edir. Tədqiq olunmuş qalıqlar tikilinin möhtəşəm kompleksə mənsubluğunu göstərir (А.А.Кудрявцев, 1974, стр. 118).

Bakıda Şirvanşahlar saray kompleksi də, görünür, şəhərin narınqala hissəsini təşkil etmişdi. Hələ keçən əsrin 20-40-cı illərində burada aparılan arxeoloji qazıntılar Şirvanın son orta əsr mülki və dini memarlığını, hakim sülalənin, eləcə də feodal əyanların məişətini və həyat tərzini öyrənmək baxımından zəngin faktik materiallar vermişdir.

Şirvanşahlar sarayından, Keyqubad məscidindən, İçərişəhərdəki karvansaradan götürülmüş birləşdirici məhlul nümunələrinin fiziki-kimyəvi analizi hörgü üçün əsasən kaolinli və əhəngli məhluldan istifadə olunduğunu göstərmişdir (Г.Теймуров, Г.Рамазанов, 2004, стр. 128).

Bu memarlıq kompleksi Şirvan memarlığının üslub sistemini aydınlaşdırmaq üçün ən tutumlu və çox dəyərli obyektdir. Saray kompleksinin inşası XV əsrdə paytaxtın Şamaxıdan Bakıya köçürülməsi ilə bağlı olmuşdur. O zaman Bakı nəinki Şirvanın ən yaxşı möhkəmləndirilmiş şəhəri, həm də Xəzər dənizində başlıca liman kimi məşhur idi. Saray kompleksi qala divarları daxilində ən yüksək nöqtədə yerləşməklə dənizin gözəl mənzərəsinə açılırdı. Relyefə uyğun sərbəst planlaşma, məkan təşkilində məntiqi ardıcıllıq və arasıkəsilməzlik Şirvanşahlar saray kompleksinə təbii və oynaq memarlıq - həcm quruluşu vermişdir. Kompleks müxtəlif səviyyələrdə qruplaşaraq yerləşmiş sarayın baş binası, "Divanxana", Şirvanşahlar türbəsi, "Keyqubad" məscidi, Dərviş türbəsi, saray məscidi, hamam, ovdan və Şərq baştağından ibarətdir (tablo 113). Saray kompleksi bitkinliyi, inşaat texnikasının mükəmməlliyi, baştağların əzəməti, bədii tərtibatının özünəməxsusluğu ilə seçilir. Kompleksin binaları relyefdə yerləşdirilərkən onların təyinatı nəzərə alınmış, saray binası təpənin ən uca, hamam və ovdan isə ən aşağı qatında inşa edilmişdir.

Şirvanşahlar saray kompleksi ərazisində aparılmış arxeoloji qazıntılar bir çox mübahisəli məsələlərə aydınlıq gətirmişdir. Məlum olmuşdur ki, sarayın bünövrəsi qayalıq üzərindədir. Bina 52 otaqdan ibarət olub, ikimərtəbəlidir. Aşağı mərtəbədə xidməti təsərrüfat tikililərindən başqa 27 otaq vardır (М.Усейнов и др., 1963, стр. 189-208). Qərb tərəfdən saray divarının düzxətli deyil, girintili-çıxıntılı olması memarın mühüm tapıntılarından olub, sarayın rəsmi hissəsinin daha yaxşı işıqlandırılması və dəniz mənzərəsinin seyr edilməsi imkanlarını artırmış, burada

sağlam əhvali-ruhiyyə üçün şərait yaratmışdır. Binanın günbəz və daxili sahmanı dövrümüzə qədər olduğu kimi gəlib çıxmamışdır. 1892-ci ildə çar məmurları sarayın daxilində təmir və yenidənqurma işləri apararkən tağbənd və günbəzlərdəki mozaika bəzəklər məhv edilmiş, tağbəndlərin bir hissəsi isə arakəsmələrlə əvəz edilmişdi. Bədr Şirvaninin "Divan"ından bəlli olur ki, sarayın günbəz və tağ-tavanı gözəlliyi ilə fərqlənirmiş. Günbəz və qüllələr qurulmazdan əvvəl xarrat taxta işlərini görmüş, günbəz üçün karkası düzəltmiş və bundan sonra günbəz ucaldılmışdır (S.Dadaşova, S.Məmmədova, 2002, səh. 82). Sarayın daxili sahmanı da səliqəli və bədii tərtibatı ilə fərqlənmişdir.

Sovet dövründə və müstəqillik illərində abidədə arxeoloji qazıntı, təmir və bərpa işlərinin aparılması nəticəsində sarayın təxminən ilkin formasının alınması mümkün olmuşdur.

Saray binasına Şərqdə bənzəri olmayan "Divanxana" birləşir. Kiçik həyətdə yerləşən yığcam səkkizkünclü köşk üç tərəfdən sivri sıra tağlı qalereya ilə əhatə olunmuş və günbəzlə örtülmüşdür. Qərb tərəfdə isə incə işlənmiş baştağ yerləşir. Baştağ bitkin həcm-məkan kompozisiyasına malikdir. Onun taxçası xeyli dərindir, yan tərəfləri stalaktit sonluqlu dar taxçalarla işlənmişdir. Həmin çıxıntılar boyunca daş çıxıntılar - kürsülər yerləşir.

Düzgün nisbətli yarımgünbəz məharətlə yaradılmış yeddi cərgəli stalaktit kompozisiyaya söykənir (R.B.Əmənzadə, 1995, səh. 46-47).

Şirvanşahlar saray kompleksinə daxil olan binaların hər birinin ayrılıqda bitkin, həm də orijinal memarlıq həlli vardır.

Kompleksə daxil olan binaların təyinatının müxtəlifliyinə, biçim rəngarəngliyinə baxmayaraq memarlıq üslubunda ümumilik, binalar arasında isə vizual bağlılıq var. Relyefə uyğunlaşdırılmış tikililər bir-birini tamamlayaraq vahid bir ansambl yaradır.

Son orta əsrlərdə şəhərlərin şəhristan hissəsində əvvəlkitək əsasən feodal əyanların, varlı tacir və sənətkarların yaşayış evləri, ictimai və dini binalar yerləşirdi. Şəhristan hissədəki tikililərinin xarakterini Şamaxı, Dərbənd, Bakı, Şabran, Naxçıvan, Xaraba-Gilan və digər şəhər yerlərində aparılmış arxeoloji qazıntılar və eləcə də son orta əsrlərdə çəkilmiş illüstrativ materiallar əsasında səciyyələndirmək mümkündür.

Bakı şəhərində yaşayış evləri düzbucaq və kvadrat biçimli olub, səliqə ilə yonulmuş və ya az yonulmuş əhəngdaşılarından adi palçıqla inşa olunmuşdur. Bəzi evlərin divarlarında ev sahmanı üçün taxçalar düzəldilmişdir. 1977-1984-cü illərdə aparılmış arxeoloji qazıntılar İçərişəhərin şərqində tikililərin daha sıx yerləşdiyini təsdiqləmişdir (Ф.А.Ибрагимов,С.Б.Гусейнова, 1986а, стр. 6-16; 1990, стр. 20-24).

Arxeoloji qazıntılar zamanı üzə çıxarılmış tikinti qalıqları arasında müxtəlif təyinatlı ictimai və dini tikililər də az deyil. İçərişəhərdə Qız qalasının şimal

tərəfində qazıntılar zamanı beş otaqdan ibarət zirzəmi üzə çıxarılmışdır. Otaqlardan biri tək, dördü isə bir-biri ilə əlaqəlidir. Daşdan hörülmüş otaqlar tağ-tavanla tamamlanır. Zirzəmi otaqlarının bəzilərinin divarlarının üstündə yuxarı mərtəbənin hörgüsünün qalıqları qalmışdır. Otaqların döşəməsi tava daşlarla döşənmişdir. Tikili qalıqlarının tədqiqi onların bir kompleksə mənsubluğunu, XIV-XV əsrlərdə tikilmiş ictimai binanın qalıqları olmasını müəyyənləşdirməyə imkan vermişdir (F.İbrahimov və b., 1992, səh. 84).

Böyük, çoxotaqlı XIV-XV yüzilliklərə aid binanın qalıqları 1980-1982-ci illərdə Şabran şəhər yerinin II qazıntı sahəsində aşkar edilib tədqiq olunmuşdur. Kompleksin ümumi sahəsi 300 *kv.m*-dən artıqdır. Güclü dağıntıya məruz qalmış həmin binanın bünövrəsi çaydaşılarından qoyulmuş, divarları kvadrat formalı bişmiş kərpiclərlə əhəng məhlulu qatılmış palçıqla hörülmüşdür. Kompleks böyük bir salondan və altı otaqdan ibarətdir. Binanın bünövrəsinin eni 1 *m*-dir. Otaqlar kvadrat və düzbucaq biçimlidir (tablo 115, şək. 1). Kompleksin cənub-qərbindəki otağın divarlarına yaxşı yonulmuş, üzəri cilalanmış əhəngdaşından üzlük çəkilmişdir. Burada döşəmə tava daşlarla döşənmişdir. Kompleksin digər otaqlarında və salonda isə döşəmə 20x20x5 *sm*, 22x22x5 *sm* ölçüdə bişmiş kərpiclərlə döşənmişdir. Kiçik otaqlardan birində təndir qalığı aşkar edilmişdir. Bu binanın təyinatına dair müxtəlif fikirlər söylənilsə də (Р.Б.Геюшев, 1985a; T.M.Dostiyev, 2001; F.Ə.Abbasova, 2002), onun monumental tikilinin qalıqları olması mütəxəssislərdə şübhə doğurmur. Binanın geniş sahəsi, divarlarına nəfis üzlük daşlarının vurulması, döşəməsinin bişmiş kərpic və tava daşları ilə döşənməsi onun şəhərin mühüm ictimai binalarından olduğuna dəlalət edir (T.M.Dostiyev, 2001, səh. 89-90).

Şamaxı şəhərinin arxeoloji tədqiqi monqol ağalığı dövründə şəhər memarlığındakı tənəzzülü izləməyə imkan vermişdir. Şamaxı qazıntılarında üzə çıxarılan tikililərin qalıqları inşaat sənətindəki kobudlaşmanı qabarıq əks etdirir. Bu dövrdə tikilən evlər bir çox hallarda yaxşı yonulmamış daşlardan adi palçıqla hörülmüşdü. Binaların bədii tərtibatında zənginliyə təsadüf etmirik. Məlum olmuşdur ki, XIV əsrin əvvəllərindən şəhər tikililəri bərpa olunmağa başlayır. Bu nöqteyi-nəzərdən VI qazıntı sahəsində üzə çıxarılmış ictimai binanın tədqiqi diqqətəlayiqdir. Səliqə ilə yonulmuş hamar daşlardan əhəngli məhlulla hörülmüş ictimai bina bərpa olunarkən yonulmamış daşlardan istifadə olunmuş, tikinti səliqəsiz aparılmışdır (Г.А.Джидди, 1981, стр. 83).

Şamaxı şəhər memarlığında canlanma XV əsrin əvvəllərindən izlənilir. VI qazıntı sahəsində çoxotaqlı yaşayış evinin qalıqları müxtəlif ölçülü daşlardan əhəngli palçıqla hörülmüşdür. Evin divarlarının yalnız aşağı cərgələri salamat qalmışdır. Otaqların hər birinin eni 1-1,2 *m* olan qapı açırımı vardır. Otaqların hamısından kömürləşmiş ağac qalıqlarının aşkarlanması dam örtüyündə ağac materialdan istifadə edildiyinə və evin yanğın nəticəsində məhv olduğuna dəlalət edir. Evin döşəməsi torpaqdan olub üzərinə şirə çəkilmişdir. 1, 3, 4 və 5 saylı otaqların qapısı

kiçik həyətə açılır. Yaşayış evi ümumşəhər kanalizasiyasına qoşulan kanalizasiya xətti ilə təchiz edilmişdi. Üzə çıxarılan 1, 5 və 6, 8 saylı otaqların arasındakı, eni 3 *m* olan şimal-cənub istiqamətində uzanan sahənin küçə olduğu ehtimal olunur (Г.А.Джидди, 1981, стр. 64).

Son orta əsrlərdə Şabran şəhərində yaşayış evləri çoxotaqlı olub, əsasən bişmiş kərpicdən inşa olunmuşdur. XIV-XV əsrlərə aid inşaat qatında tədqiq edilmiş üçotaqlı evin bünövrəsi şərq divarında 70x50 *sm* ölçülü əhəngdaşından, digər divarlarda isə çaydaşından qoyulmuşdu. Evin divarları 23x23x6 *sm* ölçülü bişmiş kərpicdən adi palçıqla hörülmüşdür. Otaqlar kvadrata yaxın biçimdə olub, hər birinin sahəsi 9-12 *kv.m*-dir. Evin döşəməsi isə torpaqdan olub üzərinə şirə çəkilmişdir. Bu yaşayış evindən cənub-qərbdə yerləşən digər bir ev dördotaqlı olmuşdur. Bünövrəsi çaydaşından, divarları bişmiş kərpicdən tikilmiş həmin evin otaqları kvadrat və düzbucaq biçimli idi. Şimal otağının divarının hörgüsü bədiiliyi ilə diqqətəlayiqdir. Düz cərgələrin cınağı cərgələrlə əvəz olunması divarın möhkəmliyini artırmaqla yanaşı, həm də bədii əhəmiyyət kəsb edir, xoş təsir bağışlayır (T.M.Dostiyev, 2001, səh. 92).

Şabranın V qazıntı sahəsində üzə çıxarılmış XIV-XV və XVI-XVII yüzilliklərə aid yaşayış evlərinin qalıqları göstərir ki, son orta əsrlərdə evlərin bünövrəsi çaydaşından qoyulur, divarlar isə bişmiş kərpicdən adi palçıqla və yaxud əhəngli məhlulla tikilirdi. Daş bünövrəli, divarları çiy kərpicdən hörülmüş ev qalıqlarına yalnız XVII əsr təbəqəsində təsadüf olunmuşdur.

XIV-XV əsrlərin yaşayış evlərinin kərpic divarlarında bəzən hörgü ilə həndəsi və ya cınağı naxış salınmışdır.

Qəbələnin qala hissəsində XIV-XVII yüzilliklərə aid təbəqədə küçələrin və onların hər iki tərəfi boyunca uzanan yaşayış evlərinin, eləcə də emalatxanaların qalıqları üzə çıxarılmışdır. Küçələr boyunca yerləşmiş tikili komplekslərinin bünövrəsi ortaölçülü çaydaşından, divarları bişmiş kərpicdən inşa olunmuşdur. Otaqlar düzbucaq biçimlidir. Burada diqqətçəkən maraqlı tapıntılardan biri - birinci küçə boyunca məhəllə divarının aşkarlanmasıdır. Dulusçular məhəlləsinin divarı olan həmin qalıqlar adi yaşayış evlərinin divarlarından xeyli qalındır (Г.Дж.Джабиев, С.Б.Гусейнова, 1992).

Son orta əsrlərin yaşayış evlərinin tədqiqi baxımından IV qazıntının nəticələri də maraqlı olmuşdur. Burada üzə çıxarılmış düzbucaq və kvadrat biçimli yaşayış evlərinin qalıqları əsasən ortaölçülü çaydaşından adi palçıqla hörülmüşdür. Divarların hörgüsündə yonulmuş əhəngdaşından və kvadrat formalı bişmiş kərpiclərdən istifadə olunmuşdur. Bəzi tikililərdə qarışıq hörgülərə də rast gəlinir. Belə hörgüdə çaydaşı, əhəngdaşı və ya bişmiş kərpic cərgələri növbələşir. Bəzi binaların divarına bişmiş kərpicdən hörgü ilə cınağı naxış salınmışdır.

Tikililərinin bünövrəsi divarlardan enli olub, 60-85 *sm* təşkil edirdi. Bişmiş kərpiclərdən istifadə etməklə bəzən tikililərin döşəməsi döşənirdi.

Yaşayış evləri çoxotaqlı idi. Bəzi evlərdə mətbəx və anbar xarakterli otaqlar vardır. Sahəsi 16 *kv.m* olan, mətbəx rolu yerinə yetirmiş otaqlardan birinin şimal divarında böyük ocaq bişmiş kərpiclərin düzülməsi ilə düzəlmişdir. Anbar xarakterli otaqda boğazadək torpağa basdırılmış üç küp aşkarlanmışdır. Onlardan ikisi eyni ölçüdə (hündürlüyü 70 *sm),* biri isə bir qədər kiçik idi (Г.М.Ахмедов, 2003а, стр. 98-99).

Dərbənd şəhərində son orta əsrlərdə dənizsahili hissədə tikililər seyrək yerləşmişdir. Yuxarı, Came məscidi ətrafı hissədə isə əksinə, müxtəlif tip mülki və dini binalar sıx cəmləşmişdi. Şəhristanın yuxarı hissəsində arxeoloji qazıntılar nəticəsində Dərbənd sakinlərinin müxtəlif təbəqələrinə məxsus yaşayış evləri üzə çıxarılmışdır. Bir qayda olaraq əyanların, varlı şəhərlilərin evləri ölçülərinin böyüklüyü, plan quruluşunun mürəkkəbliyi və daxili sahmanının zənginliyi ilə fərqlənir.

Orta əsr Gəncə şəhərinin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı son orta əsr təbəqəsində üzə çıxarılmış tikili qalıqları, əsasən, iri çaydaşılarından və bişmiş kərpicdən inşa olunmuş, bərkidici məhlul kimi adi palçıqdan və ya gəcdən istifadə edilmişdi. Bəzən divarlarının qalınlığı 1,2-1,3 *m* olan tikili qalıqlarına rast gəlinir. Divarların hörgüsündə ənənəvi olaraq "cınağı" və "Gəncə hörgüsü" tətbiq olunmuşdur. III qazıntı sahəsində iri çaydaşılarından hörülmüş divarın qalınlığı 1,2-1,6 *m* təşkil edir. Bu divarların uzunluğu 4,5 *m*-dən 7,5 *m*-dəkdir. Nisbətən yaxşı mühafizə olunmuş divarların hündürlüyü isə 2,8 *m-ə* çatır.

Arxeoloji qazıntılar Naxçıvan şəhərinin son orta əsr tikililərinə dair müəyyən təsəvvürlər yaratmağa imkan verir. Keçən əsrin 80-ci illərində "Böyük qala" hissəsində II qazıntı sahəsində daşdan inşa olunmuş tikililərin bünövrələri bişmiş kərpicdən hörülmüş, içəridən gəc suvaqla örtülmüş divar qalıqları aşkar olunmuşdur. Tədqiq olunmuş üç otaqlı evin uzunluğu 14,5 *m* təşkil edirdi. Onun divarlarının eni 80 *sm* idi. Döşəməsi bişmiş kərpiclərlə döşənmişdi. Kiçik otağın şimal divarı yaxınlığında külbəli təndir yerləşirdi (А.И.Новрузов и др., 1992, стр. 150-152).

Çoxotaqlı yaşayış evinin qalıqları Naxçıvanın Xaraba şəhər abidəsindən də məlumdur. Buradakı evlər eyvanlı olub, möhrədən inşa edilmiş, kürəbəndlə təmin olunmuşdur. Tədqiq edilən çoxotaqlı evin otaqlarından birinin içərisində sərinlik qurğusu, cənub küncündə isə buxarı qalıqları aşkar edilmişdir. Cənuba açılan qapı bu otağı baş otaqla, şimal qapısı isə evin digər otaqları ilə əlaqələndirir. Eyvanın qarşısında gəclə suvanmış kvadrat biçimli kiçik səki aşkar edilmişdir. Otaqlardan birində çıraq qoyulması üçün taxça üzə çıxarılmışdır. Onun eni 70 *sm,* hündürlüyü isə 55 *sm* idi. Evin döşəməsində aşkarlanmış kürəbənd otaqları dolanaraq dəhlizin ortası ilə həyətə çıxarılmışdı. Həyətdə o, kürəbənd quruluşunu itirərək daşla hörülmüş adi kanal şəklində davam etmişdir. Otaqlardan biri mətbəx rolunu oynamışdı. Burada təndir və ocaqlar, sal daşdan çörək bişirilməsində istifadə edilən dördayaq üzə çıxarılmışdır (Ə.İ.Novruzlu, A.B.Nuriyev, səh. 10-11).

Çiy kərpicdən və möhrədən tikilmiş evlərin qalıqlarına Astabad şəhər xarabalıqlarında da rast gəlinmişdir. Burada bünövrəsi çaydaşından, divarları bişmiş kərpicdən hörülmüş evlərin qalıqlarına az rast gəlinir. Tədqiq edilmiş evlərin döşəmələri torpaqdan olub, üzərinə şirə çəkilmişdir (O.H.Həbibullayev, F.V.Qədirov, 1993).

Son orta əsrlərdə Kiran şəhərində ictimai binalar və yaşayış evləri əvvəlki kimi iri daş bloklarından və bişmiş kərpicdən inşa edilirdi. XII əsrdən tətbiq olunan divarlara üzlük və ya suvaq çəkilməsi ənənəsi XIII-XIV əsrlərdə də davam etməkdə idi. Qazıntı sahəsində kvadrat və düzbucaq planlı tikili qalıqları, müxtəlif təyinatlı təndir və ocaqlar aşkarlanıb təmizlənmişdir.



**Rəbi Rəşididə monumental bina qalıqları.**

Monumental bina qalıqları Rəbi Rəşididə Elxanilər dövrü təbəqəsində üzə çıxarılmışdır. Burada böyük bir kompleksə daxil olan hamamın qalıqları tədqiq olunmuşdur. Döşəməaltı qızdırıcı sistemə malik hamam çoxotaqlıdır və kompleksin bir hissəsini təşkil edir.

Rəbi Rəşididə maraqlı tikintilərdən biri 2005-2006-cı illərdə tədqiq olunan, yuxarıda qeyd edilən 25x25x5 *sm* ölçüdə çiy kərpicdən arı pətəyi formasında hörülmüş tikilidir. Bina üç dairədən ibarətdir. Orta dairənin diametri 5 *m*-dir. 70 *sm* enində kiçik bir qapı ortadakı dairəni ikinci dairə ilə əlaqələndirir. İkinci dairə isə ağaclar vasitəsilə birinci dairə ilə birləşdirilib. Qazıntı zamanı əldə olunmuş faktiki materiallar dairəvi tikintini XVII əsrə aid etməyə imkan vermişdir.

Feodal hökmdarlar əvvəlkitək şəhərlərdən kənarda yay iqamətgahları inşa etdirmək ənənəsini davam etdirirdilər. Bu tip mülki tikililərin qalıqları həm Cənubi Azərbaycandan, həm də Şirvandan məlumdur. Təxti-Süleymanda tədqiq edilmiş hülakuların yay iqamətgahının (tablo 121) xarabalıqları öz möhtəşəmliyi ilə diqqəti cəlb edir (Naumann, 1976, səh. 39-43). Saray kompleksi XIII əsrin 70-ci illərində erkən orta əsrlərin məbədinin qalıqlarından istifadə etməklə tikilmiş və ümumilikdə məbədin plan quruluşuna uyğunlaşdırılmışdır. Kompleksin əsas tikililəri göl ətrafında dördbucaq biçimdə yerləşmişdi. Məbəddə olduğu kimi, saray kompleksində də gölü dörd tərəfdən pilon sırası əhatə edirdi. Dörd eyvan da əvvəlki yerlərində, lakin fərqli ölçülərdə ucaldılmışdı. Məbəddən fərqli olaraq saray kompleksində baş giriş cənubdan idi. Sıra tağlı həyətin şimalında, məbədin əsas binasından 7 *m* yüksəklikdə günbəzli salon inşa edilmişdi. Görünür bu salon rəsmi qəbullar üçün istifadə edilmişdi.

Şərq tərəfdəki eyvan kiçik ölçülü olub, görünür, o qədər də mühüm əhəmiyyət kəsb etməmişdi. Erkən orta əsrlərdə Xosrovun taxt-tac salonunun yerləşdiyi qərb tərəfdəki eyvan isə əksinə, əvvəl olduğu ölçüdə ucaldılmışdı. Ona köndələn salon birləşirdi, küncələrində isə iki səkkizkünclü günbəzli tikili vardı. Uzunluğu 27 *m*, eni 19,5 *m* olan salon yaşıl rəngdə yastı daşlarla döşənmişdi. Uzun divar boyunca daş skamyalar düzəldilmişdi. Digər salonlardan fərqli olaraq köndələn salon tağtavanlı deyildi. Ağac tavanı sütunlar saxlayırdı. Sütunlar da ağacdan yonulmuşdu. Şimal səkkizkünclü tikilidə hər bir dərin divar oyuğunda divar boyunca oturacaqlar və bayıra açılan qapı vardı. Bu səkkizkünclü tikilinin yeməkxana funksiyası daşıması ehtimal olunur. Cənub səkkizkünclü tikili başqa formada işlənmişdi. Buradakı səkkiz divar oyuğundan üçü açıq səhnə formasında, dördü kiçik anbar kimi tərtib edilmiş, səkkizinci divar oyuğu isə mərkəzi binaya keçid rolunu oynamışdı. Böyük eyvanın cənub tərəfində, məbəd tikililəri üzərində sarayın yuxarı mərtəbəsi tikilmişdi. Oraya dolama pilləkən ilə qalxmaq olurdu.

Arxeoloji dəlillər saray kompleksində sütun altlıqlarından, daş və ağac sütunlardan geniş istifadə edildiyini göstərir.

Şirvanşahların Bakı yaxınlığında, Nardaran kəndində XV əsrdə inşa edilmiş yay iqamətgahı - Xan bağı yığcam biçimli tikili olub, dəniz sahilindən 2 *km* aralıda yerləşir. Kompleksə əhəng daşından inşa olunmuş əsas binadan başqa, bir neçə xidməti tikili, iki su quyusu və hovuz da daxildir (М.Усейнов и др., 1963, стр. 208, рис. 194).

Kvadrat biçimli əsas binanın kompozisiyasının mərkəzində kvadrat planlı, üstü günbəzlə örtülmüş salon durur. Künclərdə yerləşən otaqların da üstü günbəzlə örtülmüşdür. Cənubdakı otaqların günbəzləri səkkizkünclü, şimaldakıların isə kürəvidir. Binanın baş tağı dərin taxça şəklində işlənmişdir. Konstruktiv və kompozisiya həllinə görə Xan bağı ilə Şirvanşahlar saray kompleksi arasında oxşarlıq vardır.

Dövrün şəhər tikililəri arasında karvansaralar da əhəmiyyətli rol oynayırdı. F.Rəşidəddinin məlumatından bəlli olur ki, Qazan xan şəhərlərdə, xüsusilə Təbrizdə karvansaralar, hamamlar və digər mülki tikililərin inşaatına böyük diqqət yetirirdi (Ф.Рашид ад-Дин, 1957, стр. 235).

Başqa bir yazılı mənbənin məlumatına görə son orta əsrlərdə Təbrizdə 200 karvansara fəaliyyət göstərirdi (И.Э.Печеви, 1988, стр. 65).

Bir qayda olaraq şəhərlərdə karvansaralar qala qapılarının yaxınlığında, rabadda tikilirdi. Şəhər karvansaraları bəzi xüsusiyyətlərinə görə ticarət yolları üzərində inşa olunmuş karvansaralardan fərqlənirdilər. Bakıda, İçərişəhərdə aşkarlanmış və geniş tədqiqatlara cəlb olunmuş Buxara və Multanı karvansaraları son orta əsrlərdə şəhərlərdə mövcud olmuş karvansaraları səciyyələndirmək nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir.

Yerli əhəngdaşından tikilmiş Buxara karvansarası birmərtəbəli düzbucaqlı plana malik, həyət boyunca yerləşmiş 18 müstəqil otaqdan ibarət binadır. Divarlarının qalınlığı 1 *m*-ə çatır. Həyətin mərkəzində kiçik hovuz yerləşir. Otaqların qarşısındakı həyətə yönəlmiş eyvanların çatma tağları sıra tağlar yaradır. Karvansaranın ümumi sahəsi 189 *kv.m*-dir (И.П.Петрушевский, 1960, стр. 360-369, 381).

Multanı karvansarası Hindistanın Multan əyalətindən olan hind tacirlərinin sifarişi ilə tikilmiş və adını da buradan götürmüşdür. Buxara karvansarasının qarşısında yerləşən bu karvansara 6 otaqdan və onların altında yerləşmiş təsərrüfat təyinatlı zirzəmilərdən ibarətdir. Ön divarda dar pəncərə yerləri açılmışdır. Karvansaranın sahəsi 100 *kv.m*-dir (Р.Р.Исмаилзаде, 1981 стр. 7-8).

Arxeoloji qazıntılar və bərpa işləri nəticəsində müəyyən olunmuşdur ki, ilk vaxtlar bina ikimərtəbədən ibarət olmuşdur. Həm də bildirilir ki, karvansaranın aşağı mərtəbəsi yuxarı qata nisbətən daha qədimdir. Alt mərtəbədə at tövlələri, anbarlar və xidmətçilər üçün otaqlar yerləşirdi.

İçərişəhərin cənubunda, Qız qalasından qərbdə XVII əsrdə inşa olunmuş ikimərtəbəli karvansara yerləşir. Bina planda düzbucaqlı biçimdə olub səkkizkünclü həyəti vardır. Həyətin mərkəzində quyu oyulmuşdur.

Karvansaranın qarşı-qarşıya yerləşmiş iki girişi mövcuddur. Karvansaranın həyət boyunca yerləşmiş və həyətə açılan dördkünclü 42 hücrəsi vardır. Birinci mərtəbədə hücrələrin yan divarları (arakəsmə) davam edərək hər bir hücrənin qarşısında kiçik eyvan yaradır. İkinci mərtəbədə isə hücrələrin qarşısında ümumi dəhliz vardır (Л.А.Багирбекова, 1956, стр. 305-309, К.М.Мамедзаде, 1983, стр.175-176). İkinci mərtəbəyə çıxış problemi cənub-qərbdəki pilləkənlər vasitəsi ilə həll olunmuşdur. Bütün otaqlarda hücrələr tağ-tavanlıdır. Arxeoloji tədqiqatlar zamanı karvansaranın həyətindən və ətrafından xeyli miqdarda mavi və firuzəyi şirli kaşıların tapılması onun bədii tərtibatında kaşı bəzəklərdən də istifadə olunduğuna dəlalət edir (Р.Дж.Ахмедов, 1977, стр. 487).

Orta əsr şəhərlərinin şəhərsalma siluetində mühüm yer tutan hamamların universal xarakter daşıyan, ictimai cəhətdən mühüm gigiyena, müalicəvi-sağlamlıq rolu çox yüksək idi. Hamamlar saray və dini memarlıq ansambllarına, məhəllədaxili tikintiyə, şəhərin giriş qapılarında yerləşən memarlıq cəhətdən nizamlı ictimai mərkəzə daxil edilir və orta əsr şəhər bazarlarının mühüm hissəsi sayılırdı (R.B.Əmənzadə, 2002, səh. 77). Yazılı qaynaqlardan məlumdur ki, Təbrizdə son orta əsrlərdə 200-300 hamam mövcud idi (S.M.Onullahi, 1982, səh. 175).

Son orta əsrlərdə inşa olunan hamamların əksəriyyəti təşəkkül tapmış ənənəvi plan kompozisiya və quruluş prinsiplərini yaşadır və inkişaf etdirirdi. Memar və bənnalardan bu tip tikililər ucaldarkən istiliyin maksimum saxlanılması, hərarət-rütubət rejiminin nəzərə alınması, memarlıq ünsürlərinin uzunömürlüyünü təmin etmək, hidroizolyasiya üsullarına riayət olunması tələb edilirdi. Hamamların işıqlandırılması günbəzdə yerləşdirilən xüsusi fənərlər və ya çıraqlar vasitəsi ilə həyata keçirilirdi.

Hamamlar döşəməaltı sistemlə qızdırılırdı. Döşəməaltı tünglər və ya kanallar ilə isti hava kütləsi fasiləsiz dövr edirdi. Binanın qışda isti, yayda isə sərin olması üçün onun tutumunun xeyli hissəsi yer səthindən aşağıda yerləşirdi (Р.Исмаилзаде, 1981, стр. 7-8).

Şamaxıda VIII qazıntı sahəsində XIV əsrdə 100 *kv.m* sahədə tikilmiş və XVII əsrədək istifadə olunmuş, yaxşı yonulmuş daşlardan əhəngli məhlulla inşa edilmiş hamamın qalıqları aşkarlanıb tədqiq edilmişdir (tablo 111, şək. 2). Hamamın mərkəzi salonu, onun ətrafında yerləşən kiçik otaqlar üzə çıxarılmışdır. Mərkəzi salon səkkizkünclü olub, yeri böyük tava daşlarla səliqə ilə döşənmişdi. Döşəmənin altında mərkəzi istilik sistemi ilə əlaqəli olan istilik xətləri yerləşirdi. Salon günbəzlə örtülmüşdü, lakin günbəz uçmuşdu. Mərkəzi salonun ətrafında yuyunmaq üçün səkilər, masaj və tək yuyunma (xəlvəti) otaqları yerləşmişdir. Salonun şimal hissəsində tünglərdən gələn təmiz suyun töküldüyü hovuzun yerləşdiyi kiçik otaq var idi. Bu və digər kiçik otaqlara giriş tağlı, onların damı isə tağ-tavanlı olmuşdu. Qapı açırımlarının eni 0,75-1 *m,* hündürlüyü 2 *m* idi. Divarlardakı suvaq qatları əsasında hamamda beş dəfə təmir-bərpa işlərinin aparıldığı müəyyən edilmişdir (Г.А.ДЖИДДИ. 1987, стр. 549-550).

Şirvan-Abşeron memarlıq məktəbi üçün səciyyəvi olan hamamın 1667-ci il zəlzələsi nəticəsində uçub dağıldığı ehtimal olunur.

Evliya Çələbi Şamaxıdakı hamamlar arasında Şabudi adlı hamamın daha məşhur olduğunu qeyd edərək yazırdı: "Xoş ab-havasına görə Şabudi hamamı hamısından gözəldir. (Orada) xeyli ayrıca otaq, hovuz vardır" (Evliya Çələbi, 1997, səh. 64). Orta əsr Şamaxı şəhərinin tədqiqatçısı H.Ə.Ciddi Şabudi hamamı ilə əlaqədar XIX əsrdə rus rəssamı Q.Q.Qaqarinin çəkdiyi Şamaxı hamamının rəsminə diqqət yetirir və onu şəhərin cənubunda yerləşən köhnə hamam ilə eyniləşdirir (Г.А.Джидди, 1981, стр. 104).

Bakıda, İçərişəhərdə tədqiq olunmuş Hacı Qaib hamamı XV əsrə aid edilir. Qapısı şərq tərəfdən olan bu hamam binası dəhliz, soyunma və çimmə bölmələrinə ayrılır. Səkkizkünclü mərkəzi salon yardımçı, kiçik otaqlarla əhatə olunmuşdur (И.П.Щеблыкин, 1943, стр. 31-32). Salonun mərkəzində soyuq sulu hovuz yerləşirdi.

Şirvanşahlar saray kompleksində aşkarlanmış hamam 26 otaqdan - giriş dəhlizi (vestibül), soyunub geyinmək yeri, mərkəzi salon, yuyunma bölməsi və istixanadan ibarət idi (А.В.Саламзаде, 1964, стр.72-78). Divarların və hovuzun stalaktit və kaşı bəzəkləri qismən saxlanmışdı. Döşəmə altında düzəldilmiş su kəməri hovuzla birləşirdi. Yazılı qaynaqlardan məlum olur ki, hamamın qızdırılması üçün qatılaşmış ağ neftdən istifadə olunurmuş (Абд ар-Рашид ал-Бакуви, 1971, стр. 89). Hamamı su ilə yaxınlıqdakı ovdan təchiz edirdi.

Tağlı, günbəzli, mürəkkəb quruluşlu XVII əsrə aid hamam qalıqları Dərbəndin narınqalasında da mühafizə olunmuşdur. Narınqalanın mərkəzində yerləşən bu tikili yonulmuş daşdan inşa edilmişdir. Onun kompozisiya - plan quruluşunun əsasında iki böyük salon durur. Onlardan biri soyuq - soyunma salonu, digəri isə isti - yuyunma salonu idi. Salonlar günbəzli örtüklə örtülmüşdü. Günbəzin ortasında işıqlandırma üçün açırım vardır. Salonlarda səkkizkünclü hovuzlar düzəldilmişdi. Hamam döşəməaltı qızdırıcı sistemə malik idi (А.А.Кудрявцев, 1989, стр. 123-124).

XIV-XV yüzilliklərə aid hamam qalıqları Abşeronun Qala kəndində də aşkarlanıb tədqiq edilmişdir (İ.Hacıyev, 1990, səh. 67-71). Qala hamamında diqqətçəkən bir cəhət burada namaz qılmaq üçün otağın olmasıdır.

Son orta əsrlərə aid hamam qalıqları Şərifan şəhər yerində də arxeoloji qazıntılarla tədqiq olunmuşdur (tablo 118, şək. 2-3). Hamam kompleksinin ümumi salonu, üç hovuzu və qərb tərəfdə yerləşmiş üç kiçik otağı üzə çıxarılmışdır (Р.Б.Геюшов, 1975, стр. 70).

Hamamlar xəstəxana komplekslərində də mühüm yer tuturdu. Belə ki, bu tip hamamlar sanitar-gigiyena təyinatından başqa müalicə prosesində bir sıra su prosedurlarının yerinə yetirilməsini təmin edirdi. Məlumdur ki, qədim dövrlərdən Şərq təbabətində universal üsul kimi akvaterapiya geniş tətbiq olunurdu. O axıtma, sürtmə, buxara vermə, komplekslər və digər su ilə müalicə üsul və metodlarını nəzərdə tuturdu (R.M.Əmənzadə, 2002, səh. 77). XIV-XV əsrin müalicəvi təyinatlı məşhur hamamları arasında Həmədan xəstəxanasındakı hamam kompleksi də vardır (А.С.Уралов, 2002, стр. 26-29).

Bütövlükdə, son orta əsrlərdə Azərbaycanda inşa olunmuş hamamların tədqiqi onların hər birinin özünəməxsus əlamətləri ilə yanaşı, həcm-məkan həllində, isitmə və işıqlandırma sistemində, su təchizatında vahid prinsiplərin mövcudluğunu göstərir. Azərbaycan hamamlarında hərəkət qrafiki düşünülmüş və dəqiq təşkil edilmiş, soyuq hava kütləsinin daxilə nüfuz etməsinin qarşısının alınmasına,

müxtəlif təyinatlı otaq və salonlarda fərqli, zəruri temperaturun təmin edilməsinə yönəlmişdir.

Buxzana qalıqları Naxçıvan və Ordubadda, Urmiya yaxınlığındakı Dəm-dəm qalasında, Beşbarmaq dağı yaxınlığında qeydə alınmışdır. Buxzanaların iki tipinə rast gəlinir: I tip Abşeron ovdanlarını xatırladır. II tipə isə su mənbəyinin üstündə kvadrat biçimdə xüsusi yeraltı yerləşgələrin qurulduğu buxzanalar daxildir. İsti yay günlərində təqribən 3-4 *m* dərinlikdə yerləşən buxzanaların (çeşmələrin) havası çox sərin olduğundan onlar müasir soyuducuları əvəz edirdilər. Ərzağın yığılması üçün yerləşgənin divarlarında taxçalar düzəldilirdi (Ə.V.Salamzadə, 1976, səh. 74). Naxçıvanda İmamzadə kompleksi yaxınlığında yerləşən buxzana düzbucaq biçimdə olub, uzunluğu 20 *m,* eni 9 *m,* ümumi hündürlüyü isə 9 *m* idi (tablo 122, şək. 1). Buxzana həm ölçülərinin böyüklüyü, həm də konstruktiv xüsusiyyətlərilə tədqiqatçıların diqqətini cəlb etmişdir. Xüsusilə, tikili örtüyünün adi çatma tağ-tavanlardan fərqli olaraq yüngüllüyü və dinamikliyi ilə fərqlənən örtükdən istifadə olunması diqqətəlayiqdir. Hər üç metrdən bir yerləşmiş çatma biçimli tağlar arasındakı sahə tağ-tavanla tamamlanmış, lakin uçaraq dövrümüzə gəlib çatmamışdır. Buxzananın konstruksiya sxemi Azərbaycanın örtülü bazarlarını xatırladır (А.В.Саламзаде и др., 1980, стр. 48-49).

Beşbarmaq karvansarası yaxınlığında aşkarlanmış buxzana qalıqları kvadrat biçimli olub, 6x6 *m* ölçüdədir. Divarları daşdan hörülmüş üzəri bərkidici məhlulla suvanmışdır (Ə.Ə.Əliyev, 2006, səh. 93-94).

Məlum olduğu kimi, şəhərlər həm də elm və tədris müəssisələrinin cəmləşdiyi mühüm mərkəzlər idi. XIII əsrdə Marağada, XIV əsrdə isə Təbriz şəhərində tikilmiş rəsədxanalar təkcə Azərbaycanda deyil, bütövlükdə müsəlman Şərqində astronomiya elminin inkişafında mühüm rol oynamışdır. Marağa rəsədxanasının xarabalıqları şəhərin qərbindəki istehkamlı təpədə yerləşərək 137x347 *m* sahəni əhatə edirdi. Arxeoloji qazıntılar nəticəsində müəyyənləşdirilmişdir ki, rəsədxana tunc dövrü yaşayış yerinin üzərində salınmışdır (P.Vərcəvənd, 1383, səh. 196-197). Burada çapılmış, rəsədxana cihazlarının yerləşdirilməsi üçün nəzərdə tutulan bir neçə otaq (tablo 122, şək. 2) təmizlənib öyrənilmişdir (A.Godard, 1934). Bu rəsədxananın mərkəzi dairəvi günbəzinin daxili diametri 14 *m*-dir. Qazıntılar zamanı rəsədxanada işlədilmiş cihazların xeyli miqdarda rəngli şüşə qırıqları tapılmışdır.

**Şəhər abadlığı.** Şəhər inzibati-idarə aparatı şəhər abadlığının lazımi səviyyədə saxlanılmasına qayğı göstərir, küçə və meydanların təmizliyinə, səliqə-sahmanına diqqət yetirir, su təchizatı şəbəkəsinin, sututarlarının fəaliyyətini tənzimləyir, sanitar-gigiyena qurğularının saz vəziyyətdə saxlanılmasını təmin edirdi. Yazılı qaynaqlar və arxeoloji qazıntılar son orta əsrlərdə meydan və küçələrin səliqə ilə döşəndiyini təsdiqləyir. Şəhər darvazalarına istiqamətlənmiş əsas magistral küçələr kifayət qədər enli olub, arabaların, yüklü dəvələrin sərbəst hərəkət edə

bilməsini təmin edirdi. Məhəllədaxili küçələr isə ensiz olub, əsasən piyadalar üçün nəzərdə tutulmuşdu. Onların döşənməsi üçün tava daşlarından, bişmiş kərpiclərdən, çaydaşından, çınqıldan, saxsı qırıqlarından istifadə olunurdu. Qəbələdə təmizlənmiş küçə çınqıl və saxsı qırıqları ilə döşənmişdi (Г.М.Ахмедов, 2003a, стр. 100; Г.Дж.Джабиев, С.Б.Гусейнова 1992, стр. 135). Şabran şəhərində XIV-XV əsrlərə aid inşaat qatında aşkar edilib təmizlənmiş küçənin eni 2,5 *m* olub, səliqə ilə yastı çaydaşıları ilə döşənmişdi (T.M.Dostiyev, 2001, səh. 98). Həmin şəhərdə XVI-XVII əsrlərə aid küçə əyrixətli olub, eni 1,8-2,3 *m* təşkil edirdi. O, əvvəlcə bişmiş kərpic parçaları döşənərək çınqılla örtülmüş, istifadə müddətində ən azı üç dəfə əsaslı təmir edilmişdir. Hər dəfə küçəyə xırda çaydaşıları və çınqıl tökülərək bərkidilmişdi. Nəticədə, küçədəki döşəmənin qalınlığı 50 *sm* təşkil etmişdir (Т.М.Достиев, 1988).

Son orta əsrlərdə Azərbaycan şəhərlərinin su təchizatı təbii şəraitdən asılı olaraq müxtəlif üsullardan istifadə etməklə həll olunurdu. Su təchizatının ən bəsit forması şəhər ərazisindəki bulaqlardan istifadə idi. Bulağın yer səthinə çıxdığı yerlərdə sudan istifadəni asanlaşdıran qurğular tikilirdi. Belə bulaqlar Şamaxı və Qəbələ şəhərlərinin arxeoloji qazıntılarından məlumdur. İçməli suyun yer səthinə yaxın olduğu ərazilərdə quyu qazaraq onun suyundan istifadə edilirdi. Belə quyular arxeoloji qazıntılar zamanı Bakı və Şamaxıda daha çox aşkarlanmışdır. Şəhərlərin suya tələbatı həmçinin ətraf ərazilərdəki, bəzən hətta uzaq məsafələrdəki mənbələrdən gətirilən su hesabına ödənilirdi. Suyun gətirilməsi və şəhər daxilində paylanması məqsədilə müxtəlif hidroqurğular tikilirdi. Bunlar arx və kanallar, kəhrizlər və tünglərdən quraşdırılmış su kəmərlərindən ibarət idi. Təbriz, Gəncə, Bakı şəhərlərinin su təchizatında kəhrizlər mühüm yer tuturdu.

Son orta əsrlərdə Təbrizdə 900, Gəncədə 10, Bakıda 3 kəhriz xəttinin mövcudluğu bildirilir (С.Б.Гусейнова, 1992a, стр. 123). Arxeoloji baxımdan Bakı kəhrizləri daha yaxşı tədqiq olunmuşdur. Burada kəhriz sisteminin yaradılması üçün daş və qayalar çapılaraq yeraltı su xətləri inşa edilmişdir. Bakı şəhərinə suyun gətirilməsi üçün əvvəlcə su mənbələrinin olduğu yerlər müəyyənləşdirilmiş, sonra isə suyun İçərişəhərə maneəsiz axıdılmasını təmin edən kəhriz xətləri çəkilmişdir. Kəhrizin çəkilməsi gümana quyunun qazılması və su mənbəyinin müəyyənləşdirilməsi ilə başlayıb, gödə quyu ilə başa çatırdı. Gümana quyu qazıldıqdan sonra hər 15-30 *m*, bəzən daha böyük məsafələrdə quyular qazılır, həmin quyular lağım qazmaqla bir-biri ilə birləşdirilirdi. Ərazinin relyefindən asılı olaraq quyuların dərinliyi müxtəlif olurdu. Bu quyular bir tərəfdən suyun axımını təmin edən yeraltı kürənin (kanalın) qazılmasını təmin edir, digər tərəfdən kəhrizin fəaliyyət göstərdiyi müddətdə ona nəzarət, ehtiyac yarandıqda təmir və təmizləmə işləri aparmağa imkan verirdi. Suyun maneəsiz olaraq son nöqtəyə çıxışını təmin edən yeraltı kanal (kürə) suyun həcmindən və axma sürətindən asılı olaraq müxtəlif ölçülərdə olurdu. Məsələn, Bakının Hüseynquluxan kəhrizinin ana xəttinin kürəsi İçərişəhərdə 1,25 *m* dərinlikdə, 0,8 *m* enində, onun qollarının kürəsinin dərinliyi isə 0,8 *m* dərinlikdə, 0,6 *m* enindədir (С.Б.Гусейнова, 1992a, стр. 124).

Kəhrizin digər qolunda yeraltı kanalın dərinliyi 0,6 *m,* eni isə 0,45 *m* idi (Ф.А.Ибрагимов, С.Б.Гусейнова, 1990, стр. 21).

Yeraltı kanalın - kürənin döşəməsi və divarları daş və ya bişmiş kərpiclə möhkəmləndirilir, üzəri tava daşlarla və ya tağvari örtüklə örtülürdü. Yoxlama-nəzarətçi quyuların divarları da hörülürdü. Bakı kəhrizlərinin üstünlüyü ondadır ki, onlar əsasən qayada çapılmışdır, torpaqlı yerlərdə isə yaxşı yonulmuş daşlarla hörülmüşdür. Arxeoloji qazıntılar İçərişəhərdə kəhriz xətləri ilə gələn suyun xüsusi inşa olunmuş sututarlarına - hovuz və ovdanlara töküldüyünü təsdiqləmişdir (E.Qasımov, 2002, səh. 55-59; Ф.А.Ибрагимов, С.Б.Гусейнова, 1990, стр. 22; F.İbrahimov və b., 1991, səh. 27).

Kəhrizin inşası müəyyən bir imkanlı şəxsin və ya bir neçə nəfərin vəsaiti hesabına həyata keçirilirdi. Bir qayda olaraq kəhriz onu inşa etdirən şəxsin adı ilə adlandırılırdı. Misal üçün, Bakının XV-XVII əsrlərdə mövcud olmuş kəhrizləri Şahkəhrizi, İmamquluxan kəhrizi və Hüseynquluxan kəhrizi adı ilə məlumdur.

Şəhərləri su ilə təchiz etmək üçün suyun saxsı tünglərdən quraşdırılmış kəmərlər vasitəsi ilə ətrafdakı mənbələrdən gətirilərək, paylaşdırılması üsulundan da geniş istifadə olunmuşdu. Arxeoloji qazıntılar zamanı bu növ su kəmərlərinə orta əsr Dərbənd, Şabran, Şamaxı, Qəbələ, Bakı, Gəncə, Bərdə və digər şəhər yerlərində rast gəlinmişdir. Belə kəmərlərin ana xətti iri tünglərdən, şəhər daxilində şaxələnmiş qolları isə kiçikölçülü tünglərdən quraşdırılırdı. Ana xəttin qollara şaxələnməsi, şəhər daxilində müxtəlif istiqamətlərə döndərilməsində üçlük və dirsəklərdən istifadə olunurdu. Tünglərin kip birləşdiyi yer xüsusi, suyadavamlı məhlulla sürtülərək bir daha möhkəmləndirilirdi. Kəmərin suyun təzyiqinə davamlılığını artırmaq, təhlükəsizliyini təmin etmək məqsədi ilə onun üçün xüsusi dar, dayaz kanal qazılaraq döşəməsi relyefə uyğun elə yönəldilirdi ki, suyun son mərhələyə normal axınını təmin etsin. Kəməri hər tərəfdən bişmiş kərpiclər və müvafiq formada yonulmuş daşlarla örtüb məhlulla bərkidirdilər. Bu örtük kəməri həm də mexaniki təsirlərdən mühafizə edirdi. Kəmər boyunca yoxlama və təmir üçün müəyyən məsafələrdə xüsusi yoxlayıcı quyular qazılır və ya iri küplər yerləşdirilirdi.

Su ehtiyatı toplamaq və mühafizə etmək üçün hidromühəndislər müxtəliftipli sututarları - hovuzlar, ovdanlar və s. inşa edirdilər. Arxeoloji qazıntılar zamanı Qəbələdə XV əsrin əvvəllərində tikilmiş 100x50x4 *m* ölçüdə böyük su hovuzu aşkarlanmışdır.

Son orta əsrlərdə Şirvanda süxur və kəhriz sularını toplamaq üçün ən geniş istifadə olunan sututarı ovdanlar idi. Yeraltı və yerüstü hissələrdən ibarət olan bu sututarlarının tağvari örtüyü və baş tağ şəklində işlənmiş girişi olurdu. Ovdanlar arxeoloji qazıntılarla Bakı və Şamaxı şəhərlərində tədqiq edilmişdir (E.Qasımov, 2002, səh. 85-87; F.İbrahimov və b., 1991, səh. 27; Г.А.Джидди, 1981, стр. 50). Şirvanşahlar saray kompleksini su ilə təchiz edən ovdan düzbucaqlı biçimdə olub, uzunluğu 20 *m,* eni 6 *m,* dərinliyi 4 *m* idi. Onun su tutumu 480 kubmetrə qədər idi (А.Б.Саламзаде, 1969, стр. 207-208). 1990-cı ildə İçərişəhərdə üzə çıxarılan ovdan qalığı da düzbucaq biçimli olub, uzunluğu 3 *m,* eni 2,5 *m* idi. Üstü tağvari formada

örtülmüş ovdanın içərisinə düşmək üçün beş pillədən ibarət daş pilləkən vardı. Ovdanın şəhərin şərq hissəsini su ilə təchiz etmək üçün tikildiyi ehtimal edilir (F.İbrahimov və b., 1991, səh. 27).

Şamaxıda arxeoloji qazıntılar zamanı narınqalanın şərq hissəsində aşkarlanıb tədqiq olunan ovdan forma etibarilə Bakı ovdanlarından fərqlənir. Yonulmuş ağ daşdan, səkkizkünclü biçimdə tikilmiş bu sututarı yer səthindən 7 *m* dərinlikdədir. Ovdanın içərisinə düşmək üçün cənub tərəfdən 9 pillədən ibarət pilləkən vardır. Ovdanın aşağı hissəsində adamların oturub dincəlməsi üçün xüsusi memarlıq üslubunda yer düzəldilmiş, mərkəzində isə səkkizguşəli kiçik hovuz tikilmişdir (Г.А.Джидди, 1981, стр. 50).



**Şamaxı. Ovdan.**

Şəhərlərin abadlığı üçün sanitariya məsələlərinin həlli mühüm əhəmiyyət kəsb edirdi. Arxeoloji qazıntılar son orta əsrlərdə şəhərlərdə yaşayış evlərinin, ictimai və istehsalat tikililərinin sanitariya məqsədi güdən xüsusi qurğularla təchiz edildiyini göstərir. Kanalizasiya sistemi, çirkab və zibil quyuları bu qəbildən olan qurğular idi.

Kanalizasiyanın bəsit forması çirkab suyun quyu vasitəsilə torpağa hopdurulması idi. Belə quyuların ağzı bişmiş kərpic və ya tava daşdan səliqə ilə hörülürdü. Mərkəzdəki kərpic və ya tava daşın ortasında suyun axıdılması üçün dairəvi deşik olurdu. Təsvir olunan lokal kanalizasiya quyuları Bakı, Şabran, Qəbələ qazıntılarından yaxşı məlumdur. Kanalizasiya quyuları yaşayış binasından aralıda yerləşdiyindən çirkab ora bir-birinə geydirilmiş saxsı tünglər vasitəsilə axıdılırdı.

Kürəbənd üsulu ilə inşa olunmuş kanalizasiya xətti İçərişəhər və Qırxçıraq qazıntılarından məlumdur. Qırxçıraqda kürəbənd bişmiş kərpicdən və tava daşdan quraşdırılmış, 3,5 *m* uzunluqda qalığı arxeoloji qazıntı zamanı üzə çıxarılmışdır (B.M.Abdullayev, R.B.Göyüşov, 1988, səh. 4, şək. 6).

Mükəmməl quruluşlu kanalizasiya sisteminin qalıqları Bakıda - İçərişəhərdə aparılan arxeoloji qazıntılardan yaxşı məlumdur. Arxeoloji qazıntılar zamanı kanalizasiya sisteminin qalıqları şəhərin müxtəlif sahələrində üzə çıxarılmışdır. İçərişəhərin şərq hissəsində belə qalıqlar daha yaxşı tədqiq olunmuş, burada 1977-1990-cı illərdə baş xətt və onun bir neçə qolu üzə çıxarılmışdır (О.Ш.Исмизаде, 1980; О.Ш.Исмизаде и др., 1980, стр. 33; Ф.А.Ибрагимов и др., 1984, стр. 67; Ф.А.Ибрагимов и др., 1986, стр. 66-67; Ф.А.Ибрагимов, С.Б.Гусейнова, 1990, стр. 22). Eni 65 *sm,* dərinliyi 70 *sm* olan kanalizasiyanın baş xətti bir qədər maili vəziyyətdə qərbdən şərqə istiqamətlənmişdir. Lay daşlardan tikilmiş kanalın yan divarlarında 62x35x15 *sm;* 65x45x15 *sm;* 77x37x15 *sm* ölçülü daşlar tili üstə qoyulmuşdur. Kanalizasiyanın döşəməsi və örtüyü də eyni formalı lay daşlardan istifadə etməklə quraşdırılmışdı. Kanalizasiya xətti daxilindəki çöküntülərdən tapılmış metal əşyalar, şüşə, saxsı qab qırıqları əsasında XIV-XV yüzilliklərə aid edilir.

Arxeoloji qazıntıların nəticələri son orta əsrlərdə Bakıda ümumşəhər kanalizasiya sisteminin mövcudluğunu təsdiqləməklə şəhər sanitariya məsələlərinin uğurla həll olunduğuna dəlalət edir.

Məişət və istehsalat tullantıları, müxtəlif cür zir-zibil imkan daxilində şəhərdən kənara çıxarılırdı. Şəhər daxilində isə zibil xüsusi qazılmış dərin quyulara atılırdı.

## Qalalar, qəsrlər və qüllələr

Əvvəlki dövrlərdə olduğu kimi, son orta əsrlərdə də Azərbaycanda, hərbi-strateji nöqteyi-nəzərdən əlverişli ərazilərdə etibarlı qalalar və yaxud qəsrlər ucaldılır, hərbi təhlükələr zamanı həmin istehkamlarda ətraf kəndlərin sakinləri müdafiə olunurdu. Son orta çağda dağ keçidlərində ətraf əraziləri nəzarətdə saxlayan gözətçi qalaları və ya müdafiə qüllələri ucaldılırdı. Bəzi imkanlı ailələr və ya qohumlar qüllə-evlər inşa edirdilər.

Gülüstan qalası Şirvanşahlar dövlətinin paytaxtının müdafiə sistemində əvvəlki əhəmiyyətini saxlamaqda idi. Onun bir neçə kilometrliyində olan Buğurt qalası da Şirvanın müdafiə sistemində əhəmiyyətli mövqeyə malik idi. Şamaxı şəhərindən 20 *km* şimal-qərbdə, düz bir dağın zirvəsində yerləşən, hər tərəfdən uçurumla əhatə olunmuş qalaya yalnız qərb tərəfdən qalxmaq mümkün idi. Qalanın ön istehkamları qərb tərəfdən təhlükəsizliyi təmin etməyə xidmət etmişdir. "Şah evi" adlandırılan narınqala etibarlı nöqtədə, dağın əlçatmaz zirvəsində yerləşmişdir. Buğurt qalasının səciyyəvi xüsusiyyəti onun bir-birinə bitişik olan, bəzən təbii aşırımlar vasitəsilə birləşən dağ silsilələrinə uyğunlaşdırılmasıdır. Divarın qalınlığı 5 *m* olan ön istehkam düzbucaq biçimdə, 1800x250 *m* olmaqla dağ silsiləsinin zirvəsinə gedən yolu kəsir. İstehkam müxtəlif ölçülü daşlar və qum-əhəng qarışdırılmış məhlul ilə

inşa olunmuşdur. Bu istehkam ilə əlaqəli bir neçə tikilinin xarabalıqları qeydə alınmışdır. Qalanı cənubdan qoruyan, diametri 3,5 *m* olan bürc, onun arxasında 15x5 *m* ölçüsündə dördkünc tikili qalığı, həmin bürcə bitişik olan divar 10-12 *m* şimala doğru davam etdikdən sonra dağın relyefinə uyğun olaraq düzbucaq formada şərqə tərəf əyilir, sonra yenə də şimal istiqamətində təxminən 240-250 *m* məsafədə davam edərək başqa bir dairəvi bürclə birləşir. Bu bürcə düzbucaq biçimli tikili, görünür, gözətçi məntəqəsi bitişir. Həmin tikintidən 250 *m* şimala doğru davam edən qala divarı mürəkkəb formalı, üçgözlü tikiliyə keçir. Ondan qalınlığı 5 *m* olan divar 15-20 *m* uzunluqda qərbə uzanır. Burada vaxtilə hərbi hissələr yerləşirmiş. Eyni təyinatlı tikili divarın 200 *m* davam edərək tamamlandığı sahədə də vardır.

"Şah evi" adlanan, narınqala funksiyası yerinə yetirmiş kompleks üç otaqdan ibarətdir. Kompleksin şimal tərəfində dağın yamacları istiqamətində, bir-birindən təqribən 200-250 *m* aralı qoşa divar çəkilmişdir. Bu divarlardan başqa dağın əlverişli çıxış yerlərində də müxtəlif sədd və maneələr tikilmişdir (H.Ə.Ciddi, 1973, səh. 19-27).

Ön istehkam çaydaşı və böyük həcmli yonma daşlardan, narınqala tikililəri isə yalnız yonulmuş daşlardan inşa olunmuşdur.

Buğurd qalasından əldə olunmuş arxeoloji materiallar onun son orta əsrlərdə Şirvanşahların mühüm istehkamlarından biri, eləcə də yay iqamətgahı olduğunu söyləməyə əsas verir (H.Ə.Ciddi, 1973, səh. 36-40).

Son orta yüzilliklərdə Abşeron yarımadasının müdafiə sistemində qəsrlərin rolu böyük olmuşdur. Əbdürrəşid əl-Bakuvi Bakı şəhərindən bəhs edərək məlumat verir ki, "şəhərin yaxınlığında çoxlu kənd yerləşir və hər bir kəndin möhkəmləndirilmiş iç qalası vardır" (Абд ар Рашид ал-Бакуви, 1971, стр. 89).

Arxeoloji axtarışlar və memarların tədqiqatları ilə Buzovna, Şağan, Mərdəkan, Nardaran, Ramana qalalarından başqa orta əsr qalalarının qalıqları Balaxanı, Sabunçu, Bilgəh, Maştağa, Keşlə, Biləcəri, Qala da öyrənilmişdir. Son orta əsrlərdə Abşeron yarımadasında 40-dan artıq belə istehkamın olduğu ehtimal edilir (Е.А.Пахомов, 1947; С.Велиев, 2000, стр. 42). Dənizsahili ərazidə sıx, yarımadanın içəri kəndlərində isə nisbətən seyrək yerləşən bu qəsrlər vahid müdafiə sisteminin ayrı-ayrı həlqələri olub, yarımadanın təhlükəsizliyini təmin edirdi. Abşeronun son orta əsr qalalarının səciyyəvi əlamətlərini Nardaran, Ramana və Mərdəkan qalaları timsalında izləmək mümkündür (tablo 123). Eyni plan-məkan quruluşu olan bu qəsrlər iri və uca tutumlu qüllədən və onu dövrələyən, yanmdairəvi bürclərlə möhkəmləndirilmiş qala divarlarından ibarətdir. XIV əsrdə inşa olunmuş Nardaran qalası üçqatlı, Ramana qalası dördqatlı, Mərdəkan qalası isə beşqatlıdır. Bu qəsrlərdə qüllələrin daxili quruluşu mürəkkəb olub mərtəbələrdə yelçəkmə və işıqlandırma üçün günbəzlərin ortasında kiçik bacalar və yan divarlarda pəncərə yarıqları vardır (C.Qiyasi, 1991, səh. 160). Qəsrlərin kiçik həyəti vardır. Mərdəkan

qəsrinin həyəti düzbucaq (28x25 *m),* Nardaranda dördkünc (28x26 *m),* Ramanada isə trapesiya biçimlidir (28x10 *m).*

Bərpa işləri ilə əlaqədar Mərdəkan qalasında aparılmış qazıntı nəticəsində abidənin şimal tərəfində 50 *sm* qalınlıqda mədəni təbəqə yatımına malik olduğu müəyyənləşdirilmişdir (В.И.Гарник, 1960, стр. 185).

Nardaran qəsrində qüllənin hündürlüyü 12,5 *m,* Ramanada 15 *m,* Mərdəkanda isə 22 *m*-dir. Nardaran qülləsi dairəvi, Ramana və Mərdəkan qüllələri isə dördkünc və düzbucaq biçimdə olub, küncləri yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Qüllələrin divarlarının 1,5 *m*-dən 2,1 *m-ə* qədər qalınlıqda olması divariçi dolama pilləkənlər quraşdırmaqla mərtəbələrarası əlaqəni təmin etməyə imkan vermişdir. Ramana qəsri istisna olmaqla, qüllələrdə mərtəbələrarası pilləkənlər ikinci qatdan başlanır və üst qatları əlaqələndirir. Belə konstruksiya dövrün hərb sənətinin tələblərinə cavab verirdi. Təhlükə zamanı nərdivan və ya asma kəndir pilləkən götürülür və hücum edən düşmənin üst qatları ələ keçirmək imkanı məhdudlaşırdı.

Böyük Mərdəkan qalasının həyətindəki qayada oyulmuş təsərrüfat quyuları ərzaq ehtiyatı yaratmaq, lazım gəldikdə uzunmüddətli mühasirəyə davam gətirmək məqsədi daşımışdır. Burada 36 belə təsərrüfat quyusu təmizlənmişdir.

Nardaran qəsrində qüllənin mərkəzindəki quyunu isə Xan bağı və yaxınlıqdakı Pir ilə əlaqələndirən yeraltı yol olduğu ehtimal edilir (C.Qiyasi, 1991, səh. 160).

Son orta əsrlərdə dağ keçidlərində gözətçi qalalarının ucaldılması ənənəsi davam etdirilməkdə idi. Bu tip qalalardan Cəlilabad rayonunda Qazan köşkü, Astara rayonunda Kalafu qalası, Yardımlı rayonunda Cuzinqala, Cənubi Azərbaycanda Qoturqala, Malikqala, Bərdukqala və Dəm-dəm qalalarını göstərmək olar. Qazan köşkü Cəlilabad rayonunun Musalı kəndinin şimal-şərqində, Burovar silsiləsinin ən ucqar nöqtələrindən birində inşa olunub. Qala planda ellips şəklində olub ərazinin relyefinə uyğunlaşdırılmışdır. Ümumi sahəsi bir hektardır. Kirəc məhlulundan istifadə olunmaqla çaydaşı və bişmiş kərpicdən tikilən bu qala müdafiə xəttinə malik olmuşdur. Hörgüdə istifadə edilmiş bişmiş kərpiclərin ölçüləri 21x21x5 *sm,* 21,5x21,5x5 *sm* olsa da, çəkiləri arasında fərqin olması diqqəti çəkir. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar əsasən XIV-XV əsrlər üçün səciyyəvi olan şirsiz və şirli qabların qırıqlarından ibarətdir. Qazan köşkü Hülaku hökmdarı Qazan xanın quruculuq fəaliyyəti ilə əlaqələndirilir və onun tərəfindən inşa etdirilmiş qəsr-qalalardan biri olduğu ehtimal olunur (К.О.Кошкарлы, 1992. стр. 126; A.İ.Ələkbərov, 2007).

Kalafu qalası şimal-cənub istiqamətində uzanan, qərb tərəfdən 70 *m,* şərq tərəfdən hündürlüyü 150 *m*-ə çatan qaya üzərində yerləşir (К.О.Кошкарлы, 1992, стр. 26; Т.Ахундов, И.Алиев, 2002, стр. 121-123). Qayanın zirvəsinin mərkəzində, 6-8 *m* aşağıda meydança kəsilmişdir. Bu meydança bir-birindən 14-16 *m* aralıda olmaqla, iki tərəfdən qaya ilə əhatə olunub. Şərq tərəfdə, qayanın

kənarlarında kiçik ölçülü qaya daşlarından hörülmüş divarın qalıqları qalır. Qərb tərəfdə divar qalıqları izlənilmir. Onun vaxtilə qaya ilə birlikdə uçub töküldüyü bildirilir. Meydançanın şimal tərəfində 2,7x1,3 *m* ölçüdə, 1,6 *m* dərinlikdə sututarı (hovuz) çapılmışdır.

Kalafu qalası ətrafındakı 5-6 hektar sahədə, xüsusilə Kalafu qayasının ətəklərində saxsı qab qırıqlarının səpələnməsi qala ətrafında yaşayış olmasından xəbər verir. Görünür, son orta əsrlərdə burada istehkamlı yaşayış yeri olmuş, onun narınqalası olan Kalafu qalası geniş bir ərazini nəzarət altında saxlamağa imkan vermişdir (Т.Ахундов, И.Алиев, 2002, стр. 122).

Cuzinqala kvadrat formalı bişmiş kərpicdən inşa olunmuşdur. Planda çoxbucaqlı formaya malik bu qalanın şimalda iki, şərqdə isə bir bürcü vardır (tablo 119, şək. 3). Qalanın divarlarının mühafizə olunmuş hündürlüyü bəzi yerlərdə 1 *m*-ə çatır (К.О.Кошкарлы, 1992, стр. 126).

Nisəqala Yardımlı rayonunun eyniadlı kəndinin şimal-şərqində, dağ yamacında yerləşir. Çaydaşı və bişmiş kərpicdən inşa olunmuş bu qala güclü dağıntıya məruz qalmışdır. Görünür, Nisəqala bu ərazidən keçən karvan yolunu nəzarət altında saxlamaq məqsədi daşımışdı. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar son orta əsrlər üçün səciyyəvi olan saxsı qab nümunələrindən ibarətdir (К.О.Кошкарлы и др, 1987).

Dağ keçidlərində inşa edilmiş qalalardan biri də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda, Naxçıvançayın sol sahilində yerləşən Şapurqaladır. Sahəsi 1300 *kv.m* olan bu qala hündür dağın zirvəsindəki qayalıq üzərində yerləşir. Qalaya yalnız dar cığırla cənub-şərq tərəfdən qalxmaq mümkündür. Qalanın yerləşdiyi sahə çoxbucaqlı meydança şəklindədir. Qalada qayada çapılmış düzbucaq biçimli, sahəsi 10-14 *kv.m* olan otaqlara təsadüf edilmişdir. Qapı açırımının eni 0,8-1 *m*-dir. Qalanın mərkəz hissəsində bişmiş kərpicdən inşa edilmiş, lakin tamamilə dağıdılmış tikili qalıqları qeydə alınmışdır. Burada 2,5x2,5 *m* sahədə aparılmış yoxlama qazıntı mədəni təbəqə yatımının 50 *sm* təşkil etdiyini göstərmişdi. Qazıntı zamanı bişmiş kərpiclərdən qurulmuş dairəvi biçimli ocaq qalığı aşkarlanmış, dən daşlarının qırıqları tapılmışdır. Qalanın kiçik meydança hissəsində, qayada diametri 1,2 *m*, dərinliyi 1,3 *m* olan quyu oyulmuşdur. Quyunun su və ya ərzaq ehtiyatı üçün oyulduğu ehtimal edilir.

Şapurqalanın ərazisindən tapılmış orta əsrlərə aid xeyli saxsı qab nümunələri XVI əsrədək buranın gözətçi məntəqəsi kimi istifadə olunduğunu göstərir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1992, səh. 13-15).

Cənubi Azərbaycanda aparılan arxeoloji axtarışlar nəticəsində dağ keçidlərində bir sıra qalalar qeydə alınmışdır. Miyanədən şərqdə, dağ dəliyində yerləşən Qız qalası (Kale Duxtər) Azərbaycanın iri dağ qalalarından biri olub, relyefə uyğun üçbucaq biçimli möhtəşəm istehkamdır. Qalanın divarları sıldırımlı yarğanda elə yerləşib ki, faktiki alınmazdır (tablo 124, şək. 1). Darvazanın

təhlükəsizliyinin təmin olunmasına xüsusilə diqqət yetirilmiş, o dairəvi cinah bürcləri ilə möhkəmləndirilmişdir. Qalanın daxilində düzbucaq biçimli tikili hakim mövqeyə malikdir. Qalanın ərazisindən yerüstü material kimi XIII-XIV əsrlərin saxsı nümunələri tapılıb. Amma memarlıq xüsusiyyətləri onun daha qədim olduğunu söyləməyə imkan verir (W.Kleiss, 1969, p. 73).

Qoturqala Van-Xoy-Təbriz yolunda, Xoy şəhərini Anadolu tərəfdən gözlənilən təhlükədən qorumaq üçün inşa olunmuşdur. Dağ qalası olmaqla, o uca dağın zirvəsində yerləşir (tablo 124, şək. 3). Bu qala bürclərlə möhkəmləndirilmişdir. Qala çiy kərpicdən inşa olunmuş, uzunluğu təxminən 100 *m*, eni 30 *m*-dir. Qalanın üç yarımdairəvi bürcü əhəng məhlulunda daşdan hörülmüşdür (W.Kleiss, 1969, p. 70).

Maku qalası eyni adlı şəhərdən şimalda, şəhərə girişdə yerləşirdi. Qalanın qərb divarları nisbətən yaxşı mühafizə olunmuş, şərq divarları güclü dağıntıya məruz qalmış, cənubda isə qala divarlarının qalıqları üzərində yaşayış evləri inşa olunmuşdur. Bu səbəbdən onun plan quruluşunu, konstruktiv xüsusiyyətlərini tam müəyyənləşdirmək mümkün deyil. Qala səliqə ilə yonulmuş daşlardan əhəngli məhlulla inşa edilmişdir. Divarın bəzi yerlərində çiy kərpicdən hörgüyə təsadüf edilir. Qalanın yaxınlığında bulaq vardır. Qalanın üzərindəki kitabədə onun təmir olunma tarixi - hicri 1052-ci il göstərilmişdir (Əli Sədrayi, 1383, səh. 247-248).

Maku şəhərindən 9 *km* şərqdə isə gözətçi qülləsi yerləşirmiş. O, strateji baxımdan çox əlverişli mövqedə, təcrid olunmuş, konusşəkilli qaya üzərində ucaldılmışdı. Hazırda qüllənin xarabalıqları qalmışdır. Qüllə planda dairəvi olub, diametri 5 *m*-dir, onun divarlarının qalınlığı isə 1 *m*-dir (W.Kleiss, 1969, p. 69, abb. 72).

Urmiya-Salmas yolunun üstündə, Urmiya gölünün şimal-qərb tərəfində, dağlıq ərazidə, səkkizbucaqlı plana malik qalanın qalıqları qeydə alınmışdır (tablo 125, şək. 2). Qala yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Giriş qapısı şimal tərəfdən idi. Tədqiqatçılar qalanın 24 yarımdairəvi bürcünün olduğunu bildirirlər. V.Klays bu qalanı Elxanilər dövrünə, Əli Sədrayi isə Səfəvilər dövrünə aid edir (Ə.Sədrayi, 1383, səh. 249).

Bərdukqala Sürmayi mahalının eyni adlı kəndindən 6 *km* qərbdə, dağ zirvəsində, dəniz səviyyəsindən 2220 *m* hündürlükdə yerləşir. Bu qala dağ keçidini qoruyan istehkam olub, Həsəni və Kutəl keçidi adı ilə məlumdur. Əlverişli hərbi-strateji əhəmiyyətə malik qala geniş bir ərazinin bütün giriş və çıxışlarını nəzarətdə saxlamağa imkan verirdi. Qala dörd hissədən ibarətdir: qoruyucu hasar, orta divar, mərkəzdəki binalar, müşahidə bürcü (tablo 125, şək. 1). Daşdan inşa olunmuş qoruyucu hasar yarımdairəvi kontforslarla möhkəmləndirilmişdir. Giriş qapısı tağla tamamlanırdı. Darvaza dördkünc formada idi. Qalanın mərkəzində kvadrat biçimli, üçmərtəbəli bina yerləşirdi. Onun yalnız bir hissəsi qalmışdır. Bina daşdan əhəngli məhlulla inşa olunmuş tağ-tavanlı idi.

Gözətçi qülləsi dairəvi planda olub, qalanın şimalında ən yüksək sahədə ucalırdı (Əli Sədrayi, 1383, səh. 250-251).

Dəm-dəm qalasının xarabalıqları Urmiyadan Uşniyəyə gedən magistralın sol tərəfində, Balans məntəqəsindən sonra, Qasımlı dərəsinə çatmamış dağlıq ərazidə, sal qaya üzərində yerləşir. Qalaya şərq və qərb tərəfdən yol vardır. Qalanın müşahidə sahəsi genişdir və Urmiya səhralığından gölünədək, Qasımlı dərəsinə kimi ərazini əhatə edir. Cənub və şimaldan qala qayalarla əhatə olunmuş və qayalar qala divarlarını əvəz edirdi. Qayaların kənarları isə uçurumludur. Şərq və qərb tərəfdən qalanı hündür divar və bürc qoruyur. Giriş qapısı şərq tərəfdəndir. Qərb divarı isə bir atlının keçməsinə çətinlik törədən dağ arasında yerləşir. Qalanın içərisində qüllə vardır.



**Bərdukqala.**

Son orta əsrlərin istehkam abidələri arasında qüllə evlər özünəməxsus yer tutur. Onların qalıqları Qazax və Car-Balakən bölgəsində qeydə alınıb öyrənilmişdir. Bu tip abidələrə, bir qayda olaraq, dağlıq ərazidə, əlverişli coğrafi mövqeyi olan yerlərdə rast gəlinir. Qüllə evlərini qohumluq telləri ilə bağlı olan adamlar ucaldırdılar. Bu tikililərin adətən qalın divarları kvadrat biçimli, bir neçə qatlı olub, döyüş mazğallarına malik idi. Qatlar arasında ağac konstruksiyalı və ya günbəzvari daş tavan yerləşirdi. Onların mərkəzində qatlararası əlaqə üçün açırım var idi.

Qazax rayonunun Əskipara kəndində yerləşən qüllə evləri dördkünc biçimli olub, çaydaşından gəc məhlulla inşa edilmişdir. Mazğallar, zirzəmi və 40 *sm*-lik dekorativ qurşaq bişmiş kərpicdən hörülüb. I və II qatlarda qüllənin divarlarının qalınlığı 1,8 *m* təşkil edir. Yuxarı mərtəbələrdə divar tədricən nazikləşir. XV-XVII əsrlərə aid edilən bu yaşayış qülləsinin beşqatlı olduğu ehtimal olunur (Н.Н.Алиев, 1986, стр. 147).

Car-Balakən bölgəsinin qüllə evlərini səciyyələndirmək nöqteyi-nəzərindən Çingizqalaya diqqət yetirək. XVII-XVIII yüzilliklərə aid edilən bu tikili kvadrat biçimli olub, beşqatlıdır. Qüllə-evin divarlarında döyüş mazğalları vardır.

Beləliklə, qüllə-evlər yaşayış evi funksiyasından başqa, həm də istehkam rolu oynamış, gözətçi məntəqəsi funksiyası daşımışdır (А.Мехтиев, 1994, стр. 126).

## Kənd tipli yaşayış yerləri

Son orta əsrlərdə, əvvəlki dövrdə olduğu kimi, Azərbaycanda yaşayış məskənlərinin böyük əksəriyyətini kəndlər təşkil edirdi. Bəzi müasir kəndlərin ərazisində mədəni təbəqə yatımının varlığı onların bünövrəsinin son orta yüzilliklərdə qoyulduğunu və bu günədək həmin yaşayış məskənlərində fasiləsiz həyatın davam etdiyini söyləməyə əsas verir. Monqol işğalı, eləcə də Elxanilər ilə Qızıl Orda xanları arasındakı qarşıdurma və müharibələr nəticəsində kənd tipli yaşayış məskənlərinin çoxu XIII əsrdə mövcudluğunu dayandırdı. Düzən ərazilər və yollar üzərində yerləşən məntəqələrə xüsusilə ağır zərbələr dəydi. Misal üçün, Şimal-Şərqi Azərbaycana diqqət yetirək. Burada XIII əsrin ortasında və ikinci yarısında, Müşkür düzünün şimalındakı meşəlik ərazidə yerləşən yaşayış məskənləri istisna olmaqla, bütün digər kəndlər məhv edilmişdi. Bölgədə yeni yaşayış məskənlərinin salınması XIII əsrin sonu - XIV əsrin əvvəllərində dağətəyi və dağlıq ərazilərdə müşahidə olunur. Quba-Xaçmaz bölgəsində Baş Əmirxanlı, İspik, Qartı, Muçu, Kələpəktəpə, Gülüstantəpə, Şapurtəpələri, Xurunxur, Həsənli, Qədim yer məhz bu zaman dağətəyi və dağlıq zonada salınmışdır.

Son orta əsr kənd tipli yaşayış yerləri arxeoloji cəhətdən zəif öyrənilmişdir. Məhdud arxeoloji qazıntılar Müşkür düzünün şimalında - Seyidli və Salmanbulağı yaşayış yerlərində, Qusar rayonunda Daştəpə, Şəmkir rayonunda isə Bitdilli yaşayış yerlərində, Culfa bölgəsində II Nəhəcir yaşayış yerində aparılmışdır. Sahəsi 4 hektardan artıq olan Seyidli yaşayış yerinin I qazıntı sahəsində XIII-XV əsrlərə aid qarışdırılmış mədəni təbəqənin varlığı qeydə alınmışdır. Abidənin ərazisi mütəmadi olaraq əkin üçün şumlandığından mədəni təbəqənin XIII-XV yüzilliklərə aid üst qatındakı tikili qalıqları dağılmış, saxsı məmulat və digər maddi mədəniyyət qalıqları tamamilə xırdalanmışdır (T.M.Dostiyev, 2001, səh. 56-57).

Xaçmaz rayonunun Sahillər kəndindən 200 *m* cənubi-şərqdə, eyni adlı bolsulu bulağın yaxınlığında yerləşən, sahəsi 2 hektara yaxın olan Salmanbulağı yaşayış yeri üç tərəfdən meşə, qərbdən isə kəndə gedən torpaq yolla hüdudlanır. Orada 194 *kv.m* sahədə aparılmış qazıntı nəticəsində yaşayış yerində mədəni təbəqənin 1-1,16 *m* olduğu müəyyən edilmişdir. Kənd təsərrüfatı işləri ilə əlaqələr mədəni təbəqə yatımının 30-40 *sm* qalınlıqda üst qatı dağıdılaraq qarışdırılmışdır. Bu səviyyədən aşağıda isə müxtəlif inşaat qatlarına mənsub təndirlər, ocaqlar, biri-digərini kəsən quyular, istehsalat qalıqları üzə çıxarılmışdır (tablo 126). Qazıntı

sahəsində üç təndirxana, meyvə qurutmaq üçün bir təndir, XIV əsrə aid dəmirçixananın qalıqları, məişət, təsərrüfat və dulusçuluqla bağlı müxtəlif quruluşlu 22 quyu tədqiq edilmişdir (T.M.Dostiyev, 2000, səh. 37-42). Sənətkarlıqdan xəbər verən istehsalat tikililərinin - dəmirçixana qalıqları və dulusçu emalatxanasına mənsub, düzbucaq biçimli gil quyusunun aşkarlanması son orta əsr sənət istehsalının öyrənilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir. Arxeoloji qazıntı zamanı əldə olunmuş tapıntılar metal məmulatdan, şirli və şirsiz saxsı qab nümunələrindən, daş və sümük alətlərdən, bəzək əşyalarından, parça qalıqlarından ibarətdir. Şirsiz saxsı məmulat küp, sərnic, bardaq, küpə, güvəc, dopu, çıraq nümunələri ilə təmsil olunmuşdur. Süfrə qablarının üstünlük təşkil etdiyi şirli saxsı qab nümunələrilə naxışlanma texnikasına görə saya, bir rəngli şirli saxsı qablar, yayğın, ikirəngli şirlə şirlənmiş qablar, polixrom şirli saxsı qablar, şəffaf şir altından firuzəyi və qara rənglə naxışlanmış qablar, firuzəyi şir altından qara rənglə bəzədilmiş qablarla təmsil olunmuşdur.

Arxeoloji qazıntılar Salmanbulağı yaşayış yerinin sakinlərinin təsərrüfat həyatını sənədləşdirən xeyli osteoloji və nəbati dəlillər də vermişdir.

Arxeoloji materiallar kompleksi Salmanbulağı yaşayış yerində XIII-XVI yüzilliklərdə qaynar həyatın olduğunu göstərir.

Arxeoloji tədqiqatlar son orta əsrlərdə bir və ya bir neçə qohum ailənin yaşadığı, erkən və inkişaf etmiş orta əsrlərdə geniş yayılmış, "şenlik" tipli kiçik yaşayış yerlərinin sayının kəskin azaldığını göstərir.

Bu tip abidələrdən Qusar rayonunun Suvacal kəndinin kənarında kiçik sahəli hündür təpə üzərində yerləşən, üstünün sahəsi 1500 *kv.m* olan Daştəpə yaşayış yerində 70 *kv.m* sahədə qazıntı işləri aparılmış, son orta əsrlərə aid qaya daşından hörülmüş divar qalıqları, təsərrüfat quyusu, ocaq qalıqları üzə çıxarılıb tədqiq edilmişdir. Mədəni təbəqə yatımı kül qatı, kömür parçaları, saxsı qab qırıqları, heyvan sümükləri ilə zəngin olmuşdur. Tapıntılar əsasən şirli və şirsiz saxsı qab nümunələri ilə təmsil olunmuşdur (T.M.Dostiyev, 2001, səh. 73).

Xızı rayonunun Yuxarı Fındıqan kəndində tədqiq olunmuş yaşayış məskənin xarabalıqları isə böyük kənd tipli yaşayış yeridir (Е.А.Пахомов, 1946, стр. 25-26).

Şamaxı şəhərindən şimalda, Əngəxaran kəndində son orta əsrlərə aid kənd tipli yaşayış məskəninin xarabalıqlarının mövcudluğu arxeoloji tədqiqatlarla müəyyənləşdirilmişdir (F.Ə.İbrahimov, H.Ə.Ciddi, 1976, səh. 67-72). Kəşfiyyat axtarışları nəticəsində əldə olunmuş arxeoloji materiallar XIV-XVII əsrlərə aid şirli və şirsiz saxsı qab qırıqlarından, metal məmulatdan ibarətdir.

Yazılı qaynaqlar və arxeoloji tədqiqatlar XIII-XVII yüzilliklərdə Bakının ətrafında çoxlu qəsrli kənd yaşayış yerlərinin olduğunu təsdiqləyir. Belə kənd məskənlərindən birini 1989-cu ildə Abşeron ekspedisiyası Balaxanı qəsəbəsinin cənub-şərqində, mədən sahəsində qeydə almışdır. Yaşayış yeri cənub-şərqdən şimal-qərbə uzanan alçaq təpə formasındadır. Yaşayış yerinin cənub-şərqində istehkam

qalıqları qeydə alınmışdır. Torpaq işləri görülərkən orta əsr qülləsinin şimal-şərq divarının üzəri açılmışdır (tablo 127, şək. 1). Qalınlığı 2 *m*-ə çatan bu divarın hündürlüyü 2-2,5 *m*-dək salamat qalmışdır. Qüllənin divarları yaxşı yonulmuş əhəng daşından yüksək keyfiyyətli əhəngli məhlulla səliqə ilə hörülmüşdür. Yaşayış yerinin hüdudlarında son orta əsrlərə aid neft quyularının qalıqlarının, daşdan inşa olunmuş yeraltı neft anbarlarının aşkarlanması böyük maraq doğurur (İ.Əliyev və b., 2005, səh. 66).

Son orta əsrlərə aid bir neçə kənd tipli yaşayış yerləri Azərbaycan Respublikasının cənub-şərqində qeydə alınmış, onlarda kəşfiyyat xarakterli ilkin tədqiqatlar aparılmışdır.

Bəllabur yaşayış yeri Lənkəran rayonunun Bəllabur kəndi yaxınlığında, Lənkərançayın sol sahilində bir neçə hektar ərazini əhatə edir və meşə ilə örtülmüşdür. Yaşayış yerinin mərkəzindəki təpədə Bəllabur qalasının qalıqları yerləşir. 1983-cü ildə təsərrüfat işləri zamanı yaşayış yerinin şərqində 0,8-1 *m* dərinlikdə sıra ilə basdırılmış 6 küp aşkarlanmışdır. Abidənin mədəni təbəqəsinin dağıntıya məruz qalmış sahəsində 3x3 *m* ölçüdə, 9 *kv.m* sahədə yoxlama qazıntı aparılmış, burada mədəni təbəqə yatımının qalınlığının 2 *m*-dən artıq olduğu müəyyənləşdirilmişdir. Abidə birtəbəqəli olub XIV-XVII əsrlər üçün səciyyəvi şirsiz və şirli saxsı qab qırıqlarından ibarət maddi mədəniyyət nümunələri ilə zəngindir (А.Алекперов, 2005, стр. 25; 2005а, стр. 53).

Gəgiran yaşayış yeri Lənkəran rayonunun şimal-qərbində yerləşir və geniş sahəli təpə formasındadır. Abidənin ərazisində aparılmış yoxlama qazıntısı burada şirli və şirsiz saxsı qab qırıqları ilə zəngin olan mədəni təbəqə yatımının qalınlığının 2 *m*-dən artıq olduğunu göstərmişdir. Müəyyən edilmişdir ki, yaşayış məskəni XIII-XIV əsrlərdə salınmış və fasiləsiz olaraq, bu günədək həmin ərazidə yaşayış davam etməkdədir. Yaşayış yerindən 300-350*m* cənubda qəbiristanlıq yerləşir (А.Алекперов, 2005а, стр. 55).

Gəgiran yaşayış yerindən 2 *km* cənub-qərbdə Olak yaşayış yeri yerləşir. O, üç tərəfdən meşə ilə əhatə olunmuş, şərq tərəfdən isə dağ silsiləsinə qovuşur. İlkin tədqiqatlar əsasında abidə XIV-XVII əsrlərə aid edilir (А.Алекперов, 2005а, стр. 55).

Kevron yaşayış yeri Yardımlı rayonunun Peştəsər kəndi ərazisində, Viləşçayın sağ sahilində, dağ yamacında yerləşir. Sahəsi 5 hektara yaxındır. Abidənin ərazisindən otlaq kimi istifadə olunur. Yol salınarkən yamacın kəsilməsi nəticəsində mədəni təbəqə qismən dağıntıya məruz qalmış, yatımın üzəri açılmışdır. Kəsiyin müşahidəsi əsasında mədəni təbəqənin qalınlığının 2 *m*-dən artıq olduğu müəyyən edilmişdir. Yaşayış yerindən əldə edilən yerüstü arxeoloji materiallar əsasən saxsı qab nümunələri ilə təmsil olunmuşdur. Yaşayış yeri XIV-XVII əsrlərə aid edilir (К.О.Кошкарлы, А.И.Алекперов, 1987).

Dizə-Dula yaşayış yeri Yardımlı rayonunun Ərus kəndi ərazisində yerləşir. 1962-ci ildə baş vermiş zəlzələ nəticəsində əmələ gələn yarıqlardan xeyli miqdarda inşaat materialları, şirli və şirsiz saxsı qab nümunələri tapılmışdır. Tapıntıların bir qismi diyarşünaslıq muzeyinə təhvil verilib. İlkin tədqiqatlar əsasında yaşayış yeri XIV-XVII əsrlərə aid edilir (К.О.Кошкарлы, А.И.Алекперов, 1987).

Lerik rayonunun ərazisində son orta əsrlərə aid bir neçə kənd tipli yaşayış yeri aşkarlanmışdır. Əliabad yaşayış yeri eyni adlı kənddən 1,5 *km* şimal-qərbdə qeydə alınmışdır. Aşınma və mütəmadi şum işləri nəticəsində mədəni təbəqə yatımı qismən dağıntıya məruz qalmış, ətrafa arxeoloji materiallar səpələnmişdir. Abidənin ərazisindən XIV-XVII əsrlər üçün səciyyəvi saxsı qab qırıqları, bir bütöv çıraq tapılmışdır. Yaşayış yerindən 500-600 *m* şimalda onun qəbiristanlığı yerləşirdi (К.О.Кошкарлы, А.И.Алекперов, 1988).

Barzava yaşayış yeri Barzava kəndinin ərazisində qeydə alınmışdır. Yoxlama qazıntısı mədəni təbəqə yatımının qalınlığının 1,5-1,8 *m* təşkil etdiyini göstərmişdir. Orada təsərrüfat quyusu, iri təsərrüfat küplərinin fraqmentləri, üzəri səliqə ilə şüyrələnmiş saxsı məmulat, şirli saxsı qab qırıqları tapılmışdır. Buranın qəbiristanlığı yaşayış yerindən 500 *m* aralıda yerləşir. Barzava yaşayış yeri XIII-XIV əsrlərə aid edilir (К.О.Кошкарлы, А.И.Алекперов, 1988a).

Əvilə yaşayış yeri eyni adlı kəndin ərazisində, Sorsçayın sol sahilində yerləşir və 1 hektardan artıq sahəni əhatə edir. Abidənin ərazisində yaşayış evlərinin bünövrə izlərinə, təndir qalıqlarına, şirli və şirsiz saxsı qab qırıqlarına rast gəlinir. Bəzi yerlərdə mədəni təbəqə dağıntıya məruz qalmışdır. Kəsikdə mədəni təbəqə yatımının qalınlığının 1 *m*-ə qədər olduğu müşahidə olunur. Toplanmış yerüstü arxeoloji materiallar Əvilə yaşayış yerini XIV-XVI əsrlərə aid etməyə əsas verir (S.Kərimov, 2006, səh. 91).

Şivlə yaşayış yeri Peştəsər silsiləsinin ətəyində, Şivlə kəndinin ərazisində yerləşir. Abidənin ərazisindən təsərrüfat işləri zamanı şirli və şirsiz saxsı qab nümunələri, gümüş sikkələr tapılmışdır. Yaşayış yerinin yaxınlığında "Yanıq türbə" adlı qəbiristanlıq yerləşir. İlkin tədqiqatlar əsasında Şivlə yaşayış yeri XIV-XVI əsrlərə aid edilir.

Bürsulum yaşayış yeri eyni adlı kəndin yaxınlığında, Ləkərçayın sahilində yerləşir və 1 hektardan artıq sahəni əhatə edir. Təsərrüfat işləri zamanı abidənin bəzi sahələrində mədəni təbəqə dağıntıya məruz qalmışdır. Yaşayış yerinin Ləkərçaya yaxın olan sahəsində, mədəni təbəqə yatımının qalınlığının 1,5 *m*-ə çatdığı izlənmişdir. Abidənin ərazisi bişmiş kərpic qırıqlarından ibarət inşaat materialları, şirli və şirsiz saxsı qab qırıqları ilə zəngindir. Toplanmış yerüstü materiallar əsasında Bürsulum yaşayış yeri XIII-XV əsrlərə aid edilir (S.Kərimov, 2006, səh. 92).

XIII-XIV yüzilliklərə aid kənd tipli yaşayış yeri Şəmkir rayonunun Bitdili kəndi yaxınlığında da qeydə alınıb tədqiq edilmişdir. Arxeoloji qazıntı 70 *kv.m* sahədə aparılmış, orada iki təndir, daşdan hörülmüş divarın qalığı aşkarlanıb

təmizlənmişdir. Təndirlərin diametri dibində 60 *sm,* ağzında 50 *sm,* hündürlüyü 75-80 *sm* idi. Onların divarının qalınlığı 5 *sm*-ə çatırdı. Yaşayış yerinin qazıntısından xeyli şirsiz və şirli saxsı qab qırıqları, şüşə flakon, bilərzik qırıqları tapılmışdır (Г.П.Кесаманлы, 2003, стр. 57; Г.П.Кесаманлы, Г.Ф.Джафаров, 1979, стр. 11).

Həsənli yaşayış yeri Cəbrayıl rayon mərkəzindən 3 *km* şimalda, Şişdəmirdağın yamacında, Həsənli bulağının yaxınlığında yerləşir. Yaşayış yeri planda üçbucaq formalı olub, tərəflərinin ölçüsü 150x100x100 *m*-dir. Abidənin ərazisində daşdan inşa olunmuş tikililərin qalıqları izlənilir. Yaşayış yerinin cənub-qərb tərəfində torpaq işləri görülərkən mədəni təbəqə qismən dağıdılmış, nəticədə 1,5 *m* qalınlıqda mədəni təbəqə yatımını izləməyə imkan verən kəsik əmələ gəlmişdir. Təbəqə yanmış torpaq, kömür və kül qatları, müxtəlif təyinatlı saxsı qab qırıqları, heyvan sümükləri ilə zəngindir.

İlkin arxeoloji tədqiqatlar Həsənli yaşayış yerini XIII-XVII əsrlərə aid etməyə əsas verir (T.R.Əliyev, 1989, səh. 23).

Naxçıvan Muxtar Respublikasının Babək, Culfa, Şahbuz və Şərur rayonlarının ərazisində qeydə alınmış arxeoloji abidələr arasında son orta əsrlərə aid kənd tipli yaşayış yerləri də az deyil.

Ərəzin yaşayış yeri 1989-cu ildə Culfa bölgəsinin eyni adlı kəndindən qərbdə, su hovuzu inşa olunarkən aşkarlanmışdır. Abidə qismən dağıdılmış, mərkəzi hissəsində 360 *kv.m* sahədə mədəni təbəqə yatımı salamat qalmışdır. Mədəni təbəqənin qalınlığı burada 2 *m*-ə çatır, lakin yaşayış yerinin kənarlarında təbəqə zəif olub, 50 *sm* təşkil edir. Abidənin ərazisindən tapılmış arxeoloji materiallar şirsiz və şirli saxsı qab qırıqlarından və mis qarmaqdan ibarətdir. Arxeoloji materialların təhlili əsasında tədqiqatçılar Ərəzin yaşayış yerində XIV-XVII əsrlərdə həyat olduğunu bildirirlər (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 50-53).

II Nəhəcir yaşayış yeri Culfa bölgəsinin eyni adlı kəndindən şimal-qərbdə, dağ yamacında şərqdən-qərbə uzanan ensiz zolaq şəklində yerləşir. Abidənin ərazisi inşaat materialları - yonulmuş daş, bişmiş kərpic nümunələri ilə zəngindir. Mikrorelyef əsasında yaşayış evlərinin dördkünc biçimli olduğu müəyyənləşdirilmişdir. Yaşayış yerində biri digərindən 100 *m* məsafədə yerləşməklə iki kül təpəciyi qeydə alınmışdır. Onların istehsal ilə əlaqədar əmələ gəldiyi ehtimal olunur (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 78).

Yaşayış yerində 2002-ci ildə 3x2 *m* ölçüdə, 6 *kv.m* sahədə aparılmış yoxlama qazıntısı nəticəsində qalınlığı 1,4 *m*-ə çatan kül qatları, saxsı qab qırıqları və osteoloji qalıqlar ilə zəngin mədəni təbəqənin varlığı müəyyənləşdirilmişdir. Mədəni təbəqə yatımında 1,2 *m* dərinliyə qədər son orta əsrlər üçün səciyyəvi maddi mədəniyyət nümunələri aşkarlandığı halda, 1,2-1,4 *m* dərinliklərdə orta tunc dövrünün keramikasına rast gəlinmişdir. Bununla da orta əsr yaşayış məskəninin tunc dövrü yaşayış yeri üzərində salındığı təsdiqlənmişdir (A.Seyidov, V.Baxşəliyev, 2002, səh. 25, 78-79).

Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar əsasən saxsı qab nümunələri ilə təmsil olunmuşdur. Şirli saxsı məmulatın naxışlanmasında göy, yaşıl, mavi rənglərdən daha çox istifadə edilmişdir.

İlkin tədqiqatlar əsasında II Nəhəcir yaşayış yeri XIV-XVII əsrlərə aid edilmişdir. Yaşayış yerindən bir qədər aralıda onun qəbiristanlığı yerləşir.

Xanağa yaşayış yeri Culfa bölgəsində, Əlincəçayın sahilində yerləşir. Abidənin ərazisində bina və tikili qalıqları aydın izlənilir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 90-91). Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar şirsiz və şirli saxsı qab qırıqları, fayans qab parçaları ilə təmsil olunmuşdur. Şirli saxsı qab nümunələri həndəsi və nəbati, fayans qab qırıqları isə nəbati naxışlarla bəzədilmişdir.

Yerüstü arxeoloji materiallar əsasında Xanağa yaşayış yeri XIII-XVIII əsrlərə aid edilir. Yaşayış məskəninin qəbiristanlığı Xanağa kəndindən qərbdə yerləşir.

Camaldın yaşayış yeri Culfa bölgəsinin eyni adlı kəndindən şimal-şərqdə Alməmməd pirinə gedən yolun sağ tərəfində yerləşir. Sahəsi 96000 *kv.m* olan bu yaşayış yerinin mərkəzində hündür təpə vardır. Abidənin ərazisi inşaat materialları, saxsı qab qırıqları ilə zəngindir. Əmək alətlərinə də rast gəlinir. Mikrorelyef əsasında tikililərin düzbucaq və dördkünc biçimli olduğunu söyləmək olar. Tikililər əsasən daşdandır.

İlkin tədqiqatlar əsasında yaşayış məskəninin XII əsrdə salındığı, son orta əsrlərdə burada intensiv həyatın olduğu ehtimal edilir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993, səh. 95-96). Yaşayış yerindən cənub-qərbdə onun qəbiristanlığı yerləşir.

Ucadivar yaşayış yeri Ordubad-Naxçıvan şosesindən 7 *km* şimalda, Baş Dizə kəndindən 2 *km* aralıda, Gilançayın sağ sahilində yerləşir. Keçən əsrin 70-ci illərində abidənin ərazisindən kənd təsərrüfatı məqsədi ilə intensiv istifadə olunması, daha dəqiq desək, aparılmış dərin şum nəticəsində yaşayış yerinin mədəni təbəqəsi və bu məskənin qəbiristanlığı qismən dağıdılmışdır. Toplanmış yerüstü arxeoloji materiallar əsasən saxsı qab qırıqlarından ibarətdir. İlkin tədqiqatlar əsasında Ucadivar yaşayış yeri XII-XVI əsrlərə aid edilir (B.İ.İbrahimli, 2007).

Baş Dizə yaşayış yeri Ordubad-Naxçıvan şosesindən 9 *km* şimalda, eyni adlı kəndin kənarında, dağın şərq ətəyində yerləşir. Kəndin Gilançaya yaxın sahəsində torpaq işləri görülən zamanı daş və kərpicdən hörülmüş divar qalıqları, XV-XVI əsrlərə aid memarlıq kitabəsi aşkar edilmişdir. İlkin tədqiqatlar yaşayış yerinin tikililərinin daşdan, çiy kərpicdən və möhrədən inşa edildiyini göstərir. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar son orta əsrlər üçün səciyyəvidir. Yaşayış yerindən 350-400 *m* cənubda, Pilləli dərənin cənub-şərqində onun qəbiristanlığı yerləşir (B.İ.İbrahimli, 2007).

Eyvaz yaşayış yeri Şahbuz rayonunun Arinc kəndinin şərqində, dağın yamacında yerləşir. Mikrorelyefin nisbətən yaxşı mühafizə olunduğu bu abidədə

daşdan inşa olunmuş düzbucaq biçimli yaşayış evlərinin qalıqları aydın izlənilir. Arxeoloji kəşfiyyat işləri zamanı tikililərin birində təmizləmə işləri aparılmış, buradan xeyli miqdarda tikinti materialları, o cümlədən 19x19x4 *sm* ölçüdə bişmiş kərpiclərin qırıqları və evin dam örtüyündə olmuş tir qalığı, saxsı qab qırıqları tapılmışdır. Aparılmış ilkin tədqiqatlar nəticəsində Eyvaz yaşayış yeri XIV-XVII əsrlərə aid edilir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1992, səh. 37).

Mahmudoba yaşayış yeri 1400 *kv.m* sahəyə malik olmaqla, Şahbuz rayonunun eyni adlı kəndinin şərq tərəfində yerləşir. Abidənin ərazisində düzbucaq biçimli evlərin qalıqları izlənilir. 25 *kv.m* sahədə aparılmış yoxlama qazıntısı mədəni təbəqə yatımının qalınlığının 1,5-2 *m* təşkil etdiyini göstərmişdir. Tapıntılar əsasən şirli və şirsiz saxsı qab qırıqlarından ibarət olub, XIV-XVII əsrlər üçün səciyyəvidir. Müvafiq olaraq Mahmudoba yaşayış yeri XIV-XVII əsrlərə aid edilir (Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1992, səh. 37-38).

Beləliklə, Salmanbulağı yaşayış yeri istisna olmaqla, kənd tipli yaşayış yerlərində geniş arxeoloji qazıntıların aparılmaması son orta əsrlərdə Azərbaycanda mövcud olmuş kəndlərin həyat mənzərəsini bərpa etməyə, kənd tipli yaşayış yerlərini hərtərəfli səciyyələndirməyə imkan vermir və gələcəkdə bu sahəyə diqqətin artırmasını tələb edir.

## VII FƏSİL

## TƏSƏRRÜFAT, SƏNƏTKARLIQ VƏ TİCARƏT

### Təsərrüfat

**Əkinçilik.** Son orta əsrlərdə Azərbaycan iqtisadiyyatının əsasını əhalinin böyük əksəriyyətinin məşğul olduğu kənd təsərrüfatı təşkil edirdi. Düzdür, monqol istilası ölkənin kənd təsərrüfatına, xüsusilə də süni suvarma sisteminə əsaslanan əkinçilik təsərrüfatlarına ağır zərbə endirdi. Bununla belə, XIV əsrin əvvəllərində Təbriz ətrafında, Urmiya, Uşnu, Mərənd, Marağa, Bəcirəvan, Xoy və s. vilayətlərdə çay, quyu və bulaq sularına əsaslanan suvarma sistemləri bərpa olundu (Azərbaycan tarixi, 1999, səh. 34). Son orta əsrlərə aid arx qalıqlarına Samux və Şəmkir rayonlarında da rast gəlinmişdir. XIV-XV əsrlərə aid arx qalıqları arxeoloji qazıntılar zamanı Şəmkir rayonunun Qarasəmirli kəndi yaxınlığında aşkarlanıb tədqiq olunmuşdur. Əhalinin həyatı təminatında taxılın həlledici əhəmiyyəti kənd təsərrüfatında dənli bitkilərin becərilməsinin ön plana çəkilməsini şərtləndirmişdi. Taxılçılıq əkinçiliyin başlıca sahəsi idi. Ölkənin bütün vilayətlərində buğda, arpa və darı əkilirdi. XIV əsr müəllifi Həmdullah Qəzvini "Nüzhət əl-qülub" əsərində Şabran düzündə, Quştəsfidə, Muğanda, Sərab, Uşniyə, Marağa, Salmas, Təbriz və digər nahiyələrdə buğda və digər dənli bitkilərin becərilməsinin əkinçilikdə mühüm rol oynadığını bildirirdi (Хамдаллах Казвини, 1983). XVI-XVII əsrlərdə Azərbaycanda olmuş Avropa səyyah və tacirləri də burada buğda və arpa zəmilərinin bolluğunu xüsusi qeyd edirdilər (Путешественники, 1961; А.Олеарий, 1906; Ф.Котов, 1958).

Arxeoloji tədqiqatlar nəticəsində əkinçilik təsərrüfatı ilə bağlı əldə olunan arxeoloji dəlillər: nəbati qalıqlar, əmək alətləri, taxıl saxlanılan küplər, təsərrüfat quyuları və digər bu kimi tapıntılar bəhs edilən dövrdə dənli bitkilər əkininin kifayət qədər geniş yayıldığından xəbər verir. Məsələn, Salmanbulağı, Canaxır, Dərəzarat yaşayış yerlərinin, Şabran, Şamaxı, Qəbələ şəhər xarabalıqlarının arxeoloji tədqiqindən məlum olan təsərrüfat quyularının böyük əksəriyyəti taxıl saxlanılmasına xidmət etmişdir. Onların bəzilərinin dibində taxıl qalıqlarına da təsadüf olunmuşdur. Məlumat üçün bildirək ki, taxıl quyuları planda dairəvi, kəsikdə aşağıya doğru genişlənən üstü kəsik konus şəklində olurdu. Şabranın XIV-XV əsrlərə aid taxıl quyuları bişmiş kərpiclə, Dərəzaratda isə qaya daşı ilə səliqəylə hörülmüşdü. Taxıl saxlanılan "kəndi" tipli tikili qalıqları Qırxçıraq şəhər yerindən məlumdur (B.M.Abdullayev, R.B.Göyüşov, 1988).

Taxılçılıqla bağlı əkinçiliyin əsas əmək alətləri xış, qara kotan, ağac mala, bel, çin, oraq, kərənti, dəryaz, yaba, vəl, kürək və digərləri olmuşdur.

Torpağı şumlamaq üçün kotandan, sadə və ulamalı xışlardan istifadə olunurdu. İqlim şəraiti, relyef xüsusiyyətləri, yumşaq torpaqların olması ilə əlaqədar dağətəyi və dağlıq ərazilərdə əsasən xışdan istifadə olunurdu.

Gavahınlar iki hissədən ibarət idi. Torpağı cızan, uca doğru daralan işlək hissə və ağac qola geyilən hissə. Belə gavahın nümunələri Qəbələ və Şamaxı qazıntılarından məlumdur (İ.Babayev, Q.Əhmədov, 1981, səh. 46). Şamaxıdan tapılan dəmir gavahın ayaqqabı formasında olub (tablo 129, şəkil 1), içərisində ağac çürüntüləri qalmışdı (H.Ə.Ciddi, 1983, səh. 7). Dərin şuma ehtiyac duyulan dağətəyi və düzən ərazilərdə daha çox "qara" kotan tətbiq olunurdu. Arxeoloji qazıntılar zamanı aşkar olunan kotan qılınclarının qırıqları həddən artıq korroziyaya uğradığından onların formasını bərpa etmək çətindir.

Taxılçılıqda başlıca biçin aləti çin və oraq idi. Forma və quruluş etibarilə oxşar olan bu alətlərdən çin dişli, oraq isə dişsizdir. Arxeoloji qazıntılar zamanı oraq nümunələrinə təsadüf olunmuşdur. Lakin bunu da nəzərə almaq lazımdır ki, dəmir korroziyaya uğradığından və aşkar olunan nüsxələrdə kəsər hissə ilkin formasını itirdiyindən onların dişli və ya dişsiz olmasını müəyyənləşdirmək çətindir. Tapılan oraq nümunələrinin (tablo 129, şək. 5) hamısının işlək hissəsi qövsvari formadadır (Г.А.Джидди, 1981, стр. 86, табл. XVI; İ.A.Babayev, Q.M.Əhmədov, 1981, səh.46; T.M.Dostiyev, 2001, səh. 130).

Biçin prosesində tətbiq olunan dəryaz-kərəntilərin işlək hissəsi düz, uca doğru isə qövsvari formada olmaqla daralaraq sivriləşir (tablo 129, şək. 15-16). Kərəntiləri saplamaq üçün onlara lövhəvari çıxıntı və boruşəkilli hissə qaynaq edilirdi (Ə.İ.Novruzlu, 1997, səh. 79).

Biçin əkinçilikdə böyük zəhmət tələb edən ən ağır əmək prosesi idi. "Əkinçi ol, biçinçi olma" atalar məsəli biçinçi əməyinin mahiyyətini qısa və çox aydın ifadə edir (Azərbaycan etnoqrafiyası, 1988, səh. 63).

Yığımdan sonra taxılın döyülməsi prosesi başlanırdı. Taxıl dərzləri əkin sahəsindən daşınırdı. Adətən xırman külək tutan və hündür yerdə düzəldilirdi. Belə xırman yerləri Dərəzarat və Xuray yaşayış yerlərində müəyyənləşdirilmişdir (C.Ə.Xəlilov, 1960; T.M.Dostiyev, 2001, səh. 114). Taxılın döyülməsində başlıca alət vəl idi.

Taxıl bitkiləri ilə yanaşı, ölkədə xeyli miqdarda paxlalı bitkilər də becərilirdi. Həmdullah Qəzvini Təbriz nahiyəsində becərilən paxlalı bitkilərin yüksək keyfiyyətini xüsusi qeyd edir (Хамдаллах Казвини, 1983, стр. 40).

Təbriz, Marağa, Ərdəbil şəhərləri ətrafında, Kür və Araz çayları arasındakı ərazi, xüsusilə Beyləqan bölgəsi, Guştəsfi, Talış vilayəti, Şabran və Müşkür düzlərində çəltik əkini də özünəməxsus yer tuturdu (Azərbaycan tarixi, 1999, səh. 54). Klavixo Qarabağdan bəhs edərkən bildirirdi ki, burada çoxlu çəltik becərilir. Çəltik o qədər çoxdur ki, hətta onu atlara yedizdirirlər (Путешественники, 1961, стр. 62). Zəkəriyyə Əylisli Azərbaycanda çəltikçiliyin yüksək inkişaf etdiyini və

keyfiyyətli məhsul istehsal olunduğunu xüsusilə vurğulayır: "Burada əla düyü olur, keyfiyyətinə görə hind düyüsündən daha üstündür. Onu sovqat kimi İspaniyaya qədər aparırlar" (Закарий Акулисский, 1939, стр. 28). Yazılı qaynaqların məlumatını arxeoloji qazıntıların nəticələri də təsdiqləyir. Canaxır yaşayış yerində XIII-XV əsrlərə aid mədəni təbəqə yatımının tədqiqi zamanı yanmış torpaq qatında kömürlənmiş çəltik dənələrinə təsadüf olunmuşdur (T.M.Dostiyev, 2001, səh. 114).

Şərifan şəhər yerində isə arxeoloji qazıntılar zamanı çəltik anbarının qalıqları aşkar olunmuşdur (Г.М.Ахмедов, Р.Дж.Ахмедов, 1984). Çəltikçiliklə bağlı arxeoloji dəlillər Ərəş şəhərinin xarabalıqlarının tədqiqindən də məlumdur (A.M.Məmmədov və b., 2007).

Texniki bitkilərdən Naxçıvan, Mil-Qarabağ düzü, Mərənd, Dizmar, Daravard, Dehxarkan, Neylan, Navdız, Kür çayının aşağı axarında yerləşən bölgələrdə pambıqçılıq inkişaf etmişdi (Хамдуллах Казвини, 1983). Texniki bitkilərdən qızıl boyaq kökü bitkisi də geniş yayılmışdı. Toxuculuqda qırmızı boyağa olan tələbatın ödənilməsinə yönəlmiş həmin məhsul nəinki yerli, həm də xarici bazara çıxarılırdı. Əbdürrəşid əl-Bakuvi qeyd edirdi ki, Şabranda "başqa ölkələrə aparılan vəhşi qızıl boyaq kökü bitir" (A.Бакуви, 1971, стр. 95). Yazılı qaynaqların məlumatından bəlli olur ki, qızıl boyaq kökü Xəzər dənizindəki adalarda da becərilirdi. Arxeoloji qazıntılar zamanı Şabran, Canaxır, Salmanbulağı abidələrində tez-tez qırmızı boyaq qalıqlarına rast gəlinməsi də təsadüfi deyildir. Boyaq kökü becərilməsi XIX əsrin ortalarınadək Müşkür düzünün əhalisinin təsərrüfat məşğuliyyətində mühüm yer tutmuşdu (Azərbaycan etnoqrafiyası, 1988, səh. 186-188).

Yazılı qaynaqlar və arxeoloji tədqiqatlar Azərbaycanda bostançılığın da əhalinin təsərrüfat həyatında özünəməxsus yer tutduğunu təsdiqləyir. XIV əsrdə Qarabağ və Şirvanda bir neçə min hektar sahədə bostan bitkiləri əkilirdi (A.A.Али-заде, 1956, СТР. 39).

Arxeoloji qazıntılar zamanı ayrı-ayrı abidələrdən tapılmış balqabaq, qarpız, yemiş, xiyar və başqa bitkilərin qalıqları (toxumları) da bunu təsdiq edir (T.M.Dostiyev, 2000, səh. 40). Arxeoloji qazıntılardan həm də bostançılıq və tərəvəzçilikdə mühüm əmək aləti olan toxalar da tapılmışdır (Ə.İ.Novruzlu, 1997, səh. 79, tablo 14, şək. 10-13; T.M.Dostiyev, 2001, səh. 129). Toxanın top hissəsinin iki dəfə qalın, müvafiq olaraq iki dəfə ağır hazırlanması alətin torpağa batmasını asanlaşdırmağa xidmət etmişdir (F.Ə.İbrahimov, 1988, səh. 44).

Son orta əsrlərdə kənd təsərrüfatında mühüm sahələrdən biri əhalini bol meyvə məhsulları ilə təmin edən bağçılıq idi. Azərbaycanda bağların zənginliyini orta çağ yazarları xüsusi vurğulayırlar. Evliya Çələbi Naxçıvanın Qarabağlar kəndindəki bağda təkcə armudun 26 növünün olduğunu bildirir (Evliya Çələbi, 1997, səh. 11). Orta əsr şəhər xarabalıqlarından və yaşayış yerlərindən arxeoloji qazıntılar zamanı bağçılıqla bağlı nəbati və maddi mədəniyyət qalıqlarının tapılması

yazılı qaynaqların məlumatını bir daha təsdiqləyir. Nəbati qalıqlar qoz, fındıq qabıqları, gavalı, göyəm, ərik, şaftalı, gilas və s. çəyirdəklərindən ibarətdir (F.L.Osmanov, 1962, səh. 96; T.M.Dostiyev, 2001, səh. 117; Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002, səh. 63). Bağçılıqla bağlı əmək alətləri və vasitələri dəhrə (tablo 129, şək. 2-4, 6), bıçaq nümunələri, gillə qırıqları ilə təmsil olunmuşdur. Quba-Xaçmaz bölgəsinin Canaxır və Salmanbulağı kimi abidələrindən gillə qırıqlarının tapılması, heç şübhəsiz ki, əhalinin yığılan məhsulun bir hissəsini qurutduğuna dəlalət edir. Arxeoloji qazıntılar zamanı meyvə qurudulması üçün istifadə edilmiş təndirlər də üzə çıxarılmışdır. Onlar adi təndirlərdən həcminin böyük olması ilə fərqlənir. Təndirdə meyvə qurutmaq üçün xüsusi olaraq gildən hazırlanmış qablara - gillələrə yığılırdı. Ləziz meyvə qurusu həm süfrələrin bəzəyi olmuş, həm də yaxın və uzaq ölkələrə ixrac olunmuşdur. İstehsal olunan meyvənin müəyyən qismi emal edilərək ondan doşab, rub, sirkə, müxtəlif şirələr hazırlanırdı. Adam Oleari Azərbaycanda doşab, meyvə şirələri hazırlandığını bildirirdi. O, su və sirkə qatmaqla doşabdan ləzzətli bir içki alındığını xüsusi vurğulayırdı (А.Олеарий, 1906).

Əhalinin təsərrüfat məşğuliyyətində bağçılıqla yanaşı üzümçülük də mühüm əhəmiyyət kəsb edirdi. Yazılı qaynaqlardan məlum olur ki, bəhs olunan dövrdə üzümlüklərin sahəsi genişlənmiş, becərilən üzüm növləri artmışdı. Təbriz, Naxçıvan, Şamaxı, Şabran, Dərbənd mühüm üzümçülük mərkəzləri kimi məşhur idi. Ə.Əlizadə F.Rəşidəddinə istinad etməklə bildirir ki, Təbriz şəhəri ətrafındakı üzüm bağları ildə 150 ton üzüm verirdi (А.А.Али-заде, 1956, стр. 37). Arxeoloji qazıntılar zamanı üzüm emalı ilə bağlı bəzi tapıntılar da aşkar edilmişdir. Bunlar əsasən üzüm şirəsi almaq üçün istifadə olunan qurğunun nümunələridir (F.Abbasova, 2002, səh. 100; T.Axundov və b., 2002, səh. 69-70, tablo 3, şək. 1).

Son orta əsrlərdə Azərbaycanın kənd təsərrüfatında mühüm sahələrdən biri ipəkçilik idi. Bərdə, Gəncə, Şamaxı, Şəki, Ərəş, Şabran, Təbriz və başqa şəhərlərin kənd nahiyələri barama və ipək sapı istehsalı ilə yaxından məşğul olurdular. İstehsal olunan xam ipək yerli bazarın tələbatını ödəməklə bərabər xarici ölkələrə də ixrac olunurdu. XVI əsrin Avropa səyyahlarından biri qeyd edirdi ki, bu ölkədə müxtəlif yüksək keyfiyyətli zəruri mallar- qoz və fındıq, çiyidli pambıq, zəy, xam ipək, ədviyyat və boyaqçılıq mallarının bütün növlərini əldə etmək mümkündür. Lakin buranın əsas malı olduqca bol xam ipəyin hər cür növüdür (Путешественники, 1961., стр. 147-152).

**Heyvandarlıq.** Azərbaycan əhalisinin təsərrüfat məşğuliyyətində maldarlıq mühüm yer tuturdu. Heyvandarlıq təsərrüfatı əhalinin ət və süd məhsullarına, sənətkarlığın yun, gön-dəri və sümük kimi xammala olan tələbatını ödəyir, təsərrüfatı nəqliyyat və qoşqu qüvvəsi ilə təmin edirdi. Əhalinin bir qismi yarımköçəri həyat keçirir və heyvandarlıqla məşğul olurdu. Mil və Muğan düzənliklərində, Müşkür düzündə qışlaqlar, Qarabağın, Cənubi Azərbaycanın dağlıq bölgələrindəki yaylaqlar heyvandarlıq təsərrüfatının inkişafı üçün olduqca əlverişli

idi. Son orta əsrlərdə ölkədə çoxlu qaramal naxın, qoyun sürüsü və at ilxıları saxlanılırdı.

Arxeoloji qazıntılar zamanı əldə edilmiş osteoloji qalıqlar da bunu təsdiqləyir. Məsələn, Şabran şəhər yerində təmizlənmiş üç quyu ağzınadək heyvan sümükləri ilə doldurulmuşdu ki, onların da əksəriyyəti qoyun-quzu sümüklərindən ibarət idi. Azərbaycanın müxtəlif bölgələrində son orta əsrlərə aid daşdan yonulmuş qəbirüstü qoç heykəllərinə təsadüf olunması qədim dini görüşlərlə bərabər, həm də onun mühüm təsərrüfat əhəmiyyəti kəsb etməsinə dəlalət edir.

Osteoloji qalıqlar arasında keçi sümüklərinə təsadüf olunması ölkədə həmin heyvanın da müəyyən miqdarda bəslənildiyini göstərir. Qobustan qayaları üzərində XIV-XVII əsrlərdə çobanların iti alətlə həkk etdikləri rəsmlərin böyük əksəriyyətini keçi təsvirləri təşkil edir (И.М.Джафарзаде, 1973). Xatırladaq ki, xalq təbabətində keçi südündən və piyindən həm də müalicəvi vasitə kimi istifadə edirdilər.

İqtisadi baxımdan çox əlverişli olan qoyunçuluq əhalini ət, süd, pendir, yağ kimi mühüm ərzaq məhsulları ilə, sənətkarlığın isə gön və yun ilə təchizində mühüm rol oynayırdı. Xüsusilə Azərbaycanın mühüm xalçaçılıq və şalbaflıq mərkəzi olması qoyunçuluğun inkişafına müsbət təsir göstərirdi.

Yazılı qaynaqlarda Azərbaycanda iribuynuzlu heyvanların bəslənilməsinə böyük diqqət yetirildiyi bildirilir. Yeri gəlmişkən qeyd edək ki, heyvandarlığın bu sahəsi əkinçiliklə qarşılıqlı təsirdə inkişaf edirdi. Əkinçilik maldarlığı yem ehtiyatı ilə, maldarlıq isə əkinçiliyi təbii gübrə və qoşqu qüvvəsi ilə təmin edirdi. Canaxır və Salmanbulağı yaşayış yerlərinin arxeoloji qazıntılarından toplanmış osteoloji qalıqlar arasında iribuynuzlu heyvanlara məxsus sümüklərin kiçik boylu inək cinsinə mənsubluğu son orta əsrlərdə Müşkür düzündəki naxırlarda kiçik boylu inək cinsinin üstünlük təşkil etdiyini söyləməyə əsas verir (T.M.Dostiyev, 2001, səh. 121).

Arxeoloji qazıntılar zamanı süd emalı ilə bağlı saxsı qablara - nehrə, sərnic, küpə, goduş və s. tipli qablara tez-tez təsadüf olunması əhalinin qidalanma mədəniyyətində süd məhsullarından geniş istifadəni sənədləşdirir. Azərbaycanın müxtəlif bölgələrində yüksək keyfiyyətli süd məhsullarının hazırlanmasını orta çağ yazarları da qeyd edirlər. Həmdullah Qəzvini Cənubi Azərbaycanın Xalxal bölgəsindən bəhs edərkən yazır ki, "burada elə keyfiyyətli qatıq hazırlayırlar ki, onu pendir kimi bıçaqla kəsmək olur" (Х.Казвини, 1983, стр. 45).

Atçılıq təsərrüfatı əvvəl olduğu kimi yenə də əhalinin məşğuliyyətində özünəməxsus yer tutan sahələrdən biri olaraq qalırdı. Bir çox qəbirüstü xatirə abidələrinin at heykəli formasında yonularaq düzəldilməsi və yaxud başdaşılarında, sənduqələrdə at təsvirlərinin çəkilməsi ata olan ehtiramın təzahürüdür (Azərbaycan etnoqrafiyası, 1988, səh. 252).

Arxeoloji qazıntılar aparılmış son orta əsr abidələrinin demək olar ki, hamısından at sümükləri və at ləvazimatı qalıqları tapılmışdır. Misal üçün, Canaxır, Salmanbulağı yaşayış yerlərinin arxeoloji qazıntılarından tapılmış at sümükləri

Müşkür düzünün at ilxılarında iribədənli at cinsinin üstünlük təşkil etdiyini söyləməyə imkan vermişdir (T.M.Dostiyev, 2001, səh. 121). Bu dövrdə atdan həm minik, həm qoşqu vasitəsi kimi, həm də hərbi işdə istifadə edirdilər.

Dəvəçilik əhalinin təsərrüfat həyatında müəyyən rol oynamış, dəvənin ət və südü qiymətli qida, yunu şalbaflıq üçün qiymətli xammal idi. Başlıcası isə, əsas nəqliyyat heyvanı olmaqla, şəhərlərarası və beynəlxalq ticarətdə geniş istifadə olunurdu. Qeyd edək ki, Qobustan qayaüstü rəsmləri içərisində dəvə, eləcə də karvan təsvirlərinə rast gəlinir. Misal üçün, XV-XVI əsrlərə aid karvan təsvirində sıra ilə düzülmüş dəvələr və onların önündə iki nəfərin - sarbanın təsviri həkk olunmuşdur (И.М.Джафарзаде, 1958, стр. 66-68; 1973, erp. 270).

Yük daşımaq, qoşqu qüvvəsi və minik heyvanı kimi qatır və eşşəkdən də istifadə edilirdi. Əbdürrəşid Bakuvi Bərdədən bəhs edərkən yazırdı ki, "bütün vilayətlərdə olan qatırların ən yaxşısı buradadır" (А.Бакуви, 1971, стр. 90). Arxeoloji qazıntılar zamanı orta əsr abidələrindən tapılmış osteoloji qalıqlar içərisində uzunqulaq sümükləri də vardır. Tapıntılar arasında həmçinin eşşək və qatır nallarına da rast gəlinir.

Arxeoloji qazıntı aparılmış son orta əsr abidələrindən külli miqdarda toyuq, ördək, qaz sümüklərinin, yumurta qabığı qalıqlarının tapılması əhalinin təsərrüfat məişətində ev quşçuluğunun da özünəməxsus yer tutduğunu göstərir.

Azərbaycanın oroqrafik quruluşu, su hövzələri, bitki örtüyü və heyvanat aləmi burada **ovçuluq, balıqçılıq** və **arıçılıq** kimi yardımçı təsərrüfat sahələrinin əhalinin məşğuliyyətində müəyyən yer tutmasını şərtləşdirmişdi. Bəhs olunan dövrdə ovçuluq həm də hakim sinfin nümayəndələri - feodallar üçün başlıca əyləncə üsulu idi. Azərbaycanın miniatür sənətində ov səhnələrinin təsvirinə geniş yer verilməsi də Azərbaycan feodallarının əyləncələrindən, həyat tərzindən xəbər verir. Bakıda, xüsusilə Şirvanşahlar sarayı kompleksinin arxeoloji tədqiqi zamanı çoxlu ceyran sümüklərinin tapılması təsadüfi olmayıb, bu, vaxtilə Abşeronda ceyran ovunun zadəganların mühüm əyləncələrindən olduğuna dəlalət edir (В.Н.Левиатов, 1944). Məlumdur ki, şahin quşu ilə ov yüksək qiymətləndirildiyindən Səfəvi dövlətində şah quşxanasında 700 ov quşu bəslənilir və onların hər birinə bir nəfər qulluq edirdi (Azərbaycan etnoqrafiyası, 1988, səh. 285). Azərbaycanın orta əsr abidələrindən tapılmış osteoloji qalıqlar arasında vəhşi heyvanların - ceyran, cüyür, maral, dovşan, tülkü sümüklərinin olması, çöl donuzunun qılınc dişlərinə təsadüf olunması, heç şübhəsiz ki, əhalinin ovçuluq məşğuliyyətinin nəticəsidir. Vəhşi heyvanların əti qida üçün, dəri, xəz, sümük və buynuzları isə sənət sahələrinin xammal ehtiyaclarına işlədilirdi. Şabran və Şamaxı şəhərlərinin xarabalıqlarında mədəni təbəqənin XIV-XVII əsrlərə aid inşaat qatlarında sümükişləmə emalatxanasında işlədilən xeyli miqdarda maral buynuzlarının tapılması yuxarıda qeyd olunanları bir daha təsdiqləyir.

Çöl quşlarının ovlanması dəniz sahili və göllərin ətrafında yerləşən kəndlərin əhalisinin təsərrüfat məşğuliyyətində özünəməxsus yer tuturdu. Məsələn, Salmanbulağı yaşayış yerindən külli miqdarda çöl quşlarının sümükləri tapılmışdır. Onların arasında vəhşi ördəklərin sümükləri xüsusilə çoxdur. Müşkür düzünün sahilboyu ərazisində qamışlıqların və bataqlıqların olması, geniş çəltik əkinləri və buna müvafiq istillərin düzəldilməsi quşların bu ərazidə qışlamasını şərtləndirmiş və çöl quşlarının ovlanması üçün əlverişli şərait yaratmışdı.

Etnoqrafik ədəbiyyatdan yaxşı məlum olan su quşlarının ovlanması üsulları - niğələr, "aldatmalar", "domça-çıraq" vasitəsilə ov (Ş.A.Quliyev, 1965, səh. 298), görünür, son orta əsrlərdə də geniş tətbiq olunmuşdur.

Su hövzələri olan ərazilərdə əhali balıqçılıqla da məşğul olurdu. Yazılı qaynaqlar Azərbaycanda qızılbalıq və nərə balıqlarının ovlandığını, onların kürüsünün yeyildiyini xəbər verirlər (Путешественники, 1961, стр. 92, 201). Bu məlumatı arxeoloji qazıntılar da təsdiqləyir. Məsələn, Bakıda, İçərişəhərdə, Canaxır və Salmanbulağı yaşayış yerlərində aşkarlanan ixtiofauna qalıqları arasında pulcuqlu balıqların tullantıları ilə yanaşı, həm də nərə balığı sümüklərinə təsadüf olunmuşdur (T.M.Dostiyev, 2001, səh. 123-124). Nərə balığının qalıqlarının tapılması və həmin balığın ovlanmağı barədə yazılı mənbə məlumatı bir tərəfdən dəniz balıqçılığının inkişafını, digər tərəfdən isə İslam dininin qadağalarına baxmayaraq nərə balıqdan yerli əhalinin mətbəxində istifadə olunmasını sənədləşdirir. Arxeoloji qazıntılar zamanı balıqçılıqla bağlı əmək alətlərindən əsasən qarmaqlar, tora bərkidilən ağırlıq daşları tapılır.

Bakı, Dərbənd və digər Xəzərsahili yaşayış məskənlərinin sakinləri balıqçılıqla yanaşı, həm də suiti ovu ilə məşğul olurdular (С.Б.Ашурбейли, 1964, стр. 79; А.А.Кудрявцев, С.В.Гусев, 1988, стр. 96). Bunu Azərbaycanın orta əsr Xəzərboyu şəhər və yaşayış yerlərinin qazıntılarından tapılmış piydanlar da təsdiqləyir (tablo 145, şək. 1-4, 7-8). Belə ki, qara çıraqdan fərqli olaraq həmin piydanların yandırılması üçün suiti piyi işlədilirdi. Əbdürrəşid əl-Bakuvinin məlumatından aydın olur ki, suitilərin dərisini soyur və piyindən piydanları yandırmaq üçün istifadə edirdilər. Dərilərindən isə tuluqlar düzəldib neftlə doldurar, başqa ölkələrə aparardılar (А.Бакуви, 1971, стр. 89). Eyni məlumata Kontarininin qeydlərində də rast gəlirik. O bildirir ki, suitinin piyindən piydanların yandırılmasında yanacaq kimi istifadə edir, onu dəvələrə sürtürdülər (Путешественники, 1961, стр. 92).

Balıqçılığın və dəniz ticarətinin inkişafı Xəzərsahili yaşayış məntəqələrində gəmi inşasının inkişafına müsbət təsir göstərirdi. Xəzərin sularında həm yerli, həm də xarici ölkələrin, o cümlədən İtaliya gəmiləri üzürdü. Maraqlıdır ki, Şeyx Heydər Şirvana yürüşü zamanı yerli gəmi inşaatçılarının və dülgərlərin köməyi ilə gəmi inşa etdirmişdi (М.Х.Гейдаров, 1982, стр. 239). Kontarini XV əsrdə Dərbəndlə Həştərxan arasında üzən yerli gəmilərin təsvirini verərək yazırdı: "Oradakı gəmilər

balıq formasındadır... Gəmiləri ağac mıxlarla quraşdırır və möhkəm qatranlayırdılar" (Путешественники, 1961, стр. 93). XVI-XVII əsrlərdə Xəzər dənizində istifadə olunan yerli, əsasən ikidorlu yelkənli gəmilər olub, yükgötürmə qabiliyyəti 30 tondan 100 tona qədər idi.

Dənizçiliyi sənədləşdirən başlıca arxeoloji materiallar isə Dərbənd, Gürgan və Amburan burnundan, Səngi-Muğan adasından, "Səbail" qəsri yaxınlığındakı Bakı buxtasından, Səngəçal və Bəndovanda aparılan tədqiqatlardan məlum olan daş və metal lövbərlərdir (tablo 128) (В.А.Квачидзе, 1975, стр. 67; 1997, стр. 134-137; 2002; А.А.Кудрявцев, С.В.Гусев, 1988, стр. 87-91). Maraqlı tapıntılardan biri Səngi-Muğandan tapılmış abordaj qarmağıdır (В.А.Квачидзе, 2004, стр. 127). Belə qarmaqlardan qədimdə və orta əsrlərdə dəniz döyüşlərində istifadə olunurdu. Gürgan yaxınlığında isə sualtı tədqiqatlar zamanı batmış kirjim tipli gəmiyə rast gəlinmişdir (В.А.Квачидзе, 2003, стр. 144).

XIV-XV yüzilliklərə aid dənizçiliklə bağlı tikililər, ehtimal ki, mayak və yaxud gözətçi məntəqəsinin qalıqları arxeoloji qazıntılarla Abşeron yarımadasında Bilgəh qəsəbəsi yaxınlığında qeydə alınmışdır. Mayak bir-birindən 25 *m* aralıda yerləşən, hündürlükləri 7-8 *m*, diametri 50 *m* olan kurqanların üzərində ucaldılmışdır (Г.М.Асланов, 1978, стр. 56-60). Qazıntı nəticəsində daş və qum qatının altından uzunluğu 8 *m*, eni 6 *m* olan, düzbucaq biçimli tikilinin qalıqları üzə çıxarılmışdır. O, hər biri 3x4,8 *m* ölçüdə olmaqla, iki otaqdan ibarət idi. Otaqlardan birində eni 1,2 *m* olan qapı açırımı, cənub divarında isə eni 70 *sm* olan pəncərə açırımı aşkarlanmışdır. Divarlardan birində, döşəmədən 20 *sm* yuxarıda eni 1,1 *m* olan taxça yerləşirdi. Qapının kandarından pilləkən başlayırdı. Lakin pilləkən güclü dağıntıya məruz qalmışdı və daş qalaqları şəklində idi. Şərq otağında iri təndir vardı. Otağın cənub divarında daşdan dördkünc biçimli, bir tərəfi açıq ocaq qurulmuşdur. Cənub divarına biri digərindən 2,9 *m* aralı olmaqla eni 50 *sm* olan, güclü dağıntıya məruz qalmış iki divar birləşirdi. Salamat qalmış divarların hündürlüyü 90 *sm* idi. Tikilinin şimal-şərq küncündə şaquli qoyulmuş, hündürlüyü 1 *m* olan üç, onlardan şimalda isə 50 *sm* hündürlükdə dörd daş vardı.

İkinci kurqanın üzərində daş və möhrədən hörülmüş tikilinin qalıqları aşkarlanıb təmizlənmişdir. Burada tikililər daha çox dağıntıya məruz qalmışdır.

Əhalinin təsərrüfat məşğuliyyətində dağ-mədən işləri də özünəməxsus yer tuturdu. Evliya Çələbi "Səyahətnamə"sində Bakının kənarında neft mədənlərinə tamaşa etmələrindən söhbət açır və bildirir ki, neft dövlətin əsas gəlir mənbəyidir. Şaha ildə 700 tümən ağça (gəlir) gətirir. Neft hasilatı ilə məşğul olan adamlar gündüz nefti bu novların içinə axıdaraq nefti yığıb keçi tuluqlarına doldururlar. Sonra tacirlər nefti alıb, diyar-diyar aparıb satırlar (Evliya Çələbi, 1997, səh. 70).

Arxeoloji tədqiqatlar zamanı son orta əsrlərə aid neft quyuları və yeraltı neft anbarı qalıqları Balaxanı orta əsr yaşayış yerinin yaxınlığında aşkar edilmişdir. Anbar qalıqları yaşayış yerindən 200-300 *m* cənub-şərqdə 1 hektara qədər ərazini

əhatə edir. Kəşfiyyat xarakterli ilkin tədqiqatlar zamanı burada 16 yeraltı tikili qeydə alınmışdır. Onlar daşdan düzbucaq biçimli hörülüb tağ-tavanla örtülmüşlər (tablo 127, şək. 2). Tikililərin uzunluğu 8 *m*, eni 4 *m*, dərinliyi isə 4 *m*-ə çatır. Kənarlardan anbara düşmək üçün pilləkənlər düzəldilmişdir. Tağ-tavanlı örtüyün mərkəzində neftin tökülməsi üçün açırım vardır.

Bu tip neft tutarlarından son orta əsrlərdə neft istehsalı və saxlanılmasında geniş istifadə edildiyini yazılı qaynaqlar da təsdiqləyir. 1683-cü ildə Abşeronda olmuş alman səyyahı E.Kempfer neftin xüsusi anbarlarda saxlandığını qeyd edərək bildirir ki, "onlar böyük tağlı tikililərdən ibarət olub, uzunluğu 17 addım, eni 7 addımdır, dərinliyini isə ölçmədim". Səyyah belə tikililərin neft saxlanılması üçün əlverişli olduğunu vurğulayaraq diqqətə çatdırır ki, "hər iki kənar tərəfdən açıq olması və istənilən səviyyəyə enməyə imkan verən pilləkənlərlə təchiz edilməsi nəticəsində o nəinki neftin saxlanılması, həm də götürülməsi üçün əlverişlidir" (И.П.Петрушевский, 1949, стр. 289).

İlkin arxeoloji tədqiqatlar aşkar olunmuş kompleksdən XIV-XVII əsrlərdə istifadə olunduğunu ehtimal etməyə əsas verir.

## Sənətkarlıq

Ölkə iqtisadiyyatında sənət istehsalı mühüm yer tuturdu. Sənətkarlar istehkamlar ucaldılmasında, monumental binaların inşaatında iştirak edir, əmək alətləri və silahlar hazırlayır, təsərrüfat və məişətin tələbatını ödəmək üçün avadanlıqlar istehsal edir, parça toxuyur, geyim tikir və müxtəlif zinət əşyaları düzəldirdilər. Monqol istilası nəticəsində bəzi sənət sahələrində tənəzzül, ənənələrin itirilməsi baş versə də, başlıca sənət sahələrində varislik qorunub saxlanılmışdı (М.Х.Гейдаров, 1982, стр. 278). Sənətkarlıq şəhərlərdə başlıca məşğuliyyət növü olaraq qalırdı. Odur ki, şəhər əhalisinin böyük əksəriyyətini sənətkarlar və tacirlər təşkil edirdi. Dövrün mühüm əlamətlərindən biri başlıca şəhərlərdə, xüsusilə Təbrizdə iri sənətkarlıq emalatxanalarının - karxanaların meydana gəlməsi və onların mərkəzləşmiş dövlətə daha həssas olmasında idi (Г.А.Федоров-Давыдов, 1983, стр. 218).

Karxana tipli emalatxanaların təşkilində qul əməyindən istifadə, məhdud şəkildə quşçuluğun dirçəlişi dövrün mühüm əlamətlərindən idi. Qazan xanın vəziri F.Rəşidəddinin karxana tipli emalatxanaların təşkilində fəaliyyəti böyük olmuş, Rəbi Rəşididə xeyli karxana işləmiş və onlar böyük gəlir gətirmişdir (Azərbaycan tarixi, 1999, səh. 630). XIV əsrin sonu - XV əsrin əvvəllərində ölkənin hərbi-siyasi durumunun qeyri-sabitliyi şəhər həyatına, onun iqtisadi əsasını təşkil edən sənət istehsalına mənfi təsir göstərsə də, XV əsrin ikinci rübündən həmin əsrin sonlarınadək ölkədəki nisbi siyasi sabitlik şəhər həyatının yüksəlişinə, sənətkarlıq və ticarətin tərəqqisinə şərait yaratmışdı. Lakin XV əsrin sonunda sabitliyin pozulması,

XVI-XVII əsrlərdə Səfəvi-Osmanlı müharibələri Azərbaycanda şəhər həyatına, sənətkarlıq və ticarətə ağır zərbə vurmuşdu, tədrici tənəzzül özünü büruzə verməyə başlamışdı. Bununla belə, son orta əsrlərdə sənət istehsalı ölkə iqtisadiyyatında mühüm yer tuturdu və sənətdaxili ixtisaslaşma dərinləşməkdə idi. XV-XVII əsrlərdə hətta bəzi yeni sənət sahələri meydana gəlmişdi.

Bəzi tədqiqatçıların fikrincə, son orta əsrlərdə şəhərlərdə sənətkarların böyük əksəriyyəti "əsnaf", "möhtərizə", "ozan" adlarıyla məlum olan peşə təşkilatlarında birləşirdilər. Lakin Qərbi Avropanın sex təşkilatlarından fərqli olaraq onların fəaliyyət sahəsi məhdud olub, əsasən vergilərin bölüşdürülməsi və ödənilməsindən ibarət idi (М.Х.Гейдаров, 1987).

Ölkə sənətkarlığının səviyyəsi və istehsal texnologiyası barədə arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş sənətkarlıq emalatxanaları, istehsal çıxarları, xammal qalıqları, yarımfabrikatlar, eləcə də külli miqdarda sənətkarlıq məmulatı təsəvvür yaratmağa imkan verir. Müasir analitik metodlardan - spektral, kimyəvi, metalloqrafik və s. istifadə sənət sahələrində tətbiq edilən texnika və texnologiyanın öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

**Metallurgiya və metalişləmə.** Metallurgiya və metalişləmə iqtisadi həyatın bütün sahələrinə güclü təsir göstərən fəaliyyət sahələri idi. Metalişləmə sənətinin inkişaf səviyyəsi, onun texnoloji təkmilləşməsi bu və ya digər dərəcədə əkinçiliyin, sənətkarlığın, hərb sənətinin və təsərrüfat məişətinin durumuna təsir göstərir, sənətkarlığın texniki səviyyəsini müəyyənləşdirirdi (Б.А.КОЛЧИН, 1975, стр. 7). Azərbaycanın müxtəlif bölgələrində filiz yataqlarının mövcudluğu metallurgiya və metalişləmənin inkişafını şərtləndirən mühüm amillərdən idi. Monqol istilası nəticəsində ağır zərbəyə məruz qalan filizçıxarma və metallurgiya Qazan xan hakimiyyəti dövründə yenidən dirçəlməyə başlayır (Ф.Рашид-ад-Дин, 1957, стр. 214).

Ehtimallara görə Qafan və Naxçıvan, Gədəbəy, Daşkəsən, Şiz, Marağa, Zəncan filiz yataqları metallurgiyanı zəruri xammalla təmin etməkdə başlıca rol oynayırdı. Əbdürrəşid Bakuvi bildirir ki, Zəncan şəhərinin yaxınlığındakı dağlarda dəmir filizi mədənləri vardır. Əgər əhalidə məhsul qıtlığı əmələ gəlirsə, onlar taxılı dəmirə dəyişməklə alırlar (А.Бакуви, 1971, стр. 73). Yerli xammalla bərabər dəmir həm də xaricdən idxal olunurdu. Mənbələr yüksək keyfiyyətli dəmirin Mosuldan gətirildiyini qeyd edirlər (М.Х.Гейдаров, 1982, стр. 189).

XX əsrin 30-cu illərində A.A.İyessen və B.Y.Degen-Kovalevski Şəmkir, Gəncə, Tərtərçay hövzəsində, Naxçıvan, Ordubad və Zəngəzurda, 80-ci illərdə isə Ə.İ.Novruzlu Naxçıvanın Sirab, Gümüşlü, Havuş mis filiz yataqlarında qədim və orta əsr mədənlərinin qalıqlarını qeydə almışlar (А.А.Иессен, Б.Е.Деген-Ковалевский, 1935, стр. 35-36; Ə.İ.Novruzlu, 1997, səh. 65).

Görünür, son orta əsrlərdə filizçıxarma prosesi XVIII-XIX əsrlərdə mövcud olmuş üsul və texnikadan fərqlənməmiş, Y.Veydenbaumun təsvir etdiyi şəkildə

olmuşdur. Həmin təsvirə görə çox darısqal olan mədənə fəhlələr iməkləyərək girir, uzanmış halda filizi qopararaq torbalara doldurur və kəndir vasitəsilə sürüyərək bayıra çıxarırdılar (Е.Вейденбаум, 1877, стр. 265).

Tədqiqatçılar yerli yataqlardan çıxarılan filizin mədənlərin yaxınlığında əridildiyini bildirirlər. Bu səbəbdən filiz yataqlarının olduğu kəndlərin sakinləri metallurgiya ilə yaxından məşğul olurdular. Məsələn, müəyyən olunmuşdur ki, Quşçu, Seyidlər, Çovdar, Bayan, Daşkəsəndə yerli kənd əhalisi ənənəvi şəkildə bir neçə əsr ərzində dəmir və mis filizinin çıxarılması və əridilməsi ilə məşğul olmuşdur (Е.Вейденбаум, 1877, стр. 258-260).

Sirab mədənlərinin arxeoloji tədqiqi zamanı burada həm də metaləritmə kürələrinin qalıqları üzə çıxarılmışdır. Kürələrin yalnız aşağı hissəsi salamat qalmışdır. Bişmiş kərpicdən inşa olunmuş həmin kürələrin içərisindən metal ərintisi və çıxar aşkar edilmişdir (Ə.İ.Novruzlu, 1997, səh. 68-69).

Dirovdağda arxeoloji qazıntılar zamanı son orta əsrlərə aid metallurqların yaşayış yerində dəmir filizi əridilən kürə üzə çıxarılmışdır. Tədqiqat zamanı buradan xeyli miqdarda istehsal tullantıları da aşkarlanmışdır.

Etnoqrafik ədəbiyyatdan məlum olur ki, filiz əridən kürələr ortasında çalaşəkilli odluğu olan açıq ocağa bənzəyirdi. Filiz parçalarını və kömürü kürəyə qat-qat yığaraq körük vasitəsi ilə odluğa hava üfürülürdü. Nəticədə kürənin aşağı hissəsində kömür közünün hərarətinin yüksəlməsi ilə əmələ gələn və yüksək hərarətlə qızan karbon oksidi yuxarı qalxır, filiz və kömürü qızdıraraq onlarla kimyəvi reaksiyaya girirdi. Bu yolla filizdəki dəmirin və tərkibdəki maddələrin oksidləşməsi nəticəsində bir tərəfdən dəmir, digər tərəfdən isə metal pasa əmələ gəlirdi. Beş saat ərzində filiz əriyib qaynar kütləyə çevrilirdi. Hasil olunmuş ərinti qırsının tərkibində hələ metal pasa olduğundan onu döyərək saflaşdırırdılar (Е.Вейденбаум, 1887, стр. 267; Б.А.КОЛЧИН, 1953). Qeyd olunduğu kimi, filiz əritmə kürələrində yüksək hərarəti almaq üçün odluğa güclü hava üfürülməsi zəruri idi. Kürəyə süni hava üfürülməsini təmin etmək üçün körüklərdən istifadə olunurdu. Körüklərin dəri hissələri dövrümüzə qədər qalmasa da, onların odadavamlı saxsı başlıqları tapılmışdır. Bəsit texnologiyaya əsaslanan belə metaləritmə kürələrində yüksək hərarətin alınmasının təminatı üçün alışarkən zəngin karbon oksidi əmələ gətirən yüksək koloritli yanacaq növü lazım idi. Bu ilk növbədə yüksək hərarət verən oduncaqlı ağac növləri - palıd, ardıc, arçan, vələs və s.-dən alınan kömür idi (A.N.Mustafayev, 1999, səh. 172).

Ərintinin keyfiyyəti aşağıdakı amillərdən asılı idi. Kürəyə havanın müntəzəm üfürülməsi, hərarətin yüksək səviyyədə saxlanılması, ərp formasında üzə qalxmış çıxarların - metal pasanın təmizlənməsi, qırsın mükəmməl döyülməsi və s. (A.N.Mustafayev, 1999, səh. 172).

Metal qırsa, adətən, dəyirmi, kündə formalı görünüş verirdilər. Metallurqların hasil etdiyi xammal adətən istehsal üçün yararlı olmurdu və dəmirçilər hələ onu

emal edib yararlı hala salmalı idi. Metaləritmə kürələri adətən şəhərlərin rabad hissəsində yerləşirdi. Qəbələ şəhər yerindən üzə çıxarılmış, XV əsrə aid edilən üç metaləritmə kürəsi diqqətəlayiqdir. Bu kürələrin içərisindən metal kütləsi, metal pasa tapılmış, yanacaq ehtiyatının qalığı aşkar edilmişdir (В.Ф.Гадиров, 1987, стр. 548-549).

Metaləritmə kürəsi Qəbələ yaxınlığındakı Şiştəpədən də aşkarlanmışdır. Planda ovalvari formaya malik, 40x60 *sm* ölçüdə bu kürənin divarlarının qalıqlarının hündürlüyü 40 *sm*-ə qədər mühafizə olunmuşdu. Kürədə metal ərintisi, metal pasa, kömür və kül təbəqəsi üzə çıxarılmışdır (F.V.Qədirov, 1984, səh. 84).

Metalişləmədə sənətdaxili ixtisaslaşma ilk növbədə xammalın xarakterindən asılı olaraq gedirdi. Buna müvafiq olaraq dəmirçilik, misgərlik və zərgərliyə ayrı-ayrılıqda baxmaq məqsədəuyğundur.

**Dəmirçilik.** Arxeoloji qazıntılar dəmirçiliklə ölkənin şəhərlərində, həm də kəndlərində məşğul olunduğunu göstərir. Dəmirçi emalatxanalarının qalıqları Şamaxı, Dərbənd, Şabran, Naxçıvan, Xaraba-Şəhər şəhərgahlarından, Canaxır, Salmanbulağı yaşayış yerlərindən aşkarlanmışdır (T.M.Dostiyev, 2001, səh. 128-129; Г.А.Джидди, 1981, стр. 86; Ə.İ.Novruzlu, 1997, səh. 71; А.Б.Нуриев, 1970, стр. 15-16).

Son orta əsrlərdə Təbriz, Ərdəbil, Gəncə, Naxçıvan, Şamaxı mühüm dəmirçilik mərkəzləri idi. Evliya Çələbi Bakıda İçərişəhərin qərbə açılan qapısının Naxçıvan dəmirindən hazırlandığını qeyd edir (Evliya Cələbi, 1997, səh. 67).

Monqol istilası ilə əlaqədar Ərdəbil şəhərində böyük dağıntılar baş verməsinə baxmayaraq, XIII əsrin ikinci yarısı - XIV əsrin birinci yarısında burada sənətkarlığın bərpası müşahidə olunurdu. Bu zaman şəhərdə dəmirçilərin xüsusi məhəlləsi vardı (М.Х.Гейдаров, 1982, стр. 193).

Dövrün dəmirçi emalatxanalarının təsviri baxımından Şamaxı şəhərində öyrənilmiş dəmirçixana diqqəti cəlb edir. VII qazıntı sahəsində aşkar edilmiş həmin emalatxananın döşəməsi çaydaşıları ilə döşənmiş, mərkəzdə iri çaydaşılarından uzunluğu 1,5 *m*, eni 75 *sm* olan səki hörülərək ortasında 15x10x5 *sm* ölçüdə ocaqlar düzəldilmişdi. Səkidən körüyün saxsı başlığı, dəmir pərgar, xeyli metal pasa və kömür qalıqları üzə çıxarılmışdır (Г.А.Джидди, 1981, стр. 86; 1981a, стр. 418-419; 1984a, стр. 73). Pərgar müasir pərgarları xatırladır (tablo 130, şək. 5), amma bir qədər kobudluğu ilə fərqlənir.

Dərbənd şəhərinin narınqalasında XIII qazıntı sahəsində XIV-XV və XVI-XVII əsrlərdə fəaliyyət göstərmiş metalişləmə emalatxanalarının qalıqları aşkarlanıb tədqiq edilmişdir. XIV-XV əsrlərin emalatxanası 2,8x2,8 *m* və 4,5x2,8 *m* ölçüdə olmaqla, daşdan adi palçıqla hörülmüş iki otaqdan ibarət idi. Qalınlığı 0,9-1,1 *m* olan divarların hörgüsünün 1 və ya 2 cərgəsi (hündürlüyü 15-35 *sm*) salamat qalmışdır. Emalatxanada kürə qalıqları, metal pasa və tullantılar, metal məmulat, keramika və s. tapılmışdır. Həmin emalatxananın qalıqları üzərində XVI-XVII

əsrlərdə fəaliyyət göstərmiş ikinci bir emalatxana yerləşirdi. Bu emalatxana da əvvəlki kimi yonulmuş və yonulmamış iri daşlardan adi palçıqla inşa edilmiş, qalınlığı 0,8-1 *m* olan divarların hörgüsünün 1-3 cərgəsi salamat qalmışdır. Emalatxanada ocaq, metal məmulat, iri daş həvəngdəstə, şirli və şirsiz saxsı məmulat tapılmışdır (А.А.Кудрявцев, 1984, стр. 127).

Xaraba şəhərdə dəmirçixana qalıqları sənətkarlar məhəlləsinin cənub kənarında, Araz çayının sahilində aşkarlanmışdır. Düzbucaqlı plan quruluşuna malik bu dəmirçixananın bir küncündə odadavamlı bişmiş kərpicdən kvadrat biçimli kürə yerləşirdi. Kürənin daxili ölçüləri 35x35 *sm* idi. Kürənin altlığında içərisində dəmir ərintisi olan 20 *sm* qalınlıqda kömür qatı vardı. Kürəyə hava vurulması üçün istifadə olunmuş körüyün dəri və ağac qalıqları da tapılmışdır (Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002, səh. 49).

Canaxır yaşayış yerində aşkar edilmiş dəmirçi emalatxanasında uzunluğu 34 *sm,* eni 20-26 *sm,* dərinliyi 18 *sm* olan kürə vardı. Onun divarlarının qalınlığı 8 *sm*-ə çatırdı. Ocağın ətrafından metal pasalar və kömür parçaları aşkar edilib təmizlənmişdir (T.M.Dostiyev, 2001, səh. 128). Dəmirçixana qalıqları Salmanbulağı yaşayış yerindən də üzə çıxarılmışdır. Diametri 25 *sm,* dərinliyi 20 *sm* çala formasında ocaq xüsusi düzəldilmiş səkidə olub dibində kömür parçaları, dəmir ox ucluğu vardı. Səkidən isə bir neçə metal pasa tapılmışdır. Ocağın şərq divarında körüyün ucluğunun yeri müəyyənləşdirilmişdir (T.M.Dostiyev, 2000, səh. 39; T.M.Dostiyev, 2001, səh. 129).

Beləliklə, arxeoloji qazıntılar nəticəsində əldə olunmuş faktik materiallar ölkənin istər şəhərlərində, istərsə də kəndlərində dəmirçi emalatxanalarının olduğunu sənədləşdirir.

Dəmirçixanada başlıca element olan kürə və körükdən başqa bir sıra zəruri əmək alətləri və ləvazimatı olurdu. Kürə məmulat və ya yarımfabrikatın istidöymə üsulu ilə emalı üçün vacib olan hərarətin alınmasına imkan verirdi. Dəmirçinin başlıca əmək alətləri zindan, gürz, çəkic, tutqac, qələm, yeyədən ibarət idi. Bundan başqa dəmirçixanalarda pərgar da işlədilirdi.

Dəmirçi alətləri arxeoloji qazıntılar zamanı Şamaxı (Г.А.Джидди, 1981, стр. 80), Bakı (F.Ə.İbrahimov, 1995, səh. 10-13), Şabran (T.M.Dostiyev, 2001, səh. 130) və Naxçıvandan (Ə.Novruzlu, 1997, səh. 74-75) tapılmışdır.

Dəmirçi emalatxanalarında kənd təsərrüfatı alətləri və onların dəmirdən olan hissələri (tablo 129, şək. 1-6, 15-16), müxtəlif sənət sahələrində işlədilən alətlər (tablo 130), soyuq silahlar (tablo 131, 132), təsərrüfat və məişətlə bağlı ləvazimat (tablo 133, 134) və s. istehsal olunurdu.

İxtisaslaşmanın dərinləşməsi nəticəsində silahsazlıq və nalbəndlik müstəqil sahələrə çevrilmişdi. Böyük şəhərlərdə ixtisaslaşma daha güclü idi. Yazılı mənbədən bəlli olur ki, Təbrizdə silahsazlar, nalbəndlər, mişar düzəldənlər, baltaçılar, yeyə düzəldənlər, qıfılçılar və s. müstəqil fəaliyyət göstərirdilər. Qədim ənənələrə malik

soyuq silahlar (qılınc, xəncər, nizə, təbərzin, ox və kaman) istehsalı kütləvi xarakter daşıyırdı. Təbriz, Gəncə, Şamaxı, Dərbənd mühüm silahsazlıq mərkəzi idi. Təbrizdə silahsazlıqda daxili ixtisaslaşma mövcud idi. Şəhərdə "Qılıncqayıranlar bazarı", "Bıçaqqayıranlar bazarı" və b. vardı. Təbrizin kənarında Beşkuy adlı yerdəki təpə üzərində böyük bir sahədə silah istehsal olunurdu. Orada yalnız silahsaz ustalar yaşayırdı. Bu sənəti öyrənmək istəyən şəxsdən həmin yeri tərk etməyəcəyi barədə iltizam aldıqdan sonra işə qəbul edirdilər. Tədqiqatçılar yazılı mənbələrə əsaslanaraq bildirirlər ki, dünyanın heç bir yerində Təbrizdə olduğu kimi keyfiyyətli silah və zireh hazırlanmırdı (S.M.Onullahi, 1982, səh. 110-111). Ərdəbildə də dəmirçilərin bir qismi silahsazlıq üzrə ixtisaslaşmışdı (М.Х.Гейдаров, 1982, стр. 206).

Yerli sənətkarların istehsal etdikləri silah və zireh geyimləri daxili və xarici bazarın tələbatını ödəyirdi. Müəyyən olunmuşdur ki, çar Boris Qodunovun zireh geyimlərindən on dəbilqəni azərbaycanlı silahsazlar istehsal etmişdilər. Həmin dəbilqələrdən səkkizi Şamaxı silahsazlarının payına düşürdü (М.Х.Гейдаров, 1999, стр. 83). Silahsazlıq orta və kiçik şəhərlərdə də kifayət qədər inkişaf etmişdi. Azərbaycanın kiçik şəhərlərindən sayılan Sərab şəhəri ox ucluqları istehsalı üzrə ixtisaslaşmışdı. Mənbələrdə Sərab şəhərindən olan ox istehsalçısı Nurəddin Tirtaraş xüsusi qeyd edilir (М.Х.Гейдаров, 1982, стр. 206).

Səfəvilər dövründə silahsazlıq daha da tərəqqi edir. İxtisaslaşmanın dərinləşməsi nəticəsində odlu silahlar istehsalı ilə məşğul olan ustalar ayrılmağa başlayır. Arxeoloji qazıntılar zamanı əsasən ox və nizə ucluqlarına, qılınc və xəncər, hərbi bıçaq nümunələrinə, zireh qalıqlarına təsadüf olunmuşdur. Şabran şəhərinin arxeoloji qazıntılarında XVI-XVII yüzilliklərə aid üst inşaat qatında odlu silaha məxsus lülə qalıqlarına rast gəlinmişdir.

Tapıntılar arasında ox ucluqları daha çoxdur. Məlum olduğu kimi, ox ucluqdan, ağac və ya qamış gövdədən və yayın yatırıldığı lələkdən ibarət olurdu. Son orta əsrlərdə ox ucluğu əsasən dəmirdən hazırlanır, gövdəyə iki üsulla: sancma və ya geydirmə üsulu ilə bərkidilirdi. Birinci halda ucluq sulquncla bitirdi, ikinci halda borulu olurdu. Əvvəllər olduğu kimi, son orta əsrlərdə də borulu ox ucluqlarına nadir hallarda rast gəlinir və tapılan ucluqların tam əksəriyyəti sulquncludur. Yazılı qaynaqlardan bəllidir ki, silahsazlar ox ucluğu hazırlayarkən onun çəkisinin oxun ümumi çəkisinə nisbətini nəzərə alırdı. Orta əsr anlamına görə ox ucluğunun çəkisi oxun ümumi çəkisinin $^{1}/_{7}$-ni təşkil etməli idi. Ox ucluqlarının tədqiqi onların bu tələblərə uyğun hazırlandığını söyləməyə əsas verir. Arxeoloji qazıntılar zamanı Bakıdan qalın göndən hazırlanmış ülgü (tablo 131, şək. 1) də tapılmışdır (F.İbrahimov, 1995, səh. 21). O, yarpaqvari formada ox ucluqlarının kütləvi istehsalında istifadə edilmişdi.

Ox ucluqları pərlərinin en kəsiyi və formasına görə qrup və tiplərə ayrılır (С.А.Ахмедов, Э.Б.Джафарова, 2004; S.Əhmədov, E.Cəfərova, 2005). Dördtilli ox ucluqları uzunsov-rombvari formaya malik olub, itibucaqlı ucu və itibucaqlı

çiyinləri vardır. Yastılaşdırılmış dördtilli ox ucluqları beşbucaqlı, rombvari və üçbucaq formaya malik olmaqla üç tiplə təmsil olunmuşdur (tablo 131, şək. 15-17, 19-20, 26). Bunlardan rombvari ucluqlar dirəkli və dirəksiz olmaqla iki yarımtipə ayrılır. Üçtilli ox ucluqları üçbucaq və rombvari formalıdır. Sonuncular dirəkli və dirəksiz olmaqla iki yarımtiplə təmsil olunub (tablo 131, şək. 13-14, 18, 21). Ox ucluqları arasında yastı ox ucluqları daha geniş yayılmışdır. Onlar uzunsov üçbucaq, yarpaqvari, rombvari, uzunsov-rombvari formalarda dirəkli və dirəksiz hazırlanmışlar (tablo 131, şək. 4, 5, 7-9, 22-25). Aşkarlanmış ox ucluqlarının ümumi cəhəti sivri uca və əsasən ensiz pərə malik olmasıdır. Bu isə onların daha dərin yara açmaq imkanını artırırdı (С.А.Ахмедов, Э.Б.Джафарова, 2004). Onlardan həm də zirehli geyimə malik hədəfi sıradan çıxarmaq üçün istifadə olunurdu.

Bakıda, İçərişəhərdəki qazıntılardan məlum olan sulqunçu uzun, tiyəsi uca doğru sivriləşən yumru, konusvari formalı ox ucluqları (tablo 131, şək. 10-12) görünür, zireh geyimli hədəfi sıradan çıxarmaq məqsədi daşıyırmış.

Ox ucluqları xüsusi oxluqda gəzdirilirdi. Oxluq-sədaq qalığı Mingəçevirdə monqol döyüşçüsünün qəbrindən tapılmışdır. Oxluq-sədaq xüsusi qarmaqlarla kəmərə bərkidilirdi. Arxeoloji qazıntılar zamanı tapılmış həmin qarmaqlar bir ucu qarmaq, digəri halqa formasında bükülmüş dəmir millərdən ibarətdir (tablo 131, şək. 27).

Son orta əsr abidələrində arxeoloji qazıntılar zamanı tapılmış nizə ucluqları bir neçə nümunə ilə təmsil olunur. Onlar uca doğru sivriləşən yarpaqvari və konusvari formalıdırlar (tablo 132, şək. 10-15).

Arxeoloji qazıntılar zamanı az da olsa orta əsrlərin mühüm hücum silahlarından sayılan qılınc və xəncər nümunələri də tapılmışdır. Düz tiyəli qılıncların tiyəsinin uzunluğu 65-97 *sm,* eni isə 6-7 *sm,* dəstəyin uzunluğu isə 12-16 *sm*-dir (Ə.İ.Novruzlu, 1997, səh. 106). Tiyə ilə dəstək arasındakı keçid düz, qövsvari və ovalvari formadadır (tablo 132, şək. 5-6). Qəbələ şəhərinin arxeoloji qazıntılarından tapılmış, XIII-XIV əsrlərə aid edilən uzunluğu 19,5 *sm,* eni 4 *sm* olan tiyə parçasının (tablo 132, şək. 4) əyri qılınca mənsub olduğu ehtimal olunur (S.M.Qaziyev, 1964. səh. 42, tablo 15, şək.11).

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş xəncər tiyələrinin qınıqları sadə formalı, uca doğru daralan, ikiağızlı xəncər tipinə mənsubdur (tablo 132, şək. 2, 7).

İçərişəhərdə Çin məscidinin yaxınlığında tapılmış (F.Ə.İbrahimov, 1985, səh. 15-16) xəncər güclü korroziyaya məruz qalmışdır. Onun düzbucaq formalı tiyəsi uc tərəfdə kəskin daralaraq sivriləşir. Dəstəyi boruşəkilli olub, başlığı günbəzvaridir. Tiyəsinin uzunluğu 35 *sm,* dəstəyinin uzunluğu isə 12 *sm*-dir (tablo 132, şək. 1).

Xəncər qınının fraqmenti Şabran şəhər yerinin qazıntısından məlumdur (tablo 132, şək. 8).

Son orta əsrlərə aid döyüş bıçaqları bir ağızlı, düz tiyəli olub, uc hissəsi sivriləşdirilmişdir (tablo 132, şək. 3,9).

Dövrün zireh geyimlərindən Zəngilan rayonunun Ağbil kəndindən tapılmış və hazırda Azərbaycan Tarixi Muzeyində saxlanılan XIV əsrə aid "ayaqlıq" maraqlı tapıntı hesab olunur. O bir enli və iki ensiz polad lövhədən ibarət olub, halqalar vasitəsilə birləşdirilmişdir (С.Г.Мамедов, 1997, стр. 283). Ayaqlığın quruluşu onun baldırının əsasən çöl tərəfini, qismən isə ön və arxa tərəflərini qorumaq məqsədi daşıdığını söyləməyə imkan verir. Görünür belə "ayaqlığı" süvari döyüşçülər geyirmişlər.

Bütövlükdə, silahsazlıq dövrün hərb sənətinin səviyyəsinə uyğun idi. Təsərrüfatda və hərbi işdə minik heyvanlarından geniş istifadə onların nallanmasını və nalbəndliyin ayrıca, müstəqil bir sahəyə çevrilməsini şərtləndirmişdi.

Arxeoloji qazıntılar nəticəsində əldə olunan nallar müxtəlif ölçüdə və formada (tablo 134, şək. 4-9) olub, nəinki atın, həm də qatır və eşşəyin nallandığını göstərir. Bundan başqa çəkmələr üçün də kiçikölçülü nal hazırlanırdı. Nalbəndliyin mühüm mərkəzlərindən biri Gəncə idi. Evliya Çələbi bildirir ki, "Gəncənin at nalı, dəmiri də ipəyi kimi məşhurdur" (Evliya Çələbi, 1997, səh. 56). Rafael dyu-Man isə Təbriz nalbəndlərinin peşəkarlıq səviyyəsinin yüksək olduğuna işarə edərək yazırdı ki, "onların nal düzəldənləri bizim ustalardan yaxşı nal düzəldirlər" (Raphael du-Mans, 1890, p. 202).

Arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış dəmirçi emalatxanalarının qalıqları, aşkar edilmiş məmulatın tədqiqi dəmirçi ustaların iş prosesində tətbiq etdikləri texnika və texnologiyanı müəyyənləşdirməyə imkan verir. Tapıntıların kompleks şəkildə öyrənilməsi çeşidli məmulatın hazırlanmasında metal emalının müxtəlif texnoloji üsullarından istifadə olunduğunu göstərir. Emalın başlıca növü məmulatın nəzərdə tutulan formaya salınmasını, onun ayrı-ayrı hissələrinin kobud hazırlanmasını təmin edən istidöymənin müxtəlif üsulları idi. İstidöymə prosesində bir sıra əməliyyatları, o cümlədən yastılama, uzatma, burma, qatlama, sulğuccıxarma kimi əməliyyatları yerinə yetirmək mümkün idi. Poladqarışıq dəmirdən hazırlanmış alətlərin istehsalı qaynaq üsuluna əsaslanırdı. Belə alətlərin kəsici və ya deşici hissəsi poladdan, qalan hissəsi isə dəmirdən olurdu. Polad kəsici hissənin dəmir əsasa qaynaq edilməsi üsulu etnoqrafik ədəbiyyatda müfəssəl təsvir edilmişdir (A.N.Mustafayev, 1999, səh. 135).

Arxeoloji materialların metalloqrafik tədqiqi həmin texnologiyanın hələ antik dövrdə uğurla istifadə olunduğunu sənədləşdirir (Н.Н.Терехова, Т.С.Мехтиев, 1988). Poladqarışıq dəmirdən alətlərin hazırlanmasının geniş yayılması dəmirçilərin poladın xassələrini yaxşı bilməsi ilə yanaşı, həm də onların yüksək texniki səriştəsini göstərir.

Dəmir məmulatın hazırlanmasında soyuqdöymə, kəsmə, deşmə, itiləmə kimi texniki üsullardan da geniş istifadə olunurdu. Geniş yayılmış soyuqdöymə üsulu adətən, istehsal prosesinin başlanğıc və tamamlama mərhələlərində tətbiq olunurdu.

**Metaltökmə sənəti və misgərlik.** Son orta əsrlərdə əlvan metalların emalı da kifayət qədər inkişaf etmiş, metaltökmə ustaları və misgərlər məişət ləvazimatı və inşaat hissələri, at əsləhələrinin hissələrini hazırlayırdılar. Əhalinin məişətində əlvan metallardan, ilk növbədə misdən hazırlanmış qab-qacaqlardan xüsusilə geniş istifadə olunurdu.

XVI əsrin 80-ci illərində Şirvanda olmuş ingilis C.Deket yazırdı ki, şirvanlıların "evlərində xalça və mis məmulat istisna olmaqla, təsərrüfat avadanlığı çox azdır, çünki bütün qazan və boşqablar misdəndir" (Английские путешественники, 1937, стр. 260).

Son orta əsrlərdə metaltökmə sənəti əlvan metalişləmənin müstəqil bir sahəsi kimi fəaliyyətdə idi. Metaltökmə ustaları ayrıca təşkilatda - əsnafda birləşmişdilər. Tədqiqatçılar yazılı mənbələrdə metaltökmə sənəti ilə məşğul olan ustaların başçısının adının ustad-e şeyx-i rihteger kimi çəkildiyini bildirirlər (М.Х.Гейдаров, 1982. стр. 196). Metaltökmə ustaları kiçik əşyalardan tutmuş iritutumlu tiyanlara qədər müxtəlif ölçüdə, müxtəlif təyinatlı məmulat istehsal edirdilər. Metaltökmə sənətinin başlıca mərkəzləri iri şəhərlər, o cümlədən Təbriz, Ərdəbil, Marağa, Dərbənd, Şamaxı, Naxçıvan və Gəncə şəhərləri idi.

Arxeoloji qazıntılar zamanı aşkarlanan gil və daş qəliblər metaltökmə sənətində qəlibkarlıqla müxtəlif təyinatlı məhsulların kütləvi istehsalının təşkil olunduğuna dəlalət edir. Həm birdəfəlik, həm də uzunmüddətli istifadə edilən gil qəliblər tətbiq olunurdu. Birdəfəlik mum modeli üzrə hazırlanmış gil qəliblər məmulat hazır olduqda məhv olurdu. Uzunmüddətli istifadə üçün tətbiq edilən qəliblər yastı olmaqla iki hissədən ibarət düzəldilirdi. Daş qəliblər də əsasən iki hissədən ibarət olurdu.

Metaltökmə sənətində tətbiq olunan istehsal alətləri və ləvazimatı mürəkkəb olmayıb puta, tutqac, maşa və metal ərintini qəlibə tökməyə xidmət edən parç (bir tərəfində novça olan qab) və qəliblərdən ibarət idi.

Beyləqan, Qəbələ, Xaraba-Gilan, Gəncə şəhərlərinin arxeoloji qazıntılarından əldə olunmuş metal əşyaların bəzilərinin miqdarı spektral analizi əşyaların tərkibinin əsasən mürəkkəb, çoxkomponentli ərintilərdən ibarət olduğunu göstərmişdir. Belə vəziyyət ilk növbədə misin müxtəlif tərkibli tunc qırıntıları ilə birlikdə əridilməsi və digər polimetal filizlərlə birlikdə dərin sulfitli mis filizlərinin işlənməsi və əridilməsində peşəkarlığın inkişafı ilə bağlı idi (М.Рагимова, Л.Алиева, 2003, стр. 103).

1399-cu ildə Təbrizdə Əbdüləziz Şərəfəddin tərəfindən Türküstandakı Xoca Əhməd Yasəvi məscidi üçün hazırlanmış tunc tiyan metaltökmə sahəsində Azərbaycan sənətkarlarının yüksək peşəkarlıq səviyyəsinə ucaldığını əyani nümayiş etdirir (tablo 135, şək. 1). Ağırlığı 2 ton, ağzının diametri 245 *sm* olan bu tiyan Teymurilər dövrünün bədii metaltökmə sənətinin möcüzəsi hesab olunur (М.Х.Гейдаров, 1982, стр. 194).

XV əsrdə Təbrizin metaltökmə sənətinin başlıca mərkəzlərindən olduğunu naməlum venesiyalı tacirin "Həştbehişt" sarayındakı tunc novdanlar haqqında məlumatı da təsdiqləyir. O yazır: "Onlar o qədər böyük idi ki, hər birindən bir top düzəltmək olardı. Həmin novdanları o qədər məharətlə düzəltmişdilər ki, oradakı əjdaha şəkilləri canlı əjdahaya bənzəyirdi" (S.M.Onullahi, 1982, səh. 124-125).

XVI-XVII əsrlərdə metaltökmə sənətinin daha da inkişaf etdiyini Rafael du Man da qeyd edir. O bildirir ki, Təbriz ustaları diametri 4,5 ayaq və iki barmaq qalınlıqda tiyanlar istehsal edirlər (Raphael du Mans, 1890, p. 201-203). Əlvan metalların emalında tökmə texnikası ilə yanaşı, isti və soyuqdöymə, tapdanma, qaynaqetmə, çarxatutma, həkketmə və s. texniki üsullardan istifadə olunurdu. Misgərlikdə metaltökmə sənətindən fərqli olaraq daha çox özünəməxsus alətlər vardı. İş prosesində misgərlər zindan, gürz, çəkic, kəlbətin, maşa, qələm, qayçı, burğu və s. işlədirdilər. Misgər çəkici Bakıda İçərişəhərdə arxeoloji qazıntılar zamanı XIV-XV əsrlər təbəqəsindən tapılmışdır. Uzunluğu 16,5 *sm*, eni 6 *sm*, qalınlığı isə 5 *sm* olan bu çəkicin hər iki zərb tərəfi dördküncdür. Yan tərəfdən baxdıqda çəkic açıq qövs şəklini xatırladır (F.Ə.İbrahimov, 1995, səh. 11). İçərişəhər qazıntılarından həm də misgərlikdə işlədilən iskənələr aşkarlanmışdır (tablo 130, şək. 1, 2). Onlardan biri üstü dördbucaq şəkilli olub, gövdəsi kəsici uca doğru nazikləşən kiçik iskənədir (tablo 130, şək. 1). F.Ə.İbrahimov onu çilingər aləti hesab edir (F.İbrahimov, 1995, səh. 13). Digər iskənənin başlığı dairəvi olub yuxarıya doğru bir qədər qabarıqdır. Yuxarı tərəfinin en kəsiyi dairəvi olduğu halda aşağıya, kəsici ağzına doğru tədricən lentvari forma alaraq genişlənir və adi iskənələrinkindən fərqli olaraq onun ağzı çox enli olması ilə fərqlənir (F.Ə.İbrahimov, 1995, səh. 13).

Misgərlikdə istehsal prosesi misin əridilib qırs halına salınması ilə başlanırdı. İstehsal prosesində ən çətin və ağır mərhələ qırsların tapdanma əməliyyatı idi. Kollektiv surətdə icra olunan bu əməliyyat nəticəsində məmulatın ayrı-ayrı hissələri zindan üzərində tapdanıb zəruri formaya salınırdı. Tapdanma prosesində kürədən, zindandan, müxtəlif növ çəkic, kəlbətin, qayçıdan istifadə olunurdu. Dərin və böyük tutumlu qablar adətən bir neçə hissədən ibarət hazırlanıb sonradan bir-birinə calaşdırılırdı (A.N.Mustafayev, 1999, səh. 191-193). Calaşdırma lehim üsulu ilə yerinə yetirilirdi. Etnoqrafik materiallardan məlumdur ki, qaynaq üçün "qaraqaynaq" və "misqaynaq" adlanan iki cür lehim işlənirdi. Onlardan birincisi qalay, qurğuşun və duzdan, ikincisi isə sink, bürünc və tənəkardan ibarət olurdu (İ.M.Cəfərzadə, 1933, səh. 123-130; A.N.Mustafayev, 1999, səh. 193). Lehimləmə əməliyyatı başa çatdıqdan sonra məmulatın səthindəki çəkic izlərini aradan götürmək üçün onun üzərini çarxa verirdilər. Bundan sonra naxışlanması nəzərdə tutulan qablara naqqaşlar müxtəlif ornamentlər həkk edirdilər.

Arxeoloji qazıntılardan əldə edilən materiallar və muzeylərdən məlum olan metal nümunələri son orta əsrlərdə təsərrüfat və məişətdə istifadə edilən misgərlik

məmulatının aşağıdakı təsnifatını müəyyənləşdirməyə imkan verir: su qabları, süd emalı ilə bağlı qablar, mətbəx qabları, süfrə qabları, məişət əşyaları. Birinci qrupa daxil olan qablardan Bakıda İçərişəhərdən və Şamaxıdan tapılmış nümunələr böyük maraq doğurur. Şamaxıdan tapılmış dolça tipli qabın yastı oturacağı, kürəvi gövdəsi, hündür silindrik boğazı, novçalı ağzı, çubuqvari qulpu vardır. Misdən döymə üsulu ilə iki hissədən ibarət hazırlanmış, boğaz və gövdə sonradan birləşdirilmişdir. Bu qabın üzəri zəngin cızma naxışlar və təsvir motivləri ilə bəzədilmişdir (Г.А.Джидди, Ф.А.Ибрагимов, 1978; Г.А.Джидди, 1981, стр. 111, табл. 25). Bakıda İçərişəhərdən tapılmış dolça tipli qab (tablo 136, şək. 2) Şamaxıdan tapılmış, yuxarıda təsvir olunan dolçaya oxşar formada olub, gümüşdən hazırlanmış və üzəri zəngin naxışla bəzədilmişdir. Mətbəx qabları arasında qazan və sərpuşlar üstünlük təşkil edirdi. Qazan nümunələri Quba-Xaçmaz bölgəsindən, Naxçıvan və Şamaxıdan aşkarlanmışdır. Naxçıvandan tapılmış qazanın halqavari altlığı olub, gövdəsinin aşağı hissəsi yarımkürəvi, üst tərəfi isə şaqulidir. Gövdəyə nalşəkilli qulp birləşdirilmişdir (Ə.Novruzlu, 1997, tablo 33). Qazanın üzəri zəngin naxışlarla örtülmüşdür.



**Mis dolça. Şamaxı.**

Süfrə qabları arasında camlar mühüm yer tuturdu. Arxeoloji qazıntılar zamanı bu tip qablar bütöv və qırıqlar halında tapılmışdır (F.Ə.İbrahimov, 1995, səh. 33; Ə.İ.Novruzlu, 1997, səh. 123). Onların halqaşəkilli dabanı, yarımkürəvi gövdəsi, düz ağzı olurdu. Bir qayda olaraq gövdənin bayır səthinə həndəsi və nəbati naxışlar həkk olunmuşdur.

Bakıdan tapılmış lüləkli metal qabın diqqət çəkən cəhəti onun sərpuşdan kəsilərək düzəldilməsidir (tablo 138, şək. 1). Sərpuşun konusvari formalı gövdəsinin yuxarı tərəfi kəsilərək qabın ağzı düzləndirilmiş, alt tərəfdən dairəvi mis təbəqə qaynaq edilərək oturacaq düzəldilmişdir. Gövdənin orta hissəsində deşik açılaraq buraya uca doğru daralan lülək qaynaq edilmişdir (F.İbrahimov, 1995, səh. 34). Əhalinin məişətində metaldan hazırlanmış işıqlandırma vasitələri çıraq və şamdan, ticarətlə bağlı tərəzi gözləri, çəki daşları, müxtəlif xarakterli zınqırovlar və s. mühüm yer tuturdu. Qırxçıraq və Şabran qazıntılarından tapılmış, qəlibdə hazırlanmış qıfıllar at fiquru formasında olub üzəri pərgar naxışı ilə bəzədilmişdir

(tablo 138, şək. 10-11) (B.Abdullayev, R.Göyüşov, 1988, səh. 17; Ф.Аббасова, 1997. стр. 203-205).

**Zərgərlik.** Metalişləmənin üçüncü başlıca sahəsi zinət istehsal edən zərgərlik sənəti həm də ləl-cavahiratın işlənmə texnikasını da əhatə edirdi (М.Х.Гейдаров, 1982, стр. 217-218; A.N.Mustafayev, 1999, səh. 31). Düzdür, son orta əsrlərdə ixtisaslaşmanın dərinləşməsi ilə əlaqədar zinət əşyaları istehsalında zərgərlik, gümüşbəndlik və cavahiratsazlıq həm də müstəqil sahələr kimi fəaliyyət göstərirdi. Azərbaycan zərgərləri yerli xammalla yanaşı, həm də gətirilmə xammalla işləyirdilər.

Son orta əsrlərdə Azərbaycanda zərgərliyin başlıca mərkəzləri Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Gəncə, Naxçıvan və digər şəhərlər idi. Məşhur səyyah ibn Bəttutə XIV əsrin əvvəllərində Təbrizdə olmuş və burada "qiymətli daşlar və zərgərlik məmulatı bazarı"na heyran qalmışdır (М.Х.Гейдаров, 1982, стр. 218). Evliya Çələbi isə Təbrizdən bəhs edərkən bildirir ki, heç bir ölkədə buradakı kimi gözəl naqqaş, rəssam və zərgər yoxdur (Evliya Çələbi, 1997, səh. 26). Başqa bir orta əsr müəllifi qeyd edir ki, Təbrizin örtülü bazarında şəhərin ən zəngin və ən nəfis malları satılır. Burada zərgərlərin və gümüşbəndlərin cərgəsi vardır (М.Х.Гейдаров, 1982, стр. 220). Oxşar zərgər, gümüşbənd və cavahirsaz cərgəsi Ərdəbil şəhərində də fəaliyyət göstərirdi.

Zinət əşyalarının hazırlanmasında zərgərlər kürə, buta, zindan, çəkic, kəlbətin, həddə, simkeş, maqqaş, qələm, yeyə, bıçaq, biz, məhəkdaşı kimi müxtəlif çeşiddə əmək alətlərindən istifadə edirdilər. Onlar istehsal prosesində əritmə, döymə, zərbetmə, zolaqlama, lehimləmə, burma, eşmə, oyma və taraşlama əməliyyatları aparırdılar. Zərgərlər iş prosesində, xüsusilə şəbəkə texnikasında müxtəlif ölçülü tellərdən istifadə edirdilər. Tel almaq üçün vərəqə halına salınmış qızıl təbəqəni qayçı ilə doğrayıb zolaqlara ayırır, sonra isə xüsusi alətin - həddənin deşiklərindən keçirirdilər. Həddənin müxtəlif forma və ölçüdə deşikləri olurdu və tel onlardan növbə ilə keçirilərək zəruri tip alınırdı (О.Ш.Исмизаде, 1973, стр. 207; A.N.Mustafayev, 1999, səh. 210).

Əlvan metalın döyülməsində istifadə olunan zərgər zindanları dəmirçi və misgər zindanlarından xeyli kiçik idi. Arxeoloji qazıntılar zamanı zərgər zindanları Şamaxıda XIV-XV əsrlərə mənsub inşaat qatından tapılmışdır (tablo 130, şək. 7). Onlardan birinin aşağı hissəsi ox formasında olub, ağac altlığa bərkidilirdi. Onun yuxarı işlək hissəsi enli və müstəvi şəklindədir. İkinci zindanın darboğazlı bardağa oxşar forması olub, üst tərəfi dairəvi və müstəvi şəklindədir (Г.А.Джидди, 1981, стр. 86, табл. XVI, 5).

Arxeoloji qazıntılar zamanı zərgərlərin geniş istifadə etdikləri putalar da tapılmışdır. Onlar gildən olub müxtəlif ölçüdə və konusvari formadadırlar (tablo 139, şək. 1-2). Şabran şəhərinin arxeoloji qazıntılarından tapılmış belə bir butanın (tablo 139, şək. 2) içərisində əlvan metal qalığı qalmışdı. Adətən zərgər məmulatı

düzəltmək üçün əyarından asılı olaraq müxtəlif nisbətlərdə qızıl və digər metal kütləsini putaya tökür və kürədə əridirdilər. Ərinti tam hazır olduqda onu rəçəyə tökür və soyuyandan sonra ərintini zindan üzərində döyərək yastı lövhə - "vərəqə" alırdılar (A.N.Mustafayev, 1999, səh. 203).

Döymə üsulu ilə daha nazik və yüngül zinət əşyaları hazırlamaq olurdu. Döymə prosesində metal sıxlaşır və daha möhkəm olurdu (О.Ш.Исмизаде, 1973, стр. 285; Ə.İ.Novruzlu, 1997, səh. 150).

Son orta əsrlərdə qəlibkarlıq üsulu ilə hazırlanmış zinət əşyalarından da kifayət qədər geniş istifadə olunurdu. Qəliblər saxsı və daşdan olurdu. "Üzük" hazırlanmasında işlədilmiş qəlib Qəbələ qazıntılarından məlumdur (Г.М.Ахмедов, Ф.В.Гадиров, 1974, стр. 47-49). Oradan həmçinin sırğa istehsal etmək üçün qəlib tapılmışdır (Q.M.Əhmədov, İ.A.Babayev, 1981, səh. 47).

Gil və daşdan hazırlanmış qəliblər Şabran şəhərinin arxeoloji qazıntılarından da məlumdur (tablo 139, şək. 4-7). XIV-XV əsrlərə aid zərgər emalatxanasında kürənin yanından tapılan, çəkisi 70 qram olan daş qəlib diqqəti daha çox çəkir (tablo 139, şək. 7). Üzərində simurqquşunun təsviri oyulmuş bu qəlibdə metal qalığı qalmışdı (F.Ə.Abbasova, 2006, səh. 118).

Arxeoloji qazıntılar zamanı zərgərliklə bağlı əldə edilən materiallar arasında məhəkdaşıları da vardır. Şabran şəhər yerində arxeoloji qazıntılar zamanı zərgərlərin işlətdikləri məhəkdaşılarına da təsadüf olunmuşdur (Р.Б.Геюшев, 1985, стр. 17; T.M.Dostiyev, 2001, səh. 138).

Orta əsr sənətkarları baş, qulaq, boyun-sinə, qol, bilək, barmaq, geyim bəzəklərindən ibarət ənənəvi zinət əşyaları ilə yanaşı həm də qiymətli metaldan qab-qacaq və avadanlıq da hazırlayırdılar. Bunu arxeoloji qazıntılar zamanı əldə edilmiş tapıntılar da təsdiqləyir (Г.М.Асланов и др., 1966). Misal kimi Mingəçevirdən tapılmış gümüş qabı nümunə göstərmək olar (tablo 137).

Yazılı qaynaqlardan bəllidir ki, Elxani hökmdarı Qazan xan Təbriz zərgərlərinə 1300-cü ildə qızıldan taxt düzəltməyi sifariş vermiş və bu sifariş 1302-ci ildə yüksək peşəkarlıqla yerinə yetirilmişdir (Ф.Рашид-ад-Дин, 1957, т.3, стр. 346-347). I Şah İsmayılın taxtının da Azərbaycan ustaları tərəfindən hazırlandığı ehtimal olunur (S.M.Onullahi, 1982, səh. 125).

Son orta əsrlərdə Azərbaycanın mühüm sənətkarlıq mərkəzlərində, o cümlədən Təbriz, Naxçıvan, Şamaxı və Bakıda minasazlıq da kifayət qədər inkişaf etmişdi. Ənənəvi olaraq minasazlıq məmulatı qadın bəzəklərindən başqa, bəzən soyuq silahları, məişətdə işlədilən qabları da əhatə edirdi. Bunu Bakıda İçərişəhərdən tapılmış minalı mis qab əyani təsdiqləyir (В.А.Квачидзе, 1988, стр. 47-79). Silindrik formaya malik olan bu qabın gövdəsinin üzəri bayır tərəfdən minalıdır (tablo 136, şək. 1). Məlumdur ki, minalı məmulatın istehsal texnologiyasını səciyyələndirən başlıca cəhət məmulatın üzərini mina maddəsi ilə bəzəməkdən ibarətdir. Mina maddəsi həm bütövlükdə əşyanın səthinə, həm də onun

polad qələmlə açılmış oyma ornamentlərinə yaxıla bilərdi. Məmulatın bədii tərtibatının xarakterindən asılı olaraq, yaşıl, abı, qızılı, tünd-qırmızı, firuzəyi və ağ rəngli minaların müxtəlif çalarları tətbiq olunurdu.

Rəngli materiallar, xüsusilə ərinmiş şüşəyəbənzər maddə nəinki texniki, həm də bədii cəhətdən metalla uyğunluq təşkil etdikdə məmulatın dekorativliyini artırır, onun estetik təsir gücünü yüksəldirdi (Э.Бреполь, 1977, стр. 327).

Minaoda davamlı metal oksidlərdən hazırlanaraq firça ilə məmulatın üzərinə çəkilirdi. Məmulat odda bişirildikdən sonra mina bərkiyib sabitləşir və şüşəyəbənzər xassə kəsb edirdi (A.N.Mustafayev, 1999, səh. 212-213). Bu mərhələ istehsal prosesində ən çətin və məsuliyyətli mərhələ olduğundan ustadan böyük təcrübə və həssaslıq tələb edirdi. Bakıda, İçərişəhərdən tapılmış qab belə ənənəvi üsulla hazırlanmışdır. Qabın üzərindəki çökəkliyə mina yaxılmış və sanki metal qabın üzərindəki təsvir çərçivəyə salınmışdır. Bundan başqa usta iki rəngin vəhdətinə təsviri üslubdan istifadə edərək nail olmuş və kobalt boya ilə rəng çalarlarının zənginliyini bir qədər də artırmışdır (tablo 136, şək. 1).

Silahların bədii işlənməsində bəzən xatəmkarlıq üsulundan istifadə olunurdu. Bu zaman hazır silah üzərində nəzərdə tutulan çeşni əsasında xırda deşiklər açılır, sonra həmin deşiklərə qızıl və ya gümüş mıx, sədəf, qiymətli daş və s. materiallar doldurularaq bəzənir, məmulatın üzərini sürtüb hamarlayırdılar (A.N.Mustafayev, 1999, səh. 213). Xatəmkarlıq üsulu bəzədilmiş son orta əsrlərə aid silahlardan Azərbaycanda istehsal olunmuş, Moskvada Kremlin Silah Palatasında saxlanılan XVI əsrə aid bir qalxan xüsusilə diqqəti cəlb edir. Maraqlıdır ki, rus arxiv sənədlərində 1594-cü ildə azərbaycanlı bir tacirin rus çarı Fyodor İvanoviçə xatəmkarlıq üsulu ilə bəzədilmiş qalxan hədiyyə etməsindən bəhs olunur: "Qalxanın üzəri oyulmuş və qızılla bəzədilmişdir..." (R.Əfəndi, 1976, səh. 64).

**Dulusçuluq.** Monqol işğalı dövründə sənət istehsalının digər sahələrində olduğu kimi dulusçuluq sənətinə də ağır zərbə vurulmuşdu. Son orta əsrlərdə saxsı istehsalı, xüsusilə şirli məişət saxsı məmulatı istehsalı bir daha əvvəlki səviyyəsinə ucala bilmədi. Amma, inşaat keramikasının - kaşı istehsalının genişlənməsi istisna təşkil edirdi. Bu dövrdə Təbriz dulusçuluq məktəbi ölkənin başlıca keramika mərkəzinə çevrilmişdi. Kaşan keramika məktəbi nümayəndələrinin Təbrizə köçürülməsi də müsbət təsirə malik idi. XIV əsrdən başlayaraq Təbriz müsəlman Şərqində mühüm dulusçuluq mərkəzi kimi tanınmışdı (M.X.Гейдаров, 1982, стр. 227).

Təbriz şəhərinin geniş inşaat meydançasına çevrilməsi, xüsusilə bişmiş kərpicdən monumental binaların ucaldılmasının geniş vüsət alması bu dövrdə yüksək bədiiliyi ilə fərqlənən kaşı istehsalına tələbatı artırmış, nəticədə kaşı istehsalı kütləvi hal almışdı.

Dulusçuluq yerli xammal əsasında inkişaf edirdi. Azərbaycan dulusçuları iki növ gildən istifadə edirdilər. Təsərrüfat və mətbəx qabları əsasən tərkibində qum

qarışığı olan məsaməli, "cod" gildən, süfrə qabları, nəfis saxsı məmulat daha çox narın, "yağlı" gildən hazırlanırdı. Məsaməli (cod) gildən hazırlanmış qablar möhkəmliyi və odadavamlılığı, narıngilli qablar isə hamar səthli və incə olmaları nöqteyi-nəzərindən üstünlüyə malik idi (Q.C.Cəbiyev, 2003, səh. 23).

Arxeoloji qazıntılar zamanı son orta əsrlərə aid tam salamat qalmış dulusçu emalatxanası aşkarlanmasa da, ayrı-ayrı abidələrdən dulus kürələri, kürə ləvazimatı, qəlib, gil quyusu, istehsal çıxarları məlumdur. Etnoqrafik tədqiqatlardan bəllidir ki, hər bir dulusçu emalatxanasında gil quyusu olurdu. Arxeoloji qazıntılar zamanı gil quyusu Salmanbulağı yaşayış yerində aşkarlanmışdır. Düzbucaq biçimli, uzunluğu 1,75 *m*, eni 1,35 *m*, dərinliyi 0,6 *m* olan bu quyu keyfiyyətli gillə dolu idi (T.M.Dostiyev, 2001, səh. 146).

Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanan kürə qalıqları son orta əsrlərdə saxsı məmulatının bişirilməsi barəsində kifayət qədər dolğun təsəvvür əldə etməyə imkan verir. 1961-ci ildə Qəbələnin qala sahəsində üzə çıxarılmış üç dulus kürəsi bu cəhətdən mühüm əhəmiyyət kəsb edir. Həmin kürələrdən biri XIV-XV əsrlərə aiddir (tablo 140, şək. 3). 1983-cü ildə burada XV əsrə aid daha bir dulus kürəsinin qalığı aşkar edilmişdir (tablo 140, şək. 4). Mütəxəssislər qazıntıların nəticəsinə əsaslanaraq bu ərazidə dulusçular məhəlləsinin olduğunu bildirirlər (О.Ш.Исмизаде, 1963, стр. 13-23; Q.C.Cəbiyev, 2003, səh. 32).

Qəbələ dulus kürələrinin Mingəçevir, Beyləqan və Torpaqqalada aşkarlanmış kürələrlə, eləcə də müasir el sənətkarlarının emalatxanalarındakı kürələrlə müqayisəsi göstərir ki, orta əsrlərdə Azərbaycan ərazisində istifadə olunmuş dulus kürələri forma və quruluş etibarilə elə bir ciddi dəyişikliyə uğramadan XX əsrə qədər gəlib çıxmışdır.

Bakıda İçərişəhərdə 1990-cı ildə arxeoloji qazıntılar zamanı üzə çıxarılan XIII-XIV əsrlərə aid dulus kürəsi nalvari formada olub bişmiş kərpicdən hörülmüşdü. Kürə güclü dağıntıya məruz qaldığından onun konstruktiv xüsusiyyətlərini tam bərpa etmək mümkün olmamışdır (F.İbrahimov və b., 1991, səh. 27).

Bakı və Qəbələ kürələrinin qalıqları son orta əsrlərdə dulus kürələrinin qurulmasında başlıca olaraq bişmiş kərpicdən istifadə olunduğunu söyləməyə əsas verir. Kürə divarlarının hörülməsində həmçinin möhrədən, çiy kərpicdən və saxsı qırıqlarından da istifadə edilirdi.

Naxçıvan şəhər yerində son orta əsrlərə aid mədəni təbəqə yatımında qalıqları planda dairəvi olan dulus kürəsi aşkarlanıb tədqiq edilmişdir. 20x20x4,5 *sm* ölçülü bişmiş kərpiclərdən hörülmüş bu kürə ikiqatlı idi. Alt qat ocaqlıq idi. Üst qat isə yalnız şirli qab qırıqları ilə dolu idi. Tapıntılar arasında tam salamat qalmış saxsı qablar da vardı (А.И.Новрузов и др., 1992, стр. 150-154).

Gilançayın sol sahilində, Ucadivar yaşayış yerindən şərqdə, Bal dərəsi deyilən ərazidə aşkar edilmiş kürələrdən biri, görünür, dulusçuluqla bağlı olmuşdur. Divarları qismən salamat qalmış bu kürənin qapısı cənub tərəfdə yerləşmişdi. Maraqlı quruluşu ilə fərqlənən kürənin 70 *sm* hündürlükdə dördbucaq biçimdə nəfəsliyi külbə ilə birləşirdi. Divarları 2-4 *sm* qalınlıqda sarımtıl-boz ərinti ilə örtülmüşdü. Şimal divarı yanında şirli və şirsiz keramika nümunələri vardı (B.İ.İbrahimli, 2007).

Əvvəlki dövrdə olduğu kimi, ikiqatlı dulus kürələri daha geniş yayılmışdı. Onların ocaqlığı ilə bişmə kamerası arakəsmə ilə ayrılırdı. Kürə yandırılarkən alov və istilik arakəsmədəki deşiklər vasitəsilə üst kameraya keçirdi. Arxeoloji qazıntılar zamanı tədqiq olunan kürələrin bişmə kamerası tam qalmadığından onların ölçü və formasını dəqiq müəyyənləşdirmək çətindir. Bununla belə, arxeoloji qazıntılar zamanı üzə çıxarılmış dulus kürələrin etnoqrafik materiallar əsasında təhlili onların üst kamerasının tağ formasında olub, yuxarı qalxdıqca daralaraq diametri təqribən 70-80 *sm* olan baca ilə tamamlandığını müəyyən etmək mümkündür (Q.C.Cəbiyev, 2003, səh. 33). Kürələrin ocaqlığının ağzının hansı tərəfdən qoyulması hakim küləklərin istiqamətindən asılı idi. Məsələn, Qəbələ qazıntıları zamanı tapılmış kürələrin ağzının istiqaməti cənubi-şərq tərəfdəndir. Məmulat kürəyə bacadan yığılırdı, həm də əvvəlcə iri qablar, daha sonra isə xırda qablar düzülürdü. Qabların yığılmasında gil çubuqlardan, qarmaqlardan, konuslardan, eləcə də şirli qablar üçün üçayaqlardan istifadə olunurdu. Üçayaqlar əsasən kasa, boşqab, nimçə, piyalə və digər açıqtipli süfrə qabların kürəyə yığılmasında istifadə olunurdu. Qəbələdə şirli saxsı məmulatın bişirildiyi kürənin ətrafından çoxlu istehsal çıxarları və şir axıntıları tapılmışdır. IV qazıntı sahəsindəki 103 saylı quyudan götürülmüş bir ədəd çıxar qabın üzərində gil üçayaq yapışıb qalmışdı (Q.C.Cəbiyev, 2003, səh. 38). Qabların sabit hərarət rejimində bişirilməsinin tənzimlənməsi prosesi məsuliyyətli və çətin iş idi. Dulus kürələrinin ocaqlıq hissəsində hərarət 1000-1200 dərəcəyə, üst kamera-qabxanada isə 900-950 dərəcəyə çatırdı. Gil qabların bişməsi üçün 950-1000 dərəcə istilik lazım idi (Н.С.Гражданкина, 1965, стр. 157). Yüksək dərəcədə hərarəti almaq çətin olduğundan saxsı məmulat içərisində yanıb ötmüş nümunələrə nisbətən tam bişməyən nümunələrə daha çox təsadüf edilir.

Arxeoloji qazıntılar zamanı dulusçuların istifadə etdikləri qəliblərə də təsadüf olunmuşdur. Şabran şəhər yerində arxeoloji qazıntılar zamanı XIV əsr təbəqəsindən dulusçuluqla bağlı, daha dəqiq desək, darboğazlı, basmanaxışlı bardaqların istehsalında istifadə olunmuş kasavari qəlib nümunəsinin tapılması, şübhəsiz ki, mühüm əhəmiyyət kəsb edir (T.M.Dostiyev, 1996, səh. 89). Qəlib gövdəsi yarımkürəvi, ağzı düz kasa formasında olub, dibi dairəvi kəsilmiş, içəri tərəfdən səthi kəsmə həndəsi və nəbati naxışlarla bəzədilmişdir (tablo 140, şək. 1). Son orta əsrlərə aid matraların qabarıq tərəfinə relyefli naxış salmaq üçün tətbiq olunmuş qəlib nümunəsi isə Balaxanı orta əsr yaşayış yerindən məlumdur (tablo 140, şək. 2).

Şirli saxsı məmulatın istehsal texnologiyası şirsiz saxsı məmulatın istehsalı üçün zəruri olan texnoloji proseslərin hamısını təkrarlamaqdan başqa bir sıra əlavə texnoloji proseslər - anqobun, şirin və rəngin hazırlanması, qabların müvafiq üsullarla naxışlanması və məmulatın təkrarən bişirilməsi kimi əməliyyatları əhatə edirdi.

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, XIV-XVII əsrlərdə Azərbaycan ərazisində əsasən ağ, çəhrayı və sarı rəngli anqobdan istifadə edilmişdir. Qəbələ, Naxçıvan, Şamaxı və Şərifandan tapılmış saxsı məmulatında ağ, Bakı və Astabad materiallarında isə sarı və çəhrayı anqobdan daha çox istifadə olunduğu diqqəti cəlb edir. XI-XIII əsrlərin şirli saxsı məmulatından fərqli olaraq, XIV-XVII yüzilliklərdə istehsal olunmuş qabların anqob örtüyünün daha qalın və bir qədər də səliqəsiz vurulduğu nəzəri cəlb edir. XVI əsrin ikinci yarısı - XVII əsrə aid saxsı məmulatında bu cəhət özünü daha qabarıq büruzə verir.

Anqob astar çəkildikdən sonra qablar üzərinə naxışlar vurulması və bundan sonra şirlənməsi bəhs olunan dövrün saxsı məmulatı üçün səciyyəvidir. Etnoqrafik müşahidələr Azərbaycan ərazisində saxsı məmulatının şirlənməsinin iki üsulundan xəbər verir. Birinci halda qablar bişirildikdən sonra onların səthinə anqob astar vurulur, müxtəlif boyalarla rəngarəng təsvirlər işlənir, daha sonra isə şəffaf şir örtüyü ilə örtülür və nəhayət, yenidən bişirilir. Həmin texnoloji ardıcıllığı müəyyənləşdirmək baxımından Qəbələdə kürə tullantıları atıldığı zibillikdən tapılmış bir neçə iri kasa tipli qab maraq doğurur. Bu nümunələr yalnız bir dəfə bişirilib. Sonra səthinə anqob astar çəkilib, onun üzərindən isə marqanes boya ilə zəngin nəbati təsvirlər işlənib. Görünür, elə bu mərhələdə həmin qablar hansı səbəbdənsə sınmışdır. Ona görə də onlar səthinə şəffaf şir örtüyü vurulmadan və təkrar bişirilmədən zibilliyə atılmışdır (Q.C.Cəbiyev, 2003, səh. 38). İstehsal prosesi başa çatmamış sınmış kasa qırığı Xuray yaşayış yerindən də tapılmışdır. Üzərinə çəhrayı anqob çəkilmiş və anqobu qazıyıb naxış işləmələrini üzə çıxarmaq üsulu ilə bəzədilmiş kasa tipli qab sınmış, bu səbəbdən şirlənməmiş və ikinci dəfə bişirilmə prosesinə məruz qalmamışdır (T.M.Dostiyev, 2001, səh. 146).

Şirli saxsı məmulatın şirlənməsinin ikinci üsulu qabın yalnız bir dəfə bişirilməsi ilə fərqlənir. Belə qabları hazırlayarkən məmulat quruduqdan sonra üstünə mazut yaxılır və sonra şir tozu səpilir. Bişmə prosesində mazut yanır, şir tozu isə maye halına düşərək qabın səthinə yayılır (С.Б.Гусейнова, 1989).

Əvvəlki dövrdə olduğu kimi, son orta əsrlərdə də dulusçuluqda ixtisaslaşma mövcud idi. Faktik materiallar Azərbaycanın saxsı məmulatı istehsalında şirsiz, şirli qablar və inşaat keramikası üzrə ixtisaslaşmanın olduğunu təsdiqləyir. Dulus kürələrinin quruluşu, qablar üzərində yazılar, istehsal tullantılarının xarakteri və digər bir sıra dəlillər ixtisaslaşma barəsində aydın təsəvvür yaradır (Q.C.Cəbiyev, 2003, səh. 44-45).

Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş son orta əsr saxsı məmulatı içərisində şirsiz qabların faiz etibarilə üstünlük təşkil etməsi onların istehsalının şirli qabların istehsalına nisbətən asan olması, məişət və təsərrüfatda işlədilən saxsı qabların xeyli qisminin şirlənməsinə ehtiyac duyulmaması ilə bağlıdır. Şirsiz saxsı məmulatın təsnifatının təyinat üzrə aparılması məqsədəuyğundur və müvafiq olaraq ərzaq və su qabları, süd emalı ilə bağlı qablar, mətbəx qabları, süfrə qabları, gigiyena ilə bağlı qablar, işıqlandırma vasitəsilə və xüsusi təyinatlı qablar qruplarını ayırmaq olar.

Əvvəlki dövrdə olduğu kimi, son orta əsrlərdə də əhalinin məişət və təsərrüfat ehtiyaclarını ödəmək üçün müxtəlif tutumlu küplər istehsal olunurdu. Adətən, iri küpləri 5-6, kiçik və ya orta tutumlu küpləri isə 2-3 hissədən quraşdırırdılar. 1971-ci ildə Qəbələ qazıntılarından əldə olunmuş iri təsərrüfat küplərindən birində 9, digərində isə 7 calaq yeri müəyyən olunmuşdur (Q.C.Cəbiyev, 2003, səh. 50). İri təsərrüfat küpləri (tablo 141, şək. 5-6) Qəbələ, Bakı, Şamaxı, Naxçıvan, Canaxır qazıntılarından məlumdur.

Azərbaycanın son orta əsr saxsı məmulatında müşahidə olunan forma yenilikləri küplərdə də özünü bu və ya digər dərəcədə büruzə verir. Onların boğazının bir qədər uzanması və daralması, ağız hissələrinin daha çox qıfvari forma alması, çiyin hissələrinin nəzərəçarpacaq dərəcədə qabarıqlaşması - xoşallaşması diqqəti cəlb edir. Son orta əsrlərə aid küplərin hündürlüyü 65-116 *sm*, oturacaqlarının diametri 11-16,5 *sm*, gövdələrinin ən gen hissəsinin diametri isə 40-80 *sm* arasında dəyişir (Q.C.Cəbiyev, 2003, səh. 54).

Səniclər ənənəvi formalarını saxlamışdılar, yəni onların yastı oturacağı, armudabənzər, aşağıya doğru daralan gövdəsi, gen boğazı, qoşa qulpu vardır (tablo 142, şək. 2-3). Onların naxışlanmasına az-az hallarda təsadüf olunur. Bunun əksinə olaraq bütün nümunələrin həm daxili, həm də xarici səthinə sığal çəkildiyi diqqəti cəlb edir.

Dulusçu ustalar nehrə tipli qabları calaqetmə üsulu ilə hazırlayırdılar. Əvvəlcə yarıdan yuxarı hissə, sonra isə aşağı hissə hazırlanaraq bir-birinə calaq edilirdi. Nehrələrin qulpu, adətən, çiyin hissəyə üfüqi vəziyyətdə yapışdırılırdı. Lakin qulpu çiyin və boğaza birləşdirilmiş nümunələrə də rast gəlmək olur. Bəzən səhəngin çiynində deşik açaraq nehrəyə çevirirdilər. Belə bir nehrə 1969-cu ildə Astabaddan tapılmışdır (O.H.Həbibullayev, F.V.Qədirov, 1993, səh. 111).

Küpələr forma etibarı ilə küplərə, həcminə görə isə səniclərə oxşayırdılar. Lakin onların qulpu olmurdu (tablo 142, şək. 1). Bir qayda olaraq küpə tipli qabların çiyin və boğaz hissələri əsasən cızma və ya qazıma üsulu ilə salınmış sadə naxışlarla bəzədilmişdir.

Su daşınmasında ənənəvi olaraq səhənglər (tablo 141, şək. 3) üstün mövqeyə malik idi. Arxeoloji qazıntılar aparılmış bütün abidələrdən qırıqlar və ya bütöv hallarda səhəng nümunələri tapılmışdır. Səhənglərin adətən yastı oturacağı,

yumurtavari və ya uzunsov gövdəsi, dar, qısa boğazı, lentşəkilli qulpu olur. Gövdəsi armudabənzər formalı səhənglərə də təsadüf olunur. Tutumlarından asılı olaraq bəhs edilən dövrün səhənglərinin hündürlüyü 35-45 *sm*, ağzının diametri 4-7 *sm*, gövdəsinin diametri 22-25 *sm* arasında dəyişir. Bu cür səhənglər 10-18 litr su tutumuna malik olur. Səhənglərin bəzəyi bir qayda olaraq sadə olub, cızma, az halda kəsmə naxışlardan ibarətdir. Bəzən boğaz hissədə bir-birinə paralel olan qalın dairəvi zehlərdən ibarət naxış olurdu.

Bardaqlar səhənglərə nisbətən həcmcə bir qədər kiçik idi (tablo 143). Onlar forma etibarilə iki əsas yarımqrupa ayrılır: genboğaz bardaqlar və darboğaz bardaqlar. Genboğaz bardaqlar da süzgəcli və ya süzgəcsiz olmaqla iki tiplə təmsil olunmuşdur. Süzgəcli bardaqlar az yayılmışdı. Onların səciyyəvi nümunələrinə ən çox Qəbələ qazıntıları zamanı təsadüf edilmişdir (Q.C.Cəbiyev, 2003, səh. 66-67). Stratiqrafik müşahidə əsasında müəyyən olunmuşdur ki, süzgəci olan bardaqlara yalnız mədəni təbəqənin XIV-XV əsrlərə aid qatlarında təsadüf olunur.

Arxeoloji qazıntılar zamanı daha çox tapılan süzgəci olmayan genboğaz bardaqlar üçün diametri 6-8 *sm* olan dabanlı oturacaq, diametri 10-15 *sm* olan yumurtavari gövdə, diametri 5,8-8 *sm* təşkil edən silindrik boğaz səciyyəvidir. Çubuqvari qulp gövdənin daha çox qabarıq hissəsi ilə qabın boğazını birləşdirir (tablo 143, şək. 4. 6-8). Əksər hallarda boğaz və xüsusən də çiyin hissəsi naxışlanmışdır.

Darboğazlı bardaqlar formaca kiçik həcmli səhəngləri xatırladır (tablo 143, şək. 1-3). Lakin onların boğaz hissəsinin hazırlanmasında daha çox rəngarənglik nəzərə çarpır. Süzgəci olan dar boğaz bardaqlar azlıq təşkil edir. Bakıdan tapılmış bardaqların bir qismi nisbətən daha hündür və orijinal boğaza malik olmaları ilə seçilir. Stratiqrafik müşahidə əsasında müəyyən edilmişdir ki, süzgəci olan bardaqlara yalnız XIV-XV əsrlərə aid qatlarında təsadüf olunur.

Son orta əsrlərin matra tipli qabları əvvəlcə ağız hissələrinin sağanaqvari şəklə düşməsi, bir qədər sonra isə lülək-boğazlarının iki dəfədən çox qısalması ilə diqqəti cəlb edir. Sağanaqvari boğaz maye tökmək üçün, habelə doldurulduqdan sonra ağzını bağlamaq və ya tıxacla bərkitmək üçün çox münasibdir. Qəbələdən tapılmış bir ədəd matra altında dörd ədəd oturacaq-çıxıntı olması, gövdəsinin yanlara doğru qabarıqlaşdırılaraq qalxanvari formaya salınması, qulplarının boğaza yaxın hissəyə bərkidilməsi və kiçik düyməyə bənzər sadə yapma ornamentə malik olması ilə diqqəti cəlb edir. Bakı və Şabran şəhərlərinin qazıntılarından XVI əsrin sonu - XVII əsrin əvvəllərinə aidliyi ehtimal edilən matra tipli qablar isə qısa boğaza malik olmaları, habelə üst səthinin cızma üsulu ilə zəngin naxışlanması ilə fərqlənir (tablo 144, şək. 3).

Mətbəx qabları əvvəlkitək, gil qazan, tava, təknə, tabaq, süzgəc və qapaqlardan ibarət idi. Gil qazanlar (güvəclər) əhalinin məişətində xüsusilə geniş yayılmışdı. Bu tip qabların əksəriyyəti fraqmentlər halında tapılır. Odadavamlılıq

onlann gilinin tərkibini və quruluşunu müəyyənləşdirirdi. Yüksək hərarətə və kəskin hərarət dəyişkənliyinə davamlığını artırmaq üçün qazanların (güvəclərin) gilinin tərkibinə bitki qarışığı, zəngin kvarslı qum qarışığı əlavə olunurdu (T.M.Dostiyev, 1999, səh. 56).

XIV-XVII əsrlərin gil qazanları qulplu, qulpsuz və lüləkli qazanlar olmaqla üç başlıca qrupa ayrılır (Q.C.Cəbiyev, 2003, səh. 55).

Arxeoloji qazıntılar zamanı tava tipli qablara az-az təsadüf olunur. Onların alçaq divarları qövsvari formalı olub, bir tərəfinə dəstək birləşdirilmişdir (Ə.İ.Novruzlu, 1997, səh. 172).

Təknə və tabaqlar formaca bir-birinə oxşar olub, qalın, yuxarıya doğru tədricən genişlənən divarları vardır. Xüsusilə Naxçıvanda geniş yayılmış bu qablardan təknələr xəmir acıtmaq və yoğurmaq, tabaqlar isə çörək saxlamaq üçün əlverişli idi (Ə.İ.Novruzlu, 1997, səh. 193).

Mətbəxdə işlədilən süzgəclər bir qayda olaraq fraqmentlər halında tapılır. Bütöv nüsxə Şabran qazıntılarından məlumdur (T.M.Dostiyev, 2001, səh. 154).

Son orta əsr dulusçuları, əvvəlki dövrdə olduğu kimi, təndir, küp, tava, güvəc, küpə, sərnic və s. qabların ağzını qapamaq üçün müxtəlif ölçü və formalarda çoxlu qapaqlar istehsal edirdilər. Müvafiq olaraq qapaqlar formasına, ölçülərinə, naxışlanma xüsusiyyətlərinə və təyinatına görə tiplərə ayrılır (tablo 142, şək. 5-8).

Süfrə qabları əsasən dolça, kiçik tutumlu bardaq, lüləyən, tayqulp, boşqab, nimçə və qədəhlərdən ibarətdir. Onların arasında dolça və tayqulplar (tablo 142, şək. 9-10) xüsusilə geniş yayılmışdı.

Gigiyena ilə bağlı qablar aftafa, ləyən və silbinclə təmsil olunmuşdur (tablo 144, şək. 4-5, 8). Aftafalar formaca darboğaz bardaqlardan lüləyə malik olmaları və boğazlarının yuxarı hissəsinin orijinal forması ilə fərqlənir. Son orta əsr aftafaları içərisində dabanlı oturacağa və şarşəkilli gövdəyə malik nümunələrə tez-tez təsadüf olunur. Bu cür nümunələr Şamaxı şəhərinin son orta əsr təbəqəsindən daha çox tapılmışdır. Lüləyin uc tərəfə getdikcə daralması, bir və ya iki paralel dairəvi zehlə yiv formasına salınması Azərbaycanın bütün son orta əsr aftafaları üçün səciyyəvi əlamətdir (Q.C.Cəbiyev, 2003, səh. 70).

Arxeoloji qazıntılar zamanı ləyən nümunələri əsasən fraqmentlər halında tapılmışdır. Bütöv nümunə Şabrandan məlumdur. Onun yastı oturacağı, radial şəkildə genişlənən divarları, içəriyə meyilli ağzı vardır (tablo 144, şək. 8).

Uşaq gigiyenası ilə bağlı olan silbinclər ənənəvi formalarını saxlamışdılar. Onların silindrik və ya kəsilmiş konusşəkilli gövdəsi, yana qatlanmış enli ağzı vardır. Şirlə örtülmüş nüsxələrinə də rast gəlinir (tablo 149, şək. 6).

Faktik materiallar son orta əsrlərdə də Azərbaycanda ən geniş yayılmış işıqlandırma vasitəsinin neftlə yandırılan saxsı çıraqlar olduğunu sübut edir. Son orta əsrlərin çıraqları əvvəlki dövr çıraqlarından boğazlarının dar və hündür,

qıfşəkilli olması, gövdəsinin yumrulaşması, daha sonra hündürləşərək konusvari forma alması ilə seçilir (tablo 145, şək. 9-11).

Çıraqlardan fərqli olaraq piydanlar orta əsrlərdə Azərbaycanda geniş yayılmamışdı. Onlar formasına görə iki tiplə təmsil olunmuşdur. I tip piydanlar fitil üçün novçaşəkilli çıxıntısı olan nəlbəki formasındadır (tablo 145, şək. 1-2). II tip piydanlar ikiqatlıdır (tablo 145, şək. 3-4). Oturacaq rolunu oynayan alt, nəlbəkivari hissənin diametrinin üst piyalənin diametrindən iki dəfə böyük olması piyalənin dayanaqlığını və mühafizə imkanlarını artırırdı (О.Ш.Исмизаде, 1964б, стр. 96).

Piydanların tapılması son orta əsrlərdə işıqlandırma məqsədi ilə yanacaq kimi xüsusi piy və yağlardan da istifadə olunduğunu göstərir.

Arxeoloji qazıntılar zamanı az miqdarda şamdanlara (tablo 145, şək. 5-8) da rast gəlinir (O.H.Həbibullayev, F.V.Qədirov, 1993, səh. 118-119; Ə.İ.Novruzlu, 1997, səh. 194; T.M.Dostiyev, 2001, səh. 157).

Xüsusi təyinatlı qablar gülabdan, şar-konusvari qablar və daxıllarla təmsil olunmuşdur. Gülabdanlar darboğazlı, ağzı süzgəcli, kiçik tutumlu bardaqları xatırladır və müsəlman matəm məclislərində istifadə olunurdu. Onlar əsasən qırıqlar halında tapılmışdır. Əvvəlkitək şar-konusvari qabların divarları qalın, gilinin rəngi boz, qonur, çəhrayı, yaşıl çalarlıdır.

Daxılların salamat nüsxəsi Şabran şəhərinin qazıntılarından məlumdur (T.M.Dostiyev, 2001, səh. 157). Onun diskşəkilli hündür dabanı, şarşəkilli gövdəsi vardır. Üst tərəfində dar, uzunsov kəsik sikkənin daxılın içərisinə atılmasını təmin edirdi (tablo 146, şək. 7).

Şəhərlərin son orta əsr təbəqəsində qəlyan başlıqlarına rast gəlinir (tablo 146, şək. 1-4). Tədqiqatçılar hətta bəzi dulusçu ustaların qəlyan istehsalı üzrə ixtisaslaşdığını bildirirlər (Р.Дж.Ахмедов, 1979, стр. 88). Qəlyan başlıqları Bakı, Qəbələ, Şabran, Şəmkir, Şərifan, Naxçıvan qazıntılarından məlumdur. Onların bir qismi əldə, digər qismi isə qəlibdə formalaşdırılmışdır (Ə.İ.Novruzlu, 1997, səh. 195).

Azərbaycanın son orta əsr şirsiz saxsı məmulatı rəngarəng ornamentlərlə naxışlanmışdır. Dulusçular şirsiz qabların bədii görkəmini yaxşılaşdırmaq məqsədi ilə XIV-XVII əsrlərdə əsasən xətti, nöqtəvari və basma ornamentlərdən istifadə etmişlər.

Aparılan geniş miqyaslı arxeoloji tədqiqatlar şirli saxsı məmulatının da şirsiz saxsı məmulatı kimi son orta əsrlərdə Azərbaycan əhalisinin məişətində mühüm yer tutduğunu söyləməyə imkan verir.

Əsasən əvvəlki əsrlərə məxsus sənət ənənələrinin yaşadılması, zamanın sınaqlarından çıxmış və praktiki cəhətdən özünü doğrultmuş formaların davam etdirilməsi ilə yanaşı, bir sıra fərqləndirici əlamətlərin meydana gəlməsi, ayrı-ayrı detallardakı dəyişikliklər, tətbiq olunan yeni texnoloji üsullar və digər xüsusiyyətlər bu dövrün şirli saxsı məmulatını səciyyələndirən başlıca əlamətlərdir. Tədqiqatlar

göstərir ki, Azərbaycanın şirli qablarının gili tərkib etibarilə şirsiz qabların gili ilə eyniyyət təşkil edir. Belə ki, son orta əsrlərə aid şirsiz qablar kimi, şirli qablar hazırlanması üçün də bişirildikdən sonra əsasən çəhrayı, açıq-qırmızı və ya bozumtul rəng alan gildən istifadə edilmişdir. Bu cəhətdən yalnız fayansabənzər qablar istisna təşkil edirdi. Hansı ki, həmin nümunələrin gili müxtəlif qatışıqlar əlavə olunmaqla xüsusi qaydada hazırlanırdı.

Şirli qabların ən geniş yayılmış növü kasa tipli qablardır. Boşqab və xeyrə tipli qablar da çoxluq təşkil edir. Bardaq, güldan, vaza, çıraq və duzqablarına da təsadüf olunur. Boşqab, xeyrə, vaza, güldan və xüsusən də kasa tipli qablar XI-XIII əsrlərə aid müvafiq nümunələrdən fərqli olaraq, əsasən, nisbətən hündür dairəvi oturacağa malik olmaları ilə seçilir.

Astabad materialları istisna olmaqla, qeyd olunan nümunələrin demək olar ki, hamısının dib hissəsi divarlarının orta qalınlığı ilə müqayisədə xeyli nazikdir. Hansı ki, monqol dövrünə qədərki qablarda bu əlamət o qədər də nəzərə çarpmır. Boşqab və xeyrə tipli qabların divarlarının qıraq hissəsinin iti til əmələ gətirərək çölə açılması da xronoloji əlamət kimi diqqəti cəlb edir.

Güldan tipli qablar üçün bikonik gövdə, bardaqlar üçün dar boğaz, çubuqvari qulp, şarşəkilli, yaxud da armudabənzər gövdə, kiçik dabanlı oturacaq, duzqabılar üçün divarları oturacaqdan başlayaraq tədricən şaquliləşən, bəzən də ağzının kənarları azacıq çölə qatlanan kasavari forma səciyyəvidir. Bu dövrün şirli çıraqları boğazının daha çox daralması və hündürləşməsi ilə, uc hissəsi düyməvari forma alan lülələrinin yoğunlaşması və uzunlaşması ilə fərqlənir.

Şirsiz qablarda olduğu kimi, şirli qablarda da bu və ya digər tiplərin biri digərini əvəz etməsi, yaxud da onların ayrı-ayrı detallarında, ornament xüsusiyyətlərində baş verən dəyişikliklər xeyli dərəcədə keramika istehsalının yüksəliş və ya enməsindən xəbər verir. Bu da, sözsüz ki, bütövlükdə ölkə iqtisadiyyatının vəziyyəti barədə az-çox təsəvvür yaradır.

Son orta əsrlərdə saxsı məmulatının şirlənməsində əsasən marqanes, kobalt və mis oksidindən alınmış qəhvəyi, göy, yaşıl, bənövşəyi və firuzəyi şirlərdən, onların müxtəlif çalarlarından istifadə olunmuşdur. Saxsı məmulatından götürülmüş şir və rənglərin kimyəvi analizi göstərmişdir ki, yaşıl rəng mis oksidi, qəhvəyi rəng marqanes oksidi, göy rəng kalium qarışıqlı kobalt oksidi, mavi rəng sink qarışıqlı kobalt oksidi, firuzəyi rəng qalay qarışıqlı mis oksidi, sarı rəng dəmir oksidindən istifadə etməklə alınırdı (Ə.İ.Novruzlu, 1997, səh. 242). Qabların şirlənməsində sarı rəng az-az hallarda işlədilib. Saya qabların şirlənməsində daha çox yaşıl şirə üstünlük verilmiş, qismən də mavi, göy və qəhvəyi rənglərdən istifadə olunmuşdur. Tapıntıların stratiqrafik cəhətdən izlənilməsi nəticəsində müəyyənləşdirilmişdir ki, bu qrupdan olan qabların yaşıl şirlə işlənməsi bütün son orta əsrlər, kobalt şiri ilə şirlənməsi əsasən XV-XVI əsrlər, qəhvəyi şirlə şirlənməsi isə daha çox XVII əsr üçün səciyyəvi olmuşdur.

XII-XIII əsrlərdə şirli qabların bəzədilməsində ən çox istifadə olunan cızma üsulunun tədricən aradan çıxdığı, bu üsulla daha çox saya qablara naxış vurulduğu nəzəri cəlb edir. Naxış motivləri əsasən həndəsi və nəbati xarakterlidir. Həm də cızma üsulu ilə işlənmiş naxışların getdikcə daha çox sadələşdiyi, ayrı-ayrı elementlərində dəqiqlik və simmetriklik olmadığı nəzəri cəlb edir (tablo 147, şək. 2-4). İritutumlu qablarda cızma xətlər dərin və enli, kiçiktutumlu qablarda isə əksinə, nazik və incədir (Ə.İ.Novruzlu, 1997, səh. 199).

XIV-XV əsrlərdə fonu qazılaraq naxış işləmələri qabarıq şəkildə üzə çıxarılmış və birrəngli şirlə örtülmüş qabların istehsalı davam etdirilirdi. Əsasən nəbati naxış motivləri ilə bəzədilmiş həmin qablar bir qayda olaraq yaşıl şirlə şirlənmişdir (T.M.Dostiyev, 2001, səh. 109). Həndəsi naxış elementlərindən çoxguşəli ulduz təsvirinə daha çox rast gəlinir (Ə.İ.Novruzlu, 1997, səh. 206).

Son orta əsrlərdə şirli saxsı məmulatının istehsalında diqqəti çəkən cəhətlərdən biri dulusçuların istər qabların şirlənməsində, istərsə də naxışlanmasında kobaltdan geniş istifadə etməsidir. Bu bir tərəfdən ölkədə kobalt ehtiyatlarının zənginliyi, digər tərəfdən isə Azərbaycanın Şərq ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələrinin genişlənməsi, həmin ölkələrdən gətirilən kobalt naxışlı fayans və çini qabların təsirinin artması ilə əlaqədar olmuşdur (Н.Н.Наджафова, 1964, стр. 35-36). Onların bədii tərtibatında nəbati naxışlar üstünlük təşkil edirdi (Q.C.Cəbiyev, 2003, tablo 57). Bu tip qablarda şir altından anqob üstündə tünd-mavi boya ilə işlənmiş naxışlar qabı canlandırır və onun cəlbediciliyini daha da artırırdı. Kobalt naxışlı qabların dövrünə gəldikdə isə, onların fayansa oxşar nümunələrin davamı olmaqla, əsasən, XV yüzilliyin əvvəllərindən başlayaraq geniş yayıldığı, XVI əsrin ortalarından etibarən isə tədricən məhdudlaşaraq istehsaldan çıxdığını söyləyə bilərik (Q.C.Cəbiyev, 2003, səh. 108).

Tədqiqatçılar anqob naxışlı qabları (tablo 149) şirli saxsı məmulatının nisbətən sadə ornament və fəndlərlə bəzədilmiş ucuz növü hesab edirlər. Erkən şirli saxsı məmulatı üçün səciyyəvi olan bu tip qabların istehsalı son orta əsrlərdə yenidən bərpa olunur. Belə qablar Qəbələ, Bakı, Şamaxı, Şabran, Gəncə və Naxçıvan şəhərlərinin qazıntılarından məlumdur (Q.C.Cəbiyev, 2003, səh. 95-97; Ə.İ.Novruzlu, 1997, səh. 206-207). Diqqəti çəkən cəhətlərdən biri Bakıdan tapılmış bu tip qabların keyfiyyətli bişirilməsi, divarlarının nazik, saxsısının sıx və yüngül olmasındadır. Amma son orta əsrlərdə anqob naxışlı qablar digər şirli qablarla müqayisədə hiss ediləcək dərəcədə az yayılmışdı. Bəzi tədqiqatçılar onların XVII əsr üçün xarakterik olduğunu bildirirlər. Bu qabların naxışlanmasında əsasən sadə həndəsi naxışlar-dairə, zolaqlar, nizamsız səpələnmiş ləkələr, çoxguşəli ulduz və s. işlədilmişdir.

Son orta əsrlərdə çoxrəngli şirli saxsı qabların istehsalı məhdud şəkildə davam etməkdə idi. Lakin bu dövrün çoxrəngli şirli saxsı məmulatı istər bədii işləmə üslubuna, istər naxış motivlərinə, istərsə də rəng çalarlarına görə əvvəlki dövrün

nümunələrindən geri qalır və onlardan köklü surətdə fərqlənirdi. Son orta əsrlərin çoxrəngli şirli qabları əsasən nəbati və həndəsi naxışlarla (tablo 150, şək. 1-2, 4), çox az hallarda heyvan və quş təsviri ilə bəzədilmişdir (Q.C.Cəbiyev, 2003, səh. 109-110; Ə.İ.Novruzlu, 1997, səh. 202).

Çoxrəngli şirli saxsı məmulatının istehsalı mürəkkəb texnoloji prosesin nəticəsi olduğundan bu işin öhdəsindən ancaq yüksək peşə hazırlığı olan dulusçular gələ bilirdi. Dulusçu-rəssamlar iki və daha artıq rəngdən istifadə edərkən, hər şeydən əvvəl, aşağıdakıları nəzərə alırdılar:

1. Eyni qabın bəzədilməsində istifadə olunan müxtəlif xarakterli naxışları tam qabarıqlığı ilə bir-birindən fərqləndirmək.

2. Eyni xarakterli naxışlardakı ayrı-ayrı ayrıntıları nəzərə çarpdırmaq.

Monqol istilasından sonrakı dövrdə dulusçuluq sənətində müşahidə olunan ciddi geriləmə və durğunluq bu qrupdan olan qabların tədricən sönükləşməsi, öz əvvəlki parlaqlığını itirməsi və nəhayət, istehsaldan çıxması ilə nəticələnmişdir (Н.Н.Наджафова, 1964, стр. 41-42). Arxeoloji qazıntılar XVI əsrin ortalarından etibarən çoxrəngli şirli saxsı qabların istehsalının tam dayandırıldığını göstərir (Q.C.Cəbiyev, 2003, səh. 112).

Arxeoloji qazıntılar zamanı tapılmış şirli saxsı məmulatı arasında şir üzərində müxtəlif rənglərlə naxışlanmış kasa və boşqablar da vardır. Bu tip şirli qablar əsasən Naxçıvan keramika məktəbi üçün səciyyəvidir. Onlar şəffaf, mavi, açıq-firuzəyi, açıq-yaşıl rənglərlə örtülüb, tünd-göy, yaşıl, qəhvəyi, qara, çəhrayı rənglərlə bəzədilmişdir. Bəzək elementləri sadə həndəsi, nəbati, az-az hallarda isə təsvir motivlərindən ibarətdir (Ə.İ.Novruzlu, 1997, səh. 205).

Arxeoloji qazıntılar nəticəsində tapılmış şirli saxsı məmulatının bir qismini oturacağının altına möhür vurulmuş qablar təşkil edir. Şərifan, Astabad və digər son orta əsr abidələrinin arxeoloji qazıntılarından əldə olunmuş nümunələr belə şirli saxsı qablar istehsalının XV əsrin sonunadək davam etdiyini təsdiqləməyə imkan verir. Yuxarıda dulus möhürlərinin təsnifatı və semantikasından bəhs edilmişdir. Son orta əsrlərdə bu sahədə əsaslı dəyişikliklər olmamışdı.

Əlbəttə, sadalanan xüsusiyyətləri, bütövlükdə XIV-XVII əsrlərin Azərbaycanda saxsı məmulatı istehsalı sahəsində xüsusi mərhələ olduğunu söyləməyə əsas verir. Başqa sözlə, monqol istilası ölkənin təsərrüfat və mədəni həyatının bütün sahələri kimi saxsı məmulatı istehsalına da güclü təsir göstərməsinə baxmayaraq, bütövlükdə, Azərbaycan dulusçularının zəngin sənət ənənələrinin inkişafını dayandıra bilməmişdir. Doğrudur, əvvəlki əsrlərlə, daha doğrusu, XII əsr səviyyəsi ilə müqayisədə saxsı məmulatı istehsalının həcminin müəyyən qədər məhdudlaşdığı, bədii-texniki səviyyəsinin isə qismən endiyi müşahidə olunur. Əlbəttə, bunu da təkcə monqol istilasının təsiri kimi deyil, həm də ictimai-iqtisadi inkişafın gedişindən doğan bir hal kimi dəyərləndirmək daha ədalətli olardı. Bu cəhətdən bəhs edilən dövrdə metal qabların istehsalının, fayans və çini qabların

idxalının genişlənməsinin və saxsı məmulatı istehsalında inşaat keramikasının xüsusi çəkisinin artmasının da təsiredici rola malik olduğunu qeyd etmək yerinə düşərdi.

Azərbaycanın son orta əsr şirli saxsı məmulatının ayrıca qrupunu Şərqdən gətirilən fayans qablara bənzədilən qablar təşkil edir (tablo 151, şək 1, 4). Həmin qabların istər hazırlanmasında, istərsə də naxışlanmasında fayans qabların təsiri özünü büruzə verir. Bu qrupdan olan nümunələrin də gili fayans qablarda olduğu kimi, bozumtul olub, möhkəm deyil. Onların istehsalı üçün yerli kaolin ehtiyatlarından istifadə edilməsi də tamamilə mümkün idi. Fayans qablarla fayansa bənzədilmiş qabları yaxınlaşdıran digər əlamət onların forma etibarilə də oxşarlığıdır. Belə qabların şirlənmə və naxışlanmasında da yaxınlıq vardır. Bu məqsədlə daha çox kobalt şirindən istifadə etmişlər. Tək-tək hallarda, daha doğrusu, çoxrəngli naxışlara müraciət edildiyi hallarda, mis və marqanes oksidlərindən alınmış yaşıl və tünd-qəhvəyi rənglər də işlədilirdi. Rənglər parlaq olsun deyə, qabın anqob təbəqəsinin qalın olmasına xüsusi diqqət yetirilmişdir ki, bu da öz növbəsində şir örtüyünün davamlılığına mənfi təsir göstərmişdir. Lakin naxış zənginliyi, rəng çalarlarının yeniliyi və parlaqlığı onların istehsalındakı qüsurları kölgədə qoyur.

Fayansaoxşar qabların istehsalında yerli dulusçular Şərq həmkarlarının təcrübəsindən yaradıcılıqla bəhrələnmiş, Azərbaycan keramika məktəbi üçün səciyyəvi olan cəhətləri qoruyub saxlamışdılar.

Fayansaoxşar şirli saxsı qabların istehsalına XIV əsrdən başlanıldığını söyləmək olar (Q.C.Cəbiyev, 2003, səh. 103-106).

Son orta əsrlərdə Azərbaycanın başlıca dulusçuluq mərkəzlərində həm də fayans qablar istehsal olunurdu. Ölkədə fayans məmulatı istehsalı üçün zəruri olan xammal mənbələri - kaolinli gil, kvars qumu və çöl şpatı yataqlarının mövcudluğu, eləcə də yerli ustaların yüksək peşəkarlıq səviyyəsi bu sahənin inkişafına əlverişli zəmin yaradırdı (H.Ramazanlı, 2001, səh. 238-243). Gəncə, Naxçıvan, Kiran, Qəbələ, Şamaxı, Şabran, Dərbənd və digər şəhərlərin xarabalıqlarında aparılmış arxeoloji qazıntılar zamanı tapılmış fayans qabların bir qismi gətirilmə, digər qismi isə yerli istehsalın məhsuludur.

Arxeoloji qazıntılar zamanı yerli istehsalı təsdiqləyən faktiki materiallara da rast gəlinir. Məsələn, 1940-cı ildə Gəncə şəhər xarabalıqlarında qazıntılar zamanı firuzəyi və yaşıl şirlə şirlənmiş, bişirilmə prosesində deformasiyaya uğrayaraq birləşmiş fayans qab çıxarları tapılmışdır (И.Джафарзаде, 1949, стр. 73-74). Fayans istehsalı ilə bağlı kürələrin qalıqları Qəbələ şəhər yerinin Qala sahəsində aşkar edilmişdir. Kürələrin ətrafından xeyli fayans çıxdaş nümunələri tapılmışdır (N.X.Ramazanlı, 2006, səh. 68). Yerli nümunələrdə gilin tərkibindən və bişmə prosesinin gedişatından asılı olaraq fayansın kəsikdə rəngi ağ, ağımtıl, açıq-boz və kül rənglidir. Xammalda fayansdan təkrar istifadəyə yol verilmiş, gil hazırlanarkən onun tərkibinə fayans qırıntıları əlavə edilmişdir. Bu onun yüksək hərarətə

dözümlülüyünü artırır, sıxlığını yüksəldirdi. Qablar həm dulus dəzgahında, həm də qəlibdə formalaşdırılırdı. Nümunələrdə anqob təbəqəsinin qalınlığı müxtəlifdir: çox nazik, nazik, orta qalınlıqda və qalın. Yerli fayans məmulatı üçün müxtəlif hərarətlərdə əriyən şir təbəqəsi səciyyəvidir. Tərkibində minerallı duzlar olan şir təbəqəsinə daha çox rast gəlinir. Nümunələrdəki şir təbəqəsi fiziki-kimyəvi tərkiblərinə görə şüşəyə çox yaxındır, amma şüşə deyil. Qəbələ və Bərdə şəhərlərinin arxeoloji qazıntılarından tapılmış nümunələrdə şirin fiziki-kimyəvi analizlər metodu ilə tədqiqinin nəticəsində müəyyən edilmişdir ki, şirin tərkibinin əsas elementləri $SiO_2$, $A1_2O_3$, $Fe_2O_3$, MgO, CaO, $Na_2O$, $K_2O$-dən ibarətdir (Г.С.Теймуров и др., 1986, стр. 59-60).

Məlum olduğu kimi, şiraltı rəngləmə çətin və mürəkkəb proses idi. Məmulatın şirlənməsində yüksək hərarətə davamlı üç rəng - ağ, yaşıl və mavi - göy şirlərdən istifadə edilmişdir. Aydınlaşdırılmışdır ki, kobalt oksidi mavi, nikel boz, mis oksidi mavi, yaşıl, marqanes qırmızı, uran oksidi sarı, xrom oksidi yaşıl və qırmızı, qızıl və platin çəhrayı, boz, qara rəngə malik idi (H.X.Ramazanlı, 2006, səh. 62). Şirin çəkilməsində üç üsul tətbiq olunmuşdur: qabı şirin içərisinə batırmaq, fırça vasitəsilə şirləmə və isladılmış qaba şir tozu səpmək (H.X.Ramazanov, 1991, səh. 29-30).

Yerli fayans qablar şirlənmə və naxışçəkmə texnikasına görə bir-birindən fərqlənən qrup və tiplərə ayrılır (tablo 152; 153).

Son orta əsr dulus məmulatı arasında inşaat keramikası da mühüm yer tuturdu. Dulusçular şəhər və kəndlərdə aparılan tikintilərin tələbatının ödənilməsinə yönəlmiş kvadrat biçimli adi bişmiş kərpiclərin kütləvi istehsalı ilə yanaşı, şəhərlərdəki monumental, həm də ictimai-dini tikililər, xatirə abidələri üçün bayır səthi şirlənmiş üzlük kərpicləri, kaşılar, kirəmitlər, su kəmərlərinin quraşdırılması üçün tinglər istehsal edirdilər.

**Şüşə istehsalı.** Monqol istilası nəticəsində şüşə istehsalında da müəyyən tənəzzül nəzərə çarpır. Bu, hər şeydən əvvəl, özünü abidələrin son orta əsrlər təbəqəsində şüşə məmulatının azalmasında, nəfis qab-qacaq və bəzək nümunələrinə az təsadüf olunmasında göstərir. Bununla belə, əldə olunmuş materiallar - həm istehsal tullantıları, həm də arxeoloji qazıntılar zamanı tapılmış müxtəlif təyinatlı məmulat dövrün bu sənət sahəsində tətbiq edilən texnoloji prosesləri və texniki üsulları izləməyə imkan verir. Şüşə əridilən kürə qalıqları arxeoloji tədqiqatlar zamanı Naxçıvanda və Qəbələdə aşkar edilib öyrənilmişdir. Naxçıvanda tədqiq olunan kürənin dairəvi plana, günbəzvari formaya malik olduğu ehtimal edilir (Ə.İ.Novruzlu, 1997, səh. 257). Qəbələ şəhərinin Qala sahəsinin şərq tərəfindən qazıntı zamanı aşkarlanan kürə qalıqları da şüşə əritmək üçün istifadə olunan kiçik kürə tipindədir (Q.C.Cəbiyev və b., 1991, səh. 28). Bu tip kürələrin şüşə əridilməsində qədim dövrlərdən son orta əsrlərədək uğurla istifadə olunduğu müxtəlif şüşə istehsalı mərkəzlərindən məlumdur (Ю.Л.Щапова, 1983, стр. 82).

Arxeoloji qazıntılar zamanı Qırxçıraq şəhər yerindən tapılmış şüşə külçələri də burada şüşə istehsalının mövcudluğundan xəbər verir (Müseyibov, 2002, səh. 47).

Şüşə istehsalı yerli xammala əsaslanırdı. Məlumdur ki, şüşənin xüsusiyyət və keyfiyyəti onun tərkibindəki komponentlərdən asılı idi. Buraya silisium oksidindən başqa qələvilər (natrium oksidi, kalium oksidi) və qələvi-torpaq birləşmələr (kalsium oksidi, maqnezium oksidi) daxil idi (Ю.Л.Щапова, 1983, стр. 26). Azərbaycanda həmin komponentləri əldə etmək üçün kifayət qədər xammal-qum, əhəng, soda və nəbati tərkibli kül vardı.

Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar bu dövrdə yerli sənətkarların süfrə qabları, əczaçılıq və kimya laboratoriya qabları, ətir qabları, butulka tipli qablar (tablo 154), bəzək əşyaları və pəncərə şüşəsi istehsal etdiklərini sənədləşdirir. Süfrə qabları qrafin, piyalə, fincan və dolça tipli qab nümunələri ilə təmsil olunmuşdur (Ə.İ.Novruzlu, 1997, səh. 250-252). Butulka tipli qabların əksəriyyəti müasir butulkaların formasını xatırladır (tablo 154, şək. 8-10). Şabran şəhər yerinin XIV-XV əsrlərə aid inşaat qatından tapılmış qab formasının orijinallığı ilə seçilir (tablo 154, şək. 1). Onun yastı oturacağı, dördkünc gövdəsi, dar, alçaq boğazı, kənarları yana qatlanmış ağzı vardır (T.M.Dostiyev, 2001, səh. 177, şək. 96, 1). Piyalə və bərni tipli qablar əvvəlki formalarını saxlasalar da, onların bədii işlənməsinə diqqət azaldığından əksəriyyətinin üzəri sayadır (tablo 154, şək. 5, 6, 13-15).

Bəzək əşyaları əsasən müxtəliftipli muncuq və asmalardan, bilərziklərdən, üzük və üzük qaşlarından ibarətdir.

Son orta əsrlərdə şüşə emalatxanalarında həm də şəffaf və rəngli pəncərə şüşələri istehsal edirdilər. Yazılı qaynaqlardan məlumdur ki, Əlişah məscidinin şəbəkəli pəncərələrində 200-ə yaxın qızıl və gümüşlə bəzədilmiş dairəvi şüşə vardı. Arxeoloji qazıntılardan tapılan fraqmentlər müstəvi formasında hazırlanan pəncərə şüşələrinin müxtəlif ölçüdə, 3-4 *mm* qalınlıqda hazırlandığını göstərir (Ə.İ.Novruzlu, 1997, səh. 267).

Şüşə məmulatın istehsalında müxtəlif texniki üsullardan - sərbəst üfürmə, qəlibdə üfürmə, tökmə, dartma, burma, qatlama, qaynaqetmə və s. istifadə etmişdilər.

Şüşə məmulatın formalaşması iki mərhələdə baş verirdi. Birinci mərhələdə məmulat lazımi formaya salınır, ikinci mərhələdə isə tamamlama işləri aparılır və naxış vurulurdu. Texnoloji baxımdan bu iki mərhələ zaman və məkan etibarilə ayrılıqda ola bilər (Ю.Л.Щапова,1983, стр. 67).

Şüşə istehsalının birinci mərhələsində bir çox əməliyyat, o cümlədən üfürmə, şüşənin putadan çəkilib götürülməsi, tökmə, yayma, yastılama, uzatma, dartma, dolama, maqqaşla işləmə, ştamplama, qatlama, odda cilalama, qaynaqetmə və s. şüşə kütləsi isti ikən - 800-1000° hərarət çərçivəsində həyata keçirilirdi. Bu mərhələ ustadan maksimum çeviklik tələb edirdi. İkinci mərhələ əsasən soyuqişləmə ilə

əlamətdar olub, parçalama, kəsmə, deşmə, cilalama, pardaqlama əməliyyatları ilə səciyyələnirdi.

Arxeoloji qazıntılardan əldə olunan qabların bir qismi üfürmə üsulu ilə hazırlanmışdır. Həm sərbəst üfürmə üsulu ilə, həm də qəlibdə üfürmə üsulu ilə hazırlanmış nümunələr vardır. Sonuncular üfürmə üsulu ilə formalaşdırıldıqdan sonra qəlibdə saxlanılırdı. Daha sonra qab qəlibdən çıxarılıb üzərində soyuqişləmə əməliyyatları aparılır, səthi hamarlanırdı (В.П.Фоменко, 1976, стр. 219). Diqqəti cəlb edən cəhət bu dövrdə qabların əksəriyyətinin gövdəsinin daha çox qəliblərdə formalaşdırılması, ayrı-ayrı hissələrinin (qulp, boğaz, altlıq) sərbəst üfürmə ilə hazırlanıb birləşdirilməsidir (Ə.İ.Novruzlu, 1997, səh. 269).

Gil qəliblərlə yanaşı, həm də daş qəliblərdən istifadə olunurdu. Kifayət qədər qızdırılmamış qəliblərdən istifadə edildikdə məmulat parlaqlıqdan məhrum olaraq tutqun səthə malik olurdu (Ю.Л.Щапова, 1983, стр. 74).

Şüşə emalatxanalarında qədimdən məlum olan tökmə üsulundan da istifadə edilirdi. Pəncərə şüşələri də tökmə üsulu ilə hazırlanırdı (Ю.Л.Щапова, 1983, стр. 73).

Müxtəliftipli qabların bəzədilməsində yapma şüşə saplardan, daş sürtgəclərlə salınmış naxışlardan istifadə edilirdi.

Bəzək əşyalarının hazırlanmasında dartma, kəsmə, burma, uzatma, dolama, deşmə, qaynaqetmə və s. üsullar tətbiq olunurdu.

İstehsal prosesində usta qəlibdən başqa müxtəlif formalı tutqac, qayçı, bıçaq, üfürmə borusu, qaşıq və s. alətlərdən istifadə edirdi.

Spektral analiz metodu ilə öyrənilən şüşə nümunələri göstərir ki, həmdövr müsəlman Şərqinin şüşə istehsalı mərkəzləri üçün səciyyəvi olan Si-Na(K)-Ca(Mq) şüşə tipi Azərbaycanda istehsal edilmiş şüşə məmulatı üçün də səciyyəvi olmuş və son orta əsrlərdə bu tərkibdə şüşə üstünlük təşkil etmişdir. Bu da müəyyən olunmuşdur ki, məmulat təyinatından asılı olaraq müxtəlif tərkibli şüşədən hazırlanırdı. Məsələn, Şabran şəhərinin sənətkarları qab-qacaq istehsalında Si-Na(K)-Ca, Si-Na(K)-Ca(Mg) və Si(Al)-Na(K)-Ca(Mg) tərkibli şüşə tiplərinə üstünlük verdikləri halda, bilərzik istehsalında həm də Si-Pb-Na(K)-Ca(Mg) tərkibli şüşədən istifadə edirdilər (T.M.Dostiyev, Q.Ə.Hacıyev, 2000).

Ümumiyyətlə, Azərbaycanda orta əsrlərdə şüşə məmulat istehsalında əsasən Si-Na-Ca sinfinə məxsus şüşə tipləri aparıcı mövqeyə malik idi. Yerli sənətkarlar müxtəlif rənglərdə şüşələr istehsal edə bilirdilər. Məsələn, Şabranda pəncərə şüşəsinin firuzəyi rəng alması üçün onun tərkibinə mis oksidi əlavə olunurdu (T.M.Dostiyev, 2001, səh. 185). Dəmir oksidinin zərərli təsirini aradan qaldırmaq, şüşənin şəffaflığını təmin etmək məqsədi ilə tərkibə manqan oksidi əlavə edilirdi. Yeri gəlmişkən, şüşə istehsalında manqan daşından istifadə edilməsi haqqında Nəsirəddin Tusi də məlumat verirdi (N.Tusi, 1984, səh. 25).

**Ağacişləmə.** Orta çağda ağacişləmə sənəti mühüm sənətkarlıq sahələrindən biri olub, dülgərlik, xarratlıq, şəbəkəçilik kimi dar sahələrə ayrılırdı. El sənətkarları balta, kərki, mişar, rəndə, iskənə, burğu və s. alətlərdən istifadə etməklə, yerli xammaldan gözəl sənət əsərləri yaradırdılar. Ağacişləmə sənətində çalışan ustalar Azərbaycan meşələrindəki ağac növlərinin başlıca xüsusiyyətlərini bilir və öz fəaliyyətlərində müvafiq ağac növündən yararlanmağa çalışırdılar. Ağac inşaatda, gəmi inşasında, müxtəlif məişət avadanlığı, alətlərin hissələrinin hazırlanmasında geniş tətbiq olunurdu. Son orta əsr səyyahları Azərbaycanda ustaların əla naxışla qapı, pəncərə düzəltdiklərini xüsusi qeyd edirlər. Əbdürrəşid əl-Bakuvi yazırdı ki, Naxçıvanın "əhalisi naqqaşlıqda və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bunlar müxtəlif ölkələrə də aparılır" (А.Бакуви, 1971, стр. 99). Şübhəsiz ki, qeyd olunanlar o zamankı sənətkarların yüksək peşəkarlıq səviyyəsindən xəbər verir.

Ağac məmulatı çürüməyə meyilli olduğundan arxeoloji qazıntılar zamanı bu qəbildən olan tapıntılara nadir hallarda təsadüf olunur. Şabran şəhər yerində V qazıntı sahəsində XIV-XV əsrlərin inşaat qatından tapılmış kömürlənmiş ağac memarlıq ünsürü kimi müəyyən maraq doğurur (tablo 155, şək. 4). Uzunluğu 70 *sm*-ə qədər mühafizə olunmuş, eni 12-14 *sm* olan, bir üzü oyma ilə işlənmiş həmin memarlıq ünsürü yanğın nəticəsində kömürlənmiş, lakin forma və bədii işlənmə xüsusiyyətlərini saxlamışdır (T.M.Dostiyev, 2001, səh. 193).

**Sümükişləmə.** Azərbaycanın orta çağ sənətkarlığında sümükişləmə müstəqil sənət sahəsi kimi fəaliyyət göstərirdi. Zəngin xammal mənbəyinin mövcudluğu bu sənət sahəsinin inkişafını şərtləndirmişdi. Arxeoloji tədqiqatlar zamanı tapılmış çoxsaylı sümük əşyalar, habelə mişarlanmış və ya iti alətlə kəsilmiş, lakin naməlum səbəbdən istehsalı başa çatmamış məmulat nümunələri sümükişləmə sənətinin həm şəhər, həm də kəndlərdə fəaliyyət göstərdiyini təsdiqləyir. Arxeoloji qazıntılardan sümükişləmə sənətində tətbiq olunan alətlər də tapılmışdır. Sümükişləmə sənəti ilə bağlı emalatxana qalıqları isə Şamaxı şəhərinin arxeoloji tədqiqindən məlumdur. Emalatxana kobud yonulmuş daşdan hörülmüş otaqdan ibarət olub döşəməsi torpaqdan idi. Döşəmədə xeyli miqdarda emal olunmuş, mişarlanmış maral sümüklərinə rast gəlinmişdir. Emalatxananın şimal küncündə 77x50x45 *sm* ölçüdə dördkünc daş yerləşmişdi. Daşın üzərində zərbə izləri qalmışdı. Həmin daşın sümükişləmədə istifadə olunduğu ehtimal edilir (Г.А.ДЖИДДИ, 1984а, стр. 73-74). Emalatxananın çaydaşı ilə döşənmiş küçəyə çıxışı vardı. Emalatxananın XIII-XV əsrlərdə fəaliyyət göstərməsi bildirilir.

Arxeoloji qazıntılar zamanı əldə olunmuş sümük məmulat öz təyinatına görə aşağıdakı qruplara ayrılır: əmək alətləri və onların hissələri, döyüş ləvazimatı, musiqi alətləri və onların hissələri, bəzək əşyaları, oyuncaqlar.

Əmək alətləri əsasən kirkit, həvə, biz, qıyıq, iynədən, eləcə də bıçaq, dəhrə, ülgüc kimi dəmir alətlərin dəstəklərindən ibarətdir (tablo 156). Sadə əmək aləti olan

sümük bizlər əksər abidələrdən tapılmışdır. Biz və qıyıqlardan fərqli olaraq ucuküt kiçik ölçülü konusvari sümük alətlər isə, görünür, orta əsr cərrahları tərəfindən işlədilmişdi. Əmək alətlərinin sümük dəstəkləri isə həm monolit, həm də quraşdırma nümunələrlə təmsil olunmuşdur (tablo 156, şək. 2-3,7-8). Musiqi alətlərindən tütək fraqmentinə rast gəlinmişdir (tablo 156, şək. 1).

Döyüş və ovçuluq ləvazimatı qoruyucu üzüklər ilə təmsil olunmuşdur (tablo 156, şək. 11). Orta çağda kaman və sadaqın hazırlanmasında da sümükdən geniş istifadə olunmuşdur. Amma təəssüf ki, onların nümunələri dövrümüzə gəlib çatmamışdır.

Son orta əsrlərin stolüstü oyunlarında işlədilmiş əşyalardan arxeoloji qazıntılar zamanı aşıq və zər tapılmışdır (Ə.İ.Novruzlu, 1997, səh. 320).

Sümükişləmə sənəti ilə bağlı alətlərin, xammal nümunələrinin, istehsal tullantılarının və sümük məmulatın tədqiqi bu sənət sahəsində istehsal prosesini izləməyə imkan vermişdir. Proses bir neçə mərhələdən ibarət idi (И.А.Закирова,1988). Birinci mərhələ xammalın toplanması və istehsala müvafiq ayrılması idi. Tədqiqatçılar sənətkarların iribuynuzlu mal-qara və davara məxsus buynuz və sümüklərdən xammal kimi daha çox istifadə etdiklərini göstərir. Ov heyvanlarından isə maral və cüyürün buynuz və sümükləri geniş işlədilirdi.

İstehsalın ikinci mərhələsində xammal yarımfabrikat halına salınırdı. Bu mərhələdə bir neçə əməliyyat aparılırdı. İlk növbədə istehsal üçün seçilmiş xammal yağsızlaşdırılır və bir neçə dəfə kül suyunda və ya turşumuş süd məhlulunda qaynadılırdı. Daha sonra xammal bölünür, yonulur, kəsilir, lazımi formaya salınırdı. Üçüncü mərhələdə nəzərdə tutulan məmulat hazırlanır, dördüncü mərhələdə cilalanır və naxışlanırdı. Bəzən cilalanmış və naxışlanmış məmulat bu və ya digər rənglə boyanırdı.

Naxışsalma prosesində sənətkarlar cızma və oyma üsullarından daha çox istifadə edirdilər. Ən geniş yayılmış naxış isə "pərgar" (içərisində nöqtə olan çevrə) ornamenti idi.

Arxeoloji qazıntılar zamanı aşkarlanmış yarımfabrikat və müxtəlif tip sümük məmulatlarından aydın olur ki, sümükişləmə sənətində yerli ustalar iş prosesində mişar, bıçaq, balta, burğu, yeyə, pərgar və digər alətlərdən istifadə etmişlər.

**Daşişləmə sənəti.** Dövrün memarlıq, xatirə abidələri, arxeoloji qazıntılar zamanı aşkarlanan müxtəlif təyinatlı qurğu və məmulat nümunələri daşişləmə sənətinin kifayət qədər inkişaf etdiyini göstərir. Daşişləmə sənəti, ənənəvi olaraq, daşçıxarma, daşyonma və daşoyma olmaqla üç başlıca istehsal sahəsini əhatə edirdi (A.N.Mustafayev, 1999, səh. 68). Azərbaycan ərazisində, xüsusilə Şirvanda xammal zənginliyi daşişləmə sənətinin inkişafına müsbət təsir göstərirdi. Yerli sənətkarlar əsasən əhəngdaşı, mərmər, tuf, bərkcinsli qaya daşları, çaydaşı kimi xammaldan istifadə edirdilər. Daşişləmə sənətində xammal, adətən, xüsusi mədən-yataqlarda, karxanalarda tədarük olunurdu. Karxanadan kəsilib çıxarılan sal daşlar iş yerinə

gətirilərək təyinatı üzrə yonulub lazımi formaya salınırdı. Daşın yonulması və doğranılması, etnoqrafik materiallardan göründüyü kimi, müxtəlif formalı baltalarla yerinə yetirilirdi. Memarlıq abidələrindən və arxeoloji qazıntılar zamanı üzə çıxarılan tikili qalıqlarından məlum olur ki, inşaat üçün tətbiqindən asılı olaraq hörgü, sütun altlığı, sütun, üzlük, birləşdirici, günbəz, bəzək, karniz daşlarının hər biri təyinatına uyğun yonulurdu.

Arxeoloji qazıntılardan çoxlu miqdarda təsərrüfat və məişətin müxtəlif sahələrində istifadə olunmuş daş alət və vasitələr məlumdur. Naxçıvanda XIV-XV əsr təbəqəsindən tapılmış daşdan balta, arxeoloji qazıntılarda tez-tez təsadüf olunan dəyirman və kirkirə daşları əsasən az ovxantı verən bərk cinsli daşlardan yonulub hazırlanırdı. Xırman daşı (vərdənə), daş axurlar və s. bu qəbildən olan daş məmulatıdır.

Son orta əsrlərdə xatirə abidələri - başdaşı, sinədaşı, sənduqə, qəbirüstü fiqurlar hazırlanması daşişləmə sənətində mühüm yer tuturdu. Bu dövrdə daşyonmanın heykəltəraşlıq sahəsi qəbirüstü qoç və at fiqurlarının yonulması ilə yenidən dirçəlirdi.

Yerli ustalar daşişləmənin çapma, yonma, cilalama, deşmə, oyma və digər üsullarını yüksək peşəkarlıqla yerinə yetirirdilər. Tikililər və qəbirüstü xatirə abidələrindən göründüyü kimi, daşyonmanın qaraçapma, cümməçapma, dişəmə və cilalama üsulları mövcud olub. İnşaatda başlıca olaraq üzü cümməçapma üsulu ilə yonulmuş daşlardan istifadə edilirdi. Amma bəzən qaraçapma üsulu ilə yonulmuş hörgü daşlarına və dişəmə üsulu ilə narın yonulmuş üzlük daşlarına təsadüf olunur. Cilalama üsulu ilə daşın səthinin şumal hala salınması, adətən, əmək alətləri, ictimai binaların üzlük daşları, bəzək hissələrində və məzarüstü xatirə abidələrində tətbiq edilirdi.

Cilalama müxtəlif növ törpü və yeyə vasitəsilə yerinə yetirilirdi. Ustalar iş prosesində əvvəlcə iridişli törpülər işlədir, sonra yastı, üçtilli, dördtilli və bülül yeyələrdən istifadə edirdilər (A.N.Mustafayev, 1999, səh. 74).

Bəhs olunan dövrdə daşişləmənin mühüm sahəsi olan həkkaklıqda böyük nailiyyətlər olduğunu çoxsaylı sənət əsərləri təsdiq edir. Həkkaklar dişli törpülərdən, müxtəlif tip yeyə, burğu, pərgar, ülgü, iskənə və s. alətlərdən istifadə etməklə, qabartma və ya oyma texnikasında nəzərdə tutulan həndəsi, nəbati naxışları və yaxud ərəb əlifbasının kufi, nəsx və süls xətləri ilə kitabələri daş üzərinə həkk edirdilər.

**Toxuculuq** son orta əsrlərdə Azərbaycanda sənət istehsalında ən geniş yayılmış sahələrdən biri olmaqla ölkə iqtisadiyyatında özünəməxsus yer tuturdu. Bu sənət sahəsi həm şəhər, həm də kəndlərdə mövcud olub, əhalinin geyim və məişət ehtiyaclarının, eləcə də xarici bazarın tələbatının ödənilməsinə yönəlmişdi. Toxuculuğun bəsit və ən məhsuldar əmək aləti olan iy (Azərbaycan etnoqrafiyası, 1988, səh. 207) başlıqları arxeoloji qazıntı aparılmış bütün orta çağ şəhər və kənd

tipli yaşayış yerlərindən tapılmışdır. Sümük, daş saxsıdan hazırlanmış iy başlıqları ölçü və kütlə etibarilə bir-birindən fərqlənir. Etnoqrafik tədqiqatlarla müəyyən olunmuşdur ki, ağır kütləli iy başlıqları əsasən kətan, yüngülləri isə yun və ipək əyirmək üçün tətbiq olunmuşdur (A.N.Mustafayev, 1999, səh. 259). Dəmir iyin (əyircəyin) özü isə arxeoloji qazıntılar zamanı Amarasın III yaşayış yerindən tapılmış (tablo 133, şək. 7) və tədqiqatçılar tərəfindən XIII-XIV əsrlərə aid edilmişdir (R.B.Göyüşov, 1975, səh. 74).

Təbriz, Ərdəbil, Marağa, Naxçıvan, Gəncə, Şamaxı, Dərbənd mühüm toxuculuq mərkəzləri idi. XIII-XIV əsrlərdə Təbrizdəki iri karxanaların böyük bir qismini toxuculuq emalatxanaları təşkil edirdi. Toxuculuqda başlıca xammal yerli təsərrüfatlara əsaslanmaqla, heyvan və nəbati mənşəli idi. Yun, ipək, pambıq və kətanın kifayət qədər istehsalı xammala olan tələbatı tam ödəyirdi. Bu isə müvafiq olaraq toxuculuğun şalbaflıq, şərbaflıq və bəzzazlıq kimi sahələrinin inkişafını təmin edirdi. Toxuculuq məmulatı çürüməyə meyilli olduğundan arxeoloji qazıntılar zamanı nadir hallarda tapılır. Şirvanşahlar saray kompleksində sərdabə qazıntısından, Beyləqanda, Xaraba-Gilanda türbələrin qazıntısından ipək parça qalıqları (tablo 161), yun və pambıq parça Naxçıvan şəhərinin arxeoloji tədqiqindən, pambıq parça qalığı Salmanbulağı yaşayış yerindən məlumdur (Ə.İ.Novruzlu, 1997, səh. 339; T.M.Dostiyev, 2001, səh. 194-195; Н.В.Минкевич-Мустафайева, 1947, стр. 42-44).

Orta əsrlərdə yun məmulat istehsalında müxtəlif növ xalçalar xüsusi yer tuturdu. Xalçaçılıq qadın sənətinin ən geniş yayılmış növü idi. "Azərbaycan qadını üçün xalça-palaz toxumaq ən adi məşğuliyyət növü, keçmiş ailə məişətinin zəruri tərkib hissələrindən biri idi" (A.N.Mustafayev, 1999, səh. 273).

Azərbaycan xalçaları ölkənin bütün bölgələri üçün ümumi olan səciyyəvi xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də ayrı-ayrı bölgələrə aid məhəlli xüsusiyyətləri ilə də məşhur idi. Bu əsasda tədqiqatçılar Təbriz, Quba-Şirvan, Gəncə-Qazax və Qarabağ xalça tiplərini ayırırlar (L.Kərimov, 1961; Л.Керимов, 1983). Təkcə bunu qeyd etmək kifayətdir ki, Quba xalçalarının 34 çeşnisi müəyyən olunmuşdur. Xalçaçı ustalar xovlu xalça məmulatı ilə yanaşı, həm də xeyli miqdarda xovsuz məmulat: məfrəş, çuval, xurcun, heybə və s. toxuyurdular.

Orta əsr abidələrinin arxeoloji tədqiqi nəticəsində xalçaçılıq sənəti ilə bağlı bəzi əmək alətləri, o cümlədən qayçı, qarmaq, həvə, kirkit (tablo 156, şək. 12-13, 15) tapılmışdır.

Toxuculuğun inkişafı onunla sıx bağlı olan **boyaqçılıq** sənətinin də inkişaf etməsinə zəmin yaratmışdı. Boyaqçılıq üçün başlıca xammal təbii minerallar və müxtəlif boya alınan bitki və onların kökləri idi. Arxeoloji qazıntılar zamanı boyaqçılıq izlərinə Şabran şəhər yerində və Canaxır yaşayış yerində XIV-XV əsrlərə məxsus təbəqədə təsadüf olunmuşdur.

**Dabbağlıq.** Son orta əsrlərdə Azərbaycanda dəriişləmə - dabbağlıq sənəti öz inkişafını davam etdirməkdə idi. Yazılı qaynaqlardan bəlli olur ki, Təbriz və Marağa təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə gön-dəri məmulatı istehsalının mühüm mərkəzləri idi (M.X.Гейдаров, 1982, стр. 285). Arxeoloji tədqiqatlarla dabbağxana qalıqları Naxçıvanda öyrənilmişdir. Düzbucaqlı plana malik bu dabbağxananın kiçikölçülü bir neçə pəncərəsi vardı. Üst hissəsi günbəzvari formada idi (Ə.İ.Novruzlu, 1997, səh. 346). Emalatxananın döşəməsindən XVII əsrə aid su tingləri üzə çıxarılmışdır.

Məlum olduğu kimi, dabbağxanalarda dərini aşılamaq üçün əhəng quyusu və onun yaxınlığında dərin hovuz olur. Belə bir tikili qalıqları Şabran şəhərinin XIV-XV əsrlərə aid inşaat qatında aşkarlanmışdır. Quyu planda dairəvi, kəsikdə aşağıya doğru genişlənən konus formasında olub bişmiş kərpiclə hörülmüşdür. Quyunun dibində əhəng qalıqlarının aşkarlanması da təsadüfi olmamışdır. Hovuz dördbucaqlı biçimdə olub, bişmiş kərpiclə hörülmüşdür. İçəri tərəfdən divarlar və döşəməsi gəc suvaqla suvanmışdı. Suvaq nümunələrinin analizi onun suya davamlı, yüksək keyfiyyətli gəc suvaq olduğunu təsdiqləmişdir.

Naxçıvan şəhərinin qazıntılarından sərrafxana qalıqları da məlumdur. Düzbucaqlı biçimdə olan emalatxananın içərisindən bir ədəd iti uclu bıçaq və 20-dən artıq dəri məmulatı çıxarı tapılmışdır (Ə.İ.Novruzlu, 1997, səh. 347).

Beləliklə, arxeoloji qazıntıların nəticələri və əldə edilmiş materialların təhlili son orta əsrlərdə sənət istehsalı səviyyəsinin müsəlman Şərqinin həmin çağdakı iqtisadi inkişaf səviyyəsinə uyğun olduğunu və sənətkarlığın ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynadığını söyləməyə imkan verir. Aşkarlanmış əmək alətləri və sənət məmulatı ölkə sənətkarlarının o dövrün texniki nailiyyətlərinə yiyələndiyini, yüksək keyfiyyətli sənət məhsulu istehsal etdiklərini, sənətdaxili ixtisaslaşmanın mövcudluğunu sənədləşdirir. Şəhər sənətkarlıq məhsulu bazar tələbatına uyğun istehsal olunurdu. Kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntıların nəticələri sənətkarlıqla təkcə şəhər sakinlərinin deyil, həm də müəyyən dərəcədə kənd əhalisinin məşğul olduğunu göstərir. Bəzi sənət sahələri, o cümlədən dulusçuluq, dəmirçilik, toxuculuq, xalçaçılıq kimi sənətlər kənd məskənlərində də fəaliyyətdə olub, əsasən yerli tələbatı ödəyirdi.

Tədqiq edilən dövrdə sənətkarlığın inkişaf dinamikasında iki mərhələni ayırmaq olar. XIV-XV əsrlər sənət istehsalının dirçəlişi, ixtisaslaşmanın dərinləşməsi ilə əlamətdar olduğu halda, XVII əsrdə bəzi sənət sahələri istisna edilməklə sənətkarlıqda tənəzzül özünü büruzə verir.

## Ticarət

**Ticarət yolları və əlaqələri.** Monqol istilası Azərbaycanın ticarət əlaqələrini zəiflətdi, onun həcmini minimuma endirdi. Amma, hətta belə bir ağır şəraitdə də

ticarət əlaqələri tam kəsilməmişdi. Digər tərəfdən geniş ərazili Elxanilər dövlətinin yaranması xarici ticarət əlaqələrinin intensivliyinə mənfi təsir göstərən gümüş böhranını doğuran siyasi və iqtisadi səbəbləri aradan qaldırmaq üçün zəmin yaratmış oldu (М.А.Сейфеддини, 1978, стр. 150).

Xarici ticarətin yenidən canlanması XIII əsrin sonu - XIV əsrin əvvəllərinə təsadüf edir. Bu zaman hülakular xəzinəyə müntəzəm gəlirin daxil olmasında şəhər sənətkarlığının və ticarətin əhəmiyyətini dərk etməyə başlayır və bu məqsədlə ticarəti, maliyyə sistemini və şəhər həyatını tənzimləyən islahatlar keçirirlər. Xan hakimiyyəti şəhərsalma və ticarətin təşkilatçısı kimi çıxış etməyə başlayır (Г.А.Федоров-Давыдов,1983, стр. 216).

Qazan xanın islahatları ölkədə daxili və xarici ticarətin inkişafına güclü təkan verdi. Mövcud zərbxanaların fəaliyyəti intensivləşdi, yeniləri fəaliyyətə başladı. Zərb olunan sikkələr nəinki daxili ticarətin tələbatını ödəyir, həm də beynəlxalq ticarət əlaqələrində rəqabətə dözümlü pul vahidi kimi geniş işlədilirdi. Şəhərlərdə, xüsusilə paytaxt və böyük şəhərlərdə sənətkarlığın canlanması ticarətin inkişafına müsbət təsir göstərirdi. Təbriz, Marağa, Ərdəbil, Naxçıvan, Gəncə, Bərdə, Şamaxı, Dərbənd, Bakı şəhərlərində iri bazarlar fəaliyyət göstərirdi. Paytaxt şəhərlərdə, eləcə də böyük şəhərlərdə bir neçə bazar olurdu.

Daxili və şəhərlərarası ticarətdə canlanma müşahidə edilirdi. Son orta əsrlərə, xüsusilə XIV-XV əsrlərə aid mədəni təbəqə yatımından arxeoloji qazıntılar zamanı mis sikkələrin kütləvi şəkildə tapılması daxili ticarətin kifayət qədər intensiv xarakter daşıdığına sübutdur. Şəhərlər əvvəllər olduğu kimi, yenə də kənd nahiyəsini sənətkarlıq məmulatı ilə təmin edir, kənd isə öz növbəsində şəhər əhalisini ərzaqla, sənətkarlığı isə xammalla təchiz edirdi. Y.Y.Streys Ərdəbil şəhərindən danışarkən bildirir ki, onun nahiyəsinin 57 kəndi vardır və həmin kəndlərdən "kəndlilər hər gün şəhər bazarına meyvələr, yağ, yumurta, pendir və sair gətirirlər, buna görə orada hər şey ucuz və boldur" (Я.Я.Стрейс, 1936, стр. 286). Daxili ticarətin intensiv xarakter daşımasında ölkənin təbii-coğrafi şəraiti də müəyyən təsirə malik idi. Ölkədə düzən, dağətəyi və dağlıq rayonların mövcudluğu və onların əhalisinin təsərrüfat məşğuliyyətindəki bəzi ixtisaslaşmalar da ölkədaxili ticarətin inkişafına öz təsirini göstərirdi. Ölkənin şəhərləri karvan yolları ilə bir-birinə bağlanmışdı. Bəzən bu yollar beynəlxalq ticarət yolları ilə qovuşurdu. Məsələn, Şirvana müxtəlif istiqamətlərdən karvan yolları uzanırdı.

Şabrandan Şamaxıya iki karvan yolu ilə getmək olurdu. Birinci karvan yolu Beşbarmaq dağınadək düzənlik ilə, sonra isə dağlıq ərazi ilə Altıağaca, oradan isə Şamaxıya qədər gedirdi. Bu ticarət yolunda üç karvansara vardı. Onlardan birincisi Gilgilçayın sağ sahilində, ikincisi Beşbarmağın ətəyində, üçüncüsü isə Altıağacda yerləşirdi (С.У.Дадашова, 1977, стр. 82-84). Onlardan birinin qalıqları arxeoloji tədqiqatlar zamanı Beşbarmaq dağı yaxınlığında qeydə alınmışdır (Ə.Ə.Əliyev, 2006, səh. 90-91). Şirvan-Abşeron memarlıq məktəbinə xas əlamətlərə malik bu

karvansaranın rəsmi (tablo 157, şək. 3 ) A.Oleari, daha sonra isə S.Q.Qmelin tərəfindən çəkilmişdir. A.Oleari yazır: "Bu karvansara böyük dördkünclü daşlardan hörülmüş çox köhnə bir bina idi. O, dördbucaqlı biçimdə idi. Hər tərəfdən divarların uzunluğu 42 addım idi" (А.Олеарий, 1906, стр. 456-457).

Şabrandan Şamaxıya ikinci karvan yolu Təngi keçidindən indiki Rustov, Afurca, Qonaqkənd ərazisindən keçməklə Şamaxıya gedirdi (С.У.Дадашова, 1990, стр. 108).

Şamaxı-Mərəzə-Səngəçal-Bakı ticarət yolu da bu dövrdə intensiv fəaliyyət göstərirdi (Г.А.Джидди, 1981, стр. 94). Səngəçalda bu yol Ərdəbildən gələn karvan yolu ilə qovuşurdu və burada karvansara inşa olunmuşdu. Bu karvansarada qonaq və xidmətçilər üçün otaqlar, təsərrüfat tikililəri var idi. Tikililər dördbucaqlı həyət boyunca yerləşmişdi (tablo 157, şək. 1). Çatma tağ-tavanla örtülmüş həmin iki cərgə otaqlar səliqə ilə yonulmuş əhəngdaşından inşa edilmişdir. Karvansaranın divar və künclərinin yarımdairəvi bürclərlə möhkəmləndirilməsi ona istehkam görünüşü verir. Fasadlar dekorativ elementlərə malik olmayıb, sərt xarakter daşıyır. Yalnız baş, cənub-şərq fasadda baştağ divar xəttində irəli çıxmışdır. Baş fasadın birinci qatında giriş baştağı, qarovulxana, ikinci qatında üç otaqdan ibarət balaxana yerləşir. Balaxanaya giriş həyətdəki daş pilləkənlər vasitəsilə həll olunmuşdur (М.УСЕЙНОВ., 1963, стр. 230-231). Şamaxıdan cənuba istiqamətlənən karvan yolu Ərdəbildə haçalanırdı. Bir karvan yolu Təbrizə, digəri isə Qəzvinə və Kaşana gedirdi (Azərbaycan tarixi, 1999, səh. 233). Qarabağ istiqamətində olan karvan yolu Şamaxını Bərdə ilə əlaqələndirirdi. Qarabağdan Təbrizə gedən karvan yolunda beş karvansara olmuşdur. Bu ticarət yolunda Təbrizlə Culfa arasında, Ayrandibidə, Mərənddən 27 *km* şimalda aşkarlanmış karvansara Teymurilər dövrünə aid edilir (W.Kleiss, 1972, p. 186-187). O düzbucaqlı biçimdə, 60, 5x50 *m* ölçüdə tikili olmaqla iri daşlardan və 22x22x5 *sm* ölçülü bişmiş kərpiclə hörülmüşdür (tablo 157, şək. 2). Karvansaranın çatmatağı nisbətən yaxşı mühafizə olunmuşdur. Onun üzərində kufi xətli kitabə qalmışdır.

1971-ci ildə karvansaradan 115 *m* şimal-qərbdə torpaq işləri görülərkən orada daha bir binanın qalıqları üzə çıxarılmışdır (tablo 157, şək. 2). Qalıqlara görə, bina tək-tək bişmiş kərpicdən istifadə olunmaqla, daşla hörülmüşdür (W.Kleiss, 1972, səh. 187).

Təbrizdən Ərdəbilə gedən yolun uzunluğu 100 *km*-dən artıq idi. Marağa ilə Zəncan arasındakı ticarət yolları da intensiv fəaliyyət göstərirdi (С.У.Дадашова, 1990, стр. 112).

Qəbələ sakinləri əsasən ənənəvi ticarət yollarından istifadə edirdilər. Cənub istiqamətində Qəbələ şəhərinə gələn ən rahat və daha intensiv ticarət yolu Turyançay dərəsindəki Savalan aşırımından keçirdi. Karvan yolunun Qəbələdən keçərək qərbə tərəf davam etdiyi hissə isə əhali tərəfindən dəvə yolu və ya elçi yolu adlandırılırdı (F.Qədirov, 1987).

Son orta əsrlərdə Azərbaycan beynəlxalq ticarət yollarının keçdiyi ölkələrdən biri olaraq qalırdı. XIII-XIV əsrlərdə əsas şimal yolu Təbriz və Mərənd şəhərlərindən keçərək Araz çayı sahillərinədək çatırdı. Başqa bir yol isə Sultaniyyə, Zəncan, Təbriz, Ərdəbil, Mahmudabad, Bakı, Şamaxı şəhərlərindən keçərək Dərbəndədək uzanırdı. Həmin baş yolun bir qolu isə Araz çayının kənarındakı Bəcirəvan, Beyləqan, Lənbəran, Bərdə, Gəncə və Şəmkirə, sonra isə Tiflisə doğru yönəlirdi. Baş yolun ikinci qolu isə Bərdədən Dərbəndə, oradan da şimala gedirdi. Baş qərb yolu Təbrizdən başlayıb Mərəndə, Xoya, Naxçıvana, Dəbilə, oradan isə Ərciş, Malazgird, Ərzurum, Ərzincan, Sivas, Trabzon və Qara dəniz sahillərinə uzanırdı. Bu karvan yolu üzərində XIV əsrin birinci yarısında bir neçə karvansara və körpünün inşası həmin ticarət magistralından istifadənin intensivləşdiyini göstərir. Hülaku hökmdarı Əbu Səid xanın inşa etdirdiyi Dərələyaz vilayətindəki Səlim və Ağkənd, Zəngəzurun Yayçı kəndi yaxınlığındakı Sınıq karvansara (O.Егизарян, 1955, стр. 69-72; В.М.Арутюниян, С.А.Сафарян, 1951, стр. 65; М.С.Неймат, 2001 a, стр. 58-59) belə abidələrdəndir.

Həmədandan başlanan yol Zəncanda Tarom və Miyanə olmaqla, iki qola ayrılırdı. Taroma gedən yolun özü də iki qola haçalanırdı. Zəncandan Miyanəyə gedən yol isə şimal, şimal-qərb və qərb yollarına ayrılırdı. Şimal yolu Ərdəbil-Muğan-Bakı-Dərbənd xəttini, Şimal-qərb yolu Ucan-Urmiya gölünün şimal sahili - Ermənistan-Qara dəniz və Kiçik Asiya xəttini, Qərb yolu isə Marağa-Urmiya gölünün cənubu - Ravənduz, Mosul, Hələb, Aralıq dənizinin sahillərinə qədər uzanırdı (Azərbaycan tarixi, 1999, səh. 69). Qitələrarası Böyük İpək yolu ilə yanaşı, XIII-XIV əsrlərdə şimal yolu Dərbənddən şimalda bir neçə qola şaxələnir, onlardan biri Qızıl Orda ərazisindən keçib Çinə gedirdi (С.Ашурбейли, 1983, стр. 189).

XIV-XV əsrlərdə Şirvan ipəyinin beynəlxalq ticarətdə rolunun artması, onun həm Avropa, həm də Şərq ölkələrinə ixracı ilə əlaqədar Biləsuvar, Mahmudabad, Şamaxı, Şabran, Dərbənd karvan yolunun əhəmiyyəti daha da artırdı. XV əsrdən etibarən Niyazabad, Şabran, Şamaxı, Təbriz karvan yolu müntəzəm fəaliyyətə başlayır və XVI-XVII əsrlərdə bu yolun fəaliyyəti xüsusilə genişlənirdi. XVI-XVII əsrlərdə Təbriz-Biləsuvar-Mahmudabad-Şamaxı-Şabran-Niyazabad karvan yolu ilə yanaşı, İsfahan-Qəzvin-Rəşt-Astara-Lənkəran-Bakı-Şabran-Dərbənd karvan yolundan da istifadə olunurdu (S.M.Onullahi, 1982, səh. 145).

Volqa-Xəzər ticarət yolunun yenidən canlanması nəticəsində Şimal ölkələri ilə ticarət əlaqələri bu dövrdə intensivləşir. Xəzər dənizi ticarətində nəzərə çarpan yenilik Şirvanın Qərbi Avropa ölkələri ilə intensiv ticarətə başlaması və bu ticarətdə genuyalı və venesiyalı tacirlərin xüsusi fəallıq göstərməsindədir. Bakı və Dərbənd limanları ilə yanaşı, bu dövrdə Müskür düzündə Niyazabad və Vəlvələçay limanları, onlardan cənubda isə Şabran limanı beynəlxalq ticarətə qoşulmuşdu. Son orta əsrlərdə Şimaldan gələn rus ticarət gəmiləri Xəzər dənizinin qərb sahilində Niyazabad, Vəlvələçay və Şabran limanlarında sahilə yan alır, tacirlər mallarını boşaldaraq karvan yolu ilə Şamaxıya

istiqamətlənirdilər (М.В.Фехнер, 1952, стр. 30). Görünür bu limanlardan ilk istifadə XIV əsrdə olmuş, XV əsrdən isə onlar müntəzəm fəaliyyət göstərmişdilər (T.M.Dostiyev, 1997a, səh. 132). XV-XVI əsrlərdə beynəlxalq ticarətdə Bakı və Niyazabad limanlarının rolu xüsusilə yüksəlir. Xəzər dənizinin bu zaman "Bakı dənizi" adlandırılması da məhz şəhərin ticarət əhəmiyyətinin artması ilə bağlı idi. XV əsr venesiyalı səyyah Bakı haqqında qeydlərində bildirir ki, bu şəhərdə böyük ticarət aparılır və onun adı ilə dəniz Bakı dənizi adlanır (С.Ашурбейли, 1992, стр. 120). Yeri gəlmişkən qeyd edək ki, Əmir Teymurun 1395-ci ildə Qızıl Orda yürüşündən, Həştərxan şəhərini alıb dağıtmasından sonra Dərbənd limanının əvvəlki əhəmiyyətini itirməsi nəticəsində Bakı limanı Xəzər dənizində baş limana çevrilmişdi (В.В.Бартолдь, 1925, стр. 69, 75).

Bakı limanı ilə yanaşı, Abşeron yarımadasında, habelə Pirallahı və Bilgəh limanları da fəaliyyət göstərirdi (С.Ашурбейли, 1997, стр. 134-137). Sualtı arxeoloji tədqiqatlar nəticəsində XVI-XVII əsrlərdə Bilgəh limanının da beynəlxalq ticarət əhəmiyyətli rol oynadığını təsdiqləyən xeyli faktik materiallar, o cümlədən batmış ticarət gəmisinin qalıqları aşkarlanmışdır (В.А.Квачидзе, 1997, 2006).

Volqa-Xəzər ticarət yolu XVI-XVII əsrlərdə xüsusilə fəallaşır və ingilis tacirlərinin bu ticarətdə yaxından iştirakı diqqəti cəlb edir. Müxtəlif ölkələrdən olan



**Gümüş parç.**

tacirlər Moskva, Oka və Volqa çayları vasitəsilə Həştərxana gəlir, buradan Xəzərin qərb sahilləri ilə üzərək Niyazabada və ya Bakıya yetişirdilər. Daha sonra karvanlar Şabrana, oradan Şamaxıya yollanırdı. Moskvadan Şamaxıya qədər olan yolu tacirlər iki aya qət edirdilər (Azərbaycan tarixi, 1999, səh. 233).

Bütün son orta əsrlər boyu Təbriz mühüm ticarət mərkəzi olaraq qalırdı. Hətta iqtisadi həyatın tənəzzül keçirdiyi, şəhərlərin aqrarlaşma prosesi başladığı bir dövrdə Təbriz dükan və bazarlarının çoxluğu və zənginliyi ilə səyyah və tacirləri heyrətləndirməkdə davam edirdi. Həmin çağda Təbrizdə 15000 dükan fəaliyyət göstərirdi; onun bazarları isə bütün "Asiyada ən böyük bazar idi" (Azərbaycan tarixi, 1999, səh. 284).

Yazılı qaynaqlardan bəlli olur ki, son orta əsrlərdə Azərbaycanın xarici ticarətində xam ipək, ipək parçalar, toxuculuq məmulatı, neft, zəfəran mühüm yer tuturdu. Genuya, Venesiya, İngiltərə, Osmanlı, Rusiya tacirləri və həmin ölkələri təmsil edən şirkətlər Azərbaycan ipəyi ilə ticarətdən böyük gəlir götürür və bu ticarətdə hegemonluq uğrunda mübarizə aparırdılar. Evliya Çələbi bu barədə belə yazır: "Moskvalılar isə daim Bakıya gəlib (buradan) duz, neft, zəfəran, ipək alıb Moskvaya aparırlar. Moskva elçiləri gəlib (adamları) girov götürürdülər. Moskva diyarından isə samur və sincab xəzi, balıq dişi, xeyli yumşaq bolqar dərisi gətirib, Bakı vasitəsilə, bir hissəsi isə Gilan vasitəsilə Əcəm (ölkəsinə) aparılır" (Evliya Çələbi, 1997, səh. 68).

Orta əsr şəhərlərinin xarabalıqlarında aparılan arxeoloji qazıntılar nəticəsində Çindən ənənəvi olaraq yüksək keyfiyyətli çini, seladon və saxsı qablar gətirildiyi müəyyən olunub. Yazılı qaynaqların araşdırılması Azərbaycan şəhərlərində Çin tacirlərinin çini qablarla ticarət etməsi faktını üzə çıxarıb (М.Гейдаров, 1999, стр. 87). Çini və seladon qab nümunələrinin şəhər qazıntılarından tez-tez tapılması, hətta kənd tipli yaşayış yerlərindən aşkarlanması Azərbaycan şəhərlərinin Çin ilə ticarət əlaqələrinin geniş vüsət aldığına dəlalət edir (Г.Абилова, 1956; Дж.А.Халилов и др., 1988). Çindən gətirilən müxtəlif çeşiddə nəfis çini və seladon qab nümunələri Gəncə, Qəbələ, Şamaxı, Şabran, Dərbənd şəhərlərinin qazıntılarından daha çox tapılmışdır (tablo 158; tablo 159, şək. 1-3). Bu qəbildən olan tapıntılar sualtı arxeoloji tədqiqatlardan, xüsusilə Amburan burnu akvatoriyasındakı tədqiqatlardan da yaxşı məlumdur (В.А.Квачидзе, 1997, стр. 136). Bahalı Çin dulus məmulatı nəinki şəhər sakinlərinin, həm də kənd əhalisinin məişətinə daxil olmuşdu (T.M.Dostiyev, 2001, səh. 205).

Sualtı arxeoloji tədqiqatlar zamanı Azərbaycanın XVI-XVII əsrlərdə Rusiya şəhərləri ilə ticarət əlaqələrini təsdiqləyən əşyalar - Novqorod sənətkarlarının istehsal etdiyi gümüş parç, Voloqda və ya Moskvada hazırlanmış bıçaqlar tapılmışdır (В.А.Квачидзе, 1997, СТР. 137; 2006, СТР. 249-252).

Azərbaycanın Avropa ölkələri ilə ticarət əlaqələrini sənədləşdirən maddi dəlillərdən biri də Şamaxıdan tapılmış kaşı nümunəsidir. Onun üzərində Şotlandiyanın XVII-XVIII əsrlər xalq qəhrəmanı Rob Royun təsviri vardır. Kaşının üzərindəki yazıdan məlum olur ki, o, Qlazqo şəhərində istehsal olmuşdu (Г.А.ДЖИДДИ, 1981 стр. 109). Məlumdur ki, XIII əsrdən sonra Çexiya Avropada mühüm şüşə istehsalı mərkəzlərindən biri hesab olunur və burada istehsal edilən şüşə məmulatı dünyanın müxtəlif bölgələrinə ixrac edilirdi. Şabran şəhərindən tapılmış şüşə məmulatı içərisində Çexiya istehsalı olan nümunəyə də rast gəlinmişdir (T.M.Dostiyev, Q.Ə.Hacıyev, 2000, səh. 78).

Şimal ölkələri və Uzaq Şərqlə ticarətin intensivləşməsi ilə yanaşı, Yaxın və Orta Şərqlə ənənəvi ticarət əlaqələri davam etməkdə idi. Yaxın və Orta Şərqin ticarət malları arasında toxuculuq məmulatı, fayans qablar, qiymətli daşlar, ətriyyat,

ədviyyat və s. vardır. Arxeoloji qazıntılar zamanı İranın Rey, Kaşan və Kirman şəhərlərində istehsal olunmuş fayans qab nümunələri də tapılır (tablo 159, şək. 5). Cənubi Asiyadan Azərbaycan bazarlarına toxuculuq məmulatı, silahlar, fil sümüyü, ədviyyat, ətriyyat, Maldiv adalarından isə "kauri" balıqqulaqları gətirilirdi.

Ticarətlə bağlı maraqlı tapıntılardan biri də qurğuşundan kvadrat formalı çəki daşıdır. Onun üzərində beş kəsik vardır. Bununla görünür onun 5 misqala uyğunluğu göstərilmişdir. Çəki daşının ağırlığı 27,5 qrama bərabərdir (В.А.Квачидзе, 1980, стр. 40).

Numizmatik materiallar da son orta əsrlərdə Azərbaycan şəhərlərinin kifayət qədər geniş ticarət əlaqələrinə malik olduğunu göstərir. Məhz XVI əsrin sonlarından Azərbaycana Avropada zərb olunmuş gümüş pullar - talerlər gətirilir.

**Sikkələr və pul dövriyyəsi.** Artıq yuxarıda qeyd edildiyi kimi, gümüş böhranını doğuran siyasi və iqtisadi səbəblər monqol istilası ilə aradan qalxmış oldu. Gümüş pul sistemi bərpa olundu. XIII əsrin 30-40-cı illərindən etibarən Azərbaycanda gümüş dirhəmlərin zərbinə başlanıldı. Hülakular dövlətinin yaranmasından sonra ölkədə gümüş pul sistemi tamamilə öz mövqelərini möhkəmləndirdi. Qazan xanın islahatı nəticəsində Hülakular dövlətində vahid sikkə sistemi bərqərar oldu. İslahatdan sonra dövriyyəyə "qazaniyyə" adlı qızıl dinarlar, çəkisi 12,8 *q* olan gümüş dinarlar, çəkisi 2,13 *q* olan gümüş dirhəmlər və mis sikkələr - felslər buraxıldı. Tümən isə hesablama vahidi müəyyən edilmiş və 10000 gümüş dinara bərabər tutulurdu (М.А.Сейфеддини, 1978, стр. 224). Qazan xanın islahatı Azərbaycanda şəhər həyatının, xüsusilə də əmtəə-pul münasibətlərinin xeyli canlanmasına təkan verdi. XIV əsrin birinci yarısında Azərbaycanda 35 zərbxana fəaliyyət göstərirdi. Onların çoxunda Hülakuların gümüş, bəzilərində isə həm də qızıl sikkələri zərb olunurdu. Daxili bazarın ehtiyaclarını ödəmək üçün xeyli mis sikkə zərb olunurdu. Qazan xan islahatının yaratdığı sabitlik və dirçəliş uzun sürmədi. XIV əsrdə cərəyan edən hərbi-siyasi hadisələr dirhəmin mövqeyini yenə sarsıtdı, onun çəkisi tədricən azalaraq həmin yüzilliyin sonunda 1 qrama endi.

XV əsrin əvvəllərində Azərbaycanın pul sisteminə yeni sikkə tipi - Əmir Teymurun zərb etdirdiyi təngə daxil oldu. Əmir Teymurun Hindistan təcrübəsindən əxz etdiyi bu yeni pul vahidi 6,2 *q* çəkidə zərb olunmağa başlasa da, sonralar 5,2 *q* və daha az çəkiyə enmişdi. Yeni gümüş sikkə tipi yeddi əsrdən artıq müddətdə müsəlman ölkələrinin başlıca pul vahidi olmuş dirhəmi sıxışdırıb aradan çıxardı (А.Раджабли, 1997; Г.Пиргулиева, 2001). Kiçik gümüş pul vahidi olan, daxili bazarın ehtiyacını ödəməyə yönəlmiş miri adlı sikkələrin də zərbinin əsasını Əmir Teymur qoymuşdur.

Azərbaycanda təngə ilk dəfə Əmir Teymurun özü tərəfindən hicri 805-ci ildə Təbrizdə və Şamaxıda, hicri 806-cı ildə isə Dərbənddə zərb olunmuşdur. Sonradan təngə Azərbaycan feodal dövlətlərinin - Qaraqoyunlu, Ağqoyunlu və Şirvanşahlar dövlətlərinin sikkə sisteminin əsasını təşkil etmişdir. Qaraqoyunlu sülaləsindən ilk

olaraq Qara Yusif Urmiyada təngə zərb etdirmişdi. Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti illərində Azərbaycanda təngə zərbi daha geniş yayılmış, onun zərb etdirdiyi təngələr səliqəliliyi, kufi qarışıq nəstəliq xətti ilə fərqlənir. Yüksək əyarlı həmin sikkələrin orta çəkisi 5,2 *q*-a bərabərdir.

Ağqoyunlular öz sələflərinin sikkə sistemini qəbul edərək 4,26 *q* çəkidə təngə zərb etmişdilər. Lakin hakimiyyət uğrunda sülalədaxili çəkişmələr pul təsərrüfatına ağır zərbə endirmiş, Ağqoyunluların sonuncu hökmdarı sultan Muradın zərb etdirdiyi təngənin çəkisi 1,5 *q*-a enmişdi (А.Раджабли, 1997).

Şirvanşahlar XIII əsrin son qərinəsi və XIV əsrdə öz adlarından gümüş sikkə zərb etdirmir, Hülakuların, Cucilərin, Cəlairilərin və Teymurilərin zərb etdirdikləri sikkələri işlədirdilər. Əmir Teymurun vəfatından sonra Şirvanşahların sikkə zərbi üçün şərait yaranmışdı. Bir qədər sonra Şirvanın Şamaxı, Bakı, Dərbənd kimi zərbxanalarında hökmdarın adı və zərb tarixi göstərilmədən Şirvanşahların gümüş sikkələrinin buraxılışına başlanılmışdır. Bunlar əsasən gümüş təngələr idi. Onların üzərində zərb ilinin göstərilməsinə Şirvanşah I Xəlilullahın hakimiyyəti dövründə başlanılmışdır. Şirvanşah Fərrux Yasar isə sikkənin üzərində öz adını göstərməyə başladı. Lakin onun hakimiyyətinin sonunda təngənin çəkisi azalaraq 2,12 *q*-a enir. Şirvanşahların gümüş təngələri əsasən Şamaxı şəhərində zərb olunurdu. Mis sikkələr isə anonim olmaqla Şamaxı, Dərbənd, Bakı, Şabran və Mahmudabadda zərb olunmuşdur.

Hicri 907-ci il ramazan ayının 2-də (1501-ci il martın 12-də) taxta çıxan Şah I İsmayıl Təbriz şəhərində çəkisi 9,3 *q* ram olan iri gümüş sikkə zərb etdirdi. "Şahı" adlanan gümüş pulun çəkisi bir misqala (4,68 *q*-a) bərabər idi. Bir misqalı əsas götürməklə şahının hissələri, yarısı və ya dörddə biri və ya iki və dörd şahılar zərb olunurdu. Şah İsmayılın zərb etdirdikləri sikkələr arasında iki şahılar daha çoxdur. Məsələn, Çaykənd dəfinəsində 357 nüsxədən 264 nüsxəsi iki şahı olub hər biri 2 misqala bərabərdir. Astara dəfinəsində isə 68 sikkədən 51 nüsxə iki misqala, digərləri isə 4,1 misqala, yarım və dörddəbir misqala bərabər idi (А.Раджабли, 1997). Şah İsmayılın zərb etdirdiyi şahıların üzərində yazı əsasən "nəsx", az hallarda isə "kufi" xətti ilə həkk olunurdu. Şahının aversində şiə dini rəmzi və 12 imamın adı, reversində isə şahın adı, rütbələri, zərbxananın adı və zərb olunma tarixi göstərilmişdir. Səfəvilər dövlətində Şah İsmayılın hakimiyyəti dövründə 60-a yaxın zərbxana fəaliyyət göstərirdi. Onlardan Abərkuh, Abivərd, Əmul, Ərdəbil, Astrabad, Bidlis, Van, Gəncə, Herat, Damğan, Dərrud, Dəmavənd, Dizful, Zəncan, İrəvan, İsfahan,Yəzd, Qəzvin, Qəndəhar, Karçıyan, Kaşan, Kırman, Qum, Lahıcan, Mazandaran, Mərv, Məşhəd, Nani, Naxçıvan, Nimruz, Nisa, Nişapur, Ordu, Rəşt, Səbzəvar, Semnan, Sari, Sultaniyyə, Təbriz, Timacan, Tun, Turbət, Turşiz, Şamaxı, Şiraz, Şabran, Şirvan, Həmədan, Tonkəbon, Xobuşan, Rey, Amid məlumdur (Azərbaycan tarixi, 1999, səh. 236).

Səfəvilər şahıdan başqa "əşrəfi" adlanan qızıl sikkə zərb edirdilər. I Şah İsmayılın Təbrizdə zərb etdirdiyi "əşrəfi"nin çəkisi 3,5 *q*-a bərabər idi. Səfəvilərin bir misqala bərabər "əşrəfi" və onun hissələrinin - yarım əşrəfi və onun üçdə birini zərb etmələri də məlumdur.

XVI əsrin əvvəllərində Şirvanda "qazıbəyi" adlanan sikkələrdən də istifadə olunurdu. Həmin sikkələr Şirvanşah Fərrux Yasarın 1501-ci ildə Şirvan taxtında oturmuş oğlu Qazı bəyin adı ilə bağlı olmuşdur. Şirvan Səfəvilər dövlətinə birləşdikdən sonra Şirvanşahların sikkələri sıxışdırılıb aradan çıxarılmışdı.

Şah Təhmasib dövründə şahı ən geniş yayılmış pul vahidi idi. Daxili ticarətdə "bisti" adlandırılan, düzbucaqlı formaya malik, 0,936 *q* çəkisi olan xırda gümüş sikkə geniş tətbiq olunurdu. Tipoloji xüsusiyyətlərinə görə Şah Təhmasib dövründə zərb olunan sikkələr əvvəlki Səfəvi sikkələrinin əlamətlərini özündə davam etdirirdi. Lakin onun hakimiyyətinin sonuna doğru sikkələrin çəkisinin azalması, keyfiyyətinin aşağı düşməsi müşahidə olunurdu.

II Şah İsmayılın pul islahatı keçirmək cəhdi baş tutmur. Onun ənənəvi şiə rəmzlərindən imtina etməsi şiə ruhanilərinin inadlı müqavimətinə tuş gəlir. Şah Məhəmməd Xudabəndənin tədavülə buraxdığı yeni sikkə "məhəmmədi" adlanırdı.

Səfəvilər dövlətinin sikkə sistemində əsaslı dəyişikliklər I Şah Abbasın islahatı nəticəsində baş vermişdir. Bu zamandan etibarən sikkə sisteminin əsasında yeni sikkə tipi - "abbasi" dururdu.

Nəzəri baxımdan bir "abbasi"nin çəkisi 7,8 *q*-a bərabər olmalı idi. Faktiki materiallar isə onun 7,62 *q*-a bərabər olduğunu göstərir. İslahatdan sonra üç nominalda qızıl sikkələr zərb olunmuşdur. Qızıl "abbasi"nin çəkisi 7,7 *q*-a bərabər idi. "Abbasi"nin üçdə ikisi 5,1 *q*-a, dörddə birisi isə 1,94 *q*-a bərabər idi. Qızıl abbasilərin və onların hissələrinin çəkisi sonradan azalmışdı. Bu dövrdə çəkisi 3,5 *q* olan əşrəfilərin zərbi də davam etdirilirdi (А.Раджабли, 1997).

İslahatın başlıca vəzifəsi sikkə reqaliyasından mümkün qədər çox gəlir əldə etmək və bu məqsədlə yeni sikkələrin real deyil, məcburi kursunun müəyyənləşdirilməsi idi. I Şah Abbasın islahatı uğurlu oldu və "abbasi" Səfəvilər dövlətinin pul dövriyyəsində hakim mövqe tutdu. XVII əsrdə "abbasi" sikkələri ilə yanaşı, həm də "pəncşahı", "məhəmmədi", "şahı" adlı Səfəvi sikkələri işlədilirdi.

Arxeoloji qazıntılar zamanı daxili ticarətin tələbatını ödəmiş mis sikkələr kütləvi tapılan pullardır. Məsələn, Şabran şəhər xarabalıqlarında aparılmış arxeoloji qazıntılar zamanı dəfinə və tək-tək tapıntılar halında orta əsrlərin müxtəlif dövrlərinə aid 1800 ədəd mis sikkə tapılmışdır ki, onlardan 400 ədədi təyin olunmuşdur (Г.Пиргулиева, 2002; 2002a; 2007, стр. 40-72). Təyin olunmuş həmin sikkələrin əksəriyyəti elxanilərin zərb etdikləri pullardır. Onlardan 200 ədədi Əbu Səidin adından zərb edilmişdir. Sikkələrin zərb olunma xəritəsi geniş olub, Şabran, Dərbənd, Şamaxı, Bakı, İrəvan, Xoy və Yəzd şəhərlərini əhatə edirdi. Bu pullar əsasən dirhəm və felslərdən ibarətdir. Onlardan birinin aversində "sikkə" sözü

yazılmışdır. Onların çəkisi müxtəlifdir və 1-9 *q* arasında dəyişir. Sikkələrin ornamentləri zəngin olub, nəbati, həndəsi və zoomorf təsvirlidir. Təsvirlərdə quş, balıq, delfin, şir, keçi, dəniz tısbağası və s. rast gəlinir (Г.Пиргулиева, 2002, стр. 132).

Bakıda, İçərişəhərdə aparılmış arxeoloji qazıntılar nəticəsində son orta əsrlərə aid mədəni təbəqədən tapılmış numizmatik materiallar gümüş və mis sikkələrdən ibarətdir. Onların arasında elxanilərin zərb etdirdikləri sikkələrin çoxluğu diqqəti çəkir. Həmin sikkələr arasında Abaqa xanın, Qazan xanın, Ölcaytu Sultanın, Əbu Səidin gümüş sikkələri, Hülaku xanın, Əhməd xanın mis sikkələri vardır (М.А.Сейфеддини и др., 2000). 1948-ci ildə İçərişəhərdə tapılan dəfinədə isə 1800 sikkənin əsas hissəsini Şirvanşah Fərrux Yasarın, Məhəmməd Qazinin, Sultan Mahmudun, II İbrahimin Şamaxıda zərb etdirdikləri sikkələr təşkil edir (А.Б.Рагимов, 1953). İçərişəhərdən tapılmış digər dəfinə daha zəngin olub, XV-XVI əsrlərdə Şamaxıda, Ərdəbildə, Təbrizdə, Qəzvində, Erbildə, Kirmanda və Kaşanda zərb edilmiş 3271 gümüş sikkədən ibarət idi.

Arxeoloji tədqiqatlar nəticəsində Qırxçıraq şəhər yerindən toplanmış sikkə tapıntıları bu abidənin XIII-XVII əsrlərlə müəyyənləşdirilmiş xronoloji çərçivəsini təsdiqləməklə yanaşı, həm də onun Mahmudabad şəhərinin xarabalıqları olması ehtimalının həqiqətə yaxın olduğunu göstərmişdir. Belə ki, Qırxçıraq şəhər yerindən əldə edilmiş sikkə tapıntıları əsasən Şirvan şəhərlərində - Şamaxı, Bakı, Mahmudabad, Şabran, Dərbənd şəhərlərində zərb edilmiş mis sikkələrdən ibarətdir (Г.Пиргулиева, 2007, стр. 74-79). Numizmatik materiallar içərisində Mahmudabadda zərb edilmiş sikkələrin olması, eləcə də zərb üçün hazırlanmış yarımfabrikatların tapılması yerli zərbxananın fəaliyyətindən xəbər verir və abidənin Mahmudabad şəhərinin xarabalıqları olmasına dəlalət edir.

Qəbələ şəhər yerində arxeoloji qazıntılar zamanı Hülaku xanları Məhəmməd Ölcaytu və Əbu Səidin, Qızıl Orda xanı Toxtamışın, Cəlairi Sultan Əhmədin, Şirvanşahlardan Şeyx İbrahimin, Xəlilullahın, Şahruxun, Ağqoyunlu hökmdarı Rüstəmin, Sultan Bəyazidin və digər hökmdarların adından zərb olunmuş mis və gümüş sikkələr tapılmışdır.

Astabad şəhər yerində arxeoloji qazıntı nəticəsində tapılmış sikkələr Cəlairilər, Qaraqoyunlular, Ağqoyunlular, Şirvanşahlar, Səfəvilər tərəfindən zərb olunmuşdur. Qala divarları tədqiq edilən zaman divar uçqunları arasında bir ədəd II Sultan Məhəmməd tərəfindən zərb olunmuş gümüş sikkə də tapılmışdır (O.Həbibullayev, F.V.Qədirov, 1993).

Ümumiyyətlə, arxeoloji tədqiqatlar zamanı əldə olunan numizmatik materiallar Hülaku, Qızıl Orda xanlarının, Teymurilərin, Cəlairi, Qaraqoyunlu və Ağqoyunlu sultanlarının, Şirvanşahların, Səfəvilərin zərbxanalarında zərb olunan mis və gümüş sikkələrin son orta əsrlərdə Azərbaycanın pul dövriyyəsində başlıca rol oynadığını göstərir.

# VIII FƏSİL

## MƏDƏNİ-MƏİŞƏT ABİDƏLƏRİ

### Məişət avadanlığı və qurğuları

Təndir, ocaq, manqal və gil saclar ev məişətində geniş istifadə olunan qurğu və avadanlıqlardan idi. Təndir qalıqları arxeoloji qazıntılar aparılmış bütün orta əsr şəhər xarabalıqlarından və kənd tipli yaşayış yerlərindən aşkarlanmışdır. Etnoqrafik materiallardan bəlli olur ki, təndirlər polifunksional qurğu olmuş, onlardan çörək, bəzi xörəkləri bişirmək, meyvə qurutmaq, ev qızdırmaq və başqa işlərdə istifadə edilmişdir. Evlərin qızdırılması üçün istifadə edilən təndirlərin ölçüləri kiçik, meyvə-qurudulanlar isə böyük olurdu. Misal üçün, Xaraba-Gilanda üzə çıxarılan, meyvə qurudulmasında istifadə edilmiş təndirlərin diametri 1,6 *m*-dən artıq, divarlarının qalınlığı 5,5-6,5 *sm*-dir.

Arxeoloji qazıntılar zamanı təndirlərə qrup halında rast gəlinir. Bu da təsadüfi hesab olunmamalıdır. Təndir müqəddəs sayıldığından onu uçurmaq olmazdı və sıradan çıxan təndirin yaxınlığında yenisi qurulurdu. Təndirlərin "döymə", "badlı" və "kərpic" növləri məlumdur (V.Əhmədova, 2000, səh. 56).

Təndirlərin divarları bayır tərəfdən qalınlığı 20 *sm*-ə çatan, tərkibində bişmiş kərpic, saxsı qırıqları, kömür parçaları olan qat ilə əhatə olunaraq üzərinə palçıqla suvaq çəkilirdi. İçərişəhərdə tədqiq edilən təndirlərdən birində təndirin divarı ilə mühafizəedici qat arasında toz halına salınmış kömür qatının olması qeydə alınmışdır (О.Ш.Исмизаде, Ф.А.Ибрагимов, 1974, стр. 54). Bəzi təndirlərin divarına içəri tərəfdən cızma xətlərdən, nöqtə və ya batıqlar düzümündən ibarət bəzək salınmışdır. Belə təndirlər İçərişəhərdən, Salmanbulağı yaşayış yerindən məlumdur (О.Ш.Исмизаде, Ф.А.Ибрагимов, 1974, стр. 54; T.M.Dostiyev, 1995, səh. 15).

Ocaqlar gildən, daşdan və ya bişmiş kərpicdən qurulurdu. Gil ocaqların əksəriyyəti planda qövsvari formada olub, divarının qalınlığı 8-9 *sm,* hündürlüyü 18-20 *sm* idi. Buxarı tipli ocaq qalıqları Şabran və Xaraba-Gilan şəhər yerlərində aparılan qazıntılardan məlumdur. Bişmiş kərpiclərden dördbucaqlı və altıbucaqlı biçimdə qurulmuş ocaqlara da tez-tez rast gəlinir.

Gil saclar disk şəklində olub, alt tərəfi ocaq üstündə uzun müddət qaldığından hislə örtülürdü. Şabran şəhər yerində aparılan qazıntılar zamanı belə sacların üzəri nəbati və ya həndəsi naxışlarla bəzədilmiş nümunələri tapılmışdır (tablo 144, şək. 7).

Son orta əsrlərdə də məişət avadanlığının hazırlanmasında başlıca xammal metal, gil, şüşə, ağac və daş idi. Şüşə məmulatdan istifadənin əvvəlki dövrə nisbətən xeyli məhdudlaşdığı müşahidə olunur. Metal məmulat yenə də məişətin müxtəlif sahələrində geniş tətbiq edilirdi. Ev məişətində müxtəlif məqsədlərlə işlədilən iynə

və bizlərə, oymaqlara, zəncirlərə, çənbərlərə, qapı cəftələrinə, qıfıllara, halqalara, bıçaq tiyələrinə, ərsinlərə, təndir şişlərinə, qarmaqlara rast gəlinir (tablo 133, 134).

Çənbərlərin uzunluğu 12-15 *sm* arasında dəyişir. Onların orta hissəsi yoğun olub, uclara doğru nazikləşir. Bakıda, İçərişəhərdə aparılan qazıntılarda "T" hərfi formasında olan çənbərlərə də təsadüf edilmişdir (F.Ə.İbrahimov, 1995, səh. 42). Qapı, pəncərə, sandıq və mücrülərin qıfıllanması üçün işlədilən cəftə gözləri forma etibarilə iki qrupa ayrılır: dəmir çubuğun qatlanaraq işlək tərəfinin halqa yaratdığı, bərkidilən ucların isə sivriləşdirildiyi cəftə gözləri və bir ucu sivri, digər tərəfi halqa formasında olan cəftə gözləri.

Qapı siyirtməsi İçərişəhərdən məlumdur. Uzunluğu 80 *sm,* eni 10 *sm,* qalınlığı 7 *sm* olan bu tapıntının Bakının qala darvazasını arxadan bağlamaq üçün istifadə olunduğu ehtimal edilir (F.Ə.İbrahimov, 1995, səh. 44).

Qıfil və açar nümunələri Şamaxı, Qırxçıraq və Şabran şəhər yerlərinin arxeoloji tədqiqindən məlumdur. Qırxçıraq və Şabrandan tapılmış qıfıllar at fiquru formasında hazırlanmışdır (tablo 138, şək. 10-11).

Maraqlı qıfıl və açar nüsxəsi Şamaxı şəhərinin arxeoloji qazıntılarından əldə edilmişdir (Г.А.Джидди, 1981, стр. 87). Onun yuxarı tərəfi oval, aşağısı isə düzbucaqlı formadadır. Açar yeri və qıfılın daxili pas atmışdı. Açar isə dili olan dəmir çubuq kimidir (tablo 133, şək. 16).

Məişətdə işlədilən başlıca kəsici alət bıçaqlara arxeoloji qazıntılar aparılan bütün abidələrdə rast gəlinir. Tiyəsinin formasına və ölçülərinə görə onlar fərqlidir (tablo 129, şək. 7-14). Məişətdə geniş yayılan digər alət - ərsinlərdən xəmiri kəsmək və çörəyi təndirdən çıxarmaq üçün istifadə edirdilər (tablo 133, şək. 4-6). Diametri 1-1,5 *sm* dəmir çubuqdan qarmaqvari şəkildə düzəldilmiş şişlər əsasən Naxçıvan abidələrindən məlumdur və çörəyin təndirdən çıxarılmasında işlədilirdi (tablo 133, şək. 14-15).

İnşaatda, məişətdə işlənən dəmir mıxlara arxeoloji qazıntılar zamanı daha çox rast gəlinir. Onların başlığı dairəvi, oval, ellipsvari formada olub, bir tərəfə və hər iki tərəfə çıxıntılıdır. Ölçüləri müxtəlif, en kəsikləri dairəvi və ya dördtillidir (tablo 134, şək. 14-17).

Arxeoloji qazıntılar zamanı kütləvi tapıntılar arasında nalları da göstərmək olar. Onların müxtəlif forma və ölçüdə hazırlanması (tablo 134, şək. 4-9) müvafiq olaraq fərqli təyinata malik olmalarından xəbər verir. Əvvəllərdə olduğu kimi, son orta əsrlərdə də təkcə atlar deyil, digər qoşqu heyvanları - öküz və kəllər də nallanırdı. Nalların bəziləri ayaqqabı üçündür (tablo 134, şək. 7-8).

Misdən hazırlanmış tərəzi gözləri Şamaxı qazıntılarından məlumdur. Yarımkürəvi formaya malik tərəzi gözlərinin ağzının kənarında dörd yerdə ip keçirmək üçün deşik açılmışdır. Dəmir və tuncdan hazırlanmış kub və kvadrat formalı çəki daşlarına tək-tək rast gəlinir. Bu dövrdə çəki vasitəsi kimi müxtəlif cinsli daşlardan da geniş istifadə olunmuşdur. Onlar kürəvi və ellipsvari formaya

malikdir. Təsərrüfat və məişətdə kəsici alətləri itiləmək üçün işlədilən bülöv daşları da arxeoloji qazıntılar zamanı adi tapıntılardandır. Onların bəzilərinin bir ucunda kəmərdən asmaq üçün deşik açılmışdır.

Məişətdə mis və tunc qab-qacaq mühüm yer tuturdu. Metal qab-qacaq sıravi şəhər sakinlərindən tutmuş saray əshabələrinədək bütün sosial təbəqələrin məişətində işlədilirdi. XV əsrdə Ağqoyunlu sarayında gündəlik məişətdə metal qablardan geniş istifadə olunduğunu Kontarini xüsusi qeyd edirdi. O bildirirdi ki, 400-ə yaxın saray adamına yemək mis qablarda verilirdi (Путешественники, 1961, стр. 92).

Mətbəx avadanlığından daha çox qazan nümunələrinə rast gəlinir. Salamat qalmış nüsxə Quba rayonundan məlumdur (tablo 135, şək. 2).

Naxçıvan, Şamaxı və Bakıdan tapılmış qazan nümunələri isə əsasən fraqmentlər şəklindədir. Naxçıvandan tapılmış, XV əsrə aid, nisbətən yaxşı salamat qalmış nüsxə yarımdairəvi formada olub, ağzının kənarı yana qatlanmışdır. Gövdəsi bayır tərəfdən döymə və cızma üsulu ilə zəngin naxışlanmışdır (Ə.İ.Novruzlu, 1997, səh. 129).

Sərpuşlar konusvari formaya malik olub, əvvəlki dövrdən məlum olsa da, mükəmməl forma almaları son orta əsrlərə təsadüf edir. Onlar əsasən misdən hazırlanır və üzəri zərb üsulu ilə zəngin bəzədilirdi. Bakıdan tapılmış sərpuşun üzərində buta və günəş rəsmləri zərb edilmişdir (F.Ə.İbrahimov, 1995, səh. 35).

Bakı və Şamaxıdan tapılmış dolça tipli metal qablar (tablo 136, şək. 2) şəhər əhalisinin məişətində bu tip zəngin naxışlı qabların özünəməxsus yer tutduğuna dəlalət edir.

Süfrə qablarından metal camlar məişətdə daha geniş yayılmışdı. Məişətdə metal çıraq və şamdanlardan da istifadə davam etməkdə idi.

Tapıntılar aftafa və ləyən kimi gigiyena ilə bağlı metal qabların da məişətdə özünəməxsus yer tutduğunu göstərir.

Mıs və tuncdan hazırlanmış zəng və zınqırovlar arxeoloji qazıntılar zamanı tez-tez tapılan məişət əşyalarındandır. Onlar ənənəvi formalarını saxlamışdılar.

Son orta əsrlərdə məişətdə müxtəlif çeşiddə saxsı məmulat geniş işlədilirdi. Ənənəvi olaraq ərzaq ehtiyatı üçün küplərdən, su daşınmasında və saxlanılmasında əhəng, bardaq, matradan, süd məhsulları emalında nehrə, sərnic, küpədən, mətbəxdə güvəc, tava, təknə, tabaq, süzgəc, qapaqlardan, süfrə qablarından dolça, dopu, xeyrə, kasa və piyalələrdən, gigiyena məqsədilə aftafa, lüləyən, ləyən, silbicdən, işıqlandırma vasitəsi olaraq çıraq, piydan və şamdandan, isitmə vasitəsi kimi manqal və kürədən istifadə edilirdi. Çoxsaylı faktik materiallar ərzaq ehtiyatının - taxıl məhsulları, su və süd məhsulları, qoz, fındıq və s. məhsulların saxlanılmasında təsərrüfat küplərindən geniş istifadə olunduğunu təsdiqləyir. Misal üçün, Bakıda, İçərişəhərdə 1982-cı ildə son orta əsrlərə aid mədəni təbəqənin qazıntılarından 120 ədəd küp fraqmenti tapılmışdır. Yaxud 1981-ci ildə arxeoloji qazıntı zamanı

Qəbələdə IX qazıntı sahəsində 94 saylı quyudan 15 ədəddən çox iritutumlu küp oturacaqları aşkarlanmışdır (Q.C.Cəbiyev, 2003, səh. 51). Oxşar müşahidələr səhənglərin istifadəsinə dair də aparılmışdır. Məsələn, 1981-ci il qazıntılarının nəticəsində Qəbələnin son orta əsr təbəqəsində 60 *kv.m* sahədə 70-ə yaxın səhəng qulpu, 50-dən çox boğazı tapılmışdır (Q.C.Cəbiyev, 2003, səh. 64). Arxeoloji qazıntılar zamanı səhəngin çiynində deşik açaraq nehrə kimi istifadə olunması faktı da qeydə alınmışdır (O.H.Həbibullayev, F.V.Qədirov, 1993, səh. 111). Bu dövrdə məişətə yeni daxil olan saxsı məmulat arasında qəlyan başlıqlarını (tablo 146, şək. 1-4) qeyd etmək olar. Arxeoloji qazıntılar zamanı şəhər xarabalıqlarında daha çox çubuq qəlyanlara rast gəlinir. Bir qayda olaraq çubuq qəlyanlar iki hissədən ibarət olurdu. Muştuq taxılmaq üçün borucuq, tütün və ya tənbəki doldurmaq üçün kasacıq. Sulu qəlyanın gildən hazırlanan hissəsi Bakıda İçərişəhərdə aparılan qazıntı zamanı aşkarlanmışdır (tablo 146, şək. 6). Darboğaz bardağı xatırladan həmin qabın hündürlüyü 30 *sm*-ə çatır və forma etibarilə müasir sulu qəlyanlardan fərqlənmir.

Son orta əsrlərdə məişətdə istifadə olunan şirsiz saxsı məmulatı arasında, az da olsa, daxıllara da rast gəlinir (tablo 146, şək. 7). Onların diskşəkilli hündür dabanı, şarşəkilli gövdəsi vardır. Üst tərəfindəki dar, uzunsov kəsik sikkənin daxılın içərisinə atılmasını təmin edirdi (T.M.Dostiyev, 2001, səh. 157).

Məişətdə işlədilən süfrə qabları arasında yenə də şirli qablar, xüsusilə də kasa tipli qablar üstünlük təşkil edirdi. Dövrün fərqləndirici xüsusiyyəti dairə, yaxud bulud adlandırılan, divarları yanlara geniş açılan, diametri 50 *sm*-ə çatan qabların (tablo 150, şək. 1-4) məişətə daxil olmasıdır.

XIV-XVII yüzilliklərdə məişətdə işlədilən qab-qacaq və bəzək əşyaları içərisində şüşə məmulatı müəyyən yer tuturdu. Arxeoloji qazıntılar şüşə süfrə qablarından istifadənin xeyli məhdudlaşdığını söyləməyə əsas verir. Mədəni təbəqədə onların sayı və əvvəlki dövrə nisbətən çeşidi azalır. Bəzək əşyaları, xüsusilə də bilərziklərdən XIII-XIV əsrlərdə kütləvi istifadə davam etməkdə idi. XIV əsrdən sonra şüşə bilərziklərin istehsalı dayandırılır. Arxeoloji qazıntılar zamanı bu dövrün mədəni təbəqəsində süfrə qablarından qrafin, dolça, piyalə tipli, butulka tipli qablara rast gəlinir. Ətir və dərman qabları əsasən kiçik ölçülü olub, silindrik, armudvari və uzunsov gövdəli, alçaq, dar boğazlıdırlar (tablo 154, şək. 7, 11-12). Şüşə mürəkkəbqabı fraqmenti isə Naxçıvandakı Xaraba şəhərdə aparılan arxeoloji qazıntılar zamanı rast gəlinmişdir (Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002, səh. 52).

Məişətdə, az da olsa, daş məmulatından istifadə olunurdu. İstər şəhər, istərsə də kənd əhalisinin məişətində əl dəyirmanları geniş işlədilirdi (tablo 155, şək. 3) və buğda, arpa, yarmanın üyüdülməsində, un alınmasında başlıca vasitə idi. Bakıda, İçərişəhərdə üst mədəni təbəqədən su dəyirman daşı (tablo 112, şək. 2) aşkarlanmışdır. Yastı dam örtüyünə malik evlərin üstünü bərkitmək üçün istifadə olunan diyircək nümunəsi Şabran şəhər yerindən tapılmışdır. Silindrik formalı bu

diyircəyin diametri 28 *sm,* hündürlüyü 60 *sm*-dir (Р.Б.Геюшев, В.А.Мамедов, 1986, стр. 49). Qazıntılar zamanı tək-tək daş qablara da təsadüf olunur. Şabran şəhər yerindən tapılmış həvəngin aşağıya doğru daralan konusvari formalı gövdəsi vardır. Daş məmulatı arasında dibək daşına da rast gəlinir. Yüngül və məsaməli tufdan düzəldilmiş, hamamda istifadə olunan dabandaşıları Gəncə qazıntılarından məlumdur.

Sümük məişət əşyalarından toxuculuqda istifadə olunan kirkitləri, tütək qırığını, monolit dəstəkləri, yığılma dəstəklərin hissələrini, iynə, asma və düymələri (tablo 156) qeyd etmək olar. Sümük düymələr əsasən konusvari, bəzən də yastı, dəyirmi olub ortası deşiklidir.



**Xalat (Mingəveçir).**

Şamaxının XIV-XV əsrlər təbəqəsindən aşkarlanmış tapıntılar arasında saxsı ayaqqabı modeli (tablo 146, şək. 5) o dövrün ayaq geyimi haqqında təsəvvür yaradır. O daralaraq ucu dəyirmiləşən çəkməni əks etdirir. Modeldə nöqtə batıqları ilə tikiş yerləri bildirilmiş, ip keçirmək üçün beş sıra açırım qoyulmuşdur (Г.А.ДЖИДДИ, 1981, стр. 96-97).

Arxeoloji qazıntılar zamanı, az da olsa, parça və geyim qalıqları tapılmışdır. Şirvanşahlar saray kompleksində Şirvanşahların ailə sərdabəsində aparılan arxeoloji qazıntılar zamanı yun və zərif ipək parçadan geyim qalıqlarına rast gəlinmişdir (Н.В.Минкевич-Мустафаева, 1947). Məlum olduğu kimi, parçalar üzərində əvvəllər dini məzmunlu yazılar olduğu halda, XV əsrdən etibarən daha çox üzərində şeirlər yazılmış parçaların istehsalı geniş yayılır (R.Əfəndi, 1976, səh. 57). Bu tip parça qalığı da Şirvanşahlar saray kompleksindəki sərdabənin arxeoloji qazıntılarından məlumdur. 6-7 yaşlı uşağın dəfn edildiyi 1 saylı qəbirdən üzəri həndəsi ornamentlər və yazı ilə bəzədilmiş ağır parça qalığı tapılmışdır (Н.В.Минкевич-Мустафаева, 1947, стр. 42). Həmin parçanın üzərindəki yazını tədqiq edən Ə.Ələsgərzadə onun fars dilində şeir olduğunu bildirmişdir. 4 saylı məzarda isə skeletin altına uzunqollu, zolaqlı ipək parçadan kişi köynəyi salınmışdı. Həmin geyimin altında yun parçanın qalıqları vardı. Yüksək texniki üsulla toxunmuş çoxrəngli zərif ipək parça nümunələri Xaraba-Gilan türbələrinin arxeoloji qazıntısından da məlumdur (B.İ.İbrahimli, 2008). Onlar həndəsi və nəbati naxışlar, kufi xətti ilə salınmış yazılarla, rombvari xonçalarla, bir nümunənin üzəri isə Azərbaycan xalçası üçün səciyyəvi olan "qoç buynuzu" naxışı ilə bəzədilmişdir (tablo 161). Nümunələrdən biri gümüş saplarla işlənmişdir. Buradan həm də güləbətin tipli parçanın qızıl telləri tapılmışdır (tablo 161, şək. 6). Parça qalıqları Salmanbulağı yaşayış yerinin arxeoloji qazıntılarından da məlumdur. Orada 5 saylı

quyu təmizlənərkən kiçikölçülü pambıq parça qalıqları da tapılmışdır (T.M.Dostiyev, 2001, səh. 195). Nisbətən yaxşı salamat qalmış üst geyimi Mingəçevir qazıntılarından məlumdur. O xalat tipli qollu, uzun ətəkli, yaxalı kişi geyimidir.

Dövrün geyim tipləri haqqında təsəvvür yaratmaqda Azərbaycan miniatürlərinin rolu əvəzsizdir (K.Kərimov, 1980). Miniatürlərdən aydın olur ki, bu dövrün geyimləri əsasən alt köynək, dizlik, şalvar, qaftan, çuxa və cübbədən ibarət idi (S.S.Dünyamalıyeva, 2002).

Məişətdə tunc güzgülərdən istifadə olunması Qırxçıraqdan tapılmış güzgü ilə təsdiqlənir (В.А.Квачидзе, 1980, стр. 38). Onun üz səthi hamar, arxa tərəfi bəzədilmişdir (tablo 138, şək. 12).

## İncəsənət

Salamat qalmış memarlıq abidələrinin, eləcə də arxeoloji tədqiqatlar zamanı üzə çıxarılmış tikili qalıqlarının nəzərdən keçirilməsi yerli inşaat materiallarının xarakterindən asılı olaraq binaların bədii tərtibatında memarlıq bəzəyinin bu və ya digər növünə üstünlük verildiyini göstərir. Bununla belə, son orta əsrlərdə şirli kərpic və kaşıların memarlıq bəzəyində daha fəal istifadəsi qeyd olunmalıdır. Orta əsr şəhərlərinin arxeoloji qazıntılarında bayır səthi mavi və ya firuzəyi şirlə şirlənmiş kiçik ölçülü kərpic nümunələrinə tez-tez rast gəlinir. Azərbaycanda hələ XII əsrin son qərinəsində tətbiq edilən şirli kərpiclər ənənəvi olaraq Naxçıvan-Marağa və Təbriz memarlıq məktəbi üçün daha çox səciyyəvi olmuşdur. Son orta əsrlərdə Bərdə, Qarabağlar, Şeyx Səfi türbələrində belə kərpiclərin uğurlu tətbiqi onların dekorativ imkanlarını əyani nümayiş etdirir. Bərdə türbəsində adi bişmiş kərpiclərlə firuzəyi şirli kərpiclərin kompozisiyasından 200 dəfə təkrarlanan "Allah" sözü həkk edilmişdir (tablo 173, şək. 2). Kərpiclər bir-birinə uyğun olaraq "şaquli" və "üfüqi" vəziyyətdə yerləşdirilmişdir. Eyni tipdə bəzəyi Qarabağlar və Şeyx Səfi türbələrində də müşahidə edirik (tablo 170, şək. 1).

Son orta əsrlərdə monumental binaların divar səthlərinin, günbəzlərin və daxili sahmanın bədii tərtibatında kaşı bəzəklərdən və mozaika dəstələrinden istifadə genişlənir. Arxeoloji qazıntılar zamanı son orta əsr mədəni təbəqəsində tez-tez kaşı nümunələrinə və mozaika dəsti fraqmentlərinə rast gəlinməsi təsadüfi olmayıb, kaşı istehsalının və tətbiqinin kütləvi xarakter daşıması ilə bağlıdır.

Firuzəyi şir almaq üçün kobalt yataqlarının varlığı, yüngül, məsaməli, silikatlı xüsusi saxsı növünün - kaşının istehsalı üçün kvarslı qum, keyfiyyətli gil və əhəngin bolluğu yeni üzlük materialının kütləvi istehsalını təmin edirdi. Asan emal olunan və rəng parlaqlığına malik, atmosfer təsirinə dözümlü olan bu material memarlıq bəzəyinə yeni estetik keyfiyyət gətirirdi. Bəhs olunan dövrün kaşılarını formalarına, bədii xüsusiyyətlərinə görə iki tipə bölmək olar:

I tip kvadrat, düzbucaq, romb, üçbucaq və çoxbucaq formada böyük ölçülü kaşılarla təmsil olunmuşdur. Bu tip birrəngli, saya və çoxrəngli, naxışlı olmaqla iki varianta bölünür. Birinci varianta birrəngli kaşılar daxildir. Onların üzəri ağ süd rəngli, abı, mavi, firuzəyi, tünd-göy, yaşıl, qızılı rəngdə şirlə örtülmüşdür. İkinci variant kaşılar forma etibarilə əvvəlki variantla eyniyyət təşkil edir, lakin şir altından polixrom rənglə həndəsi, nəbati və epiqrafik naxışlarla bəzədilmişdir (tablo 162, 2). Təxti-Süleyman qazıntılarından aşkarlanan kaşı nümunələrində təsvir motivlərindən də geniş istifadə olunmuşdur (tablo 163).

II tip kaşılar kiçik və orta ölçülü olub vergül, xaçvari, trapes, yarımdairə, qövs, buta və s. formalardadır. Onlar südrəngli, mavi, firuzəyi, tünd-göy, yaşıl, qırmızı şirlə şirlənmişdir (tablo 163, şək. 12).

Azerbaycan memarlığında XIV-XVI əsrlərdə xüsusilə geniş tətbiq olunan mozaika dəsti II tip kaşılardan tərtib edilərək yüksək bədii təsirə malik idi. Kaşı ustaları mozaika dəsti üçün kaşı lövhələri hazırlayır, sonra isə naxış elementlərinə uyğun, müxtəlif formalar - ulduz, buta, badam, xaç, romb və s. fiqurlar mişarlanırdı. Fiqurların məhlulda yaxşı birləşməsini təmin etmək üçün onları bucaq altında mişarlayırdılar, arxaya doğru hissəcik nazikləşirdi. Kaşının belə mişarlanması nəticəsində mozaika dəstində məhlul görünmür, fiqurlar kip yerləşməklə parlaq, xalça naxışlarını xatırladan yüksək bədiiliyə nail olunurdu. Naxış elementləri üzrə yığılaraq gəc məhlulu ilə bərkidilən mozaika dəsti monolit blok halında binanın əvvəlcədən nəzərdə tutulan hissəsində - baştağ, stalaktit karnizlər və s. yerləşdirilirdi (Л.С.Бретаницкий, 1966, стр. 325-326).

XIII-XV yüzilliklərdə kaşı dekorunun ən parlaq nümunələri Şirvanda Pirsaatçay üzərindəki Pir Hüseyn xanəgahı, Cənubi Azərbaycanda isə Təxti-Süleyman, Göy məscid və Şeyx Səfi kompleksində qeydə alınmışdır (tablo 162-163).

Pir Hüseyn xanəgahının kaşı nümunələri Sankt-Peterburqda Dövlət Ermitajında, Gürcüstanda İncəsənət Muzeyində, Bakıda Nizami adına Ədəbiyyat Muzeyində nümayiş etdirilir. Vaxtilə kaşı bəzəyi xanəgahın daxili sahmanına xüsusi təmtəraq verirdi. Xanəgahın kaşı bəzəklərinin ən gözəl hissəsini panelin yuxarısını 11 *m* uzunluqda haşiyələyən 30 dördbucaqlı kaşı hissələri təşkil edir. Mavi və firuzəyi şirli nəbati naxışlı bu kaşılar üzərində dini məzmunlu yazılar və şeir parçaları vardır. Frizdən aşağı hissəni 600 ədəd səkkizbucaqlı ulduz və xaçvari kaşılar bəzəyir. Burada xaçvari kaşılar saya olub fon kimi verilmiş, səkkizbucaqlı kaşılar isə rəsm və nəbati naxışlarla bəzədilmişdir. Kaşıtəraş bədii ifadə vasitələrindən - kompozisiya, boyaların bir-birinə nisbəti və ahəngdarlığından məharətlə istifadə edərək əsil sənət əsəri yaratmışdır (В.А.Крачковская, 1946; R.Əfəndi, 1976, səh. 22).

Təxti-Süleymanda aparılan arxeoloji qazıntılar hülakuların yay iqamətgahının saray kompleksinin bədii tərtibatında zərnaxışlı kaşılardan geniş istifadə edildiyini

təsdiqləyir (Naumann, 1976, səh. 43-53). Onlar altıkünclü, səkkizguşəli ulduz, düzbucaq və s. formalardadırlar (tablo 163). Kaşıların əksəriyyəti həndəsi və nəbati naxışlar, təsvirlər, yazı toxumaları ilə bəzədilmişdir. Səkkizguşəli ulduz formasında kaşının üzərində naxışlı fonda qadın və kişi təsviri çəkilmiş, kaşının kənarlarındakı haşiyədə isə yazı verilmişdir (tablo 163, şək. 4). Nəbati fonda verilmiş heyvan təsvirləri xüsusilə

**Kaşı nümunələri (Rəbi Rəşidi).**



çoxluq təşkil edir. Süjetli səhnələrə də rast gəlinir.

Rəbi Rəşididə aparılan arxeoloji qazıntılar zamanı külli miqdarda kaşı nümunələrinin tapılması vaxtilə buradakı binaların bədii tərtibatında həmin inşaat materiallarından geniş istifadəni təsdiqləyir.

Qaraqoyunlu hökmdarı Cahanşahın tikdirdiyi, "İslamın firuzəsi" adlandırılmış Göy məscidin kaşı bəzəkləri ümumi koloritdə göy rənglər vəhdətini əks etdirir. Bununla belə abidədə göy rəng yeknəsəq olmayıb müxtəlif çalarlarda - açıq-firuzəyidən bənövşəyə qədər dəyişir. Burada həmçinin yaşıl, sarı, hətta qara rəngdə kaşılara da təsadüf olunur.

Göy məscidin kaşı bəzəklərində cızma üsulu ilə salınmış naxış və bədii yazılardan da istifadə edilmişdir. Dini məzmunlu bu yazılar haşiyədə, bəzən isə medalyonların içərisində verilmişdir (Л.С.Бретаницкий, 1966, стр. 328-337).

Kaşı bəzəklər hətta ənənəvi olaraq daş memarlığının mövcud olduğu Bakı şəhərinin monumental tikililərində də tətbiq edilirdi. Şirvanşahlar saray kompleksində, İçərişəhərdə arxeoloji qazıntılardan tapılmış kaşılar son orta əsrlərdə monumental tikililərin bədii tərtibatında kaşı bəzəyinə böyük əhəmiyyət verildiyini sübuta yetirən faktik materiallardır (В.Н.Левиатов, 1944, стр. 29; K.İbrahimov, 2001, səh. 89-90). Bədr Şirvaninin "Divan"ından bəlli olur ki, Şirvanşahlar sarayının günbəzlərində səhər şəfəqinin rəngləri varmış, onlar göy kimi mavi, günəş kimi qızılı idi (Bədr Şirvani, 1985). Sarayın günbəz və qüllələrinin firuzəyi kaşı bəzəkləri XVIII əsrin sonunadək qalmaqda idi (И.Лерх, 1790, стр. 31-32).

Son orta əsrlərdə memarlıq bəzəyində gəcdən istifadə davam etdirilməkdə idi. Gəcdən həm mozaika dəstlərində yapışdırıcı material kimi, həm də müxtəlif memarlıq hissələrində oyma naxışlar salınmasında üzlük material kimi istifadə olunurdu. Monqol ağalığı dövrünün gəc bəzəkləri arasında Pirsaat xanəgahı, Urmiya Came məscidi, Mərənd Came məscidi, Naxçıvandakı Şeyx Xorasan xanəgahı mehrablarının oymaları məşhurdur. Gəctəraşlar səlcuq dövrünün ənənələrini davam etdirirdilər. Kompozisiya quruluşundakı ümumilik ilk növbədə diqqəti çəkir. Lakin bu dövrün oymaları daha incə və sıxdır. Gəc oymaların salınması iki mərhələdə aparılırdı. Əvvəlcə gəc yumşaq ikən onun üzərində gəctəraş iti alətlə nəzərdə tutulduğu bəzəyi oyurdu. Gəc quruduqdan sonra hazır dekorun xırdalıqlarını



**Mərmər sütun başlıqları (Təxti-Süleyman).**

işləyərək dəqiqləşdirir, zəruri əlavələr edirdi. Bu əməliyyat öz zərifliyi ilə zərgərlikdə tətbiq olunan döymə və şəbəkə işlərini xatırladırdı (R.Əfəndi, 1976, səh. 25).

Azərbaycanın cənubunda memarlıq bəzəyində kərpic, kaşı, gəc bəzəklər fəal rol oynadığı halda, şimalda daş üzrə oyma geniş yayılmışdı. Hərçənd Təxti-Süleyman qazıntılarından aşkar edilmiş mərmər sütun başlıqları yüksək daşyonma sənətindən xəbər verir. Bəhs olunan dövrdə Şirvan-Abşeron məktəbinin sənət əsərlərində daş üzrə oyma sənəti əvvəlki dövrün ənənələrini davam etdirir, nəbati ornamentlərdən daha fəal istifadə nəzərə çarpırdı. Təsviri qabartmalar da mövcud idi. XIV əsr şairi Arif Ərdəbili "Fərhadnamə" poemasında Şirvanın memarlıq abidələrindən bəhs edərkən Gülüstan qala divarında insan təsvirindən ibarət qabartmaların yüksək peşəkarlıqla yerinə yetirildiyini bildirir (Г.А.Джидди, 1981, стр. 95-96). Şirvanda daş üzrə oyma sənətinin başlıca xüsusiyyətlərini səciyyələndirmək nöqteyi-nəzərindən Şirvanşahlar saray kompleksinin divanxana və Şirvanşahlar türbəsi xüsusi maraq doğurur. Bu abidələr üzərində salınmış yarpaq və müxtəlif çiçəklərin mürəkkəb toxunmasından ibarət oyma bəzəklər yüksək bədiiliyi və zərifliyi ilə seçilir. Divanxananın baştağı üzərindəki naxışlar həm kompozisiya bitkinliyi, həm də naxışın yüksək peşəkarlıqla salınması ilə diqqəti çəkir. Qabarıq

naxışlar ətrafında oyulmuş çuxurlar dərin kölgə salaraq bəzəyin estetik təsir gücünü daha da artırır. Sənətkar bəzəyi salarkən üç başlıca əməliyyatı ardıcıl icra etmişdir. Əvvəlcə nəzərdə tutduğu naxışın yerliyini oymuş, naxış işləmələrini qabartmış və nəhayət, xırdalıqları tam işləmişdir.

Son orta əsrlərin daş üzrə oyma sənətinin çoxsaylı nümunələrinə məzarüstü xatirə abidələrində - başdaşılarında, sənduqələrdə rast gəlinir. Onların bədii tərtibatında həndəsi naxışlardan daha çox "səlcuq zənciri", astral elementlər, xətli ornamentlər, nəbati naxışlardan qıvrılan, açılan budaqlar, onların üzərində yerləşən yarpaq, qönçə və çiçəklər başlıca rol oynayır.

Şirvan-Abşeron bədii daşişləmə məktəbinin gözəl sənət əsərlərindən biri orta əsr Qəbələ şəhərinin qəbiristanlığından tapılmış, XV-XVI əsrlərə aid sənduqənin fraqmentidir. Sənduqənin üzəri qabarıq xətlərlə bir neçə qurşağa ayrılmışdır: Üst qurşaqda nəsx xətti ilə kitabə həkk olunmuşdur. İkinci qurşaqda təsviri motiv xüsusilə zəngindir. Burada dörd tağvari bölümdə müxtəlif təsvirlər işlənmişdir. Digər qurşaqlar incə həndəsi ve nəbati naxışlarla bəzədilmişdir (С.Н.Аллахвердиев, 1978, стр. 494-495). Bu tip abidələr üzərində bəzən süjet xarakteri daşıyan kompozisiyalara rast gəlinir. Diqqətçəkən məzar daşları üzərində oyma bəzəklərin arasında nəbati naxışların üstünlüyü, XVI-XVII əsrlərdə xüsusilə onların geniş yayılmasıdır. Azərbaycan naqqaşları nəbati naxışlar salarkən ölkə florası üçün səciyyəvi olan bitkilərin elementlərindən yararlanırdılar.

Diqqətəlayiq haldır ki, məzar daşlarının bədii tərtibatında dəfn olunan şəxsin cəmiyyətdə tutduğu mövqe, onun həyat fəaliyyəti bu və ya digər dərəcədə öz əksini tapırdı. Məzar daşları üzərindəki epitafiyalar təkcə məzmunu ilə deyil, həm də əksər hallarda yüksək bədiiliyi ilə göz oxşayırdı.

Ölkənin alban xristian əhalisinin yaşadığı ərazilərdə bəhs olunan dövrə aid xaçdaşları zəngin bədii işlənməsi ilə fərqlənir. Misal olaraq, 1633-cü ilə aid edilən xaçdaşa diqqət yetirək. Xaç biçimdə yonulmuş bu sənət əsərinin əsas bədii və simvolik dominantını xaçın ortasındakı üç dairədən ibarət böyük xonça təşkil edir. Orta dairə səkkiz bərabər hissəyə bölünmüş həndəsi hörmə şəklində həll olunmuşdur. Xonçanın mərkəzində xaç təsviri, xaçın kəsişmə nöqtəsində kiçik dairəvi xonça salınmışdır. Bütün kompozisiya xaçdaşın sintezləşdirilmiş obrazında birləşən günəş, işıq və məhsuldarlıq rəmzi kimi həll olunmuşdur (D.A.Axundov, M.D.Axundov, 1984, səh. 84).

Daşın bədii işlənməsindən bəhs edərkən Gəncə-Qazax, Qarabağ, Naxçıvan-Zəngəzur, Lerik-Yardımlı bölgələrində, Cənubi Azərbaycanda və Borçalı elində aşkarlanmış daşdan yonulmuş qoç və at heykəllərinə də diqqət yetirmək lazımdır (tablo 177, şək. 1-9; tablo 178). Bu abidələr son orta əsrlərin plastik sənəti haqqında təsəvvür yaratmaqla yanaşı, həm də hər bir heykəltəraşın fərdi yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir. Naxçıvan-Zəngəzur bölgəsinin daşdan yonulmuş qoç heykəlləri real təsviri, zəngin bədii tərtibatı ilə daha çox

fərqlənir. Onların üzərində silahlara - qılınc, ox, kaman, eləcə də astral təsvirlərə, bəzi hallarda isə süjetli səhnələrə rast gəlinir. Diqqətəlayiq haldır ki, daşdan yonulmuş heykəllər üzərində at əsləhələri naxışlanmış şəkildə real təsvir edilmişdir. Onların üzərindəki qabarıq səpkidə canlandırılmış paxlava, üçkünc və dördkünc həndəsi naxışlar at qoşumlarındakı qayışa taxılan tunc, mis və gümüş pilləkləri xatırladır.

Daşoyma sənətinin bir növü də "şəbəkə" adlanan daş pəncərələrin yonulub hazırlanması idi. "Şəbəkə" pəncərələrinin incə nümunələri saray komplekslərində xüsusilə geniş yayılmışdı. Sonradan şəbəkəçilik bədii ağacişləmədə böyük uğur qazanmışdı. XVI-XVII əsrlərin şəbəkəçilik sənətinin nəfis nümunələri Şeyx Cüneyd türbəsindən və Gəncə Came məscidindən məlumdur. Şeyx Cüneydin qəbrinin üzərinə qoyulmuş sənduqənin əsas bəzəyini böyük çərçivələrdə ardıcıl olaraq taxılmış 52 ədəd kiçik dördkünc şəbəkə kompozisiyaları təşkil edir. Şəbəkələrin ornament motivləri dördbucaqlı ulduz və çoxbucaqlı həndəsi xonçalardan ibarətdir. Sənduqənin şəbəkə bəzəkləri birüzlüdür (R.Əfəndi, 1976, şək. 94).


**Şamaxı. Antropomorf saxsı qab.**

Şeyx Cüneyd sənduqəsinin şəbəkə bəzəyindən fərqli olaraq Gəncə Cümə məscidinin minbərinin şəbəkələri ikiüzlüdür.

Son orta əsrlərin dekorativ-tətbiqi sənətləri arasında bədii keramika xüsusi yer tutur. Əhalinin müxtəlif təbəqələrinin məişətində geniş istifadə olunan bədii saxsı məmulatı praktiki təyinatından başqa, həm də ideya-bədii yük daşıyaraq cəmiyyətin estetik ideallarını və ideologiyasını qabarıq əks etdirirdi. Arxeoloji qazıntılar zamanı tapılmış çoxsaylı şirsiz saxsı məmulatı dövrün estetik tələblərinə uyğun müxtəlif xarakterli naxışlarla bəzədilmişdir. Cızma, qazıma, nöqtələmə və basma üsulu ilə salınmış naxışlardan istifadə olunurdu. Xətti və nöqtəli ornamentler geniş, basma naxışlar isə məhdud yayılmışdı. Bu dövrün basma naxışları əvvəlki dövrə nisbətən bəsit olması, fonun nöqtələr düzümü ilə doldurulması, nəbati naxışların üstünlük təşkil etməsi ilə fərqlənirdi (T.M.Dostiyev, 1996, səh. 95-96). Şamaxıdan tapılmış hündür altlıqlı, gövdəsi qabarıq çoxsifətli insan təsvirli, darboğazlı bardaq orijinal forması ilə diqqəti çəkir (Г.Джидди, 1981, таблица XXIII, 1).

Son orta əsr abidələrindən tapılmış çoxsaylı nümunələrdən aydın olur ki, Azərbaycan dulusçuları bəhs edilən dövrdə saxsı qabların ayrı-ayrı rənglərdən

istifadə etməklə naxışlanmasına xüsusi səy göstərmişlər. Onlar əsasən marqanes, mis və kobalt oksidindən almış olduqları şirlər vasitəsilə rəngarəng bədii lövhələr yarada bilmişlər. Marqanes naxışlı qablar daha çoxdur. Anqob üzrə, yaxud mavi yerlikdə naxış işləmələrini salıb, qabı şəffaf, yaşıl, mavi, firuzəyi, az hallarda isə sarı şirlə şirləyirdilər. Bu tip qabların bədii tərtibatında həndəsi naxış elementlərindən çərxi-fələk, dairə, burulğan, xətli naxışlar, nəbati naxışlardan üçləçəkli qönçələr, şaxələnən budaqlar, kol, yarpaq təsvirləri geniş yayılmışdır. Marqanes naxışlı qablar içərisində qarışıq, yəni eyni zamanda həm nəbati, həm həndəsi, bəzən isə həm də zoomorf təsvirlə bəzədilmiş nümunələr kəmiyyət etibarı ilə çoxluq təşkil edir (Q.C.Cəbiyev, 2003, səh. 98-103).

Bütövlükdə, son orta əsrlərin şirli saxsı məmulatının bədii tərtibatında nəbati naxışlardan geniş istifadə edilirdi. Təsvir motivləri stilizə olunaraq, bir çox hallarda tanınmaz hala salınırdı. Daha çox uçan quşların təsviri verilmişdir. Lakin onlar güclü stilizə olunaraq yarpaq naxışına yaxınlaşdırılmışdır (tablo 147, şək. 5). Nisbətən aydın çəkilmiş quş təsvirlərinə də rast gəlinir. Misal olaraq Canaxır yaşayış yerindən tapılmış qab fraqmentini göstərmək olar (T.M.Dostiyev, 2001, səh. 171, şək. 84, 2). Onun üzərində həndəsi fonda tovuzquşu təsviri çəkilmişdir (tablo 147, şək. 6). Şirli qablarda dekor bir qayda olaraq konsentrik bölümə malikdir. Adətən kompozisiyanın mərkəzində qabın dibinə salınmış xonça, daha sonra qabın divarındakı ornamental qurşaqlar yerləşir. Kompozisiyanı qabın ağzının kənarındakı haşiyə tamamlayır. Bəzi hallarda radial bölümlü kompozisiyalara rast gəlinir. Belə kompozisiyalı qablara Bakı və Şabrandan tapılmış qabları misal göstərmək olar. Mərkəzdən kənarlara şüa şəklində yayılan zolaqlar qabın daxili səthini 6 sektora bölür. Həmin sektorlarda epiqrafik və nəbati naxışlar növbələşir (tablo 150, şək. 6).

Son orta əsrlərin bədii keramikasından bəhs edərkən yerli fayans qabların zəngin naxışlanması diqqəti çəkir. Təbriz şəhərində XVI əsrdə istehsal olunmuş fayans nimçənin mərkəzində dairəvi xonçada qızılbaş geyimli, yaraşıqlı, ritmik bir hərəkətlə rəqs edən rəqqasə və onu sazla müşayiət edən gənc oğlan təsvir edilmişdir (R.Əfəndi, 1976, səh. 73-74). Təsvirlər nəbati fonda verilmişdir. Nimçənin divarında nəbati ornamental qurşaq yerləşdirilmişdir. Kompozisiyanı nəbati xarakterli haşiyə tamamlayır.

Bəhs olunan dövrdə metalın bədii işlənməsində Təbriz metalişləmə məktəbi öncül mövqe tuturdu. Təbrizli sənətkarların yaratdıqları bir sıra orijinal sənət əsərləri dövrümüzə qədər gəlib çatmışdır. Təbrizdə Əbdül Əziz Şərəfəddin oğlunun istehsal etdiyi, hazırda Sankt-Peterburqda Ermitajda nümayiş etdirilən tunc tiyan (tablo 135, şək. 1), yuxarıda qeyd olunduğu kimi, Azərbaycan sənətkarlarının yüksək peşəkarlığından xəbər verir. Bu tiyan dövrün nəhəng sənət nümunələrindən olub, zəngin bədii tərtibatı ilə fərqlənir. Tiyanın kürəvi gövdəsi bayır tərəfdən gözəl nəbati naxışlar, ərəb əlifbası ilə həkk olunmuş kitabə və konusvari çıxıntılarla bəzədilmiş, gül formasını xatırladan 10 ədəd qulpla təmin edilmişdir. Kitabədən aydın olur ki,

tiyan Əmir Teymurun sifarişi ilə Xoca Əhməd Yasəvi məscidi üçün düzəldilmişdir (R.Əfəndi, 1976, səh. 27).

Şirvanın bədii metalişləmə sənətini səciyyələndirmək baxımından, Quba bölgəsindən tapılmış misgər Əhməd ibn Məhəmmədin düzəltdiyi tunc qazan diqqəti cəlb edir. Forma gözəlliyi ilə fərqlənən qazanın yarımkürəvi gövdəsi, çıxıntı şəklində üç ayağı, xaricə qatlanmış ağzı vardır. Ağzının kənarı dörd yerdə dilimlənərək ayrılmış, onların ikisinə zoomorf elementli qulp birləşdirilmişdir. Hündürlüyü 30 *sm*, ağzının diametri 41 *sm* olan bu qazan yüksək peşəkarlıq və incə zövqlə nəbati naxışlar, "S" hərfinə bənzər ornamentlər, çarpazlaşan qoç buynuzları çəkilmiş medalyonlarla bəzədilmişdir (tablo 135, şək. 2-3).

Arxeoloji qazıntılar zamanı Qız qalası yaxınlığından tapılmış, yuxarıda təsvir olunmuş lüləkli qab zəngin bəzədilmiş sərpuşdan hazırlanmışdı (tablo 138, şək. 1). Qab hazırlanarkən sərpuşun aşağısındakı naxışların çoxu qaynaq nəticəsində pozulmuş, yalnız rombvari bəzəklərin izi qalmışdır. Qabın gövdəsi üzərində, orta ornamental qurşaqda zərbetmə üsulu ilə salınmış buta və günəş təsviri daha çox maraq doğurur. Diqqəti çəkən cəhətlərdən biri də günəşin antronomorf görünüşdə verilməsidir (F.İbrahimov, 1995, səh. 35).

Mingəçevir qazıntılarından tapılmış XIV əsrə aid gümüş qabın içərisində, oturacaq hissədə qızıl suyuna çəkilmiş onikiləçəkli güldən ibarət xonçada qırqovul, onun ətrafında isə saat əqrəbi əksində üzən beş balıq təsvir edilmişdir (tablo 137). Qabın ağzını isə bayır tərəfdən qızıl suyu vurulmuş nəbati kəmər qurşaqlayır.

XVI-XVII əsr bədii metalişləmə sənətinin maraqlı nümunələrindən biri Şamaxı şəhərinin arxeoloji qazıntılarından tapılmış mis dolçadır (Г.А.Джидди, 1981, стр. 111). Yüksək bədiiliyi ilə fərqlənən bu dolçanın boğazının aşağı hissəsindəki üçbucaqda şirə, dovşana, marala oxşar heyvanlar, onların arasında öndə həyat ağacı təsvir edilmişdir. Üçbucağın küncələrini nəbati naxışlar bəzəyir. Dolçanın bayır səthi 12 qeyri-bərabər qurşağa bölünür. Onlardan ən böyüyü gövdənin ortasına düşür. Bu qurşaqda medalyonlarda təsvir səhnələri verilmişdir. Hər bir səhnədə ayrı-ayrı rəsmlər vardır. Onlarda taxtda oturmuş padşah təsviri mərkəzi yer tutur. Digər səhnə xəncərlə divi öldürən pəhləvanı təsvir edir. Bu səhnə iki dəfə təkrarlanır. Növbəti iki səhnədə nağaraçılar təsvir olunub. Onlardan birində nağaraçılar mərasim rəqsini icra edir, digərində isə bir sırada durub təəccüblə irəli baxırlar. Hər iki səhnədə arxa planda meymunlar təsvir edilib. Qeyd olunan səhnələr arasında müxtəlif fiqurlu səhnələr, o cümlədən fil, dovşan başlı adam rəsmləri, eləcə də sinəsində insan başı olan fiqurlar cızılmış səhnələr yerləşir. Çılpaq adam təsviri də vardır. Səhnələrin ətrafına həndəsi və nəbati naxışlar salınmışdır. Dolçanın boğazındakı qurşaqlarda nəbati naxışlar arasında dörd medalyon yerləşdirilmişdir. Hər bir medalyonda növbə ilə maral və şir təsviri verilmişdir.

Beləliklə, dolça üzərində misgərin cızma üsulu ilə mürəkkəb kompozisiya yaratmasının şahidi oluruq. Arxeoloq H.Ə.Ciddinin fikrincə, taxtda oturmuş padşah

və divlərlə vuruşan pəhləvan süjetleri Firdovsinin "Şahnamə"sindən, zəncilər və heyvan başlı insanların təsvirləri süjetləri, görünür, Nizami Gəncəvinin "İskəndərnamə" poemasından götürülmüşdür (Г.А.Джидди, 1981, стр. 112). Dolçanın dekorundakı nəbati naxışlar Şirvanın florası üçün səciyyəvidir.

Bakıda, İçərişəhərdən tapılmış minalı mis qab son orta əsrlərin minasazlıq məmulatının yüksək bədiiliyi ilə fərqləndiyini söyləməyə imkan verir (В.А.Квачидзе, 1988, стр. 47-49). Göy yerlikdə ağ mina ilə işlənmiş iki quş və iki dördləçəkli gül formasında olan xonça nəzərə çarpdırılmışdır (tablo 136, şək. 1). Xonçalarda odadavamlı kobalt mina ilə ərəb əlifbası ilə yazı yazılmışdır. Quş təsvirlərindəki xətt və nöqtələr eyni mina ilə işlənmişdir. Bu əsas rəsm və bəzək elementləri arasındakı boşluqlara dörd rəngdən - tünd-qırmızı, yaşıl, firuzəyi və ağ rəngdən istifadə etməklə çiçəklər, qönçələr, yarpaqlar və qıvrılan-açılan bitkilər salınmışdır. Ağ minalar üzərində tünd-qırmızı və yaşıl nöqtələr düzülmüşdür. Xonçalardakı yazılar hələlik tam oxunmayıb. Yalnız ayrı-ayrı söz, heca və hərflər oxunur. Bu da ondan irəli gəlir ki, sənətkar yazını qrammatika qaydalarına deyil, bədii kompozisiyanın tələblərinə uyğun yerləşdirmişdir.

Azərbaycan zərgərlərinin son orta çağda yaratdıqları sənət əsərlərinin yüksək bədiiliyi ilə fərqləndiyini əcnəbi səyyahlar öz əsərlərində xüsusi qeyd edirlər. Arxeoloji qazıntılar zamanı tapılmış, eləcə də dövrümüzə qədər gəlib çatmış zinət əşyaları yazılı qaynaqların məlumatını təsdiqləyir. 1946-cı ildə Şirvanşahların türbəsində aparılan arxeoloji qazıntılardan tapılmış qızıl sancaq incə forması ilə diqqəti cəlb edir (tablo 93, şək. 1). Sancağın başlığı altıləçəkli çiçək şəklində olub, qırmızı daşlarla və firuzə ilə canlandırılmışdır (Н.В.Минкевич-Мустафаева, 1947, стр. 44).

Yerli zərgərlərin yüksək peşəkarlığından xəbər verən, I Şah İsmayıla məxsus, 1507-ci il tarixli qızıl kəmərə nəzər salaq. İstanbulun Topqapı muzeyində saxlanılan həmin sənət əsəri kiçikölçülü olub, biri digərinə meşin və qarmaqla bənd edilmiş qızıl hissəciklərdən ibarətdir. Onların üzəri şəbəkə üsulunda zərif nəbati naxışlarla bəzədilmişdir. Kəmərin toqqası dairəvi formalı olub, üzərində dövrün miniatür sənətini xatırladan süjetli səhnə - ova çıxmış gəncin təsviri verilmişdir (R.Əfəndi, 1976, səh. 66-67).

Son orta əsrlərdə Azərbaycanın dekorativ tətbiqi sənəti arasında bədii parça və tikmələr xüsusi yer tuturdu. Dövrümüzə gəlib çatmış bədii parça nümunələri onların yüksək texniki üsulla toxunaraq nəbati naxışlar, quş və heyvan təsvirləri ilə bəzədildiyini göstərir. Parçaların bədii işləməsində qızıl və gümüş saplardan geniş istifadə olunurdu. Şirvanşahlar saray kompleksində arxeoloji qazıntılar zamanı tapılmış bədii ipək parça nümunələri zəngin nəbati ornamentlə bəzədilmişdir. Parça üzərindəki gül-çiçək real və canlı verilmişdir.

Son orta əsrlərin bədii parça və tikmələrindən bəhs edərkən diqqəti çəkən maraqlı cəhətlərdən biri onların üzərində naxış və təsvirlərlə yanaşı, həm də yazıların olmasıdır (R.Əfəndi, 1976, səh. 57).

Son orta çağda əhalinin məişətində geniş istifadə edilən xalça məmulatı zəngin naxış bəzəklərinə və əlvan rəng çalarlarına malik olub, yüksək bədiiliyi ilə fərqlənirdi. Dövrümüzə gəlib çatmış xalça nümunələrinin ən qədimi XIII-XV yüzilliklərə aid olmaqla İstanbulun "Türk və İslam əsərləri" muzeyində və Berlindəki incəsənət muzeyində saxlanılır. Türkiyə muzeyində saxlanılan Şirvan xalçasının uzunluğu 254 *sm,* eni 170 *sm*-dir. Xalça həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Xalçanın hər 10 *sm*-də 627 ilmə vardır. Berlin İncəsənət Muzeyindəki XV əsrə aid Qazax xalçası fraqmentində qızılı-sarı yerlik üzərində tünd-mavi boyalı iplərlə simurğla əjdahanın mübarizəsi səhnəsi toxunmuşdur.

1539-cu ildə Təbrizdə Şah Təhmasibin sifarişi ilə Şeyx Səfi məscidi üçün toxunmuş, uzunluğu 10,51 *m,* eni 5,34 *m* olan xalı nəbati naxışları və rənglərin uğurlu vəhdəti ilə insanı valeh edir. Xalının mərkəzində yerləşən çoxguşəli mozaikaya bənzər qönçə (medalyon) kompozisiyada mərkəzi yer tutur. Qönçəyə hər tərəfdən yaşıl, qırmızı, sarı rəngli 16 kiçik dairəvi qübbə bənd edilmişdir. Elə təəssürat yaranır ki, qönçə günəş, qübbələr isə onun şüalarıdır (R.Əfəndi, 1976, səh. 61-62).

### Bəzəklər

Azərbaycanın son orta əsrlərə aid bəzək əşyaları IX-XIII əsrlər dövrünün bəzəklərindən kəmiyyət etibarilə çox azdır. Bunu onunla izah etmək olar ki, həmin əşyalar nəsildən-nəslə yadigar verilib qorunduğu üçün yaşayış yerlərində arxeoloji qazıntılar zamanı ancaq təsadüf nəticəsində itirilmiş və gizlədilmiş bəzək əşyaları tapılmışdır. Eyni zamanda son orta əsrlərə aid abidələr əvvəlki dövrlərə nisbətən zəif öyrənilib, həmin abidələrdə geniş arxeoloji qazıntılar aparılmayıb. Bununla belə, Qəbələ, Bakı, Şamaxı, Naxçıvan, Şabran, Qırxçıraq və digər abidələrdə aparılmış arxeoloji qazıntı işlərinin nəticələrinə əsasən XIV-XVII əsrlərə aid bəzək məmulatı haqqında fikir söyləmək mümkündür. Əldə edilmiş bəzək nümunələrini tipoloji baxımdan baş, boyun, qol və geyimlərə bənd olunan bəzəklər kimi qruplaşdırmaq olar.

**Baş bəzəkləri.** Baş bəzəklərinə cütqabağı, sırğa və sancaqlar daxildir. Azərbaycanın bəhs edilən dövrünə aid arxeoloji abidələrindən bütöv baş bəzəyi, demək olar ki, aşkar olunmayıb. Bu bəzək növü Salmanbulağı yaşayış yerindən yalnız qırıqlar halında tapılmışdır (tablo 164, şək. 1-2). Bunlardan biri çubuqvari şəkildə (T.M.Dostiyev, 2001, şək. 38,1), ikincisi lentşəkilli olub, içəri tərəfdən hamar, üst səthdən isə naxışla bəzədilmişdir (T.M.Dostiyev, 2001, şək. 38, 2).

Baş bəzəklərinə aid edilən sırğaları isə bir neçə tipə bölmək olar:

Birinci tipə halqa formalı sırğalar daxildir. Bunlardan bir cüt qızıl sırğa dairəvi halqadan ibarət olub, hörülmüş məftillərdən ucları kəsik formada hazırlanmışdır (tablo 164, şək. 4). Sırğanın halqa hissəsində ürək formasında çəhrayı rəngli, yaxşı cilalanmış qaş salınmışdır. Qaş halqa hissəyə mis məftillər vasitəsilə bərkidilmişdir. Digər sırğanın qaşı düşmüşdür. Bu sırğa Bakıda Şirvanşahlar saray kompleksindəki sərdabədə 1 saylı qəbirdən aşkar olunmuş və XV əsrə aid edilir (Н.В.Минкевич-Мустафаева,1947; Г.М.Асланов и др., 1966, стр. 23). 2-ci tipə sual işarəsi formasında olan sırğalar daxil edilmişdir. XVI əsrə aid olan 1 ədəd belə sırğa Gədəbəy rayonunun Xarxar kəndindən tapılmışdır (Асланов и др., 1966, стр. 24). Gümüşdən hazırlanmış sırğanın qulağa keçirilən yuxarı hissəsi əzilmişdir. Bəndəm hissəyə iki yarımkürəciyin lehimlənməsi yolu ilə bir kürə bərkidilmişdir. Kürənin yan tərəfindən deşik açılmışdır. Kürənin yuxarı hissəsi spiralvari formada dörd nazik məftillə dövrələnmişdir (tablo 93, şək. 8).

Bakıda qədim müsəlman qəbiristanlığından tapılan qızıl sırğanı da bu tipə daxil etmək olar. Sırğanın qulağa keçirilən hissəsi sual işarəsi formasında olub, üzərinə zərb üsulu ilə nöqtələr vurulmuşdur. Sırğanın asma hissəsi isə bir növ ayparanı xatırladır (tablo 164, şək. 3). Qulağa keçirilən hissə asmanın ortasına bənd edilmişdir. Bu sırğa XIV əsrə aid edilir (F.Ə.İbrahimov, 1995, səh. 53).

Oxşar sırğalar Azərbaycanın digər orta əsr abidələrindən də tapılmışdır (О.Ш.Исмизаде, 1964б, стр. 106).

Şabran şəhər yerindən tapılmış sual işarəsi formasında olan sırğalardan birinin (tablo 164, şək. 5) qurtaracağına muncuq keçirilmişdir (T.M.Dostiyev, 2001, şək. 38, 4). Qırxçıraqdan tapılmış sırğaları da bu tipə aid etmək olar.

Sırğaların digər tipini aypara formalı sırğalar təşkil edir. Bunlar əsasən Naxçıvan bölgəsindən tapılmış və əksəriyyəti misdən hazırlanmışdır (Ə.İ.Novruzlu, 1997, səh. 128). Oxşar sırğa növü Qırxçıraq qazıntılarından məlumdur (tablo 164, şək. 7, 8).

**Boyun və sinə bəzəkləri.** XIV-XVII əsrlərə aid bəzək nümunələri içərisində boyunbağılar da özünəməxsus yer tutur. Onları formasına görə 2 tipə bölmək olar:

Birinci tip gümüşdən hazırlanaraq 28 ədəd asması olan boyunbağı Gədəbəyin Xarxar kəndindən aşkar olunmuş dəfinə ilə birlikdə tapılmışdır. Boyunbağının asmaları həm formalarına, həm də ölçülərinə görə fərqlənir (tablo 93, şək. 9). Bunlardan 11 ədədi arpa, 6 ədədi nar, 6 ədədi romb, 2 ədədi zoğal çəyirdəyi formasında, 2 ədədi armudvari, 1 ədədi bikonik formada hazırlanmışdır. Tapılan digər bəzək əşyaları və 139 ədəd gümüş səfəvi pullarına əsasən bu boyun bəzəyini XV-XVI əsrlərə aid etmək olar (Г.М.Асланов и др., 1966, стр. 28).

Digər boyun bəzəyi olan gümüş zəncir boyunbağıda 5 ədəd müxtəlif ölçülü spiral borucuqlar bir-birinə lehimlənmiş, bu hissə isə halqaların içərisinə keçirilmişdir (tablo 93, şək. 10).

İkinci tip boyun bəzəkləri isə tək asmalarla təmsil olunmuşdur. Puldan hazırlanmış asma Dəvəçi bölgəsinin Beşbarmaq dağı ərazisindən əldə edilmişdir. Bu asma eynilə Beşbarmaq dağının kiçildilmiş formasında hazırlanmışdır. Üzərində cızılmış xətlərdən və eyni zamanda hazırlandığı metaldan müəyyən etmək olur ki, bu öz dövründə pul vahidi kimi işlənmişdir (tablo 164, şək. 11). Belə pul asmalar Bakı və Şabrandan da tapılmışdır (B.Ə.Rəcəbova, 2000, səh. 64). Qırxçıraqdan aşkarlanmış dairəvi mis asmanı da bu tipə aid etmək olar.

Şabrandan tapılmış XV əsrə aid asma ürək formasında olub, üzəri dənəvər naxışla bəzədilmişdir (tablo 164, şək. 12).

Arxeoloji qazıntılar zamanı son orta əsrlərə aid bir neçə sümük asma-amulet də tapılmışdır. Salmanbulağı yaşayış yerindən tapılmış asma zoomorf formalı olub, boyunbağı formasında düzəldilmişdir. Gözləri bildirən deşiklərdən həm də ip keçirmək üçün istifadə olunmuşdur (tablo 156, şək. 6).

Boyun bəzəklərinə daxil olan muncuqlar əqiq, yəşəm, dağ büllurundan, şüşədən hazırlanırdı. Arxeoloji qazıntılar nəticəsində Beyləqan, Şərifan, Xaraba-Gilan, Şabran, Şamaxı, Bakı, Dərbənd, Qırxçıraq kimi abidələrdən müxtəlif formalı muncuqlar aşkar olunmuşdur (tablo 164, şək. 17-29). Bakıdan tapılmış muncuqlar arasında qızıldan kürə formasında hazırlanmış (B.B.Бартольд, 1905, стр. 110) nümunələr də vardır.

**Qol-bilək və barmaq bəzəkləri.** Qol-bilək bəzəkləri bilərziklərlə təmsil olunmuşdur. Onları hazırlanma materialına görə 4 qrupa bölmək olar:

I qrupa qızıl bilərziklər daxildir. İri ölçülü bir qızıl bilərzik XX əsrin başlanğıcında Bakıda, Aleksandr Nevski kilsəsinin yaxınlığında aşkar olunmuşdur. Həmin bilərzik tapıldığı gümüş pul dəfinəsindəki sikkələrə əsasən XV əsrə aid edilir (B.B.Бартольд, 1905, стр. 286).

IIqrup gümüş bilərziklə təmsil olunmuşdur. Bu qrupa mənsub bilərzik Bakıda qədim müsəlman qəbiristanlığı ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində digər bəzək əşyaları ilə birlikdə tapılmışdır.

III qrupa daxil edilmiş bilərziklər misdən hazırlanmış və əsasən Qırxçıraq qazıntılarından əldə olunmuşdur. Bu bilərzikləri də bir neçə varianta bölmək olar. Bunlar lentşəkilli və çubuqvari bilərziklərdən ibarətdir. Lentşəkilli yastı bilərziklərdən 1 ədədi yastı mis lövhədən ibarət olub, ucları açıq formada hazırlanmışdır. İçəri tərəfi hamar hazırlanmış həmin qolbağın üst tərəfində basma üsulu ilə naxışlar salınmışdır (tablo 165, şək. 13).

Digər lentşəkilli bilərziklər qırıqlar halındadır. 4 ədədinin üzərində yazı verilmişdir. Bilərziklərdən 5 ədədinin üzərində isə həndəsi və nəbati naxışlar çox incəliklə salınmışdır. Bunlar əsasən 4,5 ləçəkli gül, hörükvari və dalğavari naxışlardan ibarətdir (tablo 165, şək. 6, 9).

Çubuqvari bilərziklər fraqmentlər halında tapılmışdır. Onlardan iki hissəni birləşdirdikdə bütöv bilərzik forması aldığına görə onun təsvirini vermək mümkündür.

Sarımtıl metaldan (bürünc) olub, çubuqvari formada hazırlanmış bu bilərziyin uc hissələri oval formada hazırlanmışdır və açıqdır (tablo 165, şək. 20). İkinci bilərzik qırığının üzərində kəsmə naxışlar verilmişdir.

Salmanbulağı yaşayış yerindən tapılmış bilərziyin fərqləndirici xüsusiyyəti uclarının zoomorf fiqurla bəzədilməsidir. Onun içəri səthi yastı, hamar, xarici tərəfi qabarıq və naxışlıdır. Onun ucu balıq quyruğu formasında düzəldilmişdir (tablo 165, şək. 15).

IV qrup bilərziklər şüşədən hazırlanmışdır. Son orta əsrlərin qol-bilək bəzəkləri arasında şüşə bilərziklər daha çoxdur. Onlar qara, göy, yaşıl rəngdə şüşədən en kəsiyi dairəvi, yarımdairəvi və burma üsulu ilə hazırlanmış bilərziklərlə təmsil olunmuşdur (tablo 165, şək. 8, 10-12, 16, 18-19).

Qızıl, gümüş, mis, tunc və şüşədən hazırlanmış müxtəlif forma və ölçülü üzüklər barmaq bəzəklərini təmsil edir (tablo 165, şək. 1-5, 7). Salmanbulağı yaşayış yerindən tapılmış möhür üzük isə tuncdan olub, qaş yeri səkkizləçəkli gül formasındadır və qəlibdə hazırlanmışdır (tablo 165, şək. 1).

**Geyim bəzəkləri.** Geyim bəzəklərinə kəmər, toqqa və kəmərüstü bəzək nümunələri, düymə və sancaqlar daxildir. XIV-XV əsrlərə aid bütöv kəmər əldə olunmayıb. Lakin azərbaycanlı zərgərlərin əl işi olan kəmərlərdən biri İstanbulun Topqapı muzeyində saxlanılır (R.Əfəndiyev, 1980, səh. 133). Yuxarıda qeyd olunduğu kimi, 1507-ci ildə Şah İsmayıl üçün hazırlanmış bu kəmər biri digərinə qarmaqla bənd edilmiş dairə, paxlava formalı qızıl hissəciklərindən ibarətdir.

Arxeoloji tədqiqatlar zamanı Qırxçıraq, Şabran və Bakıdan bir neçə ədəd toqqa başlıqları da tapılmışdır. Uc tərəfi çıxıntılı olub, aşağı hissələri kvadrat və ya düzbucaqlı formalı toqqa başlıqları çoxluq təşkil edir. Toqqalar misdən döymə üsulu ilə hazırlanmışdır (tablo 164, şək. 30-31).

Bakıdan tapılmış beşbucaqlı lövhə şəkilli toqqa başlığının arxa tərəfində çıxıntı vardır, üst tərəfi həndəsi naxışla bəzədilmişdir (tablo 164, şək. 37).

Toqqalardan başqa bu bəzək növünə kəmərüstü bəzəklər və yaxud pilələr də daxildir. Bunlar əsasən Qırxçıraqdan və Şabrandan aşkar edilmişdir (В.А.Квачидзе, 1980, стр. 36-40).

Pilələri formalarına görə üç tipə bölmək olar. I tip üçbucaq formalı, ətrafları dilikli və gözcükləri olan pilələri təşkil edir (tablo 164, şək. 40-44). II tipə təbərzin formalı pilələr daxildir (tablo 164, şək. 38). III tip isə çoxləçəkli gül formasında olan pilələ təmsil olunmuşdur (tablo 165, şək. 39). Bunlar misdən, qəlibdə tökmə üsulu ilə hazırlanmışdır. Bu pilələrin oxşarlarına Azərbaycanda hələ ilk orta əsr abidələrində rast gəlinir.

**Sancaqlar.** Geyim bəzəyinə daxil olan bir ədəd qızıl sancaq Bakıda Şirvanşahların sərdabəsindəki qəbirdən tapılmışdır. Sancaq altıləçəkli gül formasında olub, üzəri cilalanmış yaqut daşları ilə bəzədilmişdir (tablo 93, şək. 1). Tapılan digər maddi mədəniyyət nümunələrinə əsasən sancağın dövrünü XV əsrin ortalarına aid etmək olar.

## Epiqrafik abidələr

Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar arasında epiqrafik abidələr özünəməxsus yer tutur və son orta əsrlərdə Azərbaycan feodal cəmiyyətinin sosial-iqtisadi, siyasi və dini - mədəni inkişafının bir çox məsələlərinin araşdırılmasında mühüm elmi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, yığcamlığı və konkretliyi ilə fərqlənən kitabələr həm də mötəbər, dəqiq tarixi mənbələrdir. Arxeoloji tədqiqatlara cəlb olunmuş müxtəlif xarakterli abidələrdəki kitabələrin oxunması bir çox hallarda həmin tikililərin inşa tarixini dəqiqləşdirməyə imkan vermişdir. Məsələn, Bərdukqalanın darvazanın ortasında mərmər daş üzərindəki kitabədə deyilir: "Bu imarət sahib səltənət Tağı sultan ibn Nəzər bəy ibn Qazinin əmri ilə tikilib. Hicri 1078-ci il" (Əli Sədrayi, 1383, səh. 250). İrəvan yaxınlığındakı Cəfərabad (hazırda Ermənistan Respublikasının Arqavand) kəndindəki türbənin (tablo 173, şək. 3) kitabəsində də dəqiq tarix - hicri erası ilə 15 rəcəb 816-cı il (15 oktyabr 1413-cü il) tarixi göstərilmişdir. Kitabədə Quranın "əl-Bəqərə" surəsinin 255-ci ayəsi və türbənin inşaatı barədə məlumat verilir:

"Kəramətli, xoş əməllərin sahibi, hökmdarların və sultanların köməkçisi, zəiflərin və köməksizlərin ümidi, alimlərin və taliblərin mürəbbisi, fəqirlərin və zahidlərin gümanı, dövlətin və dinin cəlalı, Əmir Pir Hüseyn bin əl-Əmir - Allah onun ədalətini artırsın - böyük sultan, kəramətli xaqan, Şərqin və Qərbin sultanlar sultanı, dövlətin və dinin gümanı Pir Budaq xan və Yusif noyonın hakimiyyəti dövründə - Allah onların hakimiyyətini ucaltsın - (hər şeyi) bağışlayan (Allahın) dərgahında olan mərhum ibn əl-Əmir Səd üçün bu mübarək qübbənin (türbənin) inşasına əmr etdi - 15 rəcəb 816-cı il tarixdə" (М.Неймат, 2001 a, стр. 66-67).

Şirvanın dini-xatirə abidələri içərisində özünəməxsusluğu ilə fərqlənən Diribaba türbəsinin tarixi də kitabə ilə dəqiqləşdirilmişdir. Türbənin kitabəsinin fraqmentlərindən üçü 1924-1925-ci illərdə türbə ətrafında kəşfiyyat xarakterli tədqiqat aparan Y.A.Paxomov tərəfindən aşkarlanıb şəkli çəkilmişdi. 1955-ci ildə isə bərpa işləri ilə əlaqədar burada arxeoloji qazıntılar apararkən bu kitabənin daha iki fraqmenti tapılmışdır (S.Kərimzadə, 1960, səh. 223-230). 1963-cü ildə B.Dornun fondunda saxlanılan kitabənin kiçildilmiş surətinin aşkarlanması onun ərəbcə mətninin tam oxunmasına imkan vermişdir. Kitabədə deyilir:

"Ən böyük sultan, xalqların ixtiyar sahibi, sultan oğlu Sultan, Cəlal əd-dünya və-d-din Şeyx İbrahim xanın - Allah onun dövlət və hökmranlığını əbədiləşdirsin və

hər iki dünyanı onun dəlili ilə aydınlaşdırsın - hakimiyyəti günlərində. Səkkiz yüz beşinci (1402/03) ilin aylarında. Onu (kitabəni) Dərviş yazdı" (M.Nemət, 1992, səh. 45).

Bakıda arxeoloji kəşfiyyat işləri və qazıntılar zamanı aşkarlanmış epiqrafik abidələrin bir qismini məzar daşları üzərindəki epitafiyalar təşkil edir. Qız qalası yaxınlığında aşkarlanmış dini təyinatlı abidənin həyətində üzə çıxarılan məzar daşlarının bəzilərindəki epitafiyalar oxunmuşdur. Məzar daşlarından birinin haşiyə hissəsində nəsx xəttilə "...hələ boya çatmamış külək onu zülmlə qopardı. Biçarənin ürəyində çox ümidlər var idi. Ümidlər çox, ömür isə..." (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1976, səh. 191). Orta hissəsi düzbucaqlı çərçivə içərisinə alınmış məzar daşının haşiyə hissəsində aşağıdakı sözlər həkk olunmuşdur: "Lalə də gözünün qan yaşlarını ətəyinə tökdü. Gül qırmızı rəngli donunun cibini yırtdı..." (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1976, səh. 191).

Üst tərəfi nəbati motivli naxışla bəzədilmiş məzar daşının arxa tərəfində kitabə həkk edilmiş, sonradan yazılar yonulub qismən silinmişdir. Mühafizə olunmuş sözlər təklikdə məna vermir. Qalıqları tədqiqatçılar aşağıdakı şəkildə bərpa etmişlər: "Ruzigarın zülmündən cəfalar çəkmiş... Ey Allah, öz birliyinə onu bağışla..." (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1976, səh. 190).

Abşeronun Məmmədli kəndində torpaq işləri zamanı 1,5 *m* dərinlikdən tapılmış XV əsrə aid iki başdaşında ərəb dilində nəsx xətti ilə həkk olunmuş epitafiyaları (tablo 176, şək. 1-2) M.Nemət oxuyub tərcümə etmişdir. Birinci başdaşı düzbucaqlı formada, 57x40 *sm* ölçüdə olub, kitabəsində bildirilir ki, "mərhum, din uğrunda xoşbəxt şəhid (Mir Seyid bin Bayramın) qəbridir. Səkkiz yüz iyirmi üçüncü il" (1420). İkinci başdaşı 80x39 *sm* ölçüdə olub, kitabəsində "Mərhum, bağışlanılmış, bağışlayan Allahın mərhəmətinə çatmış Bəşərət bin Dərnişin qəbridir" sözləri yazılmışdır (M.C.Нейматова, 1978, стр. 500; M.C.Неймат, 1991, стр. 59).

Orta əsr Qəbələ şəhərinin xarabalıqları yaxınlığındakı Şəhidlər qəbiristanlığında olan məzar daşlarının bəziləri torpaqdan təmizlənərək üzərindəki epitafiyalar oxunmuşdur. Həmin başdaşılarından birinin kitabəsindəki epitafiyanı M.Nemət belə tərcümə etmişdir: "Allahın elçisi Məhəmməd, Allah onu alqışlasın və salamlasın, deyibdir: "Ölüm kasadır, bütün insanlar ondan içəcəklər. Qəbir qapıdır, bütün insanlar ona daxil olacaq. Uca, böyük Allaha şükürlər olsun". Daha sonra farsca rübainin ilk misrası kitabədə verilmişdir: "Taleyin çərxi heç kimə sadiq olmayıb". Kitabə süls xətti ilə həkk olunmuş, mürəkkəb kompozisiyalı nəbati motivli dekor daxilində verilmişdir. Ölçülərinə, formasına, hazırlanma texnikasına və xətt üslubuna görə abidə XV əsrə aid edilir (M.C.Неймат, 2001, стр. 78-79). Tədqiqatçıların fikrincə, başdaşının ətrafında mühafizə olunmuş hörgü qalıqları onun türbə tipli tikili daxilində olduğuna dəlalət edir.

Qəbələnin Şəhidlər qəbiristanlığındakı başdaşında oxunmuş hədis Mingəçevir qazıntıları zamanı tapılmış məzar daşının kitabəsində də rast

gəlinmişdir. l,21x-0,73x0,17 *m* ölçüdə olan həmin sənduqənin yan tərəflərində Quranın "Bəqərə" surəsinin 256-cı ayəsi yazılmışdır. Sənduqənin yuxarı hissəsində isə ərəbcə kitabədə "Ölüm elə bir kasadır hamı ondan içməlidir, qəbir elə bir qapıdır hamı ondan keçməlidir" sözləri yazılmışdır (M.S.Nemət, 2006, səh. 134-135).

Arxeoloji tədqiqatlarla müəyyən edilmişdir ki, Dərbənd əmirlərinin XV-XVI əsrlərə aid nəsli qəbiristanlığı Qala qapı yaxınlığında yerləşirdi. Buradakı zəngin naxışlı qəbir daşları son dövrlərin qatları ilə örtülmüşdür. 1974-cü ildə arxeoloqların aşkar etdiyi və hazırda narınqalada qazıntı materialları arasında qorunan zəngin bədii tərtibata malik sarkofaq tipli məzar daşı Qurandan ayələr, ərəb və fars dillərində mətn ilə örtülmüşdür. Epitafiyadan bəlli olur ki, dəfn edilən "böyük əmir, haqq işi uğrunda ən böyük döyüşçü, din uğrunda şəhid İftixar..." olmuş, 1446-cı ildə öldürülmüşdür (A.A.Кудрявцев, 1989, стр. 129). İftixar Dərbənd əmirinin qardaşı, şəhərin komendantı olmuş və əmir rütbəsi daşımışdır (A.A.Кудрявцев, 1989, стр. 129).

Ucadivar yaşayış yerində aşkarlanmış ərəb əlifbası ilə Azərbaycan dilində həkk edilmiş daş kitabədə (tablo 166) bir sətir aydın oxunur: "Nəsimi məğrur olursan cahanda" (B.İ.İbrahimli, 2007).

Son orta əsrlərdə Azərbaycan ərazisində geniş yayılmış qəbirüstü abidələrdən olan daşdan yonulmuş qoç və at heykəli məzar daşlarının bəzilərinin üzərində kitabələr vardır. Həmin kitabələr Azərbaycan epiqrafları M.Nemət, F.Səfərov tərəfindən oxunmuşdur. Kitabələr əsasən ərəb və fars dilində olub əksər hallarda Quran ayəsi, mərhumun adından ibarətdir. Bəzi heykəllərdə tarix də göstərilmişdir.

Arxeoloji tədqiqatlar zamanı orta əsrlərə aid ayrı-ayrı sözlərə, kitabələrə Qobustan qayaları üstündə də rast gəlinmişdir. Bir neçə daş üzərində ərəb əlifbası ilə yazılmış "bəylər" kəlməsinə rast gəlinmişdir. Cingirdağın qərb ətəyində 91 saylı daşda fars dilində həkk edilmiş kitabədə isə bildirilir ki, "İmad Şəki namaz qıldı, getdi". "Namaz qıldı" sözlərinin üstündə gil möhür təsviri çəkilmişdir. Kitabə arxeoloq İ.M.Cəfərzadə tərəfindən XIII-XIV əsrlərə aid edilir (И.М.Джафарзаде, 1973, стр. 61-62).

Son orta əsrlərdə məişət avadanlığı, xüsusilə də saxsı qablar, metal məmulat üzərində yazılara əvvəlki dövr ilə müqayisədə arxeoloji qazıntılar zamanı az-az rast gəlinir. Saxsı qablar üzərində qabın sahibinə alqışlardan ibarət ifadələr yazmaq ənənəsi davam etdirilirdi, "İqbal" - uğur ifadəsi daha geniş yayılmışdı (T.M.Dostiyev, 2001, səh. 173).

Təbrizdə istehsal olunmuş tunc tiyanın üzərində ərəb əlifbasının nəsx xətti ilə 22 dəfə "Dünya hökmdarı Allahdır" ifadəsi təkrarlanır (tablo 135, şək. 1). Üzərində ustanın və sifarişçinin adları olduğu qablara da təsadüf edilir. Məsələn, Bakıda, İçərişəhərdən tapılmış gümüş dolça üzərində onun Məhəmmədbağır adlı usta tərəfindən Cabbar bəy üçün hazırlandığı bildirilir (F.İbrahimov, 1995, səh. 34).

Təxti-Süleymanda, hülakuların yay iqamətgahının xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı üzərində yazı olan çoxlu kaşı nümunələri tapılmışdır. Kitabələr əsasən poeziya nümunələri və nəsr formasında verilmiş adi və ya hikmətamiz ifadələrdən ibarətdir. Səkkizguşəli ulduz formasında olan kaşılardan birinin üzərindəki iki misrada: "Sənin əməllərini diqqətlə izləyir, Allah sənin himayədarın olur". Sonrakı iki misrada isə bildirilir: "Nəyin var ye, qalanlarına, digərlərinə ver. Əzab çəkib əldə etdiklərini düşmənlərinə saxlama" (Naumann, 1976, s. 45). Kitabələrdə Ömər Xəyyamın məhəbbət mövzusunda rübailəri az deyil. Kaşıların üzərində tarixə də rast gəlinir. Məsələn, 1973-cü ildə tapılmış zərnaxışlı kaşılardan dördünün üzərində hicri 670, dördündə isə hicri 671-ci il tarixi göstərilmişdir (Naumann, 1976, s. 44).

Xaraba-Gilanda arxeoloji qazıntılardan əldə olunan memarlıq elementlərində və saxsı qabların üzərində kitabələrə daha çox rast gəlinmişdir (tablo 166). Hələ keçən əsrin 20-ci illərində şəhər xarabalıqlarının mərkəzindəki təpədə aparılan arxeoloji qazıntılardan tapılmış 75 ədəd gəc karniz parçasının 24 ədədinin üzərində ərəb dilində dini məzmunlu yazı olmuşdur (И.АЗИМБЕКОВ, 1929, стр. 309). Memarlıq elementlərindəki kitabələr əsas etibarı ilə ərəb dilində xeyir-dua xarakterli yazılardan və fars dilində şeir parçalarından ibarətdir. Xeyir-dua səciyyəli yazılarda daha çox "rahatlıq, iltifat, şövkət, xoşbəxtlik, zənginlik və səadət nəsib olsun" ifadələrinə rast gəlinir (M.C.Неймат, 2001a, стр. 116-117). Farsdilli, poetik yazı parçalarına az rast gəlinir. Saxsı qab qırıqları üzərində Beyləqandan bizə məlum olan şeir parçasının bir misrası "Buruq saçlarının ucunda ürəyimi gördüm" oxunmuşdur (M.C.Неймат, 2001a, стр. 117). Yeri gəlmişkən qeyd edək ki, son orta əsr saxsı məmulatının bədii tərtibatında ərəb əlifbasının dekorativ imkanlarından dulusçu-rəssamlar əvvəlki kimi geniş istifadə edirdilər. Sözlər, ifadələrlə yanaşı, həm də ayrı-ayrı hərflərdən də istifadə olunurdu. Məlum olduğu kimi, ərəb əlifbasının hərfləri semantik mənaya malik olub, müəyyən rəmzlər daşımışdır. Bu nöqteyi-nəzərdən dövrün şirli saxsı məmulatının dekorunda "nun" hərfinə tez-tez rast gəlinməsi təsadüfi olmayıb, rəmzi məna kəsb edirdi. Belə ki, "nun" hərfi nüsrət (uğur, qələbə) rəmzi idi (N.Göyüşov, 1988, səh. 25).

Təbrizdə Rəbi Rəşidi arxeoloji kompleksində qazıntılar zamanı tapılmış şirli saxsı qab fraqmenti üzərində Çin heroqliflərindən ibarət yazı vardır. Bu qab yerli istehsal məhsulu olub, ehtimal ki, Rəbi Rəşididəki karxana tipli emalatxanada çinli dulusçu tərəfindən hazırlanmışdır. Bu saxsı nümunəsindəki heroqliflərin yerli sənətkarın bənzətmə yazısı olmasını da istisna etmək olmaz.

Yazılara bəzək əşyaları üzərində də rast gəlinir. Qırxçıraq şəhər yerindən tapılmış bilərzik qırıqlarından dörd ədədinin üzərində yazı oxunmuşdur. Onlardan birinin üzərində ərəb əlifbasının süls xətti ilə "yaşasın", ikinci fraqment üzərində "Əleykum" və "Hüseyn" sözləri yazılmışdır. Digər iki fraqment üzərində yalnız ayrı-ayrı hərfləri müəyyənləşdirmək olur. Salmanbulağı yaşayış yerindən tapılmış

möhür-üzük (tablo 165, şək. 1) üzərindəki yazı ərəb dilində nəsx xətti ilə həkk edilmişdir. Yazıda bildirilir ki, "möhkəm hazırlanmışdır. 719"*. Möhürdə göstərilən hicri 719 (1320/1321) il tarixi, görünür, üzüyün istehsal edildiyi tarixdir.

Epiqrafik dəlillər son orta əsrlərdə ərəb əlifbasının müxtəlif, əsasən, kufi, nəsx, süls, nəstəliq xətlərindən istifadə edilməklə abidələr, məişət avadanlığı üzərinə ərəb, fars və türk dillərində kitabələr, ayrı-ayrı ifadələr həkk edildiyini göstərir.

* Bəzəklər üzərindəki yazıları t.e.n. Q.Ə.Pirquliyeva oxuyub tərcümə etmişdir.

# IX FƏSIL

# DİNİ, XATİRƏ VƏ QƏBİR ABİDƏLƏRİ

## Məscidlər, xanəgahlar, imamzadələr və xristian məbədləri

**Məscidlər.** Son orta əsr yaşayış məskənlərinin strukturunda, əvvəllər olduğu kimi, dini binalar, ilk növbədə məscidlər mühüm yer tuturdu. Bu dövrün dini təyinatlı binaları əsasən came və məhəllə məscidləri, mədrəsə, zaviyə, xanəgah, imamzadə, qədəmgah, xristian məbədləri ilə təmsil olunmuşdur. Ayrı-ayrı məhəllələrin öz məscidinin olması ilə yanaşı hər bir şəhərin elliklə ibadətə imkan verən Came məscidi olurdu. Məlum olduğu kimi, şəhərin baş məscidi hesab olunan Came məscidinin meydana gəlməsi və yayılması X əsrə aid edilir. Bəhs edilən dövrdə isə müsəlman Şərqinin böyük şəhərlərində hətta bir neçə Came məscidi olurdu (О.Г.Большаков, 1982, стр. 199). Came məscidləri möhtəşəmliyi və yüksək bədii tərtibatı ilə fərqlənirdi. Xatırladaq ki, Came məscidi təkcə ibadət yeri olmayıb həm də siyasi və ictimai əhəmiyyət kəsb edirdi. Dövrün Came məscidlərinin səciyyəvi xüsusiyyətləri öz əksini Təbrizdəki Əlişah məscidində, Mərənd, Urmiya, Bakı, Gəncə Came məscidlərində tapmışdır.

1311-ci ildə bünövrəsi qoyulan Əlişah məscid kompleksinə məsciddən başqa mədrəsə, zaviyə, hamam və dükanlar da daxil idi (tablo 167). Mədrəsə məsciddən sağ tərəfdə, zaviyə, hamam və bazar isə sol tərəfdə yerləşirdi (S.M.Onullahi, 1982, səh. 197). Məscidin yalnız mehrab tərəfi mühafizə olunub dövrümüzə qədər qalmışdır. Abidənin ərazisində aparılan arxeoloji qazıntılar mədəni təbəqə yatımının zənginliyini, burada e.ə. I minilliyin birinci yarısından həyatın mövcudluğunu göstərmiş və məscid kompleksinə dair faktik dəlillər əldə olunmuşdur (S.Ə.Mənsuri və b., 1383, səh. 183-184). Salamat qalmış qalıqlarda daşdan hörülmüş kürsülüyün hündürlüyü 2 *m*-ə çatır. Onun üzərindəki divar isə yüksək peşəkarlıqla kvadrat formalı bişmiş kərpicdən hörülmüşdür. Cənub divarının qalınlığı 6,1 *m*-dir. Qalıqları tədqiq edən tədqiqatçılar abidədə iki inşaat dövrünün varlığını izləmişlər (B.Omrani, H.E.Səngəri, 1385, səh. 174-176). Mənbələrin məlumatı və qalıqlar əsasında Əlişah məscidinin dördeyvanlı, böyük daxili həyətli məscidlər tipinə mənsub olduğu müəyyən edilmişdir (Л.С.Бретаницкий, 1966, стр. 152-153). Məscidin dördeyvanlı böyük həyətinin ortasında kvadrat biçimli, 150x150 dirsək ölçüdə hovuz varmış. Həyət dörd tərəfdən iki sıra sütunlu qalereya ilə əhatə olunmuşdu. Onun cənub hissəsinin ortasında Came məscidinin qoşa minarəli, böyük eyvanlı nəhəng binası yüksəlirmiş, uzunluğu 60 *m*-dən artıq olan ibadət salonu orta əsrlərin ən iri aşırımlı tağbəndi (30,15 *m*) ilə örtülmüşdü. Bu tağbəndin konstruktiv dayanaqlığını qalınlığı 10,4 *m* olan yan divarları təmin etmişdi. Tağbəndin hündürlüyü isə 40 *m*-dən uca imiş. Məscidin mehrab taxçası yanmdairəvi bürc şəklində bayıra çıxarılmışdır.

Hündürlüyü 26 *m*-dən artıq olan bu mehrab-bürc İslam dünyasının ən böyük mehrabıdır. Məscidin qalın divarları və bürc formasında bayıra çıxarılmış mehrabı Əlişah məscidinə möhtəşəm qala qülləsi görkəmi vermiş və onun xalq arasında "Ərk qalası" adlandırılmasına səbəb olmuşdur (C.Qiyasi, 2002, səh. 35). Qeyd edək ki, mehrab taxçasının yarımdairəvi bürc şəklində bayıra çıxarılmasının daha erkən nümunəsi Bakıda Məhəmməd-Sınıqqala məscidindən məlumdur. Əlişah məscidinin hündürlüyü 70 dirsək, eni 5 dirsək (zirə) olan iki minarəsi olmuşdur (C.Qiyasi, 2002, səh. 32). Divarları bişmiş kərpicdən inşa edilmiş məscidin sütunları mərmərdən



**Əlişah məscidinin mehrabı.**

yonulmuş, memarlıq bəzəyində kaşı və mərmərdən geniş istifadə olunmuşdu.

Mərənd Came məscidinin tam formalaşması da XIII-XIV əsrlərə təsadüf edir. Məscidin trapesiyaya yaxın plan quruluşunda şərq və qərb hissələri özünəməxsusluğu ilə fərqlənir. Şərq hissə 12 kiçik günbəzli bölümə ayrılır. Günbəzlər çatma tağlarla birləşən dayaq sütunlar üzərində dayanırdı. Məscidin qərb hissəsindəki salon isə altı günbəzli bölümə ayrılır. Lakin bu günbəzlər şərq hissəsindəki günbəzlərdən xeyli böyükdür. Qərb hissənin mərkəzini mehrabın yerləşdiyi cənubdakı orta kvadrat təşkil edir. Mərənd Came məscidinin daxili sahmanı, xüsusilə mehrabın gəc oymaları yüksək bədiiliyi ilə məşhurdur (D.Wilber, 1955).

Urmiya Came məscidinin kompozisiya mərkəzini kürəvi günbəzlə örtülmüş, kvadrat planlı böyük salon təşkil edir. XII əsrdə inşa olunan bu səlcuq məqsurəsinə XIII-XIV əsrlərdə yenidənqurma nəticəsində sağdan düzbucaq biçimli, üç nefli geniş salon, soldan isə kiçik tikili birləşdirilmişdir. Urmiya Came məscidinin mehrabının gəc oymaları yüksək bədiiliyi ilə fərqlənir (М.Усейнов и др., 1963, стр. 172-173).

1368-1369-cu illərdə zəlzələdən zədələnən Dərbəndin Came məscidi yenidən əsaslı təmir edilmiş, XV əsrdə onun qarşısında mədrəsə inşa olunmuşdur (tablo 168, şək. 2).

Bakının XIV əsr Came məscidinin plan quruluşu A.M.Pavlinovun tədqiqatlarından məlumdur (А.М.Павлинов, 1893). Dövrümüzə qədər mühafizə olunmamış bu camenin plan quruluşunun özünəməxsusluğu cənub və qərb küncləri kəsilmiş düzgün olmayan altıkünclü formada olmasındadır (tablo 168, şək. 1). Məscidin kompozisiyasında kişilər üçün nəzərdə tutulan kvadrat biçimli, günbəzli ibadət salonu mühüm yer tuturdu. Ona bir neçə otaq və dəstəmaz almaq üçün hovuzun olduğu kiçik həyət birləşirdi. Günbəzli salondan şimal və qərb tərəflərdə qadınlar üçün nəzərdə tutulan otaqlar yerləşirdi. Kişi və qadın bölmələrinə giriş ayrı olub, qərb və şimal tərəflərdə idi. Məscidin XIV əsrin əvvəlində (709 h.e.) daha qədim, ola bilsin ki, bütpərəst məbədin bünövrəsi üzərində inşa olunduğu ehtimal edilir (А.М.Павлинов, 1893). Came məscidinin XV əsrdə tikilmiş minarəsi Şirvan minarələrinin inkişaf etmiş nümunəsi hesab olunur (М.Усейнов и др., 1963, стр. 167).

Son orta əsrlərin səciyyəvi dini tikililərindən Ordubad və Gəncə Came məscidləri də qeyd edilməlidir. Çapma daşlardan və 21x21x5 *sm* ölçülü kərpiclərdən inşa olunmuş Ordubad Came məscidinin xarici görünüşü XVII əsr üçün səciyyəvi olduğu halda, onun plan quruluşu və bəzi memarlıq elementləri əvvəlki dövrlər üçün səciyyəvidir. Görünür, XVII əsrin əvvəllərində daha əvvəlki məscidin qalıqları üzərində Came məscidi inşa edilmişdi.

Gəncə Came məscidi Gəncəçayın sol sahilində yerləşir. Kompleks məscid binasından, iki minarədən, dağılmış mədrəsə və hamam binasının qalıqlarından ibarətdir. 1606-cı ildə inşa olunmuş bu məscid planda kvadrat formaya malikdir. Kompozisiyanın mərkəzində kvadrat biçimli ibadət salonu yerləşir və künclərdən ona kiçik otaqlar birləşir. Cənub divarda mehrab, digər divarlarda isə dayaz taxçalar düzəldilmişdir. Baş giriş qapısı şimalda yerləşirdi. Bundan başqa qərb və şərq tərəflərdə də qapı vardır (А.Саламзаде, 1964, стр. 27).

Şirvanşahlar saray kompleksində arxeoloji qazıntılar zamanı üzə çıxarılmış, Keyqubad məscidi adı ilə tanınan məscid (tablo 168, şək. 3) XIV əsrdə daha qədim məscidin qalıqları üzərində inşa olunmuşdur və həmin dini tikili Şirvanşahlar saray kompleksi salınmasına qədər saray həyəti ərazisinin cənubunda mövcud imiş (В.Н.Левиатов, 1949, стр. 124-125).

Keyqubad məscidi Azərbaycan dini memarlığı üçün səciyyəvi olan xaçvari günbəz örtüklü tikililər tipinə mənsubdur. Onun günbəzini daxili fəzanı iki hissəyə ayıran sütunlar saxlayırdı. Mehrab cənub divarda yerləşirdi. Məscidin memarlıq bəzəyi lakonik və dəqiq çəkilmiş həndəsi ornamentlərdən ibarətdir (Л.С.Бретаницкий, 1966, стр. 242-243).

Şirvanşahlar saray kompleksinin aşağı cənub həyətində Şirvanşahların saray məscidi yerləşir. Məscid ümumi böyük salondan, qadınlar üçün kiçik salondan və günbəz örtüklü bir neçə düzbucaqlı otaqdan ibarətdir. Kompozisiyanın əsasında günbəzli, geniş ibadət salonu (70 *kv.m*) dururdu. Onun cənub divarında çatma tağlı, sadə mehrab yerləşirdi. Qadın salonu böyük ibadət salonuyla divardakı kiçik açırım vasitəsilə əlaqələndirilirdi. Məscidin memarlıq bəzəyi kasıbdır. Düz divarları yalnız kiçik daş şəbəkəli pəncərələr və çıraq taxçaları canlandırır. Məscidin şimal qapısı əsas olub qabarıq baş tağla nəzərə çarpdırılmışdır. Kiçik baş tağlı şərq qapısı isə saraydan birbaşa məscidə keçidi təmin etmişdi. Qadın salonuna açılan qapı isə daha sadədir. Məscidin şimal-şərq küncündə 22 *m* hündürlüyü olan minarə ucalır. Kitabə minarənin hicri 845-ci ildə Şirvanşah Xəlilullahın əmri ilə inşa edildiyini bildirir (Р.М.Аджалов, 1986, стр. 27; Л.С.Бретаницкий, 1966, стр. 37-38).

1984-cü ildə İçərişəhərdə XVII əsrin məscidində aparılmış kəşfiyyat xarakterli arxeoloji qazıntıların nəticələri də maraqlı olmuşdur. Qazıntı işləri məscidin böyük ibadət salonunda aparılmışdır. Cənub və cənub-şərq divarlarının tədqiqi məscidin daha qədim tikilinin qalıqları üzərində tikildiyini və onun planını təkrarladığını göstərmişdir (Ф.А.Ибрагимов, С.Б.Гусейнова, 1986, стр. 420).

Sərabdan 6 *km* aralıda alman arxeoloji ekspedisiyasının tədqiq etdiyi dördbucaqlı biçimli, altı ağac sütunlu kiçik məscid, görünür, məhəllə məscidi olmuşdur (tablo 169, şək. 5). Qalıqlar əsasında onun vaxtilə zəngin kaşı bəzəyinə malik olduğu müəyyən edilmişdir. Tədqiqatçılar məscidin XIV-XV əsrlərdə inşa olunduğunu ehtimal edirlər (W.Kleiss, 1969, p. 34).

Klassik nisbətlərinə, incə və zəngin bəzəyinə görə memarlıq tutumları çox bitkin və ifadəli görünüşə malik, XV əsrdə Qaraqoyunlu hökmdarı Cahanşahın tikdirdiyi Göy məscid vaxtilə böyük kompleks olmuşdur. Buraya məscid binasından başqa mədrəsə, kitabxana və digər tikililər daxil idi. Kompleksdən yalnız məscid binası dövrümüzə qədər gəlib çatmış, keçən əsrdə xarabalıqları bərpa edilərək ilkin formasını almışdır. O mərkəzi günbəzli məscidlər tipinə mənsub olub, kvadrat şəkilli böyük salondan, onun ətrafında cəmləşən kiçik salon və otaqlardan ibarətdir (tablo 169, şək. 1-2). Sahəsi 256 *kv.m* olan salon böyük kürəvi günbəzlə, ətrafındakı otaqlar isə kiçik günbəzlərlə örtülmüşdür. Mərkəzi salondan arxada, sahəsi 81 *kv.m* olan kiçik salonda mehrab taxçası düzəldilmişdir. Uzunluğu 52 *m* olan fasadın mərkəzində baş tağ, kənarlarında isə minarələr yerləşirdi.

Göy məscid inşaat prosesində texniki problemlərin yüksək mühəndis həlli, statistik hesablamaların dəqiqliyi və incə bədii tərtibatı ilə İslam memarlığının şah əsərlərindən hesab olunur. Məscidin inşasında bişmiş kərpic, gəc üzərində oyma, mərmər və kaşı bəzəyi uğurla tətbiq olunmuşdur. Burada iri və xırda ölçülü kaşılardan yaradılmış mozaika dəstləri biri digərini tamamlayır (Л.С.Бретаницкий, 1966, стр. 257-260).

Funksiya, konstruksiya və bədii memarlıq həllinin son dərəcə yetkinliyi və obrazının orijinallığına görə Göy məscid nəinki Azərbaycan, bütövlükdə müsəlman memarlığında mühüm yer tutur (C.Qiyasi, 1985, səh. 12).

Şəhərlərin hər bir məhəlləsinin öz məscidi olurdu. Bəzən böyük məhəllələrin hətta bir neçə məscidi olurdu.

Təbriz şəhərindən şimalda, Culfadan 98 *km* cənubi-şərqdə, Əhərdən 111 *km* qərbdə, Xoranaqda səfəvilər dövründə tikilmiş məscid də maraqlı abidələrdən hesab olunur (W.Kleiss, 1972, p. 180-181). İki günbəzli olması bu məscidi səciyyələndirən əsas xüsusiyyətlərdəndir (tablo 169, şək. 3-4).

Gəncə şəhər yerində və Naxçıvandakı Xaraba şəhərdə arxeoloji qazıntılar zamanı digər tikililərlə yanaşı məscid qalıqları da üzə çıxarılmışdır. Belə ki, 1986-1987-ci illərdə orta əsr Gəncə şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılmış monumental tikili qalığının (tablo 28) da məscid tipli binaya aid olduğu ehtimal edilir (Р.Д.Ахмедов, 1988 а, стр. 455). Düzbucaqlı plan quruluşuna malik bu binanın şimal-qərbküncündəki yarımdairəvi bürcü xatırladan tikili, görünür, məscid minarəsinin qalığıdır. Binanın divarının qalınlığı 1,1 *m*-ə çatır və iri çaydaşından əhəngli məhlulla hörülmüşdür. Kürsülüyə yaxın bişmiş kərpic və çaydaşından qarışıq hörgü qeydə alınmışdır. Qazıntı zamanı habelə daşla hörülərək gəc suvaqla suvanmış günbəzin uçub tökülmüş qalıqları da aşkarlanaraq tədqiq edilmişdir.

Dağıntılar arasında xeyli kaşı nümunələrinin tapılması (Р.Дж.Ахмедов, 1986а, стр. 21-22, рис. 20) məscid binasının mavi və firuzəyi şirli kaşılarla bəzədildiyini söyləməyə əsas verir.

Naxçıvanda Xaraba şəhər yerində "Cümə məscidi" deyilən ərazidə aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilən bina qalıqlarının da məscid xarabalıqları olduğu ehtimal edilir (Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002, səh. 65-66).

**Mədrəsələr.** Came məscidlərinin nəzdində, adətən, mədrəsələr fəaliyyət göstərirdi. Məsələn, Gəncə, Dərbənd və Şamaxı Came məscidlərinin nəzdində mədrəsələrin fəaliyyəti elmi ədəbiyyatdan yaxşı bəllidir. Yazılı qaynaqların şəhərlərdə çoxlu mədrəsələrin fəaliyyəti haqqında məlumat verməsinə baxmayaraq dövrümüzə qədər onların qalıqları çox az gəlib çatmışdır. Bu baxımdan Dərbənd Came məscidinin nəzdində fəaliyyət göstərmiş, XV əsrdə inşa olunduğu bildirilən mədrəsə böyük maraq doğurur. Mədrəsənin ərəb dilində həkk olunmuş dördsətirlik kitabəsində bildirilir ki, "Uca olan Allah - Ona həmd olsun - dedi: "Elm verilmiş şəxsləri Allah müxtəlif dərəcələrə qaldırır". Dünyada ləyaqətli əxlaq sahibi, zəmanə əmirlərinin ən ədalətlisi sultan şirənşah məxsusən Allahın xatirinə və onun mərhəmətini qazanmaq və qəzəbindən qaçmaqdan ötrü orada (mədrəsədə) qiyamət gününə qədər şəriət elmlərini təhsil edən tələbələr üçün bu mübarək mədrəsənin tikilməsindən ötrü hicri səkkiz yüz yetmiş doqquzuncu ildə əmr etmişdir" (М.С.Неймат, 2008, стр. 73-74). Mədrəsə binası uzun ox boyunca yerləşən hücrələr kompleksindən ibarətdir. Hücrələrin arxa divarı məscidin həyətini şimaldan

hüdudlayan lal divar yaradır, yalnız iki yerdə asimmetrik yerləşmiş kiçik tağlı keçid vardır (tablo 168, şək. 2).

Mədrəsənin hər bir hücrəsi düzbucaqlı biçimdə, çatmatağla örtüklü kiçik otaqdan ibarət olub, qarşısında çatmatağlı açırıma malik kiçik eyvan vardır. Mərkəzi hücrə istisna olmaqla hücrələrin ölçüsü 2,8x3,4 *m*-ə bərabərdir. Mərkəzdə yerləşən hücrə nisbətən böyük olub, 2,8x4,15 *m* ölçüdədir. Mərkəzi hücrə və tağ-tavanlı iki keçid hücrələrin ritmik çatmatağlı açırımlarından baş-tağla fərqlənmişdir (Л.С.Бретаницкий, 1966, стр. 262-263).

Arxeoloji qazıntılarla müəyyənləşdirilmişdir ki, Şirvanşah İbrahimin hakimiyyəti dövründə Şamaxıdakı Came məscidi nəzdindəki mədrəsənin xarabalıqları təmizlənərək onun qalıqları üzərində yenidən hücrələr ucaldılmışdır. Bərpa zamanı XII əsrin tikilisinin inşaat materiallarından da istifadə olunmuşdur (H.Ə.Ciddi, N.Musayev, 1991, səh. 28-29).

Ordubad mədrəsəsi son orta əsr mədrəsələrinin səciyyəvi nümunəsi hesab oluna bilər. Dördbucaqlı qapalı həyət boyunca inşa olunmuş bu tikilinin bir hissəsi məscid, dərs otaqları kimi istifadə olunmuş, giriş tərəfdə bir, onun qarşısındakı iki mərtəbədə isə tələbələr üçün kiçik yaşayış otaqları - hücrələr yerləşmişdir. Mədrəsənin həyətinə yalnız bir tərəfdən - şimaldan daxil olmaq mümkün idi. Mədrəsənin həyət fasadları istər birinci, istərsə də ikinci mərtəbədə geniş çatmatağlarla işlənmiş və onlar bir-birindən çıxıntılarla ayrılmışdır. Mədrəsənin XVII əsrdə inşa edildiyi bildirilir (А.Саламзаде, 1964, стр. 33-35; Ə.V.Salamzadə, 1976, səh. 61).

**Xanəgah, imamzadə.** Son orta əsr Azərbaycan memarlığında mühüm yer tutan xanəgah, zaviyə, imamzadə kimi dini tikililərin inşası genişlənmişdi. Tədqiqatçıların araşdırmalarına görə, XIV-XVII əsrlərdə ölkədə yüzlərlə zaviyə, ribat və xanəgahlar olmuşdur (М.Х.Гейдаров, 1982, стр. 250).

Elxanilər öz mövqelərini möhkəmləndirmək üçün nəinki İslam dinini qəbul etmiş, həm də hələ islamı qəbul etməzdən əvvəl Azərbaycanın başlıca dini mərkəzlərini ziyarət edir, onlara vəqflər paylayırdılar. Məsələn, Pir Hüseyn xanəgah məscidinin minarəsi Hülaku hökmdarı Arqun ağanın vəsaiti hesabına təmir edilmiş, xanəgahda quruculuq işləri aparılmışdır (М.Неймат, 1991, стр. 12).

Xanəgahlar karvan yolları üstündə, dini xadimin, şeyxin öz təlimini təbliğ etdiyi mərkəzdə təşəkkül tapıb formalaşırdı. Onlann sosial-iqtisadi və siyasi həyata təsiri böyük idi. Bir qayda olaraq kompleksin mərkəzində türbə yerləşirdi, digər tikililər onun ətrafında cəmləşirdi. Həmin türbə kvadrat, səkkizkünclü və ya dairəvi biçimli tikili olub, digər binalarla konstruktiv baxımdan əlaqəli idi. Onlar nadir hallarda təcrid olunmuş şəkildə yerləşirdi. Bu baxımdan Naxçıvanda Əlincəçaydakı Şeyx Xorasan xanəgahı, Ərdəbildə Şeyx Səfi dini-xatirə kompleksi böyük maraq doğurur. Əlincəçaydakı Şeyx Xorasan xanəgahı Naxçıvan Muxtar Respublikasının Xanağa kəndində yerləşir və Naxçıvan memarlıq məktəbinin xüsusiyyətlərini

özündə daşıyır. Hazırda yalnız iki binası salamat qalmış bu xanəgah vaxtilə böyük bir kompleks olmuşdur. Kompleksə daxil olmuş tikililərin xarabalıqları geniş bir ərazini əhatə edir. Salamat qalmış və XIII əsrə aid edilən türbə xanəgah kompleksinin əsasını təşkil edir. Planda kvadrat şəklində olan türbənin künclərindəki tromplar daxildə səkkizguşəli biçimə keçirilməsini təmin edir və daha sonra 16 bucaq əmələ gəlir. Xarici günbəz piramida, daxili günbəz çatmatağ olmaqla türbə ikiqat günbəzlidir.

XV əsrdə türbənin ətrafında xanəgah kompleksinin digər tikililəri inşa olunarkən onun ilkin formasına xələl gətirilmiş, məscidin türbəyə birləşməsi nəticəsində giriş baş tağı örtülmüşdür. Türbənin içərisindəki mehrab şəkilli pannoların gəc üzərində oyulmuş naxış və kitabələrdən ibarət memarlıq bəzəyi yüksək bədiiliyi ilə fərqlənir (Ə.Salamzadə, 1976, səh. 50-51).

Naxçıvan Muxtar Respublikasının Kirna kəndinin yaxınlığında yerləşən dini kompleksin qalıqlarının da xanəgah qalıqları olduğu ehtimal edilir (К.Мамедзаде, 1983, стр. 75). Salamat qalmış tikili qalıqları mərkəzi günbəzli tipli binalara mənsub olub kompleksin bir hissəsini təşkil edir. Kompleksin digər binaları dağılmışdır. Salamat qalmış binanın ümumi quruluşu onun türbə və ya məscid olmasını düşünməyə əsas verir. Kvadrat plan quruluşlu bina türbələr üçün səciyyəvi şəkildə ikiqat örtüklü olub, daxildən çatmatağlı, xaricdən isə piramida şəkilli çadırvari günbəzlə örtülmüşdür. Binanın daxili günbəzinin quruluşu, eləcə də xarici çadırvari günbəzi onu Əlincəçay xanəgahındakı abidə ilə yaxınlaşdırır (Ə.Salamzadə, 1976, səh. 52-53). Abidənin fasadındakı stalaktit kompozisiya, vaxtilə binaya birləşmiş otaqların interyerinin elementləri kompleksin genişliyinə dəlalət edir və burada arxeoloji qazıntılar aparılması onun haqqında təsəvvürləri dəqiqləşdirə bilər.

Lerik rayonunun Xanəgah kəndinin ərazisində yerləşən Xoca Seyid türbəsi də, görünür, xanəgah tipli abidədir. Dördkünc biçimdə tikilmiş, uzunluğu 11,5 *m*, eni 7,5 *m* olan bu abidə iki otaqdan ibarətdir. Türbə bişmiş kərpicdən gəclə inşa olunmuşdur. Hündürlüyü günbəzlə birlikdə 11,5 *m* təşkil edir. Türbənin divarları ornamentlə bəzədilmişdir. Türbənin birinci otağı ibadət, ikinci otağı isə səcdə üçündür. Xoca Seyid və digər iki nəfər ikinci otaqda dəfn olunmuşdur. İlkin tədqiqatlar əsasında xanəgahın XIV əsrdə inşa edildiyi ehtimal olunur (S.Kərimov, 2006, səh. 93-94).

Şeyx Səfi kompleksi bir neçə əsr ərzində yenidənqurma və təmirlərə məruz qalmış mürəkkəb memarlıq kompleksi olmaqla Azərbaycan memarlığında özünəməxsus yer tutur. Onun başlıca özəyini xanəgah təşkil edir, digər monumental binalar xanəgaha uyğunlaşdırılmış, planlaşdırma prinsipləri və memarlıq kompozisiyasının vahidliyi qorunub saxlanılmışdır. Kompleksə daxil olan Şeyx Səfi türbəsi, ona birləşən məscidlə Azərbaycan memarlığının incilərindən olmaqla qülləvari tikililərin ən gözəl nümunələrindəndir (tablo 170, şək. 1). Tədqiqatçıların fikrincə, tikililərdən türbə və səkkizkünclü məscid kompleksin ən erkən binaları

olmaqla XIII-XIV əsrlərdə inşa edilmişdir (Fr.Sarre, 1925; А.Саламзаде, 1964). Abidənin qərb tərəfində aparılmış arxeoloji qazıntılar bu ehtimalı təsdiqləmişdir. Qazıntılar nəticəsində xanəgah, yeni çilləxananın bir hissəsi, şərbətxana öyrənilmiş, çoxlu kaşı, yazılı lövhələr, səfəvi sikkələri, elxanilər və səfəvilər dövrlərinə aid çoxlu saxsı məmulat tapılmışdır. Müəyyən edilmişdir ki, kompleksin ən erkən binası olan xanəgah Şeyx Səfiəddinin dövründə tikilmişdir. Şeyx Səfi türbəsi xronoloji baxımdan kompleksin ikinci tikilisidir (H.Ş.Şiran, 1383). Türbə hazırkı görünüşünü isə XVI əsrdə almışdır. Türbənin silindrik gövdəsi şirli kərpiclərlə "Allah" sözü ilə naxışlanmışdır.

Şeyx Səfi kompleksinin müxtəlif dövrlərə aid tikililərinin toplu halında formalaşması şah Təhmasib dövründə baş vermiş, şah Abbas yeni tikililərlə onu daha da zənginləşdirmişdir.

Şeyx Səfi xatirə məscidinin XVI əsrdə Şah Təhmasib tərəfindən inşa etdirilməsi bildirilir. Onun salonunun planı bazilika tikililərini xatırladır. Salonun qurtaracağında absidaya oxşar dərin taxça salonu türbə ilə bağlayır. Çinixana kompleksin şərq küncündə yerləşməklə xatirə məscidinin ibadət salonu ilə birləşir. Onun XVII əsrdə inşa olunduğu ehtimal edilir (А.Саламзаде, 1964, стр. 20).

Şihabəddin xanəgahında tikililər 28x31 *m* ölçüdə həyət boyunca qruplaşaraq mürəkkəb orqanizmli məkan - tutum yaradır. Onların bir hissəsi ikili hündürlüyə malikdir, digər hissəsi hər iki qatda yerləşmişdir. Kompleksin əsas tikililəri uzununa oxun sağ tərəfində yerləşir. Giriş cinahlarda möhtəşəm qüllələrə malik, monumental baştağla qabarıq nəzərə çarpdırılmışdır. Kompleksdə 11x11 *m* ölçüdə, qibləyə istiqamətlənən camaatxana (zikrxana) böyük əhəmiyyətə malikdir (Р.Амензаде, 2000, стр. 12). Şeyx Şihabəddin Əhərinin xanəgahının kompozisiya prinsipləri birbaşa eyniyyətini Xoca Əhməd Yasəvi xanəgahında tapır.

**İmamzadə.** Dini-xatirə abidələrindən olan imamzadələr İmam Əlinin nəslindən olanların qəbri üzərində ucaldılan monumental tikili olub, bilavasitə şiə hərəkatının genişlənməsi ilə bağlı idi. İmamzadə qəbir tikilisi kimi xatirə məscidlərinin xarakterik əlamətlərini özündə əks etdirməklə, mehrab taxçasının olmaması ilə fərqlənir (А.Саламзаде, 1964, стр. 31-32).

Son orta əsrlərə aid imamzadə Gəncədə, Abşeronda, Naxçıvanda, Cənubi Azərbaycanda qeydə alınmışdır.

Azərbaycan ərazisində imamzadə tipli tikililərin erkən nümunələri Cənubi Azərbaycandan məlumdur və səlcuqlar dövrünə aid olması ehtimal edilir. Belə tikililərdən biri Cənubi Azərbaycanın Həsənabad yaşayış məntəqəsinin qərb kənarında təpə üzərində yerləşən imamzadə Aqrildir (W.Kleiss, 1972, p. 173-174). 19x19x4,5 *sm* ölçüdə, kvadrat formalı bişmiş kərpicdən inşa olunmuş abidə iki hissəli quruluşa malikdir. Kompozisiyada öncül mövqe tutan, kvadrata yaxın plana malik otaq 5,5x6 *m* ölçüdə olub, divarlarında tağlı taxçalar düzəldilmişdir. Günbəzli

örtüyə keçid qapalı yarımtağ şəklində irəli çıxarılmışdır (tablo 170, şək. 2). İmamzadənin "kufi" xətti ilə həkk olunmuş kitabəsi vardır.

Qəzvinin Ziyabad kəndinin mərkəzi meydanında yerləşən İmamzadə Vəli türbəsinin başlıca tikilisi olan qülləvari türbə XII əsrdə inşa edilmiş, sonrakı yüzilliklərdə digər tikililərin ona əlavə olunması ilə abidə ilkin formasını itirmiş və o yenidənqurma işləri nəticəsində imamzadəyə çevrilmişdir (C.Qiyasi, 1991, səh. 92).

Cənubi Azərbaycanda Culfa yaxınlığındakı Ələmdar kəndindəki imamzadə çapma qaya daşlarından ucaldılmış və uzunsov prizmatik tutuma malik olub, ikitağlı girişi vardır. Kompleksin əsasını 3,5 *m* diametrdə günbəzlə örtülmüş kvadrat biçimdə bina təşkil edir. Kompleksin künclərində yerləşən yarımdairəvi bürclər kontrforslar kimi ifadəlik elementi olmaqla yanaşı, həm də konstruktiv rol oynayırdılar (W.Kleiss, 1972, səh. 183; Р.Б.Амензаде, 2002, стр. 26).

Naxçıvan Muxtar Respublikasında imamzadə tipli dini-xatirə abidəsi Ordubad, Babək və Şərur rayonlarında, Naxçıvan şəhərinin ərazisində qeydə alınmışdır (A.Ə.Quluzadə, 2006). Sonuncu şəhərin cənub-şərqində, "Köhnə qala" adlanan sahədə, orta əsr qəbiristanlığında yerləşir. Kompleksə türbə, ona bitişik, ibadət və ayin üçün iki otaq daxildir. Türbə planda kvadrat, bitişik tikililər isə düzbucaqlı və kvadrat formadadır. Kompleksin özəyini təşkil edən türbənin XIV əsrdə inşa olunduğu ehtimal edilir, digər tikililər isə sonradan, Səfəvilər dövründə tikilmişdi (Ə.V.Salamzadə, 1976, səh. 58; Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1985, səh. 196; A.Ə.Quluzadə, 2006, səh. 192). Tədqiqatçılar kompleksin inşa tarixinin dəqiqləşdirilməsi üçün arxeoloji qazıntıların aparılmasının zəruriliyini xüsusi qeyd edirlər. Oxşar hal Cənubi Azərbaycandakı Ələmdar və Zəncan yaxınlığındakı Məhəmməd Tac imamzadələrində mövcuddur. Belə ki, alman arxeoloqu V.Klays kəşfiyyat xarakterli tədqiqatlarla həmin abidələri qacarlar dövrünə aid etdiyi halda, memar R.B.Əmənzadə onların orta əsr tikilisi olduğunu bildirir (W.Kleiss, 1972, p. 181 -183; Р.Б.Амензаде, 2002, стр. 25-27).

Bakıda İçərişəhərdə Qız qalası yanında aşkar edilən, yuxarıda qismən təsvir etdiyimiz tikinti qalığı da maraqlı dini tikililərdəndir (tablo 114). Tapıntı üç tərəfdən tağlı eyvanlarla əhatə olunmuşdur. Tağlar səkkiztinli sütunlar üstündə qurulmuşdur. Tikintinin həyəti kvadrat formaya malikdir, ortasında səkkizguşəli üçpilləli daş özül üstündə qoyulmuş sütun qalığı və quyu vardır. XIV-XVII əsrlərdə şəhərin müsəlman əhalisi öz ölülərini dəfn etmək üçün müqəddəs yer kimi buradakı həyətdən istifadə etmişdir. Buna görə arxeoloqlar həmin abidənin məscid və yaxud mədrəsə həyətində yerləşmiş dini abidə olduğunu göstərmişlər (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1973, səh. 354-355; 1976, səh. 197-198).

Cənubi Azərbaycanın Qədəmgah kəndindən şərqdə 1971-ci ildə alman arxeoloji ekspedisiyasının qeydə aldığı abidə də, görünür, dini təyinatlı olmuşdur (W.Kleiss, 1972, səh. 176). O, qayada çapılmış dairəvi və düzbucaq biçimli otaqlardan və uzunluğu 9 *m*, eni 1,6 *m*, hündürlüyü 2,5 *m* olan dəhlizdən ibarətdir

(tablo 171, şək. 1-2). Kompleksin əsas tikilisi diametri 15 *m*, hündürlüyü 17,8 *m* olan günbəz şəkilli otaq olub üstündə dairəvi açırım vardır. Onunla dəhliz arasında yerləşən otaq düzbucaqlı planda olub, uzunluğu 4,5 *m*, eni 3,2 *m*-dir. Onun hündürlüyü 2,7-4 *m* arasında dəyişir. Günbəzvari otaqda mehrab düzəldilmişdir. Mehrab stalaktitlərlə işlənmişdir (tablo 171, şək. 3).

V.Klays abidənin Səfəvilər dövrünə aid olduğunu bildirir (W.Kleiss, 1972, p. 177).

**Xristian məbədləri.** Alban dini memarlığı son orta əsrlərdə Şərqin xristian memarlığının ümumi qanunauyğunluqlarına söykənməklə, Azərbaycan müsəlman memarlığı ilə qarşılıqlı əlaqədə inkişaf etməkdə idi və yeni abidələrlə zənginləşirdi. Bu abidələr səsli-küylü şəhərlərdən uzaq, keçilməz dağlıq ərazilərdə ucaldılırdı. Alban dini memarlığının XVII əsrə qədər özünəməxsus orijinal inkişaf yolu davam etmişdir (Г.Г.Мамедова, 2004). Son alban xristian abidələri arasında XIII-XIX əsrlərdə alban katolikoslarının iqamətgahı olmuş Gəncəsər (Xəzinədağ) monastır kompleksi xüsusi yer tutur (Р.Б.Геюшев, 1973; Г.Г.Мамедова, 2004, стр. 120-124). Yuxarı Qarabağda, Ağdərə rayonunun Vəngli kəndində yerləşən bu abidə son alban memarlığının incisi kimi XIII əsrin ikinci qərinəsində Mehranilər sülaləsinin xələflərindən olan Arsax-Xaçın knyazı Həsən Cəlal tərəfindən inşa etdirilmiş, sonradan dəfələrlə təmir və bərpa olunmuşdur. Monastır kompleksi əraziyə münasibətdə hakim mövqeyə malik yüksəklikdə ucaldılmış və istehkamla qorunurdu. Kompleks baş məbəddən, ona qərb tərəfdən birləşən bir sıra yardımçı tikililərdən ibarətdir (tablo 172). Üçnefli baş məbəd ibadət salonu, cübbəxanalar, mehrab və zəngxanadan ibarət monumental tikilidir. Məbəd xaçvari günbəzli kompozisiya həllinə malikdir.

Müqəddəs Yelisey monastırının 1264-cü ildə inşa edilmiş baş məbədi plan həllinə görə Govurqala və Mingəçevirdəki erkən orta əsr bir nefli bazilikalarını xatırladır. Kobud yonulmuş daşdan tikilmiş, düzbucaq biçimli bu dini binanın qərb və cənubda olmaqla iki qapısı vardır. Tağ-tavanlı dam örtüyü uçulub tökülmüşdür. Monastır kompleksinə daxil olan sovmələr də öz orijinallığı ilə fərqlənir (Г.Г.Мамедова, 2004, стр. 106-107). Ağdərə rayonunun Kiçan məbədi yaxınlığındakı monastırın böyük kilsəsi ölçülərinə görə müqəddəs Yelisey monastırının baş məbədinə oxşar olub tağlı-salonlu məbədlər tipinə aid edilir (Г.Г.Мамедова, 2004, стр. 109).

Son orta əsrlərdə Alban xristian məbədləri Azərbaycanın şimal-qərb bölgəsində - Şəki-Balakən bölgəsində də inşa edilirdi. Kurmux, Çudulu Bina məbədləri belə abidələrdəndir.

## Xatirə və qəbir abidələri

Son orta əsrlərin qəbir abidələri əvvəllər olduğu kimi, əsasən müsəlman qəbirlərindən, xatirə abidələri türbələrdən, qəbirüstü məzar daşlarından, qoç və at fiqurlarından ibarətdir.

**Türbələr.** Bəhs olunan dövrdə türbələrin intensiv inşaatı davam etməkdə idi. Memarlıq ənənələrinin yaşaması və inkişafı bu abidələrdə özünü daha qabarıq büruzə verir. Olcaytu xan və Qarabağlar türbələri bəhs olunan dövrün xatirə tikililər memarlığının yüksək səviyyəsini sənədləşdirən abidələrdəndir. XIV əsrin xatirə memarlığının şah əsəri olan Olcaytu xan türbəsi iri dini - xatirə kompleksinin baş tikilisi olub, bədii obraz və quruluş etibarilə dünya memarlığında özünəməxsus yer tutan çox dəyərli sənət əsərlərindəndir (C.Qiyasi, 1985, səh. 10). Türbənin içəri məkanını 25,5 *m* diametrdə günbəzlə örtülü səkkizüzlü prizma yaradır. Türbənin yuxarıya doğru qalxdıqca yüngülləşən bayır tutumları kompozisiyada sakit, ancaq yuxarıya doğru güclü hərəkət doğurur. Gövdənin üst prizmatik qatını və günbəzi dövrələyən sıratağ və səkkiz incə minarə türbəyə olduqca orijinal və çox təntənəli memarlıq obrazı verir. Türbənin ikiqatlı günbəzi dünya günbəz inciləri sırasına daxil olub, Azərbaycan inşaat sənətinin böyük mühəndis uğurlarındandır (C.Qiyasi, 1985, səh. 10).

XIV-XV yüzilliklərin qülləvari türbələri Naxçıvanda, Qarabağda və Azərbaycanın digər bölgələrində də qeydə alınmışdır. Naxçıvan memarlıq məktəbinin nümayəndələri memar Əcəminin tətbiq etdiyi texniki üsulların və memarlıq üslubunun başlıca istiqamətlərini qoruyub saxlamışdılar. Bunu Naxçıvandakı Qarabağlar, İrəvan yaxınlığındakı, Zəngilan rayonunun Məmmədbəyli kəndindəki və Bərdədə 1322-ci ildə inşa olunmuş qülləvari türbələr əyani nümayiş etdirir.

Azərbaycan memarlığının qiymətli yadigarlarından olan, Naxçıvan Muxtar Respublikasının Qarabağlar kəndində yerləşən türbə əvvəlki dövr qülləvari türbələri kimi aşağı sərdabə və yuxarı yerüsrü tikili olmaqla iki hissədən ibarətdir. Türbənin yerüstü hissəsi kompozisiya quruluşunun özünəməxsusluğu ilə fərqlənir. Daş kürsülük üzərində yerləşən türbənin gövdəsi 12 yarımsilindrik birləşmədən əmələ gəlir. Belə quruluş kompozisiyaya dinamiklik və əzəmət verir. Yarım silindrik çıxıntılar divarın ümumi həcmini azaltmaqla bərabər, həm də xatirə abidəsinə qala görkəmi vermişdir. Bu türbənin kompozisiya xüsusiyyətinin digər səciyyəvi cəhəti onun dörd baş tağlı olmasındadır (Ə.Salamzadə, 1976, səh. 43-44).

İrəvan şəhərindən 8 *km* aralıda yerləşən Cəfərabad kəndindəki (hazırda Ermənistan Respublikasının Arqavand kəndi) türbədə arxeoloji qazıntılar aparılmışdır. Türbə böyük bir müsəlman qəbiristanlığında inşa edilmişdir. Vaxtilə burada bir neçə türbə olmuş, lakin onlardan yalnız biri mühafizə olunmuşdur (M.Neymətova, 1987, səh. 40).

Hündürlüyü 12 *m*-dən artıq olan bu qülləvari türbə 12 künclü olub, Naxçıvan memarlıq məktəbi ənənələrini özündə qabarıq əks etdirir (tablo 173, şək. 3). Abidə yeraltı sərdabədən və yerüstü qülləvari hissədən ibarətdir. Arxeoloji qazıntı nəticəsində sərdabəsinin 2,5x2,5 *m* ölçüdə kvadrat planda olduğu və günbəzlə örtüldüyü təsdiqlənmişdir. Sərdabəyə düşmək üçün şimal tərəfdə daş pilləkən vardır. Sərdabənin döşəməsində müsəlman adəti ilə dörd nəfər dəfn edilmişdi. Onlardan birinin skeleti daha yaxşı mühafizə olunmuşdu (А.А.Калантарян, 2000, стр. 153).

Yuxarıda qeyd edildiyi kimi, türbənin karnizinin altındakı "süls" qarışıq "nəsx" xətti ilə həkk edilmiş ərəbcə kitabə abidənin hicri 816 (1413)-cı ildə Əmir Pir Hüseynin sərəncamı ilə inşa olunduğunu bildirir (А.Д.Папазян, 1962, стр. 67; М.С.Неймат, 2001a, стр. 72-73).

Qarabağ ərazisində Naxçıvan memarlıq məktəbinin səciyyəvi əlamətlərini özündə əks etdirən abidə 1322-ci ildə Bərdə şəhərində Əhməd ibn Əyyub əl-Hafiz ən-Naxçıvaninin inşa etdiyi qülləvari türbədir (Л.С.Бретаницкий, 1966, стр. 176-180). Bərdə türbəsinin (tablo 173, şək. 2) bərpası ilə əlaqədar keçən əsrin 50-ci illərində ətrafında yoxlama qazıntıları aparılmışdır (Б.Гарник, 1960, стр. 177-184). Qazıntı nəticəsində mədəni təbəqənin xarakteri müəyyənləşdirilmiş, türbənin sərdabəsinin döşəməsi üzə çıxarılmış, sərdabəyə giriş yolu aşkarlanıb təmizlənmiş, bərpa üçün çoxlu kaşı bəzəklər və şirli kərpiclər tapılmışdır.

Yeraltı sərdabə və yerüstü onkünclü gövdədən ibarət bu türbədə bişmiş kərpicdən inşa olunmuş, kürsülüyə daş lövhələrdən üzlük vurulmuş, gövdənin bədii tərtibatında isə şirli kərpiclərdən istifadə olunmuşdur (tablo 173, şək. 2). Türbənin quruluş ölçülərindəki tarazlıq nisbətləri də onu XII əsr Naxçıvan-Marağa məktəbi abidələri ilə yaxınlaşdırır (М.С.Булатов, 1988, стр. 136). Türbənin şimal baştağı Azərbaycan memarlığında mükəmməl baştağlardan biridir. Türbənin həcmindən 30 *sm* irəli çıxan taxça-baştağ nəfis şəkildə işlənmişdir (R.B.Əmənzadə, 1995, səh. 36-37). Solmas və Xiyav şəhərlərindəki türbələr də Bərdə türbəsi ilə tipoloji eyniyyət təşkil edir.

Son orta əsrlərdə, xüsusilə XIV-XV əsrlərdə səkkizkünclü türbələr daha geniş yayılmışdır. Onlar Zəngilan, Qubadlı, Laçın, Füzuli, Qəbələ, Tovuz, Şamaxı rayonlarında və Abşeron yarımadasında, Naxçıvan Muxtar Respublikasında qeydə alınmışdır (А.В.Саламзаде, 1952, стр. 238, 243-244). Səkkizkünclü türbələr bir çox əlamətlərinə görə qülləvari türbələrə çox yaxındır. Onlar da qülləvari türbələrdə olduğu kimi, yerüstü və yeraltı kameradan ibarətdir. Bu tip türbələr bir qayda olaraq hakim sinfin orta səviyyəli nümayəndələrinin qəbirləri üzərində ucaldılırdı (А.В.Саламзаде, 1952, стр. 244). Şamaxının Şahide-Xəndan qəbiristanlığında kəşfiyyat xarakterli axtarışlar zamanı səkkizkünclü türbənin qalıqları aşkarlanmışdır. Türbənin içərisində iki məzar müəyyənləşdirilmişdir. Məzar daşları üzərindəki yazılar tamamilə pozulmuşdu. Lakin onların üzərindəki təsvirlər XIV-XV əsrlər üçün səciyyəvidir. Arxeoloq H.Ə.Ciddi yerli əhali arasında dolaşan rəvayətə

əsaslanaraq türbənin xalq arasında Şahide-Xəndan təxəllüsü ilə məşhur olan İmadəddin Nəsiminin qardaşına məxsus olduğunu bildirir (Г.А.ДЖИДДИ, 1981, стр. 105).

Zəngilan rayonunun Məmmədbəyli kəndindəki türbədə 1975-ci ildə arxeoloji tədqiqat işləri aparılmış, oradakı yeraltı sərdabə tam təmizlənmişdir (К.М.Мамедзаде и др., 1978, стр. 68-72). Türbə piramida formalı günbəzlə örtülmüş səkkiztilli prizmadan ibarət olub, şimal-qərb tərəfində giriş yeri vardır. Daşdan inşa edilmiş bu türbənin konstruktiv elementlərinin mütənasibliyi, kompozisiyasının bitkinliyi ona monumental görünüş verir. Türbənin günbəzi ikiqatlı olub daxildən kürəvi, bayır tərəfdən isə piramida formalıdır. 2,95x3,3 *m* ölçüdə olan düzbucaq biçimli sərdabəsi 1,9 *m* hündürlükdə çatmatavanla örtülmüşdür. Sərdabəyə giriş qərb tərəfdə olub, eni 76 *sm,* hündürlüyü 88 *sm*-dir.

Türbənin kitabəsi onun hicri 704-cü ildə Yəhya Məhəmməd Əlxacənin qəbri üstündə inşa edildiyini bildirir (М.С.Нейматова, 1975, стр. 473).

Zəngilan rayonunun Şərifan kəndində qeydə alınmış türbənin yalnız yeraltı hissəsi - sərdabəsi üzə çıxarılmışdır (N.Rzayev, 1973; Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1979, səh. 21). O, kvadrat biçimli olub tağ-tavanla örtülmüşdür. Yuxarı hissəsi stalaktitlə, yan tərəfləri nazik sütunlarla bəzədilmiş mehrab cənub divarında yerləşirdi (tablo 173, şək. 1).



**Məlikəjdər türbəsi. Laçın rayonu.**

Səkkizkünclü türbələr tipinə daxil olan Məlikəjdər türbəsi öz orijinal həcm quruluşu ilə seçilir. Laçın rayonunun Cicimli kəndində yerləşən bu türbə elmi dövriyyəyə hələ keçən əsrin 30-cu illərində daxil edilməsinə (И.П.Щеблыкин, 1936), dəfələrlə çap olunmasına, sovet və Azərbaycan memarlarının onun haqqında geniş məlumat verməsinə baxmayaraq, erməni arxeoloqu A.Simonyan Məlikəjdər türbəsini və onun yaxınlığındakı Kar Günbəz türbəsini Ermənistan Respublikasında yeni aşkar edilmiş abidə kimi təqdim etməyə cəhd göstərmişdir (А.Е.СИМОЯН, 2001). A.Simonyan işğal altında olan Azərbaycan abidələrinə Ermənistan Respublikasının təcavüzkar siyasətinə uyğun qeyd edilən türbələrin xronoloji və etnik mənsubiyyətini saxtalaşdıran səhv fikirlər irəli sürmüşdür.

Səkkizkünclü türbə qalıqları arxeoloji qazıntılarla Qəbələnin Səlbir sahəsinin şimal-şərqində də tədqiq edilmişdir. Onun bünövrəsi çaydaşından, yerüstü hissəsi isə yonulmuş iri daşlardan hörülmüşdür. Türbədə bir nəfər yaşlı, iki uşaq dəfn edilmişdi.

Günbəzli sərdabələr xatirə abidəsi kimi az yayılmışdı. Onların səciyyəvi xüsusiyyəti kvadrat biçimdə, girişi baştağla nəzərə çapdırılan günbəzli salonun olmasıdır. Belə abidələrin tipik nümunəsi Şirvanşahlar saray kompleksində Şirvanşahların sərdabəsidir (tablo 174). Bu qrupa Balaxanıdakı türbəni, habelə Lerik rayonundakı XIV əsrə aid edilən Xoca Seyid və Abodarde türbələrini aid etmək olar. Arxeoloji qazıntılarla Şirvanşahların sərdabəsi öyrənilmişdir. Onun kompozisiyasında kub həcm, günbəz və baştağ mühüm elementlərdir, həmdə Şirvan memarlığının gözəl nümunələrindən hesab olunan baştağ istər dekor zənginliyinə, istərsə də həcm-məkan əhəmiyyətinə görə kompozisiyanın baş elementidir (А.В.Саламзаде, 1952, стр. 248). Arxeoloji qazıntılar zamanı toplanmış kaşı qırıqları vaxtilə onun günbəzinin mavi şirli kaşılarla örtüldüyünü söyləməyə əsas verir. Baştağdakı kitabədən məlum olur ki, sərdabə memar isə Məhəmməd Əli tərəfindən Şirvanşah I Xəlilullahın sərəncamı ilə tikilmişdir. Arxeoloji qazıntı nəticəsində sərdabədə üç yaşlı, iki uşaq qəbri üzə çıxarılıb təmizlənmişdir. Bu qəbirlərin şirvanşahın anasının və oğullarının qəbirləri olduğu ehtimal olunur. Qəbirlərdən qızıl sırğalar, firuzə və yaqut qaşlı sancaqlar, qızıl saplı ipək parça qalıqları tapılmışdır (Н.В.Минкевич-Мустафаева, 1947, стр. 42-45).

Qülləvari-günbəzli türbələr qrupuna Beyləqanda 1966-cı ildə tədqiq olunmuş türbə, Naxçıvanda Der və Əlincəçay xanəgahındakı türbələr, Marağa yaxınlığındakı Günbəd-e Qafariyə aid edilir (А.В.Саламзаде, 1952, стр. 246; Q.M.Əhmədov, 1979, səh. 88; К.М.Мамедзаде, 1973, стр. 67-69).

Beyləqan şəhər xarabalıqlarında üç türbə arxeoloji qazıntılarla öyrənilmişdir. 1958-ci ildə sənətkarlar məhəlləsində, III qazıntı sahəsində tədqiq edilmiş türbə xaricdən kvadrat, daxildən isə dairəvi plana malik idi (tablo 175, şək. 1). İçərisinin diametri 4,7 *m*-ə bərabərdir. Giriş qapısının şimal-qərb tərəfdə yerləşdiyi ehtimal olunur (В.П.Фоменко, 1965; Q.M.Əhmədov, 1979). Türbə şəhər xarabalıqlarından| götürülmüş bişmiş kərpiclərdən əhəngli məhluldan istifadə etməklə inşa edilmiş, kaşılarla bəzədilmişdi. Kaşılar kvadrat, üç, altı, səkkiz bucaqlı və s. formada idi (tablo 175, şək. 3). Türbənin içərisində iki, ətrafında isə 12 qəbir aşkar edilmişdir (В.П.Фоменко, 1965). Türbədəki qəbirlər bişmiş kərpiclərlə hörülmüş, üstü eyni materialla bağlanmışdı.

2 saylı qəbir diqqəti daha çox çəkir (В.П.Фоменко, 1965, стр. 50-51). Qəbirin uzunluğu 2 *m,* eni baş tərəfdə 50 *sm,* ayaq tərəfdə 30 *sm* idi. Qəbirin dibində ağac çürüntüləri və parçaları vardı. Skelet kəlləsi qərbə tərəf uzadılmış vəziyyətdə yerləşmişdi. Skeletin kəllə tərəfində iki və ayaq tərəfində iki olmaqla qəbirdən dörd mis piyalə, 10 ədəd rombşəkilli, kənarları və ucu kəsilmiş oxşəkilli mis lövhə, 23

ədəd dəmir mıx tapılmışdır (tablo 175, şək. 4). Ölünün sol əlinin orta barmağına tünd-qırmızı rəngli qaşı olan qızıl üzük geydirilmişdi (tablo 175, şək. 6). Qabırğalarının nahiyəsində muncuqlar (tablo 175, şək. 5), kəllənin altından lent qalığı, eləcə də qəbirin müxtəlif yerlərindən çoxlu sap və parça qalıqları tapılmışdır. Tapıntılardan aydın olur ki, ölü paltarda, bəzəkləri ilə tabutda dəfn edilmişdi.

Türbənin ətrafında tədqiq olunan qəbirlər də eyni qayda ilə hörülərək üstü bişmiş kərpiclərlə örtülmüşdü. Onlardan yeddisi tam təmizlənmiş, beş qəbir isə dağıdılmış vəziyyətdə idi (В.П.Фоменко, 1965, стр. 51-53).

IV qazıntı sahəsində aşkara çıxarılmış türbə qalığı xaricdən səkkizguşəli, daxildən isə xaçvari plana malik idi və 21x21x4 *sm* ölçülü bişmiş kərpiclərlə hörülmüşdü. Türbənin 65 *sm* enində girişi şimal-qərbində idi. Onun hər iki tərəfində bayırdan kvadrat biçimli hörgü əlavə olunmuş və bu kvadratların içərisi torpaqla doldurulmuşdu. Türbənin içərisində üç hissədən ibarət mehrab düzəldilmiş, nəbati naxış və ərəb yazısı ilə bəzədilmişdi. Dörd yerdə gipsdən qəbirüstü sinədaşı düzəldilmişdi. Onlardan yalnız birinin altında skelet qalıqları, qabırğa sümüyü mühafizə olunmuşdu (Q.M.Əhmədov, 1979, səh. 88).

Beyləqanda 1966-cı ildə tədqiq olunmuş türbənin qalıqlarının hündürlüyü 1 *m*-ə qədər salamat qalmışdı. Sərdabə türbənin daxili həcminin əsasını təşkil edirdi. Planda xaçvari formaya malik olub, mərkəzində kvadrat biçimli salon, künclərdə isə dörd dərin olmayan taxça vardı. Qalıqlar əsasında mərkəzi salonun kürəvi və ya səkkizkünclü günbəzlə örtüldüyü ehtimal olunur (К.М.Мамедзаде, 1973). Döşəməsi torpaqdan olan sərdabənin cənub tərəfində, giriş qapısının qarşısında iki qəbir aşkar edilmişdir. Abidə kvadrat formada, bişmiş kərpicdən inşa olunmuşdur.

VI qazıntı sahəsində sərdabədən başqa daha on müsəlman qəbri aşkarlanıb tədqiq edilmişdir.

Beyləqan türbələri və onların ətrafındakı qəbirlər XIII əsrin ikinci yarısı - XIV əsrin əvvəllərinə aid edilir.

Türbə qalıqları arxeoloji qazıntılarla Ağdam rayonunun cənub-şərqində də tədqiq edilmişdir. Burada kənd təsərrüfatı işləri zamanı aşkarlanmış iki türbənin birində qazıntılar aparılmışdır. Türbənin sərdabəsi çaydaşından, üst divarları isə bişmiş kərpicdən hörülərək kaşılarla bəzədilmişdir. Türbənin kitabəsinin də kaşılarla tərtib edildiyi bildirilir. Türbə XIII-XIV əsrlərə aid edilir (Ф.А.Абласова, 1986, стр. 69).

Ağdam rayonunun Papravənd kəndində aşkarlanıb təmizlənən türbə kvadrat biçimli olub bayırdan 5,8x6 *m,* daxildən isə 5x5 *m* ölçüdədir. Türbənin salamat qalmış divarlarının hündürlüyü 1,4 *m*-dir. Divarlar əhəngdaşından hörülmüşdür. Türbəyə giriş şimal-qərb tərəfdən olub, hündürlüyü 1 *m,* eni 40 *sm* olan tağlı açırımdan ibarətdir. Türbə XIV əsrə aid edilir (К.М.Мамедзаде и др., 1978а, стр. 499).

Arxeoloji tədqiqatlara cəlb olunmuş maraqlı xatirə abidələrindən biri də Naxçıvan Muxtar Respublikasının Der kəndindəki türbələrdir. Arxeoloji qazıntılar aparılana qədər tədqiqatçılar orada üç türbənin yerləşdiyini qeyd etmişlər (Тер-Аветисян, 1927; В.М.Сысоев, 1929; М.Усейнов и др., 1963; Л.С.Бретаницкий, 1966, Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1979). Türbələrdən birinin güclü dağıntı nəticəsində yalnız kürsülük hissəsi qalmışdı, digəri isə nisbətən yaxşı mühafizə olunmuşdu. Qülləvari türbələrlə tipoloji əlaqəsi olan bu türbə kompozisiya və dekorativ xüsusiyyətlərinə görə digər türbələrdən fərqlənir (Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1979, səh. 16). Sərdabə hissə torpaqla dolmuşdu. 1976-1977-ci illərdə burada aparılan tədqiqatlar abidənin səkkizkünclü formaya malik olduğunu müəyyən etməyə imkan vermişdir. Çaydaşı ilə hörülmüş sərdabənin içərisinə bişmiş kərpiclərlə, türbə divarlarının kürsülüyünü təşkil edən yerüstü hissəsinə isə iri sal daşlarla və şirli kərpiclərlə üzlük vurulmuşdur. Türbənin dörd qapı yeri olmuş, onlardan biri qalmışdır və gözəl çatmatağı ilə diqqəti cəlb edir (K.M.Мамедзаде, 1983, стр. 91).

Der kəndində tədqiq olunmuş türbənin kitabəsi olmadığından onun inşa tarixi haqqında yekdil fikir yoxdur. Tədqiqatçıların bəziləri onun inşa olunma tarixini XIV əsrin birinci yarısına (Ə.V.Salamzadə, 1976, səh. 49; Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1979, səh. 17; K.M.Мамедзаде, 1983, стр. 92), digər alimlər isə abidəni XV əsrə aid edirlər (Л.С.Бретаницкий, 1966, стр. 266, Б.И.Ибрагимов, 2000, СТР. 51).

Xaraba-Gilan şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı da orta əsrlərin müxtəlif mərhələlərinə, o cümlədən son orta əsrlərə aid türbə və sərdabələr aşkarlanmışdır.

Türbə qalıqları və müsəlman qəbirləri Gürcüstanda orta əsr Dmanisi şəhərgahının yaxınlığındakı qəbiristanlıqda da arxeoloji qazıntılarla tədqiq edilmişdir (В.В.Джапаридзе, 1972; В.В.Джапаридзе, М.И.Синауридзе, 1971). 1970-ci ildə qəbiristanlığın şimalmda 36 *kv.m* sahədə aparılmış arxeoloji qazıntı nəticəsində XIII-XIV əsrlərə aid 21 müsəlman qəbri tədqiq olunmuş, qəbiristanlığın şərqində isə türbə qalıqları qeydə alınıb təmizlənmişdir (В.В.Джапаридзе, М.И.Синауридзе, 1971, стр. 388-389). Türbə qalıqları 1971-ci ildə qəbiristanlığın şimal-şərqində də aşkarlanmışdır. Buradakı türbələr dördbucaqlı hasarla əhatələnmişdi. Türbələrdən biri həyətin şimal-qərbində yerləşərək yonulmamış daşdan əhəngli məhlulla hörülmüşdü. Onun çatma tromplara dirənən tağı vardır. Digər türbə isə dairəvi biçimdə olub (d-6,1 *m*), bişmiş kərpicdən hörülmüşdü. Türbənin yalnız bünövrəsi və 40-50 *sm* hündürlüyə qədər divarları salamat qalmışdı. Türbənin divarının qalınlığı 1,1 *m* təşkil edirdi. Burada 13 qəbirüstü məzar daşı vardı (tablo 176, şək. 4). Beş qəbirüstü daşda qabarıq ərəb hərfləri ilə yazı qalmışdı, 6-cı qəbirdə isə sağ tildə dəvə, qatır, insan, tovuzquşu, günəş və digər təsvirlər həkk

olunmuşdu. Dəfn olunanlardan 6-sı uşaq və yeniyetmə idi. Qazıntılar əsasında türbələr XIII əsrin ikinci yarısı - XIV əsrə aid edilir (В.В.Джапаридзе, 1972).

Arxeoloji qazıntılarla son orta əsrlərə aid müsəlman qəbiristanlıqları Bakıda, Şabranda, Qəbələdə, Əliköməktəpədə, Zəyəmçayda, Şərifanda və s. yerlərdə də tədqiq olunmuşdur. Bakıda hazırkı 189 və 190 saylı məktəblərin ərazisində çökmə hadisəsi ilə əlaqədar 1963-cü ildə aparılan arxeoloji qazıntılar nəticəsində XIV-XV əsrlərə aid müsəlman qəbirləri üzə çıxarılmışdır. İçərişəhərdə, Qız qalası yaxınlığında aşkarlanmış (tablo 114), planda "П" formasına oxşayan abidənin həyətindən isə 50-yə yaxın müsəlman qəbri üzə çıxarılmışdır. Qəbirlər sıx yerləşmişdi. Qəbirlərin uzunluğu 1,8-2 *m,* eni 40-45 *sm* olub az yonulmuş daşla hörülmüş, üstü tava daşla örtülmüşdü. Qəbirlərdə skelet pis mühafizə olunmuşdu (Ö.Ş.İsmizadə, H.Ə.Ciddi, 1973, səh. 343-354).

Son orta əsrlərdə Şabran şəhərinin bir neçə qəbiristanlığı olmuşdu. Onların biri arxeoloji qazıntılar nəticəsində Şabrançaydan 700-800 *m* aralı, Dəvəçi rayonunun Molla Kamallı kəndi yaxınlığında aşkarlanıb tədqiq edilmişdir. Orada səkkiz qəbir təmizlənmiş, türbə tipli tikilinin varlığı müəyyənləşdirilmişdir (Р.Б.Геюшев, 1981,стр. 417).

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Şərifanda da Beyləqanda olduğu kimi qəbirlər bişmiş kərpicdən əhəngli məhlulla hörülmüşdür (N.Rzayev, 1973, səh. 338). Qəbirlərin bişmiş kərpiclə hörülməsi Əliköməktəpədəki son orta əsr müsəlman qəbiristanlığında da qeydə alınmışdır. Arxeoloji qazıntılar Əliköməktəpədə qədim yaşayış yerinin üst, son eneolit dövrü inşaat qatının müsəlman qəbirləri ilə güclü dağıntıya məruz qaldığını göstərmişdir. Burada 80-dən artıq qəbir və türbə qalığı aşkarlanıb tədqiq edilmişdir (Ф.Р.Махмудов, И.Г.Нариманов, 1975, 1976). Şəmkir rayonunda isə II Keçili qədim yaşayış yerində arxeoloji qazıntılar aparılarkən orada da oxşar hal qeydə alınmışdır. Müəyyən olunmuşdur ki, qalınlığı 1,7 *m*-ə çatan son eneolit dövrü mədəni təbəqəsi son orta əsr müsəlman qəbirləri ilə dağıntıya məruz qalmışdır və orada 60-a yaxın qəbir tədqiq edilmişdir (Г.П.Кесаманлы., 1978, стр. 24).

Gilançayın sol sahilində, Bal dərəsində tədqiq olunmuş qəbirlər yerüstü əlamətlərinə görə Plovdağın orta tunc dövrünə aid qurbangahlı kurqanlarını xatırlatması ilə diqqəti çəkir. Ümumiyyətlə, Naxçıvanın orta əsr qəbirlərinin, xüsusilə sərdabələrin qədim kurqan və sərdabələrlə müqayisəli təhlili qədim dəfn adəti ünsürlərinin son orta əsrlərə qədər davam etdiyini göstərir (B.İ.İbrahimli, 2007).

**Məzar daşları.** Qəbirüstü xatirə abidələrinin ən geniş yayılmış forması məzar daşlarıdır. Dəfnlə bağlı qəm-qüssəni, kədəri daha qabarıq ifadə edən bu abidələr humanist məna kəsb edib incə dekoru, üzərindəki nəsihətamiz kəlamları ilə fərqlənir. Son orta əsrlərə aid məzar daşları Azərbaycanın bütün bölgələrində qeydə alınmış və onların məhəlli xüsusiyyətləri üzə çıxarılmışdır. Tipoloji baxımdan məzar

daşları aşağıdakı qruplara ayrılır: sənduqələr, sinədaşıları, başdaşıları, qoç və at fiqurları.

Qəbrin üzərində qərb-şərq oxu üzrə yerləşdirilən sənduqələr üçün ikipilləli düzbucaq və ya paralelepiped forması səciyyəvi idi (М.С.Нейматова, 1981, стр. 4; И.М.Джафарзаде, С.К.Джафарзаде 1956, стр. 104, П.М.Дебиров, 1966, стр. 34). Bir qayda olaraq onların üstü müstəvi, yaxud sarkofaq şəklində düzəldilirdi. Sənduqələr yerli xammal mənbələrindən asılı olaraq müxtəlif cins daşlardan hazırlanırdı. Şirvan, Abşeron bölgəsində əhəngdaşından, Azərbaycanın şimal-qərb bölgəsində çaydaşından, Qərbi Azərbaycan, Naxçıvan bölgəsində mərmər cinsli daşdan və tufdan istifadə olunurdu. Sənduqələrin bədii tərtibatında həkkaklıq naqqaşlıqla qovuşurdu. Sənduqəyə kitabəni həkk edən həkkak həm də onun boş qalmış sahələrinə naxış salırdı. Əhəngdaşından hazırlanmış məzar daşları daha zəngin bəzədilirdi. Az rast gələn mərmər daşdan yonulmuş sənduqələr də kifayət qədər zəngin bədii tərtibata malik idi.

Başdaşıları 2-2,5 *m* hündürlükdə, 30-60 *sm* enində, 10-15 *sm* qalınlıqda düzbucaq formalı yonulmaqla qəbrin baş tərəfində, üzü şərqə istiqamətlənmiş şəkildə yerləşdirilirdi. Onların yuxarı hissəsi düzbucaqlı, oval, çatmatağ, üçləçəkli formada tamamlanırdı. Başdaşı 40-50 *sm* yerə basdırıldığından aşağı tərəfi kobud, naxışsız olurdu, yuxarısının xüsusilə üz tərəfində kitabə həkk edilir, əsasən həndəsi və nəbati naxışlardan ibarət bəzək salınırdı. Başdaşılarının arxa tərəfi, yəni qərbə yönələn üzündə bir qayda olaraq kitabə olmurdu, bəzi hallarda naxış və ya mərhumun istifadə etdiyi əşyaların təsviri verilirdi (И.М.Джафарзаде, С.К.Джафарзаде, 1956, стр. 104).

Bəzən qəbirlərin üzərində həm başdaşı, həm də sənduqə birlikdə qoyulurdu. Belə qəbirlərə Abşeron-Şirvan bölgəsində daha çox təsadüf olunur.

XVII əsrdə Abşeronda, Bərdədə və Azərbaycanın bəzi digər bölgələrində "sinədaşı" adlanan müstəvi daşdan ibarət məzar daşları da düzəldilirdi (М.С.Нейматова, 1981, стр. 4). Adətən onların üst tərəfinə epitafiya və naxışlar salınırdı. Buzovnadakı orta əsr qəbiristanlığında, XVII əsrə aid məzar daşları arasında ikiüzlü oymalarla işlənmiş nümunələr də vardır. Rəvayətlərə görə, belə qəbir daşlarının içərisində şam yandırıb qoyarmışlar (R.Əfəndi, 1976, səh. 68).

Əliköməktəpədə qazıntılar zamanı uşaq qəbrinin üstündə aşkarlanmış məzar daşı orijinal quruluşu - beşik formasında hazırlanması ilə diqqəti cəlb etmişdir (Ф.Р.Махмудов, И.Г.Нариманов, 1975, стр. 473).

Məzar daşlarının üçüncü mühüm qrupunu qoç və at fiqurlarından ibarət qəbirüstü xatirə abidələri təşkil edir (tablo 177; 178). Plastik sənət tarixinə və əhalinin dini inanclarına işıq saçan həmin abidələr Azərbaycanın bütün bölgələrində -Gəncə-Qazax, Gədəbəy, Laçın, Kəlbəcər, Lerik-Yardımlı, Naxçıvan-Zəngəzur, Borçalı bölgələrində, Cənubi Azərbaycanın Şərqi Azərbaycan və Qərbi Azərbaycan əyalətlərində yayılmışdır (М.С.Нейматова, 1981, стр. 8-9; 2001a, səh. 42-43;

R.Əfəndi, 1976, səh. 69-72; A.İ.Ələkbərov, 2006; S.K.Kərimov, 2006, səh. 98-103; Azərbaycan incəsənəti, 1992, səh. 176-180; W.Kleiss, 1969; 1971; 1972).

Keçən əsrin sonlarında təkcə Naxçıvan Muxtar Respublikasında 150-dən çox qoç daş qeydə alınmışdır (Ф.Сафаров, 1987, стр. 83).

1926-1927-ci illərdə Naxçıvan-Zəngəzur bölgəsində daş qoç fiqurlarını tədqiq edən V.M.Sisoyev bu qəbirüstü abidələr haqqında olduqca maraqlı məlumat toplamışdır. O bildirir ki, yerli əhali daş qoç fiqurlarını müqəddəsləşdirərək ona sitayiş edir. Onlar qoç daşları qədim qəbiristanlıqlardan, dağlardan və digər yerlərdən taparaq hörmət əlaməti olaraq öz qohumlarının qəbri üstünə qoyurlar. Daha sonra tədqiqatçı yazır ki, "Naxçıvanın şərqində köhnə qəbiristanlıq yaxınlığında qırmızı daşdan yonulmuş, uzunluğu 1,5 *m*, hündürlüyü 62 *sm*, eni 40 *sm* olan qıvrım buynuzlu bir qoç fiquru gördüm. Burada uşaqları olmayan qadınlar arasında belə bir şayiə yayılmışdır ki, kim bu qoçun ayaqları arasından sürünərək o biri tərəfə keçərsə, onun mütləq uşağı olacaqdır" (В.М.Сысоев, 1929, стр. 125).

Qoç daşların Qaraqoyunlu və Ağqoyunlu tayfaları ilə bağlılığı şübhə doğurmur və bu tayfaların Azərbaycanda hakimiyyətə gəlişi ilə bir sıra qədim dini inancların, ənənələrin dirçəlişi baş vermiş, keçmişdə xalq inamlarında totem xarakteri daşıyan qoç fiqurları qəbirüstü abidə kimi geniş yayılmışdır. Qeyd edək ki, türk tayfalarında dəfn mərasimi ilə bağlı qoç fiqurlarından istifadə qədim tarixə malikdir. 1957-1958-ci illərdə Monqolustanda, Ulan-Bator şəhərindən 400 *km* qərbdə türk xaqanı Kül-Təkinin sərdabəsində arxeoloji qazıntı apararkən, girişdə qarşı-qarşıya qoyulmuş daşdan iki qoç fiquru aşkarlanmışdı (Я.И.Шерр, 1966, стр. 18; Е.А.Новгородова, 1977, стр. 207; М.С.Нейматова, 2001а, стр. 43).

Ümumiyyətlə, tədqiqatçılar qoç heykəllərin qəbirüstü abidə kimi qoyulması adətinin qədim türk tayfalarından ilk dəfə oğuzlarda meydana gəldiyini bildirirlər.

Gəncə-Qazax, Qarabağ bölgələrinin qoç daşları bir sıra arxaik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Uzunluğu 80-90 *sm*, hündürlüyü 50-60 *sm* olan bu abidələr öz monumentallığı, formalarının ümumiləşdirilmiş bir səpkidə işlənməsi ilə fərqlənir. Naxçıvan-Zəngəzur bölgəsinin daş qoç heykəlləri həm ölçülərinin müxtəlifliyi, həm də forma və dekor zənginliyi ilə seçilirlər (Р.Эфэндиев, 1984).

Son orta əsrlərdə Azərbaycanda məzarüstü xatirə abidəsi kimi daş at heykəllərə Gəncə-Qazax, Laçın və Kəlbəcərdə və digər bölgələrdə rast gəlinir. Nisbətən erkən qəbirüstü daş at heykəli Şərqi Gürcüstanın orta əsr müsəlman qəbiristanlığında qeydə alınmış, hal-hazırda Gürcüstan Dövlət Muzeyinin Msxeti filialının həyətinə qoyulmuşdur. Onlardan biri hicri 741 (1340/1341)-ci ildə Kərəm xanın qəbri üstünə qoyulmuşdu. Daş at heykəlinin qabaq və arxa ayaqları vahid daşdan yonulmuş, dərin xətlə bir-birindən ayrılmışdır. Heykəlin üzərində at əsləhələri, xüsusilə yüyən, yəhər və üzəngi qabarıq nəzərə çarpdırılmışdır. Sağ tərəfində insan təsviri, sol tərəfində isə qılınc və tamğa təsviri verilmişdir (М.С.Нейматова, 1981, стр. 16, рис. 196). Tədqiqatçılar belə tamğaların oğuz

tayfasına məxsus olduğunu bildirirlər. Laçın rayonunun Malıbəy kəndində qeydə alınmış XVI əsrə aid üç at heykəlində də oğuz tayfalarına məxsus tamğaya təsadüf edirik (М.С.Неймат, 2001a, стр. 43). Üzərində at heykəli olan qəbirləri əhalinin "oğuz zağası" adlandırması da təsadüfi olmayıb, oğuz tayfalarının qədim dəfn adətində atla bağlı mərasimlərin müsəlman dəfn adətinə uyğunlaşdırılaraq transformasiya olunmuş şəraitdə yaşadığını göstərir.

Bəhs olunan dövrdə Naxçıvan diyarının Culfa bölgəsində, Kəlbəcər, Gədəbəy və Yuxarı Qarabağda xristian alban əhalinin məzarüstü xatirə abidələri kimi xaçdaşlar yayılmışdı (Д.А.Ахундов, 1985, стр. 77-78; 1986, стр. 238-248). Qanzasar monastır kompleksində Arsax-Xaçın knyazı Həsən Cəlal üçün qoyulmuş ktitor xaçdaşı quruluş və bədii-rəmzi tərtibat etibarilə Qafqaz Albaniyasının dini-mərasim kanonlarına uyğun düzəldilmişdir. Bu xaçdaşın yanındakı, ona bənzər digər xaçdaşın Həsən Cəlalın oğluna aid olduğu bildirilir. Hər iki xaçdaşda üçpilləli simvolika - dünyanın quruluşunun izahı diqqətə çatdırılmışdır (D.A.Axundov, M.A.Axundov, 1984, səh. 85). Alban xaçdaşlarının mühüm əlamətlərindən biri onların quruluşunda hündürlüyün enə 2-5 nisbətdə olması, daha çox müsəlman başdaşılarını xatırlatmasındadır. Bu əlamət Culfa xaçdaşlarında özünü daha qabarıq büruzə verir. Məsələn, Culfada alban əyanın qəbri üstünə qoyulmuş 1318-ci il tarixli xaçdaş Azərbaycanın müxtəlif bölgələrində yayılmış başdaşı tipli müsəlman qəbirüstü məzar daşlarının forması ilə eyniyyət təşkil edir. Yuxarıya doğru tədricən enlənən bu məzar daşının üstü yarımdairəvi tağla tamamlanır. Üz tərəfində xaç həkk olunmuşdur (Д.А.Ахундов, 1986, стр. 249-250).

Beləliklə, arxeoloji dəlillər son orta əsrlərdə bütün ölkə ərazisində müsəlman qaydası ilə dəfnin əsas dəfn adəti olduğunu, hələ XI-XII əsrlərdən məlum olan türbə tipli xatirə abidələrinin daha da geniş yayıldığını, qəbirüstü məzar daşlarının zəngin naxışlandığını, qoç, at heykəllərindən ibarət qəbirüstü abidələrin meydana çıxıb Azərbaycanın əksər bölgələrində yayıldığını göstərir. Naxçıvanın Culfa bölgəsinin, Kəlbəcər, Laçın, Gədəbəy və Yuxarı Qarabağın alban əhalisi arasında xristian adəti ilə dəfnetmə adəti qalmaqda idi.

# NƏTİCƏ

İnamla demək olar ki, arxeoloji tədqiqatlar aparmadan Azərbaycanın feodal cəmiyyətinin tarixini hərtərəfli işıqlandırmaq qeyri-mümkündür. Məhz zəngin arxeoloji mənbə kütləsinin ümumiləşdirilməsi, təhlili və şərhi feodal cəmiyyətinin sosial-iqtisadi və mədəni inkişafının bir çox mürəkkəb məsələlərinin həllinə imkan vermişdir.

Yuxarıda sadalanan arxeoloji materiallar, numizmatik və epiqrafik dəlillər, həmçinin yazılı qaynaqların məlumatları IX-XIII əsrin əvvəllərində Azərbaycanda iqtisadiyyatın və mədəniyyətin inkişaf etdiyini, Azərbaycanın Şərqin feodal iqtisadi sistemində mühüm yer tutduğunu aydın göstərir. İqtisadi tərəqqinin mühüm amillərindən biri süni suvarmaya əsaslanan əkinçiliyin geniş yayılması, əhalini ərzaq, sənətkarlığı xammalla təmin edən kənd təsərrüfatı məhsullarının istehsalının xeyli artmasında idi. Məhz bunun nəticəsi idi ki, IX-X əsrlərdə xüsusilə düzən və dağətəyi bölgələrdə kənd tipli yaşayış məskənlərinin sıx şəbəkəsi yaranmışdı.

Şəhərlər hələ IX-X əsrlərdə böyük inkişaf yoluna qədəm qoyur, iri sənətkarlıq və ticarət mərkəzlərinə çevrilirdi. Onlar ölkənin iqtisadi, siyasi və mədəni həyatında xüsusi rol oynayırdı. Şəhər həyat tərzinin möhkəmlənməsi və müvafiq sosial-psixoloji mühitin bərqərar olması cəmiyyətin istehsal, demoqrafik və mədəni inkişafına müsbət təsir göstərir, müxtəlif şəhərlərdə fəallığı və təşəbbüskarlığı artırırdı. Onlar nəinki ərazi cəhətdən genişlənir, həm də üzvi surətdə özlərinin daxili inkişafını da davam etdirirdilər. Şəhərlər tədricən narınqalanın və şəhristanın ərazisindən kənara çıxır, öz sərhədlərini sənətkarlıq və ticarət məhəllələri hesabına artırırdılar. Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycan şəhərləri də topoqrafik baxımdan narınqala, şəhristan və rabaddan ibarət olmaqla monumental tikililərin yeni tipləri ilə zənginləşirdi. Şəhərlərin etibarlı müdafiə sistemi var idi. Adətən, şəhərlərin narınqala və şəhristan hissələri möhtəşəm qala divarları ilə qorunurdu. Bəzən rabadın da müdafiə tikililəri olurdu. Qala divarları bürclərlə möhkəmləndirilir, kifayət qədər hündür idi.

IX-XIII əsrin əvvəllərində şəhərlərdə intensiv həyatın mövcud olduğunu sübuta yetirən ən tutarlı dəlil həmin dövrə aid mədəni təbəqə yatımının qalınlığı, olduqca dolğunluğu və zənginliyidir.

XI-XII yüzilliklərdə urbanizasiya prosesi daha da sürətlənir, Azərbaycanın feodal şəhərləri özlərinin yüksəliş çağını keçirirdi. Əgər IX-X əsrləri Azərbaycanın orta əsr şəhərlərinin formalaşmasının başa çatdığı dövr hesab etmək mümkünsə, XI-XII əsrləri şəhər həyatının yüksəlişi, çiçəklənmə dövrü adlandırmaq olar. Ölkənin iqtisadi, siyasi və mədəni həyatında şəhərlərin əhəmiyyəti artmışdı. Bu dövrdə

Azərbaycanda 70-ə yaxın iri və xırda şəhər mövcud idi. Şəhərlərdə istehkam tikililəri çoxalır, sarayların, ictimai və yaşayış binalarının, təsərrüfat qurğularının sayı artır, mədəni-məişət obyektlərinin - mədrəsələrin, xanəgahların, məscidlərin, su kəmərlərinin və kanalizasiya xətlərinin inşası xeyli genişlənirdi. Şəhərlərin abadlıq səviyyəsi yüksəlmişdi. Urbanizasiya prosesinin vüsəti sənətkarlığın yüksək inkişafında, sənətdaxili ixtisaslaşmanın dərinləşməsində və sənətkarlıq məmulatının standartlaşmasında özünü büruzə verirdi. Şəhərlərin rabadın - sənətkarlıq-ticarət sahələrinin və bazar yerlərinin hesabına genişlənməsi, qaynar iqtisadi həyatın şəhristandan buraya keçməsi dövrün səciyyəvi xüsusiyyətlərindən idi. Sənətdaxili ixtisaslaşma şəhərlər arasında da ixtisaslaşmanı artırır, hər şəhər müəyyən sənət sahəsi üzrə şöhrət qazanmağa başlayırdı. Şəhərlərin onları əhatə edən əyalətlərlə əlaqəsi güclənirdi. Kənd təsərrüfatı məhsullarının bir hissəsi şəhərlərdə emal edilir, şəhərlərin inkişafında kənd nahiyəsi özünəməxsus rol oynayırdı. Əkinçiliyin yüksək inkişaf etdiyi bölgələrdə şəhərlərin inkişafı üçün daha əlverişli iqtisadi zəmin mövcud idi. Arxlar və digər irriqasiya qalıqları inkişaf etmiş orta əsrlərdə bu sahəyə böyük qayğı göstərildiyini təsdiqləyir. Kənd nahiyəsi şəhər əhalisini ərzaqla, şəhər sənətkarlığını isə xammalla təmin edirdi. Şəhərlərdə istehsal olunan sənətkarlıq məmulatının xeyli hissəsi kəndlərdə realizə olunurdu.

Orta əsrlərdə, xüsusilə XI-XII yüzillərdə şəhərlərdə bədii məmulat istehsal edən sənət sahələri geniş yayılmışdı. Bədii sənətkarlıq canlı şəhər bazarları ilə əlaqəli idi. Sənətkarlar xalq yaradıcılığı motivlərindən daha çox faydalanmağa başlayırlar.

Azərbaycan şəhərlərini ticarət - karvan yolları birləşdirirdi. Karvan yollarında körpülər və karvansaralar, xanəgahlar və daimi dayanacaqlar tikilirdi. Belə yollardan tacirlər yerli və beynəlxalq ticarətdə fəal istifadə edirdi. Arxeoloji materiallar və yazılı qaynaqlar Azərbaycanın bu dövrdə Şimal ölkələri, Bizans, Yaxın və Orta Şərq ölkələri, hətta uzaq Çinlə ticarət və mədəni əlaqələr saxladığını xəbər verir. Məhz bu əlaqələr zəminində, 850 il bundan qabaq, böyük Nizami Gəncəvi Bəhram Gurun sarayına Hindistan və qədim Rus, Türküstan və Rum, Xarəzm və Misir, həmçinin Çin ölkəsindən gəlmiş gözəlləri xəyalən toplaya bilmişdi.

Şəhərlərdə sənətkarlar böyük ictimai qüvvəyə çevrilmişdi. Şəhərin zəhmətkeş əhalisi özünün siyasi rolunu dərk edərək siyasi-ictimai tələblərlə çıxış edirdi. Buna parlaq misal kimi XII əsrin əvvəllərində baş vermiş Beyləqan üsyanını göstərmək olar. Oxşar üsyanlar Gəncədə, Təbrizdə, Dərbənddə və başqa yerlərdə də olmuşdur. Dövlət xəzinəsinin əsasını əhalidən toplanan vergilər təşkil edirdi. Ölkədə vergilər əsasən pul ilə toplanırdı.

Arxeoloji qazıntılar göstərir ki, şəhərlərin mərkəzi hissəsində (narınqala və şəhristanda) gözəl və əsaslı binalarda imkanlılar yaşamış, sənətkarlar və şəhər yoxsulları, əsas etibarilə qala divarları kənarlarında, qalaətrafı müdafiəsiz ərazilərdə məskun olmuşlar. Buna görə qiymətli əşyaların əsas kütləsi (İranın fayans qabları,

Suriya və Misirin şüşə əşyaları, Çinin seladonu və yerli ustaların hazırladıqları qiymətli əşyalar) ən çox mərkəzdə yerləşən məhəllələrdən tapılır.

Rəsmi din, dövlət ideologiyası kimi İslamın qəbulu və yayılması məişət və mədəniyyətin müxtəlif sahələrinə güclü təsir göstərirdi, xalqın birləşməsi və onun mənəvi inkişafında mühüm rol oynayırdı. Şərqin digər müsəlman ölkələri ilə mədəni əlaqələr genişlənirdi. Vahid din, eyni hüquqi-əxlaqi normalar, oxşar sosial-iqtisadi inkişaf və psixoloji durum mədəniyyətdə ümumi cəhətləri doğururdu. Bununla belə Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin özünəməxsus xüsusiyyətləri qorunub saxlanılırdı.

Şəhərlərdə mədəni həyat onların iqtisadi həyatının, sənətkarlıq və ticarətinin, xariclə əlaqələrinin zəminində formalaşır və inkişaf edirdi. Şəhərlərin maddi mədəniyyəti hər şeydən əvvəl sənətkarlıqla bağlı idi. Hələ IX-X əsrlərdən etibarən şəhər tikintilərində bişmiş kərpicdən geniş istifadə olunmağa başlanıldı. Elə bu dövrdə döşəmələrin daş və kərpiclərlə döşənməsi, örtülü su kəmərlərinin tikintisi meydana gəlirdi. XI-XII əsrləri bişmiş kərpic memarlığının təntənəsi dövrü adlandırmaq olar. Bunun məntiqi nəticəsi kimi şirli kərpic və kaşı istehsalına başlanıldı. İctimai-dini binaların və yaşayış evlərinin inşaatında müsəlman memarlığı üçün səciyyəvi olan çatmatağ tavanlardan, günbəzlərdən, çatmatağlı portallardan, şəbəkəli daş pəncərələrdən, stalaktit karnizlərdən və digər konstruktiv elementlərdən geniş istifadə edilirdi. Binaların memarlıq bəzəyinə diqqət artmışdı. Yanğın və tüstü verən, səs-küy qaldıran sənət sahələri xüsusi məhəllələrdə yerləşdirilirdi ki, bu da şəhərsalma mədəniyyətinin yüksək səviyyədə olduğunu göstərir. Saxsı məmulatı istehsalında şirin kəşfi, şüşə qab istehsalında müxtəlif rənglərin tətbiqi, toxuculuqda zəngin boyaqlardan istifadə olunması, metalişləmədə müxtəlif texniki nailiyyətlərin əldə edilməsi və s. böyük əhəmiyyətə malik idi. Dulusçuların, şüşəçilərin, daşyonanların, misgərlərin, zərgərlərin, sümükişləyənlərin və digər sənətkarların hazırladıqları məmulatın gözəl formaları onları əsil sənət əsərləri kimi qiymətləndirməyə əsas verirdi.

Azərbaycan şəhərlərinin maddi və mənəvi mədəniyyətinin həqiqi çiçəklənməsi XII-XIII əsrin əvvəllərinə aiddir. Böyük Nizami Gəncəvi də bu dövrdə yazıb-yaratmışdır. Böyük Səlcuqlar dövründə, eləcə də Böyük Səlcuq dövləti zəiflədikdən sonra hakimiyyətə gəlmiş yerli sülalələr dini ehkamları möhkəmləndirməkdən çox yerli ənənələrin, dünyəvi dünyagörüşün gücləndirilməsinə fikir verirdilər. Məhz bu dövrdə memarlıqda və tətbiqi incəsənətdə yerli ənənələr xeyli canlanmağa başlandı. Dünyəvi görüşlərin və humanist ideallarin güclənməsi üçün yollar açıldı. Yerli memarlıq məktəbləri - Arran, Naxçıvan-Marağa və Şirvan-Abşeron məktəbləri yaranıb inkişaf etdi. Azərbaycanda şəhərsalma mədəniyyəti güclənir, şəhərlərdə böyük tikinti kompleksləri meydana gəlir, şəhərlərin mərkəzi rayonları formalaşırdı. Azərbaycan memarları nəinki öz ölkələrində, hətta Orta və Kiçik Asiyada, Krımda və başqa

yerlərdə əzəmətli abidələr yaradırdılar. Məhz bu əsrlərdə Azərbaycan dünyaya böyük mütəfəkkirlər, memarlar, şairlər, alimlər ordusu bəxş etmişdir. Bunların içərisində filosof Bəhmənyarın, filosof və ədəbiyyatşünas Xətib Təbrizinin, tarixçi Məsud ibn Namdarın, şairə Məhsəti Gəncəvinin, şair Xaqani Şirvaninin, memar Əcəmi Naxçıvaninin adlarını göstərmək olar. Azərbaycanın ictimai və mədəni fikrinin zirvəsində Nizami Gəncəvinin yaradıcılığı dururdu. Nizaminin "Xəmsə"si bütün Şərq poeziyasının inkişafına böyük təsir göstərmişdir. Nizami Gəncəvi şəhər sənətkarlarının ideoloqu idi, onun yaradıcılığında şəhər əhalisinin müxtəlif təbəqələrinin, şəhər mədəniyyəti daşıyıcılarının ideyaları tərənnüm edilmişdir.

XII-XIII əsrin əvvəllərində şəhərlərin və xüsusilə sənətkarlığın ölkənin həyatında möhkəm mövqe tutmasının nəticəsi idi ki, onlar güclü monqol dağıntılarından sonra belə bərpa olunub, yenidən inkişaf etmək imkanı əldə edə bildilər.

Monqol işğalı, Azərbaycanın Elxanilər və Qızıl Orda dövlətləri arasında uzun sürən müharibələr meydanı olması ölkənin şəhər və kəndlərinin müflisləşməsi, yaşayış məskənlərinin çoxunun xarabazara çevrilməsi, əhalisinin məhvi, sənətkarların əsir alınaraq başqa ölkələrə aparılması ilə nəticələndi.

Bütün bu hadisələrin ağır nəticələrini arxeoloji abidələr kifayət qədər obyektiv surətdə özündə əks etdirir. Arxeoloji abidələrin külliyyatının və xəritəsinin tərtib olunduğu Şimal-Şərqi Azərbaycanda XIII əsrin əvvəllərində mövcud olmuş 36 yaşayış məskənindən 26-sı xarabazara çevrilmiş, əhali həmin yaşayış məntəqələrini tərk etmişdi. Düzən və dağətəyi zonalar daha çox dağıntıya məruz qalmışdı. Şirvanın şimalında aşkarlanmış dəfinələrin çoxunun XIII əsrin ortalarında basdırılması o dövrün qətl-qarətlə zəngin qeyri-sabit durumunun nəticəsi idi. Əhalinin kütləvi məhvi, irriqasiya qurğularının dağıdılması kənd təsərrüfatına ağır zərbə vurmuş oldu. Xüsusilə süni suvarmaya əsaslanan düzən bölgələrdə əkinçilik təsərrüfatının bərpası uzun müddət qeyri-mümkün oldu. Həmin bölgələrdən monqol feodallarının qışlaq kimi istifadə etməsi də müəyyən təsirə malik idi. Kənd nahiyəsinin dağıdılması öz növbəsində düzən bölgələrdəki Beyləqan və digər dağıdılmış şəhərlərin də bərpasını mümkünsüz edirdi.

Məhsuldar qüvvələrin inkişafını ləngidən, iqtisadiyyatın bərpa və tərəqqisinə mane olan amillərdən biri də monqolların özləri ilə birlikdə ölkəyə geridə qalmış sosial-iqtisadi münasibətləri gətirməsi idi. Xüsusilə köçəri əyanların sosial-iqtisadi və siyasi həyatda aparıcı rol oynaması, maldarlıq təsərrüfatının genişləndirilməsində maraqlı olması vəziyyəti daha da ağırlaşdırırdı.

Monqol ağalığının nəticələri Azərbaycanm müxtəlif bölgələrində eyni olmamışdır. Cənubi Azərbaycanın Elxanilər dövlətinin mərkəz vilayətinə çevrilməsi, Təbrizin bu nəhəng dövlətin paytaxtı olması burada dağıntı və tənəzzülün nəticələrini qısa müddətdə aradan qaldırmağa imkan vermişdi. Köçəri monqol

noyonlarının qışlağına çevrilən Arran və Qarabağ bölgəsinin tənəzzülü daha dərin idi. Şirvanın durumunu bu iki əks qütb arasında orta dərəcədə qiymətləndirmək olar.

Qazan xanın islahatları ilə dövlət səviyyəsində əkinçilik, sənətkarlıq və ticarətin dirçəlişinə qayğı göstərilməsi, yeni şəhər və kəndlərin salınması ölkədə iqtisadiyyatın, şəhər həyatının canlanmasına imkan verdi. Arxeoloji tədqiqatlar kənd məskənlərinin daha çox dağətəyi və dağlıq ərazilərdə, yeni şəhərlərin isə əsasən beynəlxalq ticarət yolları üzərində salındığını göstərir. Xəzər dənizinin qərb sahilində, Kür çayı yaxınlığında, beynəlxalq ticarət magistralı üzərində salınmış Mahmudabad şəhəri (Qırxçıraq şəhəri yeri), Həkəri çayının Araz çayına töküldüyü yerin yaxınlığında salınmış şəhər (Şərifan şəhər yeri) belə şəhərlərdəndir. Şəhərlərin dirçəlişi və inkişafı XIV-XV əsrlərdə davam etmişdir. Azərbaycanın Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Səfəvilər dövlətləri məhsuldar qüvvələrin inkişafı, ölkənin şəhər və kəndlərinin sosial-iqtisadi və mədəni yüksəlişi üçün münbit zəmin yaradırdı. Bu dövrdə Azərbaycanda 50-dək şəhər vardı. Arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan tikinti qalıqları şəhərlərin bərpa və inkişafını, inşaat işlərinin genişləndiyini, sənət istehsalı və ticarətin canlandığını göstərir. Paytaxt şəhərləri daha əlverişli mövqedə idi. Bəhs olunan dövrdə Təbriz şəhəri xüsusilə sürətlə inkişaf edərək müsəlman Şərqinin nəhəng şəhərlərindən birinə çevrilir və orta əsrlərin sonunadək Azərbaycanın ən iri şəhəri olaraq qalırdı. Bakı şəhəri də Şirvanşahların paytaxtı və mühüm liman şəhəri kimi bu dövrdə yüksəlir, XV əsrdə burada geniş quruculuq işləri aparılır, dövrün mühüm monumental tikintilərindən olan Şirvanşahların saray kompleksi ucaldılır, şəhər abadlığının səviyyəsini yüksəltmək məqsədi ilə mühəndis qurğuları inşa olunurdu. Arxeoloji qazıntılar zamanı üzə çıxarılmış tikinti qalıqlarının sıxlığı, çoxşaxəli su təchizatı şəbəkəsi, ümumşəhər kanalizasiya sisteminin qalıqları bunu əyani nümayiş etdirir.

Şəhərlər ölkənin intellektual potensialının cəmləşdiyi başlıca mədəni mərkəzlər olmaqla müxtəlif elmi və tədris müəssisələrinin fəaliyyətinə imkanlar açırdı. Bu nöqteyi-nəzərdən Marağa və Təbriz şəhərləri nəinki ölkə, həm də müsəlman dünyasında mühüm mövqeyə malik idi.

XVI əsrin sonundan etibarən şəhərlərin tənəzzülü özünü qabarıq şəkildə büruzə verməyə başlayır. Səfəvi-Osmanlı müharibələrinin nəticəsi olan böyük dağıntılar, sənət istehsalı mərkəzlərinə ağır zərbələr dəyməsi məhsuldar qüvvələrin inkişafına, ölkənin sosial-iqtisadi və mədəni inkişafına mənfi təsir göstərirdi. Digər tərəfdən böyük coğrafi kəşflər nəticəsində beynəlxalq ticarət əlaqələrində Şərq şəhərlərinin əhəmiyyətinin azalması da az təsirə malik deyildi. Arxeoloji tədqiqatlar tənəzzülün şəhər təsərrüfatının bütün sahələrini əhatə etdiyini göstərir. Bu dövrdə bəzi məşhur şəhərlər tənəzzül keçirərək kiçik şəhərlər səviyyəsinə enirlər. Belə şəhərlər sırasında Dərbənd də vardı.

Son orta əsrlərin hərbi-siyasi durumu şəhərlərin təhlükəsizliyini təmin etmək, etibarlı müdafiə sistemi yaratmaq zərurətini ön plana çəkmişdi. Bəhs olunan dövrdə

bəzi şəhərlərin istehkamları yenidən inşa olunur, bir çox şəhərlərin qala divarları bərpa və təmir edilir, daha da möhkəmləndirilirdi. Şamaxıda şəhristanın qala divarları bərpa olunaraq orta əsrlərin sonunadək, demək olar ki, dəyişməz qalır. Abşeron yarımadasında qəsrlərin inşası davam etdirilir, dənizdən ola biləcək təhlükənin qarşısını almaq üçün etibarlı müdafiə sistemi yaradılırdı. Dağ keçidlərini, karvan yollarını nəzarətdə saxlamaq üçün qalalar və qüllələr inşa etmək ənənəsi davam etdirilirdi. Dağlıq ərazilərdə həm yaşayış evi, həm də istehkam funksiyası daşıyan qüllə evlər yayılırdı.

XIV-XVI yüzilliklərdə ictimai-dini binaların və yaşayış evlərinin inşasında, onun bədii tərtibatında kaşı bəzəklərindən, mozaika dəstələrindən geniş istifadə edilirdi. Bu dövr kaşı bəzəyinin təntənəsi ilə səciyyələnə bilər. Ölkənin cənubunda Təbriz, şimalında isə Şirvan-Abşeron memarlıq məktəbləri məşhur idi. Təbriz memarlıq məktəbi xüsusilə güclənmiş, onun təsir dairəsi genişlənmişdir. Dövrün ən məşhur monumental tikililəri Təbrizdə ucaldılmışdı. Müsəlman Şərq dini memarlığında xüsusi yeri olan Əlişah məscidi də bu dövrdə Təbrizdə inşa olunmuşdu.

Şəhərlərin canlanması bilavasitə onların iqtisadi əsasını təşkil edən sənət istehsalı və ticarətin dirçəlişi ilə bağlı idi. Monqol ağalığı dövründə diqqəti çəkən xüsusiyyətlərdən biri şəhər həyatının bərpasında, sənətkarlığın dirçəlməsində qul əməyindən istifadə, mərkəzi hakimiyyətin nəzarəti altında, onun sifarişlərini ödəyən karxana tipli emalatxanaların təşkil olunması idi. Belə emalatxanalar ölkənin əsasən cənubunda fəaliyyət göstərirdi, şimalda isə ənənəvi, istehsalı bazarın tələbatına yönəlmiş kiçik sənət emalatxanaları mövcud idi. Artıq XIII əsrin sonu - XIV əsrin əvvəllərində başlıca sənət sahələrində canlanma nəzərə çarpırdı. Yerli xammal bazası sənətkarlığın inkişafını təmin etmək iqtidarında idi. Ölkədə olmayan xammal növləri ticarət vasitəsilə xaricdən gətirilirdi. Arxeoloji qazıntılar sənətdaxili ixtisaslaşmanın da kifayət qədər yüksək olduğunu söyləməyə əsas verir. Metalişləmə sənəti sənətkarlığın, ümumiyyətlə, ölkə iqtisadiyyatının tərəqqisi üçün böyük əhəmiyyət kəsb edirdi. Arxeoloji tədqiqatlar metalişləmədə sənətdaxili ixtisaslaşmanın dərinləşdiyini, xammal növü üzrə ənənəvi ixtisaslaşmanın - dəmirçilik, misgərlik və zərgərlik daxilində daha dar ixtisasların ayrılmasının baş verdiyini göstərir. Dəmirçilikdə silahsazlıq, nalbəndlik, misgərlikdə metaltökmə, zərgərlikdə gümüşbəndlik və s. bu qəbildən idi. Metaltökmə sənətində tərəqqi özünü daha qabarıq büruzə verirdi. Onun başlıca mərkəzləri cənubda Təbriz, şimalda Şamaxı şəhərləri idi.

Arxeoloji qazıntılar zamanı kütləvi tapıntı əvvəlkitək əsasən şirsiz və şirli qab nümunələrindən ibarətdir. Arxeoloji materiallar əhalinin təsərrüfat və məişəti ilə sıx bağlı olan dulusçuluğun tədricən dirçəldiyini, istehsal olunan məmulatın çeşidinin artdığını göstərir. Bu dövrdə yaşıl, şabalıdı, mavi, firuzəyi və sarı rəngli şirdən istifadə olunurdu. Saxsı məmulatının bədii işlənməsində nəbati naxışlar tədricən

üstün mövqe tuturdu. XIV-XV əsrlərdə istehsal olunmuş bəzi saxsı qablar bişirilmə keyfiyyətinə görə XI-XII əsrlərin nümunələrindən heç də geri qalmırdı. Amma bədii tərtibatının zənginliyinə, rəng çalarlarının parlaqlığına görə onlar əvvəlki səviyyəyə çata bilmirdilər. Polixrom şirli məmulatın tədricən sönükləşməsi, öz əvvəlki parlaqlığını itirməsi və belə qablar istehsalının tamamilə dayandırılması dulusçuluq sənətindəki geriləmə və durğunluğun nəticəsi idi. Bu dövrdə az da olsa fiqurlu, o cümlədən antropomorf quruluşlu qablara rast gəlinirdi. Yeni tip qablar arasında şirsiz saxsı daxıllar qeyd oluna bilər. Dulusçuluqda nəzərə çarpan yeniliklərdən biri fayansabənzər qabların istehsalıdır. Naxçıvan bölgəsində fayans qablar istehsalının genişlənməsi də diqqəti cəlb etməyə bilməz. XV əsrin sonu - XVI əsrin əvvəllərində isə şar-konusvari qabların istehsalının dayandırılması qeyd olunmalıdır.

Arxeoloji tədqiqatlar son orta əsrlərdə şüşə istehsalının məhdudlandığını, şüşə məmulatının çeşidinin azaldığını, bədii məziyyətinin aşağı düşdüyünü göstərir. Bununla belə bəhs olunan dövrdə pəncərə şüşəsi istehsalı xeyli artır.

Bütövlükdə, son orta əsrlərdə sənətkarlığın inkişafı sabit deyildi. Bir çox sənət sahələrində bir daha monqol istilasına qədərki dövrün səviyyəsinə qayıtmaq mümkün olmamışdı, hərbi-siyasi və digər səbəblərdən sənət istehsalında dirçəliş və tərəqqi durğunluq və tənəzzüllə əvəz olunmuşdu. Həm də sənət istehsalının dirçəlişi heç də bütün bölgə və şəhərlərdə eyni dərəcədə deyildi. Marağa, Təbriz, Sultaniyyədə şəhər həyatının dirçəlişi aydın müşahidə olunduğu halda, Naxçıvan, Kiran, Gəncə, Dərbənd haqqında bunu demək çətindir.

Son orta əsrlərdə ölkə iqtisadiyyatında ticarət mühüm rola malik idi. Arxeoloji materiallar və numizmatik dəlillər istər daxili ticarətin, istərsə də xarici ticarət əlaqələrinin intensiv xarakter daşımasını təsdiqləyir. Hətta müharibələr ticarət əlaqələrini dayandıra bilmirdi. Müşahidə olunan cəhətlərdən biri Azərbaycan şəhərlərinin Uzaq Şərq və Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrinin intensivləşməsidir. Arxeoloji qazıntılar zamanı son orta əsr mədəni təbəqə yatımında Çindən gətirilmə seladon və çini qab nümunələrinin miqdarının nəzərə çarpacaq çoxluğu, Avropa ölkələrində istehsal olunmuş maddi mədəniyyət nümunələrinə rast gəlinməsi həmin əlaqələri təsdiqləyən faktik materiallardır.

Daxili ticarətdə yerli zərbxanalarda zərb olunan mis sikkələr geniş işlədildiyi halda, xarici ticarətdə gümüş və qızıl sikkələrdən istifadə olunurdu. Pul dövriyyəsində XIII-XIV əsrlərdə gümüş dirhəmlər, XV əsrdə təngə, XVI-XVII əsrlərdə şahı və abbasilər mühüm rol oynayırdı.

İlk Hülaku xanları dövründə ölkədə bütpərəst məbədlər tikilsə də, xristian icmasına müəyyən himayə göstərilsə də, İslam öz mövqelərini nəinki qoruyub saxlaya bildi, həm də daha da möhkəmləndirdi, başlıca ideologiya olaraq qaldı. Bu dövr islam dininin mövqelərinin möhkəmlənməsi ilə yanaşı, həm də sufi ideologiyasının müxtəlif cərəyanlarının yayılması, yerli əhali arasında böyük nüfuz qazanması ilə əlamətdar oldu. Xalq hərəkatının dini müxalifət şəklində təzahür

etməsi də dövrün səciyyəvi xüsusiyyətlərindəndir. Hürufiliyin Azərbaycanda geniş yayılması təsadüfi olmayıb xalqın teymurilərə və feodal istismarçılara qarşı nifrətindən, feodal zülmünə qarşı mübarizəsindən qaynaqlanırdı. Qızılbaş hərəkatının ideologiyası əhali arasında özünə daha çox tərəfdar taparaq sonradan səfəvilər sülaləsinin hakimiyyətə gəlişini təmin etdi.

Son orta əsrlərin xatirə və qəbir abidələri əvvəlkitək əsasən müsəlman qəbirlərindən və məzarüstü abidələrdən ibarətdir. Feodal sinfinin nümayəndələrinin qəbirləri üzərində türbə inşa etmək ənənəsi davam etməkdə idi. Qoç və at heykəllərindən ibarət məzarüstü abidələr də bu dövr üçün səciyyəvidir. Xatirə və qəbir abidələrinin tədqiqi tarixi-mədəni varisliyi izləməyə imkan vermişdir.

Bəhs olunan dövrün sonunda tənəzzül özünü qabarıq büruzə verir. Əhalinin məişətində metal məmulatdan, şüşə qab-qacaqdan istifadə məhdudlanır, şirli və şirsiz saxsı məmulat bütün göstəricilərinə görə əvvəlki dövrlərin məmulatından geri qalırdı. Mədəni təbəqə yatımında bəzək əşyalarının miqdarı azalır. Şəhərlərin aqrarlaşması prosesi müşahidə olunur.

Arxeoloji dəlillər, demək olar ki, bütöv bir minillik ərzində tarixi prosesin ardıcıllığını və tarixi-mədəni varisliyi sübut edir.

## QISALTMALAR

AA - Azərbaycan arxeologiyası

AAE - Azərbaycan arxeologiyası və etnoqrafiyası

AEİÇTBEA - Arxeologiya və Etnoqrafiya İnstitutunun Çöl-Tədqiqat bürosunun elmi arxivi

AAEESNKM - Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları

AETHESM - Arxeoloji və etnoqrafik tədqiqatlarının yekunlarına həsr olunmuş elmi sessiyanın materialları

AMEA - Azərbaycan Milli Elmlər Akademiyası

AMM - Azərbaycanın maddi mədəniyyəti

ATM - Azərbaycan Tarixi Muzeyi

ATMƏ - Azərbaycan Tarixi Muzeyinin elmi əsərləri

Azərb. SSR - Azərbaycan Sovet Sosialist Respublikası

BUX - Bakı Universitetinin Xəbərləri

EA  Elmlər Akademiyası

EAM - Elmlər Akademiyasının Məruzələri

ƏDİ - Ədəbiyyat, dil və incəsənət

TİEA - Tarix İnstitutunun Elmi Arxivi

TFH - Tarix, fəlsəfə və hüquq

TİƏ  Tarix İnstitutunun əsərləri

İE - İctimai elmlər seriyası

AAK - Азербайджанский Археологический Комитет

AAЭН - Архитектура Азербайджана эпохи Низами

АГУ - Азербайджанский Государственный Университет

АзФАН - Азербайджанский Филиал Академии Наук

АО - Археологические открытия

АЭИА - Археологические и этнографические изыскания в Азербайджане

ГАИМК - Государственная Академия Истории Материальной Культуры

ДАН - Доклады Академии Наук

Изв. АН - Известия Академии Наук

Изд-во - Издательство

ИАЭА - Исследования по археологии и этнографии Азербайджана

ИМКУ - История материальной культуры Узбекистана

ИФП - История, философия и право

КСИА - Краткие сообщения института Археологии АН СССР

КСИМК - Краткие сообщения института Материальной культуры

ЛЯИ - Литература, язык и искусство

МИА - Материалы и исследования по археологии

МИАз - Материалы по истории Азербайджана

МКА - Материальная культура Азербайджана

МНКАЭК - Международная научная конференция "Археология и этнография Кавказа"

МНКМУ - Материалы II научной конференции молодых ученых

МНСИНИР - Материалы научной сессии по итогам научно - исследовательских работ

НАИИ - Научный архив Института Истории

НАН - Национальная Академия Наук

ООИА - Общество Обследования и Изучения Азербайджана

РАН - Российская Академия наук

СА - Советская археология

СМОМПК - Сборник материалов для описания местностей и племен Кавказа

СЭ - Советская этнография

ТДВАК - Тезисы докладов Всесоюзной археологической конференции "Достижения советской археологии в XI пятилетке"

ТДВОРАНА - Тезисы докладов конференции "Великий Октябрь и развитие археологической науки в Азербайджане"

Тр.Аз.ФАН - Труды Азербайджанского филиала Академии Наук

Тр.ВОРАО - Труды Восточного Отделения Русского Археологического Общества

Тр.ИИАН - Труды Института истории Академии Наук

Тр.ИИФАН - Труды Института истории и философии Академии Наук

AM1 – Archaologische Mitteilungen aus İran.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


*F.Abbasova, 2002*. Abbasova F. Şabran. Bakı, 2002.

*FAbbasova, 2003*. Abbasova F. 2002-ci ildə Şabranda aparılan arxeoloji qazıntıların ilkin nəticələri. // Arxeologiya və Etnoqrafiya İnstitutunun 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2003.

*F.Abbasova, 2005*. Abbasova F. Şabranda şüşə istehsalı (2002-2003-cü il tədqiqatlarının nəticəsi əsasında). // 2003-2004-cü illərdə AETHESM. Bakı, 2005.

*F.Ə.Abbasova, 2006.* Abbasova F.Ə. Şabranda zərgərlik sənətində istifadə olunan bəzi texniki üsullar. // AAE. 2006, № 2.

*B.M.Abdullayev, R.B.Göyüşov, 1988.* Abdullayev B.M., Göyüşov R.B. 1988-ci ildə Qırxçıraq yaşayış yerində aparılmış çöl-tədqiqat işlərinin hesabatı. Azərbaycan MEA AEİÇTBEA. H-512.

*D.A.Axundov, M.D.Axundov, 1984.* Axundov D.A., Axundov M.D. Qafqaz Albaniyasının stellalarında dini simvolika və dünyanın mənzərəsi. // Azərbaycan abidələri. Bakı, 1984, № 1.

*T.Axundov və b., 2002.* Axundov T., Dostiyev T., Əliyev İ. Köhnə Ərcivan yaşayış yeri. // AA. 2002, № 1-2.

*F.Axundzadə, 1930.* Axundzadə F. Lənkəran qəzasının əsari ətiqələrindən. Cemcem şəhəri. // Azərbaycanı öyrənmə yolu. 1930, № 5.

*S.Aşurbəyli, 1930.* Aşurbəyli S. Qədim Bakının memarlıq binaları. // Azərbaycanı öyrənmə yolu. 1930.

*Azərbaycan etnoqrafiyası, 1988.* Azərbaycan etnoqrafiyası. Bakı, 1988.

*Azərbaycan ədəbiyyatı tarixi, 1960.* Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1960.

*Azərbaycan tarixi, 1998.* Azərbaycan tarixi. Yeddi cilddə. II c, Bakı, 1998.

*Azərbaycan tarixi, 1999.* Azərbaycan tarixi. Yeddi cilddə. III c, Bakı, 1999.

*AMM, 1964.* Azərbaycanın maddi mədəniyyəti. Bakı, 1964.

*İ.A.Babayev, 1964.* Babayev İ.A. Qəbələnin ilk şirli qabları. // AMM. V c., Bakı, 1964.

*İ.A.Babayev, Q.M.Əhmədov, 1981.* Babayev İ.A., Əhmədov Q.M. Qəbələ (tarixi-arxeoloji oçerk). Bakı, 1981.

*A.A.Bakıxanov, 1951.* Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, 1951.

*İ.Bədəlova, 2005.* Bədəlova İ. Maluq qalası. // 2003-2004-cü illərdə AETHESM. Bakı, 2005.

*R.Y.Bəşirov, 2002.* Bəşirov R. Naxçıvanın bədii metal sənətkarlığı. // AA. 2002, № *3-4*.

*R.Y.Bəşirov, N.N.Hüseynli, 2007.* Bəşirov R.Y., Hüseynli N.N. Orta əsr Şəmkir şəhərinin qırmızı boyalı küplərinə dair. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. I Respublika elmi-praktik konfransının tezisləri. Şəmkir, 2007.

*T.Ə.Bünyadov, 1960.* Bünyadov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960.

*T.Ə.Bünyadov, 1964.* Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964.

*T.Ə.Bünyadov, 1969.* Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, 1969.

*Q.C.Cəbiyev, 2003.* Cəbiyev Q.C. Azərbaycan keramikası (XIV-XVII əsrlər). Bakı, 2003.

*Q.C.Cəbiyev, 2005.* Cəbiyev Q.C. Xanəgah Qızqalası. // AAE. 2005, № 2.

*Q.C.Cəbiyev və b., 1991.* Cəbiyev Q.C., Ramazanov H.X., Hüseynova S.B. 1990-cı ildə Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntıların nəticələri haqqında. // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı, 1991.

*İ.M.Cəfərzadə, 1933.* Cəfərzadə İ.M. 1933-cü il Şamaxı-Nuxa ekspedisiyasının materialları. // AMEA AEİEA, s. I. 60.

*H.Ə.Ciddi, 1960.* Ciddi H.Ə. Gülüstan qalasında arxeoloji qazıntılar. // Azərb.SSR EA aspirantlarının 8-ci elmi konfransı məruzələrinin tezisləri. Bakı, 1960.

*H.Ə.Ciddi, 1961.* Ciddi H.Ə. Orta əsr Gülüstan qalası haqqında tarixi-arxeoloji məlumat. // Azərb.SSR EA xəbərləri (İE seriyası). 1961, № 6.

*H.Ə.Ciddi, 1961a.* Ciddi H.Ə. Gülüstan qalasında qazıntılar. // Azərb.SSR EA xəbərləri (İE seriyası). 1961, № 9.

*H.Ə.Ciddi, 1967.* Ciddi H.Ə. Gülüstan qalası. Bakı, 1967.

*H.Ə.Ciddi, 1969.* Ciddi H.Ə. Şamaxı şəhərinin şimalında aşkar edilmiş orta əsr yaşayış yerləri. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1969, № 3.

*H.Ə.Ciddi, 1971.* Ciddi H.Ə. Şamaxı cümə məscidi tarixindən. // Azərb. SSR EAM. XXVII c, 1971, № 6.

*H.Ə.Ciddi, 1972.* Ciddi H.Ə. Buğurt qalası haqqında tarixi-arxeoloji məlumat. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1972, №1.

*H.Ə.Ciddi, 1973.* Ciddi H.Ə. Buğurt qalası. Bakı, 1973.

*H.Ə.Ciddi, 1973a.* Ciddi H.Ə. Şamaxı-Yəzidiyyə və Gülüstan qalası. // AMM. VII c, Bakı, 1973.

*H.Ciddi, 1983.* Ciddi H. Şamaxıda aparılmış arxeoloji qazıntıların hesabatı (iyun-avqust 1983-cü il). // AMEA AEİÇTBEA. H-325.

*H.Ciddi, 1984.* Ciddi H. 1984-cü ildə Şamaxıda aparılmış arxeoloji qazıntıların hesabatı. // AMEA AİÇTBEA. H-344.

*H.Ciddi, N.Musayev, 1991.* Ciddi H., Musayev N. Şamaxıda aşkar olunmuş Nizami dövrünə aid mədrəsə. // Nizami Gəncəvi almanaxı. Bakı, 1991.

*E.Çələbi, 1997.* Çələbi E. Səyahətnamə. Bakı, 1997.

*S.Ə.Dadaşov, M.Ə.Hüseynov, 1948.* Dadaşov S.Ə., Hüseynov M.Ə. Nizami dövründə Azərbaycan arxitekturasının ümumi icmalı. Moskva-Leninqrad, 1948.

*S.Dadaşova, S.Məmmədova, 2002.* Dadaşova S., Məmmədova S. Bədr Şirvani -"Divan" - XV əsr mənbəyi. (Şirvanşahların imarətinin təsviri). // AA. 2002, № 3-4

*M.Dadaşzadə, 1985.* Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı, 1985.

*T.M.Dostiyev, 1995.* Dostiyev T.M. Salmanbulağı yaşayış yerində aşkar edilmiş təndirlər haqqında. // Azərbaycan Tarixi problemlərinin gənc tədqiqatçılarının III Respublika elmi konfransının məruzələr məcmuəsi. Bakı, 1995.

*T.M.Dostiyev, 1996.* Dostiyev T.M. Şirvanın basma naxışlı saxsı məmulatları haqqında. // BUX. 1996, № l.

*T.M.Dostiyev, 1997.* Dostiyev T.M. Sərkərtəpədə orta əsr mədəni təbəqəsi. // Tarix və onun problemləri. 1997, № l.

*T.M.Dostiyev, 1997a.* Dostiyev T.M. Bakı, Şabran və Dərbənd şəhərlərinin IX-XV əsrlərdə beynəlxalq ticarətdə iştirakı. // Azərbaycanın çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu. III Bakı Beynəlxalq Simpoziumu. Bakı, 1997.

*T.M.Dostiyev, 1999.* Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri. // AA. 1999, № 1-2.

*T.M.Dostiyev, 1999a.* Dostiyev T.M. Orta əsrlərdə Müşkür düzündə təsərrüfat həyatı. // BUX. 1999, № 4.

*T.M.Dostiyev, 2000.* Dostiyev T.M. Salmanbulağı yaşayış yerinin arxeoloji tədqiqinin nəticələri. // AA. 2000, № 3-4.

*T.M.Dostiyev, 2001.* Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan XI-XV əsrlərdə. Bakı, 2001.

*T.M.Dostiyev, 2002.* Dostiyev T.M. Sərkərtəpənin şirli polixrom saxsı məmulatı. // AA, 2002, № 3-4.

*T.M.Dostiyev, 2005.* Dostiyev T.M. Qalabozu yaşayış yeri haqqında ilkin məlumat. // 2003-2004 AETHESM. Bakı, 2005.

*T.M.Dostiyev, 2005a.* Dostiyev T.M. Selcuqlular doneminde Musluman Doğusunda kentleşme durumları və Azərbaycanda şehir Kültürü. // XIV. Türk Tarih Kongresi. Kongriyə Sunulan bildiriler. I c, Ankara, 2005.

*T.M.Dostiyev, 2007.* Dostiyev T.M. 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransın tezisləri. Şəmkir, 2007.

*T.M.Dostiyev, Q.Ə.Hacıyev, 2000.* Dostiyev T.M., Hacıyev Q.Ə. Şabran və Sandıqtəpənin şüşə məmulatının kimyəvi-texnoloji tədqiqinə dair. // BUX. 2000, №2.

*T.Dostiyev, V.Kvaçidze, 2003.* Dostiyev T., Kvaçidze V. Zəyəmçayda orta əsr körpü qalıqları. // AA. 2003, № 1-4.

*T.Dostiyev, V.Kvaçidze, 2006.* Dostiyev T., Kvaçidze V. I Qıraq Kəsəmən yaşayış yerində aşkarlanmış emalatxana qalıqları haqqında. // Mingəçevir arxeoloji ekspedisiyasının 60 illiyinə həsr edilmiş elmi konfransın materialları. Mingəçevir, 2006.

*R.Əfəndi, 1976.* Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı, 1976.

*R.Əfəndiyev, 1980.* Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 1980.

*R.Əfəndiyev, 1990.* Əfəndiyev R. XI-XV yüzillikdə Azərbaycanda bədii metalişləmə sənəti. // Qobustan. 1990, № 4.

*Q.M.Əhmədov, 1959.* Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, 1959.

*Q.M.Əhmədov, 1959a.* Əhmədov Q.M. 1959-cu ildə Örənqalada arxeoloji qazıntıların hesabatı.

*Q.M.Əhmədov, 1960.* Əhmədov Q.M. Örənqaladan tapılmış qüllə formalı gil qab. // Azərb.SSR EAM. XVI c., 1960, № 12.

*Q.M.Əhmədov, 1962.* Əhmədov Q.M. Örənqala (qısa tarixi-arxeoloji oçerk). Bakı, 1962.

*Q.M.Əhmədov, 1962a.* Əhmədov Q.M. Beyləqan şəhərinin sonuncu qala divarı. //Azərb. SSR EA xəbərləri (İE seriyası). 1962, № 6.

*Q.M.Əhmədov, 1979.* Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.

*Q.M.Əhmədov, 1985.* Əhmədov Q.M. Nadir tapıntı. // Elm və həyat. Bakı, 1985, № 5.

*Q.M.Əhmədov, 1992.* Əhmədov Q.M. Qəbələnin (Səlbirin) qala divarları haqqında. // AAEESNKM. Bakı, 1992.

*S.Əhmədov, 2000.* Əhmədov S. Şarkonusvari qabların hərb işində istifadəsinə dair yeni araşdırmalar. // AA. 2000, № 1-2.

*S.Əhmədov, E.Cəfərova, 2005.* Əhmədov S., Cəfərova E. Azərbaycanın orta əsr silahları. Bakı, 2005.

*V.Əhmədova, 2000.* Əhmədova V. Azərbaycan təndirləri. // AA. 2000, № 1-2.

*A.İ.Ələkbərov, 2003.* Ələkbərov A.İ. 2002-ci ildə cənub-şərqi Azərbaycanda arxeoloji tədqiqatlar. // Arxeologiya və Etnoqrafiya İnstitutunun 10 illiyinə həsr olunmuş elmi Konfransın materialları. Bakı, 2003.

*A.İ.Ələkbərov, 2003a.* Ələkbərov A.İ. Şindan qalası haqqında. //. AAE. 2003, № 2.

*A.İ.Ələkbərov, 2006.* Ələkbərov A.İ. Qoyun-qoç fiqurlu qəbir daşları və onların yayılma arealı. // Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri. Bakı, 2006.

*A.İ.Ələkbərov, 2007.* Ələkbərov A.İ. Cəlilabad rayonunda 2007-ci ildə aparılmış arxeoloji tədqiqatlar haqqında. // AMEA AEİÇTBEA.

*Ə.Ə.Əliyev, 2006.* Əliyev Ə.Ə. Beşbarmaq abidəsi. // Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri (Ö.Ş.İsmizadənin anadan olmasının 100 illiyinə həsr olunur). Bakı, 2006.

*Ə.Əliyev, F.Xəlilli, 2005.* Əliyev Ə., Xəlilli F. Xanarx arxeoloji ekspedisiyasının 2004-cü ildə apardığı arxeoloji kəşfiyyat işləri haqqında. // 2003-2004-cü illərdə aparılmış AETHESM. Bakı, 2005.

*İ.N.Əliyev və b., 2005.* Əliyev İ.N., Dostiyev T.M., Rəhmanov A.A. Balaxanı orta əsr yaşayış yeri. // AAE. 2005, № 2.

*T.R.Əliyev, 1982.* Əliyev T.R. Əmirəhməd və Qurd təpələri haqqında ilk məlumat. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1982, № 4.

*T.R.Əliyev, 1989.* Əliyev T.R. Mil-Qarabağ arxeoloji ekspedisiyasının 3-cü dəstəsinin 1989-cu il tədqiqatlarının hesabatı. AMEA AEİÇTBEA. H-516.

*V.H.Əliyev, 1965.* Əliyev V.H. Köhnə Vayxır orta əsr yaşayış yeri // AMM. VI c., 1965.

*N.Əliyeva, 1999.* Əliyeva N. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, 1999.

*Əl-Bündari.* Əl-Bündari. Tarixi-ale-səlcuq. // AMEA TİEA, iş № 1699.

*R.Əmənzadə, 1995.* Əmənzadə R. Azərbaycan memarlığında baştağlar. Bakı, 1995.

*R.Əmənzadə, 2002.* Əmənzadə R. Orta əsrlərdə Azərbaycanın müalicə-sağlamlıq tikililəri. // AA. 2002, № 3-4.

*K.Fərhadoğlu, 2006.* Fərhadoğlu K. Bakı. İçərişəhər. Bakı, 2006.

*Ş.Fətullayev-Fiqarov, 2003.* Fətullayev-Fiqarov Ş. Azərbaycanın qədim məscidləri. // Azərbaycan-İrs. 2003, № 14-15.

*N.Göyüşov, 1988.* Göyüşov N. Hərflərin simvolikası. // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Bakı, 1988.

*R.B.Göyüşov, 1961.* Göyüşov R.B. Qəbələ şəhəri qazıntılarından tapılmış gil qazanlar haqqında. // Azərb.SSR EA məruzələri, XVII c. 1961, № 7.

*R.B.Göyüşov, 1965.* Göyüşov R.B. Qəbələ şəhəri gil qabların hazırlanması üsulları. // Azərb. SSR EA. Xəbərləri (ictimai elmlər seriyası). 1965, № l.

*R.B.Göyüşov, 1972.* Göyüşov R.B.Xudavəng məbədi və onun yazılarına dair. // Azərb. EA xəbərləri (TFH seriyası). 1972, № 3.

*R.B.Göyüşov, 1975.* Göyüşov R.B. Amaras-Ağoğlan. Bakı, 1975.

*R.B.Göyüşov, R.Ə.Məmmədov, 1980.* Göyüşov R.B., Məmmədov R.Ə. Naxçıvan şəhərində arxeoloji qazıntılar. // AMM. IX c, Bakı, 1980.

*Y.Gözəlova, 1998.* Gözəlova Y. IX əsrin ikinci yarısı - XI əsrdə Azərbaycanın dəniz ticarəti. // Gənc azərbaycanşünasların məruzələri. Bakı, 1998.

*Y.H.Gözəlova,* 2000. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri (ərəb mənbələri əsasında). Tarix elmləri namizədi dissertasiyasının avtoreferatı. Bakı, 2000.

*İ.Hacıyev, 1990.* Hacıyev İskəndər. "Hamamın içi cənnətə bənzər...". // Qobustan. 1990, № 1.

*Q.Ə.Hacıyev, 2000.* Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi. Bakı, 2000.

*O.H.Həbibullayev, F. V.Qədirov, 1993.,* Həbibullayev O.H., Qədirov F.V. Astabadda arxeoloji qazıntılar. //. AMM. XI c, Bakı, 1993.

*H.A.Həvilov, 1991.* Həvilov H.A. Azərbaycan etnoqrafiyası (oçerklər). Bakı, 1991.

*M.M.Hüseynov, B.M.Cəlilov, 2007.* Hüseynov M.M., Cəlilov B.M. Orta əsr Daşbulaq yaşayış yeri. // Şəmkir arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransın tezisləri. Şəmkir, 2007.

*Xaqani Şirvani. 1973.* Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, 1973.

*C.Ə.Xəlilov, 1958.* Xəlilov C.Ə. Qazıməmməd rayonunun bəzi arxeoloji abidələri haqqında // Azərb. SSR EAM XIV c. 1958, № 11.

*CƏ.Xəlilov, 1960.* Xəlilov C.Ə. Dərəzaratda orta əsr kəndi. // ATMƏ. III c, Bakı, 1960.

*C.ƏXəlilov, 1962.* Xəlilov C.Ə. Enıx qalası. // Azərb. SSR EAM. XVIII c, 1962., № 4.

*M.Xəlilov, 2006.* Xəlilov M. Qarabağ tarixi haqqında Nizaminin bilikləri. // Nizami irsi milli müstəqillik dövründə. Respublika elmi konfransının materialları. Bakı, 2006.

*M.CXəlilov, 2006a.* Xəlilov M.C. Albaniyanın ilk orta əsr şəhər və qalaların lokallaşdırılması problemi. // Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri. Bakı, 2006.

*B.İ.İbrahimli, 2007.* İbrahimli B.İ. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Xaraba-Gilan arxeoloji ekspedisiyasının 2007-ci il hesabatı. AMEA AEİÇTBEA.

*A.İbrahimov, 1961.* İbrahimov A. Kənd təsərrüfatına aid bir əlyazması. // Respublika əlyazmaları fondunun əsərləri. Bakı, 1961.

*B.İ.İbrahimov, 1989.* İbrahimov B.İ. Aza necə lokallaşdırılır. // Respublika Elmi Konfransı Məruzələrinin Tezisləri. Naxçıvan, 1989.

*B.İ.İbrahimov, 2006.* İbrahimov B.İ. Xaraba-Gilandan tapılmış bir neçə yazı haqqında. // Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri. Bakı, 2006.

*F.Ə.İbrahimov, 1963.* İbrahimov F.Ə. Quşqana yaşayış yeri haqqında ilk məlumat. // Azərb. SSR EAM. XIX c. 1963, № 9.

*F.Ə.İbrahimov, 1964.* İbrahimov F.Ə. Örənqaladan tapılmış fayans fiqurlar. // Azərb. SSR EA xəbərləri. 1964, № 1.

*F.Ə.İbrahimov, 1965.* İbrahimov F.Ə. Örənqalada yeni quruluşlu dulus kürəsi. //AMM. VI c.Bakı, 1965.

*F.Ə.İbrahimov, 1965a.* İbrahimov F.Ə. Azərbaycanın orta əsr kənd təsərrüfatı alətləri haqqında (IV-XIII əsrlər). // Azərb. SSR EA Tarix İnstitutu aspirantlarının birinci elmi konfransının materialları. Bakı, 1965.

*F.Ə.İbrahimov, 1967.* İbrahimov F.Ə. Metal bilərziklər və onların texnologiyasına dair. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1967, № 2.

*F.Ə.İbrahimov, 1985.* İbrahimov F.Ə. İçəri şəhərin son tapıntıları. // "Elm və həyat". Bakı, 1985.

*F.Ə.İbrahimov, 1988.* İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti. Bakı, 1988.

*F.Ə.İbrahimov, 1989.* İbrahimov F.Ə.Abidənin sirri. // "Elm və həyat". Bakı, 1989.

*F.Ə.İbrahimov, I989a.* İbrahimov F.Ə. Bakıda İçərişəhərdə 1989-cu ildə aparılan arxeoloji qazıntının (XXIV sahə) hesabatı. 1989.

*F.Ə.İbrahimov, 1991.* İbrahimov F.Ə. Qədim bir abidə haqqında // "Elm və həyat", 1991, № 11-12.

*F.Ə.İbrahimov, 1995.* İbrahimov F.Ə. Bakıda metalişləmə tarixi. Bakı, 1995.

*F.Ə.İbrahimov, 1999.* İbrahimov F.Ə. Bakı orta əsrlərdə. // AA. 1999, № 3-4.

*F.Ə.İbrahimov, 1999a.* İbrahimov F.Ə. Bakıda ən qədim memarlıq abidəsi. "Azərbaycan" jurnalı, № 1-2.

*F.Ə.İbrahimov, H.Ə.Ciddi, 1976.* İbrahimov F.Ə., Ciddi H.Ə. Əngəxaran orta əsr yaşayış yeri. // Azərb. SSR EAM. XXXI c. 1976, № *2.*

*F.Ə.İbrahimov, Ö.Ş.İsmizadə, 1981.* İbrahimov F.Ə., İsmizadə Ö.Ş. Bakının orta əsr boyalı qabları haqqında. // Azərbaycan EA xəbərləri (TFH seriyası). 1981, № 1.

*F.Ə.İbrahimov, KM.Məmmədzadə, 1972.* İbrahimov F.Ə., Məmmədzadə K.M. Beyləqanın qala darvazası. // "Elm və həyat", 1972.

*F.Ə.İbrahimov və b., 1982.* İbrahimov F.Ə., Osmanov F.L., Cəbiyev Q.C. Qızıllar orta əsr yaşayış yeri haqqında. // Azərb.SSR EA xəbərləri (TFH seriyası). 1982, № 3.

*F.Ə.İbrahimov və b., 1990.* İbrahimov F.Ə., Babayev F.İ., İbrahimov K.F., 1990-cı ildə İçərişəhərdə, XXV sahədə aparılan arxeoloji qazıntının hesabatı.

*F.Ə.İbrahimov və b., 1991.* İbrahimov F., Babayev F., İbrahimov K. 1990-cı ildə Bakıda arxeoloji tədqiqatlar. // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı, 1991.

*F.Ə.İbrahimov və b., 1992.* İbrahimov F.Ə., Babayev F., İbrahimov K.F. İçərişəhərdə son illərdə aparılan arxeoloji qazıntıların yekunlarına dair. // AAEESNKM. Bakı, 1992.

*K.F.İbrahimov, 2001.* İbrahimov K.F. Bakının "İçərişəhər" hissəsində bəzi dulus inşaat məmulatı haqqında. // AA. 2001, № 1-4.

*K.F.İbrahimov, 2002.* İbrahimov K.F. Bakıdan tapılan gil qəlyanlar və onların təsnifatı. // Tarix və onun problemləri. 2002, № 4.

*Q.İsmayılzadə, 1999.* İsmayılzadə Q. Böyük Qüdsü və Azərbaycan arxeologiyasının sübh çağı. // AA. 1999, № 1-2.

*Q.İsmayılzadə, 1999a.* İsmayılzadə Q. Təxti-Tavusun sorağında. // AA. 1999, №3-4.

*Ö.Ş.İsmizadə, 1965.* İsmizadə Ö.Ş. Bakı Qız qalası özülünün quruluşu haqqında. // AMM, VI c, Bakı, 1965.

*Ö.Ş.İsmizadə, H.Ciddi, 1968.* İsmizadə Ö.Ş., Ciddi H. Bakı Qız qalası. Bakı, 1968.

*Ö.Ş.İsmizadə, H.Ciddi, 1973.* İsmizadə Ö.Ş., Ciddi H. Bakı Qız qalası yaxınlığında aşkarlanmış abidə haqqında. // AMM. VII c, Bakı, 1973.

*Ö.Ş.İsmizadə, H.Ciddi, 1976.* İsmizadə Ö.Ş., Ciddi H. Bakı. Qız qalası yaxınlığındakı abidədən tapılan məzar daşları haqqında. // AMM. VIII c, Bakı, 1976.

*K.Kafadaryan, 1952.* Kafadaryan K. Dvin şəhəri və onun qazıntıları. I c. İrəvan, 1952 (erməni dilində).

*K.Kafadaryan, 1982.* Kafadaryan K. Dvin şəhəri və onun qazmtıları. II c, İrəvan, 1982 (erməni dilində).

*B.Kərimov, 2002.* Kərimov B. Azərbaycanda ilk rəsmi dövlət muzeyi. // AA. 2002, № 1-2.

*K.C.Kərimov, 1980.* Kərimov K.C. Azərbaycan miniatürləri. Bakı, 1980.

*K.C.Kərimov və b., 1992.* Kərimov K.C., Əfəndiyev R.C., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan İncəsənəti. Bakı, 1992.

*L.Kərimov, 1961.* Kərimov L. Azərbaycan xalçası. Bakı-Leninqrad, 1961.

*S.Kərimov, 2006.* Kərimov S. Lerik rayonunun arxeoloji abidələri. Bakı, 2006.

*S.Kərimov, 1960.* Kərimzadə S. Diri-Baba türbəsindəki kitabənin bərpasına dair mülahizələr. // Azərbaycan memarlıq abidələrinin bərpası məsələləri. Bakı, 1960.

*S.Kərimzadə, 1969.* Kərimzadə S. Ümumiləşmiş elementlərdən kufi xətti kitabələrin yığılması. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1969, № 3.

*H.P.Kəsəmənli, İ.A.Babayev, 1980.* Kəsəmənli H.P., Babayev İ.A. Cəlilabad rayonundakı Şiləvəngə yaşayış yeri haqqında. // AMM. IX c, Bakı, 1980.

*Kitabi-Dədə Qorqud. 1962.* Kitabi-Dədə Qorqud. Bakı, 1962.

*Kitabi Dədə-Qorqud. 1978.* Kitabi-Dədə Qorqud. Bakı, 1978.

*V.A.Kvaçidze, 1999.* Kvaçidze V.A. Sualtı arxeoloji tədqiqatlar. // AA, 1999, № 1-2.

*E.Qasımov, 2002.* Qasımov E. Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı (IX-XV əsrlər). Bakı, 2002.

*S.M.Qazıyev, 1945.* Qazıyev S.M. 1944-cü ildə Qəbələ rayonunda arxeoloji qazıntıların yekunları. // SSRİ EA Azərbaycan filialının xəbərləri. 1945, № 1.

*S.M.Qazıyev, 1947.* Qazıyev S.M. Vartaşen və Qutqaşen rayonlarında arxeoloji qazıntılar. // Azərbaycan SSR EA 1945-ci il ekspedisiyaları. Bakı, 1947.

*S.M.Qazıyev, 1964.* Qazıyev S.M. Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqatı. // AMM. V c, Bakı, 1964.

*S.M.Qazıyev, 1965.* Qazıyev S.M. Qəbələ ərazisinin qədim dəfn mərasimləri haqqında. // AMM. VI c, Bakı, 1965.

*S.M.Qazıyev, 1965a.* Qazıyev S.M. Qəbələdə aparılmış arxeoloji tədqiqat və qazıntıların ilk yekunları. // AMM. VI c, Bakı, 1965.

*S.M.Qazıyev, İ.A.Babayev, 1967.* Qazıyev S.M., Babayev İ.A. Qəbələ arxeoloji ekspedisiyasının hesabatı (1967-ci il). // AMEA AEİÇTBEA-02.

*F.V.Qədirov, 1965.* Qədirov F.V. Savalan keçidinin bir qrup arxeoloji abidələri haqqında. // AMM. VI c, Bakı, 1965.

*F.V.Qədirov, 1975.* Qədirov F.V. Göyçay dərəsinin qərb tərəfindəki bir qrup arxeoloji abidələr haqqında. // Azərb. EAM., XXXI c, 1975., № 8.

*F.V.Qədirov, 1983.* Qədirov F.V. Qəbələ şəhərində zərgərlik sənətinə dair. // Azərbaycan EA xəbərləri (TFH seriyası). 1983., № 2.

*F.V.Qədirov, 1984.* Qədirov F.V. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı, 1984.

*F.V.Qədirov, 1987.* Qədirov F.V.Qəbələnin ilk orta əsr yollarının arxeoloji tədqiqinə dair. // AMM. X c, Bakı, 1987.

*F.V.Qədirov, 1988.* Qədirov F.V. Kamaltəpədə arxeoloji kəşfiyyat qazıntıların nəticələri. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1988, № 1.

*C.Qiyasi, 1985.* Qiyasi C. Yaxın-uzaq ellərdə. Bakı, 1985

*C.Qiyasi, 1991.* Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, 1991.

*C.Qiyasi, 2002.* Qiyasi C. Təbriz ərk qalası-İslam dünyasının ən böyük mehrabı. // Memarlıq və şəhərsalma. 2002, № 3.

*C.Ə.Qiyasi, F.L.Osmanov, 1980.* Qiyasi C.Ə., Osmanov F.L. Azərbaycan müdafiə tikililərinin iki abidəsi haqqında. // Azərbaycan EA xəbərləri (ƏDİ seriyası). 1980, № 1.

*Q.O.Qoşqarlı, A.İ.Ələkbərov, 1992.* Qoşqarlı Q.O., Ələkbərov A.İ. Cənub-Şərqi Azərbaycanın arxeoloji xəritəsi. // AAEESNKM. Bakı, 1992.

*H.Ə.Quliyev, 1955.* Quliyev H.Ə. Gil saclar haqqında qısa məlumat. // Azərb. SSREAM. IX c, 1955, № 7.

*Ş.A.Quliyev, 1965.* Quliyev Ş.A. Azərbaycanda su quşlarının ovlanması haqqında. // AMM. VI c. Bakı, 1965.

*A.Quliyeva, 1997.* Quliyeva A. Xaraba-Gilanın epiqrafik abidələrinin öyrənilməsinə dair. // Tarix və onun problemləri. 1997, № 2.

*A.Ə.Quluzadə, 2006.* Quluzadə A.Ə. Naxçıvanda İmamzadə. Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri (Ö.Ş.İsmizadənin anadan olmasının 100 illiyinə həsr olunur). Bakı, 2006.

*A.Ə.Quluzadə, R.Ə.Quliyev 2006.* Quluzadə A.Ə., Quliyev R.Ə. Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti Naxçıvan şöbəsinin Naxçıvanın tarixi abidələrinin öyrənilməsində rolu. // AAE. 2006, № 1 .

*M.Mahmudov, 1983.* Mahmudov M. Ərəbcə yazmış Azərbaycan şair və ədibləri VII-XII əsrlərdə. Bakı, 1983.

*E.Məhərrəmov, 1999.* Məhərrəmov E. Talanmış abidələrimiz barədə. // AA. 1999, № 1-2.

*G.Məmmədbəyova-Mehmandarova, 1993.* Məmmədbəyova-Mehmandarova G. Xınalıq... Xınalıq... Xınalıq... // "Qobustan", 1993, № 1-2.

*A.Məmmədov, 1992.* Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə. Bakı, 1992.

*A.Məmmədov, 2000.* Məmmədov A. Samux mahalının tarixi-arxeoloji tədqiqinə dair. Bakı, 2000.

*A.M.Məmmədov və b., 2006.* Məmmədov A.M., Allahverdiyeva S., Abbasova E. Kəlbəcər bölgəsində arxeoloji tədqiqatlara dair. // Tarix və onun problemləri. 2006, № 1.

*A.Məmmədov, S.Eyyubova, 2003.* Məmmədov A, Eyyubova S. Tarixin qan yaddaşı. //AA. 2003, № 1-4.

*A.Məmmədov və b., 2007.* Məmmədov A., Hüseynova S., Rəcəbova M. Orta əsr Ərəş şəhəri. // Tarix və onun problemləri, 2007.

*R.Məmmədov, 1977.* Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Orta əsrlər dövrü. Bakı, 1977.

*V.Ə.Məmmədov, 1992.* Məmmədov V.Ə. Şabranda aşkar edilmiş dəmirçi kürəsi haqqında. // AAEESNKM. Bakı, 1992.

*Mir Heydərzadə, 1930.* Mir Heydərzadə. Əbrəkonus dairəsi məşhur Əlincəçay sahilində vaqe bir neçə kəndlərin və Əlincə qalasının tədqiqi. // Azərbaycanı öyrənmə yolu. 1930, № 4-5.

*V.Muradov, 1983.* Muradov V. Orta əsr Azərbaycan şəhərləri. Bakı, 1983.

*F.M.Muradova, 2004.* Muradova F.M. Avey dağın alban xristian məbədi. // Akademik İqrar Əliyevin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2004.

*F.M.Muradova, C.N.Rüstəmov, 1993.* Muradova F.M., Rüstəmov C.N. Yazılıtəpədə arxeoloji tapıntılar. // AMM. XI c. Bakı, 1993.

*F.M.Muradova, C.N.Rüstəmov, 2005.* Muradova F.M., Rüstəmov C.N. Aşağı Əskiparada alban xristian məbədi. // AAE. 2005, № 2.

*A.N.Mustafayev, 1977.* Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti. Bakı, 1977.

*A.N.Mustafayev, 1999.* Mustafayev A.N. Azərbaycanda sənətkarlıq (tarixi-etnoqrafik tədqiqat). Bakı, 1999.

*N.Ə.Müseyibov, 2002.* Müseyibov N.Ə. Qırxçıraqda arxeoloji tədqiqatlar. // 2002-2001-ci illərdə AETHESM. Tezislər. Bakı, 2002.

*M.Nemət, 1992.* Nemət M. Azərbaycanda pirlər. Bakı, 1992.

*M.Nemət, 2006.* Nemət M. Mingəçevirdə qazıntılar zamanı tapılmış sənduqə haqqında. /'/ Mingəçevir arxeoloji ekspedisiyası-60. Mingəçevir arxeoloji ekspedisiyasının 60 illiyinə həsr edilmiş elmi konfransın materialları. Mingəçevir, 2006.

*M.A.Neymətova, 1987.* Neymətova M.A. Əsrlərin daş yaddaşı. Bakı, 1987.

*İ.H.Nərimanov, C.N.Rüstəmov, 1965.* Nərimanov İ.H., Rüstəmov C.N. Bərdə rayonu Zimirxaç kəndində daş sarkofaq. // AMM. VI c. Bakı, 1965.

*S.Nəsirova, 1977.* Nəsirova S. Bayıl qəsri. Bakı, 1977.

*S.Nəsirova, 1999.* Nəsirova S. Səbailin sirri AA. 1999, № 1-2.

*Nizami Gancəvi, 1941.* Nizami Gəncəvi. İskəndərnamə. Bakı, 1941.

*Ə.İ.Novruzlu, 1997.* Novruzlu Ə.İ. Azərbaycanın orta əsr sənətkarlığı (XIV-XVII əsrlər). Bakı, 1997.

*Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1992.* Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı, 1992.

*Ə.İ.Novruzlu, V.B.Baxşəlivev, 1993.* Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı, 1993.

*Ə.İ.Novruzlu, V.B.Baxşəliyev, 1993a.* Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı, 1993.

*Ə.İ.Novruzlu, A.B.Nuriyev, 2002.* Novruzlu Ə.İ., Nuriyev A.B. Xaraba şəhər. Azərbaycanın yeni tikinti sahələrində arxeoloji tədqiqatlar. I c, Bakı, 2002.

*A.B.Nuriyev, 1965.* Nuriyev A.B. Gümüşlü yaşayış yeri haqqında ilk məlumat. // AMM, VI c, Bakı, 1965.

*A.B.Nuriyev, 2002.* Nuriyev A.B.Azərbaycanın orta əsr şəhəri Ərəş. // 2000-2001-ci illərdə AETHESM. Tezislər. Bakı, 2002.

*A.Nuriyev, A.Babayev, 2001.* Nuriyev A., Babayev A. Bərdə. Bakı, 2001.

*A.B.Nuriyev, Ə.H.Babayev, 2003.* Nuriyev A.B., Babayev Ə.H. Bilgəhdən aşkar edilmiş nadir şüşə məmulatı nümunələri. // AAE. 2003, № 2.

*S.M.Onullahi, 1982.* Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Bakı, 1982.

*S.M.Onullahi, 1994.* Onullahi S.M. Şindan qalasının tarixinə dair bəzi mülahizələr. // Azərbaycan EA Xəbərləri (TFH seriyası). 1994, № 1-4.

*S.M.Onullahi, A.T.Həsənov, 1971.* Onullahi S.M., Həsənov A.T. Rəbi Rəşidi və onun tarixi əhəmiyyəti. // ADU-nun elmi əsərləri (şərqşünaslıq seriyası). 1971, №1.

*A.Ş.Orucov, 1976.* Orucov A.Ş. Quba rayonunda kustar dulusçuluq sənəti haqqında. // AMM. VIII c, Bakı, 1976.

*F.L.Osmanov, 1962.* Osmanov F.L. Qəbələdə bağçılığın inkişafına dair. // Azərb. SSR EAM. XVIII c, 1962., № 2.

*F.L.Osmanov, 1963.* Osmanov F.L. Qəbələdən tapılmış şüşə bilərzikləri haqqında. // Azərb.SSR EA məruzələri. XIX c, 1963, № 1.

*F.L.Osmanov, 1964.* Osmanov F.L. Qəbələnin şüşə məmulatı. // AMM. V c, Bakı, 1964.

*F.L.Osmanov, 1966.* Osmanov F.L. Qəbələnin metal məmulatı haqqında. // ATM. Bakı, 1966.

*F.L.Osmanov, 1972.* Osmanov F.L. İsmayıllı rayonunun bəzi orta əsr abidələri haqqında. // Azərb.SSR EA xəbərləri (TFH seriyası). 1972, № 3.

*F.L.Osmanov, 2006.* Osmanov F.L. Ağsu ərazisində arxeoloji tədqiqatlar. Bakı, 2006.

*V.Piriyev, 2003.* Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.

*H.X.Ramazanov, 1991.* Ramazanov H.X. 1990-cı ildə Qəbələnin Qala hissəsindən tapılmış fayans nümunələri. // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı, 1991.

*H.X.Ramazanlı, 1997.* Ramazanlı H.X. Şərqin fayans istehsalında Bakının yeri. // Azərbaycanın çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu. Bakı, 1997.

*HX.Ramazanlı, 2001.* Ramazanlı H.X. Şimali Azərbaycanda fayans xammal mənbələri və texnoloji amillər. // Elmi axtarışlar. V toplu. Bakı, 2001.

*H.Ramazanlı, 2006.* Ramazanlı H. Eneolit-orta əsrlərdə Şimali Azərbaycanda fayans qablar mədəniyyəti. Bakı, 2006.

*Ə.Rəcəbli və b., 2004.* Rəcəbli Ə., Ələsgərova Z., Mustafayeva M. Ağdam gümüş sikkələri dəfinəsi və Azərbaycan-Qərbi Avropa qarşılıqlı əlaqələrinə dair. // ATM. Bakı, 2004.

*B.Ə.Rəcəbova, 2000.* Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı, 2000.

*T.Rəsuloğlu, 1994.* Rəsuloğlu T. Govurarxboyu arxeoloji abidələr. // S.M.Qazıyevin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 1994.

*N.Rzayev, 1973.* Rzayev N. Sərifan kəndindəki memarlıq abidələri haqqında. // AMM. VII c. Bakı, 1973.

*Ə.V.Salamzadə, 1976.* Salamzadə Ə.V. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı, 1976.

*Ə.V.Salamzadə, 1977.* Salamzadə Ə.V. Azərbaycan İncəsənəti. Bakı, 1977.

*Ə.V.Salamzadə, H.Ə.Ciddi, 1973.* Salamzadə Ə.V., Ciddi H.Ə. Şamaxının orta əsr şəhərsalma quruluşu və qala divarı haqqında. // Azərb. SSR EA xəbərləri (TFH seriyası). 1973, № 1.

*Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1979.* Salamzadə Ə.V., Məmmədzadə K.M. Arazboyu abidələr. Bakı, 1979.

*Ə.V.Salamzadə, K.M.Məmmədzadə, 1985.* Salamzadə Ə.V., Məmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı, 1985.

*A.Q.Seyidov və b., 1995.* Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.İ., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı, 1995.

*A.Q.Seyidov, V.B.Baxşəliyev, 2002.* Seyidov A.Q., Baxşəliyev V.B. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı, 2002.

*M.X.Şərifli, 1978.* Şərifli M.X. IX əsrin ikinci yarısı-IX əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.

*Tusi Nəsrəddin, 1984.* Tusi Nəsrəddin. Tənsiqnameyi-elxani (Cavahirnamə). Bakı, 1984.

*R.M.Vahidov, 1957.* Vahidov R.M. Mingəçevirin orta əsr yaşayış yerləri. // Azərb. SSR EA TİƏ, XI c, Bakı, 1957.

*R.M.Vahidov, 1961.* Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.

*R.M.Vahidov, 1965.* Vahidov R.M. Govurqalada arxeoloji qazıntılar. // AMM, IVc, Bakı, 1965.

*R.M. Vahidov, 1965a.* Vahidov R.M. Torpaqqalada arxeoloji qazıntı işlərinin ilk yekunları. // AMM. VI c, Bakı, 1965.

*R.M.Vahidov, NM.Quliyev, 1993.* Vahidov R.M., Quliyev N.M. Torpaqqala və onun tarixi-arxeoloji tədqiqinin ilk nəticələri. // AMM. XI c, Bakı, 1993.

*N.M.Vəlixanlı, 1974.* Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974.

*N.M.Vəlixanlı, 1993.* Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.

### İngilis, alman və fransız dillərində

